



# TÜRK XALQLARININ TARİXİ (XVII-XIX ƏSR)



**Saidə İsmayılzadə**

# TÜRK XALQLARI TARİXİ

## (XVII - XIX ƏSRLƏR)

*Ali məktəblər üçün dərs vəsaiti*

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin Gəncə Dövlət Universitetinin 15 yanvar 2020-ci il tarixli 5/06 saylı əmri ilə çapa məsləhət görülmüşdür.*

**"Elm və təhsil"**
**Bakı – 2021**

**Elmi redaktor:** **Əsməd Muxtarova**
*Bakı Dövlət Universitetinin*
*Türk xalqları tarixi kafedrasının*
*müdiri, professoru, tarix elmlər doktoru*

**Rəyçilər:** **Vüsalə Veysəlova**
*Gəncə Dövlət Universitetinin*
*Ümumi tarix kafedrasının müdiri,*
*dosenti, tarix üzrə fəlsəfə doktoru*

**Sevinc Ruintən**
*Bakı Dövlət Universitetinin*
*Türk xalqları tarixi kafedrasının*
*dosenti, tarix üzrə fəlsəfə doktoru*

**Rəşid Məhərrəmov**
*Gəncə Dövlət Universitetinin*
*Ümumi tarix kafedrasının dosenti,*
*tarix üzrə fəlsəfə doktoru*

**Elmir Cəfərov**
*Azərbaycan Texnologiya Universitetinin*
*dosenti, tarix üzrə fəlsəfə doktoru*

**Saidə İsmayılzadə. Türk xalqlari tarixi (XVII - XIX əsrlər).**
*Ali məktəblər üçün dərs vəsaiti*
Bakı, "Elm və təhsil", 2021, 428 səh.

Dərs vəsaiti Türk xalqlarının yeni dövrdə etnogenez və milli təkamül prosesindən, müstəmləkə zülmünə qarşı mübarizəsindən, ictimai, iqtisadi, siyasi və mədəniyyət məsələlərindən bəhs olunur.

Dərs vəsaiti tarix müəllimləri, ali məktəb tələbələri, magistrlər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

4603000000 / N-98-2021 qrifli nəşr

**© "Elm və təhsil", 2021**

**DOI: https://doi.org/10.36719/2021/428**

# MÜNDƏRİCAT

**Ön söz** ....................................................................................................4

**GİRİŞ**........................................................................................................6

Türk xalqlarının yeni dövr tarixinin aktual məsələləri..........................8

**I FƏSİL**.
**Şimali Qafqaz türk xalqları XVII-XIX əsrlərdə**.................................24

§ 1. Kalmıklar (Oyratlar) XVII - XIX əsrlərdə.......................................62
§ 2. Volqaboyu türk xalqları XVII - XIX əsrlərdə...............................102
§ 3. Başqırdlar XVII - XIX əsrlərdə.....................................................145
§ 4. Sibirin Türk xalqları XVII - XIX əsrlərdə.....................................177

**II FƏSİL.**
**Şərqi Türküstan XVII - XIX əsrlərdə.Şərqi Türküstanın Çin tərəfindən işğal edilməsi**.......................................................................218

§ 1. Krım türkləri XVII - XIX əsrlərdə.................................................240
§ 2. Qazax xanlığı XVII - XIX əsrlərdə.................................................278
§ 3. Buxara xanlığı XVII - XIX əsrlərdə................................................303
§ 4. Xivə xanlığı XVII - XIX əsrlərdə....................................................325
§ 5. Kokand xanlığı XVII - XIX əsrlərdə..............................................343
§ 6. Mərkəzi Asiya xalqlarının mədəniyyəti.......................................365
**NƏTİCƏ**.................................................................................................379
**İstifadə edilmiş ədəbiyyatların siyahısı**...........................................381

## ÖN SÖZ

Dərs vəsaiti yeni dövrdə türk xalqlarının inkişafı problemlərinə həsr olunmuşdur. Vəsaitdə keçmiş SSRİ ərazisində, o cümlədən Çində yaşayan türk xalqlarının XVII –XIX əsrlərin birinci yarısındakı tarixi izlənilmiş və mümkün olduğu qədər tələbələrə həmin dövrdə türk xalqlarının keçdikləri keşməkeşli, əzablı, eyni zamanda zəngin tarixi yol haqqında dolğun məlumatlar çatdırılmışdır.

XVII –XIX əsrlərdə türk xalqlarının tarixində mühüm mərhələ hesab edilməlidir. Belə ki, bu dövrdə türk xalqlarının bir hissəsi Rusiya imperiyasının tərkibinə daxil edilmiş, Şərqi Türküstan ərazisində yaşayan türk xalqları isə Çində hakimiyyətdə olan Tszin sülaləsi tərəfindən işğala və bəzi yerlərdə isə soyqırıma məruz qalmışdır. Rusiya hakim dairələri türk xalqlarının müqavimətini qırmaq üçün, onları müxtəlif formalarda etnik ayrıseçkiliyə məruz qoymuş, eyni zamanda onları assimilyasiya etməyə çalışmış, xristianlığın yayılması,inzibati idarəçiliyin dəyişdirilməsi,türk xalqlarının məskunlaşdığı ərazilərə başqa xalqların köçürülməsi yolu ilə onların doğma dillərini, mədəniyyətlərini, dinlərini unutmaları üçün müxtəlif vasitələrə əl atmışlar. Lakin bütün siyasi, etnik və inzibati təzyiqlərə baxmayaraq Rusiya hakimiyyəti altında olan xalqlar öz mövcudluqlarını qoruyub saxlaya bilmiş, eyni zamanda müəyyən iqtisadi, ictimai, sosial və siyasi göstəricilərə də nail olmuşlar.

XIX əsrin əvvəllərində Rusiyada kapitalist münasibətlərinin inkişafı onun tərkibində olan başqa xalqların, o cümlədən türk xalqlarının inkişafında da yeni mərhələnin başlanmasına gətirib çıxarmışdır. Bu da türk xalqlarının vahid Ümumrusiya bazarına çıxmasına, eyni zamanda milli burjua sinfinin meydana gəlməsinə, türk xalqlarında son nəticədə öz tarixinə, mədəniyyətinə qayıdışa, milli dövlətçilik ideyalarının yenidən rəvac tapmasına gətirib çıxarmışdır.

Dərs vəsaitində türk xalqlarının XVII –XIX əsrlərdə müstəmləkə zülmünə qarşı mübarizəsi, onların tədqiq olunan dövrdəki mədəniyyət məsələləri öz əksini tapmışdır. Vəsaitdə eyni zamanda Çinin türk xalqlarına qarşı apardığı müstəmləkəçilik siyasətinə dair xüsusi başlıq ayrılmışdır. Bu hazırkı dövrdə Çində Sintszyan vilayətində yaşayan türklərə qarşı açıq və amansız şəkildə aparılan etnik təmizləmə siyasəti haqqında tələbələrə doğru məlumatların çatdırılması zərurətindən irəli gəlir.

Dərs vəsaiti Azərbaycanda fəaliyyət göstərən universitetlərin tarix ixtisasında bakalavr pilləsində təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur.

# GİRİŞ

Türk xalqları tarixinin yeni dövrü bu xalqların etnogenez və milli təkamül prosesində mühüm yerlərdən birini əhatə edir. Bu dövr Türk xalqlarının tarixi bir neçə cəhətlə xarakterizə oluna bilər. Bunlardan başlıcası Türk xalqlarının tarixində müstəmləkə ağalığına qarşı mübarizə dövrüdür. Osmanlı imperiyası istisna olmaqla Türk xalqlarının əksər hissəsi Rusiya tərəfindən, Şərqi Türküstan, Qaşqar əraziləri isə Çin tərəfindən işğal edilmişdir. Çin və Rusiya dövlətlərinin hakimiyyəti müxtəlif formalarda irqi ayrıseçkilik, türk xalqlarının adət və ənənələrinin unutdurulması, dinlərinin əllərindən alınması şəklində təzahür edirdi. Rusiyada bu daha çox dini ayrı seçkilik, xırda xalqların türklərin üzərinə qaldırılması, yerli xalqlar arasında tayfa və milli ayrıseçkiliyin qızışdırılması, türk xalqlarının mədəniyyətinin, elminin açıq diskriminasiyası siyasətinin həyata keçirilməsi ilə müşayiət edilir, Çində isə bu müstəmləkəçilik açıq təqibetmə, bəzən də soyqrım formasında həyata keçirilirdi. Bütün bu şərtlər türk xalqlarının tarixində yeni bir dönəmin başlanmasına səbəb oldu. Bunlar aşağıdakılardan ibarət idi:

1. Rusiya tərkibində olan türk xalqlarında kapitalist münasibətlərinin meydana gəlməsi prosesi baş verdi. Bəzi xalqlarda bu sürətli, bəzi xalqlarda bir az daha ləng getsə də hər iki halda bu proses türk xalqlarının inkişafında yeni tendensiyanın meydana gəlməsinə səbəb oldu.

2. Milli azadlıq hərəkatının yüksəlməsi. Bu da türk xalqlarında milli şüurun yüksəlişinə, milli - mənəvi də-

yərlərin öyrənilməsinin aktuallaşmasına, öz tarixlərinə qayıdış təmayüllərinin artmasına şərait yaratdı. Bundan başqa türk xalqlarında milli təfəkkürə malik olan ziyalıların yetişməsi, türk xalqlarında maarifin, təhsilin, milli mətbuatın yaranması, bir sözlə türk xalqları tarixində tam yeni bir inkişaf meyllərinin meydana gəlməsi baş verdi.

3. Milli dövlətçilik uğrunda mübarizənin güclənməsi. Yəni milli - azadlıq hərəkatı artıq milli dövlətçilik ideyaları ilə müşayiət edilirdi. Bu isə türk xalqlarında öz tarixlərinə, milli maarif məsələlərinə və milli mədəniyyətə yeni bir yanaşmanın ortaya çıxmasına gətirdi. Bəzi xalqlarda milli burjuaziyanın meydana gəlməsi və sürətli inkişafı isə bu tendensiyanın daha da güclənməsi ilə müşayiət olundu.

4. Türklərin tayfa ittifaqları sistemindən çıxaraq millətlər şəklində formalaşması prosesinin güclənməsi. Buna misal olaraq Azərbaycanı, Şimali Qafqaz və Sibir xalqlarını göstərmək olar. Ayrı - ayrı tayfaların yerini tədricən başqırd, qazax, özbək, qırğız, qaraçay, kumık, xakas kimi millətlər tutmağa başladılar. Tayfa mədəniyyətləri vahid milli mədəniyyətlərə doğru təkamül etməyə başladı.

Məhz bu baxımdan türk xalqlarının yeni dövr tarixinin öyrənilməsi çox böyük aktuallıq kəsb edir. Çünki bu dövrün aparıcı xüsusiyyətlərinin araşdırılması, həmin dövrə tarixi baxımdan düzgün qiymət verilməsi müasir dövrdə də türk xalqlarının həyatında bir sıra hadisələrə düzgün yanaşmağa kömək edir.

## TÜRK XALQLARININ YENİ DÖVR TARİXİNİN AKTUAL MƏSƏLƏLƏRİ

Türk xalqları tarixinin öyrənilməsi daima tarixçilərin diqqət mərkəzində olmuşdur. İlk olaraq Avropalıların Şərq ölkələrinə maraqları Səlib yürüşləri ilə bağlı olmuşdur. 1142- ci ildə Müqəddəs Pyotrun rəhbərliyi altında Quran latın dilinə tərcümə edilmişdir. Buna baxmayaraq Qərbi Avropa ölkələri müsəlmanlara qarşı daima Şərqdə müttəfiq axtarşında idilər. Türk dövlətlərinə göndərilən ilk səfirliklərdən birinə Plano Karpini rəhbərlik edirdi. O, Şərqi Avropada, Qara dənizin şimal sahillərində məskən salmış türk tayfalarının yanında olmuş və onların məişətinin, bir az da tarixinin şərhini verən ilk avropalı idi. Məhz bundan sonra türk dövlətləri başqa səfirlərin də diqqət mərkəzində olmuşdur. XIII əsrin ortalarında Monqol imperiyası sarayında olmuş Andre de Lonjumo, ondan üç dörd il sonra Mərkəzi Asiyada olmuş Vilhelm Rubruk və başqalarının şəxsi müşahidələri əsasında türklər haqqında xeyli məlumatları mövcuddur. Lakin hələ Səlib yürüşləri ərəfəsində Qərbi Avropa xalqları arasında yayılan "Müqəddəs İohann" haqqında əfsanə avropalıların türklər haqqında hələ qədimdən məlumatlı olduqlarını sübut edir.

Lakin türk xalqları tarixinin öyrənilməsinə maraq Osmanlı imperiyasının meydana gəlməsi və Avropa ölkələrinə basqınları ilə yenidən artmışdı. Qərbi Avropada türk xalqlarının tarixinin öyrənilməsinə XVI əsrdən yenidən başlanmış, lakin tədqiqatlar və qeydlər əsasən Os-

manlı imperiyasının təsviri, oradakı siyasi intriqaların öyrənilməsi və Qərbi Avropa krallarının saraylarına mühüm məlumatların göndərilməsi ilə məhdudlaşmışdır. 1627- ci ildə Papa VIII Urban Şərqdə missionerlik fəaliyyətini fəallaşdırmaq üçün xristianlığın təbliğatı və yayılması mərkəzini yaratmışdı. Həmin orqanın əli ilə şərqə müxtəlif missionerlər—F. Jerbiyon, K. Vinsdelu, A. Hobila, M. Mayya, o cümlədən J. Düqald və tarixçi J. de Gin Çində olmuş və Çin mənbələrini toplayıb araşdıraraq Sinologiyanın yaranmasına təkan vermişlər. Bunlardan Jerbiyon "Tatarıstan", ondan sonra Çinə gələn Vinsdelu isə "Tatarıstan tarixi" əsərini yazmışdır. Başqa bir missioner Hobila mühüm tarixi mənbə olan "Yuan Şini" tərcümə etmişdi. Bundan başqa onun "Çingiz xanın və onun varislərinin tarixi " əsəri də məşhurdur.

Başqa türk xalqlarının məişətinin, tarixinin öyrənilməsinə isə XVIII əsrin ortalarında Fransada başlanılmış və bunu ilk dəfə edən J. de Gin olmuşdur.1756- cı ildə onun "Hunların,türklərin, monqolların ümumi tarixi" əsəri Fransada işıq üzü görmüşdür. Lakin de Gin Çin mənbələrinin dəqiq təsvirini verməmiş, onları tam tərcümə etməmişdir. Ümumiyyətlə, de Ginin əsərləri Qərbi Avropada türk xalqlarının tarixinin öyrənilməsində təkan rolu oynamışdır. De Ginin əsərində hunlar, monqollar, teymurilər və nəhayət özbəklərin tarixi xronoloji ardıcıllıqla verilmişdi.

İlk dəfə türk tarixini ərəb və fars mənbələrinin əsasında öyrənən F. Peti olmuşdur. 1710- cu ildə ərəb və fars

mənbələrinin öyrənilməsinin əsasında Petinin "Çingiz xanın imperiyası" əsəri işıq üzü görmüşdür.

1729- cu ildə Fransada ilk dəfə olaraq Mərkəzi Asiya türklərinin, XVIII əsrin 50- ci illərində isə Şərqi Avropa və Qafqaz ərazilərində yaşayan türk xalqlarının xəritəsi nəşr edilmişdir. Xəritə bəzi çatışmazlıqlara baxmayaraq, hələ də fundamental tarixi mənbə kimi qiymətləndirilir.

1788-1790- cı illərdə Fransada yaşayan Osmanlı erməni̇si D. Ossonun "Osmanlı dövlətinin tarixi"əsəri çapdan çıxmışdı. Çoxlu sayda mənbəyə istinad edən kitab Fransa tarixçiləri tərəfindən zamanında yüksək qiymətləndirilmişdi.

Türk xalqlarının öyrənilməsinə Rusiyada da erkən dövrlərdən başlanılmışdır. Belə ki, hələ erkən orta əsrlərdə Rus dövləti ilə türk xalqları arasında siyasi münasibətlərin gah gərgin, gah da qarşılıqlı əlaqələr şəklində davam etməsinə baxmayaraq peçeneqlər, qıpçaqlar, torklar, quzlar və digər türk xalqları ilə yaxın ünsiyyət onların tarixi haqqında erkən rus salnamə ədəbiyyatında qiymətli məlumatların meydana gəlməsinə səbəb olmuşdur. Türk xalqları haqqında erkən mühüm məlumatlara Nestorun "Ötən illər haqqında dastan" əsərində rast gəlmək mümkündür. Bundan sonra Rusiyanın ən geniş salnamə külliyyatlarından biri olan "İpatyev salnaməsi" də türk xalqları ilə Rusiyanın siyasi əlaqələrini geniş şəkildə və mərhələli formada işıqlandırmışdıran mənbələrdən hesab olunur.

Lakin Rusiyada da türk xalqlarının tarixinin konseptual öyrənilməsinə XVI əsrdən başlanılmışdır. Ancaq Rusiyada bu məsələ daha dərindən və əsaslı şəkildə həyata keçirilmişdir. Bunun da səbəbi aşağıdakılardır:

1. Türk xalqları ilə yaxın ünsiuyyətin olması və Rusiyanın bütün tarixində onların mühüm yer tutması. Bunları nəzərə alan Rusiya hakim dairələri türk xalqlarının öyrənilməsinə mühüm əhəmiyyət verirdilər.
2. XVI əsrdən başlayaraq Rusiya öz sərhədlərini genişləndirmək siyasətini yeritməyə başladı. Bu siyasətin ağırlıq mərkəzi, məhz Şimali Qafqazdan Mərkəzi Asiya daxil olmaqla, Çinin şərq sərhədlərinə qədər böyük bir ərazidə məskunlaşan və buradakı xalqları öz hakimiyyəti altında saxlayan türk xalqlarının üzərinə düşürdü. Buna görə də Rusiya hakim dairələri həmin xalqların etnoqrafiyasının xüsusiyyətlərini, şifahi və yazılı ədəbiyyatının tarixi haqqında mühüm məlumatlar toplamağa çalışırdılar.
3. Rusiyanın siyasi cəhətdən genişlənməsi Rusiya ilə Şərqin başqa bir böyük dövləti olan Osmanlı imperiyası arasında siyasi münasibətlərin yaranmasına və gərginləşməsinə səbəb oldu. Bu da XVI əsrin 60- cı illərindən başlayaraq XX əsrin ikinci yarısında qədərki dövrü əhatə edən Osmanlı Rusiya qarşıdurmasına səbəb oldu. Ona görə də Rusiya həmişə türk xalqlarının tarixinin öyrənilməsində maraqlı olmuşdu.

Rusiya alimlərinin türk xalqlarının tarixinə yanaşmasının bir sıra özünəməxsus cəhətləri var idi. Birincisi, türk xalqlarının əksəriyyətinin bu ərazilərdə yaşaması

Rusiya alimlərinin tədqiqatlarını daha da asanlaşdırırdı. İkincisi, Rusiya imperiyasının təxminən türk xalqlarının dövlətlərinin meydana gəldiyi coğrafi, tarixi, etnoqrafik arealda meydana gəlməsi idi. Bu da alimlərə öyrəndikləri xalqları az qala özlərinki kimi qavramağa imkan verirdi. Təsadüfi deyil ki, müxtəlif ideoloji təsirlərə, siyasi hakimiyyətin dəyişməsindən asılı olaraq türk xalqlarının tarixinin öyrənilməsində müxtəlif əyintilərə baxmayaraq, Rusiyada türkologiya elmi həmişə mühüm irəliləyişlərə imza atmış və böyük alimlər yetişdirmişdir. Üçüncüsü, türk xalqları keçmiş Rusiya imperiyası, SSRİ və indiki Rusiya Federasiyası hakim dairələrinin daxili və xarici siyasətinin əsas ünsürünü təşkil etmiş və etməkdə də davam edir. Buna görə də türk xalqlarının tarixi yenə də Rusiya alimlərinin tədqiqatlarının mərkəzini təşkil edir.

Türk xalqlarının tarixinin yeni dövrünə maraq Azərbaycan tarixşünaslığında da mühüm yür tutur. Bu sahədə ilk təşəbbüslərin müəllifi kimi Azərbaycan alimləri içərisində Əsməd Muxtarovanın və Nisbət Mehdiyevanın adlarını xüsusilə qeyd etmək lazımdır. Ancaq bu sahə Azərbaycan tarixşünaslığında olduğu kimi, türk xalqlarının tarixini araşdıran digər ölkələrdə də yeni formalaşır . Belə ki, dünyada və Rusiyada fəaliyyət göstərən alimlərin əksəriyyəti əsas diqqəti türklərin qədim və orta əsr tarixlərinin öyrənilməsinə yönəldikləri üçün yeni dövrün araşdırılması xeyli geridə qalmışdır. Rusiyada türk xalqlarının yeni dövrünün öyrənilməsi daha çox onların bu ölkənin tərkibində olması faktoru ilə məhdudlaşmışdır. Məsələn, Şimali Qafqazın türk xalqlarının tarixi

haqqında elmi monoqrafiyaların sayı çox azdır. Onlar əsas etibarı ilə tərkibinə daxil olduqları Dağıstan Muxtar Respublikası və başqa muxtar respublikaların cəmiyyətlərinin tərkib hissəsi kimi araşdırılmışdır. Yəni Şimali Qafqaz ərazisində məskunlaşan qaraçaylar, balkarlar (malkarlar), kumıklar, koqaylar və başqa türk xalqları haqqında xüsusi tədqiqatların sayı olduqca azdır. Onlar haqqında ya ümumi şəkildə muxtar respublikaların tarixi, ya da Şimali Qafqaz regionu haqqında yazılarda bəhs olunur. Belə demək mümkünsə bəzən isə ümumi hadisələrin fonunda onların tarixi,"itirilmişdir". 1988- ci ildə nəşr edilən Naroçnitskinin redaktəsi altında "Şimali Qafqaz xalqlarının tarixi", yaxud da 1987- ci ildə nəşr edilən iki cildlik "Dağıstan tarixi" adlı kitabları nümunə göstərə bilərik. Həmin kitablarda Şimali Qafqaz xalqları kabardinlər, adıgeylər, çeçenlər, abazinlər, ləzgilər, laklar, diqoylar haqqında məlumatlar çoxluq təşkil etsə də, bu ərazilərin çoxsaylı millətlərindən olan kumıklar, qaraçaylar, noqaylar, balkarlar haqqında məlumatlar təəəssüf ki, çox azdır. Halbuki, XVII əsrin sonu-XX əsrin əvvəllərində həmin ərazilərin çoxu məhz türk xalqlarının siyasi və etnik təsiri altında idi. Bunu həmin dövrlərdə olan Qərbi Avropa və Rusiya səyyahları və tədqiqatçıları da təsdiq edirlər.

Müxtəlif illərdə nəşr edilən "Kumık xalqının tarixi", "Qaraçay balkarlarının tarixi və etnogenezi", "Noqay ordasının tarixi", "Noqaylar", "Krım tarixi" kimi monoqrafiyalar isə yalnız siyasi məsələləri, yəni Osmanlı Rusiya müharibələri, Nadir şahın Şimali Qafqaza səfərləri, Rusi-

yanın bu əraziləri sahiblənməsi və bu ərazilərdə aparılan inzibati-siyasi dəyişiklikləri təsvir etməklə kifayətlənmişlər. Müasir dövrdə Şimali Qafqazın türk tarixçiləri arasında öz xalqlarının tarixinin öyrənilməsinə xeyli maraq yaranmışdır. Lakin türk xalqlarının tarixinin öyrənilməsi problem olaraq öz aktuallığını qoruyur . Çünki SSRİ-nin dağılması Rusiyanın milli ucqarlarında , xüsusilə də Şimali Qafqazda milli azadlıq düşüncələrinin sürətlə inkişafına təkan vermişdir.Təəsüflər olsun ki, milli kökə qayıdış prosesi öz növbəsində hər bir xalqın öz tarixinə, keçmişinə marağını artırmaqla bərabər, yeni dövrün hadisələrinin arxa planda qalmasına səbəb oldu.

Türk tarixçiləri arasında diqqəti başlıca olaraq qədim və orta əsrlər dövrünə vermələrinin daha mühüm səbəbləri də vardır. Birincisi, SSRİ parçalandıqdan sonra bir çox Şimali Qafqaz tarixçiləri öz xalqlarının tarixini daha da qədimləşdirməyə və onların bu coğrafi ərazilərdə yaşayan yerli, xalqlarından biri olmasını sübut etməyə çalışırlar. Buna görə də Şimali Qafqazın türk xalqlarının tarixinin yeni dövrünün öyrənilməsində hələ də boşluqlar mövcuddur. Halbuki, Şimali Qafqaz xalqlarının tarixinin bir çox qaranlıq məsələlərinə aydınlıq gətirmək üçün yeni dövrün tarixinin də öyrənilməsinin xüsusi əhəmiyyəti vardır. Belə ki, XIX-XX əsrin əvvəllərində Şimali Qafqazda yaşayan bir sıra xalqların adları rəsmi şəkildə dəyişikliyə uğramışdır. Əvvəllər rus mənbələrində alanlar kimi adı keçən qaraçayların adlarının dəyişməsi buna bariz nümunədir. Müasir tarixi ədəbiyyatlarda isə alanların soy-kökü barəsində elmi mübahisələrin ardı-arası kəsilmir.

Türk xalqlarının yeni dövrünün öyrənilməsi məsələsi Mərkəzi Asiya respublikalarında da təxminən eyni vəziyyətdədir. Lakin onu da qeyd edək ki, həmin respublikalarda Şimali Qafqazdakı türk xalqlarının tarixinin araşdırılması sahəsində nisbətən xeyli iş görülmüşdür. Qazaxıstan Respublikasında aparılan elmi tədqiqatları görülən mühüm işlərdən biri hesab etmək olar. Böyük uğurlara imza atan Rustan Rahmanaliyev, Gülnisa Aynakulova və sair kimi alimlərin adlarını xüsusilə qeyd etmək istərdik. Lakin Mərkəzi Asiya respublikalarının türk xalqlarının tarixinin araşdırılması sahəsindəki boşluqları çoxdur. Təəssüflər olsun ki, bu ölkələrdə də əsas diqqət qədim və orta əsr türk dövlətlərinin tarixinin öyrənilməsinə yönəldilib. Yeni dövr tarixi isə tədqiqatdan kənarda qalıb. Yeni dövr haqqındakı məlumatlar ümumi şəkildə dərsliklərin içərisində ayrıca bölmələr şəklində verilmişdir. Məsələn, Buxara, Xivə və Kokand xanlıqlarının haqqında ayrıca monoqrafiyaların sayı həddindən artıq azdır. Bu isə həmin xalqların tarixinin araşdırılmasında və şərh edilməsində böyük çətinliklər yaradır. Təəsüflər olsun ki, yeni yazılmış əsərlər içərisində 2009-cu ildə Özbəkistan Elmlər Akademiyasının nəşr etdirdiyi "Özbək xalqının tarixi" əsərində də Buxara, Xivə və Kokand xanlıqlarının, Daşkənd əmirliyinin tarixinə yalnız bir neçə səhifə ayrılmışdır.

Rusiyanın tərkibində olan xalqlardan yakutlar, başqırdlar, buryatlar, Volqaboyu xalqlar və Krım tatarlarının tarixi daha mükəmməl araşdırılmışdır. Buna dörd clddən ibarət "Tatar xalqının tarixi", "Başqırdıstan tari-

xi" kimi mühüm kitabları misal göstərmək olar. Lakin bu xalqların da yeni dövr tarixinə dair olan bir çox məqamlar kölgədə qalmışdır. XVII-XIX əsrlərdə Sibir xalqlarının etnogenez məsələləri, çar Rusiyasına qarşı milli azadlıq mübarizəsi, XX əsrin əvvəllərindən başlayaraq həmin xalqlarda milli ideyaların formalaşması məsələləri tarixi ədəbiyyatlarda çox az əksini tapmışdır. Yuxarıda göstərilən problemlərin işlənməsi daha çox Qazan və Krım tatarlarının alimlərinə və tədqiqatçılarına məxsusdur.

Türk xalqları tarixinin yeni dövr mərhələsinin "Yeni dövr" anlamının özü belə hazırda müzakirə mövzusu olaraq keçməkdədir. Çünki "Yeni dövr" ifadəsi Qərbi Avropa tarixçiləri tərəfindən elmdə təmamilə ayrı bir mənada istifadə edilmişdir.

"Yeni dövr" anlayışı ilk dəfə olaraq tarixşünaslığa XVII əsrin II yarısında Hall Universitetinin professoru Xristian Tsellarius tərəfindən gətirilmişdir.O,"Yeni dövr" anlayışı altında Qərbi Avropada cərəyan edən yeni ictimai-siyasi prosesləri və hadisələri-kilsənin hakimiyyətinin tədricən zəifləməsini, dünyəvi elmlərin inkişafı, insani dəyərlərin artması, iqtisadi cəhətdən Avropanın yeni münasibətlərə, kapitalist münasibətlərinə qədəm qoymasını, mədəni cəhətdən Avropada insan yaradıcılığına əhəmiyyət verilməsini, baş verən yeni dirçəliş proseslərini nəzərdə tutmuşdu. O vaxtdan da bəri "Yeni dövr"anlayışı tarixşünaslıq ənənəsinə daxil olmuşdur. İlk olaraq bu termini Qərbi Avropa humanistləri istifadə etmiş və ona daha çox mədəni mahiyyət vermişdilər. Lakin XVIII əsrdən başlayaraq Yeni Dövr termini daha çox siyasi, so-

sial və iqtisadi əhəmiyyət kəsb etməyə başladı. İngiltərədə bu termin altında yeni bir dövlətçilik, yəni hüquqi dövlətçiliyin yetişməsi nəzərdə tutulurdu. Buna görə də "Yeni dövr" dedikdə onun başlanğıc tarixi kimi İngiltərədə 1688- ci ilin "şanlı inqilabını", yəni II Yakov Stüartın devrilməsini yerində İngiltərədə konstitusiyalı monarxiyanın yaranmasını nəzərdə tutulurdu.Fransada isə "Yeni dövr" burjua inqilabından, yəni monarxiyanın devrilməsi və respublika düşüncəsinin yaranmasından başlanırdı.

Sovet tarixşünaslığında "Yeni dövr" dedikdə daha çox Avropada kapitalist və yeni istehsal münasibətlərinin yaranması prosesi nəzərdə tutulurdu. Bəzi ölkələrdə isə yeni dövrün başlanğıcı kimi Fransa inqilabı götürülür, bəzi tarixşünaslar isə hətta Niderland burjua inqilabına qədər irəli gedirlər.

Qərbi Avropa tarixşünaslıq ənənəsində Yeni dövrün başlanğıcı olaraq Reformasiya hərəkatı da götürülür. Onların fikrincə, yeni ictimai-iqtisadi münasibətlərə keçid yalnız cəmiyyətin şüurunda baş verən dəyişikliklərlə müşayiət edilməmişdir. Avropada yeni dövrün başlanğıcı, yəni cəmiyyətin şüurunda baş verən xüsusi dəyişikliyin rəmzi Avropada silsilə şəklində baş verən, onların təbirincə desək, Böyük Reformasiya hərəkatıdır. Reformasiya hərəkatı Avropada şüurlara hakim olan kilsə ideoloji sisteminə eləcə də, feodal düşüncə tərzinə kökündən zərbə vurdu. Onun yerinə ilkin demokratik prinsipləri və bu prinsiplərin ana xətti olan insan azadlığı üstünlük təşkil edirdi. Lakin bu fikirlə razılaşmayan, məsələni İntibah mədəniyyətinin yaranmasına qədər dərin-

ləşdirən tədqiqatçılar da vardır. Qərbi Avropa tarixşünaslığından fərqli olaraq türk xalqlarının yeni dövrünün xronoloji sistemini müəyyənləşdirmək o qədər də asan deyildir. Meydana gələn çətinliklərin bir neçə səbəbləri vardır. Bunlardan birincisi, türk xalqlarının müxtəlif areallarda məskən salmalarıdır. Bu isə onların inkişafında müxtəlif amillərin rol oynamasını şərtləndirmişdir. Buna ictimai inkişafın müxtəlif pillələrində duran uyğurları, eyni zamanda krım və qazan tatarlarını göstərmək olar. XVI əsrdən bəri Rusiyanın tərkibinə daxil olan tatarlar və Çinin tərkibinə daxil olan uyğurlar müxtəlif inkişaf yolu keçmişlər.

İkinci səbəb türk xalqlarının ictimai inkişafın müxtəlif pillələrində olmaları idi. Kapitalist münasibətləri hər bir türk xalqında müxtəlif vaxtlarda meydana gəlmişdir. Qafqazda kapitalist münasibətlərinin meydana gəlməsi XIX əsrin ortalarından baş verdiyi halda, Hindistanda, Çində yaşayan türklərdə, o cümlədən Sibirin türk xalqlarında bu qaçılmaz proses az qala XX əsrin 20- ci illərinə qədər yubanmışdır. Sibir türklərində yeni dövrdə hansı cəmiyyət növünün formalaşması isə hələ də müzakirə mövzusudur.

Üçüncü səbəb isə türk xalqları tarixində Qərbi Avropadakı kimi erkən vaxtlardan qlobal dini dünyagörüş inqilabının müşahidə edilməməsidir. Türk xalqları tarixində "dünyagörüş inqilabı" XX əsrin əvvəllərində baş vermiş, bu da milli şüurun dirçəlməsi, milli dövlətçiliyin bərpa edilməsi istiqamətində olmuşdur. Bəzi türk xalqlarında bu inqilab əksinə İslami dəyərlərə qayıdış şəklində

baş vermişdir. Yəni göstərilən amillər ilk baxışdan Qərbi Avropa dövlətlərindən fərqli istiqamətdə təzahür etmişdir. Bunun da səbəbi bir çox türk xalqlarının Rusiya, Çin, Hindistan və İran kimi dövlətlərin müstəmləkəsi, ya da Osmanlı dövləti kimi Qərbi Avropa dövlətlərinin yarımasılılığında olması idi. Buna görə də türk xalqlarında oyanış dini, tarixi, milli dəyərlərə qayıtmaq istiqamətində baş vermişdir. Mərkəzi Asiya xalqlarında bu sırf fundamental islamyönümlü təmayül olmuşdur.

Bütün bu amilləri nəzərə alsaq və qruplaşdıraraq ümumi bir xronologiya şəklində qəbul etsək, onda türk xalqlarında yeni dövrün başlanğıcı kimi yalnız XIX əsrin sonunu və XX əsrin əvvəllərini artıq ən yeni dövrün astanası hesab etmək olar. Lakin bu amilin əsasında da türk xalqlarının tarixinin yeni dövrünün xronologiyasını vermək mümkün deyildir. Çünki onda türk xalqlarının daxilində baş vermiş hadisələri təcrid edilmiş şəkildə, dünyada baş verən proseslərlə əlaqəsi olmadan izah etmiş olarıq. Bu da mütləq birtərəfli nəticələrin ortaya çıxmasına səbəb olacaqdır. Bu baxımdan müasir türk dövlətlərinin alimləri tərəfindən türk xalqları tarixinin yeni dövrünün xronoloji çərçivəsini axtarmaq istiqamətində fəal işlər görülməkdədir. Lakin burada əsas məqsəd bütün türk xalqlarının deyil, ayrı-ayrı müəlliflərin məhz öz dövlətlərinin tarixinin xronoloji dövrləşməsini verməkdir.

Rustan Rahmanaliyev türk xalqları tarixinin dövrləşməsini imperiyalar formasında araşdırmışdır. Alim hər bir imperiyada baş verən mühüm siyasi və ictimai hadisələri şərh etmiş, imperiyaların varisi olan dövlətlərə

keçməklə xronoloji çərçivəni tamamlamışdır.Onun “Türklərin imperiyası-böyük sivilizasiya” kitabı fundamental əsər olmaqla bərabər, əsərdə türklərin sosial-iqtisadi quruluşu və mədəniyyəti əks etdirilməmişdir. Kitabda yeni dövrdə mövcud olan bir neçə dövlətdən –Buxara, Xivə, Kokand, Qazax və Krım xanlıqlarından bəhs edilmiş, lakin onlar əvvəlki tayfa dövlətlərinin davamı kimi göstərilmişlər.

Eyni nüanslara Sovet dövründə nəşr edilən “Özbəkistan SSRİ-nin tarixi”, “Qazaxıstan SSRİ-nin tarixi”, “Başqırd xalqının tarixi” və s. dərsliklərdə də toxunulub. Yəni kitablarda türk xalqlarında kapitalist münasibətlərinin yaranmasından bəhs olunsa da xalqlarda “Yeni dövr”- ün yaranmasının dəqiq xronoloji ardıcıllığı göstərilməyib. “Özbəkistan SSRİ-nin tarixi” əsərində isə Mərkəzi Asiya xalqlarında kapitalist qaydalarının meydana gəlməsiXIX əsrin II yarısı ilə əlaqələndirilir. Kitabdakı konsepsiyaya arxalanmış olsaq, onda türk xalqlarının əksəriyyətində yeni dövrün başlanğıcı XIX əsrin ortalarından götürülməlidir. Lakin bu dövrləşmə sistemi Osmanlı imperiyasına aid edilmir.

Türk xalqlarının tarixinin dəqiq dövrləşməsini həyata keçirmək mümkün deyil. Buna görə də bir çox ölkələrdə dövrləşmə dövlətlərin, ya da sülalələrin yaranma ardıcıllığı ilə, bəzi xalqlarda isə onların həyatında baş verən başlıca siyasi hadisələrin əsasında həyata keçirilmişdir.

Tatarlarda onların tarixinin bir neçə dövrləşməsi təklif edilmişdir. Lakin bunlardan müasir dövrdə ən geniş yayılanı aşağıdakıdır:

1. Qədim Türk dövlətçiliyi-**(e.ə III minillikdən 920-ci ilə qədər).**
2. Volqa Bulqarıstanı-**(920-1236 cı illər).**
3. Cuçi Ulusu (Qızıl Orda xanlığı)-**(1242-1419-cu illər).**
4. Qazan xanlığı-**(1445-1552-ci illər).**
5. Tatarıstan-**(1552-ci ildən-dövrümüzə qədər)**.

Bəzi kitablarda türk xalqları tarixinin "yeni dövrü" anlayışı keçmir. Buna nümunə olaraq1967- ci ildə Mahaçqalada nəşr edilən "Dağıstan tarixi" əsərini göstərə bilərik. Əsərdə Dağıstanın tarixi aşağıdakı kimi bölünür:

1. İbtidai icma quruluşu—e.ə V əsrin sonuna qədər.
2. Erkən dövlətlər—e.ə V əsr –e.ə. IV əsr.
3. Erkən feodalizm—IV-X əsrlər.
4. Klassik, yaxud inkişaf etmiş feodalizm—X-XVI əsrlər.
5. Feodal dağınıqlığı dövrü –XVII-XIX əsrin əvvəli (burada ictimai-iqtisadi deyil, daha çox siyasi amillər əsas götürülür).
6. Rusiyanın Dağıstanı işğal etməsi və Rusiya idarəçiliyi—XIX –XX əsrlərin 20- ci illəri.
7. Sovet dövrü və müasir dövr.

Sovet hakimiyyəti dağılandan sonra nəşr edilən başqa əsərlərdə də məhz bu cür bölgüdən istifadə edilməkdədir. Lakin müasir dövrdə Şimali Qafqazın bəzi tarixçiləri bu dövrləşməyə bir az fərqli cəhətdən-Qafqazda etnosların formalaşması istiqamətində yanaşmağa başla-

mışlar. Onların xronoloji bölgüsünün əsasında Qafqazda gedən etnik proseslər və həmin proseslər zəminində Qafqaz türklərinin etnoqrafiyasında, məişətində və mədəniyyətində baş verən dəyişikliklər əsas götürülür. Tebuyevin 2002- ci ildə Stavropolda nəşr edilən "Qaraçay Balkarların tarixi oçerkləri" əsəribunun bariz nümunəsidir. Əsərdə Qaraçay xalqının tarixi və mədəniyyəti haqqında incə detallarına qədər ətraflı məlumat verilmişdir. Lakin bu əsərdə də Qaraçayların yeni dövr tarixinin xronologiyası daha çox siyasi hadisələrə-Nadirin yürüşləri, Rusiya-Osmanlı müharibələri, Rusiya idarəçiliyi, eyni zamanda Qaraçay xalqının etnik inkişafına istinadən verilmişdir.Tebuyevin bu dövrləşdirməsi doğrudan da bir yenilik olsa da nə Qafqazın, nə də qaraçayların yeni dövr tarixinin xronoloji sərhədlərini dəqiq təsvir etmir.

Eyni faktlara Mərkəzi Asiya tarixçilərinin tədqiqatlarında da rast gəlmək mümkündür. Onların əsərlərində mahiyyət etibarilə başlıca olaraq hakimiyyətdə olan sülalələrin tarixi xronoloji dövrləşməsi verilmişdir.

Azərbaycan tarixçilərinin də türk xalqlarının yeni dövrü sahəsində mühüm tədqiqatları vardır. Buna Rüstəm Əhmədovun "Türk xalqlarının tarixi" və Ramin Qurbanovun " Türk xalqları tarixi" əsərini misal göstərmək olar. Əsərlər lazımi peşəkarlıq və genişliklə qələmə alınmışdır. Lakin bu əsərlərdə belə türk xalqlarının tarixinin yeni dövrünün dəqiq xronoloji çərçivəsi göstərilməmişdir. Avropa ölkələrinin inkişafı baxımından yeni dövrün xronoloji çərçivəsi sırf şərti olaraq XVII əsrin sonları götürüləcək. Bu vaxtdan etibarən baş vermiş ha-

disələr XX əsrin əvvəllərinə qədər işıqlandırılacaqdır. Mühazirələrdə həm türk xalqlarının siyasi tarixi, həm etnogenezi, həm də onlarda hakim sülalələrin siyasi hakimiyyət illərində baş verən ictimai proseslər öz əksini tapacaqdır. Bundan başqa türk xalqları haqqında olan məlumatların tələbələrə sistemli şəkildə çatdırılması nəzərdə tutulur. Mühazirələrdə yeni dövr iki hissəyə bölünüb:

1.XVII əsrin ortalarından XIX əsrin ortalarına qədər, yəni Rusiya tərəfindən türk xalqlarının tabe edilməsinə qədərki dövr.

2. XIX əsrin ortalarından-XX əsrin əvvəllərinə qədər, yəni 1917 - ci il bolşeviklərin hakimiyyətə gəlməsinə qədər olan dövr.

Bu bölgü sırf şərti xarakter daşıyır. Eyni zamanda xronoloji dövrləşmə türk xalqlarının siyasi və ictimai tarixinin özəlliklərinə görə veriləcəkdir.

# I FƏSİL

## ŞİMALİ QAFQAZIN TÜRK XALQLARI XVII-XIX ƏSRLƏRDƏ

XV - XVI əsrlərdə Teymurun yürüşləri və Krım xanlığının siyasi təsiri altında Şimali Qafqaz ərazisində xeyli etnik dəyişikliklər baş verdi. Bunlardan birincisi, kabardinlərin və adıqların XV əsrin əvvəllərindən başlayaraq qaraçay və balkarların ərazilərində məskən salmaları, tez bir zamanda qaraçaylarla qaynayıb qarışa bilmələri idi. Belə ki, Teymurun alan - aslar üzərinə basqınları nəticəsində onların çoxu dağlara çəkilməyə məcbur olmuş və nəticədə boş olan ərazilərə tədricən adıqlar və onlara qohum olan kabardinlər yerləşməyə başlamışdılar. Bunu Mərkəzi Qafqazın Şərq rayonlarında xeyli sayda Kabardin qəbirlərinin aşkar edilməsi də sübut edir.

XVI əsrdən başlayaraq kabardinlərin Rusiya ilə siyasi əlaqələri meydana gəlmiş və onların knyazlarından biri Temir İdaroviç öz qızını IV İvan Qroznıya ərə vermişdi. XVI əsrdən başlayaraq bəzi mənbələrdə kabardinlər, qaraçaylar-qara çərkəslər, balkarlarla - dağ çərkəsləri bir yerdə çərkəs adlanmağa başlamışdılar. Artıq XVII əsrin ortalarından etibarən çərkəslər adı altında daha çox kabardinlər nəzərdə tutulmağa başladı. XVIII əsrdən başlayaraq Rusiya dövləti ilə kabardinlər arasında siyasi yaxınlaşma baş verdi, bu da Rusiyanın Kabarda ərazisində möhkəm dayaq yaratmasına imkanlar yaratdı. Kabardinlərin müasir qaraçayların torpaqlarında məskunlaşması

XIX əsrin birinci yarısında daha çox vüsət aldı. Bu da çar hakimiyyət orqanlarının 1804, 1809 - 1810, 1822 – 1825 - ci illərdə bu xalqları kütləvi surətdə qaraçayların ərazilərinə köçürmələri ilə bağlıdır. Yəni kabardinlərin kütləvi surətdə Qaraçay, Balkar torpaqlarında yerləşməsi Rusiya imperiyasının ağalığı dövründə, xüsusilə də Yermolovun siyasəti nəticəsində başlamış və sona çatmışdı. XX əsrin 30 - cu illərinə qədər Rusiya və SSRİ yazılı qaynaqlarında çərkəslər (türklər və beslan adıqları - müəllif) kabardinlərdən fərqləndirilirdilər. Lakin XX əsrin 30 - cu illərindən başlayaraq çərkəslər sırf kabardinlərin ümumi adına çevrildi.

XV əsrdən başlayaraq Şimali Qafqaza köçüb gələn tayfalardan biri də abxazlara qohum olan abazinlər idilər. Qədim mənbələrdə onlara abazalar da deyilir. Abazinlər XVII əsr mənbələrində tapanta (Mərkəzi Qafqaz abazinləri - müəllif) və şkaraua (Qərbi Qafqaz abazinləri - müəllif) adlı əsas tayfalara bölünürlər. Tapanta öz növbəsində biberda, dudaruk, cantemir, kılıc, kyaçev, loovalara bölünürlər. Şkaraua tayfası isə öz növbəsində, Mısılbaylar, yaxud başılbaylar, tamovlar, qızılbəyovlar, şahgireylər, baqovlar və barakayevlərə bölünürlər. Bu tayfalar uzun  müddət Qara dənizin şimal- şərq sahillərində məskən salmışdılar. Alimlər tərəfindən qafqazdilli tayfalara aid edilən abazinlərin bu tayfaların niyə türk adları daşıdıqları məsələsi hələ də mübahisəli olaraq qalmaqdadır. Lakin alimlərin əksəriyyəti bu adların onları idarə edən türk nəsillərinin adları olduğu qeyd edirlər.

Abazinlər yuxarı Laba, Urup, Kiçik və Böyük Zelençuq, Yuxarı Kama hövzəsində - müasir kumıkların torpaqlarında məskən salmış və onların bir hissəsini qərbə doğru sıxışdırmışdılar. Abazinlər burada XVII əsrdə Krım xanlığına tabe olmuş və 1615 - ci ildə Səfəvi dövlətinin ordularına qarşı mübarizə aparmışdılar. Lakin abazinlər təkcə Krım, Osmanlı və Səfəvi imperiyaları ilə deyil, eyni zamanda Rusiya ilə də müəyyən əlaqələr saxlayırdılar. Rusiya ilə ilk siyasi əlaqələr 1552 və 1555 - ci illərdə abazinlərin elçilərinin Çar IV İvan Qroznının yanına getməsi ilə yaranmışdır. XVIII əsrə qədər abazinlər Kabarda feodallarının təzyiqlərinə məruz qalırdılar. Lakin 1784 - cü ildə Rusiya hakim dairələri Kabarda bəylərinə abazinlərdən bac almağı qadağan etmişdi. Lakin bu çox çəkməmişdi. 1786 - cı ildə Rusiya yardımına arxalanan kabardinlər, abazinləri sıxışdırmaqda davam edirdilər. Bu da abazinlərin həm Kabarda, həm də Rusiya əleyhinə çıxmalarına səbəb olmuş, onlar Şeyx Mənsurun üsyanında iştirak etmişdilər. Rusiya Abazinləri yalnız Yassı müqaviləsindən sonra öz siyasi təsiri altına ala bilmişdi.

Tarixçilər abazinlərin abxazlarla qohum olduğunu hesab etsələr də, onların etnik formalaşmasında türklərin də mühüm rol oynadığını qeyd edirlər. Bu tayfalara dudarlar, kılıçlılar, cantemirlilər, budarakovları göstərmək olar. Kılıçlılar XVIII əsr mənbələrində "kimliklər" kimi də qeyd edilirlər. XIX əsrdə bu tayfalar Kuban şəhərinin şimal ətraflarında məskən salmışdılar.

Şimali Qafqaz ərazisində məskən salan tayfalardan biri də noqaylar idilər. Noqay etnosunun formalaşması bir çox qaynaqların qeyd etdiyinə görə, XV əsrin sonlarına doğru başa çatmışdır. Həmin illərdə də noqaylar Mərkəzi Qafqazın şimal yamaclarında məskən salmış və balkarlarla qonşu olmuşdular. Lakin mənbələrdə Krım xanı Məhəmməd Gireyin (1514 - 1523) noqaylardan bəzi tayfaları Şimali Qafqazda, yəni Kuban yaxınlığında yerləşdirməsi haqqında məlumatlar vardır. Krım xanı Sahib Girey isə noqaylardan Seceut boyunu Krımın aparıcı zadəgan tayfaları olan Şirinlər, Barın və Arqınlarla hüquq baxımından eyniləşdirmişdi. 1547 - ci ildə Şimali Qafqaz noqaylarının köməyi ilə Krım xanı Sahib Girey Həştərxanı ələ keçirmiş, eyni zamanda Osmanlı-Səfəvi müharibələrində Osmanlı ordusuna xeyli yardım etmişdi.

XVI əsrin II yarısında Şimali Qafqazda xeyli ərazilər Kiçik Noqay ordasının tərkibinə daxil oldu. Bu ordanın knyazları yaranan gündən Krım xanlığı ilə yaxın siyasi münasibətlər saxlayırdılar , hətta Krım xanlığının siyasi nüfuzunu qəbul edirdilər. Kiçik Noqay ordası öz növbəsində Qazı və Xasay uluslarına bölünürdü. Bunlardan Qazı ulusu Krım xanının canlı siyasi dayağı hesab edilirdi. Lakin XVII əsrin I yarısından Boyük Noqay ordasından da xeyli əhali Şimali Qafqaza köçmüş və Kiçik Noqay ordasına qatılmışdı.

XVI əsrdə noqaylar Şimali Qafqazda Tümen knyazlığının əsasını qoymuşdular ki, onun da rəhbərləri qısa müddətə kabardinləri hakimiyyət altına almışdılar. XVII əsrdə noqaylar müasir Qaraçay Çərkəs respublikası-

nın ərazilərində məskunlaşdılar. Arxancelo Lambertinin sözlərinə görə, noqaylar XVII əsrin ikinci yarısında balkarların və qara çərkəslərin də üzərinə basqınlar edirdilər. Eyni vəziyyəti Rusiya səyyahları da təkrar edirdilər. Onların qeydlərinə görə, Kabarda əhalisi də noqaylara bac verirdi. Türk mənbələrinin verdikləri məlumatlara görə isə noqaylar Kiçik və Böyük Zelençuk dərələrində, Beşdağ (Pyatiqorsk) yamaclarında və Kuban çayının şərq hissələrində məskən salmışdılar. Noqaylar Şimali Qafqaz xalqları arasındakı toqquşmalarda da iştirak edirdilər. Belə ki, onlar 1641 - ci ildə Kabardada, Malka çayı yaxınlığında Tərki şamxalı Aydəmir, Kabarda knyazı Kəlmühəmməd Kudenetovun və Kabardın knyazları Əlihuk və Xudacıq arasındakı döyüşdə iştirak etmişdilər. Döyüşdə Tərki şamxalının tərəfdarları məğlub oldular. 1644 - cü ildə isə noqaylar Şimali Qafqaz xalqları tərəfindən kalmıkların basqınına qarşı mübarizə aparmışdılar. XVII əsrin sonlarına doğru noqaylar rəsmi surətdə Krım xanının təbəələri sayılırdılar. Onlar müxtəlif vaxtlarda Osmanlı dövləti və Krım xanlığından müxtəlif vergi güzəştləri də almışdılar. Noqayların Şimali Qafqazda mövqelərinin güclənməsi Tərki kazaklarının da diqqətini cəlb edir və onların təşvişinə səbəb olurdu. Ona görə də müxtəlif vasitələrlə noqayları tabe etməyə çalışırdılar. Təsadüfi deyil ki, rusların təhriki ilə 1646 - cı ildə Kabardin knyazlarının Krıma hərbi yürüşünün qarşısını məhz Qazı noqayları almışdılar.

XVIII əsrin 30- ci illərində Şimali Qafqaza köçən yeni Noqay dəstələri müasir Çerkassk və Kubanın sol sa-

hillərində məskən salmışdılar. Artıq XVIII əsrin sonlarında Gildenştedtin məlumatlarına görə, noqaylar Şimali Qafqazda Tərki çayından Azov dənizinə qədərki geniş bir ərazidə yaşayırdılar. Onlar da öz növbələrində üç coğrafi etnik qrupa: **1**. Qaranoqaylara (Xəzər dənizinin şimal - qərbi), **2**. Beşdağ noqaylarına (Beşdağ və ətrafı) və **3**. Kuban noqaylarına bölünürdülər.

Noqayların yerli camaatla və ya oturaq əhali ilə qaynayıb qarışma prosesləri də gedirdi. Bunlardan Çoban - eli deyilən bir tayfanın yerli çərkəslərlə birləşərək oturaq həyata keçməsi haqqında mənbələrdə məlumatlar vardır. Lakin mənbə məhz hansı tayfanın çərkəs adlanması haqqında məlumatlar vermir. XVII əsrin 40 - cı illərində naymanlar deyilən noqay tayfalarından biri də Xəzər dənizinin qərb sahillərinə köçmüşdü. XVII əsrin sonlarından başlayaraq Noqay ordası özü də Başık Baz Kambulatın ölümündən sonra murzaların siyasi rəqabəti ucundan parçalanmağa məruz qalmışdı.

Noqaylardan ötrü Rusiya ekspansiyasına qarşı mübarizə 1737 - ci ildən başlanmışdı. Bu Rusiya ordularının Krım xanlığına basqını ilə başlamışdı. Bununla yanaşı, Rusiya hakimiyyəti Kiçik Noqay ordası noqaylarla Krım arasında siyasi vəziyyəti də gərginləşdirə bilmişdi. Lakin buna baxmayaraq, 1783 - cü ilə qədər müxtəlif formalarda Şimali Qafqazda Rusiya ekspansiyasına qarşı mübarizə aparmışdılar. Buna görə də, Şimali Qafqazda ilk dəfə etnik təcavüzə və deportasiyaya məruz qalanlar da elə noqaylar oldular. Onlardan bir hissəsi Krım vasitəsilə Osmanlı dövləti ərazisinə qaçmağa başlamış, bir his-

səsi isə Şimali Qafqazda Beştau dağlarına çəkilmişdilər. Rusiya onların kütləvi surətdə qaçmalarının qarşısını almaq üçün, noqayların xeyli hissəsini indiki kalmıkların yaşadıqları ərazilərə, bir hissəsini isə Volqa-Don çayları hövzəsinə köçürmüşdü.

XVII əsrin ortalarından etibarən, Şimali Qafqazın şimal düzlərinə Manqışlaq ərazisindən köçəri türkmənlər də köçmüş və buralarda otlaqlar əldə etmişdilər.

XVI əsrin ikinci yarısında Şimali Qafqaz bir neçə etnik və siyasi quruma bolünmüşdü. Bunlardan Dağıstan ərazisində siyasi cəhətdən ən güclü olanı Kumık şamxallığı idi. XVI əsrin II yarısına doğru Kumık şamxallığı ərazisinə görə Şimali Qafqazın ən böyük feodal dövləti idi. Onun ərazisi Tərki çayı sahili və Kabardanın cənubundan Xəzər dənizinin sahillərinə qədər, cənubi qərbdə isə Avar usmiliyinin sərhədlərinə qədər uzanırdı. O vaxtın miqyasına görə, Kumık şamxallarının böyük bir ordusu da vardı. Bundan başqa, Kumık şamxalları Şimali Qafqazda hakimiyyət üstündə Kabarda feodalları ilə mübarizə aparırdılar. Kumıkların ən böyük hökmdarı Çopan şamxalın dövründə isə kumıkların ərazisi cənubda Dərbəndə qədər uzanırdı. Tarixçilərin qeyd etdiklərinə görə, şamxallıq lakları, çeçenlərin bir hissəsini, avarların bir hissəsini, Ter - Sulak hövzəsində köçərilik edən noqayları öz hakimiyyəti altına almış və bəzi Qafqaz tayfaları isə onlara bac verirdilər. Dövlətin paytaxtı müxtəlif vaxtlarda Tərki ya da Kumux qalaları olmuşdu. Ona görə də tarixi ədəbiyyatlarda bu dövlətin rəhbərlərinə XVII əsrin sonlarına qədər gah Kumık, gah da Tərki şamxalları de-

yirdilər. Müəyyən vaxtlarda onlar hətta "padşah" titulu da daşıyırdılar ki, bu da Qızıl Orda dövründə onların Dağıstan və Şimali Qafqazın vergi yığanları-baskakları vəzifəsində olmaları ilə bağlı idi. XVI əsrdə isə Tərki şamxalı Dağıstan valisi titulunu da daşıyırdı. Bu isə şamxalların əsil - nəcabətinə görə Dağıstanın başqa xalqlarının hakimlərindən yüksək olması anlamına gəlirdi. Osmanlı səyyahı Övliya Çələbi isə Kumık şamxallarını "Dağıstan padşahları" adlandırırdı.

Lakin 1577 - ci ildə Çopan şamxalın ölümündən sonra onun müxtəlif arvadlarından olan övladları Eldar, Məhəmməd, Andi, Girey və Sultan Mut arasında münasibətlər kəskinləşməyə başladı. Onun varisi olan Surxay şamxal nə qədər dövləti mərkəzləşdirmək istəsə də, məqsədinə çata bilmədi. Çünki Çopan Şamxalın o biri övladları anası kabardin olan Sultan Mutu ata mirasından məhrum etmək istəyirdilər.

Belə ki, Çopan şamxalın kabardin xanımından olan oğlu Sultan Mut (Məhəmməd) anasının qohumlarının hərbi köməyi ilə qardaşlarından ayrılaraq, Endirey kəndini özünə qərargah seçib, Sulak arxası Kumıkiyanı özünə tabe etdi. Bu vaxtdan da buraya Endirey şamxallığı adı verildi. Sonrakı ədəbiyyatlarda bu ərazi Kumık vadisi adlanırdı. Sultan Mutun bu ərazilərdə hakimiyyətə gəlməsi buradakı dağınıq kənd icmalarının birləşməsinə və buranın təsərrüfatının çiçəklənməsinə səbəb oldu.

XVII əsrin 40 - cı illərində Endirey şamxalı Sultan Mut öz kiçik oğluna - Əlibəyə Aksay çayının orta axarlarında torpaqlar ayırdı. Lakin atasının ölümündən sonra

Əlibəy ümumiyyətlə, bu əraziləri özünə yurd seçərək Aksay şamxallığının əsasını qoydu. Aksay şamxalları sonradan "ullu biy" titulunu daşımağa başlamışdılar. Sultan Mutun o biri oğlanları olan Aydəmir Köstəkdə, Qazanlip isə Qazi Yurtda özlərinə məskən salaraq Endirey bəyliyini idarə etməyə başladılar. Köstək bəyliyi XVII əsrin 60 – 70 - ci illərində Həmzə bəyin hakimiyyəti altında daha da inkişaf etmişdi. Həmzə bəyin özünə görə böyük saylı hərbi dəstələri də var idi. Bütün bunlara baxmayaraq, Kumık feodalları Tərki şamxalının formal hakimiyyətini tanıyırdılar. Lakin o zamankı Tərki şamxalı Surxayın XVI əsrin sonu – XVII əsrin əvvəllərində dövlətin birliyini saxlamaq cəhdləri nəticəsiz qaldı. XVII əsrin əvvəllərində Surxay şamxalın ölümündən sonra Kumık feodalları arasında ara müharibələri yenidən qızışdı. Məsələni çətinləşdirən səbəblərdən biri Kumıklarda vahid irsiyyət sisteminin olmaması idi. Şamxal öldükdən sonra hakimiyyətə nəsildə ən böyük olanın gəlməsi adətinin gerçəkləşməsi üçün qurultayda feodalların da həmin şəxsi şamxal seçmələri lazım idi. Bu isə dövlətin idarəçiliyində sonradan hərc - mərclik yaranmasına səbəb olurdu. Şamxallar həmin dövrdə Kumıkiyada hakimiyyəti stabilləşdirmək məqsədi ilə dəfələrlə qurultaylar çağırmışdılar. Lakin onların bir səmərəsi olmamış və vəziyyəti daha da çətinləşdirmişdilər. Müxtəlif vaxtlarda qurultaylar Surxayın oğlu Andini, daha sonra, Tərki başçısı İdarı, Endirey şamxalı Aydəmiri, Tərkili Surxayı, Adil Gireyi şamxal taxtına seçmişdilər. Bu da qalan namizədlərlə müharibələrin başlamasına səbəb olurdu.

Belə ki, XVII əsrin başlanğıcında Surxay şamxal öldükdən sonra onun yerinə keçmək üçün oğlanları Tərkili Gireylə krım-şamxal Andi arasında müharibə qızışdı. Andi kumıkların, avarların, qaytaqların gücünə arxalanırdı. Buna cavab olaraq Girey ona qarşı ruslardan kömək almışdı.

Kumıklarda ara müharibələri XVII əsrin əvvəlində daha çox Endirey və Tərki şamxalları arasında gedirdi. Lakin Dağıstanın dağlıq ərazilərinin feodalları da müharibələrə qoşulurdular. 1616 - ci ildə qurultay Kafırkumux feodalı Andini, ondan sonra İldarı seçmişdi. Ondan sonra isə Aydəmir şamxal oldu. Lakin 1641 - ci ildə o, Kabardaya basqın zamanı öldürüldü.

XVII əsrin 40 - cı illərində Tərki şamxallarının yay paytaxtı olan Qazıkumıxda bəylərin üsyanı ilə yeni bir Qazıkumıx şamxallığı yaradıldı. Onun hökmdarı qurultay tərəfindən seçilir və "Halkavçı" titulunu daşıyırdı. Bundan başqa Tərki şamxallığından Mehduli xanlığı da ayrılmağa başladı. Artıq XVII əsrin sonlarına doğru şamxal titulunu yalnız Tərki şamxalları daşımağa başladılar. Endirey şamxallığında da 1659 - cu ildə başlayan yeni ara müharibəsi XVII əsrin sonlarına doğru uzandı və bir çox kənd cəmiyyətlərinin ondan ayrılmasına səbəb oldu.

XVII əsrin II yarısında Tərkidə Biy Məhəmmədlə Buday arasında ziddiyyətlər nəticəsində Biy Məhəmməd Səfəvi şahı Süleymana müraciət etdi. O, da 1673 - cü ildə Biy Məhəmmədə kömək etmək üçü ordu göndərdi. Onun bir məqsədi də rusların Şimali Qafqazda tikdikləri müdafiə sistemlərini dağıtmaq idi. Süleymanın hərbi dəstə

göndərməsi isə rusların bu məsələyə etirazına səbəb oldu. Lakin tezliklə Biy Məhəmməd Krımın tərəfinə keçdi və həmin il Tersk rus qalasına basqın etdi. Bu da rusların təhriki ilə kabardin və kalmık feodallarının Tərki üzərinə yürüşünə səbəb oldu. Kumık hakimləri XVII əsrin sonlarına doğru daha çox Osmanlı dövlətinə meylli siyasət aparırdılar. Lakin onların bəzən Rusiya ilə də yaxınlaşdıqları haqqında məlumatlar vardır.

XVII əsrin əvvəllərində Şimali Dağıstan və Mərkəzi Qafqazın qərbində başqa bir bəylik Buynak şamxallığı da yaranmışdı. Mənbələr Buynak şamxalının XVII əsrin sonlarına doğru 400 şəxsi atlısı olduğunu göstərir. XVII əsrdən etibarən Buynak şamxalları “Krım şamxallar”, yaxud da “yarım şamxallar” titulunu daşıyırdılar. Sonrakı vaxtlarda Buynak şamxallığı Tərki şamxallığı və kabadinlər, Qaytaq usmisi ilə müharibələr aparırdı.

Kumık şamxallığının parçalanması zamanı Orta Dağıstanda ondan yeni bir dövlət Mehduli xanlığı da ayrıldı. Xanlığın əsl adı Canqutay olmasına baxmayaraq, adını banisi Qara Mehdi xan adlı bir kumık rəhbərinin adından götürmüşdü. Əvvəllər o qədər də güclü olmayan Mehduli xanlığı XVIII əsrdən etibarən hərbi-siyasi cəhətdən xeyli güclənmiş və varlanmışdı. İlk vaxtlar Mehtuli şamxalları Aymak adlı yeri, sonra isə Aşağı Canqutayı özlərinə paytaxt etmişdilər. XVII əsrin sonlarına doğru Avar camaatı da daxil olmaqla bir çox Dağıstan icmaları bu şamxallığa tabe edilmişdilər. Bu da bir tərəfdən gah o, gah da başqa dövlətin tərkibinə keçməklə öz müstəqilliyini və toxunulmazlığını saxlamağı bacaran Meh-

duli xanlarının siyasəti nəticəsində mümkün olmuşdu. Qara Mehdi xanın oğlu Əhməd xan Rusiyadan "maaş da alırdı". Ondan sonra hakimiyyətə gələn Amanəli murza daha çox müstəqil siyasət yeridirdi. Lakin ondan sonra hakimiyyətə gələn Əli xan Osmanlı sarayından asılı idi. 1723 - cü ildə Mehduli xanları Rusiya ordusuna qarşı çıxmışdılar. 1741 - ci ildə isə Mehduli xanlarının dəstəsi Nadirin bir hərbi dəstəsini məğlub etmişdi. Lakin buna baxmayaraq, Nadirdən asılı hala düşmüşdü. XVIII əsrin II yarısı Mehdulinin güclənməsi dövrüdür. Bu zaman onun şamxalı Əli xan Canqutaylı gürcülərə qarşı 1784 - cü ildə Gəncə xanlığının köməyinə gəlmişdi. Artıq 1803 - cü ildən başlayaraq, Mehduli xanları Rusiyanın təbəəsi sayılırdılar və Rusiya ordusunda müxtəlif hərbi rütbələr daşıyırdılar.

XVII əsrin 50 - ci illərində Endirey şamxalı Sultan Mutunun ölümündən sonra Kumık ərazisində yeni bəylik Aksay bəyliyi yarandı. Onun əsasını Sultan Mutun oğlu Əlibəy qoymuşdu. 1651 - ci ildə o, Aksay çayı yaxınlığında məskən salmış, daha sonra isəböyüyərək müstəqil knyazlığa çevrilmişdi. XVII əsrin 60 – 70 - ci illərində isə Sultan Mutun başqa bir varisi Əliş Həmzə Köstək şəhərinin əsasını qoydu və XVIII əsrin əvvəllərində bu ərazi Köstək bəyliyi adlanaraq siyasi cəhətdən müstəqil oldu.

XVII əsrin əvvəllərində Kumık şamxallığından Bammatuli hakimliyi də ayrılmağa başlamışdı. Hakimlik öz adını Kumık şamxalı Çopanın nəvəsi Bammatın adından götürmüşdü. Onun dövründə hakimliyin paytaxtı

Kafır Kumux qalası oldu. Bammatuli xanlarının 100 şəxsi atlısı var idi. Dağıstanın o biri xanlıqları ilə mübarizə aparan Bammatuli hakimliyi Rusiya ilə yaxınlaşmaq siyasəti yürüdür və 1637 - ci ildə Rusiya himayəsini qəbul edərək, Moskvaya girov da göndərmişdilər. Lakin Bammatuli hakimliyi Dağıstanın və Şimali Qafqazın həyatında elə də mühüm rol oynamırdı.

Dağıstan və Mərkəzi Qafqazın siyasi həyatında böyük rol oynayan hakimliklərdən biri də XVII əsrin əvvəllərinə qədər Kumık şamxallığına tabe olan Qarabudax kənd knyazlığı idi. Mənbələrdə bu bəyliyin adı təxminən 1614 - cü ildən müstəqil bəylik kimi çəkilir. Bəylik xarici siyasətdə daha çox Tərki şamxallığına meyl edirdi. Sonrakı dövrlərdə onun hakimləri daha çox daxili müstəqilliklərini saxlayırdılar. XVII əsrdə kumık şamxalları kabardinlərin arasında gedən daxili müharibələrə qarışırdılar. 1628 - ci ildə Rusiyaya elçi göndərən Endirey şamxalı Sultan Mud kabardinləri özünə tabe etdiyini çar hakimiyyət orqanlarının nəzərinə çatdırmışdı. XVII əsrin 40 - cı illərində Kabardada Rusiya tərəfdarları iləəleyhidarları arasında mübarizə qızışdı. Bu vəziyyətdən Kumık şamxalları məharətlə istifadə etdilər.

XVII əsrin sonlarında Kumık şamxallığında Utamış bəyliyi də ayrılmışdı. Lakin Kumık şamxallığının bəyliklərə ayrılmasına baxmayaraq, şamxal titulunu yalnız şamxalın oğlanları daşıya bilərdilər. XVII əsrin 40 - cı illərində Kumık əyanları Surxay şamxala qarşı lakların üsyanından istifadə edərək onu hakimiyyətdən uzaqlaşdırdılar. Bundan sonra Kumık şamxallığı Tərki şamxallı-

ğı adı ilə balaca bir hakimliyə çevrildi. Lakin XVIII əsrin ikinci yarısı Kumık şamxallarının siyasi hakimiyyətinin nisbətən dirçəldiyi dövrdür. Belə ki, Avar bəyləri, Çeçen icmaları, Salatava əhalisi və şimali-şərqi Qafqazın bir sıra rayonları məhz Kumık şamxallarından asılı idilər. XVIII əsrin 60- cı illərində noqay hakimləri də kumıklardan asılı hala düşmüşdülər. Onları siyasi nüfuzu ilə Rusiyanın buradakı nümayəndələri də hesablaşmalı olurdular.Lakin ruslar XVIII əsrin sonlarında Tərki şamxallığının siyasi nüfuzunun artmasına qarşı tədbirlər görməyə çalışırdılar. Bunlardan biri də Aksay şamxalları ilə Endirey hakimlərinin arasını qızışdırmaq siyasəti idi.

XVII əsrin sonlarında Şimali Qafqazda Dərbənd hakimliyi xüsusi hüquqda fəaliyyət göstərən siyasi birlik idi. Belə ki, Dərbənd hakimləri hüquqi cəhətdən Səfəvilər dövlətinə tabe olsalar da, əslində Dağıstanda və Şimali Qafqazda müstəqil siyasət apara bilirdilər. Səfəvi hakimləri Dərbəndin bu statusunu saxlamaqla onu Şimali Qafqazla münasibətlərdə bir növ müstəqil siyasi mərkəzə çevirmişdilər. 1606 - cı ildə Dərbənd hakimi Hacı Məhəmməd Səfəvi dövlətinə tabe olmuşdu. 1622 - ci ildə Dərbəndə Bərxudar sultan hakim təyin edildi. 1628 - ci ildə isə Dərbənd hakimi Fərrusultan təyin edildi. Lakin sonrakı dövrlərdə Dərbənd hakimləri öz hakimiyyətlərini yerli əhali arasından seçilən naiblərlə bölməli olurdular. XVIII əsrin əvvəllərində Dərbənd hakimləri öz ərazilərindən əlavə Dağıstanın cənubunda xeyli xalqları öz hakimiyyətlərində saxlayırdılar. Dərbənd özü Dərbənd, Şabran, Müşkür, Niyazabat, Rustov və Bərmək qəzalarına bölü-

nürdü. Dərbənddə şahın canişini olan sultan yerli əhalidən seçilən naiblə hesablaşmalı olurdu. Lakin naib şah ordusunda mütləq hərbi xidmətdə olmalı idi. Hakimliyin maliyyə qazancının xeyli hissəsini əhalidən alınan vergilər və gömrük gəlirləri təşkil edirdi.

XVI əsrdə Rusiya, Osmanlı, Səfəvi və Qafqaz mənbələri Şimali Qafqazda Tərki çayının mənsəbində Tümen knyazlığının adını çəkirdilər. 1501-ci ildən buranı Kutluq Timur nəsli idarə edirdi. Lakin 1597 - ci ildə bu knyazlıq ruslar tərəfindən ləğv edilmişdi.

XVI – XVII əsrlərdə qaraçay və balkarlar da siyasi cəhətdən dağınıq fəaliyyət göstərirdilər. Hər iki xalq ayrı-ayrı kənd camaatlıqları tərəfindən təmsil edilirdilər. Camaatlıqlar isə bəylərin hakimiyyəti altında cəmləşirdilər. Camaatlıqlar, öz növbəsində kənd camaatlıqlarına bölünürdülər. Bunları da idarə edən yığıncaq idi. Kənd yığıncaqları “qodular” (carçılar) vasitəsilə çağrılır və təsərrüfat işlərini, törəni, eyni zamanda kəndin dini rəhbərini “el əfəndisini” seçirdilər. Seçki qaraçay - balkar dilində “çöp atdı” adlanırdı. Törələr daha çox nəsillərdə (toxumlardan) və nüfuzlu ailələrdən (atalıqlardan) təşkil edilirdi. Qaraçaylarda ali idarəetmə orqanı “baytun törə”-xalq yığıncağı idi. Dövlətin ali məşvərət şurası “ulu törə” adlanır, onu daha çox mühüm və təcili məsələləri həll etmək üçün çağırırdılar.

Qaraçay və balkarların məhkəmə sistemi İslam şəriətinə arxalanırdı. Lakin bəzi hallarda yerli adətlərin də gerçəkləşməsinə də imkan yaradılırdı. Onu da yerlərdə kənd törələri təmsil edirdi. Dövlətin ali rəhbəri isə “tay-

bəy", yaxud "ulu" adlanırdı. Lakin onun hakimiyyəti sırf nominal idi. Onların içərisində ən çox məşhur olanların ( Soslan Abayev, İslam Krımşamxalov - müəllif) adları indiyə qədər mənbələrdə qalmışdır.Qaraçay və balkarlarda ordu iki hissədən ibarət olurdu: xalqdan toplanan qara əsgər, bəylərdən toplanan mürtəza əsgər. Qara əsgərlər yalnız mühüm hərbi münaqişələr zamanı toplanırdılar. Xalq ordusuna, adətən, ya taybəy, ya da yerli bəylərdən ən nüfuzlu olanı rəhbərlik edirdi. Ən aşağı hərbi rütbə onbaşı-"çavuş" adlanırdı. Mürtəza əsgərin funksiyası isə sərhədlərin müdafiəsini təşkil etmək idi.

Siyasi cəhətdən qaraçaylar və balkarlar XVII əsrin sonlarından Kabardin knyazlarına tabe olmağa başladılar. Lakin bu tabeçilik daha çox xəzinəyə bac vermək formasında həyata keçirilirdi. XVII əsrin ortalarında etibarən Kabarda ərazisi də Kiçik və Böyük Kabardaya bölünmüşdü. Lakin bunlar da siyasi cəhətdən yekdil deyildilər və nəticə olaraq xırda hakimliklərə bölünürdülər. Bunlar içərisində qaraçay və balkarlar öz etnik monolotlikləri ilə seçilirdilər.

XVII əsrin sonlarına doğru Şimali Qafqazda siyasi dağınıqlığın olduğunu və türk xalqlarının da bu dağınıqlıqdan yan keçmədikləri bir dövrə təsadüf edirdi.

XVI əsrin sonlarından başlayaraq Kabardin knyazları ilə Tərki - Kumık şamxalları arasında Şimali Qafqazda hakimiyyət uğrunda ara müharibələri qızışmağa başladı. Mübarizədə Tərki şamxallarını gah Səfəvi dövləti, sonrakı dövrlərdə isə Krım və Osmanlı dövlətləri, Kabardinləri isə əvvəl Osmanlı dövləti, lakin XVI əsrin ortala-

rından isə Rusiya dəstəkləyirdi. 1557 - ci ildə Kabarda Rusiyanın asılılığını qəbul etmişdi. Bu isə ona şamxallara qarşı effektli siyasi mübarizə aparmağa imkan yaradırdı. 1561 - ci ilə qədər Kabardaya Rusiya tərəfindən dörd dəfə hərbi yardım edilmişdi. 1566- cı ildə Kabardada ara müharibələrindən istifadə edən noqaylar və kumıklar Kabardaya qoşun yeritdilər. Lakin Kabarda rusların yardımı ilə Buday şamxallıgını darmadağın etdi. Müharibədən istifadə edən Rusiya Sunja çayı yaxınlığında qala tikdirdi. Eyni adlı qalanın tikilməsində məqsəd guya ki, kabardinləri "düşməndən müdafiə etmək" idi. Lakin 1569 - cu ildə Osmanlı dövlətinin Rusiyaya yürüşləri nəticəsində Sunja yaxınlığındakı qalalar şəbəkəsi sökülmüşdü.

XVII –XVIII əsrlərdə Kabarda və Tərki şamxallarının rəqabətinə qarışan Krım xanlığı da buraları özünə tabe etdirmək istəyirdi. XVII əsrin 50 - ci illərində Krım xanları Şimali Qafqazın qərb yamaclarında yaşayan xalqlardan, xüsusilə, kabardin, balkar və qaraçaylardan xərac toplayırdılar. Rusiyanın onları Krım xanının üzərinə təhrik etmək istəkləri bir nəticə vermirdi. Buna baxmayaraq, kabardin, qaraçay və balkar bəyləri öz siyasi müstəqilliklərini saxlaya bilmişdilər. Osmanlı və Krım xanlıqları zaman - zaman Şimali Qafqazdakı bu bəyliklərin siyasi müstəqilliyini məhv etmək istəsələr də, buna nail ola bilməmişdilər. 1671 - ci ildə Krım xanı yenidən Kabarda ərazisindən bac toplamağa çalışdı. Lakin əhalinin müqaviməti və burada yayılan epidemiya üzündən Kabarda ərazisini tərk etmək məcburiyyətində qaldı. 1712 - ci ildə Krım xanı Adil Girey kumıklara və noqaylara ona tabe

olmaq üçün müraciət etdi. Məqsəd onların hərbi qüvvəsindən Kabardanın tabe edilməsi üçün istifadə etmək idi. Lakin şamxalların kabardinlər üzərinə basqınları bir nəticə verməmişdi. 1720 - ci ildə kumık knyazları kabardinlərin çeçenlər üzərinə basqınları ilə əlaqədar Kabarda üzərinə yürüş etdilər. Şamxallar Krım xanlığına kömək üçün müraciət etmişdilər. Kabarda isə bu halda Rusiyaya yardım üçün müraciət etdi. Ancaq Kumık şamxalı çeçenləri özünə tabe edə bilməsə də, çar I Pyotrdan özü üçün siyasi dəstək zəmanəti ala bilmişdi. Kumıklarla kabardinlər arasında siyasi rəqabət Şimali Qafqaz Rusiya asılılığına keçənə qədər davam etmişdi.

XVII əsrdə Şimali Qafqazın türk xalqlarını tabe etmək uğrunda Səfəvilər və Osmanlı arasında siyasi rəqabət gedirdi. XVII əsrin 60 - cı illərindən başlayaraq, bu mübarizəyə Rusiya da qoşulmağa başladı. 1614 - cü ildə Səfəvi ordusu Kumık şamxallığı istiqamətində hərbi yürüşə başlasa da, 1616- cı ildə Osmanlı ordusunun Səfəvilərə qarşı hərbi əməliyyatlara başlaması onu Şimali Qafqazdan geri çəkilməyə məcbur etdi. Ancaq 1614 - cü ildə səfəvilərin Şimali Qafqazda möhkəmlənmək cəhdinə Rusiya da etiraz etmişdi. 1638 - ci ildə sultan yenə də diplomatik yolla, yəni hədiyyələr və vədlər vasitəsilə Şimali Qafqaz hakimlərinə özünün hakimiyyətini tanıtmaq üçün danışıqlara cəhd etmişdi.

XVII əsrin 20-ci illərində Səfəvilər də Şimali Qafqazda Sunja, Tərki və başqa məntəqələrdə qalalar tikmək istəmişdilər. Bunun üçün hətta Şimali Qafqaz knyazlarına elçilər də göndərilmiş, danışıqlar da aparılmışdı. La-

kin Şimali Qafqazda olan etirazlar və Osmanlı ilə müharibə ucbatından planları həyata keçirmək mümkün olmamışdı. Əslində Şimali Qafqazın nüfuz dairəsi də XVI əsrin əvvəllərində Səfəvi dövlətinə mənsub idi. Lakin XVI əsrin II yarısında Səfəvi dövlətində baş verən siyasi qarışıqlıqlardan istifadə edən Osmanlı dövləti və Krım xanlığı bu ərazilərdə siyasi üstünlüyü öz əllərinə ala bilmişdilər. Burada dini faktor da az rol oynamamışdı. Lakin XVII əsrin əvvəllərində Səfəvi şahı I Abbas Səfəvi dövlətinin qüdrətini bərpa edərək Osmanlı dövləti ilə müharibə aparmış və 1612 - ci il İstanbul müqaviləsi ilə Cənubi Qafqaz və Dağıstan üzərində hakimiyyətini bərpa edə bilmişdi. 1613 - 1614 - cü illərdə isə şahın ordusu Kumık və Şimali Qafqazın bir sıra hakimlərini özünə tabe etdi. Buraya qaraçaylar, noqayların bir hissəsi, kumık şamxalları və tabasaranlılar aid idi. Şah I Abbas bütün Şimali Qafqazı öz hakimiyyətinə tabe etmək istəyinə tam nail olmasa da, buradakı xalqlar arasında öz siyasi nüfuzunu əsas etibarilə bərpa edə bilmişdi. 1616 - cı ildə Səfəvi Osmanlı müharibələri yenidən qızışanda Şimali Qafqaz xalqları onların ərazisindən Krım ordusunun keçərək Səfəvi dövlətinə zərbə vurmasına imkan verməmişdilər. Buna görə də, Osmanlı dövləti Krım xanının əsgərlərini donanma ilə daşımalı olmuşdu. 1619, 1629, 1635 - ci illərdə də Osmanlı ordusunun eyni cəhdləri səmərə verməmişdi. 1638- ci ildə Osmanlı dövlətinin müxtəlif hədiyyələr və vədlərlə Şimali Qafqaz feodallarını öz tərəfinə çəkmək cəhdləri də boşa çıxmışdı. 1619 - cu ildə Endirey şamxalı da Səfəvi hakimiyyətini tanımışdı. Amma Os-

manlı-Səfəvi ziddiyyətlərindən və Şimali Qafqazdakı feodal dağınıqlığından Rusiya uğurla istifadə etmiş, Şimali Qafqazda Sunja yaxınlığındakı qalalarını bərpa etmişdi.

Şah I Abbasdan sonra hakimiyyətə gələn Şah I Səfi Şimali Qafqazda Səfəvi nüfuzunun saxlanması üçün genişmiqyaslı hərbi strateji tədbirlər planı hazırlamışdı. Bunlardan birincisi, burada yerli şamxalların köməyi ilə Rusiya qalaları sökülməli, bu yerlərdə Səfəvi dövlətinin sərhəd məntəqələri rolunu oynayacaq yeni istehkamlar və qalalar tikilməli idi. İkincisi, həmin qalalarda başlanğıc üçün Səfəvi ordusunun qarnizonları yerləşdirilməli idi. Lakin yerli feodalların separatçılıq hissləri bu planların həyata keçirilməsinə mane oldu. Şahın başının Osmanlı dövləti ilə müharibəyə qarışması da bu işdə az rol oynamadı. 1639 - cu ildə Qəsri-Şirin müqaviləsindən sonra Şah I Səfi Şimali Qafqazda yenidən dövlətin nüfuzunu bərpa etməyə çalışdı. 1642 - ci ildə Rusiyanın Şah I Səfiyə kumıklara qarşı ərazi iddiası irəli sürməsi müharibədən yenicə çıxmış I Səfinin Şimali Qafqazda möhkəmlənmək planlarına mane oldu.

Lakin onun varisi Şah II Abbas yarımçıq qalmış planları həyata keçirməyə çalışdı. Belə ki, 1645 - ci ildə Şimali Qafqaza qoşun yeridərək Qaytaq və Kumık bəyliklərini tabe etməyə çalışdı. Lakin Rusiya Tərki qalasında xeyli ordu toplayaraq buna yenidən mane oldu. Bu siyasi toqquşma artıq Rusiyanın Şimali Qafqazda ağalıq əldə etmək üçün qəti addımlarının başlanğıcı idi. Şah II Abbasın 1651 – 52 - ci illərdəki Tərki ərazisinə hücumları uğurla nəticələnsə də, onun bu ərazilərdə istehkamlar tikmək və

rusların nüfuzunun qarşısının alınması cəhdləri yenidən nəticə vermədi. Bu da Şimali Qafqaz feodallarının maneçiliyinin nəticəsi idi. Onlar gah Rusiya, gah Osmanlı və Krım, gah da Səfəvi dövlətlərinin tərəfinə keçməklə, onlar arasında siyasi ziddiyyətlərdən istifadə edib, siyasi müstəqilliklərini saxlamaq istəyirdilər.

XVII əsrin 60 - cı illərində Dağıstanı və Mərkəzi Qafqazı çıxmaq şərti ilə qaraçaylar, balkarlar və kabardinlərin torpaqları nominal olaraq Krım xanlığının asılılığında idi. Lakin Rusiya özü belə artıq buralarda möhkəmlənməyə başlamışdı. İlk olaraq ruslar buralarda qalalar tikməyə başladılar. XVII əsrin 60 - cı illərindən başlayaraq, ruslar kabardinlər və balkarları artıq öz siyasi asılılıqları altına almışdılar. Rusların Tərki ərazisində qalalar tikməsi həm Səfəvi, həm də Osmanlı dövlətlərinin narazılığına səbəb olmuşdu. Səfəvilər1653 və 1667 - ci illərdə bu qalaların sökülməsinə cəhd göstərmiş, hətta Rusiya ilə bu məsələ baglı razılaşma da imzalamışdılar.

XVII əsin 70 - ci illərində Şimali Qafqazda Rusiya ekspansiyasının yeni mərhələsi başlandı. Rusiya Osmanlı dövləti və Krım xanlığı ilə müharibənin başlanması ilə əlaqədar olaraq Rusiyaya meyl göstərən Şimali Qafqaz bəylərinə müraciət etdi. 1670- ci ildə rus ordusunun Krım üzərinə yürüşündə bir sıra Qafqaz bəyləri də iştirak etmişdilər. 1672 - ci ildə isə Kabarda knyazı Xaspulad Krım dəstəsini məğlub etmişdi. Ümumiyyətlə, Şimali Qafqazda Rusiya hakim dairələri türk xalqlarının stabil Osmanlı və Krım meylinə cavab olaraq, Kabarda bəylərinin siyasi nüfuzunun artırılmasına daha çox çalışmağa başladılar.

1676 - cı ildə başlayan Rusiya-Osmanlı müharibəsində Rusiyanın hərbi əməliyyatları Ukrayna üzərində Rusiyanın siyasi hakimiyyətinin tanınması ilə nəticələndi. 1681 - ci ildə Rusiya ilə Baxçasaray sülhünün imzalanması Osmanlı və Krım xanlığının Şimali Qafqazda mövqelərinin möhkəm olmadığını göstərdi.

XVIII əsrdə Şimali Qafqazın türk xalqları arasında siyasi dağınıqlıq qalmaqda davam edirdi. Bunlardan təkcə Kiçik noqaylar səkkiz tayfadan və bir neçəordadan ibarət idilər ki, bunların da içərisində ən güclüsü Kuban ordası idi. Bundan başqa Qaranoqaylar və Aksay noqayları var idi.

Bundan başqa Dağıstan türkləri olan kumıkların da arasında siyasi dağınıqlıq hökm sürürdü. Bir hissə kumıklar daha çox Rusiyaya, bəziləri Səfəvilərə, qalanları isə Osmanlı dövlətinə meyl edirdi. Lakin kumık xanlıqları içərisində daha çox Qazıkumuk xanlığı fərqlənirdi. Bundan başqa XVIII əsrin əvvəllərində Dağıstanın cənub - qərbində Avar xanlığı da yüksəlməyə başlayır. Kumıkların bir çox siyasi qurumları da Dağıstan və Şimali Qafqazda dağınıq dövlətlər halında fəaliyyət göstərirdilər. Şimali Qafqazda Dağıstandakı Qazıkumıkdan başqa Tərki şamxallığı da mövcud idi. Qaraçay və balkar etnosları isə hələ də dağınıq kənd icmaları halında fəaliyyət göstərirdilər.

1642 - ci ildə Səfəvilərin kumıkları tabe etmək cəhdlərinə qarşı Rusiya hökuməti açıq-açığına etirazını bildirmişdi. Səbəb isə kumıkların Rusiya himayəsində olmaları göstərilmişdi.

XVIII əsrdə Kumık ərazısındə doqquz bəylik formalaşmışdı. Bunlara Aksay, Köstək, Qazanişin, Qarabudaxkənt, Mehduli, Endirey, Tərki, Erpeli və Buynak bəylikləri daxil idi. Kumıkların daxili siyasi vəziyyətini yaxından izləyən Rusiya hökuməti də hər vasitə ilə onların arasını qızışdırmağa çalışır, gah bu, gah da digər yerli feodalı öz tərəfinə çəkərək vəziyyəti gərginləşdirirdi. Osmanlı dövləti də eyni siyasəti yürüdürdü. XVIII əsrin 60 - cı illərində Tərkidə Murtuzəlinin şamxal olmasının əleyhinə onun başqa qohumları da çıxmağa başladı. İlk olaraq Qazanişin bəyi Dişsiz Bammat ona qarşı üsyan qaldırdı. Dərbənd, Avar, Endirey, Köstək bəyləri də onun tərəfini saxladılar. Qazıkumuk, Akuşa və Kabarda bəylərinin bir hissəsi isə Murtuzəlinin tərəfini saxladı. Ruslar ilk baxışda Dişsiz Bammatın tərəfini saxlasalar da, ona real kömək etmədilər. Buna görə də, o, Tərkidə möhkəmlənə bilmədi. Murtuzəli isə koysu, akuşa əhalisi və qubalı Fətəli xanın köməyi ilə öz taxtında yenidən oturdu. 1762 - ci ildə Rusiya hökuməti bütün kumık bəylərinə Tərkidəki ara müharibələrinə qarışmağı qadağan etdi. Bu da əslində Murtuzəlinin hakimiyyətinin möhkəmlənməsi demək idi. Lakin Dişsiz Bammat 1774 - cü ilə qədər gah başqa Dağıstan hakimlərinin köməyi, gah da rusların yardımı ilə Tərkini tutmağa çalışırdı.

Ruslar başqa xalqlar arasındakı proseslərə də bu cür müdaxilə edirdilər. Eyni siyasi vəziyyət qaraçay və balkarlarda da müşayiət edilirdi. Rəsmi cəhətdən Kabardaya tabe olan bu xalqlar əslində daxili müstəqilliklərini saxlayır, Kabardada gedən ara müharibələrində geniş iş-

tirak edirdilər. XVIII əsr Qazıkumux şamxallığının yüksəldiyi bir vaxt idi. Bu zaman şamxallıq Kumux, Mayçaymi, Mukar, Vitsxin, Aştıkulu, Arçişal və Kür qəzalarına bölünürdü. Bunların hamısını bəylər tərəfindən idarə edilirdi. Lakin yerli idarəçilikdə camaatlılıq sistemi daha güclü idi. Dövlətdə hakimiyyət irsi idi. Onun maliyyə və saray işlərini nazirlər həyata keçirir, ictimai asayişi isə nökərlər qoruyurdular. Yerlərdə torpaq bölünməsi və mülkiyyət məsələlərinə "kunaçı" deyilən icma başçısı nəzarət edirdi.

XVIII əsrin əvvəllərindən başlayaraq Şimali Qafqaz türk xalqları Osmanlı, Səfəvi və Rusiya dövlətlərinin siyasi nüfuz qazanmaq uğrunda mübarizəsində iştirak etməyə başladılar. 1703 - cü ildə Krımın Qafqazla sərhədində Yeniqala qalasını tikdirən Osmanlı dövləti Gürcüstanı tabe etmək istiqamətində tədbirlər görməyə başladı. Bundan başqa Osmanlı dövlətinin Rusiya ilə münasibətləri də kəskinləşirdi. Bunun da səbəbi Rusiyanın Şimali Qafqazda Osmanlı dövləti ilə sərhədlərini müəyyən etməməsi, Azov dənizində intensiv donanma yaratması, eyni zamanda mübahisəli ərazi olan Voronejdə gəmilər quraşdırması idi. Osmanlı dövləti bütün bu hallara son qoyulmasını təkidlə tələb edirdi. Kabarda və Qaraçay ərazilərini isə Osmanlı dövləti haqlı olaraq özünün torpaqları hesab edirdi. 1707 - ci ildə Krım xanının orduları Kabardaya basqın etdilər. Bundan başqa Osmanlı dövlətinin və yerli Qafqaz bəylərinin hərbi dəstələri Kuban, Tərki və Qreben kazaklarının qalalarına basqın etməyə başladılar. 1711 - ci il Prut müqaviləsi Osmanlı dövlətinin

Şimali Qafqazda fəaliyyətinin xeyli genişlənməsinə səbəb oldu. 1711 - ci ildə Krım sərkərdəsi Murat Sultanın ordusu Kabardaya basqın etdi və kabardinlər onu məğlub etdilər. Ümumiyyətlə, Kabardin feodalları bu dövrdə daha çox Rusiyanın tərəfini saxlamaqda davam edirdilər. Lakin Osmanlı dövlətinin fəallaşması yerli türk xalqlarının tezliklə Osmanlı dövlətinə meyl etməsinə səbəb olmuşdu. Osmanlı sarayı da hər vasitə ilə onları öz tərəfinə çəkməyə çalışırdı.

1700 - cü ildən başlayaraq Şimali Qafqazda Rusiya da öz diplomatik fəaliyyətini genişləndirməyə başladı. 1711 - ci ildə artıq Osmanlı Rusiya münaqişəsində Kabarda hakimləri Rusiyanın tərəfini saxlamışdılar. Lakin bu uğurlar Rusiyanı qane eləmirdi. Buna görə də Rusiya Səfəvilərdə başlayan dağınıqlıqdan istifadə edərək Şimali Qafqazda öz mövqelərini qəti şəkildə möhkəmləndirmək istəyirdi. 1711 - ci ildə Bekoviç Çerkasski və general Apraksin, 1715 - 1718- ci illərdə P. Volınski Şimali Qafqazda olmuş və buradakı siyasi vəziyyəti, əhalinin əhval ruhiyyəsini öyrənmiş, yerli feodallarla danışıqlar aparmışdı. Eyni məqsədlə A. Lopuxin, Baskakov da buralarda olmuş, eyni zamanda rus səyyahları F. Saymonov və Urusov Xəzərin sahillərinin xəritəsini tərtib etmişdilər.

1712 - ci ildə Qreben kazakları Tərki çayı üzərinə 6 kazak qalasının əsasını qoydu. 1716 - cı ildə Rusiya kumık şamxallarını, 1719 - ci ildə isə qaytaq usmisini öz himayəsinə qəbul etmişdi. Həmin il Tərki şamxalı da Rusiya himayəsini qəbul etmək üçün I Pyotra məktub göndərmişdi.

Lakin Osmanlı dövləti və Krım xanlığı da bu ərazilərdə öz hakimiyyətlərini saxlamağa çalışırdılar. 1720 - ci ildə Krım xanı Kabarda üzərinə hərbi yürüş təşkil etdi. Lakin iki dəfə təşkil edilən yürüşdə kabardinlər və adıqlar Rusiyanın yardımı ilə Krım ordusunu məğlub etdilər. Krımın Şimali Qafqaza basqınları öz müstəqilliklərini saxlamaq istəyən başqa Şimali Qafqaz türk xalqlarını da Rusiyaya meyl etməyə sövq edirdi.

XVIII əsrin əvvəllərində Şimali Qafqazın bir hissəsi Səfəvi asılılığında idilər. Lakin 1711 - ci ildə Dağıstanda və Qazıkumuxda Səfəvilər əleyhinə üsyan baş verdi. Üsyançılar tezliklə Şabran qalasını ələ keçirdilər. Arxasınca Car - Balakən, Quba ələ keçirildi. Lakin Şamaxı yaxınlığında üsyançılar məğlub edildilər.1712 - ci ildə üsyançılar Hacı Davudun rəhbərliyi altında Şamaxını tutdular. Bundan istifadə edən Rusiya Tərki çayının sol sahillərinə xeyli miqdarda kazak əsgərləri yerləşdirmişdi. Bundan başqa 1719, 1720 - 1722 – ci illərdə Cənubi Dağıstan və Şirvanda Hacı Davud və Qazıkumux xanı Surxayın rəhbərliyi altında üsyançılar Səfəvilərə qarşı hərbi əməliyyatları genişləndirdilər. Rusiya hökuməti məhz bu hadisələrdən istifadə edərək Qafqazı, ilk növbədə isə Şimali Qafqazı hakimiyyəti altına almağa girişdi. Bəhanə isəHacı Davudun üsyançıları tərəfindən Şamaxı alınarkən rus tacirlərinin öldürülməsi oldu.

Rusiya böyük diplomatik hazırlıqlardan sonra Xəzəryanı vilayətlərə hərbi səfərə başladı. Məqsəd isə Səfəvilərdəki siyasi qarışıqlıqdan istifadə edərək bu ərazilərdə möhkəmlənmək və Osmanlı dövlətinin gələcəkdə

Qafqazda nüfuz qazana bilməsinin qarşısını almaq idi. İlk olaraq 27 iyul 1722 - ci ildə Rusiya ordusu iki yolla-quru və Xəzər dənizi vasitəsilə Şimali Qafqaza və Azərbaycana yeriməyə başladı. Lakin Şimali Qafqazın içərilərinə doğru irəliləyən Rusiya kumıkların güclü müqavimətinə rast gəldi. Rusiya bu yürüşdə kabardinlərlə kumıklar arasındakı ziddiyyətlərdən ustalıqla istifadə edirdi. Ruslara qarşı müqavimət göstərən qüvvələr içərisində Endirey hakimləri Aydəmir və Çapalay, eyni zamanda Tərki şamxalı iştirak edirdilər. Şamxallara çeçen hərbi dəstələri də kömək edirdilər.

Lakin avqust ayında Tərki, Köstək və Aksay şamxalları I Pyotrdan asılılıqlarını qəbul etdiklərini bildirdilər. Artıq 1723 - cü ildə Rusiya ordusu əhalinin müqavimətini qıraraq Xəzəryanı bölgələrin demək olar ki, hamısını ələ keçirmişdi. Rusiyanın Xəzəryanı bölgələrdə irəliləyişi Osmanlı dövlətində böyük təşvişə səbəb oldu. Buna görə də Osmanlı ordusu Rusiyanın Qafqazda qərbə doğru genişlənməsinin qabağını almaq üçün təcili hazırlıqlardan sonra Cənubi Qafqaza böyük hərbi qüvvə göndərdi. 1724 - cü il İstanbul müqaviləsinə görə Qafqaz iki dövlət arasında nüfuz dairələrinəbölündü. 1725 - ci ildə Osmanlı ordusu Şimali Qafqazda Müşkür istiqamətində hərbi səfər təşkil etdi. Lakin Qazıkumuklu Surxay xan ona tabe olmadı. Nəticədə 1727 - ci ildə Osmanlı dövləti Surxay xanı müxtəlif vədlərlə, aylıq maaşla və paşa rütbəsi verməklə öz xidmətinə çəkə bildi.

Ruslar da öz növbəsində Xəzər yanı vilayətlərdə və Şimali Qafqazın onlara tabe olan hissəsində möhkəm-

lənməyə çalışırdılar. 1724 - cü ildən başlayaraq Şimali Qafqazın bəzi yerlərində ruslar xeyli sayda qalalar tikməyə başladılar. Lakin bu kumık şamxallarının və qaraçay hakimlərinin narazılığına səbəb oldu. Şamxal Adil Girey və Qazıkumuklu Surxay xan həmin qalaların dağıdılması üçün mübarizə aparmağa başladılar. Lakin Sulak arxası kumıkların rusların tərəfinə keçməsi müqavimətin heçə enməsinə səbəb oldu. Bunlardan başqa ruslar yerli Qafqaz xalqları arasında da köçürmə siyasətini tətbiq edirdilər. Ruslar xeyli sayda kabardini və onlara sədaqətli olan xalqların nümayəndələrini kumıkların, qaraçayların və balkarların ərazilərinə köçürmüşdülər. 1727 - ci ildə Osmanlı dövləti ilə Rusiya arasında Qafqazdakı sərhədlərin müəyyənləşdirilməsi və bölüşdürülməsi həyata keçirildi. Bundan sonra Rusiyanın işğal edilmiş yerləri mənimsəmək üçün gördükləri tədbirlər daha da genişləndi.

İranda Nadirin hakimiyyətinin güclənməsi və Osmanlı dövlətinə qarşı uğurlu hərbi əməliyyatları Şimali Qafqazda və Dağıstanda türk xalqlarının həyatına mühüm təsir etdi. Rusiyanın Qafqazda mövqelərinin zəifləməsi, Osmanlı dövlətinin artıq Qafqazda məğlubiyyətə uğraması bəzi Şimali Qafqaz feodallarını, xüsusilə Qazıkumuk şamxalını Cənubi Qafqazın əhalisi hesabına xəzinəsini doldurmağa və eyni zamanda dövlətinin ərazisini böyütməyə sövq etdi. Ona görə də 1734 - cü ildə Surxay xan Osmanlı dövlətinin hakimiyyətindən çıxdı. Buna da səbəb Surxay xanın 1733 - cü ildə bağlanmış Bağdad müqaviləsinə görə Nadirə qarşı hərbi əməliyyatları dayandırmaq əmri idi. 1734 - cü ildə Nadir özü Dağıstana hərbi

yürüş təşkil etdi. Məqsəd Surxay xanı cəzalandırmaq idi. Qəbələ yaxınlığında, Dəvə batan adlı yerdə Nadir Surxayın ordusunu məğlub etdi və yürüşə davam edərək Qazıkumuku tutdu. Bundan sonra Xasbulatı şamxal təyin edən Nadir Osmanlı dövləti ilə yenidən müharibəyə başladı. Osmanlı dövlətinin isə Qafqaz tayfalarını öz tərəfinə çəkmə cəhdlərinin qarşısını isə Rusiya aldı.

1736 - cı ildə Nadir yenidən Qazıkumuk xanı Surxaya qarşı hərbi əməliyyatlara başladı. Lakin Qazıkumuku tutsa da onu təqib etmədi. Tərki şamxalı Eldarın belə Qazıkumuka yardımı bir nəticə verməmişdi. Lakin Nadir uzaqlaşan kimi Dağıstanda ona qarşı üsyan yenidən qalxdı. Üsyançılara Qaytaq usmisi, Qazıkumuk xanı və başqa hakimlər də kömək edirdilər. 1738 - ci ildə Cənik kəndi yaxınlığında döyüşdə onların köməyi ilə dağlılar Nadirin hərbi qüvvələrini məğlub etdilər.

1741 - ci ildə Nadirin Dağıstan və Şimali Qafqaza hərbi səfəri Mehtuli, Qazıkumuk və Tərki şamxallarının, eyni zamanda başqa türk dövlətlərinin təzyiqi ilə məğlubiyyətə uğramışdı. Nadirin başlıca məqsədi dağlıların müqavimətini qirmaq olsa da əslində bütün Şimali Qafqazı tabe etmək idi. Lakin o buna nail ola bilmədi. Bu həm Azərbaycanda ona qarşı baş verən üsyanlar, həm də onun apardığı daimi işğalçı müharibələr üzündən mümkün olmadı.

Lakin Nadirin Qafqazda möhkəmlənə bilməməsi Osmanlı imperiyasının məğlubiyyətlər üzündən zəifləməsi Rusiyanın Şimali Qafqazda möhkəmlənməsi üçün yol açdı. Rusiyanın XVIII əsrin 30 - cu illərində Qafqaza

müdaxiləsi üçün bəhanəni 1730 - cu ildə Osmanlı imperatorunun Krım xanını Kabardanı tabe edə bilmədiyi üçün devirməsi və xanın oğlunun isə təcili Kabardaya qaçması oldu. Bunu bəhanə edən Krım ordusu 1731 - ci ildə qaçmış şahzadəni geri almaq adı ilə Kabardaya yürüş etdi. Həmin il kabardinlər Rusiyaya yardım üçün müraciət etdilər ki, bu Rusiyanın Şimali Qafqazın işlərinə qarışmasını sürətləndirdi.

Ancaq 1732 - ci ildə Böyük Kabardin knyazının ölümü və taxt uğrunda mübarizə aparanların birinin də Krımda yaşaması Krıma, eləcə də, Osmanlı dövlətinə Kabardanın işlərinə qarışması üçün yeni bir bəhanə vermiş oldu. Hadisələrin belə cərəyan etməsindən təşvişə düşən Rusiya həmin ildə Kabardaya ordu yeritdi. Bundan başqa, 1734 - cü ildə rus ordusu indiki Qroznı ətrafında Krım xanının ordusunu darmadağın etdi. Həmçinin, Osmanlı ordusunun Nadirə də məğlub olması Şimali Qafqazda da Osmanlı dövləti və Krım xanlığının işlərini çətinləşdirdi. Şimali Qafqaz 1736 – 1738 - ci illərdə bir neçə döyüşdə məğlub olan Osmanlı dövləti 1739 - cu ildə Belqrad sülhünü imzalamalı oldu ki, bununla da Kabardanın "müstəqilliyi" təsdiqlənirdi. Lakin bu qələbə Rusiyanın Şimali Qafqazda ağalığını təmin etmiş olurdu.

XVIII əsrin 50 - ci illəri Şimali Qafqaz rəhbərlərinin Rusiya himayəsinə sığınmaq meylləri ilə xatırlanır. Onlar öz aralarındakı mübahisələri həll etmək üçün Rusiyaya müraciət edir və Rusiyanın asılılığını qəbul edirdilər. 1750 - 1751- ci illərdə Tərki Şamxalı Xaspolat Rusiya asılılığını qəbul etmək üçün Peterburqa elçi göndərmişdi.

Bundan başqa, 1751 - ci ildə Qazıkumuk hakimi Surxay xan və Avar xanları Rusiyaya elçilər göndərməklə Rusiya himayəsini qəbul etmək istəyirdilər. 1764 - cü ildə Sulak ətrafı kumıklar və eyni zamanda ikinci dəfə Qazıkumuk xanı Rusiyaya eyni məqsədlə elçilər göndərirdilər. Lakin Rusiyanın ikitirəli mövqeyi, Rusiyanın Şimali Qafqaza qarşı aqressiv siyasət yürüdən Kartli Kaxeti çarlarına yardımı Şimali Qafqaz dövlətlərində etiraz doğurur, ona görə də bəzən antirus çıxışlara səbəb olurdu. 1758-ci ildə balkarlarla, çeçen icmalarının Rusiyaya qarşı üsyanı məhz bu narazılığın nəticəsi idi.

1768 – 1774 - cü illər Rusiya-Osmanlı müharibəsi hər iki tərəfin Şimali Qafqazda diplomatik fəaliyyətlərinin genişlənməsinə səbəb oldu. 1768 - ci ildə Tərki şamxalı Murtuzəli, Qaytaq usmisi, qazıkumuklular, Endirey şamxalı, Köstək şamxalı da Rusiyanın himayəsini qəbul etdilər. Eyni zamanda noqayların bir hissəsi Rusiyanın tərəfini saxladı. Lakin bu dövlətlərin Rusiyanın tərəfini saxlaması yalnız və yalnız başqa dövlətlərin qarşıdurmasından istifadə edərək öz müstəqilliklərini saxlamaq üçün manevr etməkdən ibarət idi. 1774 - cü ildə Krım xanı və Osmanlı dövlətinin birgə ordusu Şimali Qafqazda Naur stansiyası yaxınlığında noqayların, kabardinlərin və rusların birgə həmləsi ilə məğlub edildi. 1774 - cü il Küçük Qaynarca müqaviləsi Kiçik və Böyük Kabardanın, eyni zamanda buralarda yaşayan qaraçay və balkar tayfalarının bir hissəsinin Rusiya təbəəliyinə keçməsinə səbəb oldu. Məsələ bundan ibarətdir ki, kabardin knyazlarından fərqli olaraq, qaraçay icmaları birbaşa Rusiyanın

əleyhinə çıxaraq özləri ilə eyni dindən olan Osmanlı və Krım xanlarının tərəfini saxlamışdılar. Bu da Qaraçay icmalarının təmamilə Rusiya tərəfindən işğal edilməsinə mane olmuş və Rusiyanı daha çox diplomatik yollar axtarmağa məcbur etmişdi.

Rusiya Dağıstan və Azərbaycan feodallarının da bir-birilərilə münasibətlərinə qarışırdı. Buna da Quba xanı Fətəli xanın Qaytaq usmisi və onun müttəfiqlərinə məğlub olması bəhanə olmuşdu. 1776 - cı ildə Dərbah adlı kənddə Qaytaq, Tərki, Qazıkumuk, Buynak, Dərbənd xanlarının Rusiya vasitəçiliyi ilə görüşü oldu. Onlar bir - birilərilə münasibətləri sülh yolu ilə həll edəcəklərini öhdələrinə götürdülər. Lakin Tabasaranda hakimiyyət məsələsi Rusiyanın müqaviləni pozmasına və Dağıstan hakimləri arasında mübarizənin yenidən qızışmasına səbəb oldu. Həmin ildə Endirey, Köstək, Tərki və Aksay hakimləri artıq Rusiya asılılığını qəbul etmişdilər.

1787 – 1791 - ci illər Rusiya Osmanlı müharibəsində Osmanlı imperiyasının uğursuzluqları Rusiyanın Şimali Qafqazda nüfuzunun daha da möhkəmlənməsinə səbəb oldu. Bu da Rusiyanın Şimali Qafqaz xalqlarını tabe etməsi üçün böyük imkanlar açırdı. 1788 - ci ildə Qaraçaylar və balkarlar Rusiya asılılığını qəbul etdilər. Lakin Qaraçayların bu müraciəti Rusiya tərəfindən cavabsız qaldı. Buna görə də Qaraçaylar Osmanlı dövlətinin tərəfini tutdular. 1790 - cı ildə Battal paşanın rəhbərliyi altında Osmanlı ordusunun Qafqazdakı hərbi əməliyyatlarında qaraçay və balkarlar da iştirak etmişdilər. Bundan başqa qaraçaylar 1786 – 1791 - ci illərdə Çeçenistanda baş verən

Şeyx Mənsur hərəkatında da iştirak etmişdilər. Şeyx Mənsurun üsyanında kumık xalqının nümayəndələri də yaxından iştirak etmişdi. Bunlara Bammati şamxallığının rəhbəri Xaspolatı, Kazbek Umaşevi misal göstərmək olar.

Osmanlı dövlətinin məğlubiyyəti kumık feodallarının Rusiyanın yanına axışmasına səbəb oldu. Bir-birinin ardınca onlar Rusiyaya sədaqət andı içdilər. Lakin Rusiyanın beynəlxalq vəziyyətinin mürəkkəb olması Rusiyanı Şimali Qafqazda radikal addım atmaqdan çəkindirirdi.

1796 - cı ildə Ağa Məhəmməd Şah Qacarın basqınından qorxan Dağıstan və bəzi Şimali Qafqaz feodalları kömək üçün Rusiyaya müraciət etdilər. Əvvəlcə rus hökuməti onların hərbi qüvvələrindən ibarət dəstə təşkil etmək istəsə də Qacarın ordusu qarşısında azlıq təşkil etdiklərini görərək, eyni zamanda basqından istifadə edərək Xəzərsahili vilayətləri yenidən ələ keçirmək üçün 1796 - cı ildə həmin ərazilərə yenidən yürüş təşkil etdi. Rus ordusunda kabardinlərdən, Tərki şamxallığından xeyli hərbi dəstələr iştirak edirdilər. Lakin II Yekaterinanın ölümü rusların işğalçılıq planlarını yarımçıq qoydu.

XVIII əsrin sonlarından başlayaraq Rusiya hakimiyyət orqanları Kubanətrafı və Kabardadakı qaraçay və balkar torpaqlarına külli miqdarda adamlar və tayfalar köçürməyə başladılar. Bunlar əsasən kazaklardan, rus kəndlilərindən, noqaylardan, Qafqazda Rusiyaya sədaqət nümayiş etdirən xalqlardan ibarət idilər. Əvəzində qaraçayları, abazinləri, abazin - altıkesekləri öz torpaqlarından uzaqlaşdıraraq dağlıq ərazilərə sürgün edirdilər. Bundan başqa, ruslar hələ I Pyotrun dövründən başlaya-

raq ermənilərin və gürcülərin Şimali Qafqazda yerləşdirilməsinə başlamışdılar. Ancaq onu da qeyd etmək lazımdır ki, Rusiyanın Qafqaza nüfuz etməsi sənayenin və ticarətin buralarda sürətlə inkişaf etməsinə səbəb oldu. Lakin Rusiya XVIII əsrin sonlarına doğru ancaq Ön Qafqaz ərazilərini işğal etməyə nail olmuşdu.

XIX əsrin əvvəllərindən başlayaraq Rusiya imperiyası Şimali və Cənubi Qafqazda yenidən aqressiv siyasətini gücləndirdi. 1801 - ci ildə Rusiya imperatoru I Aleksandr Gürcüstanın Rusiya himayəsinə keçməsi haqqında qərar qəbul etdi. İkinci addım 1802 - ci ilin 26 dekabrında Georgiyevskdə Şimali Qafqazın bəzi dövlətləri ilə ittifaq müqaviləsinin imzalanması oldu. Lakin Rusiya özü ilk olaraq müqavilənin şərtlərini pozmağa başladı. Bundan sonra Şimali Qafqazda Rusiya diplomatiyasının nüfuzu xeyli zəifləmiş oldu. Buna görə də Rusiya hakim dairələri üçün artıq Şimali Qafqazı hərbi yolla tabe etmək məcburiyyətindən başqa çıxış yolu qalmırdı. 1804 - cü ildə Rusiyanın Şimali və Cənubi Qafqazı birbaşa hakimiyyəti altına alma siyasəti İranı Rusiyaya müharibə elan etməyə məcbur etdi. 1804- cü ildə qaraçaylar və balkarlar üsyan qaldıraraq general Qlazenapın ordularına qarşı hərbi əməliyyatlar apardılar. Bundan başqa, Dağıstan və Çeçenistanda da dağ qəbilələrinin bir xeyli hissəsi üsyan qaldırmışdı. Lakin onlar arasında dağınıqlıq, İranın hərbi texniki cəhətdən Rusiyadan geridə qalması Rusiyanın qələbəsini labüd edirdi. 1806 - cı ildə Rusiyaya qarşı müharibəyə Osmanlı dövləti də qoşuldu. Bunun ardınca Şimali Qafqazın bəzi xalqları, o cümlədən də, balkarlar da Rusi-

yaya qarşı mübarizəyə qoşuldular. Balkarlara kabardin knyazları da dəstək olurdular. Bu isə Şimali Qafqaz xalqlarına, xüsusilə də türklərə qarşı rus generallarının qəddar münasibətinə səbəb oldu. 1810 - cu ildə rusların Kabarda ərazisində qaraçaylara qarşı törətdiyi soyqırım hələ də xalqın yaddaşından silinməmişdir. 1811 - ci ildə Qazıkumuk xanı Surxay xan Rusiyaya sədaqət andı içdi. Bu isə başqa kumık xanlarının da Rusiya tərəfinə keçməsinə səbəb oldu. 1813 - cü ildə Gülüstan müqaviləsi ilə Dağıstan Rusiyanın tərkibinə keçmiş hesab edilirdi. Bununla da Dağıstan ərazisində yaşayan türk xalqları, həmçinin kumıklar da Rusiya təbəəsi hesab edilirdilər. Bununla Tərki şamxallığı da Rusiyanın tərkib hissəsi hesab olundu.

Rusiyanın başının İranla və Osmanlı imperiyası ilə müharibələrə qarışması Şimali Qafqaz xalqlarının yenidən Rusiyaya qarşı qalxmasına səbəb oldu. Təkcə Kumıkiya ərazısində beş üsyan (1818 - 1822; 1823 - Şamxal üsyanı;1825; 1831; 1843 - müəllif) baş vermişdi. Bundan başqa qaraçaylar da fəal surətdə Osmanlı imperiyası tərəfindən Rusiya əleyhinə mübarizə aparırdılar. 1825 - ci ildə qaraçay və kabardinlər üsyan edərək ətraf stansiyaların bir neçəsini dağıtdılar.

Şimali Qafqazdakı yerli camaata qarşı Rusiya generalı Yermolovun münasibəti ümumiyyətlə, öz qəddarlığı və sərtliyi ilə seçilirdi. Rusiyaya qarşı mübarizə aparan feodalların və etnosların iqtisadi əsasını dağıtmaq istəyən general kəndləri viran qoyur, bütöv etnosları öz yerlərindən Rusiyanın içərilərinə doğru köçürür, kəndlə-

ri və qəsəbələri məhv edirdi. Rusiyaya sədaqətli olan osetinləri 1822 - ci ildə Yermolov qaçan noqayların və kumıkların torpaqlarına köçürmüş, onlara  xeyli torpaq sahəsi paylamışdı. Yermolov kazakların da köçürülməsi ilə də məşğul idi.

1820 - ci ildə Qazıkumuk xanı Surxay döyüşdə ruslara məğlub olaraq qaçdı və onun yerinə Aslan xan təyin edildi. Qaytaq usmiliyi isə ləğv edildi. II Rus İran və Rusiya-Osmanlı müharibəsində Tərki şamxallığı Rusiyaya sədaqətli qalmışdı. 1822 - ci ildə Yermolov qaraçaylar üzərinə hərbi dəstə göndərdi. Lakin dəstə məğlub edildi. 1824 - cü ildə Yermolov Dudaruk abazinləri kəndinə basqın edərkən qaraçaylar abazinləri müdafiə etmişdilər. Bütün Rusiya İran və Rusiya Osmanlı müharibələri ərzində Qaraçay xalqı Rusiyaya qarşı mübarizədə böyük qəhrəmanlıq göstərmişdi. 25 iyun 1826 - cı ildə Qaraçaylarla Rusiya arasında bitərəflik haqqında müqavilə imzalandı. Həmin ildə də Qaraçay elçiləri Osmanlının Anapadakı forpostuna elçi göndərərək dövlətə öz sədaqətlərini ərz etmişdilər. 1822 - ci ildə Rusiya Balkarlar üzərinə hərbi yürüşə başladı. Balkarlar dağlı xalq olduqları və buraları yaxşı tanıdıqları, Osmanlı dövlətindən də kömək aldıqları üçün Rusiyaya xeyli müqavimət göstərirdilər. 1827 - ci ildə Balkar taybəyiləri (bəzi yerlərdə dağbəyiləri-müəllif) Rusiya hakimiyyətini qəbul etdilər. 1852 - ci ildə Rusiya imperatoru I Nikolay balkar taybəyilərinin titullarını "ağsaqqal" idarəsi formasında təsdiq etdi.

Qaraçay etnosunun yaşadığı yerləri təcrid etmək üçün Rusiya buraları hələ XIX əsrin əvvəllərindən müx-

təlif hərbi istehkamlar və qalalar vasitəsilə dövrələmişdi. 1828 – ci ildə ruslar Qaraçay üzərinə son hücuma keçdilər. Burada 20 oktyabrda baş verən, 12 saat davam edən Xasavkin döyüşündə qaraçaylar tam məğlub oldular. Qaraçayların bəyi İslam Krımşamxalov daha böyük qırğına yol verməmək üçün 26 oktyabrda general Emanuilin qarşısına çıxaraq Rusiyaya tabe olduğunu bildirdi və imperatora sədaqət andı içdi.

Lakin qaraçaylarla bağlanan müqavilənin ticarətə aid olan maddələrini pozan çar hökuməti, qaraçaylardan müqaviləni olduğu kimi yerinə yetirməyi tələb edirdi. Bundan başqa, 1834 - cü ilə qədər qaraçay camaatının otlaqları əllərindən alınmış, onların girovları isə Finlandiyaya sürgün edilmişdilər. Bundan başqa, çar hakimiyyəti qaraçaylara qarşı açıq diskriminasiya siyasəti də yeridirdi. Bu isə qaraçayların üsyanına səbəb oldu. Buna görə də Rusiya hökuməti yenidən qaraçaylarla 1828 - ci il şərtlərilə müqavilə bağladı. Lakin çar hakimiyyəti orqanları hər vasitə ilə Qaraçay əhalisini qarət etməklə məşğul olurdular. Hətta Nalçikdə saxlanılan girovlar belə əziyyətə məruz qalırdılar. XIX əsrin 40 - cı illərindən başlayaraq Qaraçay əhalisi İmam Şamilin hərəkatına dəstək verməyə başladı. Şamilin ən yaxın adamları məhz bu ərazilərdə sığınacaq tapırdılar. 1855 - ci ildə Şamilin emissarı Məhəmməd Əminlə bir yerdə qaraçay əhalisi də ruslara qarşı üsyan qaldıraraq fəal hərbi əməliyyatlara başladılar. Həmin Xasavkin döyüşündə qaraçaylar yenidən məğlub oldular və Qaraçay ərazisi təmamilə ruslar tərəfindən işğal edil-

di. Bu tarix Qaraçay əhalisinin Rusiyaya birləşdirilməsi tarixi kimi qəbul edilir.

1834 - cü ildən 1859 - cu ilə qədər Çar hakimiyyəti Qaraçayların torpaqlarını, Kabardanı, Kubanətrafı əraziləri hərbi pristavlıq sistemi ilə idarə edirdi. Qaraçay torpaqlarına təyin edilən ilk pristav kabardin mənşəli Atajuko Atajukin idi. 1861 - ci ildə Qaraçay və Təbərdin pristavlığı vahid Qaraçay pristavlığında birləşdirildi. Pristavların hakimiyyəti eyni zamanda məhkəmə, polis və hərbi hakimiyyəti birləşdirirdi. Torpaqlar müxtəlif hərbi vahidlər olan pristavlıqlara və şəhərlərə bölünür. Bunları isə bütün məhkəmə və hərbi hakimiyyəti öz əllərində cəmləşdirən pristavlar və şəhərlərdə komendantlar idarə edirdilər. Şamilin təslim olmasından sonra Rusiya pristavlıqları ləğv edərək dairə mülki idarəçilik sisteminə keçdi. Qaraçay ərazisi isə beş dairə arasında bölüşdürüldü. 1855 - ci ildə balkarları da öz tərkibinə alan Kabardin dairəsi yaradıldı. 1866 - cı ildə beş balkar cəmiyyəti birləşdirilərək Dağlı sahə məntəqəsi yaradıldı. 1864 - cü ildə tərkibinə qaraçayların da daxil olduğu Yuxarı Kuban dairəsi, 1866 - cı ildə isə Elbrus dairəsi yaradıldı. 1871 - ci ildə isə göstərilən dairələr Battalpaşa uyezdində birləşdirildilər. Yalnız Tərki dairəsi 1888 - ci ilə qədər qaldı.

Türkmənçay müqaviləsinin bağlanması ilə bütün Dağıstanın Rusiya hakimiyyətinə keçməsi təsdiq edildi. 1828 - ci ildə Rus orduları Şimali Qafqazda sonuncu Osmanlı qalası olan Anapanı da aldılar. Bununla da Şimal Qərbi Qafqaz Rusiya tərəfindən işğal edildi. Lakin Rusiyanın Şimali Qafqaz xalqlarına qarşı ayrı seçkilik və feo-

dal müstəmləkəçi siyasəti Qafqaz xalqlarının, o cümlədən kumıkların da İmam Şamilin hərəkatında iştirak etməsinə səbəb oldu. Hərəkatı zorla yatıran ruslar yerli xalqlara qarşı müəyyən güzəştlərə getsələr də yerli xalqların dövlətçiliyini ləğv edərək onları birbaşa Rusiya idarəçiliyi altına aldılar. 1864 - cü ildə Tərki şamxallığı ləğv edilərək Dağıstan vilayətinin Temir xan şura dairəsi elan edildi. Həmin ildə Qazıkumukda da xüsusi idarəçilk yaradıldı. 1867 - ci ildə isə Mehtuli xanlığı ləğv edilərək Dağıstan vilayətinə qatıldı.

### *§ 1. Kalmıklar (Oyratlar) XVII-XIX əsrlərdə*

Kalmıklar müasir dövrdə monqol xalqlarından biri kimi qeyd edilirlər. Aşağıda göstərilən bəzi səbəblərdən bu xalqların da yeni dövrdəki tarixinin dərs vəsaitinə salınmasını məqsədəuyğundur. Kalmıklar ətraf türk xalqlarının, o cümlədən də noqaylar, başqırdlar, qazaxlar və tatarların etnogenezi və siyasi formalaşmasında mühüm rol oynamışdır. Kalmıkların etnogenezində türklük komponenti üstünlük təşkil edir. Fikrimizi əsaslandırmaq üçün əlimizdə olan əsas dəlillər kalmıkların etnik sələfləri olan oyratların tarixi mənbələrdə türk xalqlarından biri kimi göstərilməsi və onların sonradan monqollaşması haqqında verilən məlumatlardır. Oyratlar mənbələrdə "otuz tatarlar" deyə xatırlanır. Eyni zamanda, mənbələrdə onların Uyğur dövlətindən qoparaq müstəqil dövlət qurumu meydana gətirdiyi də qeyd edilir. Bundan başqa

bu tayfanın kereit, merkit və nayman tayfalarının qaynayıb-qarışması nəticəsində meydana gəldiyi fikri də vardır ki, bunlardan kereitlərin türk, yaxud monqol mənşəli olmaları məsələsi hələ də münaqişəli olsa da, tarixçilərin çoxu merkit və naymanların türk mənşəli olmaları qənaətindədirlər. Fəzlullah Rəşiddədin belə oyrat tayfalarının adını türk tayfalarının içərisində çəkir. Bundan başqa kalmık tayfalarının içərisində yer alan sart- kalmaklar, satanlar, derben oyratlar, minqlər və başqa tayfaların adlarına həm də qazax, qırğız və başqırd xalqlarına daxil olan tayfaların içərisində də rast gəlinməsidir. Onu da qeyd etmək lazımdır ki, Sart - kalmaklar kalmıkların ərazisində yaşasalar da,öz türklüklərini hələ də saxlamaqdadırlar. Derbenlər, turqutlar, minqlər isə Başqırdıstan, Qırğızıstan ərazilərində hələ də yaşayırlar və türkcəni öz ana dilləri hesab edirlər. Tarixçilər və mənbələr də həmin tayfaların türk mənşəli oldugunu göstərirlər.

Maraqlı faktlardan biri də kalmık xanlarının aid olduğu **Çoros/ Soros** tayfasının qırğız mənşəli tayfa olmasıdır. Bundan başqa kalmık xanları **"Huntayşi**" rütbəsini daşıyırdılar ki, bu qədim Hun imperiyası hökmdarlarının daşıdıqları **"Tanhu"** rütbəsinin şəkli dəyişmiş formasıdır.

Kalmık dilində bir çox sözlərə də türk dillərində eyni ilə rast gəlinir ki, bu da kalmıkların türklərlə yaxından qohum olduqlarını göstərən faktlardan biridir. Ən nəhayət, Rusiya ərazisində meydana gələn Kalmık xanlığının siyasi quruluş sisteminin təmamilə türklərin siyasi quruluşuna uyğun olaraq təşkil edilməsidir. Burada sol qanad tayfaları ilə sağ qanad tayfaları siyasi status baxımından

bir - birindən xeyli fərqlənirdilər. Eyni zamanda dövlətin idarəsi də məhz türk qayda - qanunları əsasında qurulmuşdu.

Kalmık xanlığının hakimiyyəti altında xeyli sayda tatar, başqırd və noqay tayfalarının da cəmləşdiyini də qeyd etmək lazımdır. Bütün bunlar hamısı Kalmık xanlığının tarixinin "Türk xalqları tarixi" fənni çərçivəsində öyrənilməsini aktuallaşdıran səbəblərdir.

XVI əsrin ortalarına doğru Monqol tayfalarında həm etnik və həm də siyasi cəhətdən ikili dövlətlər sistemi meydana gəlmişdi. Bunlardan sol qanada mənsub olanlar Böyük Monqol ulusu deyilən ulusa tabe idilər. Lakin sağ qanada mənsub olan monqollar isə əslində bu və ya digər oyrat qəbiləsi rəhbərlərinə tabe olaraq yarım müstəqil həyat sürür, rəsmi olaraq isə sol Monqol ulusu xanının hakimiyyətini qəbul edirdilər. Həmin oyrat uluslarının rəhbəri olan Şoloy Ubaşı Huntayci (1567 - 1623) Altun xan titulunu qəbul etmişdi. Altun xanların knyazlığı XVI əsrin sonlarına doğru Cənubi Sibirdə meydana gəlmişdi. Buna səbəb isə Monqolustanda hökm sürən tayfa rəqabətinin həddindən artıq qızışması olmuşdu. Şimalda Altun xanların knyazlığı Sayan dağlarına qədər, cənubda isə Monqol Altaylarının yamaclarına qədər uzanırdı. Qüdrətinin yüksək vaxtlarında, yəni XVI əsrin 90 - cı illərində Altın xan Sibirin cənubunda məskən salmış tayfalara qarşı hərbi yürüşlər aparmış və onların bəzi tayfalarını özünə tabe edə bilmişdi. Oyratların derbet və turqut tayfaları isə şimal-qərbə indiki cənub-şərqi Sibir ərazilərinə köç etməyə məcbur olmuşdular. Sonradan onlara

derbet tayfaları da qoşulmuşdular. Buna baxmayaraq, həmin tayfalar öz müstəqilliklərini qoruya bilmişdilər. Altın xanın qərargahı Tes çayı hövzəsindəki Ubsu Nur gölü yaxınlığında yerləşirdi ki, buradan da o, ilk dəfə Sibir voyevodası ilə siyasi münasibətlər qurmuşdu. Altun xan başqa xırda tayfalardan da bac alırdı. O, qərbə köçən tayfalara qarşı da mübarizə aparmış və onları öz vassallarından birinə çevirməyə çalışmışdı. Lakin bu oyrat qəbilələri ona tabe olmamışdılar.

Oyrat tayfalarının Qərbi Sibirdə məskunlaşması və onların cənub sərhədlərinin Şərqi Türküstana çatması, bundan başqa oyratların şimal-qərb istiqamətində köçlərinin qazaxların otlaqları üçün təhlükə yaratması XVI əsrin 50 - ci illərindən başlayaraq, Şərqi Türküstanda və Monqolustanda, Qazax xanlığı əhalisi ilə oyratlar arasında kəskin hərbi toqquşmaların baş verməsinə səbəb olurdu. Rusiya mənbələrində Qərbi Sibir hövzəsində məskən salmış bu tayfalar "kolmaklar", yaxud da "kalmıklar" deyə anılırdılar. XVI əsrin sonlarına doğru bəzi oyrat tayfaları Qazax xanlarının hakimiyyətini qəbul etsələr də, XVI əsrin 90 - cı illərinin sonunda artıq müstəqil həyat sürürdülər. Oyratların cənub qışlaqları isə Buxara xanlığı ilə həmsərhəd idi. Lakin bu ərazilərdə oyratların vəziyyəti həddən çox mürəkkəb idi. Çünki cənubdan həm qazax, həm də başqa Mərkəzi Asiya xanlarının təzyiqinə məruz qalan oyratlar, şərqdən isə Sibir xanlığının, XVI əsrin sonlarından başlayaraq qərbdən Sibirə kütləvi surətdə axışan rus kazaklarının və silahlı kəndli dəstələrinin təzyiqinə məruz qalırdılar. Rus mənbələrini qeyd etdiyinə

görə, oyratlar bir müddət qazax tayfalarına da tabe olmuşdular.

XVI əsrin sonunda oyratların bir hissəsi cənub - qərb istiqamətində köç edərək Buxara xanlığı ərazisinə tam yaxınlaşmışdılar. 1603 – 1604 - cü illərdə oyratların Xarəzm əhalisi ilə ilk toqquşmaları baş verdi. Bu toqquşmada məğlub olan oyratlar öz köçlərinin istiqamətini dəyişməyə məcbur oldular. Bundan sonra oyratların tarixində onların köç istiqamətinin Sibirin boş torpaqları istiqamətində baş verməsi mühüm rol oynadı.

Qərbə köçən oyratların tarixində onların Moskva dövləti ilə əlaqələri xüsusi və bəlkə də həlledici rol oynadı. Oyratlar haqqında rus mənbələrinin ilk məlumatları 1574 - cü ilə aiddir. 1590 - cı illərdə oyratlar artıq Qərbi Sibirin daimi sakinlərinə çevrildikləri vaxt Rusiya - oyrat əlaqələri daha da intensivləşmişdi. Belə ki, oyratlar bu ərazilərdə həm də quldurluq və qarətçiliklə məşğul olur, eyni zamanda, gah Sibirə doğru irəliləyən Rusiya tərəfdən Sibirə, gah da Sibir xanı Kuçum tərəfindən Rusiyaya basqın edirdilər. Yəni oyrat qəbilələri artıq Qərbi Sibirin torpaqlarında aparıcı etnik ünsürə çevrilmişdilər. Bunlardan turqut qəbiləsinin rəhbəri Ho Ürlük tayşi 1606 - cı ildə Rusiyanın sərhəd məntəqələrinə elçi göndərərək bu ərazilərdə də məskən salmağa icazə verilməsini istəmişdi. Lakin buna yalnız Rusiya hakimiyyətini qəbul edəcəkləri təqdirdə icazə veriləcəyi bildirilmiş, bu şərtə isə oyrat rəhbəri razı olmamışdı. Bundan sonra iki tərəf arasında toqquşmalar davam etmişdi. Bu Rusiya hakimiyyət orqanları ilə oyratlar arasında ilk münasibətlər idi.

Lakin qazaxlar tərəfindən təzyiqlərə məruz qalan oyratlar yenidən 1607 - ci ildə Rusiyaya müraciət etmişdilər. Bununla da kalmık rəhbərləri arasında siyasi əlaqələrin tam rəsmi əsası qoyulmuş və kalmıklara (oyratlara) keçmiş Qazan xanlığının bəzi ərazilərində məskən salmağa icazə verilmişdi. Həmin ildə Ho Ürlük tayşi başda olmaqla oyrat qəbilələri Rusiya himayəsini və təbəəliyini qəbul etmiş, müəyyən miqdarda mal- qara verməyi öhdələrinə götürmüşdülər. 1609 - cu ildə oyratların başqa qəbilələri də Rusiyanın təbəəliyini qəbul etmişdilər. Oyratların Xalxa monqollar tərəfindən təqib edilməsi də onların Rusiya ilə yaxınlaşmasında öz rolunu oynamışdı. Buna görə də kalmıkların Rusiya asılılığını qəbul etməsi ili kimi 20 avqust 1609 - cu il tarixi götürülür. Əslində isə, kalmık qəbilələrinin Rusiya asılılığını qəbul etməsi XVII əsrin ortalarına qədər davam etmişdi. Oyratların Rusiya himayəsinə keçməsinə mane olan səbəblərdən biri də Rusiyanın onlardan girov tələb etməsi idi. Özlərini əslində müstəqil hesab edən oyratlar buna heç cürə razı olmaq istəmirdilər. Buna baxmayaraq, oyratların Rusiya ilə münasibətləri onların xalxa monqolları və qazaxlarla münasibətlərində mühüm rol oynadı. Onlar əvvəlcə qazaxları, sonra da xalxa monqollarını məğlub etməyə müvəffəq olmuşdular. Mövqelərini gücləndirən oyrat feodalları artıq Moskva hakimiyyətinə tabe olmaq istəmirdilər. Buna görə də daha öz tabeçiliklərini bəyan etmək üçün gəlmirdilər. 1610 – 1612 - ci illərdə isə otlaq sahələri üstündə yerli rus voyevodaları ilə oyratlar arasında hərbi toqquşmalar baş verdi. Lakin qışın sərt keçməsi 1615 - ci ildə oyratla-

rın xeyli hissəsinin yenidən Rusiyaya müraciət etməsinə səbəb olmuşdu.

XVII əsrin 20 - ci illərinə qədər Rusiya oyratların yalnız Qərbi Sibirdəki hakimləri ilə münasibətlər saxlayırdı. Lakin XVII əsrin 20 - ci illərindən Rusiyanın diqqətini şərqdəki xoşut, cunqar və hoyt feodalları da cəlb etməyə başladı. 1620 - ci ilin oktyabrında Xoşut hakimləri Sibir hakimiyyət orqanları ilə siyasi əlaqələrə girdilər. 1623 - cü ildə Cunqarların Sibir qruplaşması da Rusiya orqanları ilə əlaqə yaratdılar. Lakin XVII əsrin 20 - ci illərində Qərbi Monqolustanda cunqarlarla xalxa monqolları arasında hərbi qarşıdurma getdikcə artmağa başladı. Bu Altın tayçini Rusiyadan yardım istəməyə məcbur etdi. Lakin Rusiyanın şərtləri onun maraqlarına uyğun gəlmədiyi üçün sonrakı danışıqlardan imtina etmişdi. Bu dəfə o, qazax xanı Esim xanla ittifaqda cunqarlara qarşı çıxmışdı. Oyratlar 1623 - cü ildə böyük bir vuruşmada xalxa monqol hokmdarı Altın xanı məğlub edib öldürmüşdülər. Lakin xalxa monqollarından azad olan oyratlar arasında 1625 - ci ildə müharibələr başladı. Bu müharibələr XVII əsrin 30-cu illərinə qədər davam etdi və nəticədə xeyli oyrat qəbiləsinin Sibirə-noqayların yaşadıqları otlaqlara soxulması ilə nəticələndi. Bunun ardınca oyratların başda Xara Xula olmaqla cunqar qruplaşması Monqolustan ərazisindəki torpaqları öz hakimiyyəti altında birləşdirməyə çalışırdı. Onun ölümündən sonra varisi Erdeni Batur Huntayci (1634 - 1653) gələcəkdə Mərkəzi Asiyada səs salacaq olan Cunqar xanlığının(1634 - 1758) əsasını qoydu. Cunqar xanlığının güclənməsi Tibetdə və mon-

qollar arasında Lamaizm dininin yayılmasına və Lamaist kilsəsinin siyasi yüksəlişinə səbəb oldu. Cunqarlar 1642 - ci ildə Tibeti də ələ keçirdilər.

Oyratların Rusiya dövlətinə sədaqət andları, adətən şifahi formada həyata keçirilirdi. Lakin sonradan 1655 - ci ildə ilk dəfə sədaqət andı yazılı formada həyata keçirildi. Ruslar da oyratlara qarşı müəyyən mənada səhv münasibət nümayiş etdirirdilər. Belə ki, oyratlara qarşı başqa Sibir xalqlarındakı kimi girov qoymaq, çarın hakimiyyətini sözsüz qəbul etmək və yasak vermək kimi formalarda həyata keçirirdilər. Lakin bu oyratların tayfa qəbilə və ictimai sisteminə düz gəlmirdi. Buna görə də ilk vaxtlar anlaşılmazlıqdan doğan toqquşmalar olurdu. Bundan başqa oyrat hakimləri qonşulara qarşı da müəyyən siyasi nailiyyətlər əldə etmişdilər və buna görə də Rusiyaya artıq o qədər də ehtiyac duymurdular. Oyratların Rusiya təbəəliyindən imtina etməsinə baxmayaraq,Rusiyanın siyasi vəziyyətinin qarışıq olması Rusiya hakimiyyət orqanlarına onları qovmaq üçün hərbi qüvvə işlətməyə imkan vermirdi. Bundan başqa rusların Polşa və Krımla müharibələri də kalmık hərbi dəstələrinin köməyinə olan ehtiyacı xeyli artırmışdı. Rusiya hökumətini narahat edən bir məqam da Krım xanlığı, Osmanlı imperiyası və Səfəvi dövlətlərinin elçilərinin kalmıklarla görüşməsi haqqında gələn xəbərlər idi. Buna görə də Rusiya hakimiyyət orqanları kalmıklarla münasibətləri fəallaşdıraraq onları öz tərəfinə çəkməyə müvəffəq oldular. 1657 - ci ildə mart ayının 30 - da Kalmık rəhbərləri Monçak və onun qardaşı oğlu Manjit kalmıkların Rusiya

himayəsinə keçmələri haqqında "şərtə" imza atdılar. Bununla da kalmıkların Rusiya himayəsinə keçməsi başa çatmış oldu. Müqavilənin başqa bir maraqlı tərəfi də Rusiya tərəfinin boynuna düşən öhdəliklərin daha dəqiqliklə göstərilməsi idi. Lakin buna baxmayaraq Rusiyanın kalmıklarla əlaqələri yenə də ziddiyyətli olaraq qalırdı. Bu özunu vahid Kalmık dövlətinin yaradılmasında göstərəcəkdi.

Rusiya oyrat əlaqələri xeyli inkişaf edir və demək olar ki, müttəfiq əhəmiyyəti daşıyırdı. Belə ki, Sibirin içərilərinə irəliləyən rus köçkünləri ilə oyratlar arasında mühüm əhəmiyyət daşıyan ticarət əlaqələri güclənirdi. Bundan başqa oyratlar Rusiyanın özünə siyasi rəqib gördüyü Qazax xanlığı və başqa Mərkəzi Asiya xanlıqlarına basqınlar edirdirlər. Lakin bu xanlıqlar da öz növbəsində borclu qalmır, oyratların özləri də basqınlara məruz qalırdılar. Bu isə onları zəiflədirdi ki, bu da Rusiya dövlətinə siyasi cəhətdən sərf edirdi. Lakin oyratların Qərbi Sibirdə daimi qalan və Rusiya asılılığını tam qəbul edən hissəsi gələcək kalmık xalqının özəyini təşkil etməyə başladı.

1613 - cü ildən başlayaraq oyrat qəbilələri arasında Dalay Batır adlı tayşinin hakimiyyəti yüksəlməyə başlayır. Tezliklə bu şəxs Qərbi Sibirin demək olar ki bütün oyrat tayfalarını öz hakimiyyəti altında birləşdirir. Lakin onun dövləti Şərqi Monqolustana qarşı mübarizədə məğlub olur. Bu səbəbdən də Dalay Batır 1617 - ci ildə Moskva dövlətinin himayəsinə keçmək üçün Rusiya ilə danışıqlar aparmağa məcbur olur. İlk Rusiya səfiri Ataman

İvan Savelyev 1617 - ci ildə Dalay Batırın yanına gəlir. 1618 - ci ildə isə Dalay Batırın elçiləri Tobolskda Rusiya hakimi tərəfindən qəbul edilir. 14 apreldə Dalay Batırın elçiləri çar Mixail Fyodoroviç tərəfindən qəbul edilir və Dalay Batıra Rusiya hakimiyyətini qəbul etmənin şərtləri göndərilir.

Lakin bu dəfə də Moskva və oyratlar arasında əlaqələr pozulmağa başlayır. Ümumiyyətlə, oyratların Moskva dövlətinin siyasi asılılığına girməsi XVII əsrin ortalarına qədər davam etmişdir. XVII əsrin 20 – 30 - cu illərində oyratlar bir tərəfdən Şərqi Monqolustan hökmdarı Altın xanın, başqa tərəfdən isə onunla ittifaq bağlayan Qazax xanı Esim xanın basqınlarına məruz qalırlar. Lakin bir neçə döyüşdə qələbə qazanan müttəfiqlər sonrada təşəbbüsü əldən verərək məğlub olmağa başlayırlar. 1623 - cü ildə Şərqi Monqolustan hökmdarları oyratları yenidən sıxışdırmağa başlayırlar. Bu isə bir neçə böyük oyrat tayfasının onlara qarşı birləşməsinə səbəb olur. Lakin döyüşlərdə oyratların yalnız cənub-qərb qruplaşması iştirak edir. Şimal Qərq qruplaşması isə Dalay Batırın rəhbərliyi altında qazaxların basqınlarına qarşı mübarizə aparırdı.

1623 - cü ildə İrtış çayı yaxınlığında döyüşdə birləşmiş oyrat orduları Monqol hakiminin ordularını darmadağın etdilər. Lakin monqolların 1625 - ci ildə tam məğlub edilməsindən sonra oyratlar arasında ara müharibələri yenidən başladı. Bunun da səbəbi oyrat-xoşut tayfasının rəhbərinin öləndən sonra vəsiyyətnamə qoymamasi idi. Hadisə tam feodal müharibəsinə çevrilmək təhlükəsi qarşısında idi. Derbet qruplaşmasının rəhbəri Dalay Batır

vuruşan tərəfləri barışdırmağa çalışsa da, buna nail ola bilmədi. Buna görə də vəziyyətin durulacağını gözləmək məcburiyyətində qaldı və xoşutların daxili işlərinə qarışmamaq qərarına gəldi.

1628 - ci ilə doğru artıq oyratlar arasında müharibələr sistemli və dağıdıcı xarakter aldı. 1630 - cu ildə Dalay Batır və ona qoşulan başqa oyratların dəstələri, onlara qarşı çıxan xoşut qrupunun rəhbəri Çukur tayçinin ordusunu sarsıdıcı şəkildə məğlub etdilər. Bu müharibələr noqayların da Volqa boyu ərazilərdən çıxarılmasına və onların siyasi nüfuzunun sarsılmasına səbəb oldu. 1633 - cü ildə Həştərxan əraziləri də noqaylardan alındı və onlar kalmıkların təqibindən qorxaraq Krım yarımadası sahillərinə köçdülər. İş burasındadır ki, kalmıkların bu ərazilərə köçməsində Rusiya hakim dairələrinin də böyük rolu vardı. Başqa oyrat kalmık qəbilələri isə Emba və Yaik çayının sahillərində məskunlaşdılar. XVII əsrin 60 - cı illərində artıq göstərilən ərazilər rus mənbələrində Kalmık yurtu deyə anılırdı.

Lakin kalmıkların öz aralarında və başqa tayfalarla müharibələri Rusiya ilə Mərkəzi Asiya arasında ticarət əlaqələrinin pozulmasına gətirib çıxarırdı. 1633 - cü ildə Xivə xanı İsfəndiyar xan hətta kalmıklara birgə Rusiyaya qarşı çıxmaq təklifi də vermişdi.

1635 - ci ildə Cunqar dövlətinin yaranması Sibirin düzlərində köç edən bir çox monqol və oyrat qəbiləsinin geri qayıtmasına və Cunqarlara tabe olmasına səbəb oldu. Lakin Dalay Batırın övladlarının idarə etdiyi turqutların və derbetlərin bir hissəsi nəinki öz yerlərində qaldı-

lar eyni zamanda Rusiya asılılğını tam qəbul etdilər. Sədaqətli və döyüşə bilən silahlı atlı dəstələrə ehtiyacı olan Rusiya kalmıkları həvəslə öz siyasi hakimiyyətinin dairəsinə qəbul edirdi.

XVII əsrin 60 - cı illərinin əvvəllərində Kalmık hakimi Dayçin taxtdan imtina edərək hakimiyyəti oğlu Monçaqa həvalə etdi. 1664 - cü ildə isə Rusiya hökuməti onu kalmıkların başçısı kimi tanıdı. Lakin Rusiyanın ona müraciəti yalnız adi kalmık başçılarına müraciət formasında idi.Əslində Rusiya hakimiyyəti kalmıkların onun qarşısında olan hərbi xidmətlərini də unutmamış deyildi. 1665 - ci ildə isə Moncaqın cavab səfirliyi Moskvada oldu. Monçaq qabiliyyətli və qətiyyətli bir adam kimi özünü göstərməyə başladı. Hakimiyyəti dövründə Monçak fəal surətdə başqa kalmık qəbilələrini də öz ətrafında birləşdirməyə başladı. Monçak Rusiya hakimiyyətinə də qarşı loyallıq nümayış etdirirdi. Ancaq bu Monçakın qardaşlarının ondan ayrılaraq o vaxtkı Osmanlı sərhədlərinə keçməsinə və ona qarşı müxtəlif basqınlar törətmələrinə mane olmadı. Monçak özü Cunqariya üzərinə hərbi yürüşə hazırlaşırdı. Lakin 1669 - cu ildə Moncak qəfildən öldü və kalmıkların birləşdirilməsi işi müvəqqəti olaraq yarımçıq qaldı.

Kalmıkların birləşdirilməsi prosesi mürəkkəb bir siyasi vəziyyətdə aparılmışdı. Bunlardan birincisi, kalmıkların Rusiya tərkibində olmaları idi. Bu isə o demək idi ki, Rusiya hakimiyyət orqanları daima kalmıkların daxili işlərinə müdaxilə edirdilər. İkincisi, kalmık tayfalarının və hakmi sülalə arasında daima ixtilafların olması

idi. Bu da kalmıkların birləşdirilməsi işini xeyli yubadırdı. Bundan başqa qohum Cunqar xanlığından da buna mane olmaq istəyənlər tapılırdı.

Hakimiyyətə onun oğlu Ayuki xan keçdi. Ayuki xanın siyasi proseslərdə iştirakı hələ atasının zamanında baş vermişdi. Belə ki, 1661 - ci ildə Krım xanlığına hücum əvəzində Ayuki xan Kabardin əsilli rus generalı və Həştərxan voyevodası Çekasskinin qızını almışdı. Bu da onun siyasi mövqeyini xeyli gücləndirmişdi. İkinci dəfə 1664 - cü ildə Ayuki xanın adı başqırd feodalları ilə ittifaqda çəkilirdi. 1665 - ci ildə isə Ayuki xan Ukraynaya basqın edən rus ordusuna 6000 atlı ilə yardım etmişdi. Ayuki xanın kalmıklar arasında siyasi nüfuzunun artmasında Rusiya hakimlərinin da əli var idi. Buna sübut olaraq 1677 - ci ildə Ayuki xanın Rusiya ilə danışıqlar zamanı qeyd - şərtsiz Rusiya asılılığını təsdiqləməsi də sübut edir. Lakin Rusiya düzlərdə cəsarətli və müstəqilliyə meylli olan adamın siyasi hakimiyyətinin möhkəmlənməsini də istəmirdi. Ona görə də Rusiya Ayuki xanla başqa kalmık xanları arasında tarazlıq yaratmağa çalışırdı. Bu siyasət I Pyotrun dövründə də davam etmişdi. Lakin Monçak xanın Krım xanlığına qarşı Rusiya ordusunun tərkibində vuruşması onun çar hakimiyyəti orqanları yanında etibarını artırırdı.

Məhz Ayuki xanın dövründə də kalmıkların bir hakimiyyətdə birləşdirilməsi başa çatdırıldı.

Bundan başqa XVII əsrin 70 - ci illərində Çar hakimiyyətinin birbaşa dəstəyi ilə Aşağı Volqa və Ön Qafqaz əraziləri kalmıkların köçlərinə verildi. Onlar bir neçə illi-

yə vergidən və mükəlləfiyyətlərdən azad edildilər. Fərmanın bir cəhəti də ondan ibarət idi ki, kalmıklara verilən torpaqların miqyası və ərazisi konkret göstərilmirdi. Bu da kalmıklara daha böyük zonaları mənimsəmək imkanı verirdi. Kalmıkların əraziləri öz dəqiq sərhədlərinə yalnız XVIII əsrin 30 - cu illərində çatdı. XVIII əsrin əvvəllərində isə kalmıklar əhalinin sayının da stabil səviyyəsinə nail oldular.

Lakin Kalmık xanlığının birləşdirilməsinə mane olan səbəblər vardı. Bunlardan birincisi, xanlıqda üç böyük (turqut, derbet və xoşut) və bir neçə kiçik yarım müstəqil qəbilənin siyasi nüfuzunun hələ də qalması idi. Bu da qəbilələr arasında tez tez müxtəlif səbəblərdən müharibələrə səbəb olurdu. Kalmık dövlətində ulus sisteminin saxlanması idi. Uluslar yarım müstəqil idarəçiliyə malik olan inzibati- etno birliklər hesab edilirdi. Ulus rəhbərləri öz idarəçiliklərində böyük imtiyazlara malik idilər. Xan hakimiyyəti qanuni yollarla onların səlahiyyətlərinə çox məhdud şəkildə müdaxilə edə bilərdi. Rusiyanın Türkiyə üzərində 1739 - cu ildə qələbəsi münasibətilə Kalmık xanı Donduk Daşi zindandan xeyli əsir və cinayətkarı azad etmişdi. Lakin o, ulus hakimlərini eyni cür hərəkət etməyə məcbur edə bilməmişdi.

Rusiyanın Kalmık xanlığının daxili quruluşuna təsiri idi. Bu da dövlətdə mərkəzləşmənin qarşısının alınmasına səbəb olurdu.

Kalmık ailələrinin bu və ya digər noyonun varisləri arasında bölünməsi sistemi idi. Bu da noyon öldükdən sonra onun tayfasının miqyasının parçalanmasına, bun-

dan başqa daha kiçik varislərin narazı qalmasına, nəticədə ailədə rəqabətin, sonra isə araçəkişmələrin alovlanmasına gətirib çıxarırdı.

Araçəkişmələr zamanı Rusiyanın bəzən müdaxiləsi bu münaqişələri daha da alovlanmağa qoymurdu. Ancaq çox zaman Rusiyanın müdaxiləsi nəticəsində də çəkişmələr daha da böyüyürdü.

Kalmık xanlığı Rusiyanın tabeliyində olan torpaqlarda meydana gəlmişdi. Buna görə də Rusiya xanlıqda meydana gələn və cərəyan edən bütün prosesləri izləyir, onun gedişatına müdaxilə edirdi. Lakin Rusiyanı kalmıklarda mərkəzi idarəçilik sisteminin yaradılması qane edirdi. Ona görə də hakimiyyətə gələn Ayuki xanın hakimiyyətini tanıdı. Ayuki xanın dövründə mərkəzləşmənin struktur sistemi yaradıldı, bütün uluslar üçün məcburi olan inzibati idarəçilik sistemi meydana gəldi. Bu isə Kalmık xanlığını adi köçəri dövlətlərdən bir qədər üstün səviyyəyə qoyurdu. Bundan başqa Ayuki xan vahid vergi, məhkəmə və ticarət sistemi yaratdı. Daha sonra ümumi kalmık ordusunun yaradılmasına başladı.

Ayuki xanın hakimiyyəti illərində vahid kalmık məhkəmə - inzibati orqanı olan Zorqenin əhəmiyyəti artmağa başladı. Bundan başqa xanla Rusiya arasında vasitəçilik üçün Bodakçi deyilən bir vəzifə də meydana gəldi.

Kalmıkların birləşməsinin başqa səbəbləri də var idi. Bu da Volqaboyunun köhnə əhalisi noqaylara qarşı mübarizə, başqa xanların basqınlarından müdafiə edilmək və eyni zamanda Rusiya ilə münasibətlərdə vahid cəbhədən çıxış etmək zərurəti yaradırdı. XVII əsrin 80 - ci

illərində Kalmık xanlığında mərkəzləşmə və idarə struktur işlərinin meydana gəlməsi, möhkəmlənməsi prosesi başa çatdı. Bundan sonra Dalay Lama Ayuki xanın titulunu təsdiqləmək üçün ona fərman göndərdi. Ayuki xan isə bunu həvəslə qəbul etdi. Lakin Rusiya mənbələrinin yazdığına görə Ayuki xan Dalay Lamadan fərman göndərilməsini özü xahiş etmişdi. XVIII əsrin əvvəllərində Rusiya da Ayuki xanın hakimiyyətini tanıdı.

Kalmık xanlığı üç böyük tayfadan və bəzi xırda tayfalardan ibarət idi. Lakin xırda tayfalar tezliklə böyük tayfalar tərəfindən assimilyasiya edilir və bəzən də, dövlətin özü tərəfindən başqa tayfanın tərkibinə daxil edilirdi. XVII – XVIII əsrlərdə tayfalar özləri uluslara, onlar da otoklara (nəsillərə - müəllif) bölünürdülər. Bunların da başında noyonlar dururdu. Lakin bu artıq yarımmüstəqil noyonlar deyildilər. Otoklar isə öz növbəsində aymaklarqa bölünürdülər. Kalmıklarda daha aşağı inzibati vahid xoton adlanırdı. Bu da bir neçə evdən, ya da arabadan ibarət bir inzibati vahid idi.

Xanın yanında Darqa, demçi, bodokçi, biçəçi və elçi kimi vəzifələr var idi. Bu vəzifələrin icraçıları öz işlərini xanın adından yerinə yetirirdilər. Lakin ulus rəhbərlərinin də eyni vəzifələri daşıyan adamları var idi. Darğa xanın təsərrüfatı ilə məşğul olur, dəmçi ölkədə vergilərin yığılmasına və otokların idarəsinə cavabdehlik daşıyırdı. Elçi isə xanla noyonlar və Rusiya arasında danışıqlar aparırdı. Məhkəmə işlərinin aparılmasına, kalmıklarla ruslar arasında mülki mübahisələrin yoluna qoyulmasına, məhkəmə qərarlarının həyata keçirilməsinə bodokçi deyilən

adam nəzarət edirdi. Bunlar həm də bazarlarda qiymətlərin artımına və alverçilərin əhalini aldatmamasına nəzarət edirdi.

Hakimiyyətə gələndə Ayuki xanın qarşısında bir neçə problem yarandı. Bunlardan birincisi, Krım xanlığında sığınacaq tapan əmilərinin düşmənçiliyi idi. İkincisi, 1671- ci ildə Cunqariyadan qaçan Ablay xan başda olmaqla bəzi oyrat qəbilələrinin kalmıkların otlaqlarının xeyli hissəsini ələ keçirmələri idi. Bütün bu hadisələrlə birgə Volqa ətrafında Stepan Razinin üsyanı da baş verdi.

İlk olaraq Ayyuki xan Cunqar xanlığı ilə sülh bağladı və əlaqələri yaxşılaşdırdı. Bundan sonra 1672 - ci ildə ordan qaçan Ablay xanı məğlub edib, özünü də həbs etdirdi. Üçüncüsü, ondan Şimali Qafqaza qaçan noqay tayfalarını geri qaytararaq bəzi otlaqları onlara hədiyyə verdi. Ən sonda isə o, əmiləri Dukar və Bukanın siyasi müxalifətinə son qoydu. Əvvəlcə onları öz tərəfinə çəkərək, əmilərinin Cunqariyadan qaçan oyratlara qoşulmalarının qarşısını aldı. Sonra isə bir- bir onları aradan götürdü. Stepan Razinin üsyanını yatırdıqdan sonra Rusiya hökuməti Ayuki xanla siyasi münasibətləri sıxlaşdırdı. Lakin tezliklə qarşısında doğrudan da, siyasi iradəyə malik adamın olduğunu gördü. 1672 -1673 - cü illərdə Rusiya ilə Ayuki xan arasında danışıqlar başlandı. Həmin danışıqlarda Rusiya ondan atasının və babasının yerinə yetirdikləri vəzifələri icra etməsini tələb etdi. Lakin Ayuki xan bu şərtləri danışıqsız qəbul etmək fikrində deyildi. Ayuki xan danışıqlar zamanı ruslara onlarla bərabər səviyyədə olduğunu isbat etməyə çalışdı. 1673 - cü ildə

knyaz Odoyevski ilə danışıqların sərt keçməsi, arada anlaşılmazlığında ortaya çıxmasına səbəb oldu. Belə ki, Həştərxan yaxınlığında danışıqlara hazırlaşarkən böyük hərbi dəstə gətirən Odoyevski Ayukinin tələbi ilə dəstəni xeyli miqdarda ixtisar etməyə məcbur olmuşdu. Ayuki özü isə danışıqlara çoxlu monqol tayşilərinin və mühafizəsinin müşayiəti ilə gəlmişdi. 27 fevralda danışıqlar Ayukinin də Rusiya təbəəliyini qəbul etməsi ilə yekunlaşdı. Kalmıklar boyunlarına Rusiyasız xarici siyasi əlaqələrə girməməyi, noqaylarla əlaqə saxlamamağı, onlardan heç bir səfir qəbul etməməyi götürürdülər. Bundan başqa Rusiyanın tələbi ilə kalmıklar ona hərbi qüvvə ilə kömək etməli idilər. Rusiya isə onları Həştərxan yaxınlığında otlaqlarla təmin etməyi, qeyri xristian kalmıklara toxunmamağı, eyni zamanda onlara maaş və hərbi xidmət müqabilində hədiyyələr verməyi öhdələrinə götürürdülər.

Lakin verdikləri vədləri kalmıklar tezliklə pozmağa başladılar. Onların başqırdlar, Don və Yaik kazakları üzərinə basqınları 1675 - ci ildən başlayaraq daha da intensiv xarakter almağa başladı. Bundan başqa kalmıklar heç də hər dəfə rus ordusuna yardım etmirdilər.

Ona görə də Rusiya hökuməti Kalmık hakimiyyətindən yenidən Rusiya təbəəliyini qəbul etməsini və bu barədə yeni saziş imzalanmasını istədi. Yeni danışıqların başlanmasında Ayuki xan da maraqlı idi. Çünki köhnə sazişin şərtləri ona ağır gəlirdi. Danışıqlarda 15 yanvar 1677 - ci ildə yeni müqavilə imzalandı. Kalmıklar başqa ölkələrlə müstəqil əlaqə yaratmamağı, gələn məktubları

əvvəl hakimiyyət orqanlarına göstərməyi, eyni zamanda ardıcıl şəkildə rus ordusunun yürüşlərində iştirak etməyi öz öhdələrinə götürürdülər.

Lakin 1680 - ci ildə Ayuki xan Krım xanı ilə müstəqil əlaqələr yaratdı, bundan sonra kalmıklar açıq şəkildə rus hakimiyyətinin əmrlərinə tabe olmamağa başladılar. Bunun da səbəbi xanlığın ərazisinə Don və Yaik kazaklarının basqınları idi. 1681 - ci ildə Rusiya hökuməti Ayuki xanın yanına yeni elçi heyəti göndərdi. Bundan başqa kazak voyevodalara kalmıklar üzərinə basqın etməyi qadağan etdi. Elçinin məqsədi xandan təbəəlik haqqında yeni itaətnamə almaq idi. Elçi özü ilə ulus rəhbərləri və şəxsən xana pul, barıt, tütün və s. hədiyyələr gətirmişdi. İşi yüngülləşdirən tərəflərdən biri də Ayuki xanın başqırdların və yakutların basqınlarına qarşı mübarizədə çətin vəziyyətə düşməsi, eyni zamanda kömək üçün Rusiya hakimiyyət orqanlarına müraciət etməsi idi. 13 mart 1681 - ci ildə Ayuki xan Rusiyaya yeni itaətnamə verdi. Lakin vəziyyət yenə dəyişmədi. Çünki qonşularla kalmıklar arasında toqquşmalar davam edir və hər iki tərəfdən gələn şikayətlərin ardı-arası kəsilmirdi. Nəticədə çar hakimiyyəti Priklonskini Ayuki xanın yanına danışıqlara göndərdi. Məqsəd yeni itaətnamənin alınması və qonşulara vurulan ziyanın ödənilməsi idi. Lakin 1682 - ci il danışıqları nəticə vermədi. Ayuki xan əsirləri buraxmayacağını da qəti şəkildə söylədi. Onda Rusiya dövləti "parçala və hökm sür" metoduna keçdi. Həmin il Yaik kazaklarına kalmıklar üzərinə basqınlar etmək əmri verildi. Ayuki xan vəziyyəti belə görüb, ulusların müdafiəsini təmin et-

mək üçün tədbirlər gördü və Qazan hakimiyyətinə yeni bir itaətnamə verəcəyi barədə vəd verdi. Kazakların eyni zamanda ruslara tabe olan tatarlara da basqın etdiklərini nəzərə alan Rusiya hökuməti Ayuki xanın təklifinə həvəslə cavab verdi. Lakin 1683 - cü ildə başqırdların onların sərhədlərinə basqınlarını eşidən Ayuki xan danışıqları yarımçıq kəsib, onlarla mübarizə aparmaq üçün qayıtdı.

1683-cü ildə də danışıqlar davam etməyə başladı. Lakin kazakların onun sərhədlərinə basqın etdiklərini nəzərə alan Ayuki xan danışıqlarda sərt mövqe tuturdu. Rusiya hökumətinin kazak basqınlarından xəbəri olmadığını söyləməsinə baxmayaraq, Ayuki xan buna inanmadığını göstərirdi. Danışıqları ağırlaşdıran başqa bir səbəb də Ayukinin müstəqil hökmdar kimi hərəkət etmək istəməsi idi. 1684 - cü ilin fevralında Ayuki xan yenidən itaətnamə verməyə razı oldu. Amma girov verməkdən imtina etdi və Rusiyaya elə belə də sadiq qalacağını söylədi. Bundan sonra Ayuki xan öz hərbi fəallığını Şimali Qafqaz xalqlarına və Mərkəzi Asiyaya yönəltdi. Əslində Rusiya buna elə də etiraz etmirdi. 1684 - cü il sazişindən sonra Ayuki xan artıq hər il Rusiya hökumətinə itaət bildirməyə getmədilər. Onlardan bunu tələb edən də yox idi. Bunu voyevoda və vəzifəli şəxslərlə şəxsi görüşlər və müqavilələr əvəz etməyə başladı.

Ayuki xan Rusiyaya qarşı nə qədər müstəqil hərəkət etməyə çalışsa da, müstəqilliyin həddinin heç də qeyri- məhdud olmadığını yaxşı başa düşürdü. Buna görə də bəzi məsələlərdə Rusiyaya özü güzəştə gedirdi.

1687 - ci ildə Kalmık-Cunqar münasibətləri kəskinləşdi. Buna görə də kalmıklar rus ordusuna kömək edə bilmirdilər. Rusiyanın da kalmıklara münasibəti mənfi istiqamətdə dəyişmişdir. Belə ki, kalmıklardan daha çox vergi almağa başladılar, feodallara isə bəxşişlər kəsildi. Lakin I Pyotrun Krıma yürüşü Ayuki xana münasibəti yenidən yaxşılaşdırdı. Eyni zamanda Ayuki xandan da elə böyük sənədlər də istəmirdilər. Məsələlər bəzi sazişlər və danışıqlarla tənzimlənirdi.

1697 - ci ildə Rusiya-Kalmık danışıqları yenidən başlandı. Danışıqlara Qazan qubernatoru Qolitsın rəhbərlik edirdi. Danışıqlara kalmıkların hərbi xidməti, onlardan vergi toplanması, eyni zamanda qonşu xalqlarla münasibətlər daxil idi. Eyni zamanda Kalmık xanlığı taxtının gələcək varisi kimi Ayuki xanın oğlu Quncabın Peterburqa getməsi və çara təqdim edilməsi təklifi də irəli sürüldü. Eyni zamanda ruslar Kalmık xanlığını qonşu dövlətlərdən müdafiə edəcəyini bildirdi. Başqırdlara və qazaxlara kalmıklara basqın etmək qadağan edildi.

Ruslarla danışıqlar müxtəlif vaxtlarda 1702, 1708, 1710 - cu illərdə də aparılmışdı. Bu isə iki dövlət arasında yaranan yeni, həmçinin köhnədən qalan problemlərin həllinə yönəlmişdi. 1705 – 1706 - cı illər Həştərxanda Kondrati Bulavinin və 1705 – 1711 - ci illər başqırdların üsyanlarının yatırılması, Şimal müharibəsindəki qələbələr Rusiyanın beynəlxalq mövqeyini xeyli möhkəmləndirmiş, eyni zamanda Rusiya hakimiyyətinin nəzərləri cənuba doğru yönəltmişdi (qeyd edək ki, kalmık əyanları bu proseslərdə rusların tərəfində iştirak etmişdi-müəllif).

Buna görə də Rusiya Kalmık muxtariyyətinə hər vasitə ilə təzyiqləri gücləndirir, onların asılılığını artırmaq istəyirdi.

Bu dövrdə kalmıkların da problemləri böyük idi. Belə ki, Kalmık xanlığının cunqarlarla münasibətləri yenidən pisləşmiş və onlar yenə də kalmık əyanlarını öz tərəflərinə çəkməyə başlamışdılar. Bundan başqa qazax və kuban tatarları da kalmıklarda olan ara müharibələrindən istifadə edərək onlara basqın etməyə başlamışdılar. 1715 - ci ildə Kuban tatarları Krım xanı Baxtı Gireyin rəhbərliyi ilə Kalmık xanlığına böyük bir hərbi yürüş təşkil etmişdi, Ayuki xan əsir düşməkdən zorla canını qurtarmışdı. Vəziyyətdən çıxmaq məqsədilə Ayuki xan çara kömək üçün müraciət etmiş və 1715 - ci ilin sonunda Bexmetevin rəhbərliyi ilə 600 nəfər kazak Ayuki xanın yanına gəlmişdi. Lakin onun daha çox nəzarət etmək məqsədini hiss edən Ayuki xan onun uzaqlaşdırılmasına nail olmuşdu.

Lakin Bexmetev getdikdən sonra belə kalmıkların işlərinə qarışmaqda davam etmişdi. Nəticədə bir iki il ərzində Saratovda "Kalmık işləri" adlanan xüsusi dəftərxananın əsası qoyulmuş və bu dəftərxana az vaxt ərzində əməlli -başlı böyük bir orqana çevrilmişdi. Onun ixtiyarında çoxsaylı məmurlardan əlavə xeyli miqdarda hərbi dəstə də var idi. "Kalmık işləri" idarəsi 1771 - ci ilə qədər fəaliyyət göstərmişdi.

1722 - ci ildə Ayuki xan Xəzərətrafı bölgələrə yürüş ərəfəsində I Pyotrla şəxsən görüşmüş və ona 4000 nəfər atlı dəstə ilə kömək etmişdi. İkinci dəfə Ayuki xan av-

qustda Çyornı Yar yaxınlığında I Pyotrun qəbulunda oldu və ondan öz oğlu Tseren Dondukanı himayə etməyi xahiş etdi. Lakin I Pyotr gizli şəkildə onun əmisi oğlunu Kalmık taxtının varisi kimi tanıdı. Belə ki, Kalmık xanlığında ara müharibələri də daimi hala çevrilmişdi. Bunun da aşağıdakı səbəbləri var idi.

Birinci səbəb kalmıkların köçəri həyat sürmələri və ayrı - ayrı qəbilələr, tayfalar halında fəaliyyət göstərmələri idi. Nəticədə bir birindən xeyli məsafəyə qədər uzaqlaşan tayfaların əlaqələri də zəif olurdu. İkincisi, köçərilərin birləşməsi daha çox başqa tayfalara qarşı mübarizə zərurətindən irəli gəlirdi. Lakin Rusiyanın sərhədlərinin böyüməsi nəticəsində təhlükəsizlik məsələlərini dövlət getdikcə özü təmin edirdi. Deməli, bu məsələyə də o qədər ehtiyac qalmırdı. Üçüncüsü, Rusiya hökumətinin təhrikilik siyasəti idi. Rusiya Ayuki xanın mərkəzləşdirmə siyasətinə ilk yardım edən dövlət idi. Amma zaman keçdikcə Ayuki xanın müstəqilləşmə meylləri Rusiyanın xoşuna gəlməməyə başlamışdı.

Ayuki xanın güclənməsinin qarşısını almağa çalışan Rusiya hakimiyyət orqanları hər vasitə ilə kalmıkları iki yerə bölməyə çalışırdı. İlk iş olaraq ruslar Derbet tayfasının rəhbəri Dalay Batırın nəvələri Munkotemir və Çərkəz arasında ziddiyyətdən istifadə edərək onları Ayuki xana qarşı qoymağa başladılar. Çərkəzin yetkinlik yaşına çatmadığı zamanlarda Munkotemir onun payına düşən ulusları öz hakimiyyəti altına almışdı. Yetkinlik yaşına çatan Çərkəz ata malından payının verilməsini xahiş etsə də Monkotemir ona nəsə verməyə həvəs göstərmir-

di. Münaqişədə Ayuki xan Munkotemirin tərəfini saxlayırdı. Vəziyyəti belə görən Çərkəz 1689 - cu ildə ona tabe olan tayfalarla birgə Don ərazisinə köçərək Rusiya hakimiyyəti orqanları ilə əlaqə saxlamış, Rusiyanın hakimiyyətini qəbul etdiyini bildirmiş, hətta əmanət də göndərmişdi. Rusiya da ona Ayuki xandan müdafiə üçün kazak dəstələri ayırmış, Don çayı və Şimali Don arasında köç etməyə icazə vermişdi. Munkotemir bir neçə dəfə Çərkəzi qaytarmaq istəsə də, buna nail ola bilməmiş, səbri tükənərək 1690 - cı ildə Saritsın yaxınlığında Çərkəzin dəstəsini darmadağın etmiş və kazak qəsəbələrinə də basqın etmişdi. Məsələdə Ayuki xan onun tərəfini saxlamış, günahın kazaklarda olduğunu göstərmişdi. Buna baxmayaraq Rusiya hökuməti Çərkəzin hüquqlarını təsdiq etmişdi. Rusiyanın bu hərəkəti Ayuki xanın Krım xanlığı ilə yaxınlaşmasına və 1692 - ci ildə yaxın qohumunun qızını Krım xanının oğlu Səlim Gireyə ərə verməsinə səbəb olmuşdu. 1693 - cü ildə Çərkəz də Munkotemirin yanına qayıtmış, amma kazaklarla toqquşmalar davam etmişdi.

1697 - ci ildə Munkotemir də Ayukiynən münaqişə zəminində Don ətrafına köçmüşdü. O, Rusiyanın onu geri qaytarmayacağından əmin idi. Bunu görən Ayuki xan da 1699 - cu ildə Yaik (Ural - müəllif) çayı ətrafına köçüb getmişdi. Çar hökumətinin xahişlərinə cavab olaraq o, orduya əsgər göndərəcəyini təsdiq edir, lakin qaçan tayşilərin ona basqın edəcəyindən qorxduğu üçün geri qayıtmayacağını bildirirdi. Çar hökuməti isə Munkotemirin tərəfini saxlayırdı. Onda Ayuki xan özü Munkotemirlə barışmağa çalışdı. Özü ilə razılaşa bilməsə də, bir çox ulus

rəhbərlərini öz tərəfinə çəkə bildi. Nəticədə zəifləyən Munkotemir Donun arxasına köçdü. 1699 - cu ildə Ayuki xan Volqa ətrafına qayıtdı. Lakin Ayuki xan Munkotemiri zorla qaytarmağa çalışdı və 1700 - cü ildə onun uluslarını qarət etdi. Ancaq öz ailəsində münaqişələrə başı qarışan Ayuki, yalnız onunla qohum olmaqla Munkotemiri qaytarmalı oldu.

XVIII əsrin əvvəllərində Ayuki xanın oğlanları və özü arasında ziddiyyətlər ortaya çıxmağa başladı. Bunun də səbəbi oğlanlarının öz ulusları ilə müstəqil olmaq istəmələri, Ayukinin böyük oğlu Çakdorcabın atasının yerinə iddialı olması, Ayuki xanın isə üstünlüyü dördüncü oğlu Quncaba verməsi idi. Qardaşı Səncab da Çakdorcabın tərəfini saxlayırdı. 1701 - ci ildə xanın oğlu Çakdorcab atasını öldürmək istədi. Ancaq noyonlar mane oldular. O, da başqa qardaşları ilə birgə köçərilərin bir hissəsini yığıb getdi. Həmin ilin iyulunda Çakdorcab hücum edərək atasını əsir aldı. Ayuki xan əsirlikdən qaçaraq Yaik kazaklarına sığındı. I Pyotr da onun təhlükəsizliyi üçün əmr verdi. Münaqişələr kalmıkların bir hissəsinin Munkotemirin, bir hissəsinin isə Çakdorcabın tərəfinə keçməsinə, Ayukinin zəifləməsinə səbəb oldu. Rusiya hökuməti isə bu məsələdə Ayukinin tərəfini saxlayırdı. Bunun da əsas səbəbi hökumətin Ayukini daha təmkinli bir adam kimi qəbul etməsi, eyni zamanda Çakdorcabın Cunqariyaya yaxınlaşması barəsində yayılan söz- söhbətlər idi.

Lakin 1702 - ci ildə Ayuki xan Rusiyanın vasitəçiliyi ilə oğlu ilə barışa bildi. Ancaq o biri oğlanları Cunqari-

yaya getdilər. Çakdorcab bundan sonra atasına tabe olmamağa və onun iradəsinin əleyhinə çıxmağa başladı. Onu sakitləşdirmək üçün Ayuki 1714 - cü ildə Çakdorcabı xanlığın varisi elan etdi. Ancaq bir müddətdən sonra Ayuki kalmıkları ətrafına toplayıb, nüfuzunu bərpa edə bildi.1722 - ci ildə Çakdorcab öldü və öz hüququnu oğlu Dosanqa vəsiyyət etdi. Lakin Ayuki xan arvadının təsiri ilə Tseren Donduku öz varisi elan etdi. Lakin bu Dosanqın narazılığına səbəb oldu. Dövlət isə xan taxtına Dorji Nazarovu nəzərdə tuturdu. Tezliklə bu fiqurların arxasından başqa bir şəxsin Donduk Ombanın da nüfuzu yüksəlməyə başladı.

Ayuki əvvəl Dosanqla intriqalar və qardaşlarını onun üstünə qaldırmaq yolu ilə mübarizə aparmaq istədi. Lakin onun zəifləməsinə nail olmayanda, 1723 - cü ildə onun üstünə qoşun göndərdi. Qırmızı Yar yaxınlığında döyüşdən sonra Dosanq məğlub edildi, lakin Kalmık xanlığı da uzunmüddətli ara müharibələri yoluna qədəm qoydu. 1724 - cü ildə Ayuki xan bütün oğlanlarını və nəvələrini bir- birinə düşmən edərək öldü. 1724 - cü ildə Rusiya nəhayət ki, kalmıklar arasında ikitirəlik yarada bildi.

Kalmıkların Ayuki xan zamanında başqa dövlətlərlə də əlaqələri vardı. Lakin bu əlaqələr qeyri-ardıcıl, bir az da kortəbii idi. Belə ki, Tibet Lamaist dininin rəhbəri Dalay Lama ilə münasibətlər daha çox dini-mənəvi çərçivədə idi. Dalay Lama Ayuki xanın titulunun rəsmi təsdiq edicisi idi və 1699 - cu ildə bunu da etmişdi. Ayuki xan da həmişə bu münasibətləri göz önündə saxlayır və ardı-

cıl olaraq ona hədiyyələr göndərirdi. Çinlə də münasibətlər ardıcıl deyildi. Bu münasibətlərin ən zirvə nöqtəsi 1713 – 1714 - cü illərdə Tulişenin başçılığı altında böyük bir səfirliyin Ayuki xanın yanına gəlməsi olmuşdu. Çin səfərinin məqsədi əslində, Cunqariyaya qarşı müttəfiq axtarmaq idi. Lakin Ayuki ilə görüşən Tulişen, onun mövqeyinin daha çox Rusiyanın mövqeyindən asılı olduğunu öyrəndi. Krım xanlığı ilə də münasibətlər ardıcıl deyildi. Ayuki xanın Krımla münasibətləri daha çox Rusiya ilə əlaqələrin səviyyəsindən asılı idi. Ayuki xanın Şimali Qafqaz feodalları və Səfəvilərlə də münasibətləri var idi.

Ayuki xanın ölümündən sonra Rusiya xanın əmisi oğlu Dorji Nazarovu Kalmık taxtına namizəd kimi irəli sürmüşdü. Lakin ondan başqa xan taxtına Dosanq, Tseren Donduk və Donduk Omba da namizəd idilər. 1724 - cü ilin aprelində Rusiya Dorji Nazarovun taxta çıxarılması haqqında qərar verdi. Başqa bir problem çıxardısa, mütləq mərkəzə xəbər verilməli idi. 1724 - cü ildə Volınski Dorji Nazarovla görüşmək istədi. Lakin ona qarşı irəli sürülə biləcək iddialardan boyun qaçırmağa çalışan Dorji görüşə gəlmək istəmirdi. Onda Volınski də qurultayın vaxtını uzatmağa başladı. Dorji Nazarov isə Rusiyanın gözləmədiyi anda xanlıqdan imtina etdi. 20 sentyabr 1724 - cü ildə Rusiya xan taxtına Tseren Donduku çıxardı. Lakin onu xan deyil, "xanın canişini" elan etdilər. Rusiyanın məqsədi lazım gələrsə xanı yenisi ilə əvəz etmək idi. 1725 - ci ildə Dosanq və qardaşı da Tseren Donduka qoşularaq, onunla bir yerdə köç etməyə başladılar. Lakin

hökumət ümumiyyətlə, tarazlıq yaratmaq şərti ilə Tseren Dondukun hakimiyyətini gücləndirmək siyasəti güdürdü, eyni zamanda da namizədlər arasında müharibəni qızışdırmağa çalışırdı. Münaqişə 1731 - ci ildə Rusiya Mancur-Çin hökumətinin Tseren Dondukla əlaqə yaratmalarının təsiri ilə, onu xan elan etdikdən sonra başladı. Rusiyanın xanlığın daxili işlərinə qarışmasından narazı qalan Dunduk Ombo və tərəfdarları Tsereni xan kimi tanımadılar. Başqa noyonlar da Dunduk Ombonun tərəfinə keçdilər. Rusiyanın köməyinə arxalanan Tseren 1731 - ci ilin noyabrında Sasıkolu yaxınlığında Dunduk Ombo ilə üz - üzə gəldi və tezliklə böyük bir məğlubiyyətə uğradi. Nəticədə onun ulusları qaliblər arasında bölüşdürüldü.

Hadisələrə qarışan Rusiya birbaşa Kalmık uluslarına təzyiq etmək və hər bir ulusu ayrı - ayrılıqda özünə tabe etmək siyasətini həyata keçirməyə başladı. Lakin sonradan xanla üsyan edənləri barışdırmaq siyasəti aparmağa başladı. Bunun da məqsədi Kalmık xanlığını təmamilə Rusiyadan asılı hala salmaq idi. Lakin Osmanlı imperiyası ilə müharibə ərəfəsində Rusiyaya kalmıklarda ara müharibələri lazım deyildi. Eyni zamanda Tseren Donduk Kalmık uluslarını hakimiyyətdə saxlaya bilmir və məsələdə rəqibi Donduk Daşi ilə silahlı toqquşmalarla bitirdi. Buna görə də Rusiya hökuməti yavaş-yavaş xan taxtına Donduk Ombanın namizədliyi fikrini dəstəkləməyə başladı. Ona görə də 1734 - cü ildə Rusiya Dunduk Omba ilə danışıqlara getdi. Onun tələbi ilə Donduk Daşidən başqa qalan bütün namizədlər həbs edildilər. Rusiyanın əsas məqsədi isə onu gələcəkdə Dunduk Ombaya qarşı qoy-

maq idi. Lakin Dunduk Omba o, Kalmık uluslarından çıxmayana qədər xan taxtına oturmayacağını söylədi. Rusiya hökuməti 1737 - ci ildə Dunduk Daşini həbs etmək məcburiyyətində qaldı.

Lakin Dunduk Ombanın rəqibləri ilə olan hesablaşmaları bununla da bitmədi. Ona güclü görünən hər bir noyonu və əyanı uzaqlaşdıraraq yerinə sadə camaatdan məmurlar təyin edirdi. Bəzilərini isə öz adamları vasitəsilə nəzarətdə saxlayırdı. 1738 – 1740 - cı illərdə xanın oğlanları varislik məsələsi üstündə ona qarşı üsyan qaldırdılar. Lakin Rusiya inzibati idarəsinin köməyi ilə xan onları məğlub etdi və onlar yenidən saraya qayıtdılar.

1741 - ci ildə Xan öldü və taxta oğlu Randulu varis təyin etdi, naib kimi isə onun anası Canı qoydu. O, öz qərarını Rusiya hökumətinə çatdırdı və Dalay Lamadan oğlunun namizədliyini təsdiq etməyi xahiş etdi. Rusiyaya xanın bu hərəkəti, xüsusilə də Dalay Lamaya müraciəti heç də xoş gəlmədi. Buna görə də Rusiya Dunduk Daşinin namizədliyi üzərində dayandı. Lakin Randuldan narazı qalan Kalmık noyonları Qaldan Danjinin taxta namizədliyini irəli sürdülər. Lakin 1741 - ci ildə Randul və Qaldan Danjin arasında döyüşdə sonuncu məğlub edildi. Onda Dunduk Daşi Peterburqa çağırıldı və ona xanın canişini təyin edildiyi xəbəri verildi. 16 noyabrda 1741 - ci ildə onun Axtuba şəhərində Xarabalı yaxınlığında canişin təyin edilməsi və başqa noyonların ona and içməsi mərasimi keçirildi. Dunduk Daşi Rusiyaya girov da verdi. Rusiyaya kalmıkların daxili idarəçiliyini onun əlində saxlayan zəif iradəli bir xan lazım idi.

And içmədən sonra Rusiya dağınıq Kalmık uluslarını Dunduk Daşiyə tabe etmək üçün hərəkətə keçdi. Lakin Randulun naibi olan Can onun hakimiyyətini tanımadı. Rusiya elçilərinin onunla danışıqları da uzanırdı. Ona görə də Rusiya Canı həbs etdirmək üçün cəhdlər etməyə başladı. 1743 - cü ildə onu həbs edib, Moskvaya göndərib, xristianlığı qəbul etdirdilər.

Lakin 1744 - cü ildə Həştərxanda oğlu öldükdən sonra Dunduk Daşinin Rusiya nümayəndəsi ilə münaqişələri güclənməyə başladı. Bundan başqa Can (Vera Dondukova - müəllif) da qayıdıb yenə öz uluslarını idarə etməyə başladı. Onda Rusiya yenidən Kalmık xanlığında ikitirəlik yaratmağa başladı. 1757 - ci ildə xan canişininin qoca olduğu nəzərə alınaraq o, Rusiya tərəfindən xan elan edildi, oğlu Ubaşi isə varis kimi tanındı. Lakin 1761 - ci ildə xan öldü və kalmıklarda hakimiyyət uğrunda mübarizə yenidən gücləndi. II Yekaterina hakimiyyətə gəldikdən sonra kalmıklarda hakimiyyət davasına son qoyulmasına cəhd edilsə də buna nail olmaq mümkün olmadı. Nəticədə 1771 - ci ildə Kalmık xanlığı ləğv edildi.

19 oktyabrda xan və canişin vəzifəsi ləğv edildi və kalmıklar Həştərxan qubernatoruna tabe edildilər.Lakin kalmıkların bir hissəsi bu qərarı tanımadı. Bir hissəsi isə Cunqariyaya köçüb getmək istədilər. Lakin hökumət tərəfindən onların qaçmasının qabağı amansızlıqla alınırdı. Kalmık əhalisinin narazılığına səbəb olan faktlardan biri də hələ xanlıq idarəsi dövründən başlayaraq Rusiya idarəçilərinin Kalmık uluslarının daxili işlərinə qarışmaları, hətta noyonların evlənmə və boşanma proseslərini tən-

zimləməyə çalışmaları idi. Bundan başqa 1762 - ci ildə Rusiya kalmıklarda ali məhkəmə olan Zarqo orqanını yenidən qurmaq haqqında qərar verdi. Lakin bu məhkəmənin nüfuzunun aşağı düşməsinə, daha çox aşağı təbəqədən olan əhalinin Rusiya hakimiyyət orqanlarına müraciət etməsinə səbəb oldu. Rusiya hakimiyyət orqanları XVIII əsrin 50 - ci illərindən başlayaraq Kalmık uluslarının köçünün və otlaqlarının da məhdudlaşdırılmasına başlamışdı.Rusiya Kalmık ərazilərinə rusların köçürülməsinə də şərait yaradırdı. Aydındır ki, belə bir siyasət Kalmık əyanlarının narazılığına səbəb olurdu. Bundan başqa Çar hakimiyyət orqanları Kalmık əyanlarını öz tərəfinə çəkir və onların arasında hər vasitə ilə dağınıqlıq salırdı. 1771 - ci ildə iqtisadi çətinliklər və Rusiya hakimiyyət orqanlarının sıxışdırmasından narazı qalan noyonlar onlara tabe olan tayfalarla birgə, başda Ubaşi olmaqla Rusiya ərazisindən Çin tərəfindən işğal edilmiş Cunqariyaya köçməyə başladılar.Lakin Rusiya və onlardan asılı olan qazax dəstələrinin təqibləri, əhalinin aclıqdan əziyyət çəkməsi, çoxlu miqdarda mal- qaranın yollarda məhv olması, kalmıkların bu köçünün fəlakətlə nəticələnməsinə səbəb oldu. Bundan başqa onlar Çin ərazisində də xəyallarında nəzərdə tutduqları nemətlərə çata bilmədilər. Geri qayıtmaq isə artıq gec idi. Bütün bu problemlərə baxmayaraq kalmıklar 1773 – 1775 - ci illərdə Y. Puqaçovun üsyanının yatırılmasında, eyni zamanda Rusiya-Osmanlı müharibələrində fəal iştirak etmişdilər. Lakin derbet kalmıkları isə Puqaçovun tərəfini saxlamışdılar.

Kalmıkların köçündən sonra Rusiya onun ərazisində qalan və sədaqət nümayiş etdirən kalmıkların idarəsini qaydaya salmağa çalışdı. Xristianlığı qəbul etmiş və Rusiyada xidmət etmiş kalmık noyonu A. Dondukov yerdə qalan tayfaların müvəqqəti idarəçisi təyin edildi. Narazı qalan əyanlar isə bunun müvəqqəti olduğuna inandırılmaqla sakitləşdirildi. Bundan başqa şübhəli Kalmık əyanları Qafqaza hərbi xidmət etməyə göndərildi. Kalmıkların Cunqariyaya yeni köçünün qarşısının alınması üçün də tədbirlər görüldü, kalmıklar isə Volqa çayının sağ sahilinə yerləşdirildilər.

Kalmık xanlığı ləğv edildikdən sonra Rusiya kalmıkların idarəsini onlardan olan, ancaq aşağı təbəqədən olan nümayəndələrə tapşırdı. Artıq onların ictimai həyatdakı mövqeləri noyonların əsli-nəsli ilə deyil, onların Rusiya hakimiyyətinə loyallığı ilə ölçülməyə başlandı. Rusiyanın kalmıklarla münasibət sistemi də dəyişdi. Himayə sisteminin yerini təbəəlik sistemi tutdu. Bəzi ulusların noyonları öz vəzifələrində qaldılar. Onların ölümündən sonra uluslar noyonların övladları tərəfindən idarə edilməli, varis olmayanda dövlət təbəələri sisteminə keçməli idilər. Rusiya hökuməti kalmıkların müstəqilliyə can atan noyonlarına qarşı repressiya tədbirləri də həyata keçirdilər. 1772 - ci ildə bəzi kalmık tayfalarının Cunqariyaya qaçmaq cəhdinin qarşısı alındı. Onlar zorla əvvəlki yerlərinə qaytarıldılar. Kalmıkların qonşu tayfalara hücumlarının da qarşısı sərt şəkildə alındı. Bəzi kalmık ulusları birbaşa ruslar tərəfindən idarə edilməyə başlandı. Ruslar

Kalmıklar arasında xristianlığın da yayılmasına çalışırdılar.

1798 - ci ildə bəzi kalmık nəsilləri Don kazaklarının tərkibinə daxil edildilər. Bunun da səbəbi onları idarə edən noyonların ölümü və varislərinin qalmaması idi. Həmin kalmık nəsillərindən biri Böyük Derbet ulusu idi. Ulus Derbet tayfasının rəhbəri Senden Dorjinin 1786 - cı ildə ölümündən sonra ulusun dörd hissəyə bölünməsindən sonra meydana gəldi. 1788 - ci ildə Derbetlərin bir hissəsi Don çayı sahillərinə köçərək noyon Əkrəmi özlərinə rəhbər seçdilər. Volqada qalan kiçik derbetlər isə Babulu özlərinə rəhbər seçdilər. Lakin 1800 - cü ildə Böyük Derbet ulusu Kiçik Derbet ulusunun baçısı Çuçey Tandukovun rəhbərliyi altına keçmək istədilər. Çar hökuməti də buna icazə verdi. 1800- cü ilin iyulunda Çuçey Tandukov Kiçik Derbet ulusunun rəhbəri təsdiq edildi. Böyük derbet ulusuna da Çuçeye tabe olmağa icazə verildi. Bu dövrdən də başlayaraq Derbet ulusu noyonlarının ictimai nüfuzunun artması baş verdi ki, 1917 - ci ilə qədər Kalmık düzlərində bu ulus mühüm rol oynamışdı. Derbet ulusunun nüfuzunun artması Tandukovlar nəslinin də mövqeyinə təsir göstərdi.

1771 - ci ildə Cunqariyaya köç ərəfəsində kalmıkların məskunlaşma yerləri Həştərxan quberniyası ərazisində 32 milyon desyatin sahəni əhatə edirdi. Lakin köçdən sonra onların otlaq yerləri azalaraq XIX əsrin əvvəllərinə doğru Volqa, Don, Manıç və Kuma ətrafları ilə məhdudlaşırdı. Boş qalan ərazilərə isə ruslar Bukeyev ordasının qazaxlarını və başqa xalqları köçürürdülər. XVIII əsrin 70

- ci illərində kalmıklar Volqa çayının qərb sahillərinə köçürüldülər. Lakin 1782 - ci ildən başlayaraq kalmıklara Volqa çayının şərq sahillərinə köçmək imkanı yaradıldı, daha sonra isə kütləvi surətdə bu ərazilərə köçürüldülər. Rusların məqsədi kalmıklardan qazaxlara qarşı istifadə etmək idi. Lakin kalmıklar azsaylı olduqları üçün qazaxlara rəqib ola bilmədilər. Qazaxlar Volqa və Yaik çayları arasındakı ərazilərə tam sahib oldular. 1802 - ci ildə isə qazaxların rəhbəri Bukey Nurəliyev Rusiya təbəəliyini qəbul etdi.

Kalmıklar sonradan həm istehkam sistemlərinin tikilməsi, həm də yeni kazak və rus məskənlərinin yaradılması ilə tezliklə öz otlaqlarını Terek çayı tərəfə doğru dəyişdirməli oldular. 1781 - ci ildə Donətrafı ərazilərin bir çox yerləri Don kazak dairəsinə verilmişdi. Bu da kalmıkların yayılma arealını xeyli daraltmışdı. XIX əsrin əvvəllərində Mozdok –Azov xətti, Saritsın traktı və Böyük Macarı deyilən ərazilərdə xeyli rus, kazak və tatar kəndi salınmışdı. Şimali Qafqazda Qızlar traktı da kəndlilər tərəfindən məskunlaşdırılmışdı. Bununla da Rusiya hakimiyyət orqanları suya yaxın torpaqlarda kəndli və başqa tayfaların  məskunlaşmalarına müvəffəq olmuşdu.Bu da kalmıkların düzün dərinliklərinə çəkilməsinə, eyni zamanda gəlmələrlə onlar arasında problemlərin yaranmasına səbəb olurdu.

Çar hakimiyyət orqanları kalmıkların idarəçiliyini təşkil etmək üçün də müəyyən tədbirlər görürdülər.1771 - ci ilin 26 yanvarında Həştərxan qubernatoruna kalmık məhkəmə orqanı Zarqoya, bu zaman yaradılmış “Kalmık

işlərinin öyrənilməsi üçün Quberniya dəftərxanasına" rəhbərlik etmək tapşırıldı. Dəftərxananın əsas işi kalmık noyonlarının fəaliyyətinə nəzarət etmək, kalmıklarla qalan əhalinin mübahisələrinə baxmaq, kalmık əhalisinin məşğulluğunu izləmək, eyni zamanda balıq təsərrüfatlarında işləyən kalmıklara nəzarət etmək idi. Lakin noyonların öz ulusları üzərində məhkəmə və polis hakimiyyəti saxlanılırdı. XVIII əsrin 70 - ci illərinin sonlarında kalmık məsələlərini həll etmək üçün pristavlar da təyin edildi. Onların işi noyonlarla hakimiyyət orqanları arasındakı münasibətləri tənzimləmək idi. 1785 - ci ildə Həştərxan və Qafqaz quberniyaları Qafqaz canişinliyində birləşdirildilər. Əmrə əsasən kalmıklar yaşadıqları qəzada qeydə alınmalı və bacardıqca oturaq həyat tərzi keçirməli idilər. 1786 - cı ildə Qafqaz canişini Potyomkin Zarqonu ləğv edib, onun funksiyasını yerli qəza məhkəmələrinə verdi. Bu kalmıkları hüquqi cəhətdən müdafiəsiz vəziyyətə saldı. Lakin sonradan onun yerinə təyin edilən Alekseyev kalmıklara aid olan mülki işləri "Kalmık işləri üzrə dəftərxanaya" həvalə etmişdi. Burada isə məhkəməni üç nəfərdən ibarət kalmık noyon iclasçı aparırdı. 1796 - cı ildə Rusiyada canişinlik sistemi ləğv edildi, "Kalmık dəftərxanasını" da bağlamaq qərarına gəldilər. Amma dəftərxana 1800- cü ilin avqustuna qədər fəaliyyət göstərdi.

27 sentyabr 1800 - cü ildə çar I Pavel "Kiçik və Böyük Derbet kalmıklarına Saritsın, eyni zamanda aşağıdakı çayların: Volqa, Sarp, Salu, Maniçu və s.verilməsi" haqqında fərman imzaladı. Pavel Zarqo, Kalmık canişini vəzifəsini də bərpa etdi. Qanuna görə kalmıklar 32 mln

des. torpaq almalı idilər. Bununla da Cunqariyaya köçənə qədərki kalmıkların torpaqları onlara verilirdi.

Lakin 2 aprel 1802 - ci ildə çar hökuməti böyük bir ərazinin kalmıklara verilməsindən boyun qaçırdı. Lakin mühüm otlaqlar artıq kalmıklarda idi. Buna baxmayaraq 1803 - cü ilin aprelində bəzi torpaqların yenidən kalmıklara qaytarılması Həştərxandakı inzibati idarə orqanlarına tapşırılmışdı. 1806 - cı il 19 mayında I Aleksandr Həştərxan və Qafqaz quberniyalarında bəzi torpaqların kalmıklara verilməsi üçün fərman imzaladı. Fərmana görə yerli əhalinin hesabına kalmıkların heyvanlarının suvarılması üçün onlara su yerləri ayrılmış və bundan başqa bəzi yerlərdə kalmıklara qışlaqlar da ayrılmışdı. Kalmıkların ulus sistemi ilə yaşadıqlarını nəzərə alan çar hakimiyyəti 1806 - cı ilin mayında xüsusi fərmanla hər bir ulus üçün dəqiq otlaqların xəritəsini vermişdi. Köçəri tatar və türkmənlərlə də kalmıkların münasibətləri qaydaya salınmışdı. Lakin uluslara otlaq yerlərinin ayrılması və sərhədlərinin müəyyənləşdirilməsi 1827 - ci ilə qədər uzanmışdı.Sərhədlərin müəyyənləşdirilməsi aktı göstərilən yerlərdə yaşayan yerli əhali ilə kalmıklar arasında narazılıqların yaranmasına də səbəb olurdu. Lakin çar hakimiyyət orqanları bunları qaydaya salmağa çalışırdı. Mal-qara ilə məşğul olan başqa sənayeçilər də kalmık düzlərinə üz tutur və burada qarşıdurma yaradırdılar. 1828 - ci ildə çar hakimiyyəti ermənilərə və başqa mal-qara saxlayanlara kalmıkların torpaqlarından öz heyvanlarını çıxarmaq haqqında fərman verdi. Rusiya hakimiyyət orqanları özləri də kalmıklara ayrılan otlaqların ərazisinə başqa rus

kəndliləri də köçürürdülər. Bu proses XIX əsrin sonlarına qədər davam etmişdi. XIX əsrin 30 - cu illərində burada bir neçə rus kəndi salınmışdı. Kəndlilərin əksəriyyəti Voronej və Moskva ətraflarından köçürülmüşdü.

1843 - cü ildə Kiçik Derbet ulusunun torpaqlarında Pokoynu kəndi salınmış və bu kəndin sakinlərinin ixtiyarına 12000 des torpaq verilmişdi. Lakin kalmıkların üsyanlarından çəkinən çar hakimiyyəti 1834 - cü ildə onlara məxsus torpaqlarda özbaşına kənd salmağı qadağan edən fərman da vermişdi.

23 fevral 1835 - ci ildə I Nikolay Kiçik Derbet və Böyük Derbet uluslarının rəyi əsasında onlara məxsus olan torpaqların icarəyə verilməsi haqqında qərar verdi. Bunun da səbəbi kalmıkların qış zamanı heyvanlarının məhv olması və icarə vasitəsilə öz təsərrüfatlarını qaldırmaq istəmələri idi.

Rusiya hakimiyyəti kalmıkların idarə sistemi haqqında da müəyyən tədbirlər gördü. Bunlardan birincisi, 1834 - cü ilin əsasnaməsi idi. Əsasnaməyə görə kalmıklar 5 şəxsi və 2 xəzinə ulusu olaraq 7 inzibati ulusa bölünürdülər. Uluslar aymaklara, onlar da xotonqlara bölünürdülər. Aymaklara zaysanqlar, xotonqlara isə ağsaqqallar rəhbərlik etməli idilər. Ağsaqqallar əhali tərəfindən üç ilə seçilməli idi.

Kalmıkların daxili idarəçiliyi də sistemləşdirildi. 1800 - cü ilin 14 oktyabrında kalmıkların ali şurası hesab edilən Zarqo bərpa edildi. Bu da kalmıkların idarəçiliyində aparılan islahatlar üçün təkan oldu. Həmin gün verilən başqa bir qanunda isə kalmıkların öz dinlərinə azad

ibadət edə biləcəkləri təsdiq edilirdi. Həmin qanunlarla kalmıklarda canişin vəzifəsi yaradılır və onu rus inzibati idarəsi təyin edirdi. Lakin rus hökuməti canişinləri təyin edərkən kalmıkların əhval - ruhiyyəsi ilə hesablaşmalı olurdu. I Pavelin verdiyi qanun aktına görə kalmıkların canişini Çuçey Tundutov təyin edildi. Lakin I Pavelin ölümündən sonra taxta çıxan I Aleksandr üstünlüyü onun əleyhinə olan Mukuken və Tümenə verməyə başladı. Lakin onların təhriki ilə yerli kalmık əhalisi Tundutova tabe olmaqdan imtina edərək, hətta onun qərargahına da basqın etdilər. Bu isə Mukukenin hökumətin gözündə nüfuzunu aşağı saldı. Buna görə də 1801 - ci ildə Tundutovun səlahiyyətləri yenidən təsdiq edildi. Baş pristav vəzifəsi yaradıldı ki, onun da vəzifəsi yerli icra və polis orqanlarının işlərinə nəzarət etmək idi. Lakin 1803 - cü ildə Çuçey Tundutovun ölümündən sonra noyonlar arasında ziddiyyətləri aradan qaldırmaq məqsədilə Kalmıklarda canişin vəzifəsi ləğv edildi və bəzi dəyişikliklərlə noyon və zaysanq idarəçiliyinə qayıdıldı. Bundan sonra Kalmık işləri ilə Baş pristav məşğul olmağa başladı.

1819 - cu ildə Kalmık işlərini Xarici İşlər Kollegiyasının Asiya departamentinə həvalə etdilər. Departamentin rəhbəri Timkovski təyin edildi. Hələ 14 mart 1816 - cı ildə kalmıkların Baş pristavı Həştərxan mülki qubernatoruna tabe edildi. Beləliklə, pristav eyni zamanda iki orqandan asılı halka salınırdı. Çar hakimiyyət orqanları XIX əsrin onuncu illərindən başlayaraq Zarqonun səlahiyyətlərini tədricən məhdudlaşdırmağa başladılar. 1818 - ci il fərmanına görə Zarqonun məhkəmə səlahiyyətləri-

nə xitam verildi. 1822 - ci ildə Zenzelidə Kalmık noyonları monqol adət hüququnun yazıya alınması və yenilənməsi sahəsində layihə tərtib edib Rusiya hökumətinə verdilər. Nəticədə Tundutovun layihəsi qəbul edildi. Burada Kalmık adət hüququ Rusiya mülki qanunlarına yaxınlaşdırılırdı. Lakin Tundutov və əleyhidarları arasında toqquşmalar üzündən layihə qəbul edilmədi. 1825 - ci ildə islahat üçün yeni layihə qəbul edildi. Bununla da kalmıkların idarəsində yeni dörd səviyyəli—baş, diyar, dairə və ulus sistemi üzrə idarə yaradıldı. Bütün idarələr isə Daxili İşlər Nazirliyinə tabe edilmişdi. Diyar idarəsini isə Həştərxan Kalmık İşləri Komissiyası həyata keçirirdi. Onun faktiki işini isə Baş Pristav aparmalı idi. İdarə yanında məhkəmə funksiyasını Zarqo həyata keçirirdi.

Lakin yaradılan idarələrin sonrakı dövlərdə təftiş edilməsi zamanı idarəçilikdə xeyli qüsurların ortaya çıxdığı aşkar edildi. Qüsurlar xüsusilə də, cinayət hüququ sahəsində var idi. Çünki oturaq Rusiya sisteminə uyğun olan cinayət qanunları, köçəri həyat sürən kalmıkların sisteminə heç cür düz gəlmirdi. Ona görə də 1834 - cü ildə yeni "kalmık xalqının idarə edilməsi haqqında məcəllə" dərc edildi. Bu məcəlləyə əsasən kalmıkların idarəsi Həştərxan kalmık idarəsi Şurasına verildi. İdarəyə rəhbərliyi DİN və Qubernator qarşısında cavabdeh olan Baş Himayəçi həyata keçirməli idi. Onu imperatorun özü təyin edirdi. Tərkibi isə yerli noyonlardan təşkil edilirdi. Qanuna əsasən Ali Lamaist Ruhani idarəsi təşkil edildi. Kalmıkların ali məhkəmə orqanı isə Zarqo təsdiqləndi. Cinayət işlərində Zarqo Rusiya, mülki işlərdə isə kalmık

adətlərinə əsaslanmalı idi. Noyonların və zaysanqların səlahiyyətləri də müəyyən edildi və onlara tabeliyində olan adamları satmaq, bağışlamaq, özbaşına cəzalandırmaq qadağan edildi. Şura öz işinə 1836- cı ildə başladı. 1838 - ci ildə Şura Həştərxan dövlət əmlakı Palatasına tabe edildi.

1847 - ci ilin 23 aprelində kalmıkların idarəsi üçün yeni "Əsasnamə" verildi. Bu əsasnaməyə əsasən kalmıkların idarəsi Dövlət Əmlak Nazirliyinin I Departamentinə həvalə edilmişdi. Kalmık İşləri Şurası ləğv edilərək idarəçilik Həştərxan Dövlət Əmlakı Palatasının Ordu bölməsinə verildi. Lakin kalmıkların idarəsində Baş Himayəçi rütbəsi qalırdı. Lakin onunla bərabər statusda bölmə məmuru və məsələhətçisi vəzifəsi də təsis edilmişdi.

Yerli idarəçilikdə ulus və aymak yığıncaqları təsis edilmiş və onlara yerli idarəçilik üzrə səlahiyyətlər verilmişdi. Lakin 25 yaşına çatmayan və mülkiyyəti olmayan kalmıklara bu yığıncaqlarda iştirak etmək qadağan edilmişdi. Ali Lamaist Ruhani idarəsi ləğv edilmiş və onun səlahiyyətləri Kalmık Xalqının Laması vəzifəsi arasında bölünmüşdü.

Rusiya hakim dairələri kalmıkların oturaqlaşdırılması haqqında da tədbirlər həyata keçirməyə başladılar. İlk tədbirlər XIX əsrin 30- cu illərindən həyata keçirilməyə başlandı və 50 - ci illərində noyonların əksər hissəsinin oturaqlaşdırılması ilə yekunlaşdı. Bundan sonra isə kalmıkların oturaqlaşdırılması tədbirləri daha sürətlə həyata keçmiş oldu, əsasən XIX əsrin 80 - ci illərində başa çatdı. Bəzi kalmık tayfaları isə yarım köçəri həyat tərzinə keçdilər.

Göstərilən islahatlar kalmıkların ümumrusiya bazarına və idarəetmə sisteminə daxil edilməsini asanlaşdırmalı idi.

### *§ 2.Volqaboyu türk xalqları XVII-XIX əsrlərdə*

1552 - ci ilin oktyabrında Qazan xanlığının işğalı Volqaboyu türk xalqlarının tarixində bir dönüş nöqtəsi qəbul edilməkdədir. Qazan xanlığının, eləcə də Volqaboyu sahillərin əhalisi və xalqları Rusiya ağalığı ilə xeyli mübarizə apardılar. Mübarizənin ən qaynar nöqtəsi 1552 – 1557 - ci illərdə baş vermiş olan Qazan müharibəsi idi. Belə ki, 1552 - ci ilin sonunda IV İvan Qroznı yerli əhalidən yasak toplamaq üçün keçmiş xanlığın bütün ərazisinə ordu göndərdi. Yasakın yığılması açıq-aşkar qarətçilik və dağıntılarla müşayiət olunurdu. Bu isə nəinki tatarlar, hətta onlara tabe olan qalan Volqaboyu xalqlar arasında da kütləvi narazılığın qızışmasına səbəb olurdu. İlk olaraq Volqa çayının sol sahilindəki tatarlar üsyana qalxdılar. 1552 - ci ilin dekabrında onların üsyanı asanlıqla yatırıldı. Lakin 1553 - cü ilin yazında "Qazan müharibəsinin" yeni dalğası Volqaboyunu bürüdü. Hökumət ordu yeritsə də Uca Dağ yaxınlığında vuruşmada rus ordusu darmadağın edildi və min nəfər öldürüldü. Üsyançılar Meş şəhərciyi deyilən bir qala da tikərək buranı yeni yaradılacaq dövlətin paytaxtı elan etdilər. Tezliklə üsyana noqaylardan, türkmənlərdən və başqa millətlərdən xeyli adam qoşuldu. 1554 - cü ildə Rusiya ordusu üsyançılar üzərində bir sıra qələbələr əldə etdilər. 1554 - cü ilin yazında

ruslar orduya başqa yerlərdən qasım və tümen tatar qəbilələrini və bəzi feodal ailələrini cəlb edərək üsyançılar üzərində üstünlük əldə etdilər. Bir sıra üsyan rəhbərləri əsir düşdülər. Ümumilikdə isə 1500 adam edam edildi.

1555 - ci ildə üsyan yenidən qızışdı. Üsyana bir tərəfdən Həştərxan, digər tərəfdən isə Krım xanlığı yardım edirdi. Bu dəfə üsyanın mərkəzi Çalım şəhəri oldu. Üsyanın ümumi rəhbəri isə Qali Əkrəm idi. Deyilənə görə o, Qazan xanının arvadının qardaşı idi. Lakin Rusiya Həştərxan və Krıma qarşı fəal hərbi əməliyyatlar apararaq, həmin dövlətlərin üsyançılara yardım etməsinin qarşısını almışdı. Bundan başqa Rusiya hakimiyyət orqanları üsyançılardan xeyli adamı satın alıb öz tərəflərinə çəkə bilmişdilər. 1555 - ci ilin payızında Meşa çayı yaxınlığında əsas döyüşdə Rusiya ordusu üsyançılar üstündə qəti qələbə çaldı. Salnamənin yazdığına görə rus ordusu xeyli üsyançını məhv etmiş və üsyan edən kəndləri, məntəqələri məhv etmişdi. Ayrı - ayrı fasilələrlə üsyan 1557 - ci ilə qədər davam etmişdi. Lakin üsyançıların arasında ziddiyyətlər, rəhbərlər arasındakı ixtilaflar üsyanın qalibiyyətlə nəticələnməsinə imkan vermədi.

Rusiya ağalığına qarşı ikinci böyük üsyan XVI əsrin 70 – 80 - ci illərində baş verdi. Şərti olaraq bu üsyanlar silsiləsi Rusiya tarixşünaslığında "Çeremis müharibələri" adlanırdı. Çünki üsyana zorla xristianlaşmağa məruz qalan çeremislər və marilər başlamışdılar. Ancaq üsyanın əsas qüvvəsini yenə də tatarlar və türklər təşkil edirdilər. İlk üsyan 1572-1573- cü illərdə yerli əhalinin zorla Livon müharibəsinin ehtiyacları üçün səfərbər edilməsinə qarşı

baş vermişdi. 1581 – 1583 - cü illərdə baş verən üsyan isə əhalinin zorla xristianlaşmasına qarşı başlamışdı. Lakin bütün bu üsyanlara baxmayaraq yeni hakimiyyət öz mövqeyini və nüfuzunu möhkəmləndirə bilmişdi.

1552 - ci ildə Qazan xanlığının işğal edilməsi 1556 - cı ildə Həştərxan xanlığının işğal edilməsi üçün də zəmin hazırlamış oldu. Hər iki xanlığın işğal edilməsi Rusiya üçün mühüm əhəmiyyətə malik idi. Bunlar aşağıdakı amillərdən ibarət idi:

1. Rusiya Xəzər sahillərində möhkəmlənir və Asiya ölkələri ilə Avropa ölkələri arasında olan ticarət əlaqələrində mühüm vasitəçiyə çevrilirdi.

2. Sibirə və Şərqin başqa ölkələrinə qarşı genişmiqyaslı ekspansiya siyasəti aparılması üçün şərait yaranmış olurdu.

3. Sibirin, Volqaboyunun, Ural ətrafı ərazilərinin təbii sərvətlərinin geniş miqyaslı istismarı üçün şərait yaranırdı.

4. Yeni və məhsuldar torpaqların zəbt edilməsi, həm vergi verənlərin sayını artırır, həm də həmin ərazilərdə torpaqsızlıqdan əziyyət çəkən kəndlilərin yerləşdirilməsi ilə Rusiyanın mərkəzi rayonlarında sosial gərginliyin aradan götürülməsinə yardım edirdi.

5. Rusiyanın çoxetnoslu dövlət olaraq formalaşmasının başlanğıcı qoyuldu. Artıq Rusiya çoxlu mədəniyyətləri, etnosları öz hakimiyyətində cəmləyən bir imperiyaya çevrilirdi.

Volqaboyu xalqların Rusiyanın hakimiyyəti altına düşməsi bu xalqlar üçün də mühüm nəticələr verdi. Bunları da aşağıdakı kimi qruplaşdırmaq olar:

**1**. Tatarlar Rusiya hakimiyyəti altına düşməklə öz ictimai varlıqlarının mühüm hissəsi olan dövlətçiliklərini, yəni siyasi varlıqlarını itirərək hakim xalqdan tabe xalqa çevrildilər. Bu isə xalqın ictimai şüuruna böyük zərbə oldu.

**2**. Volqaboyu xalqların müstəqil inkişaf yolu kəsildi. Onlar Rusiya imperiyasının inkişafının arxasınca gedən bir xalqa çevrildilər.

**3**. Volqaboyu xalqları sərt və qəddar müstəmləkə siyasətinə və təzyiqlərinə məruz qaldılar. Onların dini, etnik kimliyi hətta yaşayış yerlərini dəyişmə hüququ belə kəskin məhdudiyyətlərə məruz qalırdı.

**4**. Bundan başqa tatarlar inkişaf etmiş şəhər həyatından məhrum edildilər. Uzun zaman ərzində onlar kənd yerlərində yaşamağa məcbur oldular. Bu da xalqın ictimai varlığına mənfi təsirini göstərdi.

**5**. Tatar xalqının ali təbəqəsi olan feodallar, ruhanilər və ziyalılar (bunların da çoxu varlı təbəqənin içərisindən çıxırdılar - müəllif) təqiblərə, bir çox hallarda isə birbaşa fiziki cəhətdən məhv edilməyə məruz qaldılar.

**6**. Yuxarıda göstərilənlərə baxmayaraq, Volqaboyu xalqları daha sürətli iqtisadi inkişaf dövrünə, bundan da doğan ictimai inkişaf dövrünə qədəm qoydu. Bu da tatar xalqının yenidən formalaşmasına mühüm təsir göstərdi.

Tatarların və Volqaboyu türk xalqlarının feodal və ruhani təbəqəsinin dağınıq vəziyyətdə olması da Volqa-

boyu xalqların Rusiya hakimiyyəti altına düşməsində mühüm rol oynadı.

Qazan xanlığı ləğv edildikdən sonra onun idarəsi yenidən təşkil edildi. Lakin bu idarəçiliyin ümumi prinsipləri əhalinin düşmənçiliyini nəzərə alaraq mərkəzi bölgələrin idarəçiliyindən fərqli olmalı idi. Təşkil edilən idarəçilik sistemi sərt hərbi nəzarət üzərində qurulurdu. Birinci olaraq onu göstərmək olar ki, Qazanda xeyli miqdarda hərbi qüvvə saxlanılırdı. Qazanda hərbi voyevodalıq sistemi təşkil edildi. Lakin Rusiyanın başqa bölgələrindən fərqli olaraq buradakı voyevodalar həm hərbi, həm də mülki hakimiyyətəmalik idilər. İlk olaraq Volqaboyu xalqlar Sviyajsk və Qazan voyevodalıqlarına bölündülər. Əvvəllər hər iki voyevodalıq müstəqil hesab olunur və birbaşa çara tabe idilər. Lakin XVII əsrdən başlayaraq Qazan voyevodalığının əhəmiyyəti artdı. Voyevoda ali feodal təbəqəsinin nümayəndəsindən təyin edilirdi. Voyevodalıq öz növbəsində isə "yollara" bölünürdü. Qazan voyevodalığı beş "yola" bölünmüşdü. "Yol" ənənəvi deyil, inzibati yer anlamını ifadə edirdi. Voyevodalar qanunla yalnız çarın nümayəndələri sayılırdılar və çarın əmri olmada heç nə edə bilməzdilər. Lakin əslində isə onlar diyarın tam səlahiyyətli hakimi idilər. Yerli məmurlar və dəftərxana işçiləri "koma" adı altında voyevodaların sərəncamında idilər. Yerli streles qarnizonları da voyevodaların sərəncamında idi.

XVI əsrin 70 - ci illərindən Həştərxan və Qazan voyevodalarının özbaşınalıqlarına son qoymaq üçün Moskvada Qazan sarayı Prikazı yaradıldı. XVII əsrdən həmin

prikaza Uralətrafı, Sibir və Aşağı Volqaboyu torpaqlar da tabe olmağa başlamışdı. Onun funksiyası vergilərin toplanmasına, əsgərlərin, xidməti tatarların vəziyyətinə, ölkədə iqtisadi inkişafa nəzarət etmək idi. Bu sistem XVIII əsrdə quberniya sistemi təşkil edilənə qədər qüvvədə qalmışdı. Artıq XVII əsrdən başlayaraq bu idarə sistemi qarışıq və bürokratik, dolaşıq olan bir aparata çevrilmişdi. Bu yerlərdə yaradılan idarəçilik orqanlarına tatarlar buraxılmırdı. Onların başlıca vəzifəsi yerli xalqlarla məmur arasında tərcüməçi - tolmaç işləmək idi. Yerlərdə məhkəmə rolunu Tatar məhkəmə koması adlı orqan oynayırdı. Onun başında isə "Tatar başçısı" adlanan şəxs dururdu. Lakin bu vəzifə və idarənin özünün işçiləri də ruslardan təyin edilirdi.

XVI əsrin 70 - ci illərindən başlayaraq Volqaboyu ərazilərdə "zaseçnaya çerta" - "qeydə alınmış sərhəd" deyilən silahlandırılmış istehkamlar, qalalar sistemi yaradılmağa başlandı. Bunların da başlıca məqsədi baş verəcək üsyanların qarşısını operativ şəkildə almaq və Volqaboyunun sonrakı məskunlaşdırılması siyasəti üçün zəmin hazırlamaq idi. Eyni zamanda köhnə strateji məntəqələr də yenidən qurulmağa və yeni qalalar tikilməyə başlandı. Buna Qazan Kremlini, Laişev, Tetyuş, Urjum və s. qalalarınımisal olaraq göstərmək olar.

Rusiya hakimiyyəti dövlətə xidmət edən tatar feodallarına müəyyən imtiyazlar tanıyırdı. Onlar tərcüməçi, mirzə, elçi işləyir, rus ordusunda xidmət edirdilər. Xidmətə görə onlar maaş, taxıl, çörək, ərzaq, bəzən də torpaq sahəsi alırdılar. Xidməti tatarların ticarət və sənətkarlıqla

məşğul olmaq üçün də müəyyən imtiyazları var idi. XVII əsrin əvvəllərində xidməti tatarlar içərisindən geniş torpaq sahələri olan təbəqə də ayrılmışdı. Belə bir siyasət yerli əhalinin bir-birinə qarşı qoyulması ilə nəticələnirdi. Lakin xidməti tatarlar içərisində əsas yeri xırda torpaqlı ailələr tuturdu. XVI əsrin sonlarından başlayaraq Volqaboyu ərazilərdə rus mülkədarlarının da sayı artmağa başlayır. Artıq XVII əsrin ortalarında onların sayı yerli mülkədarların sayını keçirdi.

Qazan əhalsinin çox hissəsini "yasaq əhalisi" təşkil edirdi. Bunlar əvvəllər Qazan xanının xeyrinə vergi ödəyirdilər. Rusiya hakimiyyəti zamanında onların hüququ vəziyyətində elə bir dəyişiklik yaranmadı. Lakin bir müddətdən sonra Rusiya hakimiyyət orqanları onlardan alınan vergilərin miqdarını artırmağa, eyni zamanda bunları yerli tikinti, sənaye işlərinə cəlb etməyə başladılar. Bu isə əvvəllər heç də kasıb olmayan "yasaq əhalisinin" müflisləşməsinə və əhali arasında narazılığın artmasına səbəb olurdu.

Rusiya hakimiyyəti Volqaboyu əhalisini zorla xristianlaşdırma siyasəti də yeridirdi. Hələ Qazan və Həştərxan ələ keçirilən kimi burada bütün müsəlmanlara qarşı qanlı qətliam törədildi və bütün məscidlər dağıdıldı. Sonuncu Qazan xanı Yadigar xan zorla xristianlığı qəbul etdi. Minlərlə insan xristianlığı qəbul etmək məcburiyyətində qaldı. Qalan əhalini isə Qazandan çıxartdılar və onlara şəhərin 30 km -ə qədər yaxınlaşmaq qadağan edildi. Bundan başqa Rusiya hökuməti burada ruslardan ibarət zadəgan silkinin yaradılmasına da başladı. XVII əsrin əvvəl-

lərinə doğru çoxlu torpaq sahələri paylanılması nəticəsində Qazanda xeyli zadəgan ailəsi formalaşmağa başladı.

1555 - ci ildə arxiyepiskop Yuriyə tabe olan Qazan yeparxiyasına sonradan bütün Volqaboyu ərazilər tabe edildi. Onun vəzifəsi əhalinin sürətli xristianlaşmasını həyata keçirmək idi. Onun səlahiyyətləri Qazan, Sviyajsk voyevodalıqlarını və daha sonra isə Həştərxan vilayətini əhatə edirdi.XVI əsrin sonundan ruslar yenidən zorla əhalini xristianlaşdırmağa başladılar. Buna da bəhanə Qazanda yeni bir məscidin tikilməsi haqqında məlumat oldu. Xristianlığı qəbul edənlərə imtiyazlar tanınır və onlara torpaqlar paylanılırdı. Buna görə də xristianlığı ilk olaraq varlı tatarlar qəbul edirdilər. Lakin XVII əsrin əvvəllərində Rusiyanın mərkəzi rayonlarında baş verən hadisələr Moskva hökumətinin diqqətinin buralardan yayınmasına səbəb oldu. Sonrakı xristianlaşdırma hərəkatı artıq XVII əsrin II yarısından başladı.

XVII əsrin əvvəllərində Volqaboyunda yenidən üsyanlar başlandı. Bu dəfə üsyanlarda Rusiyanın mərkəzi rayonlarından qaçıb gələn kəndlilər də mühüm rol oynayırdılar. Buna görə də Volqaboyunda baş verən üsyanlar yerli xalqların milli azadlıq hərəkatı olmaqla yanaşı, eyni zamanda sosial etiraz forması idi. 1606 - cı ildə Orta Volqaboyunun kəndliləri və əhalisi üsyana qalxdılar. Qısa zamanda onlara Sviyajsk, Alatır, Arzamas, Çeboksarı, Kurmış və başqa şəhərlərin əhalisi də qoşuldu. Tezliklə üsyan Sağ Sahil Volqasına da yayıldı. 1608 – ci ildə general Şeremetyevin rəhbərliyi altında Volqaboyuna ordu yeridildi. 1609 - cu ildə Sviyajsk yaxınlığında üsyançılar

məğlub oldular. Bu dəfə üsyan Yarkəndə keçdi və üsyançılara Canəli Şükürov rəhbərlik etməyə başladı. Çar ordusu yalnız 1610 - cu ildə tədricən üsyanı yatıra bildi.

1613 - cü ildə Romanovlar sülaləsi hakimiyyət başına gəldi. Mixail Romanov bu münasibətlə bir neçə tatar zadəganına hədiyyə və titullar verdi. Lakin 1615 - ci ildə Volqaboyunda xalq üsyanı yenidən alovlandı. Üsyana hamıya məlum olan Canəli rəhbərlik edirdi. Lakin üsyan 1616 - cı ildə yatırıldı və Canəli Qazanda edam edildi.

XVII əsrdə Qazan ərazisində yaşayan əhalinin əksəriyyətini yasak verən əhali təşkil edirdi. Onlar eyni zamanda dövlət tikintilərində də iştirak edirdilər. Onlar dövlət torpaqlarının istifadəçisi sayılır və istifadə etdikləri torpaqlar əvəzində dövlətə natural və pul vergisi ödəyirdilər. Lakin XVII əsrin ilk yarısından başlayaraq onların torpaqlarını monastırlar, iri torpaq sahələri olan mülkədarlar tutmağa başladılar. Bu isə həm yasak əhalisinin narazılığına səbəb olur, eyni zamanda da dövlətin gəlirlərini azaldırdı. 1672 - ci ildə qeyri-rus millətindən olan yasak əhalisini vergi toplayanları özləri seçmək hüququ verildi. 1685 - ci ildə isə mülkədarlara yasak əhalisinin torpaqlarını özbaşına tutmaq qadağan edildi. 1688 - ci ildə isə Qazan voyevodalığına yerlərindən qaçan yasaq verənlərin qaytarılması haqqında göstəriş verildi.

XVII əsrdə tatar əhalisində xüsusi yeri xidməti tatarlar tuturdular. Onların əksəriyyəti yasak verən əhali içərisindən çıxır, etdikləri mülki və hərbi xidmət müqabilində şərti torpaq sahələri, maaş, ya da ərzaq alırdılar. Onlar öz evlərində yaşayır, amma hərbi çağırış zamanı

silahlı şəkildə orduya getməli idilər. Xidməti tatarların bir hissəsi həm də kargüzarlıq və diplomatik sahələrdə də xidmət edirdilər. Bunun da səbəbi Rusiyanın Səfəvi, Osmanlı dövlətləri və Krım xanlığı ilə yazışmalarını tatar dilində aparması idi. Lakin xidməti tatarların əlində xeyli miqdarda torpaq cəmləşməsinə baxmayaraq onlar bu torpaqları istifadə edə bilmirdilər. Bunun da səbəbi onların qanunla ruslardan təhkimli kəndli almalarına qadağa qoyulması, eyni zamanda tatar əhalisinin çox hissəsinin isə şəxsən azad olması idi. Bu da onları yasak verən əhalidən yararlanmağa məcbur edirdi. Nəticədə Volqaboyu ərazilərdə qeyri-rus mülkədarların sayı azalmağa başladı. XVII əsrin sonlarından rus ordusunda tatarlara tələbatın azalması onların ictimai nüfuzuna da zərbə vurdu. Nəticədə onların bir hissəsi artıq sənətkarlıq, bir hissəsi isə ticarətlə məşğul olmağa başladı.

XVII əsrin 20 - 30- cu illərindən başlayaraq çar hakimiyyəti Volqaboyu ərazisində yaşayan xalqların xristianlaşması üçün yeni üsullara əl atdı. İlk olaraq yeni xristianlaşanların imtiyazları və hüquqları daha da artırıldı. İkincisi,1628- ci ildə müsəlmanlara və başqa dinə mənsub olanlara xristianları işlətmək, müti kimi saxlamaq və s. formada istismar etmək qadağan edildi. 1649 - cu il "Kilsə nizamnaməsi" isə müsəlman varlılara xristianların torpaqlarını almağı qadağan edir və belə hal olsa həmin torpağın müsadirə edilməsini tələb edirdi. 1653 - cü il Nizamnaməsində isə yalnız xristian mülkədarlara öz torpaqlarını satmağa icazə verilirdi. Yeni xristianlığı qəbul etmiş mülkədarlar öz torpaqlarını irsən ancaq xristian va-

risə verə bilərdilər. 1681- ci il Qanunu da müsəlmanların hüquqlarını pozurdu. Belə ki, müsəlman mülkədarın torpağında xristianlar yaşayırdısa onun torpaqları əlindən alınırdı. Bundan başqa xristianlığı qəbul etmiş şəxs müsəlman qohumlarının torpaqlarını əllərindən almaq hüququ əldə edirdi. Belə siyasət isə xalqın narazılığına səbəb olurdu. 1682 - ci ildə Osmanlı dövlətinə göndərilən Volqaboyu tatarlarının elçiləri sultandan onları kafirlərin əlindən qurtarmağı xahiş etmişdilər. Volqaboyu türkləri 1667 – 1671 - ci illərdə Stepan Razinin üsyanında da yaxından iştirak etmişdilər. Tatar rəhbərlərindən Hasan Qaraçurin, İştərək Abız kimi rəhbərlər camaat arasında böyük nüfuz qazanmışdılar. 1671 - ci ildə üsyançılar çar ordusu tərəfindən darmadağın edildilər. Bundan sonra çar hökuməti üsyançılar, xüsusilə tatarlara qarşı sərt cəza tədbirləri görməyə başladı. Arzamas şəhəri minlərlə üsyançının edam edildiyi bir şəhərə çevrildi.

Üsyandan sonra çar hakimiyyəti əhaliyə bəzi güzəştlərə də getdi. Xüsusilə də, müsəlman mülkədarların torpaqlarının alınması prosesi nisbətən məhdudlaşdırıldı. Bəzi mülkədarların torpaqları isə özlərinə qaytarıldı.

XVII əsrdə Qazan şəhəri Rusiyanın aparıcı təsərrüfat mərkəzlərindən birinə çevrilməyə başlamışdı. Şəhərdə 20 minə qədər əhali yaşayırdı. Əhalinin əksəriyyəti ticarət, sənətkarlıq, balıqçılıq, gəmiqayırma ilə məşğul olurdu. Lakin dəmirçilik və silah qayırma ilə tatar əhalisinə hakimiyyət orqanları tərəfindən qadağa qoyulmuşdu. Buna görə də tatarlar arasında daha çox toxuculuq, dəri emalı, taxta emalı və s. peşələr yayılmışdı. 1682 - ci

ilə qədər tatar əhalisinə şəhər ticarəti ilə məşğul olmaq da qadağan edilmişdi. Lakin bu əmrin ləğv ediıməsindən sonra tatarlar arasından varlı tacir təbəqəsi də sürətlə yetişməyə başladı.

XVII əsrin 40 - cı illərində Qazan voyevodalığında ilk manufakturalar meydana gəldi. İlk manufakturalar metal emalı-mis emalı sahəsində yarandılar. Bunun ardınca Qazan və Kukmorda başqa sahələr - sabun bisirmə, duz emalı, dəyirmanlar, selitra istehsalı, balıq emalı sahələrində də manufakturalar meydana gəldi.

XVIII əsrin əvvəllərindən başlayaraq Rusiya imperator I Pyotrun təşəbbüsü ilə böyük islahatlar yoluna qədəm qoydu. 1681 - ci ildə sonuncu idarəçisi Fatimə sultan Bikənin ölümündən sonra I Pyotr ancaq adı qalmış olan Qasım xanlığını da ləğv etdi. Aparılan islahatların çoxu Volqaboyu ərazilərindən yaşayan xalqlara da aid edilirdi. 1708 - ci ildə quberniya islahatı keçirildi və Volqaboyu, Sibir xanlığı, Noqay ordası və Həştərxan xanlığı torpaqlarının çox hissəsi Qazan quberniyasının tərkibinə daxil edildi. 1717 - ci ildə Həştərxan quberniyası və 1719 - cu ildə Nijeqorod quberniyası Qazandan ayrıldılar. İlk dəfə Qazan quberniyası voyevodalıqlara, 1719 - cu ildən sonra isə əyalətlərə bölünürdü. Qazan qubernatoru böyük inzibati, hərbi, mülki və məhkəmə səlahiyyətlərinə malik şəxs idi. O, quberniyanın öz vəsaiti hesabına ordu, donanma və s. məsələlərin həll edilməsi üçün vəsait ayırmalı idi. Ordu səfərbərliyi hüquqları da qubernatora məxsus idi.

Vergilərin xəzinəyə daimi gəlməsini təmin etmək üçün I Pyotr 1718 – 1724 - cü illərdə əhalinin siyahıya alınmasını keçirdi. 1724 - cü ildə mülkədarlara tabe olmayan kəndlilər xəzinə, yaxud dövlət kəndliləri adlanmağa başlandılar. Onlardan adambaşına vergi alınmağa başlandı. Həmin ildə Volqaboyu ərazilərinin yasaq verən kəndliləri də dövlət kəndliləri sırasına daxil edildilər. Dövlətdən əlavə dövlət kəndliləri çoxlu sayda yerli vergilər ödəməli idilər. Tatarlardan isə əlavə olaraq toy pulu 25 qəpik əlavə vergi alınırdı. Bundan başqa tatarlar çoxsaylı əmək mükəlləfiyyətləri də daşıyırdılar. Bunlar daha çox şəhərlərin, istehkamların, yolların və qalaların tikintisində iştirak edirdilər.

I Pyotr ərazidə sənayenin inkişafına da yüksək fikir verirdi. 1714 - cü ildə I Pyotrun Volqaboyuna ezam etdiyi podpolkovnik A. Qruzinsev ilk olaraq burada Qazan mahud manufakturasının əsasını qoydu. Bu isə yerli əhali üçün əlavə əmək mükəlləfiyyəti demək idi. 1719 - cu ildə artıq burada 200 adam çalışırdı. 1721 - ci ildə manufaktura tacirlərdən ibarət bir qrupa satılmışdı. Buranın sahibi B. Mixlyayev sonradan buranı genişləndirərək dəri və əlavə bir ədəd mahud manufakturası da açmışdı. Bunlarda da 1724- cü ildə 600 adam işləyirdi.

1718 - ci ildə Qazanda Həştərxan və Qazan limanlarını öz səlahiyyətlərində birləşdirən Qazan admirallığı yaradıldı. 1722 - ci ildə Qazanda olan I Pyotr şəxsən admirallığın işlərinə baxış keçirmişdi.Bir müddətdən sonra bura böyük bir sənaye mərkəzinə çevrildi. 1719 - cu ildə admirallıqda 25 mindən çox xidməti tatar çalışırdı və

bunlara laşman deyirdilər. Onlar əsasən meşələrin qırılması və ağac materialı toplanmasında iştirak edirdilər. 1725 - ci ilə qədər onlardan vergi alınmırdı. Lakin 1725 - ci ildən başlayaraq onlardan vergi alınmağa başlandı.

1719 - cu ildən Qazanda gəmiqayırmanın ehtiyacları üçün su nasosu dəriləri-pumpa istehsal edən zavod tikildi. Burada eyni zamanda kauçuklar istehsal edilirdi. 1718 - ci ildə I Pyotrun əmri ilə Qazan admirallığı yaradıldı. Həştərxan və Qazan gəmi limanları idarənin ixtiyarına verildi. Onun məqsədi gəmilərin istehsalını, təmirini, ərzaqla təmin edilməsini həyata keçirmək idi. Limanlarda Xəzər donanması üçün hərbi və mülki gəmilər inşa edilməyə başlanmışdı.

Lakin aparılan islahatlar müsəlman tatarların vəziyyətini yaxşılaşdırmadı. Əksinə 1713 - cü ildə I Pyotr müsəlman tatarları təhkimli saxlamaq hüquqlarını məhdudlaşdıran bir çox qanunlar qəbul etdi. Bu isə onları demək olar ki, işçi əllərdən məhrum etdi. Bundan başqa onların torpaqları da əllərindən alınırdı. Bundan sonra müsəlman tatar mülkədarların çoxu ticarət, sənaye, xırda sənətkarlıq və sahibkarlıqla məşğul olmağa başladılar. Nəticədə keçmiş mülkədarların demək olar ki, hamısı vergi verən təbəqəyə çevrildi.

1713 - cü ildə I Pyotrun əmrinə əsasən xristianlığı qəbul etməyən müsəlman mülkədarların torpaqları əllərindən alınaraq xristian qohumlarının, ya da ki, rus mülkədarların ixtiyarına verilirdi. Ancaq çox vaxt müsəlman kəndlilərin də sahibləri torpaqlarından olurdular. 1715 - ci ildə əhalinin xristianlaşması istiqamətində başqa qa-

nunlar da verildi. XVIII əsrin 20 - ci illərində verilən fərmanlarla xristianlığı qəbul edənlər bir neçə il müddətinə vergilərdən azad edilirdilər.

1728 - ci ildə verilən qanun isə əhaliyə ölüm cəzası qorxusu altında xristianlığı qəbul etməyi əmr edirdi. İnkar edənlər zorla monastırlara və kilsələrə göndərilir, yola gəlməyəndə isə uzunmüddətli həbsdən başlayaraq ölümə qədər ağır cəzalar alırdılar.

Rusiya imperatoru Anna İvanovnanın dövründə xristianlaşdırmanı həyata keçirmək üçün 1731 - ci ildə "Qazan və Nijeqorod müsəlmanları və başqa xalqların xristianlaşdırılması komissiyası" adlı xüsusi komissiya yaradıldı. 1740 - cı ildə həmin idarə Yeni xristianlaşdırma Kontoru adlandırıldı və hüquqları genişləndirildi. Xristianlığı qəbul edənlərə müxtəlif hədiyyələr, pul mükafatları və imtiyazlar verilirdi. Verilən fərmanlarda əhalini məcbur etməmək əmr edilsə də, əslində müsəlmanlara qarşı amansız davranılırdı. Xristian missionerləri əsgərlərlə birgə kəndləri gəzərək əhaliyə zorla xristianlığı qəbul etdirir, kəndliləri məcburi çay qıraqlarında xaç suyuna çəkilmək üçün toplayır, imtina edənlərə isə işgəncə verir, zindana salırdılar. Qabaqlarına çıxanları zorla kilsələrə sürükləyirdilər. Hətta uşaqlara belə əzab verməkdən çəkinmirdilər. Bu məsələdə Qazan arxiyepiskopu Luka Kanaşeviç xüsusilə fərqlənirdi.

1742 - ci ildə imperatriçə Yelizaveta Petrovna Qazanda və ətraf bölgələrdə məscidlərin dağıdılması və hətta bir neçə xristian yaşayan yerdə belə kilsələrin tikilməsi barəsində əmr verdi. Əmr nəticəsində Volqaboyu ərazi-

lərdə 400 - dən çox məscid dağıdılıb yerlə bir edildi. 1744 - cü il əmrinə əsasən daha 100 məscidin dağıdılması haqqında fərman verildi. Amma müsəlmanlar arasındakı narazılığın güclənməsi və üsyan təhlükəsi Rusiya hökumətini bu fikrindən daşındırmışdı. 1749 - cu ildə verilən fərmanla müsəlman kəndli yaşadığı yerdə xristian kəndlinin də vergisini verməli idi. Ümumilikdə XVIII əsrin 40 – 50 - ci illərində 418 məscid dağıdılmışdı. 1752 - ci ildə Qazan yepiskopu özbaşına məscidlərin dağıdılması və müsəlman qəsəbələrinin sakinlərinin zorla deportasiya olunması haqqında əmr vermişdi. Yalnız əhalinin silahlanması və üsyana hazırlaşması xəbərini alandan sonra çar xüsusi fərmanla zorla xristianlaşmanı qadağan etdi. Bütün fəaliyyəti ərzində xeyli çuvaş, mari, çeremis, udmurt və mordvinlər xristianlığı qəbul etmişdilər. Lakin tatarlar arasında yeni dinə münasibət xeyli mənfi idi.

Yalnız üsyan təhlükəsi qarşısında qalan Yelizaveta 1756 - cı ildə tatarlara məscid tikməyə icazə verdi. 1764 - cü ildə II Yekaterina isə müsəlman tatarların yaşadıqları yerdə xristianların əvəzindən vergi verməsini ləğv etdi. 1773 cü ildə II Yekaterina Rusiyada bütün dinlərin azad olduğunu elan etdi və müsəlmanlara özlərinə məscid tikməyə, məktəblər açmağa icazə verdi. 1788 - ci ildə başda müfti olmaqla müsəlmanların idarə komitəsi yaradıldı. İlk müfti isə Məhəmmədcan Hüseynov təyin edildi. 1789 - cu ildə Ufada Müsəlman Ruhani Yığıncağı təsis edildi. Komitənin səlahiyyətlərinə Mərkəzi Rusiya və Sibirin müsəlman icmalarını birləşdirmək və onların üzərində nəzarət daxil idi. 1771 - ci ildə Qazanda ilk mədrəsələr

açıldı. Bunlar Axundov və Apanayevin evlərində fəaliyyət göstərirdilər. 1780 - ci ildə Əmirxanovun evində yeni bir mədrəsə açıldı. Mədrəsələr tatarların yayıldıqları başqa quberniyalarda da fəaliyyət göstərməyə başlamışdılar. Belə ki, Orenburqda "Hüseyniyyə" mədrəsəsi Volqaboyunda daha çox tanınmışdı.

II Yekaterina Qazan quberniyası və Volqaboyu ərazilərin inzibati idarəsində də xeyli dəyişiklik etdi. Belə ki, 1775 - ci ildə Rusiyada olan quberniyaların sayı artırıldı. Volqaboyu tatarları Vyatka, Ufa, Samara, Simbirsk, Orenburq, Nijeqorod quberniyaları arasında parçalanmış vəziyyətdə qaldılar. 1781 - ci ildə tərkibinə Qazan, Saratov, Penza quberniyaları daxil olan vahid canişinlik yaradıldı. Lakin XVIII əsrin 90 - cı illərində onu ləğv etdilər.

XVIII əsr Volqaboyu ərazilərin iqtisadi inkişafında xüsusi bir mərhələni təşkil edir. Regionda əkinçiliyin başlıca sahəsi vələmir idi. Buğda istehsalı bu torpaqlarda zəif təmin edilmişdi. Bundan başqa əhali arasında heyvandarlıq daha geniş yayılmışdı. Heyvandarlıq daha çox tatar təsərrüfatlarında idi. Bu təsərrüfatlar da Volqaboyunun şərq rayonlarında yayılmışdı. Tezliklə həm əkinçilik, həm də heyvandarlıq əmtəə istehsalı xarakteri kəsb etməyə başladı. İstehsalın artması və kənd təsərrüfatının inkişafı kəndlilər arasında təbəqələşmənin də artmasına səbəb olurdu.

I Pyotrun ölümündən sonra Rusiya hakim dairələri Volqaboyu zonaların iqtisadi inkişafını təmin etmək üçün mühüm tədbirlər görürdülər. 1736 - cı ildə kəndlilərin manufakturalara təhkim edilməsi qaydası müəyyən

edildi. Lakin XVIII əsrin II yarısından başlayaraq kapitalist münasibətləri də burada yayılmağa başladı. 1762 - ci ildə verilən fərmana görə manufakturalara təhkimli kəndli almaq qadağan edildi. Bu da bölgədə muzdlu əməyin tətbiqi üçün şərait yaratdı. Hələ 1741 - ci ildə sənayeçilərə özbaşına fəhlələri Sibirə sürgün etmək qadağan edilmişdi. 1763 - cü ildə Senat Qazan tatarlarına Volqaboyu və başqa yerlərdə ticarət etmək icazəsi verildi. 1776 - cı ildə isə tatarlar Rusiyanın hər yerində ticarət edə bilərdilər. 1775 - ci il çar fərmanındasənayenin inkişafını təmin etmək üçün Qazanda və ətraf bölgələrdə hər bir kəsə "dəzgah qurmağa" icazə verildi. 1781 - ci ildə Qazanda xəzinə barıt zavodu tikilib istifadəyə verildi.

Yerli əhali tərəfindən də manufaktura istehsalına sərmayə qoyulurdu. Qazan və ətrafında XVIII əsrin II yarısında 38 mahud manufakturası fəaliyyət göstərirdi. Bunlardan ən böyüyü tatar əsilli Nazir Bayəzidova məxsus idi. Tatarlar daha çox yüngül sənaye, yəni sabun və parça istehsalına sərmayə qoyurdular. Çünki bu istehsal sahələri o qədər də böyük sərmayə tələb etmir və tez bir zamanda qazanc verirdilər. Parça istehsalçıları içərisində İbray Yusupov bir neçə manufakturanın istehsalını öz əlində cəmləşdirmişdi. Volqaboyunda misəritmə zavodları da açılmışdı. Daha sonra xristian tatarlar arasından Asəf İnozemsev Meşa çayı kənarında misəritmə zavodunu işə saldı. Lakin tatarların açdıqları müəssisələr daha çox kənd yerlərində fəaliyyət göstərirdi, səbəbi isə onların daha çox muzdlu əməkdən istifadə etməsi idi. Çunki tatarlar arasında təhkimli olanı çox az idi. Tatar istehsal-

çıları daha çox qumaş, yun, pambıq parçalar, yeyinti sənayesi sahələrində fəaliyyət göstərirdilər.

Müsəlman tatarlar içərisində ilk misəritmə zavodu Kutlumuhəmməd Tevkelev tərəfindən açılmışdı. Lakin qırx ildən sonra zavod dayanmışdı. Umumilikdə XVIII əsrin sonlarına doğru Volqaboyunda yüzdən artıq irili xırdalı misəritmə müəssisəsi fəaliyyət göstərirdi. Göstərilənlərdən əlavə Volqaboyunda selitra, potaş, ağac emalı və un üyütmə zavodları da fəaliyyət göstərirdi. Qazan ətrafının ən böyük sənaye müəssisəsi Qazan admirallığı idi. Admirallığın sərəncamında onlarla sənaye müəssisəsi və iki mindən çox daimi fəhlə var idi. Böyük zavodlardan biri də Qazan pumpa zavodu idi.

1754 - cü ildə Qazanda və Həştərxanda daxili gömrüklərin ləğvi, vahid ölçü, çəki və pul sisteminə keçid haqqında fərman verildi. Bundan səkkiz il sonra isə ticarətdə bütün inhisarlar, məhdudiyyətlər ləğv edildi. Bunun nəticəsində Volqaboyunda ticarət sürətlə inkişaf etməyə başladı. XVIII əsrin 70 - ci illərindən başlayaraq Qazan şəhərinin ticarət əhəmiyyəti onun böyük şəhərə çevrilməsinə səbəb oldu. Diyarda əsas ticarət forması bazar və yarmarka idi. Bazarlar daha çox şəhərlərdə, yarmarkalar isə daha çox ticarət yollarının kəsişdiyi yerlərdə, bəzən də kəndlərdə fəaliyyət göstərirdilər. 1782 - ci ildə Volqaboyu tarixində ilk dəfə sloboda tatarlarının seçkili orqanı fəaliyyət göstərməyə başladı. Nəticə olaraq onun fəaliyyəti kəndlərdə yaşayan tatarlar arasında ticarətin və sənayenin inkişafına dəstək vermək idi. Tatarlar Rusiyanın xarici ticarətində də mühüm rol oynamağa

başlamışdılar. 1749 - cu ildə ilk dəfə olaraq seyid tatarları Şərqə ilk ticarət karvanı yolladılar. Karvan Xivə, Buxara və Kabulda olmuş və uğurlu ticarət əməliyyatı həyata keçirmişdi. 1752 - ci ildə Qazan tatarlarının göndərdiyi karvan isə Hindistana qədər gedib çıxmışdı. 1753 - cü ildə seyid tatarları olan Nadir Səfərov və Yaqub Yaqafarovun karvanları da Hindistana qədər gedib çıxa bilmişdilər. 1799 - cu ilin siyahıya almasına görə Qazanda 595 tatar tacir, 32 tacir ailəsi yaşayırdı. Onlardan beş ailə ikinci dərəcəli, ona yaxın ailə isə üçüncü dərəcəli tacir gildiyasına mənsub idilər.

Rusiya hakimiyyət orqanlarının Volqaboyu türk əhalisinə qarşı amansız məhdudlaşdırma siyasəti əhali arasında Rusiyaya qarşı narazılığın və üsyan əhval- ruhiyyəsinin artmasına səbəb olmuşdu. Buna görə də 1773 - cü ildə Puqaçovun hərbi dəstələri Volqaboyunda görünən kimi Seit qəsəbəsindən olan Musa Əliyev öz dəstəsi ilə ona qoşulan ilk adam oldu. Puqaçovun ordusu Qazan Volqası ətrafında görünən kimi yerli tatarlar arasında xeyli silahlı dəstələr ona qoşulmağa başladı. Bunlardan məşhur olanları Musa Mustafin, Osip Yenqalıçev, Qaranay Muratov, Şərif Yaqubov və Nəzər Alekseyev idilər. 1774 - cü ildə Q. Muratovun dəstəsi bir neçə gün Menzelinsk şəhərini hücumla tutmağa cəhd etmişdi. Lakin dəstələr dağınıq və plansız hərəkət edir, vahid rəhbərə tabe olmurdular.

1773 - cü ilin iyulunda Puqaçov Qazan şəhərini ələ keçirdi. Lakin şəhərdə möhkəmlənə bilmədi. Həmin ilin iyul ayının 15 - də Qazanka kəndi ətrafında Ars çölü dö-

yüşündə Puqaçov hökumət ordusuna məğlub olaraq geri çəkilir.

1774 - cü ildə Maridə, Çuvaşiyada, Saratov, Həştərxan ətraflarında kəndli hərəkatı yenidən alovlanır. Tatarların və başqa millətlərin nümayəndələri yenidən Puqaçova qoşulurlar. Lakin 1775 - ci ildə üsyan amansızlıqla yatırılır. Rusiya hökuməti gələcəkdə belə sosial sarsıntıların qarşısını almaq üçün Volqaboyunun idarəsi üçün xeyli islahatlar həyata keçirdi. 1781 - ci ildə Qazan quberniyasının ərazisi kiçildilib indiki Tatarstan respublikasının ölçüsünə çatdırıldı. Burada isə 13 bölgə idarəsi yaradıldı. Həmin ildə Penza və Saratov quberniyaları yarandı. Qazan quberniyası da bunlarla birgə vahid canişinliyin tərkibinə daxil edildi. Canişinliyə Həştərxan quberniyası da daxil idi. Bundan başqa dağıdılmış zavodların və ticarət kontorlarının sahiblərinə lazımi səviyyədə yardım verildi. XVIII əsrin 70 - ci illərinin sonunda Qazanda tatar müftiliyi yaradıldı. 1776 - cı ildə təhkimli kəndlilərdən başqa bütün tatarlara azad ticarət hüququ verildi. 1779 - cu ildə isə siyahıya alınmış muzdlu kəndlilərin əmək haqqı da artırılmış oldu. Taxta sədaqətinə görə zadəganlara xüsusi imtiyazlar tanındı. Tatarların da iri zadəganları və müsəlman ruhanilər də daxil olmaqla xüsusi imtiyazlar və güzəştlər aldılar.

XIX əsrin I yarısında Volqaboyunun əhalisi xeyli artmışdı. Təkcə Qazan quberniyasında 1.5 mln əhali yaşayırdı. Lakin əhalinin yalnız 6.1 faizi şəhərlərdə, qalan əhali isə kəndlərdə və qəsəbələrdə yaşayırdı. Kəndlilər qanunla üç qrupa- dövlət kəndliləri, mülkədar kəndliləri

və udel kəndlilərinə bölünürdülər. Kəndlilərin 80.2 faizini dövlət kəndliləri təşkil edirdilər. Mülkədar kəndlilərinin əksəriyyəti milli tərkib baxımında ruslar idi. Tatarlar içərisindən yalnız xristian tatarlar təhkimli kateqoriyasına daxil idilər. Kənd mülkədaları kəndin ali təbəqəsi olmaqla yanaşı əsas etibarilə iki zümrəyə bölünürdülər. Bunlardan birincisi, sayca ən çox olan xırda mülkədarlar idilər. Lakin torpaqların daha çoxu iri mülkədarların əlində cəmləşmişdi. İri mülkədarlar arasında çoxluq ruslarda idi. Lakin Deberdeyevlər, Baişevlər, Usmanovlar kimi iri tatar feodal nəsilləri də vardı. XIX əsrin 40 - cı illərindən başlayaraq bəzi irəli görüşlü mülkədarlar öz təsərrüfatlarında muzdlu əmək də tətbiq etməyə başladılar. Bəziləri isə hətta manufaktura açmağa da təşəbbüs edirdilər. 1839 - cu ildə Qazan univeristeti alimlərinin təklifi ilə irəli görüşlü mülkədarlar Ümumrusiya Azad İqtisadi Cəmiyyətdə birləşdilər.

Şəhər əhalisini az olmasına rəğmən Tatarıstan ərazisində iri sənaye mərkəzləri meydana gəlmişdi. Qazan, Çistopol, Mamadış, Laişev, Tetyuş, Elabuqa və Menzeli şəhərlərinin əhəmiyyəti xeyli artmışdı. Qazan və Çistopol şəhərləri isə böyük sənaye və ticarət mərkəzinə çevrilmişdilər. Uzunmüddətli xristianlaşdırmadan sonra çuvaşlar, marilər, mordvinlər, udmurtların əksəriyyəti xristianlığa, tatarlar isə çoxluq etibarilə İslam dininə sitayiş edirdilər. Ümumiyyətlə, zorla xristianlaşdırma nəticəsində Qazan quberniyasının əhalisinin əksəriyyətini ruslar (41%) təşkil edirdilər. Tatarlar isə əhalinin 30% - ə yaxını-

nı təşkil edirdi. Onlardan sonra üçüncü xalq çuvaşlar idi. Bunlar əhalinin 22% - ni təşkil edirdilər.

Tatarıstan əhalisinin başlıca məşğuliyyəti kənd təsərrüfatı idi. Qazan quberniyasında XIX əsrin əvvəllərində torpağın 33% - ni əkinlər, 52% - ni meşələr, qalan hissəsini isə biçənəklər tuturdu. Əkinçilikdə başlıca məhsul taxıl idi. Taxıl içərisində başlıca məhsul isə çovdar idi. Lakin bundan başqa paxlalı bitkilər, darı, tərəvəz məhsulları da əkilirdi. Kənd təsərrüfatında maldarlıq da mühüm yer tuturdu. Maldarlığın inkişafında başlıca xüsusiyyət onun müqayisədə daha erkən bazara cəlb edilməsi idi. Maldarlıq eyni zamanda emaletmə sənayesi üçün də xammal verirdi.

XIX əsrin I yarısında kənd təsərrüfatında texniki yeniliklərin tətbiqi və muzdlu əməkdən istifadə xeyli artmışdı. 1839 - cu ildə isə kənd təsərrüfatında texnikanın tətbiqinin sürətləndirilməsi üçün Qazan iqtisadi cəmiyyəti yaradılır və cəmiyyətin yardımı ilə buralarda xeyli miqdarda yer şumlayan maşın, məhsul yığan texnika tətbiq edilməyə başlayır. Musdur əməyindən istifadə də xeyli yayılmışdı. Lakin bu yeniliklərə baxmayaraq kənd təsərrüfatında əsas etibarilə köhnə üsullardan istifadə edilirdi. Kəndlilərin vəziyyəti, xüsusilə də müsəlman kəndlilərinin vəziyyəti daha da ağır idi. Onlar arasında "atsız təsərrüfatlar" daha da artmışdı. Atsız təsərrüfatlar torpağı becərmək üçün əmək alətlərinin olmadığı təsərrüfatlar idi. Bunların sahibləri torpaqları icarəyə verir, özləri isə müxtəlif işlərdə işləyirdilər. Bu cür adamlara burlaklar deyilirdi. Əhali arasında sosial vəziyyəti ağır

olan xeyli adamlar meydana gəlmiş, bunlar da daha çox mövsümi işlərdə çalışırdılar.

Vergilərdən başqa məmurların özbaşınalığı, rüşvətxorluq, onların xristianlara nisbətdə daha ağır vergilər ödəməsi tatar əhalisinin vəziyyətini daha da ağırlaşdırırdı. XIX əsrin 40 – 50 - ci illərində torpaqların primitiv becərilmə üzündən torpaqların məhsuldarlığı azalmış, kənd təsərrüfatı böhran həddinə çatmışdı. 1837 – 1841 - ci illərdə Volqaboyunda Kiselyovun adı ilə adlandırılan islahat tətbiq edildi. İslahatın aparılmasında başlıca məqsəd dövlət kəndlilərinin hüquqi və mülki vəziyyətini tənzimləmək idi. Beləliklə, dövlət kəndlilərinin əmlakını nəzarətdə saxlamaq üçün Dövlət Əmlak Nazirliyi yaradıldı. Əmlakın idarəedilmə qaydasının dəyişdirilməsi nəticəsində dövlət kəndlilərinin əmlakında mühüm artım müşahidə edildi. Ancaq bununla bərabər onların ödəməli olduqları vergilərin də miqdarı artırıldı. Həmin qanuna görə müsəlman kəndlilər ərazilərindəki məmurları öz hesablarına saxlamalı idilər.

Bu da Volqaboyu zonalarda kəndlilərin böyük çıxışlarına səbəb olurdu. XIX əsrin 40 - cı illərində Kocmodemyansk, Sivil, Çeboksarı, Sviyajsk və başqa uyezdlərdə çuvaş və marilərin iştirakı ilə Akramov hərəkatı baş verdi. Üsyan yatırılsa da, çar hökuməti çuvaşlara qarşı bəzi güzəştlərə getməli oldu. Üsyan 1842 - ci ildə başlamış və bir neçə gün ərzində xeyli uyezdi əhatə etmişdi. XIX əsrin I yarısında tatarlar və başqa yerli xalqlar arasında yayılan hərəkatlardan biri də "imtina etmə hərəkatı" idi. Bunun nəticəsində xeyli tatar, çuvaş, mari və udmurt

xristian dinindən imtina edərək öz dinlərinə qayıtmaq istəmişdilər.

XIX əsrin I yarısında Volqaboyu ərazilərdə sənaye də inkişaf edirdi. Lakin manufakturalar milli mənsubiyyətindən asılı olaraq bölünürdü. İstehsal sisteminə görə manufakturalar xırda əmtəə istehsal edən və böyük manufakturalara bölünürdülər. Bundan başqa kəndlərdə əhalinin kustar istehsalı da mövcud idi. Manufaktura istehsalında kapitalist münasibətləri daha tez sirayət edirdi. Sahibləri tatarlardan ibarət olan manufakturalarda daha çox muzdlu əmək tətbiq edilirdi. Lakin sahibləri ruslardan olan zavodlarda isə posession və təhkimli kəndli əməyindən istifadə olunurdu. Bütün Volqaboyu quberniyalarda tatar sahibkarların 100 - dən çox manufakturası fəaliyyət göstərirdi. Qazan şəhəri əvvəlki kimi Volqaboyunun başlıca sənaye mərkəzi idi. Burada 90 - dan çox sənaye müəssisəsi işləyirdi. Əvvəllər manufakturaların çoxu dövlət sifarişlərini yerinə yetirmək üçün işləyirdisə, XIX əsrin I yarısında manufakturaların çoxu artıq məhsullarını açıq satış üçün hazırlayırdı. Tatarlara məxsus manufakturalar əsas etibarilə mahud, kumaş, salo, sabun istehsalı, potaş, selitra istehsalı ilə məşğul idilər.Regionun ən böyük gön dəri manufakturalarından biri tatar taciri F. Suriova məxsus idi. XIX əsrin I yarısında təkcə sabun və parça istehsalının həcmi XVIII əsrin sonu ilə müqayisədə 10 dəfə artmışdı. Apanayevlər, Abdulovlar, Muhammedovlar kimi böyük sənayeçi ailələri meydana gəlmişdi. Bundan başqa Volqaboyunda ev sənətkarlığı da inkişaf etmişdi. Belə ki, XIX əsrin 50 - ci illərinə doğru

tatar əhalisinin istehsal etdiyi qış və yay paltarları Mərkəzi Asiya ölkələrinə qədər ixrac edilirdi. Bundan başqa Qazanda zərgərlik əşyaları istehsal edən manufakturalar da fəaliyyət göstərirdi. 1815- ci ildə tatar taciri Huzseyidovun fəaliyyəti ilə Volqaboyunda ilk kağız istehsalı fabrikinin əsası qoyuldu. XIX əsrin I yarısında Volqaboyu ərazisində manufaktura istehsalının gedişində mühüm dəyişikliklər də baş verdi. Artıq posessiya və təhkimli əməyinə əsaslanan manufakturaların çoxu rəqabətə davam getirməyərək sıradan çıxırdılar. Mis ehtiyatlarının tükənməsi səbəbindən misəridən zavodların çoxu öz fəaliyyətini dayandırmış, çay gəmiçiliyi üçün xırda gəmilər istehsal edən doklar isə Həştərxana köçürülmüşdü. Volqaboyunda parafin və sabun istehsalı, toxuculuq sənayesi başlıca olaraq tatar tacirlərinin əlində cəmləşmişdi.

Kapitalist istehsal üsulu xırda əmtəə istehsalı ilə məşğul olan sənətkar emalatxanaları, kooperativlərə də öz təsirini göstərməkdə idi. 1853 - cü ildə Qazan quberniyasında 120 sənətkar emalatxanasında muzdlu əməkdən istifadə edilir. Tatarlara məxsus olan emalatxanalar daha çox kəndlərdə yerləşirdi. Bunların da çoxunda muzdlu əməkdən istifadə edilirdi.

XIX əsrin 30 - 40- cı illərindən başlayaraq bütün Rusiyada olduğu kimi Volqaboyunda da sənaye çevrilişi başlayır və tədricən fabrik- zavod sənayesinə-maşınlı istehsala keçid baş verir. XIX əsrin 40 - cı illərində Çistopol uyezdinin Muras kəndində pambıq fabrikləri işə başlayır. 1850 - ci ildə burada ilk kimya zavodu işə başlayır. Burada keramik piltə, xrompik, kükürd turşusu, gübrə və b.

məhsullar istehsal edilirdi. 1851 - ci ildə Qazanda mis və çuqun əridən mexanika zavodu işə başlayır. 1855 - ci ildə Volqaboyunda Moskva tacirləri Krestovnikovların sabunbişirən, qliserin və kimya zavodu zonanın o dövrün ən son texniki nailiyyətləri ilə təchiz edilmiş ən böyük müəssisəsi idi. 1858 - ci ildə Qazan taciri İ.P Alafuzov özünün işlətdiyi kətan zavodunun bazasında böyük bir dəri zavodu açdı. Bu zavod bir müddətdən sonra Volqaboyu zonasının ən böyük müəssisəsinə çevrildi. Həmin il "Qafqaz və Merkuri" şirkəti tərəfindən gəmi təmiri emalatxanaları açıldı. Tezliklə bu zavod regionun ən böyük sənaye mərkəzlərindən birinə çevrildi.

Nəqliyyatda ilk yenilik paroxodlardan istifadə edilməsi oldu. 1817 - ci ildə ilk paroxodlar Kama çayında, sonra isə tədricən bütün Volqa və Kama hövzəsində istifadə edilməyə başlandı. XIX əsrin 60 - cı illərində artıq Volqa, Kama, Meşa və başqa çayların sahillərində onlarla xırda paroxod limanları fəaliyyət göstərirdi. Volqaboyu zavodlarında bu dövrdə 100 mindən çox fəhlə işləyirdi. Bütün bu irəliləyişlər şəhər əhalisinin artmasına səbəb olmuşdu. XIX əsrin 50 - ci illərində təkcə Qazanda 100 mindən çox əhali yaşayırdı. Bunlardan da çoxu fəhlələr, sənətkarlar və xırda tacirlər idi.

Fabrik zavod sənayesinin inkişafı fəhlələrin əməyinin ağır istismarı ilə müşayiət edilirdi. Buna görə də XIX əsrin ilk onilliklərindən ilk fəhlə tətilləri keçirildi. İlk fəhlə hərəkatı 1803 – 1806 - cı illərdə mahud istehsalçılarının işləməkdən imtina etmələri və zavod sahiblərinə basqın etmələri oldu. Bu zaman onlar iş normasının azal-

dılmasına nail olmuşdular. Bundan başqa çara və onun vəliəhdinə edilən şikayətlərin də sayı artırdı. 1819- cu ildə Qazanda Osokinin mahud fabriklərində fəhlələrin ilk böyük tətili oldu. Onlar bir neçə fəhlələrə əziyyət verən ustanın zavoddan qovulmasına nail ola bilmişdilər. 1836 - cı ildə bir neçə yüz təhkimli mahudçu çar I Nikolaya özlərinin ağır vəziyyətləri haqqında şikayətnaməni şəxsən təqdim etmişdilər. Burada I Nikolaydan onlara qarşı verilən bədən cəzasının ləğv edilməsi və maaşlarının artırılmasına yardım etmək xahiş edilirdi. Lakin onların bu ərizəsi manufaktura sahiblərinin sərt cavab reaksiyasına səbəb oldu. Fəhlələrdən sözsüz itaət edilməsi barəsində kağız alınmasına başlanıldı. Əmrə əməl etməyənləri hamının gözünün qabağında qamçı ilə döyürdülər. 30-a yaxın adam xəstəxanaya düşdü. Lakin bu sərt cəza tədbiri mahudçuları dayandırmadı. 1837 - ci ildə taxtın vəliəhdi Qazana gəldikdə mahudçular ona da öz şikayətlərini təqdim etdilər. 1840 - cı ildə verilən fərmanla sənaye müəssisələrində işləyən fəhlələr təhkimçilikdən qeyd-şərtsiz azad edilirdilər. Bir neçə ildən sonra Qazanda posession kəndlilərin sayı xeyli dərəcədə azalmış, yerini isə muzdlu fəhlələr tutmuşdu.

XIX əsrin birinci yarısında tatarlar içərisində də xeyli miqdarda sənayeçi və işgüzar adamlar yetişmişdi. M.M Apanayev, Yunusovlar, İ Apakov, M.M Əzimov tatarlar arasında ən böyük iş adamları sayılırdılar. Qazan şəhərində tatarlara məxsus beş ipək, altı gön dəri, ona yaxın sabun, eyni zamanda on bir mum, piy, şam istehsalı fabrikləri fəaliyyət göstərirdi. Tatarların işgüzarlıq fəaliy-

yətinin genişlənməsində tatar slobodaları Ratuşasının mühüm rolu var idi. Qazanın fəxri sakini, Çar hakimiyyətində məsləhətçi vəzifəsini tutan, I dərəcəli tacir gildiyasının üzvü olan İ.Q Yunusov ratuşaya üç dəfə sədr seçilmişdi. 1855 - ci ildə Tatar ratuşası fəaliyyətini dayandırdı. Onun səlahiyyətləri ictimai və təsərrüfat sahəsində Şəhər Dumasına, məhkəmə sahəsində isə Şəhər Magistratına verilmişdi. Dumada yerlərin üçdə biri, magistratda isə üç vəzifə tatarlara məxsus idi. Tatarlar öz işgüzarlıq fəaliyyətlərini başqa ərazilərdə də genişləndirirdilər. Bunlardan Vyatka quberniyasında S. Mamatov və D. Mamatovun kağız istehsalı fabrikləri,Simbirsk quberniyasının Zızran və Korsun uyezdlərində isə T. Akçurinin iki fabriki fəaliyyət göstərirdi. XIX əsrin 40- cı illərinin sonunda isə Valeyev qardaşlarının Simbirsk quberniyasında daha iki fabriki də açılmışdı.

Sənayenin inkişafı ilə bərabər ticarət də inkişaf edirdi. Əkinçilik məhsulları içərisində ticarətdə buğda mühüm yer tuturdu. Çistopol şəhəri buğda ticarətində regionda birinci yerdə idi. Qazan şəhəri isə həmişəki kimi regionun ən böyük ticarət mərkəzi idi. Başlıca ticarət əməliyyatları yarmarkalarda reallaşırdı. Təkcə Qazan quberniyası ərazisində 30 - dan çox yarmarka fəaliyyət göstərirdi. Sviyajsk, Laişevo, Çistopol, Spassk, Tetyuş şəhərlərindəki yarmarkalar daimi fəaliyyət göstərirdilər. Ticarət başlıca olaraq rusların və tatar tacirlərinin əlində cəmləşmişdi. Tatarlar içərisində Apanayevlər, Utyamışevlər, Yunusovlar tacir nəsilləri daha da varlanmışdılar. Əkinçilik məhsullarından əlavə Volqaboyundan dəri məmu-

latları, meşə məhsulları, potaş, sabun ixrac olunur, idxalatda isə üstünlük hazır məhsulların, zərgərlik məhsullarının payına düşürdü.

Volqaboyu tacirləri xarici ticarətdə mühüm rol oynayırdılar. Buğda Qərbi Avropaya, xəz dəri və dəri Çinə, həmçinin İrana ixrac edilirdi. Bu əməliyyatlarda tatar tacirləri aparıcı rola malik idilər. XVIII əsrin sonunda tatar tacirlərinə də ticarət gildiyalarına üzv olmaq icazəsi verilmişdi. Bu da onların qarşısında mühüm perspektivlər açırdı. Artıq XIX əsrin əvvəllərində ticarət kapitalı bir neçə milyon rublu keçən tatar tacir ailələri haqqında məlumatlar vardı. Tatar tacirləri Mərkəzi Asiya ticarətində aparıcı üstünlüyə malik idilər. Bunun da səbəbi həmin bazarların bu və ya digər səbəblər üzündən rus tacirlərinini üzünə bağlı olması idi. Başqa bir səbəb də tatar tacirlərinin Mərkəzi Asiya xalqlarının dilini, adətini, ənənəsini daha yaxşı bilmələri idi. Bu tacirlərə Qazanda "buxaryurdçu" deyirdilər.

Ticarət əlaqələrinin inkişafına mane olan səbəblərdən biri də XIX əsrin ilk yarısında bank və kreditləşmə sisteminin olmaması idi. Yalnız XIX əsrin 30 – 40 - cı illərində ilk olaraq Qazan şəhəri İctimai Bankı yaradılmışdı. Lakin o da tam güclə işləyə bilmirdi. Qazan quberniyasının bəzi şəhərlərində isə əmanət kassaları da meydana gəlmişdi. Amma ümumiyyətlə, tatar tacirlərinin ticarət əməliyyatlarının kreditləşməsində əsas rolu sələmçi əməliyyatları oynayırdı.

1812 - ci ildə Napoleon Bonapartın rəhbərliyi altında 600 mindən çox fransız ordusu Rusiya torpaqlarına

basqın etdi. Düşmənə qarşı mübarizə aparan I Aleksandr xalq qoşununa səfərbərlik elan etdi. Xeyli tatar xalq ordusunun tərkibində fransızlara qarşı döyüşdü. Ümumilikdə xalq qoşununa 3 mindən çox tatar və başqırd səfərbər edilmişdi. Daha sonra ikinci ehtiyat polku yaradıldı ki, buna da 1000 - dən çox adam daxil edilmişdi. Toplanan polklara komandan olaraq general - mayor Bulıgin təyin edilmişdi. Yerli zadəganlar da əhalidən düzəldilən könüllü polkların silahlandırılması üçün xeyli ianə ilə köməklik etmişdilər.

Tatarlardan ibarət olan bu polklar ölkənin müdafiə edilməsində iştirak edə bilməsələr də, rus ordusunun xarici hərbi səfərlərində yaxından iştirak etmişdilər. Tatarlar 1813 - cü ildə Drezden şəhərinin alınmasında da qəhrəmanlıq və igidlik göstərmişdilər. Tatar süvariləri isə Maqdeburq və Hamburq şəhərlərinin alınmasında yaxından iştirak etmişdilər. Onların bir çoxu təltif edilmiş, ya da zabit rütbəsinə layiq görülmüşdülər. Drezden alındıqdan sonra tatar könüllülərinin bir hissəsi onun qarnizonunun tərkibinə daxil olmuş və tatar süvariləri isə Marzenburq və Hamburq şəhərlərinin alınmasında iştirak etmişdi. Bunlar arasında uryadnik Aleyev xüsusilə fərqlənmişdi. Tatar könüllüləri vətənə yalnız 1815 - ci ildə dönmüşdülər.

Volqaboyu əhalisi müharibəyə xeyli yardım da etmişdilər. Belə ki, Qazan zadəganları müharibə ehtiyacları üçün 140 min, burjuaziya 10 min, tatar cəmiyyətləri isə 8.5 min rubl vəsait səfərbər etmişdilər. Ümumilikdə Volqaboyu ərazisindən cəbhə üçün 360 min rubl məbləğində

pul toplanmışdı. Bundan başqa cəbhəyə xeyli miqdarda ərzaq, geyim də göndərilmişdi. Belə ki Sviyajsk kəndliləri 100 pud bal, 200 puda yaxın yunu cəbhənin ehtiyacları üçün toplayıb, təhvil vermişdilər. Tatar əhalisi isə mal-qara və atlar göndərməklə cəbhəyə kömək etmişdilər. Əhali ordunun böyük tələbatı olan mis tədarükünü də hayata keçirirdi. Qazan mülkədarı Osokin 100 pud misi hərbi ehtiyaclar üçün ianə etmiş, Sviyajsk uyezdi kəndliləri də 100 pud mis toplayaraq ordunun ehtiyacları üçün təhvil vermişdilər. Bundan başqa Mamadış uyezdində də Taişev və Meşin manufakturaları ordu üçün mis əridirdilər. Dövlət sifarişlərinin də artması sənayenin bir çox sahələrinin yüksəlişinə səbəb olmuşdu.

Volqaboyu əhalisi Moskvadan qaçan insanların sığınacaq tapması üçün də əllərindən gələni etmişdilər. Belə ki, Qazan quberniyasında Moskvadan 30 min adam yerləşmişdi. Bundan başqa bir çox hokumət idarələri də Volqaboyu şəhərlərinə köçürülmüş və burada işlərini davam etdirmişdilər.

Lakin Volqaboyunda milli zülmün, eyni zamanda mülkədar və çar məmurlarının zülmünün artması xalq arasında etiraz dalğasının genişlənməsi ilə müşayiət edilirdi. Təhkimli kəndlilərin narazılıqları əsas etibarilə özünü çar hakimiyyət orqanlarına yazdıqları ərizələrdə göstərirdi. Dövlət kəndlilərinin narazılığını doğuran başlıca məsələ onların pay torpaqlarının hesabına ictimai əkin sahələrinin genişləndirilməsi olmuşdu. XIX əsrin 30-40-cı illərində Volqaboyunda Akram hərəkatı geniş vüsət aldı. Hərəkatda əsas etibarilə çuvaş, başqırd və mari kənd-

liləri iştirak etsə də, tatarlar da hərəkata fəal qoşulmuşdular. Çuvaşların narazılığının bir səbəbi də onların dövlət kəndliləri sırasından uyezd kəndliləri sırasına keçirilməsi haqqında yayılan şayələr idi. Kəndlilərin üsyanı ordunun köməyi ilə qəddarlıqla yatırılırdı.

XIX əsrin 40 - cı illərində Volqaboyunda "kartof üsyanları" da genişləndi. Üsyanın da səbəbi dövlət tərəfindən kəndlilərə zorla kartof əkdirilməsi idi.

1828 - ci ildən başlayaraq Qazan quberniyasında kətan istehsalçılarının da mübarizəsi genişlənməyə başladı. Mübarizənin səbəbi Osokinin kətan fabriklərində siyahıya alınmış fəhlələrin posessiya fəhlələri kriteriyasına keçirilməsi idi. Mübarizə müxtəlif formalarda-çara ərizələr verilməsi, tətillər, hətta şəhərdə açıq nümayişlər formasında təzahür edirdi. Yerli hakimiyyət orqanlarının repressiyaları da mübarizənin qarşısını ala bilməmişdi. Nəticədə çar hakimiyyəti orqanları 1840 - cı ildə manufakturalarda posession kəndli istismarını ləğv etməyə məcbur oldu. 1849- cu ildə isə Qazan kətan istehsalçıları meşşan silkinə aid edilmiş və istədikləri təqdirdə onlara işlədikləri manufakturaları tərk etmək icazəsi verilmişdi.

Napoleonla müharibə sona çatdıqdan sonra isə Peterburqda bəzi zadəgan dairələrində inqilabi ideyalar yayılmağa başladı. Bunları sonrakı tarixi ədəbiyyatda dekabristlər adlandırmağa başladılar. 1824 - cü ildə Qazan quberniyasında Lyaşino uyezdinin Züzino kəndində gənc zadəganlardan ibarət dərnək yarandı. Onun üzvləri V.İ Panayev, şair F. M. Rındovski, Naumov qardaşları, Yesipovlar, Demidovlar idi. Dərnəyin əsasını qoyanlar

isə V.P İvaşev və D. İ Zavalişin idilər. Lakin 1826 - cı ildə onların həbsi ilə dərnək ləğv edilmişdi.

Qazan quberniyasında ziyalılar arasında da hakimiyyət orqanlarından narazılıq yayılmağa başlamışdı. 1806 - cı ildə Qazan universitetində ziyalıların ilk dərnəyi olan "Rus ədəbiyyatının həvəskarları cəmiyyəti" yaradıldı. Cəmiyyətin rəhbərləri N. M. İbrahimov və S. P. Kondırev idi. İkinci cəmiyyəti isə R. Fuks yaratmışdı.

XIX əsrin 30 - 40- cı illərində tələbələr də demokratik hərəkata qoşulmuşdular. Qazan universitetinin tələbə hərəkatının mərkəzi olmasının bir səbəbi də qabaqcıl ziyalılar və tələbələrin çox hissəsinin buraya sürgün edilməsi idi. XIX əsrin 40 – 50 - ci illərində liberal ideyaların Qazan univeristetində ən böyük təbliğatçısı professor D. M. Meyer idi. Onun ətrafında formalaşan gənclər dərnəyi Peterburqdakı petraşevskiçilər dərnəyi ilə geniş əlaqələrə malik idilər.

Krım müharibəsində Rusiyanın məğlub olması Rusiyanın daxilində olan ictimai-siyasi ziddiyyətlərin dərin olduğunu üzə çıxardı. Rusiyada, o cümlədən Qazan vilayətində də təhkimçilik və ictimai istismar əleyhinə çıxışların sayı artmağa başlamışdı. 1860 – cı ildə Qazan şəhərində Şapovun təşəbbüsü ilə qeyri leqal tələbə və ziyalı dərnəyi yaradıldı. Bu dərnəkdə artıq Stepan Razindən, Yemelyan Puqaçovdan danışmağa başlamışdılar. Dərnəkdə Radişşevin, dekabristlərin ideyalarının açıq təbliğatı aparılırdı. Ona görə də Şapova ziyalı dairələrdə "azadlığın carçısı" deyirdilər.

1858 - ci ildə Rusiya hakimiyyəti tərəfindən Qazanda və başqa Volqaboyu ərazilərdə kəndli islahatının keçirilməsi şərtlərinin hazırlanması üçün kəndli komitələri yaradıldı. Lakin kəndli komitələrinin üzvlərinin əksəriyyəti zadəganlardan ibarət idi. Onların da əksəriyyəti təhkimli asılılığın ləğv edilməsinin əleyhinə idilər. Komitələrin yaradılması prosesində çar II Aleksandrın əmri ilə aşağıdakı prinsiplər rəhbər tutulmalı idi: 1. Mülkədarların torpaq üzərində mülkiyyətinin qalması; 2. Yerli şəraitdən çıxış edərək kəndlilərin məişətini və dolanışığını,eyni zamanda onlara mülkədarların və dövlətin xeyrinə öhdəliklərini yerinə yetirmələrini təmin edəcək səviyyədə torpaq verilməsi; 3. Torpaqdan istifadə müqabilində kəndlilərin mülkədarın xeyrinə mükəlləfiyyət icra etmələri; 4. Vergilərin normal toplanmasının təmin edilməsi.

Qazanda yaradılmış kəndli komitəsi 1859 - cu ildə "Qazan quberniyasında yaşayan mülkədar kəndlilərinin məişətinin yaxşılaşdırılması haqqında Əsasnamə" hazırlayıb təqdim etdi. Komitə kəndlilərə düşən torpaq payının 1.75 des. olmalı olduğu haqqında qərar qəbul etdi. Halbuki normal kəndli həyatını təmin etmək üçün 6 - 9 des. arasında torpaq sahəsi lazım idi. Torpaq üçün illik pul ödənşi isə 4 rubl 50 qəpik müəyyən edilirdi. Qazan komitələrinin verdiyi layihənin şərtlərinə əsasən azad edilən kəndli kişi cinsindən isə 120 rubl, qadın isə 60 rubl məbləğində ödənc verməli idi. Layihənin həddindən artıq mühafizəkar olduğunu nəzərə alan hakimiyyət orqanları, onun şərtlərinin xeyli yumşaldılmasına nail oldular.

19 fevral 1861 - ci ildə Rusiyada sahibkar kəndlilərinin təhkimçilikdən azad edilməsi haqqında fərman verildi. 11 mart 1861 - ci ildə fərman Volqaboyunda, ilk növbədə, Qazan şəhərində elan edildi. Bununla da sayları 300 mindən çox olan təhkimli kəndli azadlıq əldə etdi. Reskriptə əsasən Qazan, Spassk, Çistopol uyezdləri, eyni zamanda Laişev və Mamadış uyezdlərinin bir hissəsində kəndli pay torpaqlarının həcmi 1.5 - 4 des. arası müəyyənləşirdi. Qalan uyezdlərdə isə 1.3-3.5 des. arası müəyyən edilmişdi. Lakin pay torpaqlarının verilməsi və ölçülərinin müəyyən edilməsi nəticəsində kəndlilər bu dəfə böyük ödənc ödəməli olur və bunu verə bilmədikdə isə "müvəqqəti mükəlləfiyyətli" vəziyyətinə düşürdülər. Kəndlilərdə narazılıq doğuran başqa bir problem də kəndlilərin "normadan" artıq olan pay torpağının zadəgan tərəfindən kəsilməsi idi. Reskript zadəganlara "kəsilmə" əməliyyatını istədikləri kimi aparmağa imkan verirdi ki, zadəganlar da bundan sui-istifadə edirdilər. Bir çox kəndlilərin pay torpaqlarının da sahəsi kəskin azalmışdı.

1863 - cü ildə təhkimçiliyin ləğvi haqqında fərman udel kəndlilərinə, 1866 - cı ildə isə dövlət kəndlilərinə aid edilirdi. Dövlət kəndlilərinə düşən adambaşına pay torpaqlarının miqdarı sahibkar kəndlilərinə nisbətdə daha çox idi. Lakin bu islahatlar kəndlilərin pay torpaqlarının kütləvi şəkildə ixtisar edilməsi və onların torpaqsızlaşması prosesi ilə müşayiət edilirdi. Dövlət kəndlilərinin əksəriyyəti tatarlardan və başqa millətlərin nümayəndələrindən ibarət idi. Torpaq paylanması zamanı torpaqların sahəcə çoxunu ruslar alırdılar. Lakin ən az sayda tor-

paq sahəsi isə tatarlara və başqa müsəlman xalqlara verilirdi, yəni islahatın aparılmasında açıq-aşkar milli ayrı-seçkiliyə yol verilirdi. Qeyri rus kəndlilərin ikinci problemi də onların islahat gedişində istifadələrində olan meşə paylarını da itirmələri idi.

Lakin kəndli islahatının aparılması Volqaboyunda böyük narazılıqla qarşılandı. Rusiyanın Bezdna kəndində əhalinin üsyanı və onlara divan tutulması, Qazanda onlara yardım kampaniyasının başlanmasına səbəb oldu. Lakin kampaniyaya başlayanlardan xeyli hissəsi həbs edildi. Bundan başqa Kurti kəndinin kilsəsində ziyalıların yığıncağı Bezdna kəndinin əhalisi ilə həmrəy olduqlarını bildirdi. Buna görə də yığıncağın təsisçisi Şapov Rusiya hakim dairələri tərəfindən sürgün edildi.

1862 - ci ildə Qazanda "Torpaq və azadlıq" təşkilatı fəaliyyətə başladı. Onun məqsədi Volqaboyu quberniyalarda kəndlilərin ümumi üsyanını təşkil etmək idi. Qazan universitetində təşkil edilən "Tələbə klubu" həmin təşkilatın şöbələrindən ən fəalı idi. 1863 - cü ildə "Torpaq və azadlıq" təşkilatı "Dini etiqad azadlığı" adlı proklamasiyanı buraxdı. Həmin ilin aprelində təşkilatın üzvlərinin xeyli hissəsi həbs edildi. Bir neçəsi edam edildikdən sonra qalanları müxtəlif müddətə həbs edildilər. Təşkilatın fəaliyyətinin zəif cəhəti onun yalnız sinfi mübarizəni ön plana çəkməsi və daha çox kəndlilərə arxalanmağa çalışması idi. Lakin kəndlilərin bu məsələdən xəbərləri belə yox idi.

Kəndli islahatının aparılması Rusiya dövləti qarşısında yeni burjua islahatlarının aparılması zərurətini ya-

radırdı. Bunlardan biri də zemstvo islahatı idi. Zemstvo islahatının keçirilməsi haqqında fərman 1864 - cü ildə verildi. İslahatın şərtlərinə görə quberniyalarda və uyezdlərdə zemstvo yığıncaqları və upravaları yaradılırdı ki, bunlar da kəndlərdə yerli özünüidarə funksiyasını daşımalı idi. 1865 - ci ildə Qazan quberniyasında da zemstvo orqanları yaradıldı. Zemstvo orqanları qanunla bütün silkləri əhatə etməli idi. Seçkili orqan kimi yaradılması nəzərdə tutulduğu halda, bunlarda zadəgan silkinin xeyrinə xeyli məhdudlaşmalar aparıldı. Zemstvo idarələrinin yaradılması Rusiyada, o cümlədən Qazanda zemstvoların liberallaşması uğrunda hərəkatın başlanmasına səbəb oldu. Hərəkatın rəhbərləri Qazan universitetinin professorları K. A Yuşkov, A.İ Yakobi və İ.V Qondelev idilər.

1870 - ci ildə Zemstvo islahatı nümunəsində şəhər özünüidarə islahatı aparıldı. Şəhərlərdə, o cümlədən Qazanda şəhər dumaları və upravaları yaradıldı ki, onların da əsas işi şəhərin abadlığı, səhiyyəsi və maarifçilik fəaliyyətlərindən ibarət olmalı idi. Qazanda yaradılan şəhər dumasının ilk sədri tacir İ. V Romanov idi.

1864 - cü ildə Rusiyada daha bir mühüm islahat olan məhkəmə islahatı aparıldı. Məhkəmə nizamnaməsinə əsasən quberniyalarda iclasçılar məhkəməsi yaradılır. Eyni zamanda hakimlərin dəyişilməzliyi, məhkəmə iclaslarının çəkişmə formasında olması, hakimlərin seçkili olması, eyni zamanda bütün silklərin məhkəmə qarşısında bərabərliyi prinsipləri tətbiq edilirdi. Bununla bərabər köhnə məhkəmələrin qalıqları olan kəndlilər üçün volost

məhkəməsi, ruhanilər üçün konsistoriyalar, eyni zamanda hərbi səhra məhkəmələri saxlanılırdı. Qazan quberniyasında məhkəmə islahatı 1869 - cu ildə tətbiq edilməyə başlanıldı, zemstvo yığıncaqları tərəfindən dünyəvi hakimlər seçildi. Məhkəmə sistemi "**dünyəvi hakim—dairə məhkəməsi—məhkəmə palatası—Senat"** sxemi üzrə qurulurdu. 1870- ci ildə Qazanda dairə məhkəməsi və məhkəmə palatası fəaliyyət göstərməyə başladı. Bundan sonra Qazan məhkəmə dairəsi yaradıldı ki, buna da Qazan, Simbirsk, Samara, Vyatsk, Perm və Yekaterinburq quberniyaları daxil idi.

1862 – 1874 - cü illərdə Rusiyada hərbi islahatlar da keçirildi. Orduya toplanmanın rekrut sistemi ləğv edildi və ümumi hərbi səfərbərlik sistemi tətbiq edildi. 1864 - cü ildə "Hərbi dairələr haqqında nizamnamə" tətbiq edildi ki, onun da əsasında Qazan hərbi dairəsi yaradıldı.

Ümumilikdə Rusiyada keçirilən islahatların Volqaboyu türk xalqlarının tarixində mühüm əhəmiyyəti vardı. İslahatlar həmin əyalətlərdə kapitalist münasibətlərinin sürətlənməsinə, milli burjuaziyanın formalaşmasına, onun siyasi şüurunun artmasına xeyli müsbət təsirini göstərmişdi. Bu isə özünü XIX əsrin sonlarında Volqaboyunda inkişaf edən milli azadlıq hərəkatının gedişində göstərdi.

XIX əsrin birinci yarısından etibarən tatar ziyalıları arasında da liberal ideyalar yayılmağa və geniş vüsət almağa başladı. Lakin tatar ziyalılarının qarşılarına qoyduqları başlıca məqsəd tatar xalqının həm elmi, həm də

siyasi cəhətdən maariflənməsi, milli təhsil sisteminin yaradılması, tatar dilinin və türk tatar tarixinin öyrədilməsi, xalqın öz tarixinə və milli köklərinə qayıtması idi. Dövlət orqanları hər vasitə ilə tatar xalqının maariflənməsinin qarşısını almaq istəyirdilər. Tatar məktəbləri konfessional məktəb kimi məscidlərin tərkibində fəaliyyət göstərirdi. Təhsil işini məktəbdə xəlifə deyilən şəxs aparırdı. Təhsil prosesi fərdi şəkildə aparılır, şagirdlər gücləri çatan formada dərsi öyrənməkdə davam edirdilər. Tatar dilinin öyrənilməsi adətən əlifbadan başlayırdı. Belə ki, dərslərin öyrənilməsində geridə qalan şagirdlərlə dərindən maraqlanmırdılar. Bundan sonra ərəb sözlərinin əzbərlədilməsinə başlanılır. Sözləri əzbərləyən şagirdə açıq mətnləri oxudur, sonra da həmin mətnləri əzbərdən söyləməyi tapşırırdılar. Oxumağı öyrəndikdən sonra şagird yazmağı da öyrənirdi. Bunu da kitabların üzünü köçürməklə öyrənirdi. Qadınlar adətən evdə təhsil alırdılar. Məktəbi başa vurduqdan sonra şagirdlər təhsilini mədrəsədə davam etdirirdi. XIX əsrin I yarısında bu mədrəsələrə "qədimi" mədrəsələr deyilirdi. Qazanda adətən iki böyük mədrəsə Apanayev və Prikaban mədrəsələri vardı. O zamankı təhsil sisteminə sonradan "qədimi" məktəblər kimi yanaşılsa da, onlar əslində tatar xalqının öz dinini, adət- ənənəsini saxlamaqda mühüm rol oynayırdılar. Hətta tatarları tədqiq edən rus alimlərinin çoxu onların daxilində savad dərəcəsinin bəzi Avropa xalqlarından artıq olduğunu da qeyd edirdilər. Lakin zaman keçdikcə yeni tipli və daha mükəmməl təhsil sisteminin yaranması tələbatı da artırdı. Tatar ziyalıları yeni təhsil ideyalarını

yaymaqda mühüm rol oynayırdılar. Tatarıstanda yeni təhsil və elmi araşdırmaların yayılmasında Qazan universitetinin mühüm rolu vardı. Məşhur tatar şərqşünasları və maarifçiləri İbrahim İsxak oğlu Xalfin və Məhəmməd Qali Mahmudov məhz Qazan universitetinin yetirmələri idilər. İ. İ. Xalfinin "Tatar dilinin etimologiyası və əlifbası", "Tatar dilinin ərəb dili qanunlarına uyğun olaraq əlifbası və qrammatikası" və türk-tatar tarixinə dair bir çox mənbəşünaslıq əsərləri vardı. Xalfin eyni zamanda ilk dəfə olaraq tatar dilli dünyəvi təhsil verən Qərbi Avropa tipli müasir məktəbin layihəsini hazırlamış və onu açmağa cəhd göstərmişdi.

Tatar xalqının maariflənməsi yolunda əvəzsiz xidmətləri olan şəxslərdən biri də Hüseyn Faizxanov idi. O, əvvəlcə Qazan universitetinin Şərq şöbəsində, daha sonra Peterburq univeristetində çalışmışdı. O, tatar məktəblərinin yenidən qurulması layihəsini təklif etmiş, eyni zamanda tatar dilində mətbuatın yaradılmasına cəhd göstərmişdi. Bundan başqa H. Faizxanov tatar qəbirüstü abidələrin öyrənilməsində, tatar dilli mənbələrin araşdırılmasında böyük işlər görmüşdü.

Məhəmməd Qali Mahmudov isə tatar xalqının etnoqrafik abidələrini toplayıb rus dilinə tərcümə edir, eyni zamanda rus yazıçılarının əsərlərini tatar dilinə tərcümə edirdi. Yuxarıda göstərilənlərdən başqa tatar ziyalıları içərisində A. A. Vaqapov, S. B. Kuklyaşev və başqalarının adlarını çəkmək olar.

XIX əsrin əvvəllərindən başlayaraq Qazanda dövrü mətbuat da meydana gəlib inkişaf etməyə başladı.

Yerli türk tatar ziyalılarının məqsədi əlbəttə ki, tatar dilində mətbuatın olması idi. Lakin bu məqsədi həyata keçirmək üçün xeyli işgörmək lazım idi. 1800- cü ildə Qazanda ərəb dilində kitabların nəşr edilməsi üçün Asiya mətbəəsi yaradıldı. Mətbəə milliyyətcə tatar olan Q.T Burnaşevin hesabına saxlanılırdı. Mətbəədə ərəb dilində dini ədəbiyyatlar və əlifbalar nəşr edilirdi ki, bunlar da Qafqazda, Mərkəzi Asiya və Volqaboyu müsəlmanları içərisində satılırdı. 1804- cü ildə Qazan qubernatoru Q. Mansurovun təşəbbüsü ilə rus dilində mətbəə açıldı. Burada yerli qəzetlər eyni zamanda qubernatorun sərəncamları nəşr edilirdi. 1807 - ci ildə Qazan univeristeti nəzdində mətbəə açıldı. Bu mətbəədə Xalfinin yerli dildə əlifbası və dərslikləri, eyni zamanda tatar dilində ədəbi əsərlər, rus yazıçılarının həm rus, həm də tatar dillərində əsərləri nəşr edilmişdi. 1808 - ci ildə Qazan univeristetinin professoru İ.İ Zapolski tatar və rus dillərində yerli qəzet açılması lahiyəsini irəli sürür. Lakin nazirlər kabineti yalnız rus dilində qəzetin nəşr edilməsinə icazə verir ki, o da 1811 - ci ildə çapdan çıxır. Lakin 1820 - ci ildə Qazan təhsil idarəsinin rəisi Maqnitskinin əmri ilə bağlanır. Tez bir zamanda şəxsi mətbəə orqanları da meydana gəlir. Nəticədə Qazan nəşr edilən kitab və qəzetlərin həcminə görə Rusiyada üçüncü yerə çıxır. Tezliklə "Qazan xəbərləri", "Qazan quberniyasının xəbərləri", "Volqaboyu qarışqası" və s. adda müxtəlif mətbuat orqanları işıq üzü görür. Lakin ziyalıların bütün cəhdlərinə baxmayaraq tatar dilində qəzet açmaq onlara müyəssər olmur.

Tatarıstan quberniyasının ədəbi mühiti Qazan universiteti ilə sıx bağlı idi. 1806 - cı ildə Qazan universitetinin nəzdində "Vətən söz həvəskarlarının Cəmiyyəti" adlı dərnək yaradıldı. Dərnəyin əsasını qoyanlardan biri də böyük tatar şairi Niqmət İbrahimov idi. Cəmiyyətə üzv olan ədəbiyyatçılar ö dövrün bütün ədəbi cərəyanlarını təmsil edirdilər. Ən məhsuldar tatar şairlərindən Əbdülcəbbar Kandalıyın adını çəkmək lazımdır. Onun əsərlərinin başlıca cəhəti yerli danışıq dilinə yaxın formada yazılması idi. Onun yaradıcılığına "Molla və abıstay ", "Sahibcamal" kimi əsərləri misal gətirmək olar. Yerli tatar şifahi xalq ədəbiyyatının təbliğində isə M. Q. Mahmudovun adını çəkmək yerinə düşərdi. Tatar şairləri içərisində U. İmani, H. Salihov, S. B. Kuklyaşevin də adlarını çəkmək lazımdır.

1803 - cü ildə Qazanda ilk professional teatr truppası fəaliyyətə başladı. Onun əsasını qoyan P. P. Yesipov idi. Teatrın fəaliyyəti üçün şəhərdə xüsusi bir bina da tikilmişdi. Truppanın aktyorlarından çoxu təhkimli kəndlilər idi. Sonradan bütün Rusiyada məşhur olan müğənni V. V. Samoylov da buradan çıxmışdı. Şəhər üçün ən böyük hadisə isə 1836 - cı ildə məşhur rus yazıçısı Qriboyedovun "Ağıldan bəla" əsərinin tamaşaya qoyulması idi. 1835 - ci ildə Qazanda teatrın daha geniş taxta binası, 1852 - ci ildə isə daş binası tikilərək istifadəyə verildi.

## *§ 3. Başqırdlar XVII - XIX əsrlərdə*

XVI - XVII əsrlərdə başqırdlar Ural dağlarının hər iki tərəfində, Volqa, Kama və Tobol çayları arasında, Ural çayının aşağı və yuxarı axarları arasında köçəri həyat sürürdülər. Başqırd cəmiyyətinin iqtisadi əsasını köçəri və yarımköçəri maldarlıq təşkil edirdi. Başqırdlar maldarlığın da müxtəlif növləri ilə məşğul olur, dəvə, at, qoyun, mal - qara, keçi və hətta maral da saxlayırdılar. Başqırdların vergisinin və ticarətinin əsasını xəz dəri, meşə balı təşkil edirdi. Bundan başqa başqırdların bəziləri əkinçilik təsərrüfatına da keçmişdilər. Lakin bu mövsüm əkinçiliyi idi. Başqırdlar siyasi quruluş cəhətdən dağınıq idilər. Buna görə də müxtəlif vaxtlarda onlar Noqay Ordasından, Qazan xanlığından və Sibirdən asılı vəziyyətdə olmuşdular. Başqırdlar arasında haynilər, uranlar, hareylər, bilyarlar və baylar siyasi cəhətdən daha güclü idilər. Bütün bu ictimai-siyasi məsələlər başqırdlarda güclü nəsil icmasının qalıntıları ilə müşayiət edilirdi. Bu isə başqırdlarda feodal cəmiyyətinin yaranmasını, inkişaf etmiş iqtisadi sosial bazanın yaranmasını ləngidirdi.

XVI əsrin birinci yarısında Başqırdıstanın bir hissəsi paytaxtı Saraycıq şəhəri olan Böyük Noqay ordasının tərkibinə daxil idi. Dövlətin başında rusların knyaz adlandırdıqları hökmdar dururdu. Ona da xanlar, tarxanlar, biylər, murzalar və karaçılar tabe idilər. Başqırd tayfalarını idarə edən feodallar çox vaxt xan titulu daşıyırdılar. XVI əsrdə Başqırdıstanı Noqay Ordasının hökmdarı Aknəzər xan idarə edirdi. Onun ölümündən sonra taxta

İsmail xan, ondan sonra isə Əhməd Girey çıxmışdılar. Başqırd mənbələrinə görə Əhməd Girey başqırdların sonuncu murzası idi. Başqırd mənbələri noqayların hakimiyyəti altında zülm çəkdiklərini oxucuların nəzərinə çatdırırlar.

XVI əsrin birinci yarısında Başqırdıstanın qərb və şimal - qərb hissələri Qazan xanlığının tərkibinə daxil idi. Başqırd yazıları Başqırdıstanın bəzi ərazilərin üstündə noqaylarla Qazan xanlığı arasında gedən siyasi mübarizədən də söhbət açırlar. Qazan xanlığının rəhbərliyi altında olan başqırdların bir hissəsi əkinçilik və ticarətlə məşğul olurdular. Köçəri başqırdlar xan xəzinəsinə xəz dəri, əkinçilər isə vergiləri natural məhsulla verməli idilər. Başqırdları Qazan xan tərəfindən təyin edilmiş murzalar, bəzi tayfaları isə tarxanlar idarə edirdilər. Başqırdların ərazisi tez - tez ruslarla Qazan xanlığı arasında hərbi toqquşmaların mərkəzi olurdu. Bu isə ruslar tərəfindən aparılan qətl və qarətlərlə müşayiət edilirdi.

Başqırdıstanın şimal - şərq hissəsi isə XVI əsrin birinci yarısında Sibir xanlığının tərkibinə daxil idi. Başqırdların xatay, aylin, tabın, myakotin, tamyan və salcut tayfaları Sibir xanlığına tabe olub, ulus xanları tərəfindən idarə edilirdilər. Başqırdlar hər kişi cinsindən olan əhali başına Sibir xanı xəzinəsinə yasak ödəyirdilər. Sibir xanları daima dövləti mərkəzləşdirmək və bir çox müstəqil tayfaları birləşdirmək siyasəti aparırdılar. Başqırdlar da bu mübarizədən yan keçmirdilər. Bəzi tayfalar öz müstəqillikləri uğrunda mübarizə aparır. Bəziləri isə daha da qərbə köçməklə vəziyyətdən çıxmağa çalışırdılar. Bunla-

ra misal olaraq bəzi başqırd tayfaları - tabın və Tümen başqırdlarının bir hissəsi Qazan xanlığının torpaqlarına köçmüşdülər.

XVI əsrin ortalarında Rusiya çarı IV İvan Qroznı geniş işğalçılıq siyasəti yürütməyə başladı. Buna da səbəb Rusiyanın Xəzər dənizi hövzəsinə çıxmaq istəməsi və Sibirin, Volqaboyu, Uralətrafı torpaqların təbii sərvətlərinə yiyələnmək istəməsi, bundan başqa Xəzər dənizi vasitəsilə Şərq ölkələri ilə birbaşa ticarət əlaqələri saxlamaq niyyəti idi. Ruslar bu niyyəti həyata keçirmək üçün Sibir xalqları arasında siyasi təbliğat aparır, bəzi tayfaları öz tərəflərinə çəkməyə çalışırdılar. 1546 - cı ildə marilər, çuvaşlar və mordvalar Rusiya asılılığını qəbul etdiklərini bildirdilər. Bu tayfaların yardımından istifadə edən Rusiya hakimiyyəti Qazan xanlığının varlığına son qoydu.

Başqırdların torpaqlarına rusların ilk basqınları 1558 - ci ildən başlamışdı. Lakin qərbi başqırdlar 1554 - cü ildə Rusiyadan asılı hala düşmüşdülər. Başqırdların Rusiya asılılığını qəbul etmələri mərasimi Qazan şəhərində keçirilmişdi. Ruslar tərəfdən bu görüşdə çarın Qazan canişini iştirak edirdi. Başqırdlardan asılılığı qəbul etmək haqqında sənədi mənbələrdən təxmin edildiyinə görə Ayzuak biy imzalamışdı. Mənbələr Rusiya asılılığının hər bir başqırd tayfası tərəfindən ayrı - ayrılıqda qəbul edildiyini göstərirlər. Bundan sonra uran, bular, baylar, ırıxtı, qara –tabın, tanıp tayfalarının nümayəndələri də rus çarının görüşündə olmuşdular.

Başqırdların başqa bir hissəsi isə Noqay ordasının tərkibinə daxil idi. Lakin Rusiya hakimiyyət orqanları on-

larla əlaqələr yaradaraq Noqay ordasına qarşı qaldırmağa çalışırdı. 1557 - ci ildə Rusiyanın siyasi təzyiqinə davam gətirməyən Böyük Noqay ordası xanı İsmayıl Rusiyanın asılılığını qəbul etdi. Lakin noqayların Krım xanı ilə dərin əlaqələrdə olan hissəsi bununla razılaşmayaraq Kuban ətrafına köç edib, burada Kiçik Noqay ordasının əsasını qoydular. 1555 - ci ildə başqırdların noqaylarla mübarizə aparan Min tayfası Rusiyanın asılılığını qəbul etdi. Onların sərhədləri Ufa çayının aşağı axarlarından Dema çayının ətraflarına qədər uzanırdı. Minlərin bu qərarının səbəbi noqayların torpaqları tərk edib, Qafqaza köçərkən onları da özləri ilə aparmaq istəmələri olmuşdu. Min tayfası Qənzəfər mirzənin başçılığı altında Noqaylara qarşı çıxmış və nəticədənoqaylara qarşı kömək axtaran minlərin Rusiya asılılığını qəbul etməsinə gətirib çıxarmışdı. Ancaq murzalardan Bukey murza başqırdları birləşdirməyə cəhd edibRusiya əleyhinə çıxsa da, ruslar onu yerli murzaların köməyi ilə həbs etmişdilər. 1556 - cı ildə başqa bir başqırd tayfası olan yurmatlar Rusiya asılılığını qəbul etdilər. Onlar minlərin şərq qonşuluğunda yaşayırdılar.

Sonrakı mərhələdə 1556 - cı ildə başqırd tayfalarından burzyan, tamyan, qıpsaq, userqan tayfaları Rusiyanın asılılığını qəbul etdilər. Həmin ildə ruslar artıq mərkəzi və şərqi Başqırdıstan tərəflərinə irəliləməyə başladılar. Bu zaman tabınlar başda olmaqla başqırdların köçəri qolları rusların himayəsini qəbul etmək haqqında Rusiyanın elçisi ilə saziş imzaladılar. 1557 - ci ildə başqırdların Kudey tayfaları rusların hakimiyyətini qəbul et-

mək haqqında müqavilə imzaladılar. Beləliklə, Başqırdıstanın demək olar ki, hamısı rusların hakimiyyəti altına keçdi. Yalnız Uralın arxasında olan tayfalar öz müstəqilliklərini saxlamışdılar.

Lakin şimal - şərq başqırdlarının Rusiya tərəfindən işğalı Sibir xanlığının onun tərəfinə keçməsindən sonra baş tutdu. 1555 - ci ildə Sibir xanı Yadigar xan özünü Rusiyanın vassalı elan etdi. Lakin Yadigar xanın ölümündən sonra Sibir xanı olan Kuçum xan 1581 - ci ildə Krım xanlığı ilə yaxınlaşaraq Rusiya asılılığından imtina etdi. Sibir xanının belə müstəqil hərəkət etməsinin səbəbi həmin ildə Krım xanının Rusiyaya ağır zərbə vurması idi. Sibirin zəngin təbii sərvətlərində gözü olan Rusiya tezliklə Sibir üzərinə basqın etməyə hazırlaşmağa başladı. Sibirin içərilərinə yürüşləri asanlaşdırmaq üçün Rusiya Ufa şəhərini tikməyə başladı. Bundan sonra Rusiya kazaklarının, təhkimçilikdən qaçan kəndlilərin, eyni zamanda Rusiyaya xidmət edən tatarların, Rusiyanın bəzi kapitalistlərinin hərbi dəstələrinin Sibir ərazisinə yürüşləri və kütləvi qaydada soxulmaları başladı. Kuçum xanın onların qarşısını almaq cəhdləri isə Rusiya hakim dairələrinin daimi diplomatik təzyiqi ilə üzləşirdi.

Kuçumun özü də əvvəllər onun sələflərinin hakimiyyətində olan Qərbi Uralətrafı torpaqları özünə tabe etmək istəyirdi. 1572 və 1581 - ci illərdə Sibir xanlığının hərbi dəstələri bu ərazilərə böyük yürüşlər də təşkil etmişdilər. Kuçum xan burada yaşayan xalqları öz tərəfinə çəkmək üçün diplomatik üsullardan da istifadə edirdi.

Sibirin üzərinə ilk yürüşə Yermakın rəhbərliyi altında kazaklar başladılar. 1582 - ci ilin oktyabrında Kuçumun paytaxtı Kaşlık ələ keçirildi. Lakin Rusiyanın diplomatik yolla Sibir tayfalarını öz tərəfinə çəkmək cəhdləri özünü doğrultmadı. Tezliklə qüvvələrini bərpa edən Kuçum 1585 - ci ildə Yermakı mühasirəyə alaraq öldürdü və hakimiyyətini bərpa etdi.

1584 - cü ildə ruslar Sibir xanlığında olan qarışıqlıqdan və xanlığın ruslara məğlubiyyətindən istifadə edərək, Ural dağlarının cənubunda Yaitsk qalasının əsasını qoydular. 1581 - ci ildə isə Samara qalasının, bundan sonra Birsk şəhərinin əsasını qoydular. XVI əsrin 80 - ci illərinin sonunda ruslar Ufa şəhərini tutub buranı Rusiyanın hərbi qərargahına çevirdilər. 1586 - cı ilə qədər başqırdlar Urus mirzənin təbəələri olub, ona yasaq verirdilər. Lakin Başqırdıstana gələn ruslar yasaqın onlara verilməsini tələb etdilər. Ancaq Urus mirzə onlara tabe olmaqdan imtina etdi.

XVI əsrin sonlarından başlayaraq Rusiya Sibirin məqsədyönlü şəkildə fəthinə başladı. 1586 – 1587 - ci illərdə Tümen və Tobolsk, 1598 - ci ildə Verxoturye şəhərinin əsası qoyuldu. Mənbələrin verdikləri məlumatlar bəzi Sibir tayfalarının Rusiya asılılığını hələ 1581 - ci ildə qəbul etdiklərini göstərir. Lakin mənbələr başqırdların Rusiya asılılığını qəbul etmələri haqqında məlumat vermirlər. Bəzi tarixçilərin məlumatlarına görə isə başqırdlar hələ XVII əsrin birinci yarısına qədər öz müstəqilliklərini saxlamışdılar. Xatay, kuvakan, kudey tayfalarının isə 1585 - ci ildə Rusiya himayəsini qəbul etdikləri ehtimal

edilməkdədir. Buna sübut olaraq başqırdların bu tayfaların onları "satqın" hesab edən Kuçum varislərinin basqınlarına məruz qalmaları göstərilir.

1594 - cü ildə Rusiya hakimiyyət orqanları Yeletskinin rəhbərliyi altında Sibir üzərinə böyük ekspedisiya göndərdi. Ekspedisiyada Ufa başqırdları da iştirak edirdilər. Sibirin daxilində İrtış çayı hövzəsində Tara qalasının əsası qoyuldu. Ruslar bu ərazidən Sibirin daxili rayonlarına basqınlar edirdilər. 1598 - ci ildə Rusiya sərkərdəsi A. Voeykov Obi çayı yaxınlığındakı Kuçumun qərargahına basqın etdi. Kuçum qəti məğlubiyyətə uğrayaraq Mərkəzi Asiyaya qaçdı.

Kuçumdan sonra başqırdların da iştirakı ilə taxta Əli xan çıxarıldı. Lakin 1608 - ci ildə Əli xan Yaik çayı yaxınlığında məğlubiyyətə uğradıldı. Əli xanın məğlubiyyətində onunla siyasi rəqabətləri olan Urus mirzənin oğlanlarının mühüm rolu vardı. Əli xandan sonra hakimiyyətə İşım xan gəldi. O, kalmıkların bir hissəsi, noqaylarlar və başqırdlarla əlaqə saxladı. Başqırdlardan olan tabın tayfası onun ordusunun əsas hissəsini təşkil edirdilər. Onların köməyi ilə 1616 - cı ildə İşım xan Ufa şəhərini ala bilmişdi. 1622 - ci ildə isə Tobol çayı boyu bütün ərazilər rusların hakimiyyəti altından çıxarılmışdı. İşım sultan və onun qardaşı Kanar bəy Mavəraənnəhrdəki Həştərxanilər sülaləsinin nümayəndələri ilə yaxın diplomatik əlaqələr saxlayır, onlardan maliyyə və hərbi yardım alırdılar. Onun oğlu Abılay sultan isə Ufa və Tomsk arasındakı əraziləri özünə qaytarmaq istəyirdi. Ruslara qarşı mübarizə əsas etibarilə partizan müharibəsi xarakteri daşıyırdı.

1630 - cu ildə İşım sultan və başqa murzaların öldürülməsindən sonra Abılay sultan daha çox indiki Başqırdıstan ərazisində fəaliyyət göstərirdi. Onun qərargahı Qərbi Başqırdıstanda Kaşkaraqay deyilən ərazidə yerləşirdi. Bundan başqa müəyyən vaxtlarda o, kalmıklardan da kömək alaraq Rusiya hakimiyyət orqanlarına qarşı mübarizə aparırdı. Lakin 1636 - cı ildə Abılay sultan Ufa ətrafında rusların qalalarına basqın edərək onları Ufadan çıxarmaq istədi, lakin özü ruslar tərəfindən mühasirəyə alınaraq əsir alındı. Bu isə Başqırdıstandakı tabın, minq və yurmatı tayfalarının mənəvi vəziyyətinə mühüm təsir göstərdi.

Abılaydan sonra taxta çıxan varisi Dövlət Girey xan başqırdların köməyi ilə XVII əsrin 60 - cı illərinə qədər ruslarla mübarizə apardı. O, ruslara qarşı açıq şəkildə mübarizə aparan sonuncu Başqırd xanı idi. Ondan sonra qardaşı Dövlət Girey və oğlu Küçük xan ruslara qarşı mübarizə aparsalar da, bu mübarizə daha çox partizan müharibəsi formasında aparılırdı. Bundan başqa başqırdlar kalmıkların da basqınlarına məruz qalırdılar. Ruslardan başqırd köçləri hesabına torpaq almaq vədi alan kalmıklar hər bir bəhanə ilə başqırdların torpaqlarına basqınlar edirdilər. 1646 – 1648 - ci illərdə bu basqınlar xüsusilə intensivləşmişdilər.

Lakin 1649- cu ildə Qərbi Başqırdıstanda əsas tayfalardan biri olan Yurmatı ulusu Rusiyanın himayəsini qəbul etdi. Onların rəhbərləri Tatıges murza və Aznay bəy Rusiyaya sədaqət andı içdilər və 100 samur dərisi verməyi öhdələrinə götürdülər. Həmin ildə ruslar Mər-

kəzi və Şərqi Başqırdıstanı da hakimiyyətləri altına ala bildilər. 1655- ci ildə kalmıkların Rusiya asılılığını qəbul etməsi, 1673 - cü ildə Ayyuki xanın Rusiya hakimiyyətini tanıması başqırdların kalmıkların köməyinə olan ümidlərini qırmaqla bərabər, kalmıkların simasında başqırdların düşmənlərini artırdı. Ümumilikdə şimal başqırdlarının Rusiyaya qarşı mübarizəsi XVII əsrin 50 - ci illərinin sonuna qədər davam etmişdi.Kalmıkların XVII əsrin sonlarına doğru Rusiya ilə münasibətlərinin pisləşməsi və Qazax xanlarının kalmıkları sıxışdırması, onların Başqırd çöllərindən qərbə doğru çəkilməsinə səbəb oldu. Bu başqırdların cənub - qərb uluslarının Kiçik Qazax juzunun hakimiyyəti altına düşmələrinə, eyni zamanda XVIII əsrə qədər Rusiyadan müstəqil hərəkət etmələrinə şərait yaratmışdı. Kiçik Juzun hökmdarları olan Bahadır xan və Qaip xan userqan, qıpçaq və burzyan başqırdları tərəfindən xan kimi tanınmışdılar. 1732 - ci ildə Kiçik Juzun Rusiya hakimiyyətini qəbul etməsindən sonra başqırdların bu hissəsi Rusiya hakimiyyətinə keçdilər. Beləliklə, cənub və cənub - qərb başqırdları Qazax xanlarının, xüsusilə Kiçik Juzun hakimiyyəti altına sığınmış və öz daxili müstəqilliklərini saxlamaqla yalnız XVIII əsrin 30 - cu illərində Rusiya ağalığına tabe edilmişdilər.

Rusiya hakimiyyəti başqırdların idarə edilməsi üçün inzibati işlər də gördü. Belə ki, XVI əsrin 60 - cı illərində Qazan voyevodalığı yarandı ki, başqırdlar onun tərkibinə daxil idilər. 1586 - cı ildə isə yeni inzibati mərkəz Ufa oldu. İlk Ufa voyevodası Mixail Naqoy təyin edilmişdi. Bundan sonra başqırdlar Ufa uyezdinə, başqa

tayfalar isə XVIII əsrin ortalarına qədər Verxotur uyezdinə daxil edildilər, onlar yasakı əvvəl Çerdın, sonra isə Versotursk şəhərinə gətirirdilər. Uralətrafı başqırdlar isə Tümen və Tobolsk voyevodalarına tabe idilər. Buraya təyin edilən voyevodalar mühüm inzibati, məhkəmə və hərbi səlahiyyətlərə malik idilər və eyni zamanda "Ufa prikaz komasının" rəhbəri hesab edilirdilər.Bu orqan başqırd ərazilərində yerli idarə orqanı sayılırdı. Başqırdlarda yaradılan idarə orqanlarının dili rus dili, orada işləyənlər də ruslar idilər. Voyevodalar Rusiyanın siyasətini yerlərdə həyata keçirən nümayəndələr idilər. Voyevodaların diplomatik funksiyaları da var idi. Belə ki, Mərkəzi Asiya xanlıqlarından gələn elçiləri əsas etibarilə onlar qəbul edirdilər. Başqırdıstanın ümumi idarəsi isə Qazan sarayının Ümumi Prikazının əlində cəmləşmişdi. Ufa voyevodası iki ildən bir dəyişirdi. Yalnız Mixalil Naqoy on ilə yaxın voyevodalıq eləmişdi. Voyevodalar başqırdlarda yerli feodalları öz tərəfinə çəkməyə çalışır, onların səlahiyyətlərini təsdiq edir, imtiyazlar və güzəştlər verirdilər. Bu da onların son nəticədə rusların tərəfinə keçmələrinə səbəb olur, beləliklə də, xalqdan yavaş -yavaş ayrı düşürdülər. Başqırdıstanın ümumi idarəsi isə Qazan Sarayının ümumi prikazına tabe idi. Uralarxası başqırdlar yalnız Sibir prikazına tabe idilər.

XVI –XVII əsrlərdə başqırdların özlərinin idarəetmə sistemləri də vardı. Xalqın birgə toplandığı və ali qanunverici orqan "yığın" adlanırdı. Burada başqırd tayfalarının rəhbərləri iştirak edirdilər. Yığın adətən müharibə və sülh məsələlərini həll edirdi. Başqırd hökmdarları

“xan” titulunu daşıyırdılar. Onların canişinlərinə isə sultan titulu verilirdi. Dövlətin ali məhkəmə rəhbəri qazı, yaxud “yarqıçı” titulunu daşıyırdı. Bundan başqa başqırdlarda ali noyonların xan yanında məşvərətçi orqanı olan “duvan” fəaliyyət göstərirdi. Başqırd tayfaları bundan başqa “yurtalara”, onlar da öz növbəsində “tobalara” bölünürdülər. Böyük tayfalar isə tümənlərə bölünürdülər. Bu tayfalara kunqrat, nayman, quşçu, uyqur, salcavut, kıpçaq, manqıt və minqlər aid idilər. Rusiyada voyevoda sisteminə keçid zamanı başqırdların tayfaları aşağıdakı yollar üzrə paylanırdılar:

**1**.Noqay yolu: minq, merkit, tabın, sərt, yurmatı, qıpçaq, burzyan, userqan (kanqlı), çuraş, tamyan, tilev və katay.

**2.**Sibir yolu: kudey, tabın, quşçu, suvın, tanıp, onlar, yeney, mirzələr, sərt, kuvakan, barın-tabın, kıpçaq – tabın.

**3**. Qazan yolu: qarşı, kanqlı, kaylı, eldit, kirey, yeney, baylar, yılan, kırqız, buler.

**4**. Os yolu: tazlar, uran, irexti, hayne, salavış, karayolet.

XVIII əsrin əvvəllərində Rusiyada quberniya sisteminə keçildi. Başqırdıstanda olan bütün voyevodalıqlar ləğv edilərək, əvəzinə uyezdlər yaradıldı. 1708 - ci ildə Ufa uyezdi Ufa əyaləti adlanaraq Qazan quberniyasının idarəsinə verildi. 1728 - ci ildə isə Ufa əyalətinin idarəsi birbaşa Senata tapşırıldı. Uralarxası Başqırdıstan isə Tobolsk uyezdi adı altında Sibir quberniyasının tərkibinə qatıldı. Ufa əyaləti dördyola (inzibati vahid belə adlanır-

dı - müəllif) - Qazan, Os, Noqay və Sibir yollarına bölünürdü. Yolların özləri volostlara bölünürdülər. Volostlar ərazi prinsipi üzrə yaradılır, onların bəzilərinə ağsaqqallar, bəzilərinə isə yüzbaşılar rəhbərlik edirdilər. Volostlar özləri isə toba və aymaklara bölünürdülər. Ağsaqqal və yüzbaşıların volost daxilində böyük səlahiyyətləri var idi. Onlar yerli şəriət məhkəməsinə,volostun xəzinəsinə rəhbərlik edir, vergiləri bölüşdürür,  bundan başqa polis funksiyasını da yerinə yetirirdilər. Buna görə də onlar arasında vəzifədən sui - istifadə halları çox olurdu. Başqırdların icma və yerli məsələləri həll etmək üçün xüsusi orqanları-yığınları da var idi. Bunları çağırmaqla yerli əhali öz problemlərini və yerli mübahisəli məsələləri də həll edirdi. Lakin Rusiya hakimiyyət orqanları çox vaxt bu yığınların fəaliyyətini məhdudlaşdırmağa çalışırdılar. 11 fevral 1736 - cı ildə bütün dördyolun başqırdların yalnız ildə bir dəfə Çesnokovka çayı yaxınlığında yığına toplaşmaq icazəsi verilirdi.

Rusiya hökuməti başqırdların assimilyasiya edilməsi məqsədilə onların yaşadıqları ərazilərə xeyli rus ailələri köçürür və eyni zamanda hərbi məskənlər salırdı. 1651 – 1654 - cü ilərdə Rusiya hakimiyyəti böyük bir müdafiə sistemi olan Kamaarxası müdafiə xəttinin tikilişini başa çatdırdı. Təkcə 1650 – 1689 - cu illər ərzində başqırdların yaşadıqları ərazilərdə iyirmidən çox kənd və volost salınmışdı. Bundan başqa Rusiya hakim dairələri başqırdların ərazilərində qəsəbələr salır, qalalar tikdirir və ruslardan ibarət şəhərlər saldırırdı. XVI əsrin sonlarından XVIII əsrin birinci yarısına doğru Başqırdıstan ərazisində

30 - dan çox hərbi şəhərcik salınmışdı. Şəhərlərin ilk sakinləri məmurların, xidməti zabitlərin ailələri və uşaqları idi. Sonradan tədricən mülki əhalinin də sayı artmağa başladı. Rusiya hökuməti bu ərazilərə çoxlu əsgər ailəsi də köçürməyə başlamışdı. XVII əsrin sonlarında təkcə Tabınsk şəhərinə üç yüzdən çox streles ailəsi köçürdülmüşdü. XVII əsrin 80 - ci illərində Ufada kazak hərbi dəstələri formalaşdırılmağa başlandı. Bunların tərkibinin çoxu ruslardan ibarət olsa da, sonrakı dövrlərdə kazak dəstələrinə başqırdlar da qəbul edilməyə başlandı. XVII əsrdən başlayaraq Ufa zadəganları sırasına başqırd ailələrinin də üzvləri qəbul edilməyə başlandı. Bunlara Urakovlar, Urjumsevlər, Ahmetovlar, Sokurovlar, Kurçeyevlər, Kirjatskilər, Tevkelevlər, Toqonayevlər aid idilər. XVII əsrin sonlarından başlayaraq Başqırdıstana Yaik kazakları da köçməyə başladılar. Onların bu ərazilərdə ondan çox müdafiə məntəqəsi meydana gəldi.

XVII əsrin sonlarında Başqırdıstanın qərb rayonlarına rus kəndlilərinin köçməsi ilə bağlı başqırd kəndliləri sinfi də formalaşmağa başlamışdır. Bunların əksəriyyəti keçmiş təhkimli və sahibkar kəndliləri idilər. Bunlar başlıca olaraq Şəmşəddin, Kalnin, Ufa uyezdlərində məskən salırdılar. Şəmşədin və Kalnin volostlarının ərazisində tezliklə bu kəndlilərdən ibarət Birsk şəhəri meydana gəldi. Başqırdıstana köçmə kəndlilərin çoxu dövlət tərəfindən "xəzinə kəndliləri" kateqoriyasına aid edilmişdilər. XVII - XVIII əsrlərin qovuşuğunda Başqırdıstana teptyar və bobıllar deyilən kəndlilər də yerləşirdilər. Bunların sa-

yının artmasının səbəbi Başqırdıstanda yerli mədən istehsalının yüksəlməsi idi.

Sahibkar kəndlilərinin yerləşdiyi başqa bir ərazi də sima- qərbi Başqırdıstan idi. 1724 - cü ildə şimal - qərbi Başqırdıstanın Kama çayı hövzəsi ərazilərində 30-dan çox kəndli məskən salmışdı. Bundan başqa yerli xalqlardan da ibarət olan yasak kəndliləri təbəqəsi formalaşmağa başlamışdı.

XVIII əsrin 20 - ci illərinə doğru Başqırdıstanda dövlət kəndliləri təbəqəsi də formalaşmışdı. Bunların çoxu yerli başqırdlardan, yasak verən yerli əhalidən və daha az miqdarda köçmə əhalidən ibarət idilər. XVII - XVIII əsrlərdə monastırlara və kilsələrə verilən torpaq sahələrinin əsasında monastır və kilsə kəndliləri təbəqəsi də formalaşmağa başladı. Bu proses XVIII əsrin birinci yarısından etibarən daha da sürətlənməyə başlamışdı. Təkcə Ufa əyalətində və Ural arxası ərazilərdə 17 - dən çox monastır kəndi salınmışdı.

Bütün bu proseslərdə məqsəd yerli başqırd əhalisini assimilyasiya etmək idi. Bundan başqa Rusiya hakim dairələri başqırdların arasında sürətli xristianlaşdırma siyasəti də yeridirdi. Lakin bununla belə başqırdların xeyli hissəsi öz mədəni kimliyini qoruyub saxlaya bilmişdilər. Tarixçilərin məlumatına görə, XVIII əsrin 20 – 40 - cı illərində Ufa əyaləti daxilində təkcə 200mindən çox başqırd yaşayırdı. Bəzi tarixçilər isə ümumiyyətlə, Başqırdıstanda göstərilən dövrdə 300minə yaxın başqırd yaşadığını bildirirlər. Bütün tarixçilər isə Başqırdıstanda bütün gəlmə əhalinin sayının 60 mindən çox olmadığını bildirirlər.

XVII əsrdə başqırdların Rusiya asılılığını qəbul etmələrinin şərtlərindən biri başqırdların torpaqlarının toxunulmazlığını qorumağını öhdəsinə götürməsi idi. 1649 - cu il Zemstvo bəyannaməsində, eyni zamanda 1664, 1682, 1694, 1734 - cü illərin qanunlarında bu torpaqların toxunulmazlığına dövlət rəsmi zəmanət vermişdi. Lakin bütün bu zəmanətlərin heç birinə dövlət əməl etmədi. Başqırdların torpaqları alınaraq müxtəlif məqsədlərlə rus feodallarına, kəndlilərə, kilsələrə, monastırlara paylanmağa başlandı. Bundan başqa başqırdların arıçılıqla, maldarlıqla, əkinçiliklə məşğul olduqları torpaqlarda qalalar, slobodalar, şəhərlər tikilməyə başladı. Rusiya hakimiyyət orqanlarının bu hərəkətləri yerli əhalinin arasında narazılığın körüklənməsinə səbəb olurdu. Rusiya hakimiyyət orqanları təsərrüfat əhəmiyyətli sahələri - balıq vətəgələri, meşə arıçılığı sahələri, filiz yataqlarını keçmiş sahiblərinin əlindən alaraq sənayeçilərə iltizama verirdi. XVII əsrin sonu və XVIII əsrin birinci yarısında daha da narazılıq doğuran səbəblərdən biri də başqırd icmalarının torpaqlarının zavodların xeyrinə müsadirə edilməsi və buralarda sənaye müəssisələri tikilməsi idi.

Əhali arasında narazılıq yaradan səbəblərdən biri də dövlətin və mülkədarların xeyrinə toplanan vergilərin miqdarının xeyli artırılması idi. Xüsusilə ağır vergilər sənaye və əmtəə əhəmiyyəti daşıyan torpaqların üzərinə qoyulurdu. Bu isə başqırd əhalinin haqlı narazılığına səbəb olurdu. Bundan başqa əhali hərbi xidmətə adam ayırmalı və başqa dövlət xeyrinə ağır mükəlləfiyyətlər icra etməli idilər.

Başqırdların narazılığını artıran başqa bir səbəb də əhalinin zorla xristianlaşdırılması siyasəti idi. 1681 - ci il 16 mayda Rusiyada dərc edilən fərmanla başqırdlara xristianlığı qəbul etmək təklif edilir. Əks təqdirdə mülkədarların torpaqları əllərindən alınır, müsəlman kəndlilər isə təhkimli halına düşürdülər. Həmin ilin noyabrında Ufada ayrıca yeparxiyanın yaradılması haqqında qərar qəbul edildi. XVIII əsrin əvvəllərində hakimiyyət orqanları başqırdları məscidləri tikərkən kilsələrə bənzətməyə və dini ayinləri isə xristianlara oxşar formada icra etməyə məcbur etməyə başladılar. Məcburiyyət ciddi bir nəticələr vermədi, ancaq başqırdların arasında Rusiya hakimiyyət orqanlarında ciddi narazılıq meydana gəlməyə başladı. Narazılıq yaradan başqa bir səbəb də başqırdları idarə edən orqanların başqırd dilini heçə saymaları idi. Bütün idarə orqanları rus dilində aparılırdı. Bundan başqa başqırd əhalisi üçün yerli idarəçilikdə bütün hakimiyyət orqanları bağlı idi.

Rusiya əleyhinə başqırdların ilk irimiqyaslı çıxışının birbaşa səbəbi Rusiya hakimiyyət dairələrinin onların torpaqlarını kalmıklar üçün ayırmaq cəhdləri oldu. 1662 - ci ildə Sarı Mergen deyilən bir başqırd 600 nəfərdən ibarət dəstə ilə Katay və Dalmatov monastırlarına basqın etdilər. Onlar monastırları ala bilməsələr də ətraf torpaqları qarət edərək geri çəkildilər. 1662 - ci ilin avqustunda üsyançılar bu dəfə İset, Çusovaya və Pışma çayları hövzəsində olan rus kəndlərinə basqın edərək buraları qarət etdilər. Sentyabrda onlara qarşı göndərilən cəza dəstələrinin təzyiqi altında üsyançılar yenidən geri çəkildilər.

1662 - ci ilin iyul ayında Kunqur vilayətinin başqırd əhalisi də üsyana qalxaraq ətraf kəndlərə, xüsusilə rus kəndlərinə basqın etməyə başladılar. Bu ərazidə yaşayan tatarlar da onlara qoşuldular. Üsyan tezliklə Qazan və Noqay yollarına da yayıldı. Üsyanın miqyasının artmasından təşvişə düşən çar hakimiyyət orqanları Tobolsk uyezdi və Qazan quberniyasından xeyli hərbi hissənin Başqırdıstana göndərilməsi üçün sərəncam verdi. Orduya rəhbərlik edən Poliektova sentyabrın sonlarına yaxın üsyançıları məğlub etmək müyəssər oldu. Lakin onun amansız hərəkətləri başqırdlarda üsyanın yenidən qızışmasına səbəb oldu. Lakin üsyançılar arasında fikir ayrılıqları üsyançıları Rusiya hakimiyyət orqanları ilə danışıqlara getməyə məcbur etdi. Lakin 1663 - cü ilə qədər çəkən danışıqlar bir nəticə vermədi.

1663 - cü ildə üsyan yenidən alovlandı. Bu dəfə üsyançılara Kuçum xanın nəticəsi Küçük xan rəhbərlik edirdi. Üsyançıların partizan müharibəsi taktikası yeritməsi, ayrı-ayrı əlaqəli dəstələr şəklində fəaliyyət göstərmələri rusların işini çətinləşdirirdi. Lakin güclü hərbi qüvvələr və üsyançıların bir hissəsini öz tərəflərinə çəkmək hesabına rus hökuməti üsyanı yatıra bildi. Fevral 1664 - cü ildə başqırdların bəzi tələbləri də qəbul edildi. Vəzifədən sui-istifadə edən voyevoda işdən çıxarıldı. Başqırdların torpaqlarında statusları təsdiq edildi. Lakin danışıqlara baxmayaraq Küçük başda olmaqla üsyançıların bir hissəsi hakimiyyət orqanlarına müqaviməti 1665 - ci ilin yayına qədər davam etdirdilər. Lakin üsyan tezlik-

lə yatırıldı. Küçük xan Başqırdıstandan getməyə məcbur oldu, qalan başqırdlara isə dövlət bəzi güzəştlər etdi.

Hökumətin başqırdlara qarşı müəyyən güzəştlərə getməsi başqırdların əsas problemlərini həll etmədi. Bu isə başqırdlar arasında 1681 – 1684 - cü illərdə yeni üsyan dalğasının meydana gəlməsinə səbəb oldu. 1682 - ci ildən etibarən üsyan kütləvi xarakter almağa başladı. Buna görə də hökumət üsyançılara qarşı böyük hərbi qüvvə yeritməyə məcbur oldu. Eyni zamanda dövlət xristianlaşdırma siyasətindən imtina etməsi və başqa güzəştlərə getməsi haqqında başqırdlara elan verdi. Bu da üsyançıların rəhbərlərini Rusiyaya güzəşt yolu tutmağa sövq etdi. Hökumət ordusunun işlərini çətinləşdirən bir səbəb də kalmıkların başqırdlara kömək etməsi idi. 1683 - cü ildə dövlət müxtəlif güzəştlər vasitəsilə kalmıkları öz tərəfinə çəkə bildi. Bundan sonra üsyançıların vəziyyəti xeyli ağırlaşdı. Nəhayət, 1684 - cü ildə Ufa çayı sahilində Boqoroditsa kəndi yaxınlığında üsyançılarla ordu arasında qəti döyüş oldu. Üsyançılar məğlub oldular. Bundan sonra üsyanın gücü tədricən zəiflədi və yatırıldı.

Üçüncü böyük üsyan 1704 – 1711 - ci illəri əhatə edirdi. Üsyanın birbaşa səbəbi başqırdların torpaqlarına vergi iltizamçılarının gəlməsi onların vergiləri daha da artırması, İslam dininin əleyhinə tədbirlər görmələri idi. 1704 - cü ildə Ufada toplanan başqırd əhalisinin seçilmiş nümayəndələri iltizamçıların əlində olan fərmanın çar tərəfindən verilmədiyini elan etdilər və iltizamçıları isə döyərək qovdular. Bu isə Başqırdıstanda yeni bir üsyanın qalxması üçün qığılcım oldu. Məsələni daha da qəlizləş-

dirən bir səbəb də rusların başqırdlardan at toplamaq adı ilə əhali arasında qəddarlıq etmələri idi. Bu da üsyanın kütləvi hal almasına səbəb oldu. 1706 - cı ildə Həştərxanda üsyanın başlanması I Pyotru başqırdlarla bir balaca yumşaq davranmağa məcbur etdi. Lakin Həştərxanda üsyanın yatırılması başqırd üsyançılarına da münasibəti dəyişdi. Hökumət daha sərt tədbirlər görməyə başladı. Peterburqa danışıqlara gələn başqırd rəhbərlərindən bir neçəsi həbs edilib asıldı. Lakin görülən tədbirlər üsyanın daha da alovlanmasına səbəb oldu. 1711 - ci ildə Ufa yaxınlığında üsyançıların böyük qüvvələri darmadağın edildikdən sonra üsyan yatırıldı. Lakin hökumət başqırdlara qarşı bir sıra güzəştlərə getməli oldu. Əsas güzəşt isə onların vergilərinin artırılmasından imtina edilməsi oldu.

XVIII əsrin 30 - cu illərindən başlayaraq Anna İvanovna hökuməti Başqırdıstanın təbii sərvətlərinin mənimsənilməsi və Mərkəzi Asiya dövlətləri ilə birbaşa əlaqələr yaradılması məqsədilə Kirillovun rəhbərliyi altında bu ərazilərə ekspedisiya göndərdi. Tərcüməçi kimi isə Tevkelev polkovnik rütbəsində ona köməkçi təyin edildi. 1734 - cü ilin noyabrında ekspedisiya Ufa şəhərinə gəldi. Buradan isə indiki Orenburq istiqamətində hərəkət etməyə başladı. Ekspedisiyanın fəaliyyəti başqırdların üsyanına səbəb oldu. Bu da ekspedisiyanın planlarının dəyişməsi ilə nəticələndi. Lakin buna baxmayaraq 31 avqust 1735 - ci ildə Kirillov və Tevkelev Orenburq qalasının əsasını qoydular. Bundan sonra hər ikisi də qüvvələri üsyanın yatırılmasına yönəltdilər.

Lakin 1737 - ci ildə Orenburq qalasını inspeksiya etməyə gələn Tatişşev buranın rus məskənlərindən uzaqda qaldığını və bura ilə əlaqə yaratmanın çətin olduğunu bildirdi. Buna görə də qalanın yerini dəyişməyi qərara aldılar. Orenburq şəhəri 1741 - ci ildə Yaik çayının sahilində Qırmızı dağ adlanan yerdə Orenburq şəhərinin əsası qoyuldu. 1742 - ci ildə hökumət Orenburq qalasının bu dəfə Yaik və Sakmara çayları arasında salınması haqqında qərar qəbul etdi. Bununla da şəhərin salınması işi sürətləndirildi. 1746 - cı ildə Orenburq qalasının salınması yekunlaşdırıldı. Ruslar bundan başqa Başqırdıstan ərazisində irili-xırdalı ondan çox qala və şəhərin əsasını qoydular. XVIII əsrin 40 - cı illərinin sonunda bu ərazilərdə 40 - a yaxın qala və istehkam salınmışdı. 1734 - cü il ticarət fərmanı ilə Orenburqa böyük ticarət və sənətkarlıq imtiyazları verilmişdi.

Orenburq ekspedisiyası Başqırdıstanın təbii sərvətlərinin öyrənilməsi üçün də mühüm əhəmiyyət daşıyırdı. 17 may 1734 - cü il çar fərmanı ilə Kirillova buradakı təbii qaynaqların, filiz yataqlarının öyrənilməsi üçün də mühüm səlahiyyətlər verilmişdi. 1739 - cu ildə isə çar buralarda fəaliyyət göstərən sənayeçi və tacirlərə öz məqsədləri üçün kəndli ailələrini və kəndləri satın almaq ixtiyarı vermişdi. Ekspedisiya böyük kartoqrafiya və geodeziya işləri apararaq "Orenburq topoqrafiyası" adlı mühüm bir atlası tərtib edərək çara təqdim etdi. 1736 - cı ildə Kirillov tərəfindən Voskresensk misəritmə zavodunun əsası qoyuldu. Lakin başqırdlar üsyan edərək zavodu dağıtdılar. Lakin buralarda zavodların tikintisi davam etdi-

rilirdi. Demidov ailəsi tərəfindən 1736, 1744 - cü illərdə Başqırdıstanda iki misəritmə zavodunun əsası qoyulur. 1745 - ci ildə rus taciri İ.Q Tverdışev Voskresensk zavodunu yenidən işə qaytardı.

XVIII əsrin 40 - cı illərində çar hökuməti rus əsgərləri vasitəsilə Başqırdıstanda əmtəəlik buğda əkmək üçün tədbirlər görməyə başladı. Bunun üçün güzəştli şərtlərlə onlara toxum, əkin yerləri ayrılmağa başlandı.

Qalaların tikilməsi başqırdların torpaqlarının külli miqdarda müsadirəsi və bunların Rusiyadan gələn köçkünlərə verilməsi ilə müşayiət edilirdi. Bu da 1735-1740-cı illərdə başqırdların ümumi üsyanına səbəb oldu. Üsyandan qorxan çar hökuməti başqırdların vəziyyətini yaxşılaşdırmaq üçün bəzi tədbirlər görməyə başladı. Lakin bu tədbirlər yarımçıq qalırdı. Hökumətdən başqa yerli məmurlar, hərbçilər, əyalət rəhbərləri başqırdların torpaqlarını hər vasitə ilə tutur, onları isə sıxışdırırdılar. Çoxlu şikayətlər heç bir nəticə vermirdi.

Bütün bunlarla birgə Başqırdıstanın idarəsində də dəyişikliklər edildi. 1735 – 1744 - cü ildə Başqırdıstan Orenburq ekspedisiyası tərəfindən idarə edilirdi. 1735 - ci ildən ekspedisiyanın işinə Başqırd komissiyası da kömək göstərirdi. Ural arxası başqırdların idarə edilməsi üçün isə 1737 - ci ildə İsetsk əyaləti yaradıldı. Əyalətin özü isə üç distrixtdən - İsetsk, Şadninsk və Okunev distrixtlərindən ibarət idi. 1740 – 1744 - cü illərdə Ufa əyalətini isə vitse qubernator idarə etməyə başladı.

Rusiya başqırdların özünüidarə hüququnu da ləğv etməyə başladı. 1739-cu ildə çar hökuməti başqırd nüma-

yəndələrinə xalqın adından dövlətə müraciət etməyi qadağan etdi. Onlar yalnız özlərinin volostlarının adından dövlətə müraciət edə bilərdilər. Bundan başqa çar hakimiyyəti ağsaqqal institutunu 1736 - cı ildən seçkili starşina sistemi ilə əvəz etməyə başladı. Bu idarəçilik əsas etibarilə üsyan etmiş başqırd kəndlərində tətbiq edilməyə başlandı. 1739 - cu ildə bu vəzifə bütün volostlarda tətbiq edildi. Onlar isə 1741 - ci ildən yola rəhbərlik edən baş starşinaya tabe edilmişdilər. Onlar vergiləri toplamalı, eyni zamanda asayişin qorunmasına nəzarət etməli idilər. Ancaq ağsaqqallıq vəzifəsinə baxanda starşinaların səlahiyyətləri xeyli məhdudlaşmışdı. Başqırdıstanın idarəsində həyata keçirilən islahatlar ərazinin birbaşa dövlət orqanları tərəfindən idarə edilməsində mühüm rol oynadı.

1735 – 1740 - cı illərin başqırd üsyanı çar hökumətini müəyyən güzəştlərə getməyə məcbur etdi. Ən böyük güzəşt əldə olan başqırd torpaqlarının onların əllərindən alınmasından imtina edilməsi oldu. Lakin bunlar müvəqqəti xarakter daşıyan bir məsələ idi.

Lakin üsyandan az keçmiş çar hökuməti vergiləri qaldırmaq və adambaşına vergi qoyulması istiqamətində tədbirlər görməyə başladı. Ən böyük zərbə isə mənbələrdə teptyar (icmadan ayrılmış evsiz kəndli - müəllif) və bobıl (torpaqsız və işsiz kəndlilər-müəllif) adlanan kəndli kateqoriyalarının boynuna düşürdü. 22 may 1747 - ci ildə Senat tərəfindən teptyarlar, bobıllar və mişarlardan (türkləşmiş uqorlar - müəllif) adambaşına vergi alınması barəsində qərar verdi. Bu isə onların arasında böyük narazılı-

ğa, bəzi yerlərdə isə çıxışlara səbəb oldu. 1747 - ci ilin iyulunda Sibir yolunun Meleqes kəndində teptyarlar və bobıllar, o cümlədən bəzi millətlərin nümayəndələri vergilərin haqqında elan verənləri qovub, çara şikayət haqqında qərar qəbul etdilər. Bundan sonra çıxışlar başqa kəndlərə də yayıldı. Eyni zamanda Os yolunun kəndlərinin eyni kateqoriyadan olan əhalisinin üsyanları oldu. Onlar teptyar və bobılların qurultayını çağırmaq və adambaşına verginin ləğv edilməsini tələb etmək qərarına gəldilər. Tezliklə hərəkata mişarlar da qoşuldular. Başqırdların üsyana qoşulacağından qorxan yerli quberniya idarəçilər tezliklə üsyanın yatırılmasına, iştirakçılara qarşı sərt tədbirlər görülməsinə nail oldular.

Baş verən üsyanlar çar hakimiyyətinin başqırdlara qarşı münasibətini dəyişmədi, yenə də müxtəlif məqsədlər üçün başqırdların torpaqlarının alınması davam edirdi. Torpaqlar ən çox zavodların tikilişi üçün müsadirə edilirdi. Təkcə XVIII əsrin 40 - cı illərində başqırdların torpaqlarında 30 - dan çox zavod və fabrik tikilmişdi. 1744 - cü ildə verilən qanunlar zavodların ərazisinə ciddi məhdudiyyətlər qoysa da, sahibkarlar başqırdlardan sui-istifadə, yalan və təzyiq yolu ilə xeyli torpaqları ələ keçirə bilmişdilər. Bundan başqırdların torpaqları müxtəlif istehkamlar və qalalar tikmək üçün də müsadirə edilirdi. Başqırdlara ziyan vuran problemlərdən biri də onların torpaqlarının əkin sahələri üçün ayrılaraq kəndlilərə verilməsi oldu. Başqırdların əsas etibarilə köçəri maldarlıqla məşğul olduqlarını nəzərə alsaq, bunun nə dərəcədə fəlakətli səciyyə daşıdığını təsəvvür etmək çətin deyil.

Başqırdların dövlət tikintilərində işlədilməsi və müxtəlif dövlət mükəlləfiyyətlərinin icrasına cəlb edilməsi də adi hal almışdı. 1735 - ci ildən Orenburq və Ufa arasında, sonradan Başqırdıstanın başqa bölgələri arasında da poçt əlaqəsi yaradıldı. 1751 - ci ildən poçt stansiyalarının saxlanması da başqırd əhalisinin boynuna qoyuldu. 1754 - cü ilin martında keçirilən vergi islahatına görə Orenburq quberniyasında yaşayan başqırdlar, tatarlar və mişarlardan alınan yasak vergisi ləğv edildi. Lakin onların duzdan pulsuz istifadə etmək hüquqları ləğv edildi. Artıq onlar duzu xəzinədən pulla almalı idilər. Bu qərar əhali arasında narazılığın partlamasına səbəb oldu. Çünki duzun qiyməti yasaqdan xeyli baha başa gəlirdi. Bundan başqa başqırdların öz qanuni əraziləri hesab etdikləri duz mədənləri bu qərarla dövlətin inhisarına keçirdi. Bundan başqa başqırdlar arasında xristianlaşdırma da xeyli fəallıqla aparılırdı. Bu da əhali arasında narazılığı ciddi şəkildə körükləyirdi.

1754 - cü ilin yazında Başqırdıstanın Burzyan volostunda başqırdların üsyana hazırlaşmaları barəsində şaiyələr yayılmağa başladı. Şaiyələr başda Abdulla Aleyev olmaqla başqırd müsəlman ruhanilərini də canlandırmışdı. Abdulla Aleyev xalq arasında Batırşa ləqəbini qazanmışdı. 1755 - ci ilin martında Batırşa Noqay yolunun başqırdların mayın sonunda üsyana qalxacaqları barədə xəbər aldı. Bundan ruhlanan Batırşa bütün müsəlman əhaliyə üsyana qalxmaq barəsində müraciətnamələr göndərdi. Bəyannamədə üsyanın tarixi iyul göstərilirdi. Lakin mayın sonunda Burzyan əhalisi üsyana qalxaraq

rusların mədən ekspedisiyasını qırdılar. Lakin başqırdların rəhbərləri üsyanın dayandırılmasını tələb etdilər. Üsyanın zəifləməsindən istifadə edən dövlət orqanları kütləvi repressiyalara əl atdılar ki, bu da başqırdların xeyli hissəsinin Qazax çöllərinə qaçmasına səbəb oldu. Lakin avqustda üsyan yenidən alovlandı. Bu dəfə üsyan daha da kütləvi xarakter almağa başladı. Bundan başqa avqustun ortalarından başqırdların kütləvi qaydada qazax çöllərinə köçü başladı. Burada ailələrini qoyan başqırdlar qayıdaraq yenidən əlində silah vuruşmağa başlayırdılar. Başqırdların köçü 1755 - ci ilin payızına qədər davam etmişdi. Prussiya ilə müharibə ərəfəsində hökumət üsyanın yatırılması üçün sərt tədbirlər gördü. Üsyan qan içində boğuldu. Lakin bununla belə hökumət güzəştə gedərək başqırdlara din azadlığı elan etdi. Eyni zamanda bəzi volostların vergi qalıqlarının da bağışlandığını bildirdi. Bundan başqa başqırdlara özlərinə məscidlər tikmək hüququ verildi. Onlardan toplanan rektutların da sayı azaldıldı. Ancaq bütün bu güzəştlərə baxmayaraq başqırdların üsyanı 1756 - cı ilə qədər davam etmişdi.

Başqırdlar ikinci dəfə Rusiya əleyhinə Yemelyan Puqaçovun üsyanı zamanı dəfələrlə çıxışlar etdilər. Bu isə Rusiya hakim dairələrini Başqırdıstan ərazisində xeyli islahatlar aparmağa məcbur etdi. Belə ki, 1781 - ci ilin dekabrında Orenburq quberniyası ləğv edilərək yerində Ufa canişinliyi yaradıldı. Canişinlik isə öz növbəsində iki diyara- Orenburq və Ufa diyarlarına bölünürdü. Diyarlar isə uyezdlərə bölünürdülər. Eyni zamanda məhkəmə hakimiyyəti, hərbi, inzibati hakimiyyətdən ayrılırdı. Buna

baxmayaraq canişinliyə təyin edilən general-qubernatora geniş səlahiyyətlər verilirdi. Bundan başqa ölkənin maliyyə, təhsil və başqa işlərini idarə etmək üçün xüsusi idarələr təsis edildi. Diyarda ayrıca məhkəmə orqanları da yaradılırdı. Həmçinin, ayrıca prokurorluq və polis orqanları da yaradılaraq qubernatora tabe edildilər. 1796 - cı ildə Ufa canişinliyi Orenburq quberniyası ilə əvəz edildi.

1789 - cu ildə isə Ufa canişini İqelstorm başqırdların yerli idarəçiliyi sahəsində islahat apardı. Volostların əvəzində yurdlar yaradıldı ki, bunlara da ərazi prinsipi üzrə başqırdlar aid edilməyə başladılar. 1797 - ci ildən başlayaraq qubernator yerli hərbi vəzifələrə mişarlardan və başqırdlardan ibarət nümayəndələr təyin etməyə başladı.

1798 - ci ilin 1 aprelindən başlayaraq Rusiya hökuməti başqırdların yeni idarəçiliyə keçirilməsi haqqında qanun verdi. Bu qanun Ufa canişini İqelstormun təklifi ilə aparılmağa başladı. İslahata görə başqırd və mişarlar mülki idarəyə bağlı olmaqla bərabər kazaklar və xidməti tatarlar kimi hərbi silkin tərkibinə daxil edildilər. Bundan sonra başqırdlardan ibarət kantonlar yaradıldı. Hərbi kantonların sayı 1803 - cü ildə 12-yə çatdırılmışdı. Həmin kantonlar artıq nəsli quruluş üzrə deyil, ərazi prinsipi üzrə yaradılırdılar. Kantonlar da yurdlardan, onlar da öz növbəsindəkəndlərdən ibarət idilər.

Başqırdların kanton sisteminə keçməsi ilə onların yerdəyişməsinə xeyli məhdudiyyətlər qoyuldu. 1806 - cı ilin sentyabrında başqırdların qonşu quberniyalara köçməsinə qadağa qoyuldu.

XIX əsrin 30 – 40 - cı illərində başqırd ordusunun idarəsində xeyli islahatlar həyata keçirildi. 1834 - cü ildə Orenburq qubernatorunun əmri ilə başqırd - meşeryak ordusu yaradıldı. 1837 - ci ildə ordunun idarəsi ilə bağlı bütün məsələləri ordu komandanı həyata keçirirdi. O, da öz növbəsində qubernatora tabe idi. Komandanın mülki idarə üzrə öz dəftərxanası var idi. 1835 - ci ildə başqırd - meşeryak ordusu 6 dairəyə bölündü. Bunlara da komandana tabe rus zabitləri rəhbərlik edirdilər.

XIX əsrin 30 - cu illərində başqırdların öz yerlərindən və əsgəri xidmətdən müvəqqəti ayrılması qaydaları müəyyənləşdi. Qaydalara görə onlara uyezd daxilində hərəkət etmək üçün yurd starşinası, qonşu uyezdə getmək üçün isə kanton rəisi icazə verməli idi. 1834 - cü ildə başqırdların cinayət işlərinə yalnız hərbi məhkəmələr baxa bilərdilər. Yerli məhkəmələr yalnız xırda işlərə baxmalı idilər. 1839 - cu ildə başqırdlara müxtəlif məqsədlər üçün getməyə sənəd verilməsi xeyli asanlaşdırıldı. Başqırdlara və mişarlara öz yerlərini öz başına tərk etmək üstündə ağır cəzalar verilirdi. 1853- cü ildə isə başqırdların Qazax çöllərinə uşaqlarını oxutmaları üçün getmələrinə qadağa qoyuldu.

XIX əsrin 40 – 50 - ci illərində kantonların idarəsində bəzi yeniliklər həyata keçirildi ki, bunlar da onların üzərində nəzarəti gücləndirmək məqsədi güdürdü. Bunlardan biri 1840 - cı ildə bəzi meşeryak və başqırdların müəyyən məbləğ daxilində vergi verənlər silkinə daxil edilməsindən ibarət idi. XIX əsrin 40- cı illərinin sonunda artıq başqırd və meşşeryakların xeyli hissəsi vergi verən-

lərin silkinə aid edilmişdilər. 1855 - ci ildə başqırd və meşşeryakların xeyli hissəsinin yenidən vergi verənlər silkinə aid edilməsi prosesi baş verdi. Bu da artıq əhalinin xeyli hissəsini əhatə edirdi. 22 fevral 1855 - ci ildə teptyar və bobıllar da eyni vergi verənlər təbəqəsinə aid edildilər. Bunun arxasınca kanton idarəçiliyində də dəyişikliklər edildi.

1832 - ci ildə başqırdların torpaqlarının mülkiyyətinin təsdiq edilməsi haqqında qanun imzalandı. Bundan başqa ordudan tərxis edilmiş başqırdlara 40 desyatinə qədər torpaq ayrılması qaydası da müəyyənləşdi.

XIX əsri birinci yarısı Başqırdıstanda sənayenin yüksək inkişafı illəridir. Xüsusilə də, 1819 – 1860 - cı illər Başqırdıstanda sənayenin yüksək sürətli artım dövrü hesab edilməlidir. Bu dövrdə Başqırdıstanda çuqun istehsalı 74, polad istehsalı isə az qala 90 faiz artım vermişdi. Lakin bu zavodların əksəriyyəti muzdlu əməyin tətbiq edildiyi zavodlar idi. 1828 - ci ildə Başqırdıstanda ilk dəfə olaraq rafinə edilmiş polad istehsal edilməyə başlandı. 1840 - cı ildə isə Başqırdıstanda kontuaz üsulu ilə polad əridilməsinə başlanıldı. XIX əsrin 40 - cı illərindən başlayaraq zavodların çoxunda buxar mühərrikləri tətbiq edilməyə başlandı. Lakin zavod fabrik sənayesinin inkişafı təhkimçilik qanunlarının üstünlüyü şəraitində həyata keçirdi. Buna görə də Başqırdıstanda təhkimçiliyin ləğvini həyata keçirmək şərt olmuşdu.

XIX əsrin birinci yarısında Başqırdıstanda yerli təhsil və mədəniyyətdə yeni təmayüllər özünü göstərməyə başlamışdı. Lakin bütün türk xalqlarında olduğu kimi

Başqırdıstanda da yerli təhsilin inkişafına çar hakimiyyəti dairələri maneçilik törədirdilər. XIX əsrin birinci yarısında Başqırdıstanda Orenburq xalq təhsili məktəbi, bundan başqa Ufa, Mənzəli, Buquruslan, Birsk, Çelyabinsk, Troitsk və Buzuluk iki illik məktəbləri fəaliyyət göstərirdi. Əsasən xalq təhsili məktəbində oxuma, yazma, hesab, həndəsə, coğrafiyanın ilkin əsasları və başqa predmetlər tədris edilirdi. 1801 - ci ildə bu məktəblərdə tatar dilinin tədirisinə icazə verilsə də, tatar dili dərsi keçmək üçün savadlı mütəxəssislərin çatışmazlığı kəskin şəkildə özünü göstərirdi. 1839 - cu ildə göstərilən uyezdlərdə yerli ikiillik kənd məktəbləri də fəaliyyətə başladı. Bu məktəblərdə oxuyanların çoxu əsas etibarilə zadəgan və tacir silkinin nümayəndələrinin uşaqları, yalnız 29 faizi raznoçinlər idi. 1828 - ci ildə Ufada gimnaziya fəaliyyət göstərməyə başladı. 1832- ci ildə isə Orenburqda varlı təbəqələrin uşaqları üçün qızlar gimnaziyası fəaliyyətə başladı. 1841 - ci ildə isə bu gimnaziya imperatriçənin himayəsi altında Əsilzadə qızlar institutuna çevrildi. 1800 - cü ildə Ufada ruhani seminariyası fəaliyyətə başladı. XIX əsrin I rübündən etibarən Başqırdıstanda varlı kəndli uşaqlarının təhsil alması üçün Əmlak Nazirliyinin nəzdində kənd məktəbləri açıldı. XIX əsrin 40 - cı illərinə doğru bunların sayı 50 - ni keçirdi. XIX əsrin 40 - cı illərində kənd məktəbləri çuvaş və mordva kəndlərində də açılmağa başlamışdı.

Başqırd və kazak hərbi dəstələrinin ehtiyaclarını nəzərə alan çar hakimiyyəti orqanları XIX əsrin əvvəllərində qarnizon məktəbləri də istifadəyə verməyə başladı.

Həmin məktəblərdə də riyaziyyatın və fizikanın əsasları tədris edilirdi. 1849 - cu ildə qarnizon məktəblərindən əlavə Başqırd korpusu da yaradıldı ki, bunlarda kargüzarlıq işlərini aparmaq, hərbi xidmət üçün kadrlar hazırlanmasına başlanıldı. Lakin kəndli və başqa aşağı təbəqələrin övladları üçün nəzərdə tutulmuş bu məktəblərdə yalnız ibtidai təhsil verilirdi. Orenburqda açılan kadet məktəbində isə yalnız varlıların övladları təhsil alırdılar. Kadet məktəbi Avropa və Asiya bölməsi olaraq iki eskadrona bölünürdü. I eskadronda rus və qərb dilləri, II eskadronda isə ərəb, fars, tatar, başqırd və qazax dilləri öyrədilirdi. Şərq dillərini milliyyətcə başqırd olanM. Kuklyaşev və M. Bikçurin tədris edirdilər. Bu məktəblərlə yanaşı Başqırdıstan ərazisində dağ - mədən məktəbləri də fəaliyyət göstərirdi. Bunlarda da mədənlərdə işləyən fəhlələrin və bəzilərində isə mədənlərin idarə personalının övladları oxuyurdular.

Dövlət müəyyən miqdarda başqırd uşaqlarının da təhsil alması üçün şərait yaradırdı. Məsələn, 1835 – 1840 - cı illərdə Moskva və Peterburqa 300 başqırd gənc təhsil almağa göndərilmişdi. Lakin yerli təhsil daha çox dini məktəblərdə və mədrəsələrdə təşkil edilmişdi. Onların da himayədarı tatar və başqırd feodallar, din xadimləri idilər. Ümumiyyətlə, Ufa quberniyasında 354 məktbə və mədrəsə fəaliyyət göstərirdi ki, bunlarda da dərs metodları mühafizəkar üsullara arxalanır, məktəblər özləri isə darısqal evlərdə yerləşirdilər. Tatar və başqırd dilində tədrisin inkişafında türk dilində mətbəənin təşkili mühüm rol oynadı. 1800 - cü ildə Qazan və Başqırd ruhani-

lərinin təşəbbüsü ilə Peterburqda yerləşən Şərq ədəbiyyatı mətbəəsi Qazan şəhərinə köçürüldü ki, bu da yerli dillərdə ədəbiyyatların yayılmasında mühüm rol oynadı. Beləliklə, Başqırdıstanda təhsil mühüm inkişaf yolu keçmişdi, lakin bu başqırd gəncləri üçün olan təhsilin geri qalması, yerli dildə müasir təhsil ocaqlarının olmaması ilə müşayiət olunurdu.

Başqırdıstanda ilk səhiyyə xidməti Ufada 1787 - ci ildə aptek və hərbi hospitalın açılışı ilə başladı. Eyni zamanda ictimai səhiyyə xidməti yaradıldı. 1791 - ci ildə ilk dəfə olaraq xəstəxana açıldı. XIX əsrin əvvəllərinə doğru başqa şəhərlərdə də həkim məntəqələri meydana gəlmişdi. Onlar yerli əhaliyə səhiyyə xidməti göstərməklə yanaşı, eyni zamanda epidemiyalara da qarşı mübarizə aparmalı idilər. XIX əsrin 30 - cu illərində başqırd milliyyətindən olan həkimlər də fəaliyyət göstərməyə başladılar. Bunlardan A. Sübhanqulov və H. Şaripov tanınmış həkimlər sırasında idilər. 1836 - cı ildə Qazanda tibb üzrə oxumaq üçün də 20 başqırd və tatar gəncini göndərmişdilər.

Başqırdıstanın elmi cəhətdən öyrənilməsi XVIII əsrin 30- cu illərində, 1734 – 1737 - ci illərdə Orenburq elmi ekspedisiyasına rəhbərlik etmiş İ.K Kirillovun adı ilə bağlıdır. Özünü Orenburq diyarının öyrənilməsinə həsr etmiş, böyük coğrafiyaçı P. İ. Rıçkov da məhz bu insanın təsiri altında yetişmişdi. Onun Başqırdıstan haqqında "Orenburqun tarixi", "Orenburqun topoqrafiyası" kimi geniş və əhatəli əsərləri vardır. XIX əsrin 20 – 30 - cu illərində rus alimləri G. Karelin, Z. Qofman, H. Helmersen,

A. Humboldt, Q. Roze başqırd diyarının geoloji, eyni zamanda topoqrafik cəhətdən tədqiq edilməsinə, eyni zamanda diyarın bitki örtüyünün, etnoqrafiyasının öyrənilməsinə böyük töhfələr vermişdilər. 1840- cı ildə rus alimi E. A Eversman "Orenburq diyarının təbii tarixi" əsərinin I cildini nəşr etdirir. Kitabın 1850 və 1860- cı illərdə çıxan II və III cildlərində Başqırdıstanın heyvanları, quşları və bitki örtüyü haqqında geniş məlumatlar var idi. Başqırdıstanın öyrənilməsində yerli alimlərin rolu da böyük olmuşdur. Buna Y. V. Xanıkovun "1838- ci ildə Orenburqun şəxsi zavodlarının filiz istehsalının şərhi" adlı əsəri, V.S.Yumatovun başqırd tarixinə və etnoqrafiyasına həsr edilmiş "Orenburqun tarixinə dair fikirlər", "Orenburq diyarının ibtidai əhalisinə qısa tarixi baxış" kitablarını misal göstərmək olar. İkinci kitabda o, XVII - XVIII əsr başqırd üsyanları haqqında qiymətli məlumatlar vermişdi.

1801 - ci ildə Ufada ilk mətbəə açıldı. 1837 - ci ildə mətbəə qəzet çıxarılması üçün də uyğunlaşdırıldı. 1838 - ci ilin yanvarından "Orenburq quberniya xəbərləri" qəzeti nəşr edilməyə başladı. 1843 - cü ildən başlayaraq qəzetin ədəbi hissəsi də nəşr edildi ki, burada yerli şairlərin və ictimai xadimlərin əsərləri çap olunmağa başlandı.

Başqırdıstanda ilk teatr 1772 - ci ildə Menzeli voyevodası Nikita Mojarovun evində açılmışdı. Teatrın aktyorları isə buralara sürgün olunmuş polyak konfederatlar idi. İlk dəfə olaraq polyak dilində "Pan Bronislav" operettasını tamaşaya qoymuşdular. Lakin az sonra sürgün olunanlara tamaşa göstərmək qadağan olundu. XIX

əsrin 30 - cu illərində həvəskar tamaşalar yenidən qoyulmağa başlandı. 1841 - 1843- cü illərdə isə Ufada ilk professional teatr truppası fəaliyyət göstərirdi, lakin bu truppa ruslardan təşkil olunmuş, tamaşalar isə rus dilində göstərilirdi. 1856 - cı ildən başlayaraq Orenburq və Ufada daimi teatr sezonları təşkil edilməyə başlandı.

Lakin Başqırdıstanda milli təhsilin, maarifin və mədəniyyətin təşkili sahəsində mühüm addımlar yalnız XIX əsrin 60 - cı illərində atılmağa başlandı.

### *§ 4. Sibirin Türk xalqları XVII-XIX əsrlərdə*

XVI əsrin 60 - cı illərində Sibir xanlığında Taybuğa nəslinin hakimiyyəti xeyli zəifləmişdi. 1563 - cü ildə bundan istifadə edən Şeybani nəslinin nümayəndəsi Kuçum xan hakimiyyəti ələ aldı. Bundan sonra Kuçum paytaxtı Kaşlık şəhərinə köçürdü. Kuçum bəzi tayfalara qarşı işğalçı yürüşlər edərək onları özündən asılı hala saldı, eyni zamanda Sibirdə mərkəzi hakimiyyəti xeyli gücləndirdi.

Kuçumun hakimiyyəti ələ almasından IV İvanın sarayında da tezliklə xəbərdar oldular. IV İvan yaxşı başa düşürdü ki, bu Sibirin Moskva ilə olan əvvəli, vassallıq münasibətlərinin sonu idi. Lakin çoxlu xarici düşmənlərlə mübarizəyə başı qarışan IV İvan Şərq sərhədlərinin mühafizəsini Stroqanovlar deyilən tacir ailəsinə tapşırdı. Stroqanovlar ailəsinin Perm diyarında böyük torpaq sahələri var idi. Çarın bu qərarı 1564 - cü ilin yanvar fərmanı ilə də dəstəkləndi. Bundan başqa çar xüsusi fərmanla

Sibirin bəzi torpaqlarında Stroqanovlara böyük torpaq sahələri də ayırırdı.

Moskvanın bütün aqressiv məqsədlərinə baxmayaraq Kuçum öz ölkəsinin təhlükəsizliyini təmin etmək üçün 1571 - ci ildə Moskva ilə Sibirin Rusiyanın vassal asılılığını qəbul etməsini təsdiqləmək üçün danışıqlar aparmağa başladı. 1572 - ci ildə Kuçum Rusiyadan vassal asılılığında olmasını təsdiqlədi, eyni zamanda Rusiya elçisini qəbul etməyi və Rusiya xəzinəsinə vergi ödəməyi boynuna götürdü. Lakin Rusiya danışıqların şərtlərinə axıra qədər əməl etmək fikrində deyildi. Sibirlə saziş imzaladıqdan sonra Rusiya Sibirdə kəndlilərin, kazakların məskən salmasına hər vasitə ilə rəvac verməyə başladı. Bundan başqa Moskva dövlətinin hərbçiləri Sibirin daxili rayonlarında qalalar tikməyə başladılar. Bu da Sibir xanlığında etiraz doğururdu.

Yay 1573 - cü ildə Kuçum Moskvanın bu siyasətinin qabağını almaq üçün Moskvaya qarşı açıq hərbi əməliyyatlara başladı. Noqay murzalarının sərhədlərində toplaşan Sibir hərbi dəstələri Stroqanovun mülklərinə və Rusiya asılılığını qəbul etmiş bəzi tayfaların torpaqlarına basqın etməyə başladılar. Həmin tayfalara Rusiyaya bac verməmək tapşırılırdı. 1574 - cü ildə Kuçumun fəaliyyəti nəticəsində Ural arxası tayfaların Rusiya hakimiyyətindən çıxması təhlükəsi yarandı. Buna görə də IV İvan Stroqanovun Sibirin bəzi torpaqları üzərində mülkiyyət hüququnu təsdiqləyərək, ona Sibir xanına qarşı hərbi tədbirlər görməyi tapşırdı.

1580 - ci ildə Stroqanovun zülmünə davam gətirməyən mansilər də Kuçuma qoşuldular. Solikamsk və başqa qalaları yandıran mansilər Stroqanovun dəstələrinə məğlub olaraq geri çəkildilər. Vəziyyətin əldən çıxdığını görən Stroqanovlar ailəsi 1581 - ci ildə kazaklardan ibarət olan muzdlu hərbi dəstə yaratdılar. Dəstəyə Yermak Timofeyeviç rəhbərlik edirdi. Səfər 1581 - ci ildə başladı. Yermak kazak dəstəsi ilə Yepançi yurdu yaxınlığında Kuçumun murzalarından birini məğlub etdilər. 1582 - ci ildə Dolqi Yar vuruşmasında da Yermak Kuçumun ordusu üzərində qələbə çalaraq Sibirin içərilərinə doğru irəliləməyə başladı.

Kuçumun vəziyyətini ağırlaşdıran 1582 - ci ilin oktyabrında İrtış çayının başlanğıcında Çuvaş burnu adlanan yerdə olan döyüşdə mansilərin və xantların kazakların tərəfinə keçməsi oldu. Bundan sonra Yermak Kuçumun paytaxtı olan Kaşlıkı müqavimətsiz ələ keçirdi. Lakin Kuçumun kazaklara qarşı müqaviməti 1585 - ci ilə qədər davam etdi və eyni zamanda Kuçumun hərbi dəstələri də bəzi qələbələr əldə etdilər. 1585 - ci ildə yalandan Buxara tacirlərinin guya ki, Kuçum tərəfindən qarət edilməsi şayiəsini yayan Kuçum Yermakı Kaşlıkdan çıxarmağa və özü üçün əlverişli olan Vaqay çayının İrtış çayına tökülən qolunda ona qəfildən hücum etməyə müvəffəq olur. Nəticədə kazak dəstəsi məhv edilir, Yermak isə öldürülür. Bu məğlubiyyətdən sonra onun dəstəsində olan kazaklar geri çəkilərək buralarda məskən salmadılar.

Yermakın məğlub olmasına baxmayaraq onun səfərləri Kuçumun Sibirdəki hakimiyyətinə demək olar ki,

son qoydu. Bir çox türk tayfaları hələ də ona sadaqətli idilər. Bəzi türk tayfaları-başqırdlar, noqayların bir hissəsi, Tobol çayı ətrafında yaşayan mansilər, xantlar, onlardan başqa buralarda məskən salan tatar tayfaları Rusiyanın vassallığını qəbul etdilər.

Yermakın ölümündən sonra Kaşlıkı ələ keçirən Kuçumun kiçik oğlu Əli Taybuğa nəslinin nümayəndəsi Seydəklə mübarizəyə başladı. Bu da Sibir xanlığının vəziyyətini daha da çətinləşdirdi. Bu isə rusların Sibirin içərilərinə doğru hərəkətini asanlaşdırdı. 1586 - cı ildə voyevoda Sukin və Myasnoyun dəstələri əvvəlki tatar şəhəri olan Çimgə Turanın yerində Tümen şəhərinin əsasını qoydular. Ruslar buranı özlərinin əsl hərbi qalasında çevirərək, buradan həm Sibirin içərilərinə basqınlar edir, eyni zamanda müxtəlif yerlərdə qalalar və istehkamlar tikirdilər. Tezliklə Tümen voyevodaları ətrafdakı tatar qəbilələrini özlərinə tabe etməyə və onlardan yasak almağa müvəffəq oldular. 1587 - ci ildə ruslar Kaşlıkın yaxınlığında Tobolsk şəhərinin əsasını qoydular. Buradan da ruslar Sibir xanlarından biri Seydəkə qarşı hərbi əməliyyatlara başladılar və onu məğlub edib, əsir götürdülər.

Bundan başqa Rusiya hökuməti rus kəndlilərinin Sibirin içərilərinə doğru məskunlaşmasını da genişləndirirdi. İlk vaxtlar kəndlilərin məqsədi xəz dərili heyvan ovlamaq idisə də, sonradan isə buralarda kəndlilərin daimi qəsəbələri və kəndləri meydana gəlməyə başladı.

1593 - cü ildə Rusiya hərbi dəstələri Pelım knyazının ordularına qarşı hücuma başladılar. Eyni zamanda buralarda rus kəndlilərinin yerləşdirilməsinə başlanıldı.

Həmin ildə çar hökuməti burada yaşayan kəndlilərə taxıl əkmək üçün torpaqların ayrılması və onlara dövlət xəzinəsindən toxum paylanılması haqda qərar verdi. Bu da Sibirdə taxıl istehsalının başlanğıcını qoymalı idi. 1594 - cü ildə kazakların hərbi qüvvələri Ob çayı və Yuxarı İrtış sahillərini Rusiya tərkibinə qatdılar. Tezliklə bu ərazilərə streles ailələri və kəndlilər köçürülməyə başlandı. Həmin il Ob çayı kənarında Surqut şəhərinin əsası qoyuldu.

XVI əsrin 90 - cı illərinin ortalarında Kuçumun Rusiya asılılığını qəbul edən tatarlara qarşı basqınlarının qarşısını almaq üçün Tarsk şəhərinin əsası qoyuldu və buralar Tarsk uyezdinə tabe edildi. Uyezdin rəhbərliyinin başlıca işi buraları Kuçumun hücumlarından qorumaq və ona qarşı hərbi əməliyyatları təşkil etmək və bir də yerli tatarlardan yasak da toplamaq idi. Tarsk voyevodaları çarın sərəncamına uyğun olaraq 1597 - ci ildə Kuçumla danışıqlara başladılar. Təslim olacağı təqdirdə ona İrtış çayı ətrafındakı otlaqları bağışlamaq vəd olunurdu. Lakin Kuçum təslim olmadı. 1598 - ci ildə rus ordusu Obi çayının sol sahilindəki Kuçumun qərargahına basqın etdilər. Kuçum yalnız ailəsi ilə birgə Mərkəzi Asiyaya qaçmalı oldu. Bundan sonra Çat, Terenin və Barabin düzlərinin tatarları Rusiya himayəsini qəbul etdiklərini bildirdilər. XVII əsrin əvvəllərində Euştin türklərinin knyazı Rusiya hakimiyyətini qəbul etdi. 1604 - cü ildə onların ərazisində, Tomi çayının mənbəyində Tomsk şəhəri salındı. Tezliklə şəhər və ətrafına xidməti adamlar və çoxlu kəndli ailələri köçürüldülər.

1618 - ci ildə Tomi çayının yuxarı axarları da Rusiya asılılığına tabe edildi. Lakin rusların kütləvi surətdə Sibir ərazilərinə köçləri yerli tayfaların da köçləri, eyni zamanda Çin sərhədlərindən gələn oyrotların və cənubdan köçən qazaxların qarşı köçləri ilə üzləşdi. Bu da həmin tayfalarla ruslar arasında hərbi toqquşmalara səbəb oldu. Lakin Rusiya hökuməti rusların tərəfini saxlayaraq hər vasitə ilə köçərilərin otlaqlarını məhdudlaşdırmaq və onların taxıl əkilməsi üçün kəndlilərə paylanması siyasətini yeridirdi. Artıq XVII əsrin birinci yarısına doğru Qərbi Sibirin demək olar ki, bütün ərazisi Rusiya dövlətinə tabe edilmişdi.

XVII əsrin 30 - cu illərində Rusiyanın çulım türkləri, Yenisey qırğızları, tuvalılar, şimali altaylılar və barabin türklərinin kimə yasaq verməsi məsələsi üstündə Cunqar dövləti ilə münaqişəyə girdi. Lakin 1640 - ci ildə danışıqlar vasitəsilə bu məsələ hər iki dövlət arasında həll edilmişdi.

Rusiya Qərbi Sibirin işğalından sonra buralara kəndlilərin köçürülməsinə də imkan verirdi. Artıq XVIII əsrin əvvəllərinə doğru Qərbi Sibirin müxtəlif rayonlarında yüzdən çox kənd, onlarla istehkam və qalalar salınmışdı. Bəzi qalalar böyüyərək böyük şəhərlərə çevrilmişdilər. Köçürülmə ilə eyni zamanda Qərbi Sibir torpaqlarının təsərrüfat istismarı üçün də tədbirlər görülürdü. Lakin aparılan köçürülmə siyasəti yerli xalqın müqaviməti ilə də üzləşirdi. 1708 - ci ildə yerli köçərilər basqın edərək Obi çayının aşağı axarlarında salınan Bikatun qalasını dağıtmışdılar. Lakin qala yenidən 1718 - ci ildə bərpa edil-

mişdi. 1719 – 1722 - ci illərdə isə Ob çayı sahillərində 34 - ə yaxın rus kəndi və qəsəbəsi salınmışdı.

Yuxarı Ob ətrafının, İrtış və Obi çayları arası torpaqların intensiv mənimsənilməsi, rusların Şimali Altay ətəklərinə gedib çıxması 1709-cu ildə buradakı tayfalardan bac alan Cunqar dövləti ilə Rusiyanın arasında mübahisələrin meydana çıxmasına səbəb oldu. Cunqarlar 1709 - cu ildə Şimali Altaydakı rus kəndlərinə və qalalarına basqın etməyə başladılar. Kuznetsk uyezdinin yasak verən kəndləri qarət edildi. 1714 - cü ildə Cunqar hökmdarı Krasnoyarsk, Kuznetsk, Tomsk uyezdləri və Barabin düzlərinə rəsmi olaraq öz iddialarını irəli sürdü. Rusiya Cunqariya ilə münasibətləri sülh yolu ilə qaydaya salmaqla yanaşı Ob ətrafı düzlərin rəhbərlərinə qalaları möhkəmlətmək, eyni zamanda teleutlar və yerli türklərin əyanlarını öz tərəflərinə çəkmək vəzifəsini tapşırmışdı.

1715 - ci ildə Cunqariyaya tabe olan Yarkənd ərazisində qızıl tozu çıxarıldığı xəbərini alan I Pyotr buraya 2500 nəfərdən ibarət ekspedisiya göndərmişdi. Lakin 1716 - cı ildə cunqarların hücumlarına davam gətirə bilməyən dəstələr Omi çayının sahillərinə qədər geri çəkilmiş və burada Omsk qalasının əsasını qoymuşdular. 1717 - ci ildə ruslar yenidən bu ərazilərə girərək cunqarlar tərəfindən dağıdılmış Yamışev qalasını bərpa etdilər. 1718 - ci ildə isə Semipalatinsk qalasının əsasını qoydular.

Lakin 1722 – 1724 - cü illərdə Rusiya Cunqar münasibətləri yenidən yumşaldı. Bunun da səbəbi cunqarların Çinin basqınlarından qorxmaları idi. Qarşılıqlı səfirliklər Barabin düzü içində olmaqla Qərbi Sibirin bir çox

ərazilərinin Rusiyanın tərkib hissəsi kimi tanınmasına səbəb oldu.

Sibir xalqları arasında xakasların yeni dövr tarixinə daha dərindən fikir vermək yerinə düşərdi. 1368 - ci ildə Çində Yuan imperiyasının süqutundan sonra Orta Yenisey dərəsində olan qırğız tayfaları Çin dövlətinə qarşı mübarizə aparmaq üçün oyrat tayfaları ilə əlaqəyə və ittifaqa girdilər. 1393 - cü ildə "Durben Oyrat" adlı dövlət yaradıldı. Lakin qızğızlar bu dövlətin tərkibində çox qalmalı idilər. 1399 - cu ildə qırğız tayfalarının rəhbəri Uçeqi Qaşqa müstəqil Dadan dövlətinin əsasını qoydu. Çin və Mərkəzi Asiya mənbələrində bu dövlətin adı Xonqoray dovləti (1399 - 1727) olaraq keçməyə başladı. Xakas dilində bu dövlətin adı isə "Ülge Xoray", yaxud "Kür Xoray" gedirdi. Dövlətdə hakim rol qırğız tayfalarına məxsus idi. Qalan tayfalara isə "təbəə" mənasında "kıştım", yaxud monqol dilində "uryanxay" deyilirdi.

Xonqoray dövləti haqqında ilk yazılı məlumatlardan biri 1642 - ci ildə oyrat lideri Batura Huntayci qardaşı Çokur - tayşi tərəfindən Rusiya hökumətinə yazılan məktubda verilmişdi. Çokur tayşi rusların "qırğız" adlandırdıqları Xonqoray ərazisinə hücum etməmək tələbini irəli sürmüşdü. XVII – XVIII əsrin əvvəllərinin rus mənbələri bu əraziləri səhvən gah buryatların, gah da Cunqariya mənasını verən "Zenqoriya" adlandırırdılar. Artıq XVII əsrin ortalarına doğru bu ərazilərdə tədqiqat aparan rus müəllifləri Xonqoray dövlətini tənəzzül vəziyyətində olan, ayrı-ayrı tayfaların konqlomeratı kimi xarakterizə edirdilər. Lakin XVII əsrin əvvəllərindən başlayaraq Xon-

qoray dövləti ilə siyasi əlaqələr quran Rusiya elçilərinin raportlarında bu dövlət müstəqil siyasi güc kimi təsdiq edilmişdir. Yalnız XVII əsrin II yarısından başlayaraq Xonqoray dövlətinin siyasi tənəzzül dövrünə qədəm qoyduğu ehtimal edilir. Ənənəvi olaraq Altay xalqlarına öz təbəələri kimi baxan Çin mənbələrində də XVIII əsrin ortalarına qədər Xonqoray dövlətinə onun müstəqilliyini təsdiq edən formada "Xan Xonqoray" deyə müraciət edilirdi. XVII – XVIII əsrlərdə Xonqoray dövləti Orta Yenisey boyunu əhatə edir və dörd ulusa bölünürdü: 1. Altısar; 2. İsar; 3. Altır; 4. Tuba. Uluslar isə öz növbələrində aymaklara və seoklara bölünürdülər. Xonqoray dövlətinin mərkəzi Qara və Ağ İyus çaylarının kəsişməsində yerləşirdi. Xonqoray cəmiyyəti "ağ" və "qara" qırğızlara bölünürdü. Ağ qırğızlar hakim təbəqəni, qara qırğızlar (yaxud xaraçular - müəllif) isə vergi verən təbəqəni təşkil edirdilər. Hakim təbəqə içərisində ən mühüm yeri "çayzanlar" tuturdular ki, onların böyük sürüləri və tabe əhalisi var idi.

XVI –XVII əsrlər Sibir və Uzaq Şərqdə böyük siyasi hadisələrlə zəngin oldu. Bunlardan birincisi, Rusiya dövlətinin Qərbi Sibiri işğal etməsi idi. İkincisi isə Çinin şimalında, Cunqariya ərazilərində 1588 - ci ildə monqol dövləti olan Altun xanlar dövlətinin yaranması oldu. XVII əsrin I yarısında Altın xanlar öz ərazilərini şimala doğru genişləndirərək Xonqoray dövlətini özlərinin təbəələri sırasında daxil etmişdilər. Lakin elə bu vaxt da Xonqoray ərazisində ilk rus məskənləri də meydana gəlməyə başladı. 1642 - ci ildə Altısar ərazisində məskənlər

salan rus kazakları artıq Altun xanlar dövlətinin sərhəd- lərini də pozmuşdular. Lakin qırğız feodalları Altın xan- lardan öz müstəqilliklərini qoruya bilmişdilər. İlk dəfə Xakas torpaqları üstündə Altın xanlarla ruslar arasında konflikt 1657 - ci ildə baş verdi. Belə ki, Altın xan Locan tayşa Yenisey torpaqlarına xərac (qırğız - xakas dilində alban - müəllif) toplamağa gəldi. Müflis olmaq təhlükəsi qarşısında qalan qırğızlar ruslar yardım üçün müraciət etdilər ki, bundan da istifadə edən Rusiya Altın xanlar dövlətindən bu ərazilərdən vergi yığanlarını uzaqlaşdır- mağıtələb etdi. Lakin dövlətin hökmdarı Rusiyaya cava- bında qırğız-xakasların onların tabeliyində olduqlarını göstərirdi. Lakin əslində məsələ heç də belə deyildi. XVII əsr mənbələri qırğız knyazlarının monqol xanlarından asılı olmadıqlarını göstərirlər. XVII əsrin ortalarında Xon- qoray feodalları Altunxanlardan uzaqlaşaraq Cunqariya dövlətinə meyl etməyə başlamışdılar. 1667 - cı ildə onları cəzalandırmaq istəyən Locan tayşi qırğız - xakaslar üzəri- nə basqın etmişdi. Lakin qırğız - xakaslar yardım üçün Cunqarlara müraciət etmiş, Cunqar hökmdarı Senqe tay- şa Altın xanı Abakan dərəsində məğlub etmişdi. Lakin XIX əsrin son rübündən başlayaraq Cunqar dövləti bütün monqol və Şərqi Sibirin türk uluslarının birləşdirilməsi siyasətinə başladı. 1680 -ci ildə Cunqar hökmdarı Qal- dan Boşoxtu xan Şərqi Türküstanı ələ keçirdi. Lakin 1697 - ci ildə Tsin imperiyası ilə müharibədə məğlub olub inti- har etdi. Onun yerinə taxta oturan Tsevan Rabdan(1697 - 1727) qırğızları, teleutları, Tuva ərazisindəki minqatlar və orjakları tabe edərək, onların xeyli hissəsini özünün urqa

(iqamətgah) seçdiyi İli çayı hövzəsinə köçürdü. Lakin 1758 - ci ildə Tsin imperiyasının işğalçı siyasəti nəticəsində Cunqar dövlətinə son qoyuldu. Burada yerli idarəçilik saxlansa da əhalinin təşkil edilməsi sistemində, eyni zamanda idarəçilikdə xeyli dəyişikliklər aparıldı.

Yazılı mənbələrə görə Cunqar - qırğız münasibətləri hələ 1630 - cu illərdən başlanmışdı. Həmin illərə aid Rusiya mənbələrində xakas - qırğızlar "kontayşa adamları" deyə xarakterizə edilirdilər. Cunqarların hakim sülaləsi ilə Xonqoray knyazları və feodalları arasında geniş siyasi əlaqələr var idi. Xonqoray hakimlərinə 1642 - ci ildən başlayaraq bu ərazilərdə möhkəmlənməyə çalışan ruslara qarşı mübarizə aparmaq imkanı verirdi. 1667 - ci ildə Cunqariyada hakimiyyət dəyişikliyi Xonqorayın onlardan asılı hala düşməsinə səbəb oldu. 1669 - cu ildə Cunqar hökmdarı Xonqoraya canişin təyin edildi. Hər bir qırğız feodalı Cunqariyaya əsgər verməli, eyni zamanda kişi başına 5 samur dərisi alban (xərac) ödəməli idilər. Cunqariya Sibir türklərindən sarayda hərəmxana üçün qızlar da alıb aparırdı. Bunları ya vergi şəklində, ya da qaçırma yolu əldə edirdilər.

Rus kazaklarının Yenisey hövzəsində ilk görünmələri 1601 - ci ilə təsadüf edir. Burada onlar Manqazeya şəhərinin əsasını qoydular. Məhz bu zamandan da Xonqoray xakas-qırğızlarının Rusiya ilə münasibətlərinin əsası qoyuldu. Ruslar müxtəlif bəhanələrlə qırğızların yurdlarına basqınlar edirdilər. Qırğız - xakasların cavab zərbələri isə "rus torpaqlarına basqınlar" kimi qiymətləndirilirdi. Ümumiyyətlə, Rusiyanın Xonqoray ərazisini ta-

be etməsi prosesini 4 dövrə bölmək olar. Bunlardan birincisi, 1604 – 1667 - ci illəri əhatə edir ki, bu Xonqorayla - Rusiya arasındakı münasibətlərin başlanğıcı hesab edilir. Bu zaman Altun xanların hakimiyyətindən xilas olmağa çalışan Xonqoray knyazları Rusiya ilə bərabər səviyyəli diplomatik əlaqələr yaratmağa, eyni zamanda Rusiyanın gücündən Altın xanlara qarşı istifadə etməyə çalışırdılar. 1628 - ci ilə qədər xonqorayların ruslarla münasibətləri tam diplomatik və qarşılıqlı öhdəliklərin yerinə yetirilməsi məcrasında idi. Lakin Rusiya hakimiyyət dairələrinin daima müqavilələri pozmaları, Xonqoray ərazisində öz başına qalalar salmaları, tayfaları zor gücünə tabe etmək siyasəti tezliklə silahlı toqquşmaların artmasına rəvac verdi. 1639 – 1640 - cı illərdə Rusiya hökuməti Xonqoray knyazlarına qarşı ilk böyük əməliyyatı həyata keçirdi. Nəticədə indiki Krasnoyarsk yazınlığındakı qırğız-xakas ərazilərində nisbətən möhkəmlənmək mümkün oldu.

İkinci mərhələ 1667 – 1703 - cü illəri əhatə edir. Bu dövr "hərbi qarşıdurma" dövrü adlandırılır. Bu zaman siyasi arenada qırğızların böyük sərkərdəsi xakas knyazı Erinak İşeyevin adı çəkilməyə başlayır. Çox çətin bir siyasi vəziyyətdə hakimiyyətə gələn bu knyaztəxminən 1674 – 1685 - ci illərdə tez bir zamanda rusların Xakasiya-Minusink ərazilərində tikdikləri qalaların çox hissəsini məhv etdi. Bu da Rusiya hakim dairələrinin buralarda möhkəmlənməsinə xeyli maneçilik törətmiş oldu. 1685 – 1690 - cı illərdə Rusiya - qırğız münasibətlərində nisbi sakitlik yarandı. Lakin 1687 - ci ildə Telets gölü yaxınlığın-

da (dağlıq Altay) Cunqariya ilə monqollar arasında dörd gün davam edən qanlı döyüşdə Cunqariya tərəfindən vuruşan Erinak öz dəstəsi ilə birlikdə həlak oldu. Bu Xonqoray dövlətinin siyasi cəhətdən zəifləməsinə səbəb oldu.

XVII əsrin 90 - cı illərindən başlayaraq Rusiya bu ərazilərə təzyiqini gücləndirməyə başlayır. 1697 - ci ildə Kaştak çayı yaxınlığında yerləşən Alatau şəhəri yaxınlığında gümüş mədəni istifadəyə verildi. Lakin bu ərazini qırğızlar öz əraziləri sayırdılar. Buna görə də qırğız - cunqar hücumları ara vermirdi. 1692 - ci ildə Krasnoyarsk kazakları Tuba knyazı Şandıka qəti zərbə vurdular.

Rusiya – Xonqoray münasibətlərinin üçüncü dövrü 1703 - 1727- ci illəri əhatə edir. Bu dövr Xonqorayın rəsmi şəkildə Rusiya ağalığını qəbul etdiyi dövrdür. 1703 - cü ilə qədər ruslar Xonqoray ərazisində siyasi vəziyyəti hələ də qəti şəkildə öz xeyirlərinə dəyişə bilməmişdilər. Lakin 1703 - ci ildə Cunqar hökmdarlarının qırğızlara qarşı siyasəti Xonqoray dövlətinin siyasi gücünə böyük zərbə vurdu. Çinin silahlı təzyiqi ilə üzləşən Cunqar hökmdarları Xonqoray feodallarını orduları ilə birgə Cunqariya ərazilərinə köçürdülər. Bu da Cənubi Sibirdə qalan qırğız və türk xalqlarının siyasi gücünün kəskin zəifləməsinə, onların başsız qalmasına səbəb oldu. Qırğız folklorunda bu hadisə xalqın böyük faciəsi kimi qiymətləndirilir. Köçürülən qırğızların sonrakı tarixi taleyi çox faciəli oldu. Bunlardan bir hissəsi Cunqariyadan qaçaraq Tuvada yerləşərək buradakı yerli xalqa qarışdılar. Bəzi

qəbilələr isə İrkutsk buryatlarına qarışaraq çar nəslini meydana gətirdilər.

Xonqorayların zəifləməsindən ruslar lazımi şəkildə istifadə etdilər. 1707 - ci ildə qırğız torpaqlarının tam mərkəzində Abakan qalasının əsası qoyuldu. Çin və Monqol –Cunqar hakimiyyəti orqanları buna etiraz etdilər. Lakin 1727 - ci ilin 20 avqustunda Rusiya – Çin arasında Kyaxta müqaviləsinə görə Sayan dağlarından şimalda olan ərazilər Rusiyaya verildi. Nəticədə Xonqoray qırğızlarının ərazisi Rusiyanın hakimiyyətinə keçdi.

Xonqoray qırğızlarının Rusiya tərəfindən işğalının sonuncu mərhələsi 1727 - 1757 - ci illəri əhatə edir. Bu dövr Rusiyanın rəsmi cəhətdən tutulmuş ərazilərdə faktiki möhkəmlənməsi və bu ərazilərin iqtisadi cəhətdən mənimsənilməsi dövrüdür. 1727 - ci ildən başlayaraq Xonqor xalqının Çindən Rusiyaya geri qayıtması prosesi baş verir. Lakin bu proses çox ağrılı xarakter alır. Qayıtma prosesi 50 ildən çox çəkmiş və çoxları da əvvəlki ərazilərinə qayıda bilməmişdilər. 1756 - cı ildə cunqarlara tabe olan qırğızların bir hissəsi isə öz torpaqlarına qayıdarkən Tsin ordusu tərəfindən darmadağın edilmiş, daha sonra isə Mancuriyada, indiki Feylunszyan ərazisinin Fuyuy qəsəbəsində yerləşdirilmişdilər ki, bunlara indi Fuyuy qırğızları adı verilmişdir. Eyni zamanda qırğızların öz ərazilərinə qayıdan hissəsi isə Rusiya hakimiyyət orqanları tərəfindən kalmık ərazilərinə yerləşdirilmiş və sonradan kalmıkların etnik formalaşmasında mühüm rol oynamışdılar.

Xonqoray Rusiyanın tərkibinə keçdikdən sonra onun torpaqları Tomsk, Kuznetsk və Krasnoyarsk uyezdlərinin tərkibinə daxil oldu. Bu vaxtdan başlayaraq Krasnoyarskın inzibati, iqtisadi çəkisinin artması eyni zamanda buradakı Kaçin qırğızlarının, tatarların, Mərkəzi Asiyadan köçənlərin, eyni zamanda Cunqariyadan köçən oyrat qəbiləsi olan Törbetlərin (Derbet)qaynayıb qarışması prosesi sürətləndi. Ona görə də buradakı türk tayfalarını Qaçin ərazisindəki qırğız tayfasının adından "xaas", "xaaş" daha sonradan, yəni XIX əsrin ortalarından başlayaraq "xakas" adlandırmağa başladılar. Maraqlı bundan ibarətdir ki, Tuva ərazisində də bəzi xalqları, yaxud aymakları "xaaş", "xara xaaş" və ya "xasxa" adlandırırdılar. Rus tarixçisi Q. F. Millerin sözlərinə görə əslində rus dilində olan qaçinlər istilahı özü də Krasnoyarsk ərazisində ən böyük süyük olan "Xaşxa"nın adından götürülmüşdür. Maraqlı bundan ibarətdir ki, indki xakasların bir hissəsi özlərinə qırğız, bir hissəsi isə tadar deyirlər. Xakas sözü etimoloji cəhətdən isə bəzi alimlər tərəfindən türk dilində olan "qaşqa" sözünün bir forması hesab edilir, mənası "ağ" demək idi. Bundan çıxış edən bir çox tarixçilər bu adın sonradan Krasnoyarska köçmüş olan aristokrat qırğız, tatar nəsillərinin ümumi adı kimi işləndiyini ehtimal edirlər.

XVII əsrin əvvəllərindən etbarən Tuva tayfaları Altun xanların hakimiyyəti altında idilər. XVII əsrin lap əvvəllərindən etibarən ruslar da Tuva xalqlarıilə ünsiyyətə girmiş və 1604 - cü ildə burada Tomsk şəhərinin əsası qoyulmuşdu. Ruslar burada maad tayfaları ilə qonşu idi-

lər. Tayfalarla rusların münasibətləri də ilk vaxtlarda xeyli mehriban və dostcasına idi. XVII əsrin 10 - cu illərində ruslar burada Kuznetsk şəhərinin əsasını qoydular ki, bu ərazidə tuvaların başqa bir tayfası kujuket tayfasının köç yerləri idi. Bundan başqa Ob çayının yuxarı axarlarında oorjak tayfaları məskunlaşmışdı. XVII əsrin 30 - cu illərindən başlayaraq Tuva xalqları Altın xanlarla Cunqar xanları arasında siyasi çəkişmələrdə fəal iştirak edir, gah Altun xanlara, gah da Cunqar dövlətinə tabe olurdular. Bəzən də bu tayfalar hər iki dövlətə bac verməyə məcbur olurdular. Tuva tayfalarının ruslarla hərbi münaqişələri də məhz həmin dövlətlərin bayrağı altında başladı. Tuva xanları rusların bu ərazilərdə məskunlaşması prosesini onların müstəqilliyinə təcavüz kimi qiymətləndirirdilər. Mənbələrdə Tuva tayfaları içərisində teleslər, soyanlar, oorjaklar, kujuketlər, qırğızların bir qolu olan xırqıslar, tubalar, toçinlər, keretlər, munqatlar və başqa tayfalardan ibarət idilər.

Rusiya hakimiyyəti də Altun xanlarla cunqarlar arasında siyasi ziddiyətlərdən istifadə edərək Tuvada möhkəmlənməyə çalışırdı. Buna görə də 1608 - ci ildə Altun xanların yanına ilk elçilik göndərildi. Lakin Altun xanların döyüşdə olması səbəbindən elçilik baş tutmadı. İkinci elçilik 1618 - ci ildə baş tutdu. Ruslar Yenisey qırğızlarından yasak almaq hüququ alsalar da, həmin il baş tutan üçüncü elçilikdə Altun xanlar rusları yaxşı qarşılamamışdılar. 1620 - ci ildə Altun xanların cavab elçiliyi oyratlara qarşı Moskvadan kömək istəmişdi. Lakin Rusiya hökuməti yalnız onun təbəəliyi qəbul edildiyi halda yar-

dım edəcəyini bildirmişdi. Buna görə də Rusiya ilə əlaqələr müvəqqəti kəsilmişdi. Sonrakı elçilər mübadiləsi 1631 - ci ildə baş vermişdi. İki monqol dövləti arasında ziddiyyətlərdən istifadə edən Çin imperiyası da Tuva ərazisindəki tayfaları özünə tabe etməyə çalışırdı.

XVII əsrin 40 - cı illərində Tuva xalqlarından bəziləri artıq Moskva dövlətinə bac verirdi. Bunu 1652 - 1656 - cı illərdə Altun xanların Tuva üzərinə basqınları, eyni zamanda Moskva dövlətinin basqınlara olan etirazları sübut edir. Əslində Tuva tayfa rəhbərlərinin Rusiya hakimiyyətinə keçmələrinin səbəbi onların bu yolla özlərini monqol dövlətləri arasında olan müharibələrdən qorumaq istəmələri idi. Onların bir hissəsi Krasnoyarsk və İrkutsk uyezdlərinin tabeliyinə verilmişdilər. Tabeçilikdə olan Tuva tayfaları özləri aymaklara və süyüklərə bölünürdülər. Krasnoyarska tabe olan tayfalara Sayan inzibati ərazisinə tabe tutulmuşdular. Ancaq saya tayfalarından xeyli hissəsi XVII əsrin sonlarına qədər Cunqar hökmdarlarına bac verirdilər. XVII əsrin sonlarına doğru Krasnoyarsk uyezdində Tuva tayfalarını əhatə edən Tuba və Kaysot (Xaasot) inzibati əraziləri də yaradıldı.

1661 - ci ildən başlayaraq İrkutsk uyezdinə daxil olan Tuva tayfalarından da yasak alınmağa başlandı. Rus sənədlərində İrkutsk uyezdində yaşayan tuvalar "tuvalar", "uryanxaylar", "telengitlər", yaxud da "dolonqutlar" deyə qeyd edilirdilər. Lakin Tuva əhalisinin əksəriyyəti Cunqar dövləti və Çin imperiyasına tabe idilər.

1688 - ci ildə Şimali və Şimal Qərbi Monqolustanda yaşayan Tuva tayfalarının bir hissəsi Cunqar dövləti-

nə tabe oldular. Lakin 1696 - cı ildə Tsin dövləti Cunqar dövlətini məğlub etdi. Nəticədə tuva tayfaları bir neçə dövlətə tabe oldular. XVII əsrin əvvəllərində tuvaların bir çox hissəsi Mancur Çininə tabe idi. Altayların şimalında yaşayan az bir hissə tuvalar isə Rusiyaya tabe oldular. 1727 - ci ildə Kyaxta müqaviləsi ilə Çinlə sərhədlər müəyyənləşdikdən sonra isə Rusiya Altayların şimalına qəti şəkildə sahibləndi. Lakin Mancur Çinində məsələ bir az fərqli oldu. 1713 - cü ildə Cunqariyada hakimiyyətə gələn Tsevan Rabdan tuvaların da üzərində hakimiyyətini elan etdi və bir neçə tayfa da onların tərəfini saxladı. 1717 - 1721 - ci ildə Çin orduları bir neçə yürüş təşkil edərək Cunqarlara tabe olan bu tayfaları yenidən boyun əyməyə məcbur etdilər. Tayfaların bir hissəsi isə Çinin nisbətən daxili ərazilərinə köçürüldü. Buna baxmayaraq Çin imperatoru öldükdən sonra tabe edilmiş tuvalar arasında üsyanlar başlandı. İlk olaraq üsyan edən 1723 - cü ildə zaysan (**çinlilərdə canişinə verilən rütbələrdən biridir - müəllif**) Lubsan Şaran üsyan edib Qobi səhrasının şimalına çəkildi. Üsyan tezliklə yatırıldı. Lakin Çinə tabe edilən tuvaların vəziyyəti o qədər ağır idi ki, yeni Çin imperatoru buradakı tayfalara mal - qara və bəzi ərzaq malları ilə yardım etmək qərarına da gəlmişdi. İmperatorun bəzi tayfalara yardım etməsi buralardakı gərginliyi aradan götürmədi. Nəticədə 1725 - ci ildə tuva tayfaları yenidən üsyan qaldırdılar. Üsyana zaysan Xurulmay rəhbərlik edirdi. Çinin tuva tayfaları ərazisindəki canişini Bubey üsyanı çox amansızlıqla yatırdı.

1727 - ci ildə Rusiya ilə Çin arasında yeni bir Burin müqaviləsi imzalandıqdan sonra tez - tez Çin və Rusiya arasında köç edən tuvaların da siyasi vəziyyəti artıq müəyyənləşmiş oldu. Tuvaların Cunqariyanın tərkibində olan tayfalarının vəziyyəti nisbətən yaxşı idi. Belə ki, Cunqar hökmdarları tuvaların döyüş qabiliyyətinə böyük üstünlük verirdilər. XVIII əsrin əvvəllərində tuvalar Cunqariyanın tərkibində Uryanxay xanlığını təşkil edirdilər. Burada yaşayan tayfalara isə cunqar və monqollar Uryanxay uyğurları deyirdilər. Lakin Cunqariyanın apardığı daimi müharibələr tuva tayfalarının da vəziyyətinin pisləşməsinə səbəb olurdu. 1734 – 1739 - cu illərdə Çinlə aparılan danışıqlar nəticəsində Çinin təkidli tələbi ilə Cunqariya öz torpaqlarının yarısını Çinə güzəştə getməli oldu. Nəticədə Altay və Ubsu Nur əraziləri Çinin Xalxa Monqolustanı ilə Cunqariya arasında sərhəd ərazisi oldu. 1745 - ci ildə Cunqariyada baş verən ara müharibələrindən istifadə edən Çin 1756 - cı ildə Cunqar dövlətinin mövcudluğuna son qoydu. Nəticədə burada yaşayan tuva tayfalarının çoxuindi Rusiyaya daxil olan dağlıq Altaylara çəkildilər. Daha sonra isə Rusiya dövlətinə tabe oldular. Çuy çayı sahillərində yaşayan tuva tayfaları 1865 - ci ilə qədər həm Çin, həm də Rusiyaya xəzlə bac verirdilər.

Cunqar dövlətindən qalan başqa tayfalar isə Çinə tabe olmaq məcburiyyətində qaldılar. Onlar 1758 - ci ildə Xotoqoyt knyazı, vaxtilə Çinə xidmət etmış Şıdar vanın üsyanını dəstəkləsələr də Şıdar van tezliklə edam edildi.

Bundan sonra tuvalar 1912 - ci ilə qədər Çinə bac vermək məcburiyyətində qaldılar.

XVII-XVIII əsrlərdə müasir Tuvanın ərazisində yaşayan tayfaların dini, etnik və mədəni strukturunda da xeyli dəyişikliklər baş vermişdi. Tuvalar göstərilən tayfalara bölünürdülər: Telengitlər (teles), soyonlar, ondarlar, oorjaklar, minqatlar, tülüş, kırqıs, xomuşku, saya, çudu, maadı, salçak, xertek, uyqur, irqit, monquş, oyun, xujuqet və s. Lakin tuvaların uzun müddət Altun xanlar, Cunqar dövlətlərinin tərkibində qalması onların nisbətən monqollaşmasına da yol açmışdı. Bu tuvaların etnik simasında dəyişikliklərin meydana gəlməsinə səbəb olmuşdu. XVII - XVIII əsrlərdə tuva tayfalarının köç yerləri Monqolustan və Rusiya Altaylar, Qərbi və Şərqi Sayan dağları, Tannu Ulu dağı və s. arasında böyük bir ərazini əhatə edirdi. XVIII əsrdə burada Yenisey qırğızlarının bir hissəsi məskən salır. Bunlar da Cunqar hökmdarları tərəfindən bura köçürülmüş qırğızlar idi. XVIII əsrin 50 - ci illərində buralarda monqol-derbetlər, minqatlar da yerləşdilər. Derbetlər hətta otlaqlar üstündə yerli tayfalara basqınlar da edirdilər.

Tsin imperiyasının tərkibinə daxil olan tayfalar fərqli şəkildə idarə edilirdilər. Belə ki, bu tayfaları Çin hökuməti daxilində "Xarici əlaqələr palatası" idarə edirdi. Dövlətin bu tayfaları idarə edən ali rütbəli şəxsi **tszyan - tsyun** adlanırdı. Tayfalar isə hərbi və vergi vahidləri olan Tesiynqol, Xemqol (yaxud Salçak), Tocinur (Tocin), Xasut, Xemçik **xoşunlarına** bölünürdü. Bunlardan əlavə tuvaları birbaşa idarə edən xüsusi xoşunlar da

yaradılmışdı. Bu bolgü Çində 1907 - ci ilə qədər davam etmişdi. Həmin il Çində Altay dairəsi təşkil edildi ki, buna da Monqolustan Altayının tuva tayfaları daxil edildilər. Xoşunlara **Dszasak** adlı rəhbər təyin edilirdi. Onların vəzifəsi irsən keçir, eyni zamanda xidmət müqabilində təhkimli aratlar, gümüş pulla maaş, parça alırdılar. Əhalidən yığılan vergilərin də bir hissəsi onlara çatırdı. Ali vəzifəli türk və monqol əyanları van, beyle, beyse, qun rütbələrini alır, xırda vəzifəli əyanlar isə tayşi rütbəsi alırdılar. Xoşunlar öz növbəsində **sumonlara**, onlar da **arbanlara** bölünürdülər. Tuvaların rəsmi olaraq dinlərinə toxunulmurdu. Lakin tədricən onların yaşadıqları yerlərdə buddizim dininin yayılmasına çalışılırdı. Çin hakimiyyəti buddistləşmə siyasətini tədricən və çox incə metodlarla həyata keçirirdi. Bu da buddizmin tədricən tuvaların həyat şəraitinə nüfuz etməsinə gətirib çıxarırdı.

İndiki Rusiya və Monqolustan ərazisindəki tuvalar isə zaysanlara və düçinlərə bölünürdülər. Bunlar da yarımmüstəqil inzibati - hərbi vahidlər hesab edilirdilər. Ümumiyyətlə, Rusiyanın Tuvanı və Uryanxay ərazilərini tabe etməsi XX əsrin ilk onilliklərinə qədər yubanmışdı. Lakin rusların Tuva ərazilərini iqtisadi cəhətdən mənimsəmələri isə lap erkən dövrlərdən başlamış və başlıca olaraq yerli sakinlərlə ticarət formasında olmuşdur. Belə ki, ruslar yerli sakinlərə sənaye malları, metal əşyalar, zərgərlik məmulatları, xəz verir, əvəzində isə mal-qara, dəri məmulatları və Çin malları alırdılar. Lakin bu ticarət mancur hakim dairələrin və yerli əyanların narazılığına səbəb olurdu. Səbəbi də ticarətin başlıca olaraq onların

əlində cəmləşməsi idi. 1838 – 1839 - cu illərdə Tuvada rus qızılı istehsal edən müəssisələrinin əsası qoyuldu. Bu isə Tuva əhalisi ilə ticarətin artmasına səbəb olmuşdu. 1860 - cı ildə Rusiya ilə Çin arasında Pekin müqaviləsinin imzalanması Rusiya tacirlərinə Rusiya ilə Çinin sərhəd rayonlarında azad ticarət etmək hüququ verdi. Bundan başqa ruslar Çinin daxili rayonları və Monqolustanda da azad ticarət etmək hüququ aldılar. Artıq XIX əsrin 50 - ci illərində Çinin tabeliyində olan İdjim çayı hövzəsində rusların ilk ticarət məntəqəsi meydana gəldi. 1863 - cü ildə isə Tuvaya ilk rus ticarət karvanı gəldi. XIX əsrin 70 - 80- ci illərində isə Tuvada rus ticarət faktoriyaları meydana gəldi. XIX əsrin 60 - cı illərindən başlayaraq Rusiyadan Tuvaya xeyli əhali də köçməyə başladı. Onların çoxu fəhlə qismində qızıl mədənlərində işləməyə gedirdilər. İlk vaxtlar köçən ailələrə torpaq almaq və orada məskunlaşmaq qadağan edilirdi. XIX əsrin 70 - 80- ci illərində Tuvada ticarət faktoriyalarının meydana gəlməsi ilə rusların və tatarların da Tuvada məskunlaşması kütləvi hal almağa başladı.

Rusların Şərqi Sibirə daxil olmaları XVI əsrin sonlarından, buranın torpaqlarının sənaye ehtiyacları üçün istifadə edilməsi isə XVII əsrin birinci yarısından başlamışdır. Yenisey çayının sahillərində və Arktika torpaqlarından ilk dəfə sənaye ehtiyacları üçün istifadə etməyə çalışan Stroqanovlar ailəsi idi. Rusların burada ilk vaxtlar maraq göstərdikləri sahə xəz dərili heyvanların ovlanması idi. 1626 - cı ildə Tunquska ərazisində rus sənayeçilərinin ilk qəsəbələri meydana gəldi. 1637 - ci ildə Yenisey

çayının sahillərində Xantı slobodası adlanan xəz dəri ovçularının qəsəbəsi yarandı. Rusiya hökumətinin bu ərazilərə maraq göstərməsi və buranın xəz dəri ehtiyatlarından istifadə etməyə çalışması isə 1600 - cü ildən başlamışdır. Bu isə hökumətin maraqlarının xəz dəri hazırlanması ilə məşğul olan rus və yerli tacirlərlə mənafelərinin toqquşmasına səbəb olmuşdu. Buna görə də onların təhriki ilə yerli samodiy tayfaları dəfələrlə Rusiya hakimiyyət orqanlarının Şərqi Sibirin içərilərinə doğru irəliləməsinə mane olmağa çalışmışdılar. Buralarda yaşayan ostyaklar, nqanasanlar, tunqusların yasak vergisinə tabe tutulmağa başlaması isə 1630 - cu illərə qədər davam etmişdi. Yenisey çayının aşağı axarı, Podkamennıy, Aşağı Tunquska, Xatanqada yaşayan yerli tayfaların tabe edilməsi isə əsas etibarilə 1634 - cü ildə başa çatmışdı.

Yenisey çayının yuxarı ətraflarına rus əhalisinin köçürülməsinə isə XVII əsrin ortalarından başlanılmışdı. XVIII əsrin əvvəllərinə qədər isə bu ərazilər Şərqi Sibirin əsas sənətkarlıq və ticarət yerlərinə çevrilmişdilər. XVIII əsrin əvvəllərindən başlayaraq Yenisey çayının aşağı ətrafı torpaqlarının sənaye əhəmiyyəti artmağa başlamışdı. XVII əsrin 20 - ci illərindən başlayaraq Yenisey ətraflarına rusların köçürülməsi kütləvi hal almağa başladı. Lakin bu siyasət və eyni zamanda Rusiyanın bu əraziləri öz hakimiyyəti altına almağa çalışması yerli türk xalqları olan buryatların, Yenisey qırğızlarının, tunqus və oyrat xalqlarının müqaviməti ilə rastlaşırdı. 1618 və 1619 - cu illərdə tunqus knyazları əməlli-başlı rusların qala tikmə cəhdlərinə müqavimət göstərmişdilər. Lakin 1628 - ci ildə tun-

quslar ruslar tərəfindən məğlub edilmiş və öz tayfalarından müstəqil yasak toplamaq şərti ilə Rusiya hakimiyyətini qəbul etmişdilər.

XVII əsrin 60 - cı illərindən Anqara çayının sahil boyu ərazilərinə rusların kütləvi axını başladı. Artıq XVIII əsrin 20 - ci illərinə doğru bu ərazilərdə 50 - dən çox irili-xırdalı rus kəndi var idi. Yenisey uyezdində isə kəndlərin sayı 120 - yə çatırdı.

Yenisey Krasnoyarsk arası ərazilərdə yaşayan xırda türk tayfaları tubalar, arinlər, kamasinlər, motoralar və başqalarının Rusiya asılılığını qəbul etməsi isə XVIII əsrin əvvəllərinə qədər davam etmişdi. Bu da bir tərəfdən Cunqar dövlətinə arxalanan Yenisey qırğızlarının kəskin müqaviməti, ikinci tərəfdən isə buryatların kəskin mübarizəsi nəticəsində idi. Qırğızlarla mübarizənin birinci mərhələsi 1642 - ci ilə qədər davam etmiş, arinlər və kaçinlərin Rusiya asılılığına düşməsi ilə başa çatmışdı. 1667 - ci ildə qırğızlar Cunqar xanlığının köməyi ilə yenidən Rusiya əleyhinə hərbi əməliyyatlara başladılar. Onlara Yerenyak adlı əyan rəhbərlik edirdi. XVII əsrin 70 - ci illərindən tubalar da qırğızlara qoşuldular. 1692 - ci ildə tubalar ruslar tərəfindən məğlub edildilər. 1701 - ci ildə qırğızlar Abakan yaxınlığında ruslara məğlub oldular və sülh bağladılar. 1702 - ci ildə Cunqar dövləti qırğızların bir hissəsini İli çayının aşağı axarlarına köçürdü. 1702 - ci ildə xakaslar Rusiya asılılığını qəbul etdilər.

Yakutiya və Buryatiyanın sənaye cəhətdən mənimsənilməsi də XVII əsrin 20 - ci illərindən başlamışdı. 1631 - ci ildə rus kazakı ataman Qalkin yakut knyazları

ilə bir sıra döyüşlər aparmışdı. Öz qüvvələrini birləşdirən yakutlar 1634- cü ildə Qalkinə ağır zərbə vurmuşdular. 1636 - cı ildə yakutlar daha irəli gedərək ruslara qarşı yenidən hərbi əməliyyatlara başladılar. Buna baxmayaraq artıq 1634 - cü ildə yakutların xeyli hissəsi ruslara yasak verməyə başladı. 1642 - ci ildə yakutların ikinci dəfə ruslara qarşı üsyanı baş vermişdi. Yakutiyanın əsas etibarilə Rusiyaya tabe edilməsi XVII əsrin 50 - ci illərində demək olar ki, yekunlaşmışdı. Rusların Yakutiyanı tabe etməsi ilə eyni zamanda buralara rus tacirləri və sənayeçiləri də yol tapmağa başlamışdılar. Bunlardan ən seçiləni Sibirin sərvətlərini sənaye istehsalı obyekti etmək istəyən məşhur tədqiqatçı Yerofey Xabarov idi. 1633 - cü ildə rus sənayeçiləri Rebrov və Perfilyev ilk dəfə Şimal Buzlu okeanına çıxdılar. Staduxin və Motora adlı sənayeçilər isə quru yolu ilə gedib Anadır çayı sahillərinə qədər çıxdılar. Lakin sərt iqlim və yerli yakutların müqaviməti tezliklə rusları bu ərazilərdən çıxmağa məcbur etdi. Rusların buralarda yalnız sırf sənaye ilə məşğul olan hissəsi qaldı. Onlar da XVII əsrin sonlarında daha çox Anadır və Lena çayının sahillərində daimi məskən salmışdılar. XVII əsrin sonlarında Kamçatkanın yerli tayfalarını Yakut kazakları və sənayeçiləri itaətə gətirdilər. XVIII əsrin 30 - ci illərində isə Kuril və Şantar adaları Rusiyaya birləşdilər.

Rusların Buryatiyaya soxulması XVII əsrin 20 - ci illərindən başladı. 1625 – 1627 - ci illərdə atamanlar V. Tumens və U. Perfilyev ilk olaraq Anqara vasitəsilə Buryatiya diyarına daxil oldular. 1628- ci ildə isə kazak atamanı A. Beketov ilk dəfə olaraq Qərbi Buryatiyanın bəzi

tayfalarını yasak verməyə məcbur etmişdi. Lakin bundan sonra rusların yerli xalqlara qarşı sərt davranmaları, 1634 - cü ildə isə Rusiyanın zorla buryat əyanlarını yasak ödəməyə məcbur etməsi, buryat xalqının və feodallarının Rusiyaya qarşı mübarizəsinə səbəb oldu. Həmin ildə də onlar ruslara qarşı silahlı müqavimətə başladılar. 1638 - ci ildə isə buryat feodalları yenidən üsyan qaldırdılar. XVII əsrin 50 - ci illərində artıq Buryatiyanın qərb rayonları ruslar tərəfindən mənimsənilmiş sayılırdı.

XVII əsrin 40 - cı illərində ruslar Baykal ətrafında yaşayan buryatlarla əlaqələrə girdilər və 1641 - ci ildə burda Yuxarı Lena qalası(Verxolensk) salındı. 1643- cü ildə Rusiya hakimiyyəti buryatlardan xeyli miqdarda yasak ala bilmişdi. Lakin kazakların özbaşınalığı 1644 – 1647 - ci illərdə buryatların ruslara qarşı mübarizəyə qalxmasına səbəb olmuş, silahlı müqavimətin qarşısı çətinliklə alınmışdı. Buryatların Rusiya asılılığını nisbətən müqavimətsiz qəbul etmələrinin başlıca səbəbi qərbi monqollar və onlardan sonra isə Cunqariyanın onların ərazilərinə hərbi təzyiqi gücləndirmələri idi.

Rusların Buryatiyanın ərazilərinə doğru irəliləməsi rusların kütləvi köçü ilə üst üstə düşürdü. 1647 - ci ildə artıq rus kazakları yollarına davam edərək Oxot dənizi sahillərinə qədər gedib çıxmışdılar. XVII əsrin 50 - ci illərindən başlayaraq isə Amur çayı ətraflarının ruslar tərəfindən məskunlaşdırılmasına başlanıldı. 1658 - ci ildə Amur ətrafı ərazilərin idarə edilməsi üçün Nerçinsk qəsəbəsi salındı. Amur ətrafı və Baykal ətrafı ərazilərin Rusiyaya birləşdirilməsi isə XVII əsrin 50 - ci illərinin so-

nunda başa çatmışdı. Lakin Rusiyanın bu ərazilərdə möhkəmlənməsinə qarşı Tsin imperiyası çıxmağa başladı. Ancaq yerli türk feodallarını öz tərəflərinə çəkə bilən ruslar Çinin buraları işğal etmək cəhdlərinə son qoydular. 1689 - cu il Nerçinsk müqaviləsi ilə Amur çayı Rusiya ilə Çin arasında sərhəd kimi tanındı. Lakin Amur çayının sağ sahilindəki torpaqlardan ruslar çıxmalı oldular.

Sibirin ruslar tərəfindən mənimsənilməsi ilə eyni vaxtda buranın oturaq əhalisinin taxılla təchiz edilməsi problemləri ortaya çıxdı. Buna görə də Rusiya hakimiyyəti bu ərazilərdə taxıl becərilməsini qaydaya qoymağa çalışırdı. Lakin rus kəndlilərinin bu torpaqlara köçürülməsi çox vaxt məcburi xarakter daşıyırdı. Rusiya hakimiyyəti yerli əhalinin xəz dəri əldə etmək üçün əvvəlki məşğuliyyətlərinin saxlanmasında maraqlı olduğu üçün Sibir torpaqlarının əkilməsi məqsədilə külli miqdarda rus kəndlisini məcburi olaraq Sibir ərazilərinə köçürürdü. Bundan başqa Rusiya sürgünə göndərilənləri də taxıl istehsalını qaydaya salmaq üçün zorla tarlalarda işləməyə məcbur edirdi. Lakin bunların çoxu ya ağır işə dözməyərək ölür, ya da qaçırdılar. Taxılçılığı inkişaf etdirmək üçün əhali cəlbetmənin ən effektli vasitəsi kəndliləri buralara könüllü yönəltmək idi. Lakin Sibirə gələnlərin çoxu öz ağalarından qaçan keçmiş təhkimli kəndlilər olurdular. Rusiya hakimiyyət orqanları mülkədarların maraqları naminə bu kəndlilərin tutulub qaytarılması üçün bəzi tədbirlər görsə də bir çox hallarda Sibirə gələn kəndlilərin qaçmasına dırnaqarası baxırdı. Gələnlərin öz təsərrüfatlarını qurmaları üçün dövlət onlara ya güzəştli borc-

lar, ya da ki, yardım edirdi. Bundan başqa yeni əkinçilər bu və ya başqa müddətə feodal mükəlləfiyyətlərindən azad edilirdilər.

XVII əsrin ortalarından başlayaraq Sibirdə əhali arasında xristianlığını yayılmasına başlanıldı. Yakutiyada və Buryatiyada ilk monastırlar meydana gəldi. Lakin Qazan, Həştərxan, Başqırdıstan ərazilərindən fərqli olaraq bu monastırlar daha çox ərazi az yaşayan yerlərdə salınırdılar. Buna görə də işləmək, torpaqları becərmək üçün buralara güzəştli şərtlərlə rus kəndlilərinin köçürülməsinə çalışırdılar. XVII əsrin 40 - cı illərində artıq Sibirdə 35 - dən çox monastır fəaliyyət göstərirdi. XVIII əsrin əvvəllərində isə Sibir monastırlarının əlində 1000 - dən çox kəndli təsərrüfatı cəmləşmişdi.

Rusiya hakimiyyət orqanları eyni zamanda Sibirin idarə edilməsi üçün də tədbirlər görməyə başladılar. 1599 - cu ildən 1637 - ci ilə qədər Sibirin idarəsi Qazan prikazının idarəsinə verilmişdi. Lakin 19 fevral 1637- ci ildə Sibirin idarəsi Sibir prikazına tapşırıldı. Məhdud səlahiyyətlərə malik olan başqa prikazlardan fərqli olaraq Sibir prikazının səlahiyyətləri çox geniş idi. O həm maliyyə, həm siyasi, həm hərbi, həm də məhkəmə - polis səlahiyyətlərinə malik idi. Prikazın ozü isə məhkəmə və şöbələrə bölünürdü. Məhkəməyə hakim, şöbələrə isə dyaklar rəhbərlik edirdilər. 1699 - cu ildə prikazın nəzdində ticarət və xəzinə palataları fəaliyyət göstərməyə başladı.

Sibirin ərazisi böyük olduğu üçün Sibiri diyarlara böldülər. Bu bir mənada XVIII əsrdə tətbiq edilən quberniya sisteminə oxşayırdı. Diyarlar da öz növbəsində

uyezdlərə bölünürdülər. XVII əsrin əvvəllərində bütün bu uyezdlər Tobolsk razryadına tabe edilmişdilər. Yəni bu ərazilərin inzibati mərkəzi Tobolskda yerləşirdi. 1629 - cu ildə Tomsk razryadı yaradıldı və Yakutiya uyezdləri ona tabe edildilər. Lakin sonrakı dövrdə bütün bu uyezdlər birləşərək Krasnoyarsk uyezdi adlandırıldılar. 1677 - ci ildə Yeniseysk razryadı yaradıldı. Lakin bu razryadlar içərisində Tobolsk razryadının voyevodalarının siyasi və ictimai nüfuzu çox böyük olub, çar hakimiyyətinin buralardakı canişini rolunu ifa edirdilər. 1695 - ci il çar fərmanı ilə Sibirə voyevodaları 4 - 6 il müddətinə təyin etməyə başladılar. Sibirdə şəhərlərin idarəsi isə uyezd voyevodasının səlahiyyətində idi. Şəhər ətrafı posad əhalisini isə yerli ağsaqqallar idarə edirdilər.

Lakin voyevoda sistemi, ərazinin uyezdlərə bölünməsi Sibirin idarəçiliyində xeyli qarma-qarışıqlıq yaradırdı. Buna görə də 1719 - cu ildə Sibirdə quberniya sisteminə keçildi. Mart 1727 - ci ildə və sentyabr 1728 - ci ildə Sibirin idarə edilməsinin qanuni əsasları müəyyənləşdirildi.

Sibirin əsas inzibati vahidi quberniya idi. Qubernatoru ilk vaxtlar, yəni 1741 - ci ilə qədər Ali Gizli şura, 1741 - ci ildən sonra isə Senat təyin edirdi. Qubernator Sibirdə başqa qubernatorlardan fərqli olaraq hakimiyyətin bütün qollarını təmsil edirdi. Bundan başqa qubernator özünə vitse-qubernator da təyin edə bilərdi. 1727 - ci ildə qubernator şəhərlərin və uyezdlərin voyevodalarını, 1740 - cı ildən sonra isə əyalət rəhbərlərini vəzifəyə təyin, həmçinin, azad edə bilərdi. 1736 - cı ildə çar fərmanına

görə adambaşına verginin toplanması da qubernatora həvalə edildi, bundan başqa vergi uyezdlərə görə alınmalı idi. Qubernatorların işinə Kamer kollegiya vasitəsilə Senat nəzarət edirdi. Qubernatorun yanında icra hakimiyyətini isə quberniyanın dəftərxanası təmsil edirdi.

Sibir quberniyası öz növbəsində əyalətlərə, onlar da uyezdlərə və şəhərlərə bölünürdülər. Əyalətlərin işinə isə voyevoda rəhbərlik edirdi. Voyevoda eyni zamanda şəhər voyevodalarının da işinə nəzarət edirdi. Lakin nəzarət birbaşa deyildi, şəhər voyevodası haqqında ilk olaraq qubernatora məlumat verilməli idi. Cinayət məhkəmələri birbaşa əyalət voyevodasının əlində idi. Lakin mülki məhkəmələr, bunlarda bağlı ticarət və sənətkar məhkəmələri ratuşalara, 1743 - cü ildən sonra isə şəhər magistratlarına tabe idi. Lakin voyevoda işin gedişini düzgün hesab etməsə idi, məhkəmənin işinə özü rəhbərlik edə bilərdi. Kəndlilər arasında olan xırda işləri ya icma rəhbəri, ya ağsaqqal, ya da ki, kəndlinin aid olduğu monastırın rəhbərliyi yoluna qoyurdu. Lakin mühüm mülki işlərə voyevoda nəzarət edirdi. Siyasi və kütləvi xarakterli cinayətlərə Cinayət axtarışı dəftərxanası baxırdı.

XVIII əsrin 30 - cu illərindən Sibirdə polis işləri də yaradıldı. O birbaşa qubernatora tabe idi. Belə ki, Tobolskda polis idarəsi 1733 - cü ildə, İrkutskda isə 1757 - ci ildə yaradılmışdı.

Əyalətlərin və uyezdlərin də quberniya kimi dəftərxanası var idi. Onlar da öz səlahiyyətləri daxilində müxtəlif işlərə baxırdılar. Qubernator, dəftərxana rəhbə-

ri, vitse qubernator, voyevoda və onun köməkçilərindən başqa məmurlara maaş verilmirdi. Onlar əhalidən alınan yardım hesabına dolanmalı idilər. Yalnız 1763 - cü ildə dəftərxana işçilərinə də maaş verildi.

Şəhərlərin idarəsində də dəyişiklilər olurdu. 1727 - ci ildə şəhər magistratlarına rəhbərlik edən baş magistrat rütbəsi ləğv edildi. Bütün magistratlar voyevodaya tabe edildilər. 1728 - ci ildə isə magistratların yerinə ratuşalar yaradıldı ki, onlara da hər il yenidən seçilən burmistr rəhbərlik edirdi. Lakin 21 may 1743 - cü ildə şəhər magistratları yenidən bərpa edilsə də bu şəhərlərin idarəsində real vəziyyəti o qədər də dəyişmədi.

1764 - cü ildə Sibir quberniyasının ərazisinin böyük olması səbəbilə II Yekaterina ikinci böyük quberniya-İrkutsk quberniyasını yaratdı. 1775 - ci ildə verilən yeni qanuna görə bütün quberniyalar eyni formalı idarəetmə sisteminə keçdilər. 1782 – 1783 - cü illərdə Sibirdəki quberniyalar ləğv edilərək üç canişinliyə- İrkutsk, Kolıvan və Tobolsk canişinliklərinə bölündülər. Lakin 1796-cı ildə Sibir yenidən iki quberniya-Sibir və İrkutsk quberniyalarında birləşdirildi. Quberniyalar diyarlara, onlar uyezdlərə, onlar da öz novbəsində komalara bölünürdülər. 1804 - cü ildə Tomsk quberniyası yaradıldı.

Sibirdə sənayenin inkişafını XVII əsrin sonlarından götürmək daha doğru olardı. İlk açılan müəssisələr daha çox xəzinənin hesabına açılır, dövlətin tələbatını ödəməyə yönəlirdi. Lakin XVIII əsrin ortalarından başlayaraq Rusiyada əmtəə istehsal edən sənaye müəssisələri də inkişaf etməyə başladı. Sənayenin inkişafına əngəl tö-

rədən bir xüsusiyyət sənayedə təhkimli əməyinin geniş istifadə edilməsi idi. XVIII əsrdə Altayda 8 böyük mədən tikilmişdi, lakin XIX əsrin birinci yarısında yalnız 2 zavod tikilib istifadəyə verilmişdi. Bundan başqa XVIII əsrin ortalarında Sibirin bir çox yerlərində gümüş və qızıl mədənləri də fəaliyyət göstərirdi. Bunların içərisində ilk olaraq Zmeinoqor mədəni daha məşhur idi. Lakin sərvətlərin tükənməsi sayəsində onun əhəmiyyəti xeyli azalmış, XIX əsrin I yarısında Ziryan gümüş və qızıl mədənlərinin imkanları daha çox artmışdı. Lakin bütün bu mədənlərdə hələ də təhkimli əməyi istismar edilirdi.

XIX əsrin əvvəllərindən başlayaraq Sibirdə mədən sənayesinin istehsal profilində də dəyişikliklər olurdu. Bunlarda 1802 - ci ildə Kolıvan gümüş zavodu bağlanaraq, onun yerində dağ daşları istehsal edən zavod açılmışdı. XVIII əsrin ortalarından etibarən Altayda xeyli gümüş və qızıl zavodları açılaraq istifadəyə verilmişdi. Lakin XIX əsrin I yarısında bəzi zavodlar verimliliyinin az olması ucbatından bağlanmışdılar. Bundan başqa Altayda qurğuşun və mis zavodları da fəaliyyət göstərirdi. 1816 - cı ildə Salairdə böyük bir gümüşəridən zavod tikildi. Lakin 1826 - cı ildən etibarən Salairdə fəaliyyət göstərən bu zavodu poladtökmə zavoduna çevirdilər. 1846 - cı ildən həmin zavod artıq əmək alətləri, maşın detalları da buraxmağa başladı. Eyni şeyi Nerçinskdə yerləşən Petrovsk zavodu barəsində də demək lazımdır. XVIII əsrin sonlarında gümüş istehsalı üçün yaradılmış zavod artıq 1814 - cü ildən dəmir və polad əridilməsi üzrə ixtisaslaşmışdı. Ümumiyyətlə, XIX əsrin əvvəllərində Altayda və

Sibirin başqa yerlərində gümüş istehsal edən zavodların çoxu artıq istehsalı zəiflədir, çoxu isə ziyana işlədikləri üçün bağlanırdılar. Yalnız XIX əsrin 20 - ci illərində Baykal ətrafı torpaqlarda qızıl mədənlərinin kəşf edilməsi ziyanı tarazlaşdırmağa imkan vermişdi.

XIX əsrin əvvəllərində zavodların texniki təchizatında da yeniliklər baş verirdi. Lakin bu təhkimli əməyinin ucuz başa gəlməsi istehsalçıları bu işdə maraqlarının qarşısının alınmasına səbəb olduğuna görə bu yeniliklər çox ləng tətbiq edilirdi. Bəzi zavodlarda buxar mühərrikləri də tətbiq edilməyə başlamışdı. Bundan başqa Sibirdə qalay istehsalı da müvəqqəti də olsa yüksəliş dövrünü keçirirdi. Bu da kəşf edilən yataqlarda qalayın miqdarının az olması ilə bağlı idi.

Sibirdə əsl yüksəliş dövrü, çuqun, dəmir və polad istehsalı dönəmi yaşanırdı. Əgər XIX əsrin əvvəllərinə doğru bu istehsal növünün yarısı kustar istehsalın payına düşürdüsə, XIX əsrin 50 - ci illərində artıq bu cəmi 20% - ə düşmüşdü. İstehsalın artmasının səbəbi həm ordunun, həm də Sibirdə inkişaf edən çay gəmiçiliyinin inkişafı ilə bağlı idi. Bəzi metallurgiya zavodlarında, hətta maşınqayırma avadanlıqları da istehsal edilirdi. 1847 - ci ildə Sibirin duz mədənləri, gəmi tərsanələri və başqa zavodları üçün metal məmulatların istehsalçısı buranın ən böyük müəssisəsi olan Anqara çayı yaxınlığında yerləşən Nikolayevsk metallurgiya zavodu idi. Zavodun tikilişi 1854 - cü ildə başa çatmışdı.

XVIII əsrin ortalarından Sibirdə böyük kömür yataqlarının da olduğu kəşf edilmişdi. Lakin Donbasda

xeyli kömür çıxarıldığına və bu istehsal Rusiyanın bütün tələbatını ödədiyinə görə Kuzbass və Kuznetsk ərazilərinin kömürünə o qədər də ehtiyac hiss edilmirdi. İlk olaraq külli miqdarda daş kömür çıxarılmasına 1829 - cu ildə başlanıldı. Bu da Sibirdə olan müəssisələrin daş kömür tələbatına keçməsi ilə bağlı idi. 1851 - ci ildə o dövrdə Sibirin ən böyük daş kömür zavodu olan Baçatsk mədəni istifadəyə verildi. XIX əsrin 50 - ci illərində İrkutsk duz zavodlarında daş kömürün istifadəsinə keçildi.

XIX əsrin 40 - cı illərində Yuxarı Sayan dağlarında qrafit mədənləri aşkar edildi. 1842 - ci ildən başlayaraq həmin mədənlərdə qrafit istehsalına başlanıldı. 1847 - ci ildə bu qrafit mədəni fransız tacirlərinə icarəyə verildi. Ümumiyyətlə, XIX əsrin 60 - cı illərinin əvvəllərinə doğru qrafit istehsalı iki dəfədən çox artmışdı. Bu müəssisələrdən Botoqol qrafit mədənlərinin məhsulu birbaşa Almaniyaya ixrac edilirdi.

XVIII əsrin sonlarından başlayaraq Sibirdə şərab istehsal edən zavodlar da fəaliyyət göstərməyə başladı. Bunların sayı bütün Sibir üzrə XIX əsrin birinci rübünə doğru cəmi 10 dənə idi. Şərab istehsalı əsas olaraq dövlətin inhisarında idi. Buna görə də Sibirdə gizli şəkildə şərab istehsal edən xeyli xırda emalatxanalar da var idi. Ancaq XIX əsrin ikinci rübündən başlayaraq şərab istehsalının şəxslərə verilməsi qanuniləşdi və dövlətin zavodları isə şəxslərə icarəyə verilməyə başlandı.

XIX əsrin əvvəllərində Sibirdə ticarətin və sənayenin inkişafı, Rusiyanın Napoleon müharibələrində iştirakı həm cəmiyyətin tərəqqipərvər dairələrində, həm də

dövlətdə müəyyən islahatların keçirilməsini zəruri etdi. 1819 - cu ildə Sibirdə böyük təftiş keçirildi. Onun nəticəsində məmurların və iri rütbəli əyanların dəhşətli dərəcədə vəzifələrindən sui-istifadə etmələri məlum oldu. Ən dəhşətli sui-istifadə aşağı Udin volostunun ispravniki Loskutovun fəaliyyətində aşkar edildi. Kəndlilərin də ondan həddindən artıq narazı olduğu bildirildi. Təftişin nəticəsində içində iki qubernator olmaqla, 648 nəfərə müxtəlif cəzalar verildi.

Belə şəraitdə Speranski Sibirin idarəsində xeyli islahatlar keçirmək qərarına gəldi. Bundan ötrü gizli şəkildə Sibirin idarəsini yeniləşdirmək üçün böyük bir komissiya yaradıldı. Nəhayət, 1822 - ci ildə bir sıra geniş qanunvericilik aktları dərc edildi. Bunların hamısının məqsədi Sibirin idarəsini həyatın tələblərinə uyğunlaşdırmaq idi. Bu islahata uyğun olaraq Sibir Qərbi Sibir, Şərqi Sibir və Yenisey quberniyalarına bölündü. Qubernatorların özbaşınalıqlarını məhdudlaşdırmaq üçün dövlət tərəfindən təyin edilən məmurlardan ibarət şura onların fəaliyyətinə nəzarət etməli idi. Bundan başqa qubernatorların hərbi hakimiyyəti əllərindən alınır, onlar yalnız mülki hakimiyyəti özlərində təcəssüm etdirirdilər. Qubernatorlardan fərqli olaraq diyar rəisləri hərbi hakimiyyətə də malik idilər. XIX əvvəllərində Sibirin işlərinə baxmaq üçün Peterburqda Sibir komitəsi yaradıldı. Lakin 1838 - ci ildə Sibir komitəsi ləğv edildi və onun işləri Dövlət Şurasına həvalə edildi. Ancaq sistem özünü doğrultmadığı üçün 1852 - ci ildə komitə yenidən bərpa edildi.

Sibirin general qubernatoru təyin edildikdən sonra isə Speranski 1819 - cu ildə Sibirdə əhalinin bütün təbəqələri üçün ticarəti azad elan edən fərman verdi. 1820 - ci ildə duzun iltizama verilməsi qadağan edildi. Həmin ilin sonunda isə şərab istehsalı və ticarətinin iltizama verilməsi ləğv edildi.

Speranski tərəfindən Sibirdə cəza çəkən sürgündə olanlar və məhbusların da vəziyyəti bir qədər yaxşılaşdırıldı. Bundan başqa kəndlilərin mükəlləfiyyətlərini qaydaya salmaq üçün bəzi tədbirlər görüldü. Ən mühüm əhəmiyyətə malik olan islahat "Sibirin başqa xalqdan olanları haqda nizamnamə" idi. Bu nizamnamə yerli xalqların hüquqlarını ruslarla bərabərləşdirir, eyni zamanda təsərrüfatı geridə qalmış xalqların oturaq həyata keçirilməsini nəzərdə tuturdu. Onu da qeyd etmək lazımdır ki, köçərilər geridə qalmış xalqlara aid edilmirdilər. Nizamnamədə insanların din azadlığı da nəzərdə tutulurdu. Bəzi xalqların daxili işlərini idarə etmək üçün onlara muxtariyyətə yaxın hüquqlar verilirdi. Nizamnamə 1822 - ci ildə qüvvəyə mindi.

Bütün bu tədbirlər Sibir xalqlarının dövlət tərəfindən idarəsini optimallaşdırsa da, Sibirin idarə edilməsini radikal şəkildə yaxşılaşdıra bilmədi. Bunu isə köklü islahatlar keçirməklə həyata keçirmək olardı.

XVIII əsrin 80 - ci illərinə qədər Sibirdə yalnız dini, hərbi və yerli sənayenin ehtiyaclarına görə yaradılan texniki peşə məktəbləri fəaliyyət göstərirdi. Sonrakı dövrdən silki məktəblər də açılmağa başladı. Kilsənin üç böyük seminariyası vardı. Bunlara Tobolsk, İrkutsk və 1858

- ci ildə fəaliyyətə başlayan Tomsk seminariyaları daxil idi. Seminariyalarda əsasən kilsə xadimlərinin övladları oxuyurdu. Təhsil adətən 10 - 15 il arası davam edirdi.

Bəzi xüsusi peşə məktəblərində dağ-mədən sənayesi üçün kadrlar hazırlanırdı. XIX əsrin 60 - cı illərində Altay zavodlarında və Nerçinsk mədən dairəsində 16 texniki peşə məktəbi fəaliyyət göstərirdi. XVIII əsrin sonlarında Sibirdə fəhlələrin övladları üçün də texniki məktəblər fəaliyyət başladı.

XVIII əsrin sonlarına doğru Sibirdə hərbi məktəblərdə xeyli islahatlar həyata keçirilmişdi. Nəticədə köhnə məktəblərin əvəzinə hərbi-yetim məktəbləri yaradılmışdı ki, bunlarda da əsgərlərin uşaqları təhsil alırdılar. Yeddi yaşına qədər onlar qohumlarının yanında qalır, daha sonra isəfeodal mülkü kimi məktəbin sərəncamına keçirdi. 1820 - ci ilə doğru belə məktəblərdə 7 mindən çox uşaq təhsil alırdı. Bu məktəblərdə hesab, yazıb- oxumaq, həndəsə, fleytada ifa etmək, baraban ifa etmək və hərbi işin əsaslarını öyrədirdilər. Kazak qəsəbələrində isə xüsusi kənd hərbi məktəbləri fəaliyyət göstərirdi. 1813 - cü ildə Omskda kazak ali hərbi məktəbi açılmış, 1846 - cı ildə Sibir ali kadet məktəbinə çevrilmişdi.

Sibirdə təhsil verən kadrların əksəriyyəti buraya Rusiyanın mərkəzi quberniyalarında sürgün edilən inqilabçılar idi. Onlar tezliklə buranın əhalisinin təhsil səviyyəsinin yüksəldilməsi üçün mübarizəyə başladılar. Onların tələblərinə yerli əhalidən toplanan ianələr hesabına ibtidai məktəblərin açılması, sürgün edilənlərə dərs demək ixtiyarının verilməsi, yerli xalqların dillərində dərs

imkanlarının genişləndirilməsi, orta məktəblərin fəaliyyətinin artırılması, İrkutskda işləmək üçün məmur hazırlayan gimnaziyanın açılması, eyni zamanda Sibirdə yerli univeristetin açılması maddələri daxil idi. Bu ideya da tədricən həyata keçirilməyə başlanmışdı.

1786 - cı ildə təhsil sahəsində bəzi yeniliklər edən çar hakimiyyəti Sibirdə 3 baş və 10 kiçik ümumtəhsil məktəbi açdı. Lakin bunlardan 3- ü XVIII əsrin 90 - cı illərində bağlanmışdı. XIX əsrin əvvəllərində çar I Aleksandrın nisbətən liberal mövqe tutması Sibirdə yeni təhsil dəyişikliyinə səbəb oldu. Belə ki, 1803 - cü ildə Rusiyada univeristetlər mərkəz olmaqla altı təhsil dairəsi yaradıldı. Sibir Qazan təhsil dairəsinə daxil edildi. Bundan başqa Tobolsk və İrkutskda fəaliyyət göstərən iki baş ümumtəhsil məktəbi quberniya gimnaziyasına çevrildilər. Bir gimnaziyanın da Tomskda açılması nəzərdə tutulsa da, yalnız 1838 - ci ildə fəaliyyətə başladı. 1812 – 1814 - cü illərdə Rusiyanın apardığı müharibələr təhsil sahəsinə ağır təsir etsə də, müharibələrdən sonra Speranskinin islahatları, eyni zamanda Rusiyada ictimai fikrin inkişafı təhsilə də öz mütərəqqi təsirini göstərmiş oldu. 1817 – 1826 - cı illərdə Sibirdə 13 yeni qəza məktəbi açılmışdı. Təhsil alanların sosial mənşəyi də maraq doğuran mövzulardandır. XVIII - XIX əsrlərdə Sibirdə təhsil silki xarakterdə deyildi. Lakin təhsil alanların tam 65% - ni şəhər xırda və orta burjuaziyası içərisindən çıxanlar təşkil edirdi. Lakin XIX əsrin II rübündə təhsilin mənzərəsi köklü şəkildə dəyişdi. Belə ki, Sibirdə təhsil alanların 85% - ni varlı və im-

tiyazlı təbəqlərin övladları təşkil edirdi. Sibirdə universitet isə yalnız 1888 - ci ildə işə başladı.

Bütün yuxarıda göstərilənlərə baxmayaraq, Sibir əhalisinin əksəriyyəti savadsız olaraq qalırdı. Bir çox məktəblərin məqsədi isə Sibirin köklü xalqları arasında xristianlığın yayılması, yaxud da rus mədəniyyətinin təbliğ edilməsi idi. Sibir xalqları arasında öz yazısı olan buryatlar və tatarlar idi. Lakin savadlılıq da daha çox ruhanilər içərisində yayılmışdı. Qalan Sibir xalqları arasında isə piktoqrafik yazı yayılmışdı. Yazı və oxunun Sibir xalqları arasında yayılması yalnız XIX əsrin II yarısında mümkün oldu. 1868 - ci ildə Altay dili üzrə əlifba, daha sonra isə Altay dilinin qrammatikası nəşr edildi. Altay ədəbiyyatının ilk rüşeymləri meydana gəldi. Təhsilin səviyyəsi nisbətən buryatlarda yüksək idi. Tatar xalqında isə təhsilin inkişafına süni maneələr yaradılırdı. 1804 - cü ildə Balaqan şəhərində buryatlar üçün xüsusi məktəb fəaliyyətə başladı. Lakin məktəb tezliklə bağlandı. Buryat və tatarlarda məktəblər əsasən yerli əsaslarda fəaliyyət göstərir, bu da daha çox dini xarakter daşıyırdı.

Sibirdə elmin inkişafında da irəliləyişlər var idi. 1808 - ci ildən bəri Sibirdə işləyən alman mənşəli alim F. V. fon Gebler Sibirin təbii sərvətlərinin, faunasının öyrənilməsi ilə məşğul olmuş, 1837- ci ildə "Altay dağının ən yüksək zirvəsi olan Katun zirvəsinin təsviri" adlı kitab nəşr etdirmişdi. Bu kitaba görə də Gebler Demodov mükafatına layiq görülmüşdü. 1823 - cü ildə Barnaulda təbiət muzeyinin təşkilatçısı olmuşdu.

Sibirdə səhiyyə sahəsində də xeyli irəliləyişlər baş vermiş, xəstəxanalar açılmış, buralara xeyli miqdarda həkim kadrlar göndərilmişdi. Qazan universiteti bu kadrların hazırlanmasının mərkəzinə çevrilmişdi. XVIII əsrdə Sibirdə iki hərbi qospital və bəzi zavodların nəzdində tibb məntəqələri fəaliyyət göstərirdi. 1783 - cü ildə Tobolskda və 1784 - cü ildə İrkutskda ilk mülki xəstəxanalar fəaliyyətə başladılar. XIX əsrin ilk rübündə artıq Sibirin müxtəlif quberniyalarında 20 - yə yaxın xəstəxana açılmışdı. Lakin bununla belə Sibirdə həkim kadrların, dərman preparatlarının kəskin çatışmazlığı hiss olunmaqda idi. Sibirdə xəstəliklərin artmasının və çətin müalicə olunmasının başqa səbəbləri də var idi. Bu da əhalinin dilənçi səviyyəsində yaşaması, adi sanitariya qaydalarına əməl edilməməsi, adamların evlərinə daraşan həşəratlardan əziyyət çəkməsi, onlardan xilas olmaq üçün lazımi kimyəvi məhsulların olmaması, əhalinin özünün də mədəni səviyyəsinin aşağı olması idi. Buna görə də həkimlər əhalinin tibbi-gigiyenik, mədəni səviyyəsinin qaldırılması və eyni zamanda bəzi xəstəliklərin profilaktikası üçün tədbirlər də görürdülər. Tobolskda Pabs soyadlı bir həkim 1805 - ci ildə "Sibirdə çoxlu körpə uşaqların ölməsinin səbəblərinin təhlili" adlı bir kitabça nəşr etdirmişdi. Yeniseysk şəhərində isə həkim M. Krivoşapkin ilk dəfə olaraq elektroterapiyanı uğurlu şəkildə tətbiq etməyə başladı. Özü inqilabçı olan F. N. Lvov isə Yenisey çayı hövzəsində olan mineral bulaqları tətdiq edirdi.

Rusiya Sibirin tədqiq edilməsi sahəsində də xeyli işlər görürdü. Bunlardan 1776 - cı ildə əsası qoyulan və

rəsmi şəkildə “Rusiya-Amerika şirkəti” adlandırılan şirkət Aleut, Kuril və başqa adalarda, o cümlədən Alyaskada ticarət, xəz dəri istehsalı üzrə inhisar hüququ aldı. Şirkət Sibirin elmi cəhətdən öyrənilməsi sahəsində də xeyli işlər görmüşdü. Bundan başqa F. P. Vranqel Cənubi Şərqi Sibirin öyrənilməsi, F. P. Litle isə Yeni Torpaq adasının öyrənilməsi sahəsində xeyli işlər gördülər. XIX əsrin ilk yarısında yerli əhali arasından da ziyalı və tədqiqatçılar çıxmağa başladı. Bunlardan əslən buryat olan məşhur şərqşünas Qalsan Qamboyevin, dinşünas Dorji Bnzarovun, eyni zamanda məşhur coğrafiyaçı, əslən qazak olan Çokan Vəlixanovun adlarını çəkmək olar.

## II FƏSİL

## ŞƏRQİ TÜRKÜSTAN XVII-XIX ƏSRLƏRDƏ
## ŞƏRQİ TÜRKÜSTANIN ÇİN TƏRƏFİNDƏN İŞĞAL EDİLMƏSİ

Tszin işğalı ərəfəsində Şərqi Türküstan tarixi ədəbiyyatlarda Moğullar dövləti, yaxud Qaşqar xanlığı, ya da Yarkənd, yaxud da Səidilər dövləti adlandırılmışdır. Çingiz xanın və onun varislərinin hakimiyyəti illərində bu ərazilər, yəni Turfan, Qaşqar və Yarkənd ilk Duqlat sülaləsinə məxsus olan əmirlər tərəfindən yönəldilmiş, Çağatay dövlətinin süqutundan sonra buralarda paytaxtı Almalıq olan, əhalisinin əksəriyyəti türk uyğurlardan ibarət olan Moğulistan dövləti yaradılmışdır. Duqlat əmirlərinin yarımasılı hakimiyyəti XV əsrin ortalarına qədər davam etmişdi. Lakin Çingiz xandan qalan adətlərə sadiq qalaraq özlərini onun nəvələrinin vassalı hesab edərək, xan titulunu qəbul etmirdilər.

1456 - cı ildə Duqlat əmiri Sansız Mirzənin oğlu Əbu Bəkr Mirzə Şərqi Türküstanın hakimi olan Əmir Məhəmməd Heydərin yardımı ilə dövlətinin müstəqilliyini elan edərək, xan titulunu qəbul etdi. Bundan az sonra Qaşqar və Xotan əmirlərinin hakimiyyətinə son qoyaraq bu əraziləri öz dövlətinə qataraq, paytaxtı Yarkəndə köçürdü. Buna görə də onun dövlətinə elmi ədəbiyyatlarda Yarkənd xanlığı deyilməyə başlandı. Əbu Bəkr xanın ikinci mühüm işi ordu quruculuğundan ibarət oldu. Sayca nisbətən az olmasına baxmayaraq Yarkəndin ordusu

döyüş qabiliyyətinin üstün olması ilə seçilirdi. Bundan sonra Əbu Bəkr xan dövlətinin sərhədlərini genişləndirməyə başladı. 1499 - 1502- ci illərdə Əbu Bəkr xan xeyli ərazini-Bulur, Bədəxşan, Qaratəkin, Dərvaz, Pamir və Kəşmir vilayətlərini öz ərazilərinə qata bildi. Bu ərazilərin idarə edilməsi üçün Əbu Bəkr xan oturaq dövlətlərdəki kimi məmurların təyin edildiyi vergi vahidləri olan əyalətlər yaratdı. Müsəlman dövləti olan Yarkənd xanlığı öz dini dözümlülüyü ilə də seçilirdi. 1504 - cü ildə Aksu və Üçturfan əraziləri də Yarkəndin torpaqlarına qatıldı. Bundan başqa 1493 - 1512 - ci illərdə Əbu Bəkr Fərqanə və ətraf ərazilərə yürüş edərək Oş və Özqan ərazilərini ələ keçirdi.

48 il dövləti idarə edən Əbu Bəkr xan 1514 - cü ildə öldürüldü. Onun yerinə taxta çıxan varisi Cahangir Mirzə taxtda yalnız yeddi gün qala bildi. Bundan sonra 1514 - cü ildə Yarkənd taxtına Çingiz xanın nəvələrindən olan Sultan Seyid xan çıxarıldı. O mənşəcə Moğul dövlətinin xanı Yunis xanın nəvəsi idi. Sultan Seyid xandan sonra Yarkənddə hakimiyyət bir müddət Çağatay sülaləsinin hakimlərinin əlinə keçdi. Bəzi tarixi qaynaqlarda onların hakimiyyəti 1696 - cı ilə qədər göstərilməsinə baxmayaraq, bəzi tarixçilər onların hakimiyyətinin 1709 - cu ilə qədər davam etdiyini göstərirlər.

Sultan Səid xan öz hakimiyyətini və Yarkəndin iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün bir sıra mühüm işlər görür. Bunlardan birincisi, Aksu və bir çox məhsuldar torpaqlara türk ailələrinin köçürülməsi olur. İkincisi xəzinə hesabına torpağı əkmək üçün xalqa xeyli torpaq

paylayır. Üçüncüsü, bir neçə il ərzində xalqı vergidən azad edir. Bundan sonra 1516 - cı ildə hakimiyyətə əhəmiyyətli namizədlərdən biri, qardaşı Mənsur xanla sülh imzalayır və həmin sülhün şərtlərinə görə Altışəhər deyilən ərazi Mənsur xanla qardaşı tərəfindən birgə idarə edilməli idi. Bundan başqa Əbu Bəkr xan onun hakimiyyətini tanımaq istəməyən Duqlat əmirlərini tabe edir. Lakin 1533 - cü ildə Əbu Bəkr xan Tibet dövlətinə qarşı yürüşə çıxdığı zaman astma xəstəliyindən vəfat edir.

Səid xanın yerinə oğlu Rəşid xan (1533 - 1559) keçir. Lakin onun hakimiyyəti dövlətin tənəzzülü ilə müşayiət edilmişdir. Rəşid xanın dövründə dövlətdə ara müharibələri başlamışdır. Ən böyük problem Uyqurustan deyilən şərq bölgəsinin şəhərləri ilə Altışəhər deyə tanınan Xotan, Yarkənd, Yenihisar, Qaşqar, Aksu və Üçturfan şəhərləri kimi qərb şəhərləri arasında rəqabətin güclənərək düşmənçiliyə çevrilməsi oldu. Bundan da cunqarlar istifadə etdilər. Onlar ara müharibələrindən istifadə edərək Yarkənd üzərinə basqınları gücləndirirdilər.

1559 - cu ildə vəfat edən Rəşid xanın əvəzinə hakimiyyətə oğlu Əbdülkərim xan (1559 - 1591) gəlir. O, taxtı qardaşlarının köməyi ilə ələ keçirmişdi. Lakin bütün səylərinə baxmayaraq o, Yarkəndin parçalanaraq, dağınıq şəhər dövlətləri vəziyyətinə düşməsinin qarşısını ala bilməmişdir. Buna görə də Şərqi Türküstanın din xadimlərindən olan Xoca İshaq Vəlini Yarkəndə yardıma çağırmışdır. O, da dəvəti qəbul edərək Yarkəndə gəlmiş, şəhərlərin arasında intensiv din və dini birlik mövzuların-

da təbliğat apararaq, düşmənçiliyin xeyli zəifləməsinə nail olmuşdur.

Lakin Hoca İshak Vəlinin fəaliyyətləri Şərqi Türküstanın hakimi Əbdüllətif xan tərəfindən yaxşı qarşılanmadı. Bunun da səbəbi onun fəaliyyətinin Əbdülkərim xanın övladlarına siyasi nüfuz qazandırmasından Əbdüllətif xanın təşvişə düşməsi idi. Buna görə də ona qarşılıq vermək üçün Əbdüllətif xan öz sarayına Xoca İshaq Vəlinin ögey qardaşı Xoca Kalanı (Məhəmməd Əmini) çağırmışdır. Sonralar bu iki qardaşın uşaqları iki dini qruplaşmaya bölünərək bir-birilərilə siyasi rəqabət aparmışdılar. Bu isə Yarkəndin siyasi vəziyyətinə xeyli ziyan vermişdir. Bu qruplaşmalardan biri Qaradağ, ikincisi isə Ağdağ qruplaşması adlanmışdır (bəzi tarixi ədəbiyyatlarda isə bunlara İshaqiyyə və Afaqiyyə təriqətləri də deyilirdi-müəllif). Bu qarşıdurma nəticəsində dövlətin faktiki idarəsi bu sufi təriqətlərinin xocalarının əlinə keçmiş və nəticədə bu dövrə tarixdə "Xocalar dövrü " deyilmişdir.

Əbdülkərim xanın ölümündən sonra varisi Məhəmməd xan (1591 - 1609) olmuşdur. Lakin onun hakimiyyəti də Yarkənd xanlığında ara müharibələri dövrünə düşmüşdür. Belə ki, o, Çalış- Turfan bölgəsinə özünün qohumu Əbdürrəhim xanı vali olaraq göndərmişdi. Lakin Əbdürrəşid xanın nəvələrindən olan Xudabəndə xan Qazax xanı Təvəkkül xanın köməyi ilə Turfanda hakimiyyəti ələ almağa cəhd göstərir və böyük bir hərbi dəstə ilə Turfan zonasına soxulur. Buna cavab olaraq Əbdürrəhim xan Məhəmməd xandan hərbi kömək istəyir. Lakin Məhəmməd xanın uyğurlarla ara müharibələrinə başı qa-

rışdığı üçün o, hərbi kömək göndərə bilmir. Buna görə də Məhəmməd xan kalmıklardan hərbi kömək istədi. Onlar da hücuma keçərək Xudabəndə xanı ələ keçirib Əbdürrəhim xana təslim etdilər. Əbdürrəhim xan kalmıklarla münasibətləri daha da genişləndirərək kalmık xanının qızına evləndi. Ondan olan oğlu Abdullah xan onun varisi elan edilmişdi.

Abdullah xanın (1638 - 1668) hakimiyyəti dövrü Yarkənd xanlığının müvəqqəti yüksəlişi ilə xarakterizə edilir. Bu zaman Yarkənd hərbi cəhətdən güclənmiş və hərbi qüvvələri getdikcə artan kalmıklara qarşı müəyyən qələbələr də qazanmışdır.

Abdullah xanın ölümündən sonra Yarkənddə hakimiyyət xocaların əlinə keçmişdir. İlk vaxtlar bunlar dövləti dolayı yolla idarə etmiş, sonradan isə hakimiyyət açıqcasına onların əlinə keçmişdir.

Xocalar Şərqi Asiya ölkələrində ən çox yayılmış olan Nəqşibəndiyyə dini təriqətinin rəhbərlərinə deyilirdi. Artıq XV əsrdə bu təriqət qadirilərdən sonra Şərqin ən böyük təriqətinə çevrilmişdi. Bu təriqət göstərilən dövrlərdə Mavəraənnəhr və Şərqi Türküstanın islamlaşmasında çox mühüm rol oynamışdı. XVII əsrdən başlayaraq Yarkənd xanlığında bu təriqətin tərəfdarlarının həm dini, həm iqtisadi, həm də siyasi nüfuzu artmağa başlayır. Bunlar xalq arasında da böyük nüfuza malik olduqları üçün Moğul hökmdarları onlara iqtisadi və siyasi formada hər bir dəstəyi göstərirdilər. Bu da onların dövlətin idarəsində də nüfuzlarının artmasına səbəb oldu. Bundan

başqa Moğul hökmdarlarının onlara arxalanma siyasəti gələcəkdə həmin hökmdarların özlərinə qarşı çevrildi.

Xocaların intriqaları sayəsində Moğul hökmdarları Sultan Mahmud xan və Yılbars xan öldürülmüş, Sultan Əhməd şah və Abdullah xan isə ölkədən qovulmuşdular. Sülalənin sonuncu hakimi İsmayıl xanın xocaların hakimiyyətini minimuma endirmək cəhdləri də nəticəsiz qaldı. Onu da 1683- cü ildə həm xocaların, həm də cunqarların, həm də Tibet buddistlərinin bir yerdə tərtib etdikləri sui-qəsd nəticəsində hakimiyyətdən uzaqlaşdırdılar.

XVII əsrin ortalarından başlayaraq hər iki xocaların iki klanı arasında siyasi mübarizə yenidən qızışdı. Nəticədə "Ağdağlılar" klanı qalib gəldi. Məhz onların rəhbərliyi ilə sonuncu Moğul şahı İsmayıl xan hakimiyyətdən devrildi və hakimiyyətə klanın rəhbəri Xoca Apak gətirildi. Onun dövründə Yarkənd xanlığının cunqarlardan asılılığı daha da artdı. Belə demək olarsa, Apak cunqarların sadiq vassalına çevrildi. 1713 - cü ildə Cunqariyada Tsevan Rabtan hakimiyyətə gəldikdən sonra Şərqi Türkustanda nüfuza sahib olan xocaların xeyli hissəsi Cunqariyaya girov olaraq aparıldı. Bu da Şərqi Türküstanın Cunqariyadan asılılığını daha da artırdı. 1720 - ci ildə "Qaradağlı" qruplaşmasının rəhbəri Xoca Daniyal Qaşqara qaytarıldı. Onun oğlanları və tərəfdarlarına xeyli torpaqlar və imtiyazlar verildi. Onun ölümündən sonra oğlu Xoca Cahan Qaldan Seren tərəfindən Yarkəndin canişini təyin edildi. Atasından fərqli olaraq o, artıq ərazinin ali hakimi deyildi.

Beləliklə, XVII - XVIII əsrlərdə Moğul dövlətinin daxili və xarici siyasi vəziyyətində xeyli dəyişiklik meydana gəldi. Bu da nəqşibəndi xocalarının intriqaları nəticəsində Moğul dövlətində daxili stabilliyin pozulması, dövlətin xarici siyasi müstəqilliyinin itirilməsi, hakimiyyətdə olan sülalənin yavaş- yavaş məhv olması ilə nəticələndi. Bununla belə xocaların hakimiyyəti Moğul dövlətində (Yarkənddə) siyasi vəziyyətin stabilləşməsində xüsusi rol oynamadı. Əksinə ölkədə əyalət hakimlərinin qarşılıqlı mübarizəsinə həm də xocaların intriqaları əlavə olundu.

Bu zaman Şərqi Türküstanın idarəsi dörd əsas siyasi mərkəzin əlində idi. Bunlardan ikisi Komul və Turfan idi ki, buranın hakimləri xocalara o qədər də etibar etmirdilər. Sonrakı ikisi, Yarkənd "Qaradağlı" qruplaşması, Qaşqar isə "Ağdağlı" qruplaşmasının əlində idi.

Bu dövrdə Şərqi Türküstan əhalisinin əksəriyyəti müsəlman türklərdən ibarət idi. Lakin bu dövrdə onlar "uyğur" termini ilə xarakterizə edilmirdilər. Çünki XIII - XIV əsrlərdə burada yaşayan uyğurlar xristian və buddist olmuş, artıq sadalanan dövrdə regionun müsəlmanlaşması nəticəsində itib getmişdilər. Buraların əhalisi XX əsrin əvvəllərinə qədər "qaşqarlılar", "Kiçik Buxara sartları", "turapanlılar" (turfanlılar) və "yarkəndlilər" kimi terminlərlə xarakterizə edilirdilər. Bir məsələni də qeyd etmək lazımdır ki, bu dövrdə Şərqi Türküstan Cunqariyanın tərkibinə daxil idi. Ona görə də buranın Tszin - mancur sülaləsi tərəfindən işğalı prosesini Çin –Cunqariya münasibətləri zəminindən izləmək lazımdır.

XVII əsrin 90 - cı illərinin ortalarına qədər Tsin sülaləsi Cunqariyaya qarşı fəal siyasət aparmırdı. Bu da Çinin daxilində mancur ağalığına qarşı baş verən üsyanlarla bağlı idi. Lakin mancurlar hakimiyyətlərini möhkəmləndirən kimi öz nəzərlərini Cunqariyaya qarşı yönəltdilər. Bunun da səbəbi Cunqariya hakimlərinin bütün monqolları birləşdirərək vahid dövlət yaratmaq siyasətləri idi. 1697 - ci ildə mancurlar böyük bir ordu ilə Cunqariya hakimi Qaldanın ərazilərinə soxularaq şərq ərazilərini işğal etdilər. Qaldanın ölümündən sonra hakimiyyətə gələn oğlu Tsevan Rabdanı isə hər vasitə ilə Çin öz hakimiyyətini tanımağa məcbur etmək istəyirdi. Eyni zamanda Tsin imperatoru Yarkəndə məxsus olan Komul vilayətini tutmağa çalışırdı.

1696 - cı ildə Komul hakimi Übeydulla xan Tsin sülaləsi ilə münasibətləri normallaşdırmaq üçün böyük bir ticarət karvanı və elçilik heyətini xeyli hədiyyələrlə birgə Tszin sarayına göndərdi. Bundan sonra 1697 - ci ildə o, Qaldanın oğlu Sebuel bəyi həbs edərək, öz oğlu Qafur bəylə birgə Tsin sarayına göndərdi. Übeydulla xanın bu hərəkətləri Çin sarayında onun Çin hakimiyyətini qəbul etməsi kimi qəbul edildi. Lakin Übeydulla xanın belə bir fikri ümumiyyətlə, yox idi. 1697 - ci ildə Tsin imperatoru da Komul hakiminə cavab elçiliyi və hədiyyələr göndərdi. Eyni zamanda Komul hakimi dzasak və tarxan titullarına və birinci dərəcəli bəylik tituluna layiq görüldü. Onun oğlu Qafur bəy isə Suçjou şəhərinə hakimköməkçisi təyin edildi. Bu üzdə Übeydulla xana hörmət forması daşısa da, əslində onun oğlu və adamları Çin sarayında

girov qismində saxlandılar. 1696 - cı ildə Komul hakimi Çindən ona Cunqariyaya qarşı kömək istəsə də Çinlilər yalnız ona ordu formalaşdırmağa komək edəcək məsləhətçi göndərməklə kifayətləndi.

1700 - cü ildə Tsevan Rabtan Komula tabe olan Turfan ərazisinə bir neçə dəfə yürüş etdi və Übeydulla xandan oğlunu Çindən qaytarmağı tələb etdi. Rədd cavabı alan cunqarlar Turfanı qarət etdilər. 1712 - ci ildə Cunqariyada öz mövqeyini xeyli dərəcədə yaxşılaşdıran Tsevan Rabtan tezliklə Şərqi Türküstanı tabe etmək üçün hərbi yürüşə başladı. 1713 - cü ildə Qaldanın oğlanlarından birini Şərqi Türküstana canişin təyin etdi. O, burada 1720 - ci ilə qədər hakimiyyətdə qaldı. Lakin Cunqariyanın buradakı hakimiyyəti möhkəm deyildi. Belə ki, cunqar hakimiyyətinə qarşı buralardan xeyli üsyanlar baş verirdi. Nəticədə o, hakimiyyəti Şərqi Türküstanda nüfuz sahib olan "Qaradağlı" xocalarına vermiş oldu. Bu ərazilərin ələ keçirilməsi Cunqariya hakimlərinə Çinin müttəfiqinə çevrilən Şərqi Monqolustan hakimlərinə qarşı hərbi əməliyyatlara başlamaq imkanı verdi.

1715 - ci ildə Tsevan Rabtan Komula 2 minlik ordu göndərdi. Onlar burada Tszin qarnizonunu qırıb, Komulu təmamilə ələ keçirdilər. Buna cavab olaraq Çin Komulu sonra da bütün Turfanı tutmaq üçün buraya böyük bir ordu göndərdi. Lakin bu ordu da cunqarlara məğlub oldu. XVIII əsrin 20 - ci illərindən başlayaraq isə Cunqariya hakimi Tsin hökmdarlarından cunqarlardan 1697- ci ildə qoparılmış torpaqları qaytarmağı tələb etdi. Tsin hakim-

ləri də təbii ki, buna rədd cavabı verdilər. İki dövlət arasında müharibə qaçılmaz hal aldı.

1717 - ci ildə Cunqar ordusu Tibeti özünə tabe etdi. 1720 - ci ildə Çin ordusu cunqarlarla mübarizədə Tibetə kömək adı ilə buraya yeridildi. 1723 - cü ildə Tszin ordusu oyratları bir təhər Tibetdən çıxara bildi. Tibetlə eyni zamanda Tsin ordusu Şərqi Türküstana da ordu göndərdi. Bu zaman xoca qruplaşmaları arasında mübarizə özünün ən yuxarı mərhələsində idi. Bunlardan birincisi, başda Emin xoca olmaqla bir qrup Çin ordusunun gəlişindən istifadə edərək Şərqi Türküstanı tutmağa və cunqar asılılığında azad olmağa çalışır, ikinci qrup Əziz xocanın rəhbərliyi altında isə cunqarlara sadiq qalaraq Çinlə axıra qədər mübarizə aparırdı.

1720 - ci ildə Tsin ordusu Komul vilayətinə daxil oldu. Burada yerli xalq ona müqavimət göstərmək istəsə də feodalları Çinin tərəfinə keçərək xalqın ayağa qalxmasının qarşısını aldılar. Komulun işğalından sonra Çin ordusu Turfan ərazisini işğal etdi. Əziz xocanın tərəfdarları buranı tərk edərək Aksu və Üçturfana köçdülər.

1721 - ci ildə Tsevan Rabtan Tszin ordusuna qarşı mübarizəyə başladı. 1726 - cı ildə Şərqi Cunqariyada Tszin ordusu üzərində qələbələr qazanan Tsevan Rabtan Çindən Turfan və Komulu boşaltmağı tələb etdi. Bundan başqa Tsevan Rabtan xalxa monqolları Çinə qarşı qaldırmağa çalışdı. Çin Rusiya vasitəsilə Tsevan Rabtana təzyiq göstərmək istəsə də buna nail ola bilmədi. Lakin Rusiya bitərəf mövqe tutaraq məsələyə qarışmadı. 1727 - ci ildə Tsevan Rabtanın ölümündənn sonra hakimiyyətə gələn

oğlu Qaldan Tseren atasının siyasətini davam etdirmək fikrində idi. Lakin o ara müharibələri ilə üzləşməli oldu. Ara müharibələrindən istifadə etməyə çalışan Çin 1729 - cu ildə Şərqi Cunqariyaya ordu göndərdi. Lakin ordu cunqarlar tərəfindən məğlub edildi. Bundan başqa cunqalar Turfan və Barkul ərazilərini də azad edə bildilər. Turfandan çıxan Çin ordusu Emin xoca və onun tərəfdarlarını da özü ilə apardı. Sonradan bu adam uyğurların mübarizəsinə qarşı Çinə kömək edəcəkdi.

Hərbi qələbədən istifadə edən oyratlar şərq istiqamətində irəliləyərək Xalxanın bir hissəsini tutdu. Tsin hakiminin Rusiyadan yardım almaq təşəbbüsü də boşa çıxdı. 1732 - ci ildə Çin ordusu cunqarlara qarşı bir neçə qələbə əldə etdi. Bu da cunqarları sülh bağlamağa razı saldı. Lakin danışıqlara başlayan çinlilər, bundan istifadə edərək Barkul, Turfan və Komul istiqamətlərində yürüşə çıxaraq buraları ələ keçirməyə çalışdılar. Lakin bu cəhdlər uğursuz oldu. Uğursuzluqlar Tsin imperiyasını cunqarlara qarşı gözləmə mövqeyi tutmağa məcbur etdi. Şərqi Türküstanı müvəqqəti olaraq tutmaqdan imtina edən Çin hələ ki Komulda möhkəmlənməyi qərara aldı. Buna görə də əhalini də öz tərəfinə çəkmək üçün mühüm işlər gördü. Bundan başqa burada böyük bir ordu yerləşdirərək cunqarların Tibetlə əlaqələrinin qarşısını aldı. 1739 - cu ildə Tsin imperiyası Cunqariya ilə sülh bağladı. Lakin hər iki tərəfə sülhün müvəqqəti olması gün kimi aydın idi.

1745 - ci ildə Qaldan Tseren öldükdən sonra hakimiyyət üstündə onun oğlanları arasında rəqabət başladı. Bundan başqa müharibəyə başqa feodal qruplaşmaları da

qoşuldular. Tsin hakimləri Cunqariyada baş verənləri diqqətlə izləyirdilər, buna görə də Cunqariyadakı ara müharibələrindən istifadə etmək qərarına gəldilər. Çin imperatoru Cunqariya hökmdarı Davatsidən narazı olan hər kəsi sarayda qəbul edirdi. Bundan başqa o, Davatsinin siyasi rəqibi Lan Amursanı sarayda saxlayır və ona Cunqariya hakimliyi vermək vədi verirdi. Halbuki Çinin məqsədi gələcəkdə Cunqariyanı parçalamaq idi. Eyni zamanda Amursan və Çinə qaçanlara xüsusi rütbələr də verilirdi.

Xüsusi hazırlıqdan sonra 50 minlik Tsin ordusu 1755 - ci ildə Cunqariyaya böyük bir yürüşə çıxdı. Ordu iki istiqamətdə birinci birbaşa cunqar, ikincisi isə İli istiqamətindən dövrə vuraraq birinciylə birləşmək üçün hərəkət edirdi. Çin ordusu demək olar ki, müqavimətə rast gəlmədi. Bunun da səbəbi Cunqariya əhalisinin ara müharibələrindən yorulması, bir çoxunun isə Çin ordusunun yürüşünün əsl səbəbini başa düşməməsi idi. Çoxları ordunun qabağında Amursanın olduğunu görüb Çinin tərəfinə keçirdilər. 1755 - ci ilin iyununda Boratala yaxınlığında iki Çin ordusu birləşdi. Davatsi oğlunu Çin sarayına göndərərək onların hakimiyyətini qəbul etdiyini bildirsə də onun təklifi rədd edildi.

Çin ordusu müqavimət görmədən İli ərazisinə daxil oldu. Bundan başqa Amursanın rəhbərliyi altında Tsin ordusunun ön dəstələri Davatsinin ordusunu məğlub etdi. O, Üçturfana qaçsa da yerli hakim tərəfindən tutularaq Çinə təhvil verildi. 1755 - ci ilin payızında Cunqar dövləti süquta uğradıldı. Amursanın gözlədiyinin əksinə

olaraq Çin onu Cunqar hakimi təyin etmədi və ordu rəhbəri kimi də saxladı. Çünki asılı olsa belə Cunqariyanı saxlamaq Çin hakimiyyətinin məqsədlərinə daxil deyildi.

Tsin sülaləsi Cunqariyanı hakimiyyətdə saxlama üçün burada hərbi-inzibati idarə üsulu yaratdı, bundan başqa Cunqariya dörd əyalətə bölündü. Lakin Cunqariyada müəyyən hakimiyyət dəyişiklikləri həyata keçirən Çin hakimiyyəti Yarkəndin idarəsində elə bir yenilik etmədilər. Onlar belə hesab edirdilər ki, özlərinə uyğun adamı hakimiyyətə çıxarmaqla onlar asanlıqla Yarkəndi, yəni uyğurları idarə edə biləcəklər. Bundan başqa Çin hakimiyyəti Cunqariyadan da ordunun xeyli hissəsini çıxardı. Cunqariyanı parçalmaqla Çin buranı asanlıqla idarə edəcəyini fikirləşirdi.

Lakin 1755 - ci ilin sentyabrında Amursana başda olmaqla cunqarlar üsyan qaldırdılar. Nəticədə İli və Cunqariya ərazisində Çinin hakimiyyəti devrilmiş oldu. 1755 - ci ilin sonunda Amursana oyratların hökmdarı elan edildi. Bu isə faktiki olaraq müstəqil Cunqar dövlətinin bərpası demək idi. 1756 - cı ildə Cunqariyaya soxulan Çin ordusu əhaliyə qarşı həddindən artıq amansız hərəkət etməyə başladı. Bu da əhalinin ciddi müqavimətinə səbəb oldu. 1758 - ci ildə oyratların üsyanını yatıran Çin ordusu oyratlara qarşı əməlli - başlı soyqırım həyata keçirdi. Bu da Şərqi Türküstanda monqol dilli əhalinin əhəmiyyətli dərəcədə azalmasına səbəb oldu. Bundan sonra Çin hakimiyyət orqanları buralara Çini daxili vilayətlərindən xeyli əhali köçürməyə, bunlara güzəştlər etməyə, qalalar tik-

məyə, istehkamlar quraşdırmağa başladı. Azlıqda qalan oyratlara isə Tarbaqatayda otlaq sahələri ayrıldı.

Bundan sonra Çin hakimiyyətinin nəzərləri Şərqi Türküstan və Yarkənd ətrafına zilləndi. 1758 - ci ildə Çin ordusu Turfandan çıxaraq Şərqi Türküstanın içərilərinə doğru hərəkət etdi. Çinə qarşı mübarizəyə çağıran Qaradağ xocalarından fərqli olaraq Ağdağ xocaları Çinin tərəfini saxladılar.

Belə ki, Cunqar xanlığının zəifləməsindən istifadə edən Yarkəndin Qaradağ xocaları Yusif xoca və onun oğlu Abdulla xoca dövlətin hərbi qüvvələrini artırmaq siyasəti yeridirdilər. Buna görə də Tsin imperiyası onlara qarşı qoyma üçün Cunqariyada həbsdə olan Ağdağ xocalarının rəhbəri olan Bürhanəddin xocanı azad edərək, müxtəlif vədlərlə Yarkəndə yola saldılar. Ağdağ xocaları isə Tsin imperiyasının köməyi ilə özlərinin hakimiyyətlərini qaytarmaq istəyirdilər. 1755 - ci ildə Bürhanəddin Tsin ordusu ilə Yarkəndə yola düşdü. Buna baxmayaraq Şərqi Türküstanın əhalisinin xeyli hissəsi onun tərəfini saxladı, xüsusilə də qırğızlar onun tərəfinə keçdilər. Tezliklə o, Yarkənddə və Qaşqarda hakimiyyəti öz əlinə aldı.

Ağdağ xocalarının Yarkənddə hakimiyyəti əlinə almasından istifadə etmək istəyən Çin hakimiyyəti tezliklə - 1756 - cı ildə buraya vergi yığanları göndərdi. Lakin bu xocalar tərəfindən silahlı müqavimətlə qarşılaşdı və vergiyığanlar öldürüldülər. Çin hökuməti Cunqariyada başı qarışdığı üçün "qiyamçılara" qarşı 1758 - ci ilin mayına qədər ordu göndərə bilmədi. Bundan başqa Çin hakimiyyəti xocaların hakimiyyətinə qarşı müxalifətdə qa-

lan Qaşqar hakimi Hadis bəydən, eyni zamanda yerli uyğurlarla qırğızlar arasına nifaq salmaq üsulundan istifadə etmək qərarına gəldi. Onu da qeyd etmək lazımdır ki, Tsin hökuməti müəyyən uğurlara da nail oldu.

1758 - ci ilin mayında 10minlik qoşunla Çin hakimiyyəti ordusu Qaşqara doğru irəlilədi. Burada onu Ağdağ xocalarının ordusu qarşıladı. Üç aylıq mühasirədən sonra Kuçar şəhəri Çin ordusuna təslim oldu. Onun ardınca Çin ordusu oktyabr 1758 - ci ildə Ağsu və Üçturfan şəhərlərini ələ keçirdi. Ən güclü müqaviməti isə 1758 - ci ilin sonu-1759 - cu ilin əvvəlində Yarkənd şəhəri göstərmişdi. Burada Tsin ordusu ağır məğlubiyyətə uğradi. Lakin xocaların başının qırğızlarla müharibəyə qarışması ordunu məhv olmaqdan xilas etdi. 1759 - cu ilin martında Çin ordusu Ağsu şəhərinə çəkildi. Lakin 1759 - cu ilin yayında kömək alan Çin ordusu Yarkənd və Qaşqar şəhərlərini ələ keçirdi. 1759 - cu ilin sonuna yaxın Çin ordusu bütün Şərqi Türküstanı ələ keçirdi.

İşğal edildikdən sonra Çin hökuməti Şərqi Türküstan və Cunqariyanı üç dairəyə- İli, Urumçi və Tarbaqatay dairələrinə böldü. Dairələrə dutun rəhbərlik edirdi. Sonradan Tarbaqatay və İli dairələri yeni bir bölgənin Sinzyan bölgəsinin tərkibinə qatıldılar (Sinzyan - yeni bölgə deməkdir - müəllif). İli dairəsi xeyli miqdarda keçmiş bəylik idarəsini saxlamışdı. Bundan başqa Şərqi Türküstan 4 iri, 4 orta və 23 kiçik şəhərlərə bölünmüşdü. Bunları xüsusi vəzifəli şəxslər idarə edirdilər. İri və orta şəhərlərin idarəçiləri ancaq mancurlardan təyin edilirdilər. Bunlar da öz növbəsində bütün məmurlar kimi Sinszyan böl-

gəsinin idarəçisinə tabe idilər. Sinszyan bölgəsinin hakimi isə İli bölgəsində otururdu. Çinin yaratdığı bu üsul idarə müxtəlif fasilələrlə 1804 - cü ilə qədər davam etmişdi.

Tsin hökuməti bəylik institutunu da dəyişdi. Belə ki, bəylik daha irsi hüquq olmadı. Qabaqlar bəylər Yarkəndin idarəçisi olan xanların qohumlarına məxsus idisə, indi bu adı Çin hakimiyyətinə kömək edən feodallara verirdilər. Bundan başqa bəylər yerli idarəçilkdə iştirak edir, lakin ağır cəzalar verə bilməzdilər. Onlara hökumət tərəfindən torpaq sahəsi və təhkimli kəndlilər ayrılırdı.

Tsin hökuməti Komul və Turfan diyarlarının hakimlərinə xüsusi hüquqlar vermişdi. Bunun da səbəbi onların Cunqariyaya qarşı Tsin dövlətinə yardım etmələri idi. Lakin buna baxmayaraq Tsin hökuməti ordu komandanlığı vasitəsilə onların fəaliyyətinə ciddi nəzarət edirdi. Şərqi Türküstanın yaşayış məntəqələrini Çin hökuməti strateji əhəmiyyətindən asılı olaraq üç hissəyə -1. Qərbin dörd şəhər hissəsi; 2. Şərqin dörd şəhər hissəsi və Ucqar hissəsinə bölmüşdü. Bunlardan ucqar hissənin feodalları daha imtiyazlı hüquqlara malik idilər. Adətən, 2 və 3 cü hissələrin hakimlərini Çin hakimiyyəti Turfan və Komul bəylərindən təyin edirdi. Çünki dövlət onlara daha çox inanırdı.

Şərqi Türküstanda Çin işğalı buranın etnik xəritəsinə də təsir etməyə başladı. Lakin Cunqariyadan fərqli olaraq burada etnik dəyişikliklər xeyli ləng və tədricən cərəyan edirdi. XIII-XIX əsrin əvvəllərində buranın əhalisinin xeyli hissəsini türkdilli əhali təşkil edirdi. Lakin dövlət tərəfindən buralara tədricən çinlilər, Xalxa mon-

qolları, dunqanlar və mancurlar köçürülürdü. Gəlmələrin yerli müsəlman əhali ilə ünsiyyəti qəti qadağan edilirdi. Bundan başqa Şərqi Türküstan şəhərlərinin quruluşunda da dəyişiklik edilirdi. Belə ki, mərkəzi şəhərlər üç hissəyə, yəni çinli, mancur və yerli əhalinin yaşadığı hissələrə, qalan şəhərlər isə iki hissəyə, çinlilər və yerli əhalinin yaşadığı bölgələrə bölünürdü. Gəlmələrin yaşadıqları ərazilər daha yüksək xidmət və təhsillə təmin edilir,yerli əhali həmin məktəblərə yaxın buraxılmırdı. Bundan başqa gəlmələrin əraziləri qala divarları vasitəsilə yerli əhalidən ayrılırdı. Tsin hakimiyyət orqanları yerli xalqlar və tayfalar arasında milli ədavəti qızışdırmaqdan da çəkinmirdilər.

Mancur işğalı nəticəsində xeyli torpaq sahəsi yerli əhalinin əlindən alınaraq burada yerləşən qarnizonlara, köçürülən əhaliyə, çinli məmurlara və onlara xidmət edən feodallara paylandı. Çinin işğalı Şərqi Türküstan ərazilərinə Çin ticarət - sələmçi kapitalının nüfuz etməsinə gətirib çıxarırdı ki, bu da əhalinin var - yoxdan çıxmasına səbəb olurdu. Uyğur tacirlərinin hüquqları fəal şəkildə məhdudlaşdırıldığı halda Çin tacirlərinə geniş hüquqlar verilmişdi. Vergi alındıqda da Çin tacirləri daha çox imtiyazlara malik olurdular. Əhalidən vergilərin alınması böyük qəddarlıqla müşayiət edilirdi. Çinin işğalı nəticəsində buradakı pullar Çin pul dövriyyəsi ilə əvəz edildi. Lakin Şərqi Türküstanda mis pulların plansız şəkildə zərb edilməsi, onların dəyərinin aşağı düşməsinə və əhalinin var- yoxdan çıxmasına səbəb olurdu.

Belə ayrıseçkilik siyasəti Tsin hakimiyyətinə qarşı üsyanların və kütləvi çıxışların baş verməsinə səbəb olur-

du. Bunlardan ən güclülərindən biri 1767 - ci ildə Üçturfanda oldu. Lakin üsyan Tsin ordusu tərəfindən amansızlıqla yatırıldı. 1815 - ci ildə Qaradağ xocalarından axund Ziyaəddinin Qaşqarda üsyanı oldu. Lakin üsyan yenə də məğlubiyyətə uğradı. 1822 - ci və 1825 – 1828 - ci illərdə Xoca Cahangirin üsyanları oldu. Bu üsyanda xeyli adam, xüsusilə qırğızlar iştirak edirdilər.

1828 - ci ildə Kokand xanlığının hakim dairələri Çini Qaşqarı birgə idarə etməyə məcbur etmiş, Qaşqar tacirlərini Çinə vergi verməkdən azad etmişdilər. Bundan başqa Kokand xanları öz təbəələrinə Yarkənd və Qaşqarda müəyyən imtiyazlar da tanıtmışdılar. Bu da Kokanda Çinə qarşı çıxan üsyançıları himayə etmək imkanı verirdi. Bu da Xoca Cahangirə Çinə qarşı müəyyən dərəcədə uğurla hərəkət etməyə imkan verirdi. Onun üsyanına Şərqi Türküstanda qışlaqları olan taciklər, özbəklər və qırğızlar da yardım edirdilər. Bundan başqa Cahangirə Kokanddan da xeyli yardım gəlirdi. Üsyana qalxdıqdan az müddət sonra Xoca Cahangirin ordusu Yarkənd, Qaşqar, Xotanı ələ keçirdi, Ağsu və Üçturfanı mühasirəyə aldı. Kokand xanı Məhəmməd Əli də ordusu ilə ona köməyə gəlmişdi. Lakin Qaradağ xocaları ilə münaqişə, onun ordusunda Yarkənd türkləri və gəlmələr arasında mübarizə, Xoca Cahangirin özünün hərbi təşəbbüsü əldən verməsi üsyanın məğlub olmasına səbəb oldu. 1828 - ci ildə Cahangir həbs edilərək Pekində edam edildi.

Cahangirin ölümündən sonra onun oğlu Yusuf Xoca 1830 - cu ildə yenidən üsyana qalxdı. O, da Kokand xanlığından yardım alırdı. Lakin Çin onunla Qaradağ xo-

caları arasında ziddiyyətdən istifadə edərək üsyanı amansızlıqla yatırdı. Yusuf Xoca Kokanda qaçmalı oldu.

1832 - ci ildə Xotanda Cahangir Xocanın qardaşı oğlu Vəlixan törənin üsyanı oldu. 1847 - ci ildə Yarkənddə "Yeddi Xoca üsyanı" deyilən üsyan baş verdi. Əhali Tsin hakimiyyətinə ciddi müqavimət göstərirdi. 1857 - ci ildə Vəlixan törənin Qaşqarda üsyanı baş verdi. 1864 - cü ildə əvvəlcə Xotanda, sonra isə Qaşqarda Cahangir bəyin oğlu Buzruk Xocanın üsyanı baş verdi. Üsyan yenidən yatırıldı. Bu da xocaların rəhbərliyi altında Çinə qarşı sonuncu üsyan oldu.

Lakin Şərqi Türküstanda Çinə qarşı mübarizənin sonuncu aktı Yaqub bəyin rəhbərliyi altında Yeddişar dövlətinin yaradılması oldu. Üsyan Çinə tabe olan Dunqan xalqının arasında başladı. Çinin başının Taypinlərə və NyanSzyunda Çjou Losinə qarşı qarışmasından istifadə edən Dunqan müsəlman ruhaniləri əhalini açıq üsyana çağırdılar. Üsyan 1862 - ci ildə Şensidə qalxdı və son nəticədə dunqanların çinlilərə qarşı milli ədavətinin qızışmasına səbəb oldu. Lakin üsyan 1864 - cü ildə yatırıldı. Lakin Qaşqarda Çin ordusunun yerli əhaliyə qarşı soyqırım siyasətindən qorxuya düşən Sinszyan əhalisi həmin ildə yenidən üsyana qalxdı. Yerli türk əhali də dunqanlara qoşuldu. Lakin üsyan zamanı da müxtəlif qruplar arasında siyasi rəqabətsiz məsələ ötüşmədi. Bundan sonra üsyana Tarim və Xotan hövzəsinin uyğurları da qoşuldular.

1864 - cü ilin sonuna yaxın üsyançılar Sinszyan vilyətindən bütün Çin ordusu olan qalaları mühasirəyə

aldılar. Bundan sonra onlar Kokand xanlığına yardım üçün müraciət etdilər. 1865 - ci ilin əvvəlində Xoca Cahangirin oğlu Buzruk Xoca və Yaqub bəy başda olmaqla xeyli miqdarda hərbi dəstə Qaşqara daxil oldu. Həmin ildə də Yaqub bəy burada Yeddişar deyilən dövlətini yaratdı və bütün Sinszyan əyalətini ələ keçirdi. Bundan sonra üsyan Qansu vilayətinə də yayıldı və bu dəfə üsyana müsəlmanların yuxarı təbəqələrinin də adamları qoşuldular. Buradakı üsyana "Cəhriyə" deyilən müsəlman ordeninin ruhaniləri rəhbərlik edirdilər.

XIX əsrin 60 - cı illərində Sinszyan vilayətindəki üsyan zamanı burada üç müsəlman dövləti - Yaqub bəyin rəhbərliyi altında Yeddişar (1865 - 1877), Alahan Əbil oğlunun rəhbərliyi ilə İli sultanlığı (1864 - 1881) və David Həzrət Laotayın rəhbərliyi altında Dunqan ittifaqı (1865 - 1871) yaranmışdı. Lakin bu qurumların arasında Şərqi Türküstanda ağalıq üstündə şiddətli mübarizə gedirdi. Xüsusilə də, mübarizə Dunqan qurumu ilə Yaqub bəy arasında gedirdi. 1870 - ci ildə Yaqub bəy böyük hərbi qüvvə ilə Dunqan üzərinə hücum edərək, 1871 - ci ildə buranı özünə tabe etdi. Bundan sonra Dunqan ərazisi yerli feodallara tapşırıldı və Urumçi, Manas və Turfan vilayətlərinə bölündü. Dunqanlar Rusiyaya yardım üçün müraciət etsələr də, Rusiya yardımdan imtina etdi. Lakin Yaqub bəyin ərazisini genişləndirərək İli sultanlığına təhlükə yaratması Rusiyanı narahat etməyə başladı. Nəticədə 1871 - ci ilin iyununda Rusiya ordusu İli sultanlığı torpaqlarına basqın edərək, buradakı sultanlığı məhv etdi.

Yaqub bəyin üsyanına həm İngiltərə, həm də Osmanlı dövlətləri kömək edir, onu pul və silahla təmin edirdilər. Bundan başqa Cunqariyanın başqa ərazilərində, Qansu və baş Çin əyalətlərində üsyan dalğasının genişlənməsi Yaqub bəyin uğurları üçün şərait yaradırdı. Lakin Yaqub bəy bundan istifadə edə bilmədi. Öz ordusunu gücləndirən Yaqub bəy Tsin ordusuna qarşı fəal əməliyyatlar aparmaq əvəzinə Tsin sarayına məktub göndərərək dövlətinin tanınmasını istəyirdi. Buna görə də Barkul və Komulda Çinə qarşı çıxan üsyançılara heç bir yardım etmədi. Bununla da o, Çini özünün mehriban məqsədlərinə inandırmaq və Yeddişarı tanıtdırmaq istəyirdi. Bu da onun Şərqi Türküstanın Çin üçün strateji əhəmiyyətini nəzərə almamasından irəli gəlirdi.

Yaqub bəyin passivliyindən istifadə edən Çin hakimiyyəti dunqanları ona qarşı qaldırmaq istəsə də, buna nail ola bilmədi. Buna görə də Çin Qansudakı üsyanı yatırana qədər Yaqub bəyə qarşı ordu göndərə bilmədi. Lakin artıq 1873 - cü ildə Tsin orduları demək olar ki, yenidən işğal edə bilmişdilər. Həmin ilin sonuna yaxın dunqan üsyançılarının sonuncu qalası olan Suçjou işğal edildi. Bundan sonra Çin böyük bir ordunu Cunqariyaya göndərdi.

Sentyabr 1874 - cü ildə Tsin hakimiyyəti Yeddişar dövlətinə qarşı hücuma keçmək haqqında əmr verdi. 1876 - cı ilin fevralında Çin ordusu Yaqub bəyə qarşı cəza əməliyyatlarına başladı. 18 avqustda Qumudi adlı dunqan qalası Çin ordusu tərəfindən ələ keçirildi və əhali amansızlıqla məhv edildi. Yaqub bəyin səhvindən istifa-

də edən Çin ordusu Urumçini də ələ keçirdi. Bundan sonra Çin ordusu Manas şəhərini mühasirəyə aldı. Bir neçə aydan sonra şəhər ələ keçirilərək əhalisinin xeyli hissəsi məhv edildi. Bundan sonra 1877 - ci ilin əvvəlində Çin ordusu Dabançen yaxınlığında Yaqub bəyin ordusunu mühasirəyə alıb məhv etdi. Bununla da, Şərqi Türküstanın xeyli hissəsi Çinin əlinə keçdi. 1877 - ci ilin mayında Çin ordusu əhalinin güclü müqavimətini qırdıqdan sonra Turfan şəhərini ələ keçirdi. Lakin Yaqub bəy səhv edərək hələ də Tsin hökuməti ilə danışıqlara cəhd edirdi. O, hətta vasitəçilik üçün İngiltərə hökumətinə də müraciət etmişdi. Ancaq İngiltərə nümayəndəsi ilə Pekin sarayı arasında danışıqlar getdiyi zaman Yaqub bəy Çinin agenti tərəfindən zəhərlənib öldürüldü. Onun qatili Niyaz bəy Tsin hakimiyyətinin köməyi ilə Şərqi Türküstanda özü hakim olmaq istəyirdi.

Yaqub bəyin ölümündən sonra onun dövləti Qaşqar, Xotan və Ağsu ərazilərinə parçalandı və bunlar arasında siyasi mübarizə alovlandı. Nəticədə uyğur ordusu hərbi cəhətdən xeyli zəifləmiş oldu.

Bu vaxta qədər İngiltərənin təkliflərini qəbul etməyən Tsin hökuməti 1877 - ci ilin sentyabrında uyğurlara qarşı hərbi əməliyyatlara başladı. Dekabr 1877 - ci ildə Yarkənd Çin ordusu tərəfindən işğal edildi. Bununla da Çin hökuməti bütün Şərqi Türküstanda öz hakimiyyətini bərpa etdi. Lakin üsyançıların müqaviməti 1879 - cu ilə qədər davam etdi. Çin ordusu üsyana qalxmış torpaqların əhalisi ilə hədsiz amansız rəftar edir və bir çox yerlərdə az qala soyqırım həyata keçirirdi. Lakin bu amansız-

lıqlar uyğurların və başqa türklərin Çinə qarşı mübarizəsinin davam etməsinə səbəb oldu.

### *§ 1. Krım türkləri XVII - XIX əsrlərdə*

XVII əsrin ortalarında Krımın siyasi vəziyyəti mürəkkəb olaraq qalırdı. Bu zaman Krım xanlığı Ukraynada öz siyasi mövqelərini saxlamaq üçün buranın rəhbəri olan getman Boqdan Xmelnitski ilə siyasi danışıqlar aparırdı. Krımın bu danışıqlarda məqsədi Ukraynanı mümkün olacaq Rusiya və Polşa təhlükəsindən xilas etmək və eyni zamanda Krımın qərb sərhədlərinin təhlükəsizliyini təmin etmək idi. Krım xanı İslam Girey 1654 - cü ildə ölüm yatağında ikən son dəfə Boqdan Xmelnitskiyə Rusiya ilə əlaqələri kəsməyi təklif etdi. Bunun üçün o, Ukrayna kazaklarına əlindən gələn köməyi edəcəyini də vəd edirdi. Lakin artıq İslam Gireyin özü də Ukrayna kazaklarının Moskva ilə əlaqələrini pozacağına inanmırdı. Buna görə də hər ehtimala qarşı Şərqi Avropada qüvvələr balansını pozan Moskvaya qarşı o, Polşa ilə yaxınlaşma siyasətinə meyl etməyə başladı. 1654 - cü ildə Çigirində başlanan danışıqlar Jvanetskdə "dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında" Krım - Polşa müqaviləsi ilə sona çatdı. 10 iyulda İslam Gireyin vəfatından sonra ikinci dəfə taxta çıxan IV Mehmet Girey də müqaviləni təsdiq etdi.

Bağlanan müqavilə həm Krım, həm də zəifləyən Polşanın özü üçün mühüm əhəmiyyətə malik idi. Bunun ilk böyük əhəmiyyəti Moskvanın Polşa və Litva üzərinə

böyük həcmli yürüşə çıxmaq planlarının təxirə salınması oldu. Lakin bu dəfə Polşaya basqın planlarını təxirə salan Moskva nəzərlərini Krım tərəfə yönəltmişdi. Bu təklif isə Moskvaya Boqdan Xmelnitski tərəfindən verilmişdi. 1654 - cü ilin sonunda Boqdan Xmelnitskinin Moskvaya səfərinin ardınca Qazan və Həştərxana adamlar göndərilərək buraların əhalisindən rekrutlar toplanılmasına və təcili şəkildə Krıma basqın etmək üçün tədbirlər görülməyə başlandı. Xmelnitskinin özü dəMoskvaya kömək üçün iki kazak polku yollamışdı. Məsələdən hali olan Krım xanı da gözlənilən təhlükəni sovuşdurmaq üçün mühüm tədbirlər görməyə, ordu toplamağa, istehkamlar tikməyə başladı.

Lakin Qazan və Həştərxanda vəba xəstəliyinin yayılması Moskvanın hərbi hazırlıq tədbirlərini yarımçıq qoydu. Buna baxmayaraq Moskvanın təhriki ilə 1655 - ci ilin iyulunda 2000 kazak Azov dənizi vasitəsilə Krıma bir neçə hərbi səfər edib, xeyli dinc sakini qılıncdan keçirmişdilər. Bu hadisələr sentyabra qədər davam etmişdi.

Oktyabrda bu hücumun əvəzini çıxmağa çalışan Krım xanı Lvovu mühasirəyə alan Rus-Ukrayna ordusuna arxadan zərbə vurmuş, xeyli adamı məhv edib əsir götürmüşdü. Bundan sonra Ukraynanın xeyli şəhər və qəsəbəsi də qarət edilmişdi. Krımlıları təqib edən general Buturlinin ordusu 1655 - ci ilin noyabrında Ozyorna yaxınlığında məğlub edildi. Generalın özü isə oldürüldü. Moskva bu zərbədən sonra Krımla qısamüddətli atəşkəs bağlamışdı. Yaranmış fasilədən sərfəli şəkildə istifadə etmək istəyən Krım xanı bəzi diplomatik addımlar atmış,

Brandenburq hersoqluğu və Avstriyaya Rusiyaya qarşı birlik yaratmağı təklif etmişdi. Brandenburq bu təklifə rədd cavabı versə də, Avstriya bu təklifi isti qarşılamışdı.

1656 - cı ilin iyununda kazaklar yenidən Krıma basqın edərək Azovu mühasirəyə almış, lakin məğlub olub geri qayıtmışdılar. Buna baxmayaraq 1656 - cı ilin sonunda Moskvaya qarşı Krım - Polşa və Avstriya müqaviləsi imzalandı. İttifaqa gələcəkdə İsveçi də cəlb etmək planlaşdırılmışdı. İttifaqa Moskvadan muxtar hüquqlarının kəsilməsinə görə narazı qalan Ukrayna kazaklarının bir hissəsi də qoşulmuşdu. 1657 - ci ilin aprelində İsveç ordusu hücum edərək Krakov şəhərini ələ keçirdi. Krım xanlığı Osmanlı imperiyasının təzyiqi altında İsveçə qarşı Polşaya kömək üçün hərəkət etdi. Bu da dolayısı ilə Moskva ilə münasibətlərin pisləşməsinə gətirib çıxarırdı. Krımın İsveçə qarşı hərbi əməliyyatları uğurla davam edirdi. Həmin ildə kazaklar da dəfələrlə Krıma basqın edərək yerli əhalidən xeyli əsir alıb aparmışdılar.

Ümumiyyətlə, Polşanın Rusiya ilə apardığı müharibə 1667 - ci ildə Andrusovo müqaviləsi ilə başa çatmış və Ukraynanın şərqi Rusiyada, qərbi isə Polşada qalmışdı. Lakin 1672 - ci ildə Qərbi Ukrayna getmanı Doroşenko Polşadan ayrılaraq Osmanlı dövlətinin təbəəliyinə keçdi. Bu da Polşa ilə Osmanlı dövləti arasında müharibəyə səbəb oldu. Müharibədə məğlub olan Polşa Buğaç müqaviləsi ilə Sağsahil Ukraynasını Osmanlı dövlətinə güzəştə getməli oldu. Lakin müharibəyə Polşa tərəfdən Rusiya qarışdı. Müharibə kazakların Osmanlı vassalı olan Krım xanlığı torpaqlarına hərbi basqınları ilə müşayiət olunur-

du. Lakin 1677 - ci ildə Çigirin döyüşündə Osmanlı - Krım orduları Moskva dövlətini məğlub etdilər. Müharibə 1681 - ci ildə Bağçasaray atəşkəsi ilə qurtardı. Müqavilə 20 il müddətinə bağlanmışdı.

Lakin tezliklə Moskva anti Osmanlı birliyinə qoşularaq birbaşa Krım üzərinə yürüş etməyə başladı. XVII əsrin sonlarına doğru Rusiya ilə Krım arasında toqquşma qaçılmaz idi.1687 – 1700 - cü illər müharibəsinin səbəblərindən biri 1686 - cı ildə Rusiyanın Reç Pospolita bağladığı "əbədi sülh" müqaviləsi idi. Bu müqavilənin şərtlərindən biri də Rusiyanın məcburi qaydada Osmanlı dövlətinə qarşı koalisiyaya qoşulması və tezliklə müharibəyə başlaması idi. Bu addımı atmaqla I Pyotrun adından dövləti idarə edən bacısı Sofya Alekseyevna və sevgilisi Vasili Qolitsın öz siyasi mövqelərini gücləndirməyə çalışır və eyni zamanda Qolitsının qüdrətinə qarşı artan, tez bir zamanda I Pyotru hakimiyyətə gətirmək istəyən qruplaşmanı nüfuzdan salmaq istəyirdilər. Rusiya siyasi dairələrində Krımla və Osmanlı imperiyası ilə müharibəyə başlamağın əleyhinə olanların mövqeyi çox güclü idi. Onlar diqqəti daha çox Rusiyanın daxili vəziyyətini stabilləşdirməyin üstündə cəmləşdirməyi düzgün hesab edirdilər. Lakin buna baxmayaraq Sofya hakimiyyəti Osmanlı imperiyasına yürüşə başlamağı qərara aldı.

1687 - ci ilin mayında general Vasili Qolitsının rəhbərliyi altında rus ordusu Krım istiqamətində yürüşə çıxdı. İyun ayına qədər Krıma doğru yol gedən rus ordusu yorulmaqdan əlavə Krım türklərinin yollarda tətbiq etdikləri "yandırılmış torpaq" taktikası ilə üzləşdilər. Yol-

larda nə su, nə ot, nə də ərzaq tapmaq mümkün oldu. Təkcə Qara Çakmak yaxınılığında rus ordusunun zəhərlənməsi xeyli adamın ölümü ilə nəticələndi. Bundan başqa getman İvan Samoyloviçlə olan ziddiyyətlər də rus ordusunun yürüşünün uğursuz olmasında xüsusi rol oynadı. 17 iyunda rus ordusu geri dönmək haqqında qərar qəbul etdi. Lakin geri döndükdə də ruslar xeyli itkiyə məruz qaldılar. Ümumi hesabda 10 min itki verən rus ordusu Rusiyaya dönmək məcburiyyətində qaldı.

Fevral 1689 - cü ildə Rusiya ordusu yenidən Qolitsının başçılığı altında Krıma yürüş etməyə başladı. Lakin aprel ayında krımlıların basqınları, yollarda bütün ot-alafın, su və ərzaqın məhv edilməsi ilə üz - üzə qalan rus ordusu 20 min ölü və 15 min əsir verməklə yenidən geri qayıtmalı oldu. Bundan sonra Rusiyada Sofya və Pyotr arasında ziddiyyətlərin baş verməsi ilə əlaqədar olaraq Krıma rus ordusu hücum etmədi. Ancaq Ukrayna kazakları və Krım xanlığının ordusu arasında ara - sıra toqquşmalar davam edirdi.

Rusiya ilə Krım arasında gərginlik 1694 - cü ildə I Pyotrun anası oldükdən və onun siyasi nüfuzu artdıqdan sonra yenidən yarandı. Qəflətən I Pyotr yenidən Krım üzərinə yürüş etmək qərarı verdi. 1695 - ci il hərbi əməliyyatların planına görə I Pyotrun özü birbaşa Azov qalası üzərinə basqın etməli, Şeremetevin ordusu isə Dnepr ətrafında fəaliyyət göstərərək, bucaq, krım və kuban tatarlarını birləşməyə qoymamalı idi. Lakin rus ordusu çoxlu çaylar, dərələrlə dolu olan düzdə hücum etmək təcrübəsinin olmaması səbəbindən, eyni zamanda I

Pyotrun Azov ətrafında həddindən artıq vaxt itirməsi üzündən hədsiz itkilər verməklə geri çəkildi. Yalnız Şeremetevin ordusu Dnepr ətrafında uğur qazanaraq Qazı Kerman və Aslan Kerman qalalarını ələ keçirmişdi.

Bundan sonra I Pyotr Azov qalası üzərinə hərbi səfərə yenidən hazırlaşmağa başladı. Yeni istehkamlar tikildi, ordu yenidən quruldu və Azov dənizinin ruslar tərəfindən tutulmuş hissəsində gəmilər tikilməyə başladı. 1696 - cı ilin mayın 26 - da Azov ruslar tərəfindən inadlı döyüşlərdən sonra işğal edildi. Bunun arxasınca Azov dənizində 58 - dən artıq müxtəlif modifikasiyalı gəmilər tikilməyə başlandı. Ona kimi Osmanlı və Krım ordusu Avropada ruslar tərəfindən tutulan Qazı Kerman və Aslan Kerman qalalarını geri qaytara bilmişdi. Buna görə də 1698 - ci ildə buraları qaytarmaq və türklərin diqqətini Azovdan yayındırmaq üçün I Pyotr həmin ərazilərə yeni bir ordu göndərmişdi.

Lakin bu vaxta qədər Qərbi Avropada Rusiyanın müttəfiqləri "İspaniya irsi" uğrunda müharibəyə qoşulmaq üçün Osmanlı dövləti ilə sülh danışıqlarına başladılar. Bundan başqa müharibədən Rusiyanın ağır vəziyyətə düşməsi 1698 - ci ildə Moskvada streleslərin qiyamı ilə nəticələndi. Ancaq I Pyotru başqa bir uğursuzluq da gözləyirdi. 1699 - cu ilə Rusiyanın Voronejdə Azova yürüş üçün tikilmiş 58 gəmisindən yalnız 5 – 6 - sı dənizə çıxası vəziyyətdə oldu. Bu üzdən Kerçi tutmaq planını gerçəkləşdirə bilməyən I Pyotr yalnız Azov dənizində Kerç istehkamları önündə hərbi dəniz "paradı göstərməklə" kifayətlənməli oldu. Lakin bu "parad" da Osmanlı koman-

danlığında şok təsiri buraxmışdı. 14 iyul 1700 - cü ildə Konstantinopol sülh müqaviləsi imzalandı. Müqaviləyə görə Azov qalası və onun ətrafında ruslar tərəfindən tikilən Taqanroq, Pavlovsk və Mius qalaları Rusiyaya verildi. Bundan başqa rus ordusu Dnepr ətrafındakı tutduğu Osmanlı qalalarından çıxarılmalı və bu qalalar tezliklə dağıdılmalı idi.

Lakin sülh imzalandıqdan sonra ruslar dəfələrlə Krımın sərhədlərini pozmuş və hətta daha irəli gedərək müxtəlif bəhanələrlə birbaşa Krım ərazilərində müxtəlif hərbi istehkamlar tikmişdilər. Lakin Krım xanlığı dəfələrlə Osmanlı sultanına müraciət etsə də, Osmanlı dövləti Rusiya ilə sülhü pozmaq istəmədiyi üçün müraciət cavabsız qalmışdı. Bundan başqa Osmanlı sarayında baş verən çəkişmələr və bundan da qaynaqlanan Krım sarayındakı çəkişmələr rusların Krım torpaqlarında müqavimətsiz irəliləmələrinə şərait yaradırdı. Nəticədə Krımla Osmanlı sarayı arasında ziddiyyətlər də artırdı. Krım xanlığının kömək üçün müraciətlərindən sonra yalnız 1702 – 1703 - cü illərdə Osmanlı dövləti Krım sərhədlərində yeni bir istehkamın Yeniqala istehkamının tikilməsi ilə kifayətlənmişdi. Rusiya isə Krımı təmamilə işğal etmək fikrindən hələ də əl çəkməmişdi. Yeni yürüş üçün bəhanə 1709 - cu il Poltava döyüşündə rus ordusunun qələbəsindən sonra ələ düşdü. Belə ki, Poltava döyüşündə məğlubiyyətdən sonra İsveç kralı XII Karl Osmanlı dövlətinə qaçmışdı. Rusiya da kralın Osmanlı ərazisindən çıxarılmasını tələb edirdi. 1710 - cu ildə Rusiya Apraksinin rəhbərliyi altında xeyli miqdarda ordunu Krım xanlığı-

nın və Osmanlı imperiyasının Dnepr sərhədlərində cəmləşdirdi. 1710 - cu ilin oktyabrında I Pyotr XII Karlın Osmanlı ərazisindən uzaqlaşdırılmasını tələb etdi. Lakin əvəzində rus ordusunun hazırlıqlarından təşvişə düşən Osmanlı dövləti Rusiyaya müharibə elan etdi. Dekabr 1710 - cu ildə Dövlət Girey Zaporojye kazakları və XII Karlla görüşdü, bundan başqa Polşadan da silahlı dəstələrdən də yardım aldı. 1711 - ci ilin yanvarında Krım xanı Rusiyaya qarşı hərbi əməliyyatlara başladı. Onun arxasınca Osmanlı qüvvələri də hərbi əməliyyatlara qoşuldu. İlk hərbi zərbə Sağsahil Ukraynasında endirildi. Burada onlar polyak hərbi dəstələri ilə birləşməli idilər. Solsahil Ukraynasında Novosergiyev qalasını tutan xan ordusunun Xarkov və İzyum istiqamətindəki basqınları baş tutmadı. Onlar geri qayıtdılar.

Martda Krım ordusu yenidən Ukraynaya basqın etdi. Lakin rus ordusu tərəfindən məğlub edilərək Benderı tərəfə çəkilməyə başladı. Lakin burada da ruslar krımlılara çataraq onları məğlub etdilər. 1711 - ci ilin aprelində Şeremetevin rəhbərliyi altında rus ordusu Dunay istiqamətində, mayda Buturlinin rəhbərliyi altında Krım istiqamətində hərəkət etməyə başladılar. Baxtı Gireyin ordusu ruslara Tor və Baxmut istiqamətində zərbə vuraraq dəf edilmiş, lakin rusların yürüşünü xeyli yubada bilmişdilər. Ancaq 7 iyulda Krım ordusu hücuma keçərək Buturlinin ordusunu pis vəziyyətə sala bilmişdi. Orduda artıq aclıq başlamışdı. Bundan başqa Tor, Baxmut və Sloboda Ukraynası krımlıların əlinə keçmişdi. 23 iyulda Buturlinin ordusu krımlıların təzyiqi altında geri çəkilməyə baş-

ladı. 1 - 3 avqustda isə I Pyotr türklərlə Prut sülhünü imzalayaraq geri qayıtdı. Azov qalası isə Apraksin tərəfindən boşaldıldı. Yalnız Kuban istiqamətində ruslar bir neçə qələbə qazanaraq Baxtı Gireyin buradakı qərargahını dağıda bilmişdilər.

1712 – 1714 - cü illərdə Rusiya ilə Türkiyə arasında başqa müqavilələr də imzalanmışdı. 1720 - ci ilə qədər Krım xanlarının Rusiya ərazisinə yürüşləri də ara vermişdi. Bunun da bir neçə səbəbləri var idi. Bunlardan birincisi, Krımın sosial -iqtisadi inkişafı idi. Əvvəlki köçərilər indi fəal surətdə sənətkarlıq, əkinçilik və ticarətlə məşğul olurdular. Bu da onların qarətçi yürüşlərə olan marağını azaldırdı. İkincisi, Krımın siyasi zəifliyində idi. Krım daha əvvəlki kimi güclü dövlət deyildi. Xüsusilə də,onun siyasi və hərbi gücü Rusiya ilə heç cür müqayisə oluna bilməzdi. Bunu da Krım xanları yaxşı başa düşürdülər. Buna görə də Krım Rusiya ilə dostluq səviyyəsində münasibətlər qurmağa çalışırdı. Lakin eyni şeyi Rusiya haqqında demək olmazdı. Rusiya öz gücünün artdığını yaxşı başa düşür və Krımı əvvəlki səviyyədə güclü dövlət kimi deyil, əslində işğalçılıq obyekti kimi qavrayırdı. Bu da gələcəkdə Rusiyanın Krıma qarşı siyasətinə təsir edirdi. Rusiyanın gücünün artması,onun qərb sərhədlərinin təhlükəsizliyinin təmin edilməsidə artıq ölkənin diqqətini daha çox cənuba doğru yönəldirdi. Rusiyanın da yaxın vaxtlarda müharibəyə başlayacağı heç kəs üçün artıq sirr deyildi. 1731 – 1733 - cü illərdə Rusiya başlayacağı gələcək müharibəyə əsaslı şəkildə hazırlaşmağa başlamışdı. Ukrayna və Krım arasında 1000 verstlik bir məsafədə

mühüm əhəmiyyəti olan istehkamlar və qalalar şəbəkəsi tikilmişdi. Bunların məqsədi gələcək hücum əməliyyatlarında rus ordusu üçün baza rolunu oynamaq idi. Bundan başqa Rusiya hakimiyyət orqanları Krım və kuban tatarlarına qarşı kalmıkların qüvvələrindən də istifadə etməyə başladılar. Bu da kalmıkların noqayların və kuban tatarlarının üzərinə dağıdıcı yürüşlərə səbəb olurdu. Adət üzrə də bu xalqlara qarşı əməlli- başlı soyqırım siyasəti aparılırdı.

Bu zaman Krımda da vəziyyət yaxşı deyildi. 1720 - ci ildən başlayaraq Krımda tam xaos vəziyyəti yaranmışdı. Bəylərlə xan ailəsi arasında olan müharibələr ölkəni var- yoxdan çıxarmış, ölkənin idarəsində özbaşınalıq yaranmışdı. 1724 - cü ildə hakimiyyətə gələn II Menqli Girey hakimiyyətdə möhkəm qalmaq və ölkəni müflisləşməkdən qurtarmaq üçün Osmanlı dövlətindən asılı qalmaqda davam edirdi. Bu isə daima müharibələrə meylli siyasət zəminində Krımın heç də mənafelərinə uyğun deyildi.

1730 - cu ildə İstanbulda yeniçəri qiyamından və sultan III Əhmədin hakimiyyətə gəlməsindən Rusiya istifadə etməyi qərara aldı. Buna görə də diplomatik yolla Nadir xana I Pyotr tərəfindən tutulmuş əraziləri qaytarmaq şərti ilə Osmanlı dövlətinə qarşı müharibə etmək təklifi edildi. Bundan heç nə itirməyən əksinə bütün Səfəvi torpaqlarını qaytarmaq arzusunda olan Nadir xan Osmanlı dövlətinə qarşı müharibəyə başladı. Aydındır ki, bu vəziyyətdə Krım xanlığı da Osmanlı dövləti tərəfindən müharibəyə qatılmalı idi. Lakin Zaqafqaziyaya ge-

dən yol Kuban və Terek ətrafından keçirdi. Buranı isə Rusiya nədənsə öz torpaqları hesab edirdi. Bu məsələ barəsində bir neçə dəfə Rusiya ilə Osmanlı dövləti arasında diskussiya olmuşdusa da, Osmanlı tərəfi hər dəfə Rusiyaya onun iddialarının əsassız olduğunu sübut etmişdi. Buna baxmayaraq Kabardada bir neçə xırda knyazın Rusiya asılılığını qəbul etməsini bəhanə edən Rusiya Kabardanın Rusiya ərazisi olduğunu yenə də iddia edirdi. 1733 - ci ildə Krım süvarilərinin Kabarda və Kumıkiya vasitəsilə Zaqafqaziyaya hərbi yürüşü Rusiyanın Osmanlı dövlətinə müharibə elan etməsi üçün bəhanə oldu. İlk vaxtlar başı Polşa irsi uğrunda müharibəyə qarışan Rusiya savaşa girməkdən boyun qaçırdı. Lakin 1735 - ci ildə Krım ordusunun yenidən Kabardaya daxil olması Rusiyanı birbaşa Osmanlı dövlətinə müharibə elan etməyə sövq etdi. Ruslar burada da maraqlı bir mövqe tutdular. Onlar əvvəlcə Krım ordusunun Zaqafqaziyaya getməsinə mane olmadılar və bundan sonra birbaşa Krım üzərinə yürüşə başladılar. Oktyabr 1735 - ci ildə Krım xanı Zaqafqaziyaya basqın etdikdən bir neçə ay sonra general Leontyevin ordusu Krım üzərinə basqın etdi. Lakin qışın tez düşməsi, yağışların düzdəki torpaqları bataqlığa döndərməsi və Krım əhalisindən toplanan könüllülərin tez - tez baş verən basqınları rus ordusunu böyük itkilərlə geri dönməyə vadar etdi.

1736 - cı ilin yazında rus ordusu Krım üzərinə yenidən basqın etdi. İki hissəyə ayrılan ordunun birinci qolu baş komandan Minixinin rəhbərliyi altında birbaşa Krıma basqın etməli və general Lassinin rəhbərliyi altında

ikinci ordu isə Azov qalasını alaraq, sonradan Miizin ordusuna birləşməli idi. Lakin rus ordusunun buradakı yeganə qələbəsi iyunda Azov qalasının zəbt edilməsi oldu. Minixin ordusu isə bir neçə toqquşmada krımlılara məğlub olaraq Krımdan tələsik geri çəkilməyə başladı. Krım ordusu ilə vuruşa bilməyən ruslar üstünlüyü şəhərlərin və kəndlərin qarət edilməsinə verirdilər. Nəticədə rus ordusu 30min əsgər itirərək tələsik geri çəkilməyə məcbur oldu. Bu da Rusiya sarayında şok effekti yaratmışdı. Krımlıların Solsahil Ukraynasına cavab zərbəsi də Rusiyaya xeyli ziyan vurmuşdu.

1737 - ci il hərbi kompaniyasını rus ordusu Dnepr ətrafına zərbə vurmaqla, bununla da krımlıların bucaq və kuban tatarları ilə əlaqələrinin kəsilməsi istiqamətində əməliyyatlar aparmaqla başladı. İyulda Oçakov qalası rusların əlinə keçdi. Başqa bir general Lassinin ordusu isə Krıma daxil olaraq Baxçasaray başda olmaqla, bir neçə Krım şəhərini qarət etmişdi. Lakin Lassi Kerç istiqamətində yürüşü davam etdirmədən geri döndü. Hərbi əməliyyatlar gözlənilən nəticəni verməsə də nisbətən uğurlu davam etmişdi. Lakin Osmanlı diplomatiyası Moldaviya və Valaxiyaya eyni zamanda tələblər irəli sürən Avstriya və Rusiyanı bir - birinə salışdıra bilmişdi. Bununla da Avstriya Osmanlı ordusuna qarşı hərbi əməliyyatları faktiki olaraq dayandırmışdı.

1738 - ci ilin hərbi əməliyyatları isə çox uğursuz başladı. Türklər və krımlılar rus ordusunu hər vasitə ilə əldən salırdılar. Nəticədə Perekop və Oçakov qalaları yenidən türklər tərəfindən ələ keçirilmişdi. Bundan başqa İs-

veç tərəfindən Rusiyaya qarşı müharibə təhlükəsi yaranmış, Avstriya isə zəifləyərək faktiki müharibədən çıxmışdı. Buna görə də Rusiya hansı yolla olursa - olsun Osmanlı dövləti ilə sülh bağlamaq istəyirdi. 1739 - cu ildə hərbi əməliyyatlar ruslar üçün uğurlu başlamışdı 1739 - cu ilin avqustunda Stavuçan döyüşündə rus ordusu Osmanlı - Krım ordusunu məğlub etmiş və Xotini tutmuşdu. Bundan başqa Moldaviya Rusiya asılılığını qəbul etmək haqda sənəd imzalamışdı. Lakin Qorçitsa yaxınlığında Osmanlı ordusuna məğlub olan Avstriya Osmanlı dövləti ilə tələsik sülh imzaladı. Bu da Rusiyanı ağır vəziyyətə saldı. 18 sentyabr 1739 - cu ildə Belqrad sülhü imzalandı. Sülhün şərtlərinə görə yalnız Azov qalası dağıdılmaq şərti ilə Rusiyaya verilirdi.

Belqrad sülhündən sonra Rusiya ilə Osmanlı dövləti və Krım arasında 30 illik sülh yarandı. Lakin bundan istifadə edən Rusiya Krımla arasında olan düz baryerini azaltmaq üçün xeyli qalalar və istehkamlar tikərək sərhədlərini Krıma doğru genişləndirdi. Artıq 1769 - 1774 - cü illər Rus - Osmanlı müharibəsi ərəfəsində Rusiya Krımla həmsərhəd bir dövlətə çevrilmişdi. Bu da Krımın işğalı üçün əlverişli şərait yaradırdı. Bunu Rusiya hakim dairələrində artıqlaması ilə nəzərə alırdılar. Artıq XVIII əsrin 60 - cı illərindən başlayaraq Rusiya Şimali Qafqazda Osmanlı və Krım xanlığının nüfuz dairəsində hesab edilən xalqları ya diplomatik, ya da hərbi yolla öz hakimiyyəti altına almağa çalışırdı. Aydındır ki, Rusiyanın bu hərəkətləri Osmanlı dövləti tərəfindən narazılıqla qarşılanırdı. Krım xanlığı və Osmanlı dövləti bir neçə dəfə hətta

Rusiyaya nota da göndərmişdilər. Eyni zamanda Rusiya Krım xanına birbaşa tabe olan bucaq tatarları, Kiçik Noqay ordası, kuban tatarları arasında da güclü təbliğat işləri aparırdı. Bu da Krım xanlığının nüfuzuna böyük zərbə vururdu. XVIII əsrin 60 - cı illərinin sonunda hər iki tərəf müharibənin qaçınılmaz olduğunu aydın başa düşürdü. Rəsmi olaraq müharibəyə ilk olaraq Osmanlı dövləti başladı. 1768 - ci ilin 18 noyabrında Osmanlı imperiyası Rusiyaya müharibə elan etdi. Hərbi əməliyyatlar 1769 - cu ilin yazında başlandı. Osmanlı dövləti əslində Rusiyanın Polşa üsyanına başının qarışmasından istifadə edərək ona qəfil zərbə vurmaq fikrində idi. Lakin Polşa müharibəsi əslində Rusiyanın xeyrinə idi. Çünki Rusiya ordusu Polşa ərazisi vasitəsilə Osmanlı imperiyasının birbaşa ərazilərinə daxil ola bilərdi. İlk olaraq da hərbi əməliyyatlar da məhz Dunay knyazlıqları, Moldaviya və Valaxiya ərazilərində başlandı. Müharibəyə ilk olaraq Krım ordusunun Qərbi Ukrayna ərazisinə basqını ilə başlanıldı. Krıma qarşı Rumyantsev və Qolitsının rəhbərliyi altında iki ordu çıxarıldı. Lakin 1769 - 1770 - ci illərdə müharibə Krımdan uzaqda Dunay ərazisində aparılırdı. Sentyabrda rus ordusu Moldaviya və Valaxiyanı ələ keçirdi. 1770 - ci ildə Çeşmə buxtasında döyüşdə ruslar Osmanlı donanmasını məğlub etdilər. 7 və 21 iyul 1770 - ci ildə Larqa və Kaqul döyüşlərində Rumyantsev türk ordusunu darmadağın etdi. Qələbələr nəticəsində rus ordusu Akkerman, İsmail, Kiliya və başqa türk qalalarını ələ keçirdi.

Krıma qarşı bu zaman Berqin rəhbərliyi altında xüsusi ordu fəaliyyət göstərirdi. Lakin bu ordu daha çox diversiya əməliyyatları ilə kifayətlənirdi. Lakin burada da rus ordusu Taqanroq və bəzi qalaları tuta bilmişdi. 1771-ci ildən başlayaraq Rusiya üçün Krım kompaniyasının xüsusi əhəmiyyəti artmağa başladı. Çünki Dunay hövzəsində müəyyən qələbələrə baxmayaraq Rusiya ordusunun strateji vəziyyəti burada yaxşı deyildi. Krımın vəziyyətini ağırlaşdıran başlıca səbəblərdən biri də yeddisan tatarları, noqaylar və bucaq tatarlarının Rusiyanın tərəfinə keçməsi idi. Bu da Krımı demək olar ki, müdafiəsiz qoymuşdu. Eyni zamanda Krımda Rusiya tərəfdarı Şahin Girey xanla Səlim Girey arasında siyasi mübarizə də qızışmışdı.

Krıma soxulan Dolqorukovun rəhbərliyi altında rus ordusu az bir müddətdə xeyli qalaları ələ keçirərək, Kerçə qədər irəlilədi. Krımlıların vəziyyətini ağırlaşdıran başqa bir səbəb də onların ordusunun Dunay kompaniyasında zəifləməsi, Krım xanı Səlim Gireyin dövləti buraxaraq İstanbula qaçması, eyni zamanda Osmanlı dövlətinin Krıma düzgün kömək göstərə bilməməsi idi. Yayda rus ordusu Kəfə və Taman adasını ələ keçirdi. Rus ordusunun Krıma yürüşü əsl triumf idi. Lakin bu yürüş əhalinin başdan başa qarət edilməsi, insanların kütləvi şəkildə məhv edilməsi ilə müşayiət edilirdi.

1771 - ci ildə Dolqorukov Krım taxtında Şahin Gireyin qardaşı Sahib Gireyi xan kimi təsdiq etdi və onunla da Krım haqqında danışıqlara başladı. Lakin Krım xanı hər vasitə ilə Rusiya ilə danışıqları uzatmağa çalışır və

özü üçün güzəştli şərtlər əldə etmək istəyirdi. Ruslar vəziyyətin Krım üçün "yaxşı olmadığını nəzərə çatdırmaq "üçün Krımın bir çox şəhərlərində ruslar əməlli - başlı soyqırım həyata keçirdilər. Mənbələrin yazdığına görə 30mindən çox adam qətlə yetirildi. Nəticədə soyqırımın qarşısını almaq üçün Krım xanı 1 noyabr 1772 - ci ildə Rusiya ilə onun "müstəqilliyini təsdiqləyən" "Qarasubazar müqaviləsi" ni imzaladı. Bu da gələcəkdə Krımın kölə halına salınmasının əsasını qoyan Kiçik Qaynarca müqaviləsinin başlanğıcını qoydu. Müqaviləyə görə Kerç, Yeniqala, Axtiyar və Akkerman qalaları Rusiyaya verilirdi. Bundan başqa Rusiya Krımın müstəqilliyinin təminatçısı rolunu öz üzərinə götürürdü. Müqavilədə ticarət, sənaye və sair öhdəliklər də nəzərdə tutulmuşdu.

Müharibə 10 iyul 1774 - cü ildə Kiçik Qaynarca müqaviləsinin imzalanması ilə başa çatdı. Müqavilə üçün hüquqi baza rolunu "Qarasubazar müqaviləsi" oynayırdı. Rusiya müqavilədən fəal şəkildə istifadə edərək Qara dənizdə donanma yaradılmasına başladı.

Lakin Kiçik Qaynarca müqaviləsindən sonra Krımda ara müharibələri də artmağa başladı. Sahib Gireyin ölümündən sonra hakimiyyətə Dövlət Girey gəldi. Onun hakimiyyətini də Osmanlı dövləti müdafiə edirdi. Hələ iyul 1774 - cü ildə Dövlət Girey türk desantı ilə Aluşta yaxınlığında sahilə çıxdı. Lakin ruslar desantı məğlub edib Krımın içərilərinə girməyə imkan vermədilər. 1776 - cı ildə II Yekaterina Krıma ordu yeritməyi və Şahin Gireyi Krım taxtında oturtmağı qərara aldı. Oktyabrda rus ordusunun təzyiqi ilə Dövlət Girey Türkiyəyə qaçmağa

məcbur oldu. Krım əhalisi Şahin Gireyə sədaqət andı içdi.

Şahin Girey Krımı Rusiya nümunəsində böyük hərbi dəniz dövlətinə çevirmək istəyirdi. Buna görə də Krımda mühüm islahatlar aparmağa başladı. Xan divanı yenidən quruldu, ölkə 6 qaymakamlığa bölündü. Maliyyə xərcləri, əyanların gəlirləri və vergilərin toplanmasına sərt nəzarət qoyuldu. Daha sonra nizami ordu yaratmaq üçün Krımda əhalinin siyahıya alınması keçirildi və 5 ailədən birindən rekrut toplanmasına başlanıldı. Lakin bu islahatları keçirməyə xanın nə maliyyə vəsaiti, nə kadrları, nə də iradəsi yox idi. Bundan başqa Krım əhalisi onların nəzərində onların dinini tapdalayan, adətlərinə düz gəlməyən bu islahatlara dəhşət və narazılıq hissi ilə baxırdılar. Bundan başqa əyanların saray xidmətçiləri vəziyyətinə düşmələri onların narazılığına səbəb olurdu. Bütün bunlardan əlavə Krım xanı özünə başqa bir düşmən də qazandı, bu da onun vəqf əmlakını müsadirə etmək tədbirindən narazı qalan ruhanilər idi. Nəticədə 1777 - ci ildə Şahin Gireyə qarşı üsyan baş verdi. 1778 - ci ildə üsyandan istifadə etmək istəyən Rusiya təcili Krım sərhədlərinə qoşun yeritdi. Türklər də vaxtı fövtə vermirdilər. 1777 - ci ildə Krıma Səlim Girey rəhbər olmaqla türk ordusu yeridildi. Nəticədə üsyan bütün yarımadanı əhatə etməyə başladı. Lakin fevralda Səlim Girey ruslar tərəfindən mühasirəyə alınıb məhv edildi. Buna görə də 1778 - ci ildə Krımın sahillərinə böyük türk donanması yaxınlaşdı.Rusiya Türkiyə ilə 1779 - cu ildə "Aynalı Qavaq konvensiyası" nı imzalayaraq Krımın daxili işlərinə

qarışmamaq öhdəliyini götürdü və ordunu Krımdan çıxardı.

Hakimiyyəti yenidən qaytaran Şahin Girey narazı olanlara qarşı xüsusilə sərt tədbirlər gördü. Ən böyük səhvi isə 1782 - ci ildə ona müraciət edib dini ənənələri saxlamağı xahiş edən müftini asdırması oldu. Bununlada Tamanda ona qarşı başlayan üsyan ümumkrım üsyanına çevrildi. Üsyana Səlim Gireyin qardaşları Batır Girey və Arslan Girey rəhbərlik edirdi. Türkiyənin də işə qarışması ilə Kəfədə Mahmud Girey xan elan edildi. Rus ordusu bu dəfə də Qarasubazar yaxınlığında Mahmut Gireyi məğlub edib, onu əsir aldı. Lakin taxta oturdulan Şahin Girey yenidən edamlar həyata keçirərək camaatı üstünə qaldırdı. Üsyandan istifadə edən Rusiya Potyomkinin rəhbərliyi altında Krıma ordu yeritdi və Şahin Gireydən Krımı Rusiyaya verməyi tələb etdi. Nəticədə fevral 1783 - cü ildə Şahin Girey taxt - tacdan imtina etdi. 19 apreldə II Yekaterina Krımın ilhaq edilməsi haqqında qanun verdi. Şahin Girey ilk vaxtlar Tamanda yaşadı. Rusiya inzibati orqanları onun Krımda qalmasını arzuolunmaz hesab edirdilər. Onun sonrakı taleyi də acınacaqlı oldu. Əvvəlcə Voronej, sonra Kaluqaya sürgün edildi. Bundan sonra Şahin Girey Osmanlı dövlətinə mühacirət etdi. Lakin oradan da Rodos adasına sürgün edildi, sonra isə Sultan I Əbdülhəmidin əmri ilə edam edildi.

1783 - cü ilin 16 iyulunda Ak - Kaya yaxınlığında Krım əhalisi Rusiya İmperatoruna sədaqət andı içdi. Bundan başqa imperatriçənin əmri ilə Krım əhalisi hərbi mükəlləfiyyətdən azad edildi. 1784 - cü ilin 9 yanvarında

Aynalı Qovaq müqaviləsinə görə Osmanlı dövləti də Rusiyanın Krımın işğalını tanımalı oldu. 10 iyun 1784 - cü ildə Krımda xüsusi zemstvo idarəsi və "Valilik" yaradıldı. Zemstvo idarəsinə Mehmetşah bəy Şirinli, Hacı Qazı ağa və kazıəsgər Müsliddin Əfəndi daxil idi. Məhmətşah Şirinli eyni zamanda Krımın valisi idi. Lakin burada bütün hakimiyyət Krımın və Yekaterinoslavın general -qubernatoru olan qraf Potyomkinə məxsus idi.

Krımda əsl hakimiyyət hərbi dairələrin əlində idi. Məhmətşah bəyin yalnız nümayəndəlik funksiyası var idi. Lakin tədricən Krımın idarəsi ümumrusiya standartlarına uyğunlaşdırılırdı. Fevral 1784 - cü ildə Krım diyarı yaradıldı ki, bunu da Ekaterinoslav və Tavriya general - qubernatoru idarə edirdi. 8 fevralda Krım diyarı (Tavriya adlandırılmışdı - müəllif) 7 uyezdə bölündü. Mart 1784 - cü ildə Krımın gerbi də təsdiqləndi. İlk vaxtlar Krımın inzibati paytaxtları kimi Qarasubazar və Levkopol müəyyənləşmişdi. Sonradan Krımın inzibati mərkəzi Simferopol (Ağ Məscidin yaxınlığında-müəllif) elan edildi. Tavriya diyarının ilk rəhbəri V. V. Kaxovski (1784 - 1788) təyin edildi Ondan sonra isə bu vəzifəyə S. S. Jequlin (1789 - 1796) təyin edildi. O, da Tavriyanın sonuncu qubernatoru oldu.

Bütün bunlarla bərabər Rusiya hökuməti Krım zadəganlarına da müəyyən güzəştlərə getmişdi. 1787 - ci ildə Krımda zadəgan seçkiləri keçirildi. Nəticədə Məhmətşah bəy Şirinli zadəganların ali nümayəndəsi seçildi. Krımda bütün vəzifələr iki tatar sülaləsi Şirinlər və Mənsurların əlində cəmləşmişdi. Polis və məhkəmə orqanları-

nın da təşkilində yerli ruhanilərin nümayəndələrindən istifadə edilirdi. Bəzi şəhərlərdə Magistratlar təşkil edilsə də, kiçik şəhərlərdə və yaşayış məntəqələrində qaymaqamlıqlar qalırdı.

Krımın Rusiya daxili bazarına daxil edilməsi və iqtisadi inkişafı üçün Rusiyadan buraya çoxlu elmi və inzibati ekspedisiyalar göndərilirdi. Potyomkin Krımın inkişaf etdirilməsi üçün müxtəlif layihələr də hazılamışdı. Bundan başqa balıqçılığın, dəniz ticarətinin və sənayenin inkişafı üçün müxtəlif tədbirlər görülürdü. Krımın başlıca limanı olan Feodosiyanın inkişafına da diqqət verilirdi.

Krımda hərbi mükəlləfiyyətin ləğv edilməsinə baxmayaraq yerli əhalinin hərbi işə qəbul edilməsinə də calışırdılar. 1784 - cü ilin 1 martında krımlılardan ibarət hərbi dəstələrin yaradılması haqqında əmr verildi. Onlardan yaradılan dəstələrə rəsmi sənədləşmədə "beşley" deyilirdi. Bunların başlıca məqsədi ordudan qaçanları təqib etmək,poçt arabaları, meşələri qorumaq və qaçqın quldurları həbs etmək idi. 1796 - cı ilə qədər xidmət edən bu dəstələri I Pavelin əmri ilə ləğv etdilər.

Rusiyanın başlıca diqqət ayırdığı təbəqələrdən biri də ruhanilər təbəqəsi idi. Bunlar ənənəvi Osmanlı tərəfdarları hesab edildiklərinə görə bunların fəaliyyətinə müxtəlif rəsmi maneələr törədilirdi. Onların həccə getməsinə də bürokratik maneələr yaradılırdı. Bundan başqa ruhanilərin sayı da ciddi şəkildə məhdudlaşdırılmışdı. Osmanlı dövləti xeyrinə fəaliyyətdə şübhəli bilinələr isə Rusiyanın daxili quberniyalarına sürgün edilirdilər, çox-

larını isə mühacirətə məcbur edirdilər. 1794 - cü ilin yanvarında “Tavriya müsəlmanlarının ruhani komitəsi “ yaradıldı. Lakin onun dəqiq səlahiyyətləri isə yalnız 1831 - ci ildə müəyyən edilmişdi. 1796 - cı ilin sentyabrında isə müsəlman ruhaniləri bütün vergilərdən azad edilmişdilər.

Krımda Rusiya hökuməti özünə milli dayaq yaratmaq siyasətini də həyata keçirirdi. Bu siyasəti başlıca komponenti isə Krım ərazisinə etnik köçürmə siyasəti idi. İlk olaraq XVIII əsrin 70 - ci illərində Krıma Yunanıstandan yunan-arnavutları köçürməyə başladılar. Köçürmə prosesi XVIII əsrin 90- cı illərinin sonuna qədər davam etdi. İlk olaraq onları Kerç, Yeniqala və Taqanroqda məskunlaşdırdılar. 1794 - cü ildə Rusiya imperatoru II Yekaterinanın yunanların Krımın şərq vilayətlərinə köçürülməsi haqqında qərarı verildi. Yerləşdirilənlər 10 il müddətinə faizsiz 50000 rubl pulla təmin edilir, 3 il müddətinə vergilərdən azad edilir, hər ailəyə 60 desyatin torpaq verilirdi. Yunan arnavutların Krımda məskunlaşdırılmasının iki səbəbi vardı. Bunlardan birincisi onların ruslarla eyni dindən yəni pravoslav olmaları idi. İkincisi isə yunan - arnavutların Osmanlı dövlətinə qarşı xüsusi düşmənçilik mövqeləri idi. İlk dəfə onlar özlərini 1777 - ci ildə Krımda Səlim Gireyin Şahin Gireyə qarşı çıxmasında biruzə verdilər. Rus ordusu bu münaqişədə Şahin Gireyin tərəfini saxlamış, Səlim Gireyə qarşı cəza yürüşünə başlamışdı. Yürüşdə fəal iştirak edən yunan - arnavutlar tatarlara qarşı xüsusi amansızlıqla fərqlənmişdilər. Rusiya hökuməti XIX əsrin əvvəllərində də yunanların Krıma

köçürülməsini davam etdirmişdi və onlara verilən imtiyazları da dəfələrlə təsdiqləmişdi.

Krım türklərinə qarşı sərt ayrı seçkilik siyasəti, onların hər vir sahədə hüquqlarının tapdalanması, rus ordusunun əhaliyə qarşı kütləvi repressiya tədbirləri artıq 1783 - cü ilin ikinci yarısından başlayaraq Krımdan əhalinin kütləvi surətdə Osmanlı dövləti ərazisinə köçməsinə gətirib çıxardı. Köç dalğası 1787 - ci ilə qədər davam etdi. Nəticədə 20 mindən çox tatar ailəsi Krımı tərk edərək Osmanlı dövləti ərazilərinə köçdü. Təxmini rəqəmlərə görə 1787 -1796 - cı illərdə isə Krımı 50 minə yaxın tatar ailəsi tərk etmişdi. Onların torpaqları isə çox ucuz qiymətə satın alınaraq Rusiyadan köçən əhaliyə verilirdi. Məsələ bundan ibarət idi ki, həmin torpaqları torpaqsız tatar kəndlilərinə verməkdən imtina edirdilər. Bu da yoxsul tatarların da köç etməsinə stimul verirdi. Köçənlərin yerinə Krıma müxtəlif quberniyalardan ruslar, ukrayınlar, başqa ölkələrdən isə ermənilər, yəhudilər, almanlar, albanlar köçürülürdülər. Köçürülənlərə Krım ərazisində xeyli imtiyazlar verilirdi ki, bu da yerli əhalinin narazılığına səbəb olurdu. Hətta köçürülən əsgərlərin ailə qurması üçün xüsusi başqa ölkələrdən “qızlar” da gətirilirdi Rusiya hakim dairələri sonradan prosesin kütləviləşməsindən təşvişə düşdülər. 1792 - ci ildə Krımın general qubernatoruna yerli əhalinin güzəranının yaxşılaşdırılması üçün tədbirlər görmək tapşırıldı. Lakin göstəriş nəinki yerinə yetirilmədi, eyni zamanda Krımda türk-tatar əhalinin hər vasitə ilə qarət edilməsi daha acınacaqlı hal aldı.

Əhalinin hansısa bir formada narazlıq göstərməsinin qarşısı isə sərt şəkildə alınırdı.

1787 – 1791 - ci illər Rusiya Osmanlı müharibəsində tatarların mümkün üsyanlarının qarşısını almaq üçün 1788 - ci ildə tatarlardan silahların alınması barəsində əmr verildi. Bundan sonra həmin ildə bəzi şəhərlərin əhalis inin diyarın dərinliklərinə köçürülməsi və onların üzərində polis nəzarətinin tətbiq edilməsi haqqında fərman verildi. Əvəzində isə qubernator Potyomkin tərəfindən buraya köçürülən xristian kəndlilər silahlandırılırdılar.

Krıma ikinci əhali köçürmə dalğası XIX əsrin ilk illərində başladı. Bunu da yerli mülkədarların işçi qüvvəsinə ehtiyacı ilə izah etməyə başladılar. 1803 - cü ildə 3000 rus kəndlisi Krım ərazisinə köçürüldü. Bundan başqa Şərqi Krıma bolqarların, almanların və qismən də ermənilərin köçürülməsinə başlanıldı. XIX əsrin ilk onilliyində 180min desyatin torpaq almanların istifadəsinə verilmişdi. Krımda ilk alman məskənləri Rozental, Herzenberq və Neyzats meydana gəldi.

Tatarlara qarşı düşünülməmiş siyasət onların Osmanlı dövlətinə qarşı kütləvi köçünə səbəb olurdu. Rusiya hökuməti sonralardan bu səhvin qabağını almağa çalışsalar da artıq çox gec idi. 1796 - cı ildə hakimiyyətə gələn I Pavel isə anasının bütün fərmanlarını ləğv etdi. 1797 - ci ildə Tavriya diyarı Novorossiysk quberniyasının tərkib hissəsi elan edildi. Diyarın şəhərlərinin türk adları da özlərinə qaytarıldı. Lakin II Yekaterina dövründə tətbiq edilmiş yerli idarə orqanlarının səlahiyyətləri də ləğv edildi. Lakin aparılan islahatlar Krımın inkişafını xeyli

yubatmış oldu. Bəzi müsbət islahatlar baş versə də onların da ömrü az olmuşdu.

Krımda tatarların narazı qaldıqları problemlərdən biri də torpaq problemi idi. Belə ki, 1783 - cü ildə Krım işğal edildikdən sonra yerli əhalinini torpaqları kütləvi surətdə əllərindən alınmağa başlandı. İlk olaraq 1787 - ci ildə əhalinin əlində olan torpaqların mülkiyyətinin təsdiqlənməsi barəsində göstəriş verildi. Yalnız kalqalıq, sultanlıq, bəzi Rusiyaya qarşı olan murza və bəylərin torpaqları müsadirə edildi. Lakin mülkiyyəti təsdiq edilmiş torpaqların bir neçə ildən bir yenidən mülkiyyətçilərinin təsdiqlənməsi lazım idi. Lakin tatar kəndliləri bunu təsdiq etdirməmiş, bəlkə də buna ehtiyac duymamışdılar. Lakin XVIII əsrin sonlarında məhz bu bəhanəni əldə rəhbər tutan Rusiya dövləti onların torpaqlarını kütləvi surətdə əllərindən almağa başladı. Bu prosesdə məmurlar öz hakimiyyətlərindən, tacirlər müxtəlif fırıldaqlardan və möhtəkirlidən, rus mülkədarları isə tatar kəndlilərinin hüquqsuzluğundan istifadə edirdilər. Tatarların XIX əsrin əvvəllərində vəziyyətləri yenə də yaxşılaşmadı. Belə ki, Rusiyanın apardığı rus-türk mühairbələri Rusiya hakim dairələrini daima tatar əhali üzərində təzyiqi artırmağa sövq edirdi. Artıq 1816 - cı ildə Krımda tatar-türk əhalisinin torpaq vəziyyəti belə idi: 41mindən çox kişi əhalinin çoxu mülkədar torpaqlarında oturaqlaşmışdı, 38mindən çox kişi əhali isə dövlət torpaqlarının payına düşürdü. Müstəqil torpaq hüququna malik olan cəmi 4400 tatar var idi. 1827 - ci ildə "Əmr hökmünə malik olan Tavrida quberniyasının tatar oturaq əhalisi və mül-

kiyyətçiləri barədə göstəriş" verildi. Lakin bu mülkədarlara kəndlilər üzərində çox böyük səlahiyyətlər verirdi. Mülkədarlar hətta kəndliləri özbaşına torpaqlarından qova da bilərdilər. Qayda yalnız icma torpaqlarına aid deyildi. Lakin 1833 - cü ildə icma torpaqlarının da vaxtı gəldi. Belə ki, "Tavrida yarımadasında torpaq hüququ və torpaqların mərzləşdirilməsinin asanlaşması haqqında" nizamnamə qəbul edildi. Bu da mülkədarlara icma torpaqlarında istədikləri kimi rəftar etmək hüququ verirdi. Nəticədə Krımda ilk olaraq 1832 - 1833 - cü illərdə əhali arasında aclıq baş verdi. Dövlət bunu tatar kəndlilərin hesabına həll etməyə çalışdı. Belə ki, 1833 - cü ildə Krımda dövlət yeni bir aclıq probleminin qarşısının alınması üçün dövlət ehtiyatlarının yaradılması haqqında fərman verildi. Kəndlilər məhsulun bir hissəsini məhz bu ehtiyaclar üçün təhvil verməli idilər. Lakin ehtiyatlar bir müddətdən sonra xarab ola və sıradan çıxa bilərdilər. Buna görə də ehtiyatlar əhalinin hesabına bərpa edilməli idi. Bundan başqa əhalidən vergilərin bir neçə dəfə artırılmasına cəhd edilmişdi. Lakin bu da uğurlu nəticə vermədi. Vergilər borc şəklində əhalinin boynunda toplanaraq qalmışdı. Nəticədə 1837 - ci ildə Krımda yeni aclıq baş verdi. Amma buna baxmayaraq Krımda təsərrüfatı nisbətən bərpa etmək mümkün olmuş, eyni zamanda burada yeni - kapitalist münasibətlərinə arxalanan iqtisadi əsaslar da meydana gəlməyə başlamışdı.

Krım işğal edildikdən sonra Rusiya buranın sahillərinin öyrənilməsinə də başladı. Nəticədə keçmiş yunan Xersonesinin yerində 1783 - cü ilin iyununda Sevastopol

liman şəhərinin əsası qoyuldu. Şəhər gələcək Qara dəniz donanmasının mərkəzinə çevrildi. Donanmanın ilk komandanı kontradmiral Voynoviç, daha sonra isə admiral Uşakov təyin edilmişdilər. 1784 - cü ildə Krımın qubernatoru qraf Potyomkinin təşəbbüsü ilə Krım - tatar könüllülərindən ibarət olan 3 diviziyadan ibarət polk yaradıldı. Polka daxil olan diviziyaların hərəsi 200 atlıdan ibarət olmalı idi. Onların mundirləri də tatar milli əsgər formasının əsasında tərtib edilirdi. Təşkil edilmiş bu könüllü dəstələr **beşlə** adlanırdılar. Onların rəsmi vəzifəsi imperatoru Krıma gəldikdə müşayiət etmək idi. Lakin 1796- cı ildə bu dəstələr ləğv edildilər.

Krımın az da olsa dirçəlməsi I Aleksandrın hakimiyyəti dövründə baş vermişdi. 1801 - ci ildə Krımda xristian əhalinin qoyub getdikləri torpaqların tatar əhalisi arasında bölünməsi haqqında göstəriş verdi və bunu həyata keçirmək üçün xüsusi komissiya yaradıldı. Lakin bu əmrqismən yerinə yetirildi. 1809 - cu ildə isə rus mülkədarlarına aid olan torpaqlarda yaşayan kəndlilər rəsmi şəkildə torpağa təhkim edildilər. Lakin əmrə görə tatarların qalan hissəsi dövlət kəndliləri kateqoriyasına aid edilmişdilər. 1802 - ci ilin oktyabrında Tavrida (Krım) Novorossiysk quberniyasının tərkibindən çıxarılaraq mərkəzi Simferopol olmaqla ayrıca Tavrida quberniyası yaradıldı. İlk qubernator Q. P. Miloradoviç təyin edilmişdi. 1805 - ci ildə yeni fərman ilə Krımın torpaqları yenidən ancaq bu dəfə onu əkmək istəyənlərə paylanıldı. Bundan başqa vergilər, məhkəmə, inzibati idarə sahəsində xeyli dəyişikliklər edildi.

Rusiya hökuməti tatarların dininə də aktiv müdaxilə etməyə başladı. Belə ki, Simferopolda, Baxçasarayda və başqa şəhərlərdə tələsik kilsələr, missioner qrupları və ruhani məktəbləri fəaliyyət göstərməyə başladı. Xristianlığı qəbul edən tatarlar isə mükafatlandırılır, dövlət vəzifələrinə irəli çəkilir, eyni zamanda eyni işdə işləyərkən belə müsəlman olanlara nisbətən daha yaxşı maaş alırdı.Hökumətin ikinci addımı Krım- tatar müsəlman ruhani idarəsini Osmanlı xəlifəsinin tabeliyindən çıxarmaq oldu. 1794 - cü ilin 23 yanvarında "Tavrida quberniyasında müsəlman müftinin idarəsi altında ruhani idarəsinin mövcudluğu" adlı əmr imzalandı. Lakin müəyyən səbəblər üzündən bu əmr yerinə yetirilmədi. Lakin 23 dekabr 1831 - ci ildə imperator I Nikolay Tavridada Ali Müsəlman Ruhani İdarəsinin təşkil edilməsi haqqında fərman verdi. Həmin əmrə görə öz müftilərinin seçmək üçün tatarlar üç nəfər namizədi seçərək, Tavrida qubernatorunun təsdiqinə verməli idilər. Qubernator isə üç namizəddən birini təsdiqləməli idi. 1836 - cı ildə ruhani şəxslərə verilən tələblər də təsdiqləndi. Həmin tələblərdə daha çox ruhanilərin dövlətə qarşı loyallığı nəzərə alınırdı. Bunu isə jandarm orqanları yoxlamalı idi. Lakin ruhanilərin cəmi bircə dəfə Türkiyədə olması bəs edirdi ki, onun Krımdakı fəaliyyətinə məhdudiyyətlər qoyulsun. Eyni zamanda Məkkədə ziyarətdə olan insanların da fəaliyyətinə məhdudiyyətlər qoyulurdu. Səbəbi də o zaman Məkkə ziyarətinin də Osmanlı dövlətinin nəzarətində olması idi.

Rusiyanın qərb sərhədlərində beynəlxalq vəziyyətin pisləşməsi, eyni zamanda Rusiyanın Napoleon Fransasına qarşı müharibəyə daxil olması, Krım tatarlarından ibarət könüllü dəstələrin yaradılması məsələsini yenidən gündəmə gətirdi. İlk təşəbbüsü irəli sürən Krımın mülki qubernatoru D. B. Mertvaqo oldu. 1807 - ci ilin mayında yeni polklar toplandı. Onlara kazak dəstələrinə verilən status verilirdi. Nəticədə hərəsi 200 nəfərdən ibarət dörd polk yaradıldı. Bu polklar Napoleon ordusunun Rusiyaya basqınına qədər qərb rayonlarında, eləcə də Avropanın bəzi yerlərində hərbi xidmətlərini uğurla aparımışdılar. 1812 - ci ildə Fransanın Rusiyaya basqınında da tatar polkları qəhrəmancasına vuruşmuşdular. Bu zaman polklar üzərində komandanlığı kazak qoşunlarının rəhbəri ataman Platov həyata keçirirdi. Borodino döyüşündə polkovnik Kunqaroviç və polkovnik Begildeyevin atlı eskadronları xüsusi rəşadət göstərmişdilər. Tatar polkları rus ordusunun geri çəkildiyi dövrdə də ordunun avanqardında fransızlarla vuruşmuş, hətta Fransa ordusunun arxasına da reydlər etmişdilər. 1813 - cü ildə Dansiqin mühasirəsində qəhrəmanlıq göstərən Balatuqov adlı komandan da general mayor rütbəsini almışdı.

1807 - ci ildən başlayaraq Krımda selitra, şərab və ipək istehsalı inkikşaf etməyə başladı. XIX əsrin 30 - cu illərində Loz - Sevastopol dəmiryolu istifadəyə verildi. Sənayenin mərkəzi XIX əsrin əvvəllərində Krımda canişinin iqamətgahının olduğu Sablı şəhəri idi. Lakin sənayenin inkişafı yalnız buranın qubernatorunun şəxsi varlanmasına xidmət etdiyi üçün aparılan dəyişikliklər istənilən nə-

ticəni vermədi. Bu da özünü 1812 - ci ilin aclığında göstərmişdi.

1812 - ci ildə Krımda buranın incilərindən biri hesab edilən botanika bağı da fəaliyyət göstərmişdi. Bağın Rusiyanın cənubunda dekorativ və əmtəə əkinçiliyinin inkişafında xüsusi rolu var idi.

1804 - cü ildə Sevastopolda ticarət bağlanır. Bura Rusiyanın başlıca hərbi limanına çevrilir. Bura bir də 1867 - ci ildə beynəlxalq ticarət üçün açıq elan edilir. Napoleon müharibələri ilə əlaqədar olaraq Krım əhalisi Rusiya imperatoruna onlara hərbi dəstələr yaradılmasına icazə verilməsi haqqında müraciət edir. Nəticədə 1806 - cı il imperator fərmanı ilə Krımda tatarlardan ibarət dörd polk - Simferopol, Yevpatoriya, Feodosiya və Perekop polkları yaradılır. 1812 - ci ildə polklar Don kazaklarının atamanı Platovun diviziyasının tərkibində xidmət edirdilər.

Krımın əsl xeyirxahı Vorontsov hesab edilir. Onun dövründə Krımda sənaye və kənd təsərrüfatının inkişafına qayğı göstərilir, geniş tikinti işləri aparılır, eyni zamanda Krımın əhalisinin müraciətlərinə həssaslıq göstərilirdi. Vorontsovun başlıca diqqəti Simferopolun yenidən qurulması, vəba xəstəliyinin qarşısının alınması, eyni zamanda üzümçülüyün, taxılçılığın və ipəkçiliyin inkişaf etdirilməsinə yönəlmişdi. Bundan başqa Krımda təhsilin inkişafına qayğı göstərilir. Məktəblər və seminariyalar tikilir, onların müəllimlərinə yüksək maaş verilirdi. 1817 - ci ildə Krım tatarlarından ibarət polklar ləğv edildi. Lakin əslən tatar əyanlarından olan Qaya bəy Balatukov I Alek-

sandra müraciət edərək hərbi polkların bərpa edilməsini xahiş etmiş, lakin bu xahiş I Nikolay tərəfindən 1826 - cı ildə təmin edilmişdi. Krımlılar 1828 - 1829 - cu illər Rus-Türk müharibəsində Varna şəhərinin alınmasında xüsusi qəhrəmanlıq göstərmişdilər. Buna görə də 1829 - cu ildə hərbi xidmət keçən krımlılar vergilərdən azad edilmişdilər.

1827 - ci ildə Qara dəniz donanmasının komandanı admiral Qreyqin təşəbbüsü ilə Krımın planlı şəkildə arxeoloji cəhətdən tədqiq edilməsinə başlanıldı.

Lakin Krımda Rusiya ağalığı əleyhinə üsyanlar da baş verirdi. Bunlardan ən böyüyü Krımda baş verən "vəba üsyanı" idi. Üsyanın səbəbi karantin tədbirlərinin həddən artıq sərt keçirilməsi nəticəsində camaat arasında aclıq təhlükəsinin yaranması idi. 1830 - cu ilin iyununda başlanan üsyan iyul ayında karantin tədbirinin ləğvindən və əhalinin ərzaqla təmin edilməsindən sonra yatırıldı. 1834 - 1851 - ci illərdə Lazarevin Qara dəniz donanmasına rəhbərlik etməsi, Krımın hərbi yüksəlişinin zirvəsinə gətirib çıxardı. Burada matroslar üçün məktəblər, hərbi dəniz kitabxanası, bundan başqa gəmi tərsanələri tikilərək istifadəyə verildi. XIX əsrin 30 - cu illərindən başlayaraq Krıma turist səfərlərinin sayı artmağa başladı. Bundan sonra Krımda turizmin inkişafına da şərait yaradılmağa başladı. Bundan ötrü ilk növbədə 1831 - ci ildə Krımın yol xəritəsi işlənib hazırlandı. 1837 - ci ildə Rusiya iş adamı Demidov alimlərdən ibarət bir qrupla birgə Krıma səfər etmiş və buranın resurslarını tədqiq etmişdi.

Krımın xristianlaşdırılması üçün də tədbirlər görülürdü. Buna uyğun olaraq Krımda may 1837 - ci ildə Xerson və Tavriya yepiskopluqları yaradıldı. 1848 – 1857 - ci ildə Krımın xristianlaşdırılması özünün ən yüksək mərhələsinə çatdı. Bu zamanlarda Krımda müxtəlif dini məktəb və seminariyalar da yaradılmışdı.

1853 - cü ildə Rusiyanın özbaşına Moldaviya və Valaziya knyazlıqlarını işğal etməsi, oktyabrda Osmanlı dövlətinin Krıma müharibə elan etməsinə səbəb oldu. 22 noyabr 1853 - cü ildə rus donanmasının Sinop buxtasında Osmanlı donanmasını darmadağın etməsi Rusiyaya qarşı Fransa, İngiltərə hərbi qüvvələrinin çıxmasına səbəb oldu. Hərbi döyüşlərin arenasının Krım olmasına görə bu müharibəyə Rusiya tarix ədəbiyyatlarında Krım, qərb ədəbiyyatlarında isə Şərq müharibəsi deyirdilər. 8 sentyabr 1854 - cü ildə Alma təpələri yaxınlığında Krım müharibəsinin ilk döyüşü oldu. Hərbi və say cəhətdən üstün olan müttəfiqlərin ordusu rus ordusunu məğlub etdi. Krıma müttəfiq ordularının çıxarılması Rusiyaya qarşı tatar əhalisinin də çıxmasına səbəb oldu. Onlar hər vasitə ilə xristian əhalinin Krımdan çıxarılmasına başladılar. Bəzi yerlərdə qanlı qırğınlar da torədilmişdi.

Sentyabrda müttəfiq ordusu Sevastopola hücuma keçməyə başladı. Lakin şəhərin müdafiəsi 11 ay çəkdi. May 1854 - cü ildə İngilis - Fransız - Türk ordusu Yenqala və Kerçi ələ keçirdi. Onların uğur qazanmasında yerli tatarların da rolu az olmadı. Onlar eyni zamanda Krıma göndərilən Rusiya əsgərlərinə də yolda basqınlar edirdilər. 27 avqust 1855 - ci ildə müttəfiqlər Sevastopol üzəri-

nə altıncı böyük hücuma keçdilər. Uzun və qanlı vuruşmadan sonra Rusiya komandanlığı Sevastopolu düşmənə verməyi qərara aldı. 349 günlük mühasirə Sevastopolun təslim olması ilə bitdi. 17 fevral 1856 - cı ildə tərəflər arasında atəşkəs imzalandı. 18 mart 1856 - cı ildə müharibə rəsmi olaraq Paris sülh konfransında sülh şərtlərinin imzalanması ilə bitdi.

Krım müharibəsi Rusiyanın idarəetmə sisteminin həddindən artıq geri qaldığını, həm Rusiyada, həm də Krımda idarəçilik sisteminin yenidən qurulmağa ehtiyacı olduğunu göstərdi.

Krım xalqının mədəniyyəti məsələlərinə gəlincə onu demək lazımdır ki, Krım xanlığının XVIII əsrin əvvəllərindən başlayaraq düşdüyü ağır iqtisadi-siyasi vəziyyət, daha sonra isə Krımın Rusiya tərəfindən işğal edilməsi Krımın etnik mədəniyyətinə xeyli zərbə və ziyan vurmuşdu. Lakin buna baxmayaraq krım türkləri öz mədəniyyətlərini inkişaf etdirə bilirdilər. Krım xanlığı zamanında orada mədəniyyət kifayət qədər yüksək səviyyədə idi. Təhsil də öz dövrünə görə müəyyən qədər geri qalsa da ancaq yüksək təhsil vermək imkanlarını hələ itirməmişdi.

XVI - XVII əsrlərdə Krımda dəftərxana-kargüzarlıq işləri çox yüksək səviyyədə inkişaf etmişdi. Əsas tərcümə və səfirlik işləri əsas etibarilə türk və latın dillərində aparılırdı. Bu dillərdə yerli mütəxəssislərdən əlavə İtaliya və Yunanıstandan gələnlərin də vasitəçiliyindən istifadə edilirdi. XVI əsrə qədər Krım xanlığı dəftərxanası Qızıl Ordu dövlətinin meyarları əsasında qurulmuşdu. Kargü-

zarlıq işlərində türk dili üstünlük təşkil edirdi. Lakin XVI əsrdən, yəni Məhəmməd Gireyin dövründən başlayaraq Osmanlı dövləti sisteminə keçildi və işlərdən bəziləri ərəb dilində aparılmağa başlandı.

Krımda onlarla kitabxanalar və kitab evləri fəaliyyət göstərirdi. Krım xanının kitabxanası bunlar içərisində ən zəngin olanı idi. Kitabxananın əsası bəzi məlumatlara görə XV əsrdə qoyulmuş və artıq XVIII əsrdə Şərqin məşhur kitabxanalarından birinə çevrilmişdi. Lakin 1736 - cı ildə kitabxana Minixin orduları Baxçasaray şəhərini yandırarkən xeyli ziyan görmüş və nadir əlyazmalar yandırılmış, ya da qarət edilmişdi. XVIII əsrin Krımda məşhur kitabxanalarından biri də Əbusuud Əfəndi deyilən bir alimin şəxsi kitabxanası idi. Bu şəxs Krımda qazıəsgər vəzifəsini tutur və zəkasına, elminə görə isə hətta Osmanlı dövlətində də məşhur idi. Bundan başqa məscidlərin, hətta kənd məscidlərinin də zəngin kitabxanaları olurdu. Buna misal olaraq XIX əsrin sonunda Krımın Azis kəndinin məscidində xeyli miqdarda qədim əlyazma və kitab aşkar edilmişdi. Kitabxanalardan başqa kitab üzü köçürülməsi sənəti də yüksək inkişaf etmişdi. Bu sənət özünün yüksək pilləsinə məhz XVI - XVII əsrlərdə çatdı. Belə sənətkarlardan Ərdoqanın qardaşı Şaban Mirzənin (XVI əsr) adı çəkilir. Bundan başqa Məhəmməd ibn Yusuf ibn Məhəmməd (XVIII əsrin əvvəli), Çələbi ibn Molla ibn Osmanın adlarını (XIX əsrin əvvəli) çəkmək lazımdır.

Yuxarıda göstərilənlərdən əlavə Krımdan çıxan savadlı adamlar başqa dövlətlərin, xüsusilə də, Osmanlı

dövlətinin ictimai-siyasi həyatında mühüm rol oynayırdılar. Bunlardan bir neçəsinin adlarını vermək olar: **Layiq Məhmət Əfəndi** (1740 - cı ildə öl.) əvvəl müxtəlif Osmanlı şəhərlərində müdərris olmuş, daha sonra isə İstanbul qazısı, sonra isə Anadoluda qazı əsgər olmuşdur. Kalliqraf və şair kimi ad çıxarmışdı. **Mustafa Rəhmi bəy** (1750 -cü ildə öl) Osmanlı sultanının saray tarixçisi, şair, xəttat kimi ad çıxarmışdı. **Səlim baba Köprülü** (1756 - cı ildə öl.) Osmanlıda məşhur olan qadiriyyə təriqətinin şeyxlərindən idi. **Tatarcıq Abdulla əfəndi** (1730 - 1797) III Səlim dövründə Osmanlı dövlətində həyata keçirilən və ya təşəbbüs göstərilən islahatların, eyni zamanda nəşr edilən qanunların əksəriyyətinin müəllifi idi. **Əhməd Kamil Əfəndi** (1821 - ci ildə öl.) musiqiçi, şair, alim və dövlət xadimi. Əndərunda təhsil almış və orada da dərs demişdir. Bundan başqa Osmanlı dövlətində müəzzinbaşı rütbəsində çalışmış, qazıəsgər və müxtəlif mədrəsələrdə müdərris olmuşdur. Krım qazıəsgəri **Feyzulla Krımlı əfəndi** (XIX əsrin ortaları) sonradan Ayasofyada mollalıq etmiş, Bağdadda imam, sonra isə Osmanlı dövlətinin şeyxülislamı vəzifələrini icra etmişdir. Bu adların sayını daha da çoxaltmaq olar. Göstərilən faktlar Krım xanlığında təhsilin və mədəniyyətin nə qədər yüksək inkişaf etdiyinin bariz nümunəsi idi.

1723 - cü ildə Krımda karaim türkləri tərəfindən kitab nəşr edilməsi işinə də başlanıldı. Bundan sonra Kəfədə, Baxçasarayda və Balaklavada da kitab nəşr edən yerlər açıldı. Bu kitab nəşri, yazılması işinə təkan verməklə

yanaşı, eyni zamanda tədris və təhsilin də keyfiyyətini yüksəltmiş olurdu.

Krımda xanlıq dövründə ədəbiyyat da xeyli inkişaf etmişdi. Krımın şair və ədəbiyyat xadimlərindən Hüseyn Kəfəvi Əfəndinin (təx. 1550 - 1601), Qazı Gəray xanın (1554 - 1607), Seyid Musa Əfəndi Kəfəvinin (1583 - 1644), Rəzmi Bahadır Gəray xanın (1601 - 1641) və s. adlarını çəkmək olar. Saray ədəbiyyatından başqa aşıq yaradıcılığı da güclü inkişaf etmişdi. XVII - XVIII əsrlərdə Krım aşıqlarından Aşıq Ömər Qəzləvi adını çəkmək lazımdır. Aşıq Ömər öz yaradıcılığında xalqın ənənələri ilə sufi motivlərini cəmləşdirirdi. Buna görə də onun şeirləri müxtəlif sosial təbəqələr arasında geniş yayılmışdı.

Tatarlarda memarlıq da geniş inkişaf etmişdi. Dövlətin paytaxtı olan Baxçasaray XVII - XVIII əsrlərdə doğrudan da gözəl bir şəhərə çevrilmişdi. Şəhərin başlıca küçəsi Çürük Su adlanırdı və böyük bir xiyaban çevrilmişdi. Şəhər tam memarlıq qanunlarına uyğun salınmışdı. Bundan başqa şəhərdə yaxşı təşkil edilmiş kanalizasiya sistemi də var idi. Krım şəhərlərinin yüksək memarlıq üslubuna malik olduğunu işğaldan sonra buraya səyahət edən alman, ingilis və fransız səyyahları da göstərirdilər. Xüsusilə bu gözəllik Rusiya işğalından sonra şəhərlərə köçürülən xristianların tikdikləri və tam antisanitariya şəraitində olan küçələrin fonunda daha çox nəzərə çarpırdı. Bütün xarici səyyahlar tatarlar tərəfindən salınan və onların yaşadığı küçələrin daha səliqəli, təmiz olduqlarını göstərirdilər. Balaklava, Gezle, Kəfə və başqa şəhər-

lər də gözəl memarlıq üslubuna malik olan şəhərlər idilər.

Rusiya tərəfindən işğal edildikdən sonra Rusiya hakimiyyəti də təhsilin inkişafı üçün müəyyən işlər görməyə başladı. Bunlardan ilk olaraq 1786 - cı ildə Rusiyada xalq məktəbləri haqqında nizamnaməyə uyğun olaraq Simferopolda 1793 - cü ildə dördillik Əsas Xalq məktəbi açıldı. Məktəb dörd il fəaliyyət göstərdikdən sonra 1797 - ci ildə iki illik Kiçik Xalq məktəbinə çevrildi. 1 sentyabr 1806 - cı ildə isə həmin xalq məktəbi Simferopol qəza məktəbinə çevrildi. XVIII əsrin sonunda atılmış bu addımdan sonra Krımın başqa yerlərində də xalq məktəbləri fəaliyyət göstərməyə başladı. Lakin bu məktəblərin demək olar ki, hamısı yerli ianələrin hesabına fəaliyyət göstərirdi. 16 noyabr 1809 - cu ildə Xarkov təhsil dairəsinin himayəçisi qraf S. O. Pototskinin təşəbbüsü ilə yerli əhalidən toplanan ianələrin hesabına Simferopolda yerləşən qəza məktəbinin nəzdində tatar dilində iki illik kursların da açılması planı hazırlandı. Qraf Q. V. Orlov isə bu məktəbin aylıq xərclərini öz üzərinə götürdü. İyun 1810 - cu ildə tatar dilində kursun təntənəli açılışı oldu. Tatar məktəbinin binası 14 otaqdan ibarət idi ki, bunlardan da iki otaq müəllimlərin yaşaması üçün ayrılmışdı. Tatar dili müəllimi Əbdürrəzzaq Əfəndi çox böyük nüfuz sahibi idi. O, tatar, fars, ərəb, fransız dillərini mükəmməl bilməsinə baxmayaraq,rus dilində o qədər də bələd deyildi. Rus dili müəllimi isə əvvəlcə Tarxanov, sonra isə Jukov təyin olundular ki, onların da hər ikisinin təhsili gimnaziyanın ilk iki sinfi ilə məhdudlaşırdı. Lakin kursun təchi-

zatı, eyni zamanda şagirdlərin təminatı tam aşağı səviyyədə olduğu üçün təhsil alan uşaqların sayı xeyli az idi. Tezliklə 1811 - ci ildə Simferopolda gimnaziya açılarkən, kursun yerləşdiyi bina gimnaziyaya təhvil verildi. Şagirdlər artıq gimnaziya binasında ayırılmış bir - iki kiçik otağın içərisində dərs keçməli olurdular. Ümumiyyətlə, tatar dilində təhsil Krım mədrəsələrində daha yüksək səviyyədə icra olunurdu. Mədrəsələrdə tədris Krım müsəlman əhalisinin mental tələblərinə cavab verdiyi üçün buraya tatar tələbələr də həvəslə gedirdilər.

Simferopol gimnaziyasının direktoru F. P. Zastavski gimnaziya tərkibindəki tatar dilindəki kurslara tələbələrin gəlişini stimullaşdırmaq üçün hətta Krımda bəzi mədrəsələrin bağlanması haqqında təklif də vermişdi. Lakin bu təklif hakimiyyət dairələri tərəfindən cavabsız qoyulmuşdu. 1819 - cu ildə Zastavski tatar kursunda təhsilin səviyyəsini yüksəltməklə onu tatar mədrəsələri üçün müəllim hazırlayan məktəbə çevirmək təklifini irəli sürdü. 1827 - ci ildə onun təklifi nəzərə alınaraq Simferopol gimnaziyasının tərkibində tatar dilində müəllim hazırlayan tatar şöbəsi açıldı. Lakin şöbədə tatar dilindən başqa bütün fənlər rus dilində, müəyyən proqram üzrə tədris edilirdi. Hər bir predmetin öyrədilməsi sistematik və ardıcıl aparılırdı. Müxtəlif vaxtlarda şöbədə Hayvazovski, Qofar Əfəndi, Seyid Əhməd Çələbi kimi görkəmli pedaqoqlar dərs demişdilər. Şöbəyə Əbdürrəhman Çələbi Xovaçı, Əbdürrəfi Bodanlı rəhbərlik etmişdilər.

Simferopolda tatar şöbəsinin açılışı təhsil sahəsində başqa irəliləyişlərin də baş verməsinə səbəb oldu. 1848 -

ci ildə Sarabuz tatar məktəbinin müəllimi Qəziyev “Qısa izahlarla tatar dilinin əlifbası “adlı dərslik nəşr etdirdi. Bundan başqa Əbdürrəhman Xovaçı isə tatar nağılları, atalar sözləri, tapmacalar və başqa xalq yaradıclıq əsərlərini özündə əks etdirən “Uşaqların dostu” adlı dərslik nəşr etdirdi. Lakin 1859 - cu ildə Krım müharibəsinin gedişində tatar şöbəsi çar hakimiyyəti tərəfindən ləğv edildi. XIX əsrin əvvəllərində belə məktəblər təkcə Simferopolda deyil Sarabuzda, Noqayskda, Saklar, Taraktaş və başqa şəhərlərdə də fəaliyyət göstərirdi. Lakin bunların çoxu da XIX əsrin 50 - ci illərində bağlandılar. Bundan sonra tatar əhalinin doğma dildə təhsil alması üçün yalnız yerli məktəb və mədrəsələr qalırdı. XIX əsrin 60 - cı illərində Rusiya hökuməti tatarlar və başqa köklü türk xalqları arasında təhsilin radikal şəkildə yenidən qurulması üçün layihə hazırladı. Layihəni Tavrida quberniyasının qubernatoru Q. A. Jukovski hazırlamışdı. Ancaq layihəyə tatar ziyalıları olan Arslan bəy Taşı oğlu və Abdülvəli Murza Karaşaylının təklifləri ilə bəzi dəyişiklər edildi. Layihə tatarlar üçün müəllimlər hazırlayan məktəblərin, eyni zamanda tatar dilində gimnaziyaya hazırlıq kurslarının, ibtidai tatar məktəblərinin, həmçinin Simferopol gimnaziyasında tatar pansionunun açılmasını nəzərdə tuturdu. 26 mart 1870 - ci ildə “Rusiyada yaşayan başqa xalqların təhsili ilə bağlı tədbirlər haqqında qaydalar” təsdiq edildi. Bu qanun tatar əhalisinin təhsilinin yaxşılaşdırılması üçün mühüm addım olmaqla bərabər, eyni zamanda milli təhsilin inkişafı üçün də geniş imkanlar açırdı.

Krımda qadın təhsili də az da olsa inkişaf edirdi. Ümumiyyətlə, Krımda qadınlar arasında savadlı adamların sayı çox idi. Bəziləri isə kalliqrafiya, hətta bəzi elmlərdə də ad çıxarmışdılar. XIX əsrin əvvəllərində Krımda tatarlar arasında qadın təhsilinin başlıca forması fərdi məktəblər və ev təhsili idi. Rus qadınlar üçün isə ümumiyyətlə, təhsil ocaqları yox dərəcəsində idi. Ona görə də qadınlar arasında rus təhsilinin nailiyyətlərini təbliğ etmək üçün 1865 - ci ildə Simferopolda qadın məktəbi, 1871 - ci ildə qadın gimnaziyası açıldı. Lakin bu qadın təhsilinin inkişafı yolunda hələ ilk addımlar idi. Ümumiyyətlə, Krım yarımadasının müxtəlif yerlərində başqa - başqa təyinatlar əsasında 100 - dən çox məktəb və gimnaziya fəaliyyət göstərirdi. 1804 - cü ildə isə imperatorun təşəbbüsü əsasında Krımda üzümçülük və şərabçılıq üzrə ilk peşə məktəbi yaradıldı. Artıq XIX əsrin 20 - ci illərinə doğru burada ondan çox peşə məktəbi fəaliyyət göstərirdi.

## *§ 2. Qazax xanlığı XVII - XIX əsrlərdə*

XVI - XVII əsrlər Qazax xanlığının yüksəlişi və sərhədlərinin nisbətən genişləndiyi bir dövrdür. 1511 - ci ildə Qazax dövlətində hakimiyyətə Burunduk xanı iqtidardan kənarlaşdıran Qasım xan gəldi. Burunduk xan Canıbəyin övladlarından sayılırdı. Qasım xan Sırdərya şəhərlərini ələ keçirmək üçün şeybanilərlə müharibə təşkil edirdi. Uzun müddət müharibələr Sırdəryanın bəzi şəhərlərini Qazax xanlarının əlinə keçirsə də, ümumilikdə

qazaxlara elə bir üstünlük qazandırmadı. Qasım xanın moqullarla münasibətləri daha müvəffəqiyyətli davam edirdi. Moqullar Qasım xanın güclənməsindən istifadə edərək Fərqanədə bəzi yerləri ələ keçirə bilmişdilər.

Qasım xan Qərb dövlətləri ilə də diplomatik əlaqələr yaratmağa çalışırdı. İlk olaraq Moskva dövləti ilə sıx əlaqələr qurulmuşdu. Qərb dövlətlərinin diplomatları da dövlət olaraq Qazax xanlığının adını çəkir və onun haqqında məlumat verməyə çalışırdılar. Bunlardan ilk olaraq Sigizmund Herberşteynin adını xüsusilə qeyd etmək istərdik.

Lakin Qasım xanın varisləri onun nailiyyətlərini qoruyub saxlaya bilmədilər. Ara müharibələri nəticəsində taxta çıxan müxtəlif hökmdarlar Şeybanilərlə müharibələrdə məğlub olmağa başladılar. Bundan başqa qazaxların ənənəvi müttəfiqləri olan moqullarla münasibətləri pozuldu. Nəticədə Qazax xanlığı xeyli ərazini moqullara və özbəklərə güzəştə getməyə məcbur oldu.

Qazax xanlığının ikinci yüksəlişi Qasım xanın oğlu Haq Nəzər xanın (1538 - 1580) dövrünə təsadüf edir. Noqayların onun tərəfinə keçməsindən istifadə edən Haq Nəzər xan 1557 - ci ildə Yaik (Ural) çayı hövzəsindəki torpaqları işğal edə bilir. XVI əsrin 60 - cı illərində o, noqayların böyük bir hissəsini qazaxlara birləşdirə bilir. Bundan başqa Haq Nəzər xan Türküstanı da öz nəzarəti altına almağa çalışdı. Nəticədə buranın da bir çox hakimlərini öz təsiri altına alaraq, Daşkəndə təhlükə yaratmışdı.

XVI əsrin 50 – 60 - cı illərində Yeddisu üstündə də moqul hökmdarları ilə münaqişələr bitmirdi. Moqul

hökmdarı Əbdürrəşid xan Yeddisudan Qazax xanlığını sıxışdırıb çıxarmaq bundan da istifadə edərək qırğızların torpaqlarına basqın etmək istəyirdi. Onun işğalçılıq yürüşlərinə qarşı qazaxlarla qırğızların ittifaqı dururdu.

Qazax xanlığının başqa bir problemi də kalmık ordası ilə bağlı idi. Bunlar da Yeddisu hövzəsində möhkəmlənməyə çalışan monqol mənşəli köçərilər qrupu idi. Onların basqınlarına qarşı Haq Nəzər xan bu ərazilərdə xeyli qalalar tikdirmişdi.

Ancaq bütün bu problemlərə baxmayaraq Haq Nəzər xanın dövründə Qazax xanlığının siyasi vəziyyəti stabil hesab edilə bilərdi. Yeddisuda Çu - Talas hövzəsi onun hakimiyyəti altında qalmaqda davam edirdi. Qazax xanlığının şimal - qərb və şimal ərazilərində də siyasi vəziyyət gərgin olaraq qalırdı. Belə ki, Kuçum xan Qazax xanlığının şimal ərazilərini Sibir xanlığına qatmaq istəyirdi. Bundanbaşqa şimal - qərbdə isə Rusiya himayəsinə keçmək istəyən noqayların bir hissəsi də Qazax xanlığına qarşı çıxırdılar. Buna görə də Haq Nəzər xan tezliklə Qazax xanlığının keçmiş düşməni olan Şeybanilərlə yaxınlaşmağa çalışdı və Şeybani hakimi II Abdulla xanla "Andlı müqavilə" imzaladı. Bu müqavilə Qazax xanlığının cənub sərhədlərində siyasi vəziyyətin stabilləşməsinə səbəb oldu, eyni zamanda ölkədə daxili asayişin təmin edilməsində də mühüm rol oynadı. XVI - əsrin 60 - 70 - ci illərində Qazax xanlığının Mərkəzi Asiyanın cənub dövlətləri ilə ticarət əlaqələri genişləndi. Bu da xanlığın iqtisadiyyatına da xeyli müsbət təsir edirdi.

Cənubdakı vəziyyətin stabilləşməsindən istifadə edən Haq Nəzər xan noqaylara qarşı bir sıra uğurlu hərbi səfərlər etdi. Haq Nəzər xanın Şeybanilər və Daşkənd əmirliyi ilə də münasibətləri ziddiyyətli idi. Onlar arasında olan ziddiyyətlərdən istifadə etməyə çalışan Qazax xanlığı Daşkəndi ələ keçirmək, ya da hec olmasa bu əmirlikdən nəsə qoparmaq fikrində idi.

Lakin Haq Nəzər xanın ölümündən sonra Qazax xanlığında hakimiyyətə onun qoca varisi Şiqay xan (1580 - 1582) çıxdı. O, da atası kimi Şeybanilərin tərəfindən Daşkəndin tabe edilməsinə çalışırdı. Buna görə də Şeybanilər Xocənd ətrafını sonda Qazax xanlarına iqta olaraq bağışladılar. 1582 - ci ildə Şeybani hökmdarı Abdulla xanın Daşkənd üzərinə basqınında Qazax xanlığının orduları da iştirak etmişdilər. Şiqayın varisi Təvəkkül xan (1586 - 1598) Daşkənd hökmdarı Baba sultanı Türküstan yaxınlığında Yasa şəhəri ətrafında məğlub edib, özünün də başını Abdulla xana gətirmiş və Şeybani hökmdarından hədiyyə olaraq Səmərqənd ətrafındakı Afrikənd vilayətini almışdı. XVI əsrin 80 - ci illərində Şeybani dövlətində ara müharibələri yenidən qızışdı. Nəticədə Qazax xanı Təvəkkül xan 1583 - cü ildə "Andlı müqaviləni" pozaraq Şeybanilər üzərinə hücuma keçdi. 1586 - cı ildə Türküstanın bir çox şəhərlərini tutaraq, Daşkəndi hədələməyə başladı. 1588 - ci ildə Daşkənddə özbəklərə qarşı üsyandan istifadə edən qazaxlar şəhərin əhalisinə köməyə gəldilər. Lakin üsyan məğlub oldu və qazax ordusu geri çəkilməli oldu.

Tədricən Rusiya ilə ittifaq münasibətlərinə nail olan Təvəkkül xan həm Sibir, həm də Şeybanilər tərəfindən olan təhlükəyə qarşı üstünlük əldə edə bildi. 1597 - ci ildə Abdulla xanın öz oğlu ilə siyasi mübarizəsindən istifadə edən Təvəkkül xan onu Daşkənd yaxınlığındakı döyüşdə məğlub etdi. 1598 - ci ildə Abdulla xanın ölümü, özbəklərdə ara müharibələrinin qızışmasından və Səfəvi şahı I Abbasın Mərkəzi Asiyada aktiv hərbi əməliyyatlarından yararlanan Təvəkkül xan Mavəraənnəhri özünə tabe edə bilmişdi.

Lakin 1598 - ci ildə Buxaranın mühasirəsi zamanı məğlub olan Təvəkkül xan yaralanaraq vəfat etdi. Ancaq onun basqınları ilə Türküstanın bütün aparıcı şəhərləri və Daşkənd daxil olmaqla bir sıra Şeybani torpaqları Qazax xanlığının tərkibinə daxil oldu.

Lakin aparılan müharibələr və şəhərlərin tez - tez, əldən - ələ keçməsi, dağıdılması və talana məruz qalması ölkədə şəhər həyatının, ölkənin təsərrüfatının tənəzzülünə səbəb olurdu.

Xanların bütün nailiyyətlərinə baxmayaraq Qazax xanlığı feodalizmin bütün arxaik formalarını özündə saxlayan bir geri qalmış köçəri dövləti idi. Juzlar arasında, o cümlədən, Qazax xanlığı ilə başqa xanlıqlar arasında ticarət və iqtisadi əlaqələr çox zəif idi. Kiçik və Orta juzların Böyük juzla iqtisadi münasibətləri xüsusilə zəif idi. Bundan başqa feodallar arasında gedən ara müharibələri və onların bir - birilə rəqabəti dövlətin xeyli zəifləməsinə səbəb olmuşdu. Feodal dağınıqlığı Qazax xanı Esim xanın dövründə (1598 - 1628) daha da güclənmişdi. O, Buxara

ilə sülh bağlayıb sərhədlərdə nisbətən stabilliyi təmin etsə də, daima onun hakimiyyətindən çıxmaq istəsə də Sır Dərya hövzəsi şəhərləri uğrunda mübarizə aparmalı olurdu. Ayrı - ayrı onun hakimiyyətini tanımayan Qazax sultanlarının özbaşına Mərkəzi Asiyaya basqınları isə bu işə ciddi şəkildə maneçilik törədirdi.

Mərkəzi hakimiyyətin zəifləməsindən istifadə edən ayrı - ayrı sultanlar özlərini rəsmi cəhətdən də müstəqil elan etməyə çalışırdılar. Bunlardan əsas fərqlənəni Daşkəndin hakimi Cəlim sultanın oğlu Dursun Məhəmməd xan idi. O, hətta öz adına sikkə də zərb etdirmişdi. Lakin mənbələrdə onun siyasi hakimiyyətinin sonu barəsində elə də geniş məlumat yoxdur. Bu hərəkətində ona Buxara əmiri İmamqulu xan yardım edirdi.

Oyratların basqınlarına başı qarışan Esim xan bir müddət Dursun Məhəmmədin özbaşınalığına dözmüş, hətta onunla birgə dövlətə qarşı çıxan başqa bir qazax sultanı Abulaya qarşı hərbi səfərə çıxmışdı. Buxara əmirinin təhriki ilə dövlətin əleyhinə çıxan Abulay xan 1623 - cü ildə İmamqulu xanla birgə Daşkənd üzərinə basqın etmişdi. Lakin Esim xana Abulay xan məğlub oldu, Dursun Məhəmməd isə buxaralıları qaçmağa məcbur etdi. Nəticədə hər iki xanın ikili hakimiyyəti reallığa çevrildi. 1624 - cü ildə hər iki xan Abulay xanın idarəsində olan Əndicana basqın etdilər, burada köməyə gələn Buxara ordusunu məğlub etsələr də, Əndicanı tuta bilməyib geri qayıtdılar.

Buxara xanlığı ilə Qazax xanlığı arasında qarşıdurmanın ilk səbəbi Daşkəndin ələ keçirilməsi uğrunda mü-

barizə idi. 1612 - ci ildə Buxara əmiri İmamqulu xan Daşkəndi tutub öz oğlunu oraya hakim qoydu. Lakin o şəhəri tərk edən kimi daşkəndlilər üsyan edib onun oğlunu öldürdülər. Onda şəhəri tutan İmamqulu xan Dəşkənddə böyük bir qırğın törətdi.

Bu zaman Dursun Məhəmmədlə Esim xan arasında rəqabət arta - arta gedirdi. 1625 - ci ildə hər iki rəqibin münasibətləri düşmən səviyyəsinə çatdı. Onların hətta xarici siyasət meyilləri başqa idi. Belə ki, Şərqi Türküstanda ara müharibələrində iştirak edən Esim xan Yarkənd hakiminin düşməni Turfan hakimi Əbdürrəhimin, Dursun Məhəmməd isə Yarkənd hakimi Şoca Əhmədin tərəfini saxlayırdılar. Bir- birilərilə mübarizə aparan hər iki xan noqaylar, özbəklər, qaraqalpaqlar və qırğızların köməyindən də istifadə edirdilər. 1625 - ci ilin hərbi əməliyyatları heç birinə üstünlük gətirməsə də, 1627 - ci ildə Dursun Məhəmməd Esim xan tərəfindən öldürüldü. Lakin onun özü də bir ildən sonra vəfat etdi.

Esim xanın ölümündən sonra Qazax xanlığında pərakəndəlik daha da artdı. Bundan istifadə edən cunqarlar Yeddisunun bir hissəsini ələ keçirdilər. Buxaralılar da bir tərəfdən hücuma keçərək Daşkəndi ələ keçirdilər. Onlar Daşkəndi ələ keçirsələr də Qazax xanlarından biri Cahangir Buxara xanını cunqarlara qarşı hərbi ittifaq yaratmaq üçün razı sala bildi. Lakin Cahangir xan cunqarlar tərəfindən öldürüldükdən sonra Qazax xanlığı daha da zəiflədi. Onun yerinə taxta oğlu Tauk xan (1680 - 1712) oturdu. Birinci olaraq o, xanlığın sosial dayağını dəyişərək tayfa aristokratlarına deyil, biylərə, yəni xırda

feodallara arxalanmağa başladı. Biylərin xanlıqda nüfuzu böyüyərək onlar xanın şurasında hakim mövqe tutdular. Ölkədə hərbi məhkəmə hakimiyyətinin də demək olar ki, hamısı biylərin əlində cəmləşmişdi. Onların vasitəsilə xan tayfa aristokratlarına qarşı uğurla mübarizə aparırdı.

Tauk xan Buxara əmiri ilə də Daşkənd uğrunda mübarizəni bərpa etmişdi. İlk vaxtlar 1687 - 1688- cu illərdə Buxara ilə diplomatik danışıqlar vasitəsilə Daşkəndi tutmağa, daha sonra zor yolu ilə şəhərə sahib olmağa çalışmışdı.

XVII əsrin birinci yarısından başlayaraq oyratlarla (cunqarlar) qazaxların toqquşmaları yenidən başlayır. Oyratlar qərbi Monqolustanın əhalisini təşkil edirdilər. Onların Şərqi Monqolustanla uğurlu müharibələri oyrat dövlətinin möhkəmlənməsinə səbəb olur. Bundan sonra Şərqi Türküstanda otlaqlar üstündə qazaxlarla oyratlar arasında arasıkəsilməz müharibələr başlayır. XVI əsrin sonlarında oyratlar dörd böyük tayfa birliyindən ibarət idilər: Turqutlar - Tarbaqataydan şərqdəki səhralarda, dərbətlər - İrtışın yuxarı axarında, xoşutlar - indiki Dixua şəhəri ətrafında, çoroslar - İli çayının yuxarı boyunda yaşayırdılar. XVI əsrin sonlarında oyratlardan bir hissəsi bir sıra uğursuz basqınlardan sonra Qazax xanı Təvəkküldən asılı vəziyyətə düşdülər.

XVII əsrin əvvəllərindən başlayaraq oyrat tayfalarının qanlı toqquşmalar nəticəsində birləşmə prosesi başlayır. Eyni zamanda bu tayfaların bir hissəsinin Qazax xanlığının şimalına və qərbinə köçü genişlənir. Bu da hər iki xanlıq arasında münasibətlərin kəskinləşməsinə səbəb

olur. Toqquşmalarda bir müddət sakitlik yaransa da XVII əsrin onuncu illərindən başlayaraq basqınlar yenidən intensivləşir. Onlara qarşı mübarizədə qazaxlar, noqaylar və xalxaslarla birgə çıxış edirlər.

1623 - cü ildə oyratlar son toqquşmada məğlub edildikdən sonra 1624 - cü ildə qazaxlarla oyratlar arasında atəşkəs bağlandı. Bu zaman Ho - Uyluk xan başda olmaqla turqut tayfaları oyratların qalan hissəsindən ayrılaraq Volqa çayı hövzəsinə köçürlər. Mənbənin verdiyi məlumata görə tezliklə bu oyratlara kalmık adı verildi. 1627 - ci ildə oyrat ittifaqı dağıldı. Derbenler - kalmık adı ilə qərbə köçdülər, zunqar (cunqarlar), çoroslar Cunqariyada qaldılar, başqa bir tayfa olan xoşutlar isə Tibet yaylasında məskən saldılar. Oyrat hakimləri tayşi titulunu daşıyırdılar.

XVII sərin 20 - 30 - cu illərində oyrat feodallarının çoros tayşilərinin hakimiyyəti altında mərkəzləşməsi başlandı. Nəticədə 1635 - ci ildə İrtış çayı hövzəsinə qədər uzanan Cunqar dövləti yarandı. Əgər Cunqar xanlığı yaranana qədər oyratlarla Qazax xanlığı arasında mübairzə əsasən qazaxların üstünlüyü ilə keçirdisə, Cunqar xanlığının yaranması ilə üstünlük oyratların tərəfinə keçdi.

Qazax - Cunqar münasibətləri xüsusilə, Huntayşi Baturun hakimiyyəti (1634 -1654) illərində daha da kəskinləşdi. Mənbə 1635 - ci ildə onunla Qazax xanı Cahangir arasında hərbi əməliyyatlardan və sonuncunun oğlunun əsir düşməsindən danışır. Mənbə eyni zamanda qazaxların başqa xanı eşimin zamanında sultan Cahangirlə Cunqarların danışıqları haqqında məlumat verir. Lakin

mübahisəli məsələləri qaydaya salmaq mümkün olmur və nəticədə 1643 – 1644 - cü illərdə iki tərəf arasında yenidən toqquşmalar baş verir. Mənbə həm də Baturun ordusunda başqa oyrat tayfalarının da olduğunu, Cahangir sultanın isə Səmərqənd hakimi Jalantos Batırla birləşərək oyratları geri otuzdurması haqqında danışır.

Məğlubiyyətlə barışmayan Batır yeni silahlar alır və əhali üzərinə yasaq vergisi qoyur. Bundan başqa atları müharibə üçün səfərbərliyə alır. Cahangir sultan isə cunqarlara qarşı başqa xanlarla ittifaq yaratmağa çalışırdı. 1652 - ci ildə baş verən növbəti hərbi münaqişədə Cahangir xan öldürülür. Sonrakı Cunqar xanları Senge (1653 - 1670) və Haldan Boşoktunun (1670 - 1697) zamanında cunqar - qazax münasibətlərində nisbi sakitlik hökm sürürdü. Bundan yararlanan cunqarlar Altın xanın dövləti və 1643- cü ildə Çində hakimiyyətə gəlmiş mancurlarla münasibətləri qaydaya salmışdı. Lakin buna baxmayaraq Cunqariya 1690 – 1697 - ci illərdə mancur hökmdarlarının onun varlığına son qoymaq cəhdlərinin qarşısını almalı olmuşdu.

XVII əsrin 80 - ci illərində Huntayşı Qaldanın dövründə cunqarlar qazax çöllərinə xeyli basqınlar etmişdilər. Bu zaman cunqarlar əsas ticarət yollarının kəsişdiyi Cənubi Qazax çöllərini ələ keçirməyə can atmışdılar. XVII əsrin 90 - cı illərində cunqarlarla müharibələr səngimişdi. Bu zaman Qazax xanlığında mərkəzi hakimiyyət güclənmiş və onlar qarakalpaklar və qırğızlarla ittifaq bağlamışdılar. Lakin Cunqariyada Tsevan-Rabtanın hakimiyyətə gəlməsilə münasibətlər yenidən kəskinləşdi. Ni-

şanlısını müşayiət edən karvana qazaxların basqınını bəhanə edən hökmdar onların üzərinə bir neçə dəfə basqın etdi.

Qazaxların XVI əsrdən başlayaraq Moskva dövləti ilə də münasibətləri var idi. Xüsusilə Həştərxan və Qazan xanlarının alınmasından sonra hər iki dövlət arasında münasibətlər daha da intensivləşdi. Bunun da səbəbi Moskva dövlətinin Sibir xanlığına qarşı mübarizədə Qazax xanlığından istifadə etmək istəməsi idi. Bundan başqa Rusiya Noqay ordasının xeyli hissəsini tabe edərək Qazax xanlığı ilə demək olar ki, həmsərhəd olmuşdu. Ona görə də Rusiya Mərkəzi Asiyadan keçən ticarət yollarından istifadə etmək istəyirdi. Rusiya və Qazax xanlığı münasibətləri Haq Nəzər xanın zamanında xeyli intensivləşdi. 1573 - cü ildə Rusiya Qazax xanlığına Tretyak Çebukovun başçılığı ilə səfarət yolladı. 1577 - ci ildə Moskva səfiri Boris Domojirov da Qazax xanlığında olmuşdu. Təvəkkül xanın zamanında 1594 - cü ildə biy Gül Məhəmməd Qazax xanlığının səfiri kimi Moskvaya gəlmişdi. Səfirin məqsədi Buxara ilə müharibə üçün odlu silah almaq və Şiqay xanın oğlunu geri qaytarmaq idi. Missiyanın əsas məqsədi isə Təvəkkülün oğlunun girov qoyulması müqabilində Rusiya ilə dostluq müqaviləsi imzalamaq idi. Moskva knyazının cavab məktubunda odlu silah verilməsinə boyun olunur və qazaxlardan Moskvaya sədaqəti sübut etmək tələb edilirdi.

1595 - ci ildə Moskva səfiri Velyamin Stepanov Qazax xanlığında olmuş və burada iki ay qalmışdı.

XVII əsrdə Rusiyada ara müharibələri, Polşa və Litva ilə mübarizə Rusiyanın Şərq ölkələrinə olan marağını zəiflətmişdi. Lakin XVII əsrin ortalarından başlayaraq rusların bu ərazilərə marağı daha da artdı. İlk olaraq bu ərazilərə rus kəndliləri və tacirləri müraciət edərək yaşayış məskənləri saldılar. İlk rus məskənləri XVII əsrin əvvəllərində Qərbi Qazaxıstanda salınmışdı. XVII əsrin 40 - cı illərində Qərbi Qazaxıstan torpaqların Quryev adlı yaşayış qəsəbəsi salındı və hərbi cəhətdən möhkəmləndirildi. XVII əsrin 20 - ci illərinin sonlarında isə artıq Rusiya tacirləri ilə Mərkəzi Asiya tacirləri arasında ticarət üstündə münaqişələr baş verirdi. 1616 – 1619 - cu illərdə Rusiya hökuməti İşım və İrtış çayının sahilindəki Sibir voyevodalarına Mərkəzi Asiya tacirlərinin hərəkətini məhdudlaşdırmaq əmri vermişdi. Bundan başqa daha çox cunqar feodallarının hücumlarını dəf etmək üçün göstərilən ərazilərdə qalalar da tikilirdi.

Mərkəzi Asiyanın dövlətlərinin səfirlikləri də Moskvaya Qazax düzləri vasitəsilə gedirdilər. Demək olar ki, bütün XVII əsr boyu bu düzlər vasitəsilə Rusiyaya Buxara və Xivədən 44 səfirlik heyəti getmişdi. Bunlardan ən böyüyünün 300 nəfər heyəti var idi.

XVII əsrdə Rusiya və Qazax xanlığının yaxınlaşmasının başqa bir səbəbi cunqarlara qarşı birgə mübarizə aparılması idi. Qazax xanı Tauke həm bu, həm də Rusiya ilə münasibətləri müttəfiqlik səviyyəsinə çatdırmaq üçün 1686 - 1693 - cü illərdə Rusiyaya böyük səfirlik göndərmişdi. Bundan başqa 1690 - cı ildə Tabay başda olmaqla başqa bir heyət Tobolsk şəhərinə gəlmişdi. Həmin illərdə

Rusiya tacirləri ilə Qazax sultanları Sarı və Gildey arasında ticarət müqaviləsi bağlamaq üçün danışıqlar aparılmışdı. Lakin Rusiya duz istehsalçılarına qazaxların hücumu onların rus voyevodaları tərəfindən həbs edilməsilə nəticələnmişdi.

Sonrakı illərdə də Qazax xanı Tauke Rusiyanı öz sədaqətinə inandırmağa çalışırdı. Ona görə də 1691 - ci ildə o, Tobolska və həmin il Tumançı və Kabay başda olmaqla Moskvaya iki elçilik heyəti göndərmişdi. Səfir xanın hücumda təqsiri olanları cəzalandıracağını bildirmişdi. Bundan sonra Sibir voyevodası Saltıkov Qazax xanlığı ilə münasibətləri yoluna qoymağa çalışmışdı və 1692 - ci ildə Andrey Nepripasovun rəhbərliyi ilə Qazax xanlığına səfir yollamışdı. Lakin Murza Gildeyin uzunmüddətli həbsindən hirslənən Tauke xan öz təbəələrinin günahını inkar etmiş və hadisəni Rusiyanın voyevodasının provokasiyası olduğunu demişdi. Buna baxmayaraq elçilər mübadiləsi davam etmiş və qazax elçisi Murza Kultubəy Atalıkovun rəhbərliyi ilə elçi heyəti Tobolska gələndə çar hökuməti Gildeyi azad etmişdi. Ümumilikdə Rusiya- Qazax xanlığı münasibətləri sakit və sülhməramlı olaraq qalırdı.

1698 - ci ildə Cunqar hakimi Tsevan Tayşinin Qazax xanlığı üzərinə basqını ilə Cunqar - Qazax xanlığı münasibətləri mühüm mərhələyə qədəm qoydu. Bu vaxtdan başlayaraq Cunqariya Qazax xanlığı üçün başlıca təhlükəyə çevrildi. Bu da Rusiya ilə Qazax xanlığını daha da yaxınlaşdırmağa başladı.

Yuxarıda göstərildiyi kimi, Qazax xanlığının tarixinin mühüm hissəsini Qazax - Cunqar münasibətləri təşkil edir. XVII əsrin 80 - ci illərindən başlayaraq cunqarların Qazax xanlığı üzərinə basqınları daha da intensivləşir. 1681 – 1685 - ci illərdə Xuntayşı Qaldan qazax çöllərinə dağıdıcı basqın edir. Onun varisi Tseva Rabtan da XVII əsrin 90 - cı illərində hücumlarını davam etdirirdi. Məhz bu hücumların təsiri altında Qazax xanı Tauke Qara Qum yaxınlığında 1710 - cu ildə qurultay çağırır. Qurultayda cunqarları şərqə doğru sıxışdırmaq üçün böyük ordu yaradılır. Ordu cunqarlara qarşı mühüm qələbələr qazanır.

Lakin Tauke xanın ölümünə yaxın Qazax xanlığında juzların sultanlarının hakimiyyəti artmağa başlayır. Onlar artıq Tauke xanın hakimiyyətinə tabe olmaq istəmirdilər. Bu sultanların əksəriyyəti cunqarlara qarşı mübarizənin nəticəsində möhkəmlənmiş adamlar idilər.

Nəticədə Qazax xanlığının şimal - qərb rayonlarında 1709 – 1711 - ci illərdə Rusiyaya qarşı başqırdların üsyanında iştirak edən Əbülxeyir xan yüksəlməyə başladı. Kiçik və Orta juza daxil olan bəzi tayfalar isə Qaip xana tabe oldular. Daşkənddə isə Rüstəm və Qarabah adlı iki nəfər hakim idi. Türküstanın bəzi yerlərini isə Dursun xan idarə edirdi.

1715 - ci ildə Taukenin ölümündən sonra xan qruplaşmaları arasında müharibə başladı. Mübarizənin sonunda Qaip xan (1715 - 1718). xan seçildi. Lakin yenə qazax çöllərində mərkəzi hakimiyyət yaratmaq mümkün olmadı. 1716 - cı ildə Cunqar ordusu yenidən qazax çöllə-

rinə hücum etdi. Onların ordusunun bir hissəsi İli çayından Ayaquz adlanan əraziyə istiqamət götürdü. Burada baş verən döyüşdə 1718 - ci ildə Əbülxeyir xanla Qaip xan arasında fikir ayrılıqları nəticəsində cunqarlar mühüm qələbə qazandılar. Həmin Arısu çayı sahilində cunqarlar o biri qazax dəstələrini də məğlub etdilər.

1718 - ci ildə Qaip xan öldü. Onun ölümündən sonra qazax biyləri öz cəsarəti və ağlı ilə seçilən Əbülxeyir xanın əvəzinə, zəif və bacarıqsız namizəd olan Bulatı xanı (1718 - 1729) seçdilər. Lakin Bulatın hakimiyyəti qazaxlarda biy özbaşınalığına əsas verdi. Lakin müharibə zamanı icma hakimiyyətinə qayıdılması effekt vermədi. Bulat hakimiyyəti çox tezliklə faktiki olaraq əldən verdi. Nəticədə sultanların və biylərin hakimiyyəti gücləndi. Kiçik və orta juzların tayfalarının bir hissəsi cavan və enerjili xan olan Əbülxeyir xanın (1718 - 1748). tərəfinə keçdilər. Daşkənddə Jolbaris xan, orta juzların bir hissəsi tərəfindən isə Şahmuhambet xan seçildi. Bununla da Qazax ordasında ara müharibələri dövrü başladı. Bu hakimlər cunqarlara qarşı birgə müdafiə təşkil edə bilərdilər. Lakin bunu etmədilər, onlar bunu yalnız böyük fəlakət baş verəndən sonra başa düşdülər.

1723 - cü ildə qazaxların qışlaqlardan köçməyə hazırlasmasında və hücum gözləməmələrindən istifadə edən cunqarlar qəfildən onlara hücum etdilər. Cunqarlar Qaratau dağları vasitəsilə Talas hövzəsinə basqın etmişdilər. Demək olar ki, bütün qazax əhalisi məhv edildi. Bundan sonra da qazax juzları cunqarlara qarşı birləşə bilmədilər. Minlərlə aclıq çəkən köçərilər Mavəraənnəh-

rin vahələrinə axışıb gəldilər. Burada aclıq faciə səviyyəsinə çatdı. 1724 – 1725 - ci illərdə cunqarlar basqın edərək Türküstan və Daşkəndi darmadağın etdilər. Sırdərya sahillərində iqtisadiyyat məhv edildi. Bu hadisələrə tarixi ədəbiyyatda "akbatan şıbırındı" adı verildi.

Milli mövcudiyyətə qarşı yaranan bu təhlükə qazax juzlarını birləşməyə məcbur etdi. 1726 - cı ildə Taylak batır və Sağlıq batırın rəhbərliyi altında orta və kiçik juzların birləşmiş qazax ordusu Bulantı çayının sahilində Qara Sıyır adlı yerdə cunqarları ağır məğlubiyyətə uğratdılar. Qələbədən qazaxlar xeyli ruhlandılar. Həmin il Şımkənd yaxınlığında Ordabası adlanan dağın kənarında bütün üç qazax juzunun birgə məsləhət iclası keçirildi. Qurultayın məqsədi birləşmiş qazax ordusuna sərdar seçmək idi. Sərdar həm də xan səlahiyyətlərini icra etməli idi. Qazaxların birgə rəyi ilə Əbülxeyir xan qazaxların ümumi rəhbəri seçildi.

1729 - cu ildə Anrakayb yaxınılığında döyüşdə birləşmiş qazax ordusu cunqarlara sarsıdıcı zərbə vurdu. Lakin Əbülxeyir xan qazaxların ümumi xanı ola bilmədi. Buna yenidən qızışan ara müharibələri imkan vermədi. 1730 - cu ildə qazax ordusu Yeddisu yaxınlığında cunqarlara yeni bir zərbə vurdu. Bundan sonra qazaxlar arasında ara müharibələri yenidən qızışdı. 1741 - ci ildə qazax xanlığı Cunqariyadan asılı vəziyyətə düşdü.

XVII əsrin sonlarına doğru Rusiya hökuməti Qazaxıstan ərazilərində yeni işğalçılıq siyasəti həyata keçirirdi. Burada çoxlu rus qalaları və qəsəbələri salınırdı. Qazax xanı Tauke dəfələrlə rus kazaklarının və başqırdların

basqınlarının qarşısını almaq, rus tacirləri ilə müqavilə bağlamaq üçün səfirlər göndərsə də Rusiya artıq danışıqları çətinləşdirirdi.

I Pyotrun zamanından başlayaraq Rusiya qazax dövlətlərinə qarşı açıq ekspansiya siyasəti yeritməyə başladı. 1714 - cü ildə Qazaxıstana bir neçə hərbi ekspedisiya göndərilsə də I Pyotrun ölümü bu ərazilərin işğalını xeyli gecikdirdi.

Anrakay döyüşündən sonra qazaxların ümumi rəhbəri olmaqdan əli üzülən kiçik juzun rəhbəri Əbülxeyir xan Rusiyanın himayəsini qəbul etmək siyasəti yeritməyə başladı. Bununla da o, Rusiya kəndliləri, kazaklar və başqırdların qazax torpaqlarına basqınlarına son qoymaq istəyirdi. Rusiya da öz növbəsində qazaxları himayəyə almaq üçün buraya 1731 - ci ildə böyük səfirlik göndərdi. Həmin il kiçik və orta juzların qurultayında Rusiyanın himayəsinə girmək məsələsi həll edildi və sədaqət andı içildi. 1734 - cü ildə kiçik juzun Rusiya tərkibinə girməsi artıq rəsmiləşmiş oldu. Əbülxeyir xan öz üzərinə Rusiya karvanlarını qorumaq və vergi vermək öhdəliyini götürdü. Rusiya isə ona hərbi yardım göstərməli və onu düşmənlərdən müdafiə etməli idi. Xan hakimiyyətə təyin olunduqdan sonra Rusiya tərəfindən təsdiq edilməli idi.

Lakin Rusiya əvvəl başdan qazaxlarla olan müqaviləni pozmağa başladı. Ruslar qalalar salırdılar. Lakin bunların heç biri Əbülxeyir xan üçün deyildi. Bundan başqa Rusiya qazaxların daxili işlərinə də kobudcasına qarışırdı. Rusiya cunqarlara qarşı qazaxlara yardım etmədi.

Kiçik juzun Rusiya asılılığına keçməsindən sonra o, qalan juzlar üçün təhlükəyə çevrildi. Kiçik juz Rusiya himayəsini qəbul etdikdən sonra o biri juzlar da hərəkətə keçdilər. Rusiya himayəsinə keçməkdə əsas məqsəd şimal sərhədlərini qorumaq və cunqarlara qarşı odlu silah almaq idi. Lakin Rusiya himayəsinə keçmək qazaxlara heç nə vermədi. 1741 - ci ildə cunqarlar yenidən qazax çöllərinə basqın etdilər. 1748 - ci ildə Əbülxeyir xan öz rəqibi Barak xan tərəfindən öldürüldü.

Qazax dövlətinin yenidən yüksəlişi Abılay xanın (Əbülmənsur) adı ilə bağlıdır. Uşaq vaxtı düşmənlərindən gizlənməli olan Abılay çoban kimi də xidmət etmişdi. XVIII əsrin 20 – 30 - cu illərində cunqarlara qarşı sıravi əsgər kimi də vuruşmuşdu. Sonradan isə sultan adını alaraq qazax rəhbərlərindən birinə çevrilmişdi. Lakin 1741 - ci ildə cunqarların sonuncu hücumu zamanı onlara məğlub olub, əsir düşmüşdü. Nəticədə qazaxlar Rusiya himayəsindən çıxıb cunqarların himayəsini qəbul etmişdilər. Ondan sonra Abılay əsirlikdən azad edilmişdi.

1745 - ci ildə cunqar tayşisinin ölümü ilə onlarda ara müharibələri başlandı. Qazaxlar da həmin müharibələrdə iştirak edirdilər. Bundan istifadə edən Çin imperiyası 1755 - ci ildə Cunqariyaya qoşun yeritdi. Lakin onlar qazaxlarla konfliktə girməkdən çəkinirdilər. Lakin qazaxların Cunqariya ərazisində çinlilərə məğlub olması, bir ildən sonra Çin ordusunun Qazax xanlıqlarına qarşı hərbi səfərinə səbəb oldu. Lakin qazaxlar çinlilərin hərbi yürüşünü dəf edə bildilər. 1757 - ci ildə Cunqariyada üsyan baş verməsi də Çini qazaxlar üstünə basqın etməkdən çə-

kindirdi. Lakin həmin ildə Çin ordusu sonuncu dəfə Qazaxıstana basqın etsə də hücumu sülh yolu ilə həll etmək mümkün oldu və Abılay xan qazax xanı kimi tanındı. Beləliklə də, Çin Qazaxıstana olan ərazi iddialarından əl çəkdi.

Cunqariyanın Çinə tabe olmasından sonra orta və böyük juzun bəzi qazax tayfaları Tarbaqatay və İli çayları hövzələrinə köçməyə başladılar. Çin hökuməti əvvəl onlara bu ərazilərə köçməyə imkan verməsələr də, sonradan Çin hakimiyyətini qəbul etmək şərti ilə buralarda məskən salmağa icazə verdi. Nəticədə burada Çin-Sintzyan əyaləti yarandı.

Çin işğalı dəf edildikdən sonra Abılay xan başqa juzları da öz hakimiyyəti altında saxlamaqdan ötrü mübarizə aparmağa başladı. 1771 - ci ildə Abılay (1771 - 1781) bütün qazax juzlarının xanı seçildi. Onu da qeyd etmək lazımdır ki, Abılay qazaxların üç juzunu da birləşdirən sonuncu nüfuzlu xan oldu.

Abılay Rusiyanın da himayəsindən imtina etdi. Şimal sərhədlərini möhkəmləndirməklə yanaşı, əvvəllər Qazax xanlığına daxil olan cənub şəhərlərini də öz hakimiyyəti altına topladı. Daşkəndin yenidən zəbt edilməsi onun siyasi uğuru idi. Xarici siyasətdə Abılay xan Çin işğalına qarşı başqa Mərkəzi Asiya dövlətlərinin ittifaqını yaratmaq istəsə də buna nail ola bilmədi. Yalnız Buxara əmirliyi onun təklifinə cavab verdi. Lakin Abılay xanın daxili siyasəti xeyli uğurlu oldu. Belə ki, o biylərin özbaşınalığını xeyli məhdudlaşdırdı. O, mərkəzi hüquq sisteminə arxalanan, mərkəzləşmiş dövlətin əsasını qoymaq

istəyirdi. Bu məqsəddən ötrü xeyli də islahatlar aparmışdı. Lakin Abılay xan istədiklərini tam həyata keçirə bilmədi. Bəzi xanlar onun hakimiyyətini hələ də tanımırdılar. Bunlara naymanların xanı Əbülfeiz xanı misal göstərmək olar. Rusiya da ona qarşı qazax xanları arasında müxalifəti gücləndirməyə çalışırdı. Ancaq Rusiyanın bütün səylərinə baxmayaraq XVIII əsrin sonuna qədər Rusiyanın qazaxlar üzərində himayəçiliyi nominal olaraq qalırdı.

XVIII əsrin 30 - cu illərindən başlayaraq Çar Rusiyası Qazax çöllərinin praktik cəhətdən tabe edilməsi üçün konkret tədbirlər görməyə başladı. Bunlardan birincisi, diplomatik yollarla qazax juzlarını Rusiya himayəsinə qəbul etmək idi. İkincisi isə yerlərdə Rusiya kəndlilərinin məskənlərini yaratmaq və qazax tayfalarını bu ərazilərdə sıxışdırmaq idi. Üçüncüsü, kazakların və başqırdların qazaxlar üzərinə basqınlarını genişləndirmək idi. Dördüncüsü, Rusiya daxil olduğu qazax çöllərində qalalar tikir və bu ərazilərdə kazaklardan ibarət hərbi qarnizonlar yerləşdirirdi.

XVIII əsrin 50 - ci illərindən başlayaraq Rusiya orta juz qazaxların Ertis çayı ətrafı torpaqlara köç etməsini qadağan etdi. 1761 - ci ildə həmin qadağa daha da sərtləşdirildi. Məqsəd buralardakı qazax xutorlarını məhv etmək idi.

Bundan başqa qazaxların kazak məskənləri ilə də toqquşmaları baş verirdi. Çar hökuməti kazaklara bildikləri kimi qazaxlarla savaşmaq hüququ verirdi. Bu da onların qazax kəndlərinə qarşı özbaşınalıqlarına gətirib çıxarırdı. Mübarizə o həddə çatdı ki, 1755 - ci ildə çar xüsu-

si fərman verməklə kazaklara qazaxlarla düşmən kimi rəftar etmək icazəsi verdi.

Qazaxların kalmıklarla da mübarizəsi səngimək bilmirdi. XVIII əsrin 70 - ci illərindən bu mübarizə xüsusilə kəskinləşdi. Lakin 1771 - ci ildə çar hakimiyyətinin sıxışdırmalarına məruz qalan kalmıkların bir hissəsi Cunqariyaya köçüb getdi. Onlardan qalan yerlərdə ruslar müdafiə xətti tikməyə başladılar. Lakin otlaqları itirməkdən qorxan qazax köçəriləri bu dəfə də bu istehkamların tikilişi ilə mübarizə aparmalı oldular.

Rusiya hakimiyyətinin qazaxlara qarşı sıxışdırma siyasəti son nəticədə qazaxların Rusiyaya qarşı kütləvi çıxışlarına səbəb oldu. 1773 - 1775- ci illərdə qazaxlar kütləvi şəkildə Y. Puqaçovun üsyanında iştirak etdilər.

Puqaçovun üsyanının yatırılmasından sonra ruslar qazax çöllərinə basqın edərək qazax aullarını bir - birinin dalınca məhv edirdilər. Nəticədə qazaxların xeyli hissəsi cənuba doğru çəkilməyə məcbur oldu. Buna baxmayaraq 1775 – 1776 - cı illərdə Rusiyaya qarşı Göktəmirin üsyanı oldu. Üsyan çox çətinliklə yatırıldı.

Rusiyaya qarşı ikinci ən böyük hərəkat 1785 – 1797 - ci ildə Sirım Datulanın hərəkatı oldu. Hərəkatın məqsədi kiçik juzda müstəqil xan hakimiyyətini bərpa etmək və qazax köçlərinə qarşı məhdudiyyətləri aradan qaldırmaq idi. Müharibə Rusiyanın qazaxlara qarşı bir sıra mühüm güzəştlərə getməsilə başa çatdı.

Abılay xanın ölümündən sonra hakimiyyətə onun oğlu Uali xan çıxdı. Onun hakimiyyəti dövründə Qazax xanlığının siyasi pərakəndəliyi daha da dərinləşdi. Döv-

lətin ayrı - ayrı şəhərlərini sultanlar idarə edir, xanın hakimiyyəti ilə hesablaşmırdılar. Uali xan (1781 - 1819) Çinin və Rusiyanın köməyi ilə hakimiyyətini möhkəmləndirmək istəyirdi. Ancaq Çin onun irsi hakimiyyətini tanısa da Rusiyanın təhriki ilə başqa Mərkəzi Qazaxıstan biyləri Boke adlı bir nəfəri özlərinə xan seçdilər. Bunun ardınca qıpçaq qazaxları isə Jan Püreni, Arqın qazaxları isə Jumajan adlı bir nəfər Çingizini xan seçdilər. 1821 - ci ildə Uali xan öldü.

Uali xanın ölümündən sonra orta juzda hakimiyyətə Qubaydulla xan çıxarıldı. Lakin Rusiya onun hakimiyyətini tanımadı. 1824 - cü ildə Barnaula qədər gəlib çıxan rus dəstəsi onu həbs etdi və bundan sonra Rusiya orta juzu planlı şəkildə işğal etməyə başladı.

Kiçik juzda siyasi vəziyyət o qədər də stabil deyildi. Onun xanı olan Ayşuak xan demək olar ki, hakimiyyətə nəzarət edə bilmirdi. Nəticədə qazaxlar arasında ara müharibələri və rəqabət, o cümlədən başqırd və kazakların qazax aullarına basqınları ölkənin var - yoxdan çıxmasına gətirib çıxarırdı. 1803 - cü ildə kiçik juzun tayfa rəhbərləri qurultaya toplaşaraq bir daha ara müharibələri aparmayacaqlarına və müharibədən imtina etdiklərinə "and" içdilər. "Andın" mətni Rusiyaya göndərilərək hakimiyyət orqanlarından qazax aullarına basqın etməyi dayandırmaq xahiş edilirdi. Lakin Rusiya "Andı" qəbul etmədi. Atşuakı da hakimiyyətdən devirərək taxta oğlu Jantöreni çıxardılar.

Yuxarıdakı hadisələr zəminində Mərkəzi Qazaxıstanda yeni dövlət Boke xanlığı yarandı. Böyük mübarizə-

dən sonra qazaxlar Yaik və Edil çayı sahillərinə də köçmək hüququ aldılar. Bundan başqa XVIII əsrin 90 - cı illərində onlara kalmıkların köçdüyü və boş qalan ərazilərdə də məskunlaşmaq hüququ verildi. Burada gedən siyasi proseslərin nəticəsində 1812 - ci ildə Çar hakimiyyəti Bokenin xan titulunu tanımış oldu.

Kiçik juzda ruslar tərəfindən hakimiyyətə qoyulan xan Jantore də elə bir nüfuza malik deyildi. Nəticədə ona qarşı Qaratay başda olmaqla başqa biylərdən ibrət müxalifət yarandı. 1806 - cı ildə Kobde çayı sahilindəki qurultay Qaratayı xan kimi tanıdı. Lakin 1807 - ci ildə Qaratayın rus rəsmilərinə tanınmaq barədə müraciəti cavabsız qaldı, çünki cəsarətli və qəti rəhbərin hakimiyyətə gəlişi Rusiyanı qane etmirdi. Xanın Orenburqa gedən karvanı saxlaması isə rusların hərbi əməliyyata başlaması üçün bəhanə oldu. Müharibə müxtəlif fasilələrlə 1816 - cı ilə qədər çəkdi. Ancaq Qaratayın Rusiya ilə güzəştli mövqe tutması onun siyasi nüfuzunun aşağı enməsinə səbəb oldu.

Sırdərya qazaxları isə kiçik juzdan ayrılaraq özlərinə müstəqil siyasi qurum yaratmışdılar. 1816 - cı ildə Qaratayın hakimiyyətdən gedişindən sonra qazaxlar Arınqazını (1816 - 1821) xan seçdilər Bu zaman Sırdərya qazaxları daha çox Xivə xanlığının siyasi təzyiqlərinə məruz qalırdılar. Arınqazı müəyyən dərəcədə mərkəzi hakimiyyəti gücləndirmək üçün mühüm tədbirlər həyata keçirdi. Bundan sonra Xivə xanlığına qarşı mübarizə aparmağa başladı. Lakin xivəlilər Arınqazının qardası Serqazı vasitəsilə ona qarşı qazaxların bir hissəsini qaldıra bildi-

lər. Nəticədə Xivəyə qarşı mübarizə uğursuz oldu. Bu zaman Arınqazı Xivə ilə mübarizə aparmaq üçün Rusiyaya müraciət etdi. Lakin Rusiya gözlənilən inamı doğrultmadı. 1821 - ci ildə guya Qazax xanı elan edilmək üçün Peterburqa çağrılan Arınqazı burada da həbs edilərək Kaluqaya sürgün edildi.

Arınqazının həbs edilməsindən istifadə edən Rusiya inzibati idarəsi Şimali və Qərbi Qazaxıstanda yeni inzibati idarə sistemi yaratmışdı. İdarəçilik iki qanun aktına - "Sibir qırğızları haqqında nizamnaməyə" və "Orenburq qırğızları haqqında" əsasnaməyə dayanırdı. 1822 - ci ildə verilən birinci əsasnaməyə görə Qazax düzünün ərazisi Qərbi Sibir inzibati bölgüsünə daxil edilmişdi. Bu da öz növbəsində ağa-sultanların rəhbərlik etdiyi 7 dairəyə bölünürdü. Onlar da öz növbəsində volostlara bölünürdülər. İkinci nizamnamə 1824 - cü ildə verilmişdi. Nizamnaməyə görə kiçik juzda xanlıq ləğv edilir və bunlar başlarında sultan olan qərb, orta və şərq dairələrinə bölünürdülər. Hər bir sultanın verilən həcmdə hərbi dəstəsi olurdu.

Bundan başqa rus hökuməti qazaxların ən yaxşı torpaqlarında sərhəd müdafiə məntəqələri salır və burada kazak dəstələri yerləşdirirdilər. Bunlardan biri də 1823 - cü ildə salınan Yeni İletsk müdafiə sistemləri oldu. Kiçik Juzun batırı Jolaman Tleinşulu Rusiyaya çoxlu məktublar və şikayətlər yazsa da, Rusiyadan cavab gəlmədi. Nəticədə Jolaman 1823 - cü ildə Rusiyaya müharibə elan etdi. Qazaxlar həmin vaxtdan rus istehkam və qazax xanlarının aullarına basqınlar etməyə başladılar. 1824

- cü ildə Orta Juzda da Rusiyaya qarşı üsyan başladı. Şimali və Mərkəzi Qazaxıstanda da sultan Sarjan Qasimulanın rəhbərliyi ilə üsyanlar başladı. Qazaxlar rusların onların torpaqlarından çıxmasını və buradakı istehkamların sökülməsini istəyirdilər.

Üsyana Daşkənd quşbəyiləri və kokandlılar da qoşuldular. Lakin ruslar Sarjanı Mərkəzi Qazaxıstandan çıxara bildilər. 1836- cı ildə Daşkəndin rəhbəri xəyanət edərək Sarjan və qohumlarını öldürdü.

1837 - ci ildə Boke xanlığında da üsyan baş verdi. Lakin üsyançıların dağınıqlığı üzündən üsyan məğlub edildi. Lakin Boke xanlığında üsyana yenidən hazırlaşmağa başladılar. Ayrı - ayrı qazax feodalları isə Rusiyaya qarşı Xivə xanlığı ilə ittifaq qurmağa çalışırdılar.

1837 - ci ildə Kenessarın başçılığı altında yeni bir üsyan qalxdı. Üsyanın mərkəzi Akmola dairəsi idi. Üsyana xeyli qazax tayfaları da qoşulmuşdu. Bunlardan başqa üsyanda sürgündə olan ruslar, başqırdlar və polyaklar da iştirak edirdilər. Tezliklə qazax ordusu dörd dairəni ruslardan azad etdi. Onun Rusiyaya göndərdiyi elçilərin həbs edilməsi 1838 - ci ildə başqa qazaxların da ona qoşulmasına və onun Rusiyaya qarşı yenidən mübarizəyə başlamasına səbəb oldu.

Hərbi cəhətdən qazaxlara qalib gələ bilməyən ruslar 1840 - cı ildə qazaxlarla danışıqlara başladılar. 1841 - ci ildə orta və kiçik juzun tayfalarının şurasında Kenessar yeni qazax xanı seçildi. Yeni Qazax xanlığının əsası qoyuldu. Kenessar yeni islahatlar keçirərək mərkəzi hakimiyyəti gücləndirməyə çalışdı.

Rusiya ilə qısa fasilədən yararlanmağa çalışan böyük juzu da azad etmək üçün Kokanda qarşı mübarizəyə başladı. Lakin 1842 - ci ildə Rusiya atəşkəsi pozdu. 1843 - cü ildə müharibə yenidən qızışdı. 1845 - ci ildə üstünlük rus ordusunun tərəfinə keçdi. Bundan başqa Kokand və Buxara xanlıqları da Kenessarın əleyhinə birləşmişdilər. Kenessar cənuba doğru geri çəkilməli oldu. 1847 - ci ildə isə qırğızların və kokandların birgə yürüşü nəticəsində məğlub edilib öldürüldü.

1850 – 1854 - cü illərdə rusların qazax çöllərinin daxilinə doğru irəlilədiyini görən qazaxlar kokandlılarla ittifaqda yenidən üsyan etdilər. Lakin üsyançıların arasında fikir ayrılıqları üsyanın məğlubiyyətilə nəticələndi. 1855 - ci ildə Krım müharibəsində rusların məğlubiyyəti xəbəri qazaxların üsyanının yenidən alovlanmasına səbəb oldu. Lakin 1858 - ci ildə Ak Məşit yaxınlığında döyüşdə qazaxlar məğlub edildilər. Qazaxıstanı azad etmənin sonuncu cəhdi 1860 - cı ildə kokandlılarla ittifaqda baş verdi. Müharibə 1864 - cü ilə qədər davam etdi və Türküstanın ruslar tərəfindən alınması ilə başa çatdı.1895 - ci ildə Pamirin alınması ilə Mərkəzi Asiya və Qazaxıstanın işgalı başa çatır. Bununla da Qazaxıstan Rusiyanın tərkibinə daxil oldu.

### *§ 3. Buxara xanlığı XVII - XIX əsrlərdə*

Buxara xanlığının meydana gəlməsi Şeybanilərin sülaləsinin dövründə, II Abdulla xanın hakimiyyəti illərində reallaşmışdır. Belə ki, Şeybani xanın ölümündən

sonra Mərkəzi Asiya ərazisi bir tərəfdən özbək feodalları, o biri tərəfdən isə Səfəvi dövləti və Babur şahın ərazi iddialarının qurbanına çevrilmişdi. Bundan başqa dövlətin başlıca siyasi mərkəzləri olan Buxara, Xivə və Daşkənddə ayrı - ayrı özbək feodalları müstəqil şəkildə dövləti idarə edirdilər. Şeybani xanın ölümündən sonra I Übeydulla xanın dövründə özbək dövlətini müvəqqəti olsa da möhkəmləndirmək mümkün oldu. Lakin onun ölümündən sonra Şeybani feodalları arasında müharibələr yenidən qızışdı. Bundan başqa özbəklərin şimal qonşuları olan qazaxlar və qərb qonşuları olan Səfəvilərlə münasibətləri də gərgin olaraq qalırdı.

Şeybanilər dövlətinin mərkəzləşdirilməsi yolunda ikinci böyük addımı Şeybani xanlarından İsgəndərin oğlu Abdulla xan (1557 - 1598) atdı. O, öz rəqiblərinə qarşı xeyli amansız və sərt idi. Rəqiblərini bütün övladları ilə birlikdə məhv edirdi. Buna görə də tarixçilər ona özbəklərin “İvan Qroznısı” adını vermişdilər. Lakin Abdulla xan özünün inzibati və hərbi cəhətdən istedadı ilə də seçilirdi. Buna görə də ölkənin idarəsinin qaydaya salınması üçün xeyli səmərəli işlər də həyata keçirdi. Abdulla xanın islahatları nəticəsində ölkənin iqtisadiyyatı çiçəklənməyə başladı, dövlətdə ara müharibələrinə son qoyuldu və eyni zamanda dövlətin idarəçiliyi təkmilləşdi. Xarici düşmənlərə qarşı mübarizə də asanlaşmış oldu. Abdulla xan Səfəvilərin zəifliyindən istifadə edərək Xorasanı müvəqqəti də olsa öz dövlətinə birləşdirə bilmişdi. Abdulla xanın zamanında Buxara şəhəri qəti şəkildə ölkənin paytaxtına çevrildi. Buna görə də tarixi ədəbiyyatlarda döv-

lətə Buxara xanlığı da deyilməyə başladı. XVI əsrin sonuna aid olan Rusiya mənbələrində isə ona "Böyük Buxariya" deyə müraciət edirdilər. Türküstan isə rus mənbələrində "Kiçik Buxariya" adlanırdı.

1598 - ci ildə II Abdulla xanın ölümündən sonra dövlətdə yenidən ara müharibələri başladı. Onun varisi, II Abdulla xanın əmisi oğlu, Şeybani dövlətinin sonuncu ali hökmdarı II Pirməhəmməd xan (1598 - 1601) dövlətin yalnız kiçik bir hissəsini idarə edirdi və ara müharibələri nəticəsində öldürüldü.

Buxaradakı ara müharibələrindən istifadə edən Səfəvilər də qərbdən basqın edərək Səbzəvar, Məşhəd və Herat daxil olmaqla Xorasanın böyük bir hissəsini ələ keçirmişdilər. Bəlx vilayəti də Səfəvilərin əlinə keçmişdi. Şimaldan basqın edən qazaxlar Daşkənd daxil olmaqla bir neçə şəhəri də tutmuşdular. Daşkənd Şeybanilərin ən mühüm ticarət və iqtisadi mərkəzi idi. II Abdulla xan tərəfindən çox böyük zəhmət bahasına dövlətə birləşdirilən Xarəzm də müstəqillik qazanmışdı.

Bu vəziyyətdə Buxarada hakimiyyətə Canilər sülaləsi (1601 - 1753) gəldi Bu sülalə tarixi ədəbiyyatlarda Həştərxanilər sülaləsi kimi də qalmışdır. Sülalənin əsasını II Abdulla xanın bacısına evli olan Cani Məhəmməd Sultan (Canıbəy) qoymuşdu. O, mənşəcə Çingiz xanın nəslindən olub, Həştərxan xanları sülaləsinə mənsub idi. Deyilənlərə görə o, Həştərxanda ona təklif edilən Buxara xanı titulundan oğlu Din Məhəmmədin xeyrinə imtina etmişdi. Lakin Din Məhəmməd Buxaraya gedən yolda vəfat etmişdi. Onda xan titulu onun ikinci oğlu Baqi Mə-

həmmədə (1601 - 1605) təklif edilmişdi. Özbək tarix ənənəsi məhz onu Həştərxanilər sülaləsinin banisi kimi göstərmişlər. Lakin zərb olunan sikkələrin üstündə Canıbəyin özünün şəkillərinin olması və bir çox əmrlərin məhz onun adından verilməsi, hakimiyyətin məhz Canıbəyin əlində cəmləşdiyini ehtimal etməyə əsas verir. Ancaq Canı Məhəmmədin nominal yoxsa faktiki hakim olması hələ də təyin edilməmişdir.

Canilər sülaləsinin yeganə xarici siyasət uğuru Bəlxin Buxara xanlığının hakimliyinə qaytarılması oldu. Hakimiyyətə gələn Baki Məhəmməd bəzi islahatlar keçirməyə çalışdı. Bunlardan birincisi, Buxara xanlığının ordusunun yenidən təşkil edilməsi və onun odlu silah əsasında yenidən silahlandırılması idi. Baqi Məhəmmədə qədər Buxara ordusu ayrı - ayrı tayfalardan toplanmış intizamsız dəstələrdən və kalmıklar, qazaxlar, qırğızlardan toplanmış olan muzdlulardan ibarət idi. Həmin dəstələr isə öz rəhbərlərindən başqa heç kəsə tabe olmaq istəmir, intizamsız şəkildə vuruşur, bəzən də özbaşına döyüş meydanını tərk edirdilər. Bundan başqa Buxara ordusu texniki cəhətdən də geri qalırdı. Ordu əsas etibarilə qılınc, nizə, ox - yay və qalxanlarla silahlanırdı. Az miqdarda tüfəng və bir neçə dəvələrə yüklənmiş kiçik mis toplar var idi. Lakin Baqi Məhəmmədin ordunu yenidən qurmaq cəhdləri nəticə vermədi. Daimi müharibələr və feodalların qiyamları buna imkan vermədi. Bundan başqa Buxara xanlığının torpaqları daima qazaxların, kalmıkların, qarakalpakların və türkmənlərin basqınlarına məruz qalırdı.

Baqi Məhəmmədin öldürülməsindən sonra hakimiyyətə onun qardaşı Vali Məhəmməd (1605 - 1611) gəldi. Lakin onun ölkəni mərkəzləşdirmək cəhdi vergilərin nisbətən artırılmasına gətirib çıxardı ki, bu da əhalinin narazılığına səbəb oldu. Onun siyasətindən narazı qalan feodallar da bundan məharətlə istifadə etdilər və 1611 - ci ildə Buxarada ona qarşı üsyan qaldırdılar. Vali Məhəmməd oğlanları ilə birgə Səfəvilərin sarayına qaçdı. Səfəvilərdən kömək alan Vali Məhəmməd yenidən Buxaranı qaytarmağa çalışdı. Lakin başlarında onun əmisi oğlu olan İmamqulu xan olmaqla, buxaralılar onun hücumlarını dəf etdilər. Bununla da hakimiyyətə İmamqulu xan (1611 - 1642) keçdi.

Daşkənd qazaxlarından istifadə edən İmamqulu xan ilk olaraq səfəvi ordusunu Buxara ərazisindən çıxarmağa nail oldu. Bundan sonra o, qazaxların ölkəyə hücumlarının qarşısını almaq üçün və Daşkəndi öz hakimiyyətinə qaytarmaq üçün müharibəyə başladı. 1612 – 1613 - cü illərdə Daşkəndi ələ keçirən xan buraya oğlunu canişin təyin edərək şəhəri tərk etdi. Lakin xan şəhəri tərk edən kimi Daşkənd camaatı üsyan edərək xanın oğlunu öldürdülər. Bunu eşidən İmamqulu xan daşkəndlilərdən intiqam almaq məqsədilə şəhər tutularsa qan atının yəhərinə çatana qədər əhalini məhv etmək əmrini verdi. Yalnız onun bu amansızlığına dözməyən sərkərdələrinin xahişləri nəticəsində Daşkənddə qırğın dayandırılmış oldu. Ancaq bununla belə salnaməçinin yazdığına görə Daşkəndin əhalisinin yarısı məhv edilmişdi.

İmamqulu xan bir neçə il də qarakalpaklarla mübarizə aparmalı oldu. Bu müharibədə əldə etdiyi uğurlar onun siyasi nüfuzunun artmasına səbəb oldu və bundan başqa o, kalmıkların da basqınlarının qarşısını ala bilmişdi. İmamqulu xan Buxarada mərkəzi hakimiyyəti də nisbətən möhkəmləndirə bilmişdi. Xan öz sarayında alimləri, şairləri və rəssamları toplamış, onların yaradıcılığı üçün ən gözəl şərait yaratmışdı. Bundan başqa mənbələr İmamqulu xanın ölkənin təsərrüfatını canlandırmaq üçün gördüyü tədbirlərdən də danışırlar. İmamqulu xan din xadimlərinə və sufi ordenlərinə də himayəçilik göstərir, hər vasitə ilə onları öz tərəfinə çəkməyə çalışırdı. Lakin İmamqulu xan bütün apardığı işlərə baxmayaraq ölkədə feodal dağınıqlığının qarşısını ala bilmədi.

Onun ölümündən sonra taxta oturan varisi və qardaşı, əvvəllər bəlxi idarə edən Nadir Məhəmməd xan ölkəni yalnız üç il idarə edə bildi. Onun dövründə ölkədə feodal ara müharibələri daha da artmış oldu. Bu müharibələrin güclənməsində xanın özünün də mühüm rolu var idi. Belə ki, o, idarə etdiyi torpaqları 12 oğlu arasında bölmüşdü. Bəzi regionlar isə əmirlər arasında bölüşdürülmüşdü. Bunlardan ən çox fərqlənənləri Səmərqənd hakimi Yalanqtuş bəy, Mahmud Qatağan və başqaları idi. Onlar öz torpaqları üzərində heç kimin hakimiyyətini tanımır və birilərilə daima müharibələr aparırdılar. Hələ Nadir Məhəmməd xanın sağlığında onun oğlanları arasında ara müharibələri bərk qızışmışdı.

1645 - ci ildə Nadir Məhəmməd xan kalmıklara qarşı hərbi səfərə çıxdı. Bundan istifadə edən Xocənt

əyanları onun oğlu Əbdüləzizi (1645 - 1680) xan seçdilər. Buxaralılar da onun hakimiyyətini tanıdılar. Oğlanlarının təzyiqinə məruz qalan Nadir Məhəmməd xan onlara qarşı mübarizə aparmaq üçün Hindistandakı Böyük Moğollar imperiyasına müraciət etdi. Moğol hökmdarı şah Cahan da ona kömək etməyə söz verdi. Onun məqsədi ara müharibələrindən yararlanaraq Buxaradan Bəlxi almaq idi. Buna görə də Şah Cahan Bəlxi ələ keçirmək üçün iki oğlu ilə birgə böyük bir ordunu Hinduquş dağları vasitəsilə Bəlxə göndərdi. Şah Cahanın məqsədindən xəbər tutan Nadir Məhəmməd qaçaraq Səfəvi şahı II Abbasın yanında sığınacaq tapdı.

Bəlxi ələ keçirən hindlilər burada özlərini işğalçı kimi aparmağa başlayır və əhalini qarət edirdilər. Buna görə də Bəlxin əhalisi başqa yerlərə, ən çox da Mavəraənnəhrə qaçmağa başlamışdılar. Əbdüləziz xana hindliləri buradan qovmaq üçün iki il vaxt lazım olmuşdu. Dörd ay davam edən hücumlar, toqquşmalar, ordunun Hindistandan kömək ala bilməməsi üstünlüyü özbəklərin xeyrinə dəyişmişdi. Bundan başqa qış gəldikdə orduda xəstəlik və aclıq da başlamışdı. Şah Cahan diplomatik gediş işlədərək Səfəvilərdə gizlənən Nadir xana Bəlxi tərk etmək haqqında xəbər göndərdi və oranı tutmağa çağırdı. Özü isə ölkəni tərk etməyə başladı, hind ordusunu da özbəklər təqib edərək məhv edirdilər.

Nadirin Bəlxi tutması Əbdüləzizi narahat etməyə başladı. 1651 - ci ildə o, qardaşı Sübhanqulunu Bəlxi tutmağa göndərdi. Bəlxin əhalisi ilə gizli sazişə girən Sübhanqulu Bəlxi ələ keçirdi. Nadir xan qəti şəkildə haki-

miyyətdən uzaqlaşdırıldı. Lakin onun uzaqlaşması qardaşlar arasında müharibələri yenidən alovlandırdı.

1655 - ci ildə Mavəraənnəhr xivəlilərin dağıdıcı basqınlarına məruz qaldı. 1662 - 1685 - ci illərdə xivəlilər Buxara, Səmərqənd və Xarəzmi ələ keçirdilər. Xivəlilərə qarşı mübarizədə qardaşı Sübhanquluya görə aciz qalan Əbdüləziz onun təzyiqi ilə taxtdan imtina edərək Məkkəyə getdi. Hakimiyyət Sübhanquluya (1680 - 1702) keçdi. Lakin onun oğlanlarının onunla mübarizəsi xivəlilərin basqınlarının qarşısını almağa mane olurdu. Onun Bəlxdə oturan oğlu Siddik Məhəmməd isə ona heç bir kömək etmirdi. Sübhanqulu yalnız bədəxşanlıların köməyi ilə xivəliləri qova bildi. Xivəlilərin tərəfinə keçmiş səmərqəndliləri isə sərt şəkildə cəzalandırdı.

Bəlxdə oğlunun ona tabe olmasına çalışan Sübhanqulu 1681 - ci ildə hiylə ilə oğlunu həbs etdirib öldürdü. Bundan başqa qısa müddətə də olsa Buxarada möhkəm hakimiyyət yarada bildi. Sübhanqulunun Bədəxşan vadisini özünə tabe etmək cəhdləri boşa çıxdı. Buxara ilə Bədəxşan arasında 1691 – 1692 - ci illərdə baş verən müharibə Bədəxşanda yerli sülalənin hakimiyyətdə qalması ilə nəticələndi. Bədəxşan hakimləri XIX əsrin 80 - ci illərinə qədər buraları idarə etmişdilər.

Sübhanqulunun hakimiyyətinin son illərində Buxarada nəzarət təmamilə Həştərxanilərin əlindən çıxmışdı. Sülalənin xüsusi əhəmiyyət verdiyi Bəlx ərazisində vəziyyət təmamilə anarxiya səviyyəsinə çatmışdı. Burada ayrı - ayrı özbək tayfaları arasında müharibələrdən istifadə edən Səfəvi ordusu 1702 - ci ildə Bəlxə girərək burada

əməlli - başlı qırğın və qarət törətmişdilər. Sübhanqulu bəyin ölümündən sonra hakimiyyətə II Übeydulla xan (1702 - 1711) çıxdı. O, öz sülaləsinin sonuncu hakimiyyəti normal idarə etməyə çalışan üzvlərindən idi. Onun hakimiyyətə çıxmasını Bəlxdə hakim olan qardaşı oğlu Məhəmməd Mukim tanımadı və özbək tayfa rəhbəri Mahmud biyə ordunu tapşıraraq Bəlxi möhkəmləndirdi. Tezliklə Mahmud biy faktiki olaraq Bəlxi idarə etməyə başladı.

Übeydulla xan tayfa xanlarının əleyhinə olaraq özünü irəli çəkdiyi adamlara arxalanır, onlara mühüm dövlət vəzifələri verirdi. Bundan başqa o ölkədə böyük nüfuza malik olan Cuybar şeyxlərini vergi verməyə məcbur etdi. Bu da həmin şeyxlərinin narazılığının artmasına səbəb oldu. 1708 – ci ildə onun aparmaq istədiyi pul islahatı da heç bir nəticə vermədi. Çünki xanın bu işləri həyata keçirəcək heç bir imkanı yox idi. Bundan başqa II Übeydulla xan öz vassallarının da təsirinə düşmüşdü. Onun siyasi nüfuzunu sarsıdan səbəblərdən biri də xanın öz vassallarına qarşı hərbi yürüşlərdə məğlub olması idi. Əksinə bu islahatlar xeyli əyanların onun əleyhinə sui - qəsd hazırlamasına və nəticədə onun öldürülməsinə səbəb oldu. Sui - qəsdçilər xanın hərəmini də amansızlıqla qarət etdilər.

Tayfa rəhbərləri hakimiyyətə onun oğlu Əbülfeyz xanı (1711 - 1747) çıxardılar. O, artıq tayfa hakimlərinin əlində oyuncağa çevrilmişdi. Əsl hakimiyyət isə onun atalığı Məhəmməd Mukim bəyin əlində cəmləşmişdi. Lakin onun hakimiyyətindən başqa əmirlər çox narazı qal-

mışdılar. Onların bu narazılığını xivəlilər körükləyirdilər. 1722 - ci ildə xivəlilərin adamı olan Rəcəb xanın dəstəyi ilə Məhəmməd Mukimə qarşı sui- qəsd təşkil olundu. Lakin qəsdin üstü açılaraq üzvləri həbs edildilər. Bundan sonra Rəcəb xan 1723 - cü ildə cunqarların hücumundan Buxaraya qaçan qazaxlardan istifadə edərək onları Mavəraünnəhrə yönəltdilər. Lakin vəziyyət onların nəzarətindən çıxdı. Qazaxlar Zərəfşan vadisini yeddi il qarət etdilər.

Əmirlərin təzyiqi altında Əbülfeyiz xan Məhəmməd Mukimi hakimiyyətdən uzaqlaşdırdı. Lakin bu dəfə sarayda bir deyil, bir neçə əmirin hakimiyyəti başladı. Saray məmurları ticarətin bütün sahələrini - əkinləri, torpaqları, sənətkar emalatxanalarını öz aralarında bölüşdürməyə başladılar. Bu da ölkədə özbaşınalığın tüğyan etməsinə gətirib çıxardı.

Ölkədəki özbaşınalıq İran şahı Nadirin Buxara üzərinə basqınları üçün şərait yaratdı. 1736 - cı ildə Nadirin oğlu Rzaqulu Bəlxə basqın edərək mühüm ticarət şəhərlərini ələ keçirdi. 1737 - ci ildə Rzaqulu Bəlx vilayətinin işğalını başa çatdırdı. Bundan sonra Amudərya çayının sol sahili məntəqələrini ələ keçirən Rzaqulu Mirzə atasının əmri ilə çayın o biri sahilinə keçərək mühüm ticarət məntəqəsi olan Karşı şəhərini mühasirəyə aldı. Buxara hakimi öz ordusu ilə Karşı şəhərinin köməyinə gəlsə də Rzaqulu Mirzənin sayca az olan ordusu şəhər ətrafında döyüşdə onları məğlub edib qaçmağa məcbur etdi. Bu zaman Əbülfeyiz xan Xivə xanı İlbarsa müraciət etdi. İl-

barsın ordusunun yaxınlaşdığını duyan Rzaqulu Mirzə buxaralılarla sülh bağlayıb atasının yanına qayıtdı.

1740 – cı ilin yanvarında Nadir Amudərya çayını Cərcou yaxınlığında keçərək Buxara torpaqlarına-Bəlxə yaxınlaşmağa başladı. Keçmiş atalıq Məhəmməd Mukim oğlu Məhəmməd Rahimi Nadirin yanına göndərdi. Nadir də onu çox yaxşı qarşıladı. Nadirin yürüşündən qorxuya düşən Əbülfeyiz Məhəmməd Mukimi çağıraraq Nadirin yanına danışıqlara göndərdi. Məhəmməd Mukim də Nadir tərəfindən hörmətlə qarşılanmışdı. Burada Nadirdən Buxaranı idarə etmək haqqında fərman alan Məhəmməd Mukim bu dəfə Buxaraya onun nümayəndəsi kimi qayıtdı. Nadir də onun arxasından Buxaraya yaxınlaşmağa başladı.

Məhəmməd Mukimlə görüşəbilməyən Əbülfeyiz xan Nadirlə goruşmək üçün Buxaradan çıxdı. Nadir onu hörmətlə qəbul edərək, Əbülfeyzi Buxara xanı kimi təsdiqlədi. Lakin bütün məmuriyyət işlərini isə Məhəmməd Mukimə həvalə edərək, Əbülfeyzi ondan asılı hala saldı. Nadir vəziyyəti qaydaya salaraq buradan da Xarəzmə hərəkət etdi.

Həştərxanilərin İrandan asılı hala düşməsi, onların siyasi nüfuzunu heçə endirdi. Əksinə Məhəmməd Mukimin siyasi nüfuzunun yüksəlməsi yeni sülalənin - Manqıtlar sülaləsinin siyasi hakimiyyətinin üfüqdə görünməsi demək idi. Məhəmməd Mukim bəy bütün hakimiyyəti öz əlinə alaraq özünü "böyük əmir" adlandırdı. 1743 - cü ildə Məhəmməd Mukimin ölümündən sonra Buxarada üsyanlar, qiyamlar, feodalların qətl və qarətləri adi hala

çevrildi. 1745 - ci ildə Buxara əhalisinin bayram zamanı qıpçaq xitaylar tərəfindən qarət edilməsi, Nadirin bu işə qarışmasına səbəb oldu. O, Məhəmməd Mukimin oğlu Məhəmməd Rahimə ordu verərək, onu Buxaraya yola saldı. Yolda ona Nadirin oğlu Rzaqulu Mirzə və türkmənlər də qoşuldular. Heç vaxt içkidən başı açılmayan Əbülfeyiz xan isə ona "əmirlər əmiri" rütbəsi verdi.

Əlində olan hərbi qüvvədən istifadə edən Məhəmməd Rahim Buxaraya qarşı olan üsyanları yatırdı. Eyni zamanda Məhəmməd Rahim öz hakimiyyətini də möhkəmlətmişdi. 1747- ci ildə Nadirin ölümündən sonra elə həmin ildə o, Əbülfeyiz xanı öldürərək taxta onun oğlu Əbdülmömini çıxardı. 1748 - ci ildə isə onu öldürərək taxta kiçik yaşlı Übeydulla sultanı çıxardı. Lakin 1753 - cü ildə əyanların razılığı ilə o, Übeydullanı da uzaqlaşdıraraq taxta özü çıxdı. Bununla da Buxarada Manqıt sülaləsinin (1753 - 1920) hakimiyyətinin əsası qoyuldu. Lakin Məhəmməd Rahim Çingiz xanın nəslindən olmadığı üçün "əmirlər əmiri" titulu ilə kifayətləndi. Özünün taxta çıxmağa varisi olmadığı üçün Məhəmməd Rahim nəvəsi Fazil töreni taxta varis elan etdi. Ona atalıq, yaxud naib kimi isə böyük əmisi Daniyal biyi təyin etdi.

Məhəmməd Rahimin ölümündən sonra Buxara əmirliyinə tabe olan ərazilərin içərisində yenidən üsyanlar və qiyamlar qalxdı. Bir çox ərazilər yenidən Buxaranın hakimiyyətindən çıxdılar. Yüz adlı özbək tayfalarının rəhbəri Fazil biy bu qiyamçıların içərisində siyasi cəhətdən çox fərqlənirdi. Fazil biy qiyam edərək, xitay - qıpçaqlarla birləşib birbaşa Buxara üzərinə yeridi. Lakin Da-

niyal biy onunla danışığa gedərək məsələni yoluna qoydu. Buxaraya qayıdan Daniyal biy Fazil törəni hakimiyyətdən salaraq, taxta keçmiş Həştərxanilərdən olan Əbülqazi xanı çıxardı, özünü isə onun atalığı elan etdi. Bundan sonra Daniyal biy ordunu möhkəmləndirdi. Dərvişləri və ruhaniləri isə özünün dayağına çevirdi. Səmərqəndə isə oğlu Şah Muradı göndərdi. Onun hakimiyyəti dövründə Səmərqəndin iqtisadiyyatı dirçəldi. Qaçqınlar öz yerlərinə qayıtdılar. Bundan başqa Şah Murad Səmərqəndi köçərilərin basqınlarından müdafiə etmək üçün mühüm tədbirlər də görmüşdü.

1785 - ci ildə Daniyal bəyin ölümündən sonra dövlətdə qiyam və ara müharibələri yenidən baş qaldırdı. Buxara xanı olan Əbülqazi bu üsyanların qarşısını almaq üçün iradə və gücə sahib deyildi. Ona görə də Buxara əyanları və Əbülqazi xan inadla Şah Muradı taxt - tacı tutmağa çağırdılar. Şah Murad Əbülqazi xanı devirmədi. Özü isə çox sadə və kasıb bir həyat sürürdü. Lakin hakimiyyətə gələn kimi dövlətə qarşı çıxanları cəzalandırmaq üçün əhəmiyyətli tədbirlər gördü.

Şah Murad aqressiv xarici siyasət aparırdı. Şiələrə qarşı müqəddəs müharibə elan edən Şah Murad Mərvə basqın edərək 30 min şiəni əsir alaraq Buxara və Səmərqənd ətrafına yerləşdirdi. Qardaşı Ömər biyi Mərvə canişin təyin edən Şah Murad buranı tərk etdi. Lakin Ömər biy Şah Muraddan ayrılaraq burada möhkəmlənməyə başladı. Şah Murad Mərv su səddini dağıdaraq buranın suvarma sistemlərinə zərbə vurdu. Susuzluqdan əziyyət çəkən əhali Ömər biyə qarşı üsyan etdi. 1796 - cı ildə ora-

dan qaçan Ömər biyin əvəzinə Şah Murad oraya başqa adamı canişin təyin etdi. Bundan başqa Şah Murad Xorasanın şimal - qərb rayonlarına da basqın edərək oradan böyük hərbi qənimətlər ələ keçirdi.

Şah Muradın Əfqanıstanla da münasibətləri gərgin idi. Gərginliyin də səbəbi qabaqlar Buxara xanlığının tərkibinə daxil olan Amudərya çayının qərb sahilləri idi. Buralar başda Bəlx, Meymənə, Anxund və başqa şəhərlər hələ əfqan əmiri Əhməd Şah Dürrani tərəfindən zəbt edilmişdi. Qısa müddətli müharibədən sonra Əhməd şahın varisi Timur şahla Şah Murad arasında sülh bağlandı. Onun şərtlərinə görə Amudərya çayı iki dövlət arasında sərhəd kimi tanındı. 1800 - cü ildə Şah Murad öldü. Xalq arasında Şah Murad "əmiri məsum" kimi tanınırdı. Beləliklə, XIX əsrin əvvəllərinə doğru Buxarada mərkəzi hakimiyyətin güclənməsi müşahidə olunur, bu da təsərrüfatın nisbətən canlanmasına rəvac verirdi.

XIX əsrin əvvəllərinə doğru Buxara xanlığının əsas əhalisi köçəri özbəklərdən ibarət idi. Oturaq əhali əsas etibarı ilə taciklərdən, bəzi türk tayfalarından və İrandan köçürülən Mərvi deyilən əhalidən ibarət idi. Lüli deyilən qaraçılar və yəhudilər daha çox Səmərqənd və bəzi ətraf şəhərlərdə yaşayırdılar. Xaricilərdən ən çox Buxarada hindlilər və farslar məskunlaşmışdı.

Ölkədə köçəri özbəklər daha çox imtiyaza malik idilər. Vəzifəli şəxslər daha çox onların arasından seçilirdi. Onlar bəzi vergilərdən azad idilər. Ordunun da əsas hissəsini köçəri özbəklər təşkil edirdilər. Vergilərin əsas

hissəsi isə başlıca olaraq oturaq əhali, şəhərlərdə məskən salan sənətkar və tacirlərin üzərinə düşürdü.

Buxarada ərəb mənşəli əhali də yaşayırdı. Onlar seyidlərə, xocalara və mirlərə bölünürdülər. Buxara ruhaniləri daha çox onların içərisindən çıxırdı. Ərəblərin Buxarada özlərinə məxsus imtiyazları da var idi.

Buxarada ən aşağı təbəqə başqa dindən olanlar sayılırdı. Onlara ata minmək, özbəklər kimi geyinmək, ümumiyyətlə, zövqlə geyinmək qadağan idi. Şəhərdə istənilən müsəlman başqa dindən olanı, xüsusilə də, yəhudini döyə, bəzən də öldürə bilərdi. Onu da qeyd etmək lazımdır ki, gəlmə avropalılar da bu qaydalardan yan keçə bilməzdilər.

Buxarada ruslardan, kalmıklardan və farslardan ibarət qullar da var idi. Kalmık və farsları onlara basqın edən türkmənlər, qazax və qırğızlar gətirirdilər. Rusların da bu ərazilərə gəlişi onlarla daim müharibə aparan qazaxların adı ilə bağlı idi. Farslardan olan qullar Buxarada əməlli - başlı irəli gedə, hətta vəzifə də tuta bilərdilər. Buxarada hətta cangüdənlər bəzən İran ərazisindən gələnlərdən ibarət olurdu. Fars və iranlı qulların belə yüksəlişi əhalinin də narazılığına səbəb olurdu.

Buxara əmirliyində dövlət hakimiyyətinin möhkəmlənməsi prosesi XIX əsrdə də davam edirdi. Şah Çuradın siyasətini onun varisi Əmir Heydər (1800 - 1826). davam etdirirdi. Onun hakimiyyətə gəlişi həmişə olduğu kimi ara müharibələri, sultanların taxt - tac uğrunda mübarizəsi və qonşu dövlətlərin Buxara üzərinə yürüşləri ilə müşayiət edildi.

Qonşu dövlətlərdən Kokand xanlığı ilə Ura təpə üstündə konflikt yaşandı. Buranı idarə edən Kokand əyanlarından biri Kokandın asılılığından çıxaraq Buxaranın nominal hakimiyyətini tanımışdı. Bu da iki xanlıq arasında mübarizənin qızışmasına səbəb olmuşdu. Nəticədə kokandlıların qarətçi basqınları əhalinin qarət olnumasına gətirib çıxarmışdı.

İkinci konflikt Xivə xanlığı ilə yaşandı. Xivədə taxta çıxan İltuzar xan Buxaranın onun işlərinə qarışmasının qarşısını almaq üçün 1804 - cü ildə Buxara üzərinə basqın etdi. Amudərya çayı sahilində olan döyüşdə İltuzar xan məğlub oldu və çayı keçərkən boğuldu. Əmir Heydər yalnız bir neçə nəfəri sağ saxladı ki, onlar da gedib Xivədə olanları görüb danışsınlar.

Xanın qardaşı Din Nasir bəy Mərvdə möhkəmlənərək ona tabe olmaqdan imtina etmişdi. Bu dəfə buxaralılar Sultanbənd su səddini dağıdaraq Mərvi yenidən susuz qoydular. Din Nasir bəyə qarşı Mərvdə üsyan baş verdi, o da ailəsi ilə qaçmalı oldu. Əmir Heydər isə buraya türkmən qəbilələrini yerləşdirdi. Bundan istifadə edən türkmənlər buradan Xivə üzərinə basqınları genişləndirdilər. Bu da xivəlilərin türkmənlərlə müharibəsinə səbəb oldu. Xivəlilər Mərvdə Murqab çayı üzərində səddi bərpa etmək istəsələr də sədd dağıldı.

Buxaranın şimalında Daşkənd 1815 - ci ildə kokandlılar tərəfindən alındı. Bu da iki xanlıq arasında müharibənin yenidən başlamasına səbəb oldu. Buradan kokandlılar Türküstan şəhərinə tərəf hərəkət edərək, oranı aldılar. Xanlıqlar arasında silahlı mübarizə Əmir Heydə-

rin hakimiyyətinin sonuna qədər davam etmiş və əhalinin vəziyyətinin ağırlaşmasına, təsərrüfatının tənəzzülünə gətirib çıxarmışdı.

Əmirin apardığı qarətçi siyasətin nəticəsində 1821 - 1825- ci ildə Xitayqıpçaqlarının ona qarşı üsyanı baş verdi. Üsyançılar əmirə qarşı başqa qonşu dövlətlərə də yardım üçün müraciət etmişdilər. Nəticədə onlar müəyyən müddət ərzində Kokand xanlığından da yardım almışdılar. Əmirin vəziyyətini ağırlaşdıran səbəblərdən biri də xivəlilərin qərbdən Buxaraya olan basqınları idi. 1825 - ci ildə artıq üsyançıların qüvvələri yerli əhalinin həddindən artıq var - yoxdan çıxması nəticəsində tükənmək üzrə idi. Buna görə də onlar Buxara ilə danışıqlara başladılar. Üsyan edən tayfaların hələ də böyük bir qüvvə təmsil etdiyini görən Buxara əmiri onlara şəxsən toxunulmazlıq zəmanəti verdi. Bundan sonra üsyançılar silahı yerə qoydular.

Əmir Heydərin ölümündən sonra hakimiyyətə iki qardaşını da öldürən Nəsrulla (1826 - 1860) gəldi. Həddən artıq qəddarlığına görə ona "Əmiri Qəssab" adı verilmişdi. Orduya və ruhanilərin köməyinə arxalanan Nəsrulla hərbçi əyanları, tayfa rəhbərlərini həddən artıq amansızlıqla məhv edirdi. Mənbənin məlumatına görə hakimiyyətinin ilk ayı ərzində o, günə 50 - 100 adamı edam etdirirdi.

Nəsrulla xanın ikinci siyasəti Buxaradan nominal asılı olan vilayətlərin birbaşa buraya tabe edilməsi oldu. Bunlardan birincisi, Şəhrisəbz idi. Nəsrulla xanın dövründə buradakı tayfalarla Buxaranın arası xeyli gərgin-

ləşdi. Onun amansızlığından Şəhrisəbzə sığınan adamlar da əhalini ona qarşı təhrik edirdilər. Şəhrisəbzi yalnız 1856 - cı ildə tabe etmək mümkün oldu.

Əmir Nəsrulla öz hakimiyyətini Kokand və Xivənin ərazilərinin hesabına da möhkəmləndirmək istəyirdi. Xivə ilə münasibətlər Mərv uğrunda mübarizə nəticəsində xeyli gərgin idi. Mərvin türkəmənlərinə yardım edən əmir Nəsrulla, yardımla da kifayətlənməyərək Xazarasb şəhərini mühasirəyə almışdı. Lakin şəhər yaxınlığında məğlub olub geri qayıtmışdı. Müharibə uzun və davamlı qarətçi basqınlarla müşayiət edilirdi. Yalnız 1855 - ci ildə xivəlilər qəti şəkildə Mərvdə möhkəmlənə bilmişdilər.

Əmir Nəsrullanın Kokandla da münasibətləri yaxşı deyildi. 1842 - ci ildə Kokanda basqın edən əmir dövlətin paytaxtını mühasirə etsə də xivəlilərin arxadan basqınları onu hər dəfə geri qaytımağa məcbur etmişdi.

XVII əsrin ortalarından başlayaraq Buxaranın Rusiya ilə diplomatik münasibətləri yaranmışdı. Rusiyadan gələn diplomatik karvanların başlıca məqsədi Buxara və başqa Mərkəzi Asiya xanlıqları ilə ticarət əlaqələri yaratmaq idi. 1669 - cü ildə Ruisya ilə Buxara arasında "ipək müqaviləsi" imzalanmışdı. 1671 - ci ildə Buxara ilə Rusiya arasında "əbədi dostluq" müqaviləsi bağlandı. Bundan başqa Buxara əmirləri tez - tez Rusiyaya müxtəlif malların alınması üçün karvanlar göndərirdilər. XVII əsrin sonlarında Rusiya və Buxara orduları ticarət yollarını qarət edən kalmıklara qarşı birgə hərbi əməliyyat da aparmışdılar.

Rusiya ilə münasibəltərin fəallaşması XIX əsrin 30 - cu illərində Mərkəzi Asiya üstündə Rusiya - İngiltərə ziddiyyətlərinin artması ilə bağlı idi. Mərkəzi Asiyada Rusiyanın hərbi cəhətdən dayanmadan irəlilədiyini təşvişlə izləyən İngiltərə diplomatik missiyaları vasitəsilə Mərkəzi Asiya xanlıqlarının Rusiyaya qarşı ittifaq yaratmasına nail olmağa çalışırdı. Bu məqsədlə İngiltərənin Lahordakı nümayəndəsi Borns adi tacir qismində 1831 – 1833 - cü illərdə Mərkəzi Asiyada və Buxarada olmuş, bu ərazilərin geniş təsvirini vermişdi. Bundan sonra 1838 - ci ildə Buxaraya başda Stoddart olmaqla İngiltərənin diplomatik missiyası gəldi. Lakin onun Buxaraya atla girməsi, əhaliyə qarşı qaba rəftarı, heç bir hədiyyə ilə gəlməməsi, Buxara əmiri ilə yekəxana davranışı son nəticədə Stoddartın həbs edilməsinə səbəb oldu. Stoddartla birgə Mərkəzi Asiyaya eyni missiya ilə kapitan Konolli də göndərildi. Lakin o, da buxaralılar tərəfindən həbs edildi. 1842-ci ildə hər iki səfir edam edildilər. Bir müddətdən sonra Buxara ordusunda İngiltərənin hərbçiləri görünməyə başladılar. Lakin bu da o qədər uzun çəkmədi.

Əmir Nəsrullanın vaxtında rus ordusu tədricən Buxaranın sərhədlərinə yaxınlaşmaqda davam edirdi. Onun varisi olan əmir Müzəffər isə 1860 - cı ildə Rusiyanın vassalı olmağa məcbur olmuşdu.

Rusiyanın Mərkəzi Asiya ölkələrinə marağı ABŞ-da vətəndaş müharibəsindən sonra, yəni burada pambıq idxalları kəskin azaldıqda artmağa başladı. Bundan başqa Rusiyaya Hindistan və başqa Cənub - Şərqi Asiya ölkələri ilə ticarət etmək üçün platsdarm lazım idi. Buna

görə də Rusiya hakim dairələrində "İngiltərəni Hindistanda neytrallaşdırmaq", "Xəzər dənizini Rusiya dənizinə çevirmək" kimi çağırışlar eşidilirdi. XIX əsrin 60 - cı illərindən başlayaraq Mərkəzi Asiyanın işğalı üçün müxtəlif layihələr də təklif edilirdi. Rusiya 1860 - cı ildə Buxaranı vassal asılılığına salandan sonra Kokand xanlığı üzərinə basqın etdi və 1864 - cü ildə Daşkəndi mühasirəyə aldı. Uzun mübarizədən sonra Daşkənd camaatı Buxaraya yardım üçün müraciət etdi. Lakin Buxara əmiri Müzəffər Daşkəndin Buxaradan asılı olacağı şərtini irəli sürdü. Daşkəndlilər bunu qəbul eləməyə məcbur olduqdan sonra Buxara nümayəndəsi İsgəndər bəy Daşkəndə gəldi, onun ardınca hərbi dəstə göndərildi. Lakin rus hərbi dəstələri Daşkəndə Buxaradan gələn yolu kəsdilər. 14 - 16 may 1864 - cü ildə Daşkənd hücumla ruslar tərəfindən alındı. Komandan Çernyayev isə hər vasitə ilə varlı daşkəndliləri öz tərəfinə çəkməyə çalışırdı. Məqsəd Daşkəndin guya könüllü Rusiya asılılığına keçməsi haqqında onlardan məktub almaq idi. Çernyayev əhalidən uzun mübahisələrdən sonra həmin kağızı ala bilmişdi.

Peterburqda Çernyayevin özbaşına, lakin qələbə ilə qurtaran hərəkətini lazımi şəkildə qiymətləndirdilər və səxavətlə mükafatlandırdılar. Sentyabr 1865 - ci ildə Orenburq general qubernatoru Krıjanovski Daşkəndi müstəqil şəhər elan etdi. Məqsəd isə buranı Buxara və Kokandın təsir dairəsindən uzaqlaşdırmaq idi. Lakin Buxara əmiri Kokand xanlığını işğal etmək istiqamətində tədbirlər görürdü. Buna görə də 1865 - ci ildə Rusiya komandanlığından Daşkəndin ərazisini boşaltmağı tələb et-

di. Çernyayev bu dəfə Səmərqənd istiqamətində yerləşən Cizaq şəhərinə ordu yeritdi və buranı ələ keçirdi. Buxarada isə Çernyayevin göndərdiyi elçiləri saxladılar. Bu isə Çernyayevin Krıjanovski ilə münasibətlərinin korlanmasına səbəb oldu. Bu dəfə Çar hökuməti Çernyayevi geri çağıraraq yerinə general Romanovskini göndərdi. Ancaq onu Krıjanovskiyə tabe etdi. Lakin Buxara əmirliyinə qarşı hərbi əməliyyatlar davam etməkdə idi. 1866 - cı ilin mayında İrjar yaxınlığında döyüşdə general Buxara əmirinin ordusunu məğlub etdi və mayın axırında Xocəndi zəbt etdi. Oktyabrda Cizaq, Uratəpə və başqa bir neçə şəhər də Rusiya ordusu tərəfindən işğal edildi.

1867 - ci ilin yaz yayında Buxara ordusu artıq Rusiyanın Səmərqəndə yürüşünün qarşısını almağa çalışırdı. 1867 - ci ildə Mərkəzi Asiyada, o cümlədən, Buxara ərazisində işğal edilən torpaqlar Türküstan general qubernatorluğuna tabe edildi. General qubernator isə Kaufman təyin edildi. Kaufman Buxaraya qarşı hərbi əməliyyatları aparmaqda davam edirdi. Buxaraya qarşı müharibədə Kaufman Kokand xanlığı ilə danışıqlara başladı və kokandlılarla əlverişli müqavilə bağladı.

Buxaraya qarşı qəti əməliyyatlar 1868 - ci ilin ilk aylarında başladı. Bunun da səbəblərindən biri Buxara ruhanilərinin təhrikedici hərəkətləri idi. Onlar ruslara qarşı "müqəddəs müharibə" üçün təbliğat aparır və şəhərin yuxarı təbəqəsini öz tərəflərinə çəkirdilər. Onların təzyiqi ilə əmir Müzəffər ordu toplayıb yenidən ruslara qarşı çıxdı. Rusiya ordusu isə Səmərqəndə doğru irəliləyirdi. Onları 1868- ci ilin mayında Çupanat təpələrində

Buxara ordusu qarşıladı. Rus ordusunun sürətli hücumu buxaralılar arasında intizamın olmaması döyüşün və Səmərqəndin taleyini həll etdi. Mayın əvvəlində Səmərqənddən göndərilən nümayəndələr Rusiyanın hakimiyyətini qəbul etdilər. Buradakı əyanların nümayəndələrinə hədiyyələr paylayan Kaufman buradan Buxara üzərinə yürüşə davam etdi.

1868 - ci ilin iyununda Zərabulaq döyüşündə Buxara qoşunları yenidən məğlub oldular. Buxara ordusunun az bir hissəsi əmirin oturduğu Kərminə deyilən yerə qədər çata bildi. Lakin döyüş zamanı Səmərqənddə ruslara qarşı üsyan baş verdi. Şəhrisəbz ordularının Səmərqənd ətrafına gəlməsi isə üsyançıları daha da ruhlandırdı. Şəhrisəbzlilər üsyandan istifadə edərək şəhərə daxil olub rus qarnizonunu mühasirəyə aldılar. Lakin Zərabulaq döyüşündə rusların qalib gəldiyini eşidərək Səmərqəndi tərk etdilər. Üsyan haqqında eşidən Kaufman Səmərqəndə qayıtdı. Üsyançıların hamısını amansızlıqla məhv etdi. Son döyüşlərdə məğlubiyyət Buxara əmirini Rusiya ilə danışıqlara məcbur etdi. 1868- ci ilin iyununda Buxarada bağlanan müqaviləyə görə:

1. Buxara Rusiyanın himayəsinə keçir və 500 min rubl təzminat ödəyirdi;
2. Buxara xarici ölkələrlə əlaqə saxlaya bilməzdi;
3. Səmərqənd və Kuttakurqan ərazisi Rusiyaya birləşdirilirdi;
4. Şəhrisəbz və Kitab şəhərləri Buxara əmirinin birbaşa sərəncamına verilirdi.

Zərəfşan vadisinin zəbt edilməsi 1870 - ci ildə İsgəndərqul əməliyyatından sonra başa çatdırıldı. 1873 - cü ilin sentyabrında Buxara ikinci müqavilə imzaladı. Müqaviləyə görə burada quldarlıq ləğv edilir və Xivədən qoparılan torpaqların bir hissəsi Buxaranın himayəsinə verilirdi.

Buxara əmirinin hakimiyyətini saxlamaqla Çar Rusiyası müstəmləkə zülmünü yerli feodal təbəqəsinin istismarı ilə pərdələmək istəyirdi. Əsas məqsəd əhalinin narazılığını məhz bu təbəqənin üzərinə yönəltmək idi.

### *§ 4. Xivə xanlığı XVII -XIX əsrlərdə*

1510 - cu ildə Şeybani xanın Şah I İsmayıla məğlub olmasından sonra Mərkəzi Asiyanın xeyli hissəsi, o cümlədən, Xarəzm I Şah İsmayılın əlinə keçdi.Lakin şiələrin əhali ilə rəftarı yerli camaatı narazı salmışdı. Ona görə də Xarəzmin mühüm şəhərlərindən olan Vəzirin əhalisi əyanlarla birləşərək, Səfəvi hakimiyyətinə qarşı sui - qəsd hazırladılar. Əyanlar və yerli ruhanilər hakimiyyəti Şeybanilərlə tayfa düşmənçiliyi olan, ancaq Şeybanilər kimi Çingiz xanın nəslindən olan Bərkə xanın oğulları İlbars və Bəybarsa verməyi qərara aldılar. Onlar 1511 - ci ildə gəlib Vəzir şəhərini ələ keçirdilər. İlk vaxtlar bu şəhər də gələcək Xivə adlanan xanlığın paytaxtı oldu. Lakin Urgənc və Xivə şəhərlərini isə bir xeyli müqavimətdən sonra tutdular. Bundan sonra Urgənc şəhəri xanlığın paytaxtına çevrildi. O dövrün mənbələrində də bu dövlət Xivə

xanlığı kimi deyil, Urgənc xanlığı deyə anılır. Şah I İsmayılın ölümü və Səfəvilər dövlətində ara müharibələrinin başlanması İlbarsa Xarəzmin qalan ərazilərini də, hətta başqa əraziləri də tutmaq imkanı verdi. İlbars Çaça şəhərinə qədər Xorasanın şimalını, Manqışlaq, Sərəxsin şimalını və Balxaş gölü sahillərini ələ keçirə bilmişdi. Lakin İlbarsın buradakı torpaqları öz hakimiyyəti altına almasına baxmayaraq, Xivə xanlığı bir - birilə zəif əlaqəsi olan torpaqların cəmindən ibarət idi. Bu da İlbarsın ölümündən sonra feodallar arasında müharibələrin qızışmasına səbəb oldu.

İlbarsın ölümündən sonra onun övladları və qohumları arasında müharibələr Amin övladı olan Sufiyan Sultanın (1525 - 1535) 1525 - ci ildə hakimiyyətə gətirilməsinə səbəb oldu. Bu vaxtdan XVII əsrin ortalarına qədər hakimiyyət Amin sultanın övladlarının əlində qaldı. Ancaq feodal müharibələri bununla bitmədi. Bu dəfə müharibə Buxara və Xivə xanlığı arasında qızışdı. Buxara xanları üç dəfə Xivədəki ara müharibələrindən istifadə edərək buranın ərazisini ələ keçirmişdilər.

Sufiyan sultanın ölümündən sonra hakimiyyətə çıxan Anuş xanın zamanında 1538 - ci ildə buxaralılar Xarəzmə basqın edərək Anuş xanı öldürüb, Xivəni tabe etdilər. Lakin xanın qalan qohumlarından bir neçə nəfər, başlarında Din Məhəmməd olmaqla Buxara ordusu gedən kimi yerli canişinin hakimiyyətini devirib yenidən torpaqlarına sahib oldular. Lakin Din Məhəmmədin ölümündən sonra Xivədə yenidən ara müharibələri başladı və hakimiyyətə Hacı Məhəmməd xan (1558 - 1602)çıxarıl-

dı Bundan istifadə edən Buxara xanları 1575, 1593 və 1595- ci illərdə yenidən Xivəyə basqın etdilər. 1595 - 1598 - ci illərdə Xarəzm Buxara xanlığını hakimiyyəti altında qaldı. Yalnız Buxara xanı Abdulla xanın ölümündən sonra Xivə xanı öz hakimiyyətini qaytara bilmişdi.

Xanlığın əhalisi etnik və ictimai cəhətdən üç hissəyə bölünürdü. Bunlardan birincisi, şəhər əhalisi - oturaq türklər idi. Bunlar daha çox sənətkarlıq və ticarətlə məşğul olurdular. İkinci kateqoriyalı əhali türkmənlər idilər. Bunlar xana ağır vergilər ödəyir və xanın ordusuna əsgər verməli idilər. Lakin türkmənlər tez - tez üsyan edir və öz vəziyyətlərinin müəyyən qədər yüngülləşməsinə səbəb olurdular. Üçüncü ən imtiyazlı qrup xanla bir yerdə Xarəzmə köçüb gələn özbəklər idilər. Bunlar xanın ordusunun əsasını təşkil edir, məmurlar, vəzifəli şəxslər məhz bunların arasından çıxırdı. Özbək tayfaları bəzi vergilərdən də azad idilər.

Hacı Məhəmməd xanın ölümündən sonra hakimiyyətə onun oğlu Ərəb Məhəmməd sultan (1602 - 1623) çıxarıldı. Onun dövründən başlayaraq Xivə tədricən xanların qərargahına çevrildi. Ərəb Məhəmmədin hakimiyyəti illərində Xivə xanlığı dağınıqlıq dövrü keçirirdi. Hər bir özbək feodalı öz torpağında özünü hakimi - mütləq sayır və ona görə də mərkəzi xan hakimiyyətini tanımaq istəmirdi. Bundan da istifadə edən qonşu dövlətlər Xivə xanlığının ərazisinə daimi basqınlar edirdilər. Bunlardan ilk fərqlənənləri kalmık və qazaxlar idilər. Bundan başqa Xivəyə Don və Yaik kazakları da basqın edirdilər. Bunlardan ataman Neçayevin və bundan iki il sonra ataman

Şamayın rəhbərliyi altında Yaik kazaklarının basqınlarını misal göstərmək olar. Bunlardan birincisi, xanlığın paytaxtı Xivəni tuta bilmiş, xeyli də əsir almışdı. Lakin xivəlilər yolda kazakları məğlub edibəsirləri qurtara bilmişdilər.

Ərəb Məhəmmədin hakimiyyətinin sonuna yaxın onun oğlanları və özü arasında, eyni zamanda oğlanları arasında arası kəsliməyən ara müharibələri başlandı. Belə ki, oğlanları Həbəş və İlbars öz qoca atalarını tutub gözlərini çıxarmışdılar. Bunun ardınca İlbars taxta çıxıb özünü xan elan etmişdi. Ancaq onların başqa bir qardaşı İsfəndiyar türkmənlərin köməyi ilə onu devirmişdi.

Onu da qeyd etmək lazımdır ki, bir - biriləri ilə ara müharibələri aparan xanlar tez-tez türkmənlərin köməyinə müraciət edir. Türkmənlərdən ibarət olan qvardiyanı hər vasitə ilə yaxşı saxlamağa çalışırdılar. Bəzən bu feodallar türkmənləri öz maraqları üçün özbəklərin üzərinə təhrik edirdilər.

Türkmənlərin köməyi ilə taxta çıxan İsfəndiyar tezliklə onları özbəklərin, xüsusilə də uyğur və naymanların üzərinə saldırırdı. Mənbənin yazdığına görə, hətta qadın və körpələrə belə rəhm etmək istəmirdilər. Tezliklə özbək ailələrinin çoxu Xarəzmi tərk edərək Mavəraənnəhrə və Manqışlaq ərazilərinə qaçıb dağılışdılar. Bəziləri isə qazax çöllərinə pənah aparmışdılar. Bunlardan bir hissəsi bir neçə ildən sonra təxminən 3000 arabadan ibarət köçlə Amudərya çayının sol sahilinə toplaşdılar. Bu zaman İsfəndiyar ordusu çayı keçərək onları darmadağın etdi.

Xivədə xanın ailəsi arasında ara müharibələri davam edirdi. İsfəndiyar xanın qardaşları tez - tez ona qarşı üsyan edərək onu hakimiyyətdən devirməyə çalışırdılar. Bunlardan Əbülqazi xan uzun müddət müxtəlif yerlərdə sığınacaq tapmış və uzun müddət mübarizə apardıqdan sonra Xivə xanı taxtına sahiblənə bilmişdi.

Bundan istifadə edən Buxara xanı Nadir Məhəmməd Xivəni işğal etmiş, illik bac vermək müqabilində buranı türkmən məmurlarına tapşırıb getmişdi. Xivədə baş verən ara müharibələri Buxaradakıların işinə yaradığına görə onlar burada baş verən ara müharibələrinə qarışmaq istəmirdilər. Nadir Məhəmmədin ölümündən sonra Buxarada baş verən ara müharibələri Əbülqazi xana (1643 - 1663) geri qayıdaraq Xivə taxtına çıxmağa imkan verdi. Əbülqazi xan Xivədə müxtəlif feodal qruplaşmalarını bir arada toplayıb, ölkədə stabillik yarada bilən ilk Şeybani xanı oldu. Əbülqazi xan öz hakimiyyətini düzgün maddi baza ilə təmin etmək üçün özündən əvvəlki xanlardan fərqli olaraq türkmənlərə deyil, daha çox özbəklərə arxalanırdı. Onlardan özünə ordu düzəldən Əbülqazi xan türkmənlərlə müharibəyə başlayaraq onlara mühüm zərbə vurdu və çoxunu isə Xivə ərazisindən qovdu. Bundan başqa Xivəyə daimi basqınlar edən kalmıklara və qazaxlara qarşı effektli müharibə apararaq, bir neçə dəfə onları məğlub etdi. Əbülqazi xanın tədbirləri müvəqqəti olsa da kalmık və qazaxların Xivə üzərinə basqınlarına son qoydu.

Çöldən baş verən basqınlara son qoyduqdan sonra Əbülqazi xan Buxarada öz qohumu Sübhanqulu ilə onun

qardaşı Əbdüləziz arasında ara müharibələrinə qarışdı. Sübhanqulu öz hakimiyyət iddiasında Əbülqazi xanın hərbi qüvvələrindən istifadə etmək istəyirdi. Lakin Əbülqazi xanın bu müharibələrə qarışmaqda məqsədi Buxara xanlığını bacardıqca çox zəiflətmək idi. Buna görə də Buxaradakı ara müharibələrinə həvəslə qarışan Əbülqazi xan Buxara və ətrafını dəfələrlə amansızlıqla qarət etmişdi. Buxaralalılar dəfələrlə xivəlilərlə döyüşə girmək istəsələr də, onlar döyüşdən yayınır və tez də geri çəkilirdilər. Buxara ərazisinə sonuncu qarətçi yürüş Bagadur xan tərəfindən 1662 - ci ildə tərtib edilmişdi. Bundan sonra Əbülqazi xan Əbdüləziz xanla müqavilə bağlamış və 1663 - cü ildə taxtı oğlu Anuş xana verərək ölmüşdü.

Əbülqazi xan eyni zamanda dövrünün alimlərinə və yazıçılarına üstünlük verən, onlar üçün şərait yaradan, özü də müxtəlif elmlərlə məşğul olan bir şəxs kimi ad çıxarmışdı. Onun XVII əsrdə qələmə aldığı və bir neçə ilə yazıb qurtardığı “Şəcareyi Tərakimə” adlı əsəri türk xalqlarının tarixinin öyrənilməsi üçün mühüm tarixi mənbələrdən hesab edilməkdədir.

Buxara üzərinə yürüşlər Anuş xanın (1663 - 1687) dövründə daha uğurla davam etməkdə idi. Xivəlilər hətta Buxaranın çox yaxınlığında olan Cuybar şəhərinə qədər gəlib çıxa bilmişdilər. Ən uğurlu səfər 1685 - ci ildə olmuşdu ki, xivəlilər həmin Səmərqənd şəhərini zəbt etmiş və əhali isə Anuş xanı özlərinin xanı elan etmişdilər. Həmin il Buxara xanı Sübhanqulu xanın orduları xivəliləri Hicduvan yaxınlığında məğlub etmiş və Səmərqəndi geri ala bilmişdilər.

Sübhanqulu xan Xivə basqınlarının qarşısını almaq üçün başqa taktikanı seçdi. O, Anuş xana qarşı olan feodalları öz tərəfinə çəkib, ona qarşı qaldırdı. 1687 - ci ildə Anuş xan oğlu İrəng (Erenk) xan tərəfindən tutularaq, kor edildi və hakimiyyətdən uzaqlaşdırıldı. Lakin ilk olaraq taxta Anuş xanın vəsiyyətinə əsasən Xudaydad sultan (1687 - 1689) çıxarıldı. Lakin İrəng sultanın tərəfdarları tezliklə onu taxtdan devirib hakimiyyətə İrəng xanı (1689 - 1695) çıxardılar.

Sübhanqulu xan əslində öz siyasi məqsədlərinə çata bilmişdi. Xivədəki Buxara tərəfdarları o qədər güclənmişdilər ki, 1688 - ci ildə xivəlilər hətta Buxaraya onları öz himayəsinə almaq üçün elçilik heyəti də göndərmişdilər. Sübhanqulu xan Xivəyə öz nümayəndəsi kimi Şah Niyazı eşik ağası təyin etmişdi. Lakin bir müddətdən sonra Şah Niyaz özü Xivə taxtına əyləşərək özünü xan elan etmişdi.

Xivə xanlığı Mərkəzi Asiya dövlətləri içərisində Qazax xanlığından sonra Rusiya ilə ilk əlaqə saxlayan xanlıq olmuşdur. Şah Niyaz xan Sübhanqulu xanın asılılığından qurtarmaq üçün gizli şəkildə 1700 - cü ildə Rusiyaya səfarət göndərmiş, ona hərbi kömək etməyi və Xivəni Rusiya himayəsinə götürməyi I Pyotrdan xahiş etmişdi. I Pyotr bu xahişi qəbul etmiş 1703 - cü ildə artıq Xivə xanı Ərəb Məhəmmədin (1702 - 1714) zamanında Xivənin Rusiya himayəsi altına alınması üçün fərman vermişdi. Lakin bu fərman kağız üzərində qalmışdı. Ancaq bu səfirlik I Pyotrun diqqətini Mərkəzi Asiyaya cəlb etmişdi.

Lakin Şah Niyaz xan Xivədə möhkəm dövlət yarada bilmədi. Buna görə də Xivə əyanları tez - tez Xivədə hakimiyyətə başqa tayfalardan olan Çingiziləri dəvət edirdilər. Şah Niyazın varisləri tez - tez bu namizədlərə qarşı mübarizə aparmalı olurdular. Xivənin Şeybanilər (yaxud Ərəbşahilər) nəslindən olan sonuncu qüdrətli xanı Şirqazi xan (1714 - 1728) olmuşdu. Onun dövründə Xivənin hərbi gücü xeyli artmış və feodal müharibələrinə ara verilmişdi. Şirqazi xan, eyni zamanda 1714 – 1717 - ci illərdə I Pyotrun əmri ilə Xivəyə basqın edən Bekoviç Çerkasskinin hərbi dəstəsini də məğlub etmiş, bir müddət Rusiyanın Mərkəzi Asiyanı təmamilə işğal etmək siyasətinin qarşısını almışdı.

Lakin Xivənin ənənəvi düşməni olan Buxara xanlığı da Xivə xanlığını zəiflətmək üçün tədbirlər görməyə çalışırdı. Belə ki, Buxara xanı Əbülfeyiz xan Aral özbəklərini Şirqazi xana qarşı qaldıra bilmişdi. Aral özbəkləri Xivədə yaşayan Şirqazinin qardaşı Teymur sultanı özlərinin xanı elan etmişdilər. Lakin Teymur sultan taxt - tacı ələ keçirə bilmədi və yenidən Buxaraya qayıtmalı oldu.

Şirqazinin ölümündən sonra hakimiyyətə mənşəcə qazax Çingizilərindən olan İlbars xan (1728 - 1740) çıxdı. O, ilk olaraq Nadirin hakimiyyətini qəbul etsə də, onun Hindistanda olmasından istifadə edərək, tez- tez Xorasana basqınlar edərək buradan xeyli hərbi qənimət əldə edirdi.

Xivəlilərin Xorasana basqınları, Nadirlə Buxaranın döyüşündə xivəlilərin Buxaranın tərəfini saxlaması, Xivənin qəti şəkildə Nadirin hakimiyyətini tanımaq istəmə-

məsi Nadirin bu ərazilər hərbi səfəri üçün böyük səbəb oldu. 1740 - cı ildə Xazarasb yaxınlığında döyüşdə xivəlilər Nadirə məğlub oldular və İlbars xan Xazarasb qalasında möhkəmləndi. Lakin Nadir qalanın alınmasına vaxt sərf eləmədən tez Xivənin içərilərinə doğru irəliləyərək Xanka şəhərinə yürüş etdi. Xanka mühüm strateji bir məntəqə olduğuna görə buranın alınması ilə Nadirin onların aullarını dağıdacağını düşünən türkmən və özbək qəbilələri tələsik İlbars xanı tərk etməyə başladılar. Xankanı düşmənə verməmək üçün İlbars xan tələsik bu şəhərə gəldi. Lakin İlbars xan Xankanı saxlaya bilmədi və qala alındı, özü isə öldürüldü. İlbars hələ mühasirədə olarkən xivəlilər başqa bir qazax Çingizilərindən olan Əbülxeyir xanı taxt - taca dəvət etmişdilər. Əbülxeyir xan Kiçik Qazax ordasının rəhbəri olub, 1730 – 1732 - ci illərdə Rusiya himayəsini qəbul etmişdi. Xivə taxtına oturan Əbülxeyir xan burada möhkəmlənə bilmədi, çünki onun nə əhali, nə də əyanlar arasında möhkəm dayaqları yox idi. Buna görə də o, 1740 - cı ildə Rusiya təbəəsi geodeziyaçı Muravini danışıqlar üçün Nadir şahın yanına göndərdi. Nadir xanın elçisini yaxşı qəbul etdi. Muravin Əbülxeyir xanın Rusiya təbəəsi olduğunu Nadirin nəzərinə çatdırdı. Bunları dinləyən Nadir xanın sülh bağlamağa razı olduğunu, ancaq xandan onun qərargahına gəlməsini xahiş etdiyini bildirdi.

Həmin gün Nadirin yanına getmək adı ilə Xivədən çıxan Əbülxeyir xan ora getmək əvəzinə birbaşa Sibirə öz həmvətənlərinin yanına getdi. Xanın hakimiyyəti cəmi bir həftə çəkmiş oldu. Xanın qaçmasının müxtəlif

səbəbləri var idi. Əvvəla Xivə əyanları Nadirə müqavimət göstərməyin mənasız olduğunu anladılar. Həmçinin, şəhərin Nadirə verilməsinin, eyni zamanda şah gələnə qədər xanın şəhərdə tutulub saxlanmasının vacib olduğu haqda şəhərdə şayiə buraxmaları və əhalinin xeyli hissəsini öz tərəflərinə çəkə bilmələri idi. Dörd günlük mühasirədən sonra Nadir şah Xivəni ələ keçirdi. Bundan sonra Xivə qarnizonunu öz ordusunun tərkibinə qatan Nadir şah Xivədə olan qulları azad edərək, evə getmək üçün onları ərzaq və heyvanla təchiz etdi. Bundan başqa Xivənin üzərinə "malı - aman" vergisi qoyaraq buranı tərk edib Çarcou tərəfə getdi. Dekabr 1740 - cı ildə burada onu Buxara atalığı Məhəmməd Mukim xan qarşıladı.

Nadirin Xarəzmə yürüşü əhalinin müflisləşməsinə, ənənəvi maldarlıq təsərrüfatının tənəzzülünə səbəb oldu. Bu zamana aid olan Rusiya mənbələri xivəlilər tərəfindən qazaxlardan külli miqdarda mal - qaranın alınması haqqında çoxsaylı məlumatlar verirlər. Xivənin ticarəti də əsaslı tənəzzülə uğramışdı.

Lakin Nadirin hakimiyyəti Xivənin şimalına aid deyildi. Buralarda Aral özbəklərinin yardımına arxalanan Əbülxeyir xanın oğlu Nurəli xan hakimiyyətdə idi. Lakin bu vəziyyət uzun sürmədi. Nurəlinin təhriki ilə xivəlilər 1741 - ci ildə Nadirə qarşı üsyan qaldırdılar. Nadir bura oğlu Nəsrulla Mirzəni üsyanı yatırmağa göndərdi. Nurəlinin tərəfində duran əyanlar tez - tələsik Nəsrulla Mirzənin yanına öz tabeliklərini ərz etməyə getdilər. Nadir onları nəinki bağışladı, hətta xivəlilərin xahişi ilə Xorasanda yaşayan İlbars xanın oğlu Əbu Məhəmmədi on-

lara xan təyin etdi. Nəsrulla Mirzə ona xeyli ordu və pul da verdi. Lakin Nadir Xivədə sakitliyi bərpa edə bilmədi. Xivədə həmin illərdə yenə də bir neçə xan dəyişdi.

1746 - cı ildə Qazax xanı Nurəli xan yenidən Xivə xanlığına taxt - taca dəvət edildi. Lakin ortada intriqa olmasından şübhələnən Nurəli xan dəvəti qəbul etmədi. Buna görə də Xivə xanı Nurəliyə düşmən olan ailənin üzvü Qayib xan (1747 - 1757) taxt - taca dəvət edildi və xanı elan edildi. Qayib xan hakimiyyətinin nüfuzunun artırılması üçün bəzi işlər gördü. Bundan başqa özbək və türkmən tayfa əyanlarını neytrallaşdırmaq və zəiflətmək üçün onların çoxunu edam etdirdi. Qayib xan başqa feodal qruplaşmalarının da rəhbərlərinə qarşı repressiyalar həyata keçirdi. Lakin onun siyasəti, daimi ara müharibələrində olması vergilərin və mükəlləfiyyətlərin artırılması ilə müşayiət edilirdi. Bu isə həm əyanların, həm də əhalinin narazılığına səbəb olurdu. Nəticədə Xivədə Qayib xana qarşı üsyan baş verdi. Xivəlilər taxta Qayib xanın qardaşı Abdulla xanı çıxardılar. Xivədə olan qarışıqlıqdan Buxara xanı Məhəmməd Rahim də istifadə etmək istədi və zorla Xivə taxtına öz adamı Teymur qazi xanı otuzdurdu. Bu vaxtdan etibarən Xivədə xanlıq hakimiyyətinin yalnız adı qalmış oldu. Xivə tarixçiləri burada tez- tez xan hakimiyyəti dəyişmələrinə "xanlıq oyunları" adı vermişdilər. 1763 - cü ildən başlayaraq isə Xivə xanlarının adından ölkəni özbək mənşəli Kunqrat qəbiləsinin rəhbərləri idarə edirdilər. Lakin Kunqrat qəbiləsinin rəhbərləri Çingiz xanın nəslindən olmadıqları üçün xan titulu qəbul edə bilməzdilər. Buna görə də öz hakimiyyətlərinə

qanuni don geyindirmək üçün onlar iqtidara Çingizin övladlarını gətirir və dövləti onların adından idarə edirdilər. XVIII əsrin sonu və XIX əsrin əvvəllərində Xivə xanları sadəcə Kunqrat tayfası inaklarının (rəhbərlərinin) iradəsini sözsüz həyata keçirirdilər.

İran ordusu Xivəni tərk etdikdən sonra burada hakimiyyət bir müddət türkmən qəbilə başçılarının əlinə keçdi. Ancaq 1763 - cü ildən başlayaraq Xivədə Kunqrat qəbilə başçısı Məhəmməd Aminin hakimiyyəti yüksəlməyə başladı. Özünə əhali arasında böyük nüfuz qazanan Məhəmməd Amin türkmənlərə qarşı mübarizəyə başladı. 1770 - ci ildə Məhəmməd Amin türkmənləri qəti məğlub etdi. Ona düşmən olan qruplar Buxara xanından kömək alsalar da, Məhəmməd Amin 1782 - ci ildə Buxara ordusunu da məğlub etdi. Xivədə hakimiyyətini möhkəmləndirən Məhəmməd Amin Xivədə inaklar, ya da ki, kunqratlar sülaləsinin hakimiyyətinin əsasını qoydu. İlk vaxtlar bu sülalənin nümayəndələri hakimiyyəti özlərindən asılı xanlar vasitəsilə həyata keçirirdilər. Xivədə yaşayan bəzi xarici müəlliflər xanın hakimiyyətinin tam şəkildə inakdan asılı olduğunu qeyd edirlər. Bəzi xanların hətta kasıb şəkildə yaşadığı da qeyd edilirdi. Ancaq belə ikili vəziyyət uzun çəkə bilməzdi.

Məhəmməd Aminin ölümündən sonra hakimiyyətə çıxan Avaz (1790 - 1804) hələ də xanların adı ilə dövləti idarə edirdi. Lakin onun hakimiyyətə çıxan varisi İltuzar xan (1804 - 1806) Əbülqazi adlı nominal xanı devirərək özünü Xivənin xanı elan etdi. Bununla da, Xivədə rəsmi olaraq Kunqratlar sülaləsinin (1804 - 1920) əsası qoyuldu.

Məhəmməd Aminin və Avaz xanın idarəçilikləri Xivə xanlığının nisbi yüksəliş dövrü hesab edilməkdədir. Bu dövrdə Xivədə iqtisadiyyat inkişaf edir, qətl və qarətlərdən vətənlərindən didərgin düşmüş tayfalar isə öz yerlərinə qayıdırdılar.

Hakimiyyəti rəsmi şəkildə əllərinə keçirən Kunqrat sülaləsi Xarəzmin bütün vilayətlərinin vahid hakimiyyətdə birləşdirilməsini sürətləndirdilər. Kunqratlar sülaləsinin ən parlaq şəxsiyyəti İltuzar xanın qardaşı Məhəmməd Rahim xan (1806 - 1825) idi. O, Məhəmməd Amin tərəfindən başlanmış olan Xivə ərazilərinin birləşdirilməsi siyasətini davam etdirdi. Lakin bu siyasət böyük amansızlıqla aparılırdı.

Məhəmməd Rahim dövlətin daxili idarəsində də qayda - qanun yaratdı. İlk olaraq icraçı orqan Şura təsis etdi. Bundan başqa gömrük vergilərinin daimi və qayda-qanunla alınmasını təşkil etdi. Bundan başqa əhalidən stabil vergi alınmasını təmin etdi. Uzun müddətdən bəri ilk olaraq öz adına qızıl və gümüş sikkələr zərb etməyə başladı. Bundan başqa Məhəmməd Rahim məmurların və xidməti əyanların özbaşınalığına son qoymaq üçün də təcili tədbirlər gördü. Məhəmməd Rahim xan ordunu da gücləndirmək üçün tədbirlər gördü. Belə ki, yavmut türkmənlərindən xana xüsusi sədaqətli qvardiya olan nökərlər dəstəsi təşkil edildi. Məhəmməd Rahim xan ölkənin abadlaşmasına da xüsusi fikir verirdi. Bunlardan ilk olaraq yerli irriqasiya sistemlərini bərpa etdirmişdi.

Məhəmməd Rahim xan Xivəyə tabe olmayan bəzi əyalətlərin birləşdirilməsinə başladı. Bunlardan biri Aral

vilayəti 1811 - ci ildə uzun müharibədən sonra Məhəmməd Rahim Aral vilayətini dövlətə birləşdirdi. Vilayətin mərkəzi Kunqrat şəhəri isə yerlə -yeksan edildi. Bundan iki il sonra isə eyni amansızlıqla davam edən mübarizədə Məhəmməd Rahim qarakalpakları da tabe edə bildi.

Məhəmməd Rahim öz təbəələrinə də qarşı sərt rəftar edirdi. 1818 - ci ildə Xorasana basqın etməyə hazırlaşan Məhəmməd Rahim bunun üçün hərbi dəstək vermək tələbi ilə göklən və təkə türkmənlərinə müraciət etdi. Lakin onlar yürüşə gəlmədilər. Bundan qəzəblənən Məhəmməd Rahim yürüşdən qayıdanda göklən türkmənlərinə basqın edib, onları qarət etdi və xeyli adamı əsir götürdü. Xivəyə qayıdandan sonra isə təkə türkmənlərə amansız divan tutmuşdu. Lakin Məhəmməd Rahim köçəriləri öz tərəfinə çəkmək üçün də müəyyən işlər görürdü. Belə ki, Çodar türkmənlərinə o, Xivədən taxılı ucuz qiymətə almağa şərait yaratmış və onların hörmətini qazanaraq, xeyli hissəsini Xivə ərazilərinə yerləşdirmişdi.

Xivənin qonşu dövlətlərlə də münasibətləri geniş idi. Bunlardan Əfqanıstan hökmdarı Məhəmməd şah (1809 - 1818) Xivə ilə dostluq münasibətləri saxlayır və Xivənin ticarət karvanlarına yaxşı şərait yaradırdı. Rusiyanın Xivəyə münasibəti yalnız buraya 1819 - cu ildə general Yermolovun rəhbərliyi altında səfirliyin göndərilməsi ilə bitmişdi. Səfirliyin məqsədləri Xəzərətrafı türkmənlərin Rusiyaya birləşdirilməsinə şərait yaratmaq, Xəzər dənizinin şərqində qalalar tikmək, Rusiya ilə Xivə arasında dostluq müqaviləsi bağlamaq, Xivəyə gedən karvanları Manqışlaq deyil, Krasnovodska qədər müşayi-

ət etmək idi. Lakin Xivə xanı təklifləri qəbul etmədi. 1825 - ci ildə Məhəmməd Rahimin ölümündən sonra Xivədə hakimiyyətə onun oğlu Allah qulu (1825 - 1842) gəldi. Lakin o, atası kimi hakimiyyəti möhkəm idarə edə bilmədi. Xivədə yenə ara müharibələri və dağınıqlıq hökm sürməyə başladı. Onun dövründə Xorasan Xivə xanlarının yürüşlərinin əsas obyekti olaraq qalırdı. Lakin bütün hərbi səfərlərə və yürüşlərə baxmayaraq, Allahqulu xan bu əraziləri ələ keçirə bilmədi. Ondan sonra hakimiyyətə gələn Məhəmməd Amin (1845 - 1855) Xorasan və ətraf vilayətlərə ondan çox yürüş etmişdi. Lakin türkmənlər qonşu İran ordularının köməyi ilə xivəliləri məğlubiyyətə uğradırdılar. Sonuncu hücumların birində xan özü də birləşmiş İran və türkmən qoşunları tərəfindən öldürüldü. Xivəlilərin fasiləsiz hücumları Xorasanın nə vaxtsa çiçəklənən iqtisadiyyatının darmadağın edilməsinə səbəb oldu. Xivənin Buxara ilə də münasibətləri yaxşı deyildi. Bunun da səbəbi hər iki xanlıq arasında Mərv üstündə gedən mübarizə idi. Hər iki tərəf artıq bu məsələdə Xorasan türkmənlərindən istifadə etməyə çalışırdı. Bəzən də eyni tayfanın müxtəlif rəhbərlərini öz tərəflərinə çəkirdilər. 1830 - cu ildə Rusiya generalı Perovski Xivə üzərinə hücum etmiş, lakin Xivəni tabe edə bilməmiş və yürüş yarımçıq qalmışdı. Bundan sonra Xivə xanlığının Rusiya ilə münasibətləri gərgin olaraq qalırdı. Məhəmməd Aminin öldürülməsindən sonra Xivə xanlığında ara müharibələri yenidən qızışdı. Bir tərəfdən yomud türkmənləri, bir tərəfdən qarakalpaklar, o biri tərəfdən isə Xivənin özbək əhalisi hakimiyyət uğrunda mübarizə aparırdılar. Haki-

miyyətə özbəklər tərəfindən çıxarılan Kutluq Murad yomudlar tərəfindən öldürüldü. İkinci dəfə taxta Seyyid Məhəmməd xan (1856 - 1864) çıxarıldı. O, qaraqalpaklar və yomudlara sərt divan tutdu. Bundan sonra ağır təzyiqə məruz qalan qarakalpakların çoxu Buxara və Rusiya vilayətlərinin ərazisinə köçdülər.

1859 - cu ildə Aral türkmənləri yenidən Xivə xanlığına qarşı çıxdılar. Buranın rəhbəri seçilən Məhəmməd Pənah kömək üçün əvvəl başqa türkmən tayfalarına, sonra isə Orenburq general qubernatoruna müraciət etdi. Lakin Xivə ordusu onlardan qabaq Aral ərazisinə çataraq buranın paytaxtı Kunqratı mühasirəyə aldı. Ancaq Rusiya eskadrasının Aral dənizi vasitəsilə yaxınlaşdığını görə Xivə ordusu tezliklə mühasirəni dayandırıb geri çəkildi. Məsələ budur ki, ruslar da Kunqratda möhkəmlənə bilmədilər. Türkmənlərin onlara qarşı üsyana hazırlaşdıqlarını görən ruslar tezliklə Kunqratı tərk etdilər və Aral türkmənləri yenidən Xivənin hakimiyyətinə tabe oldular.

Rusların Xivə ərazilərini tabe etmələri 1834 - cü ildən başlandı. Bu zaman ruslar Xəzər dənizinin şərqində Manqışlak limanının və müdafiə istehkamının əsasını qoydular. 1869 - cu ildə ruslar Xəzər dənizi sahillərinə desant çıxardaraq buralarda Krasnovodsk şəhərini saldılar. Lakin Buxara xanlığının alınması uğrunda gedən mübarizə rus komandanlığına Xivəni tutmaq üçün həlledici hərbi əməliyyatlara başlamaq imkanı vermirdi.

1872 - ci ildə Rusiya komandanlığı Xivə xanlığına türkmənlərin ərazisindən keçən karvanların və səfirlik heyətlərinin təhlükəsizliyini təmin etmək üçün tələbna-

mə göndərmişdi. Tələbnamədə Rusiyaya tabe olan vilayətlərə Xivə xanlarının dağıdıcı yürüşlərinin qarşısını almaq tələbi də daxil edilmişdi. Lakin Xivə xanı rusların bu tələbnaməsinə cavab verməmiş və əksinə bəzi rus vilayətlərinə basqınlar da etmişdi.

Buxaranın alınmasından sonra ruslar Xivənin alınması üçün strateji plan hazırlamağa başladılar. Belə ki, xanlığı tutmaq üçün eyni vaxtda üç istiqamətdən Orenburq, Daşkənd və dəniz vasitəsilə Qafqaz istiqamətindən zərbə vurmaq qərara alınmışdı. Qafqazdan gələn hərbi dəstələri Manqışlak və Krasnovodsk vasitəsilə yeritmək nəzərdə tutulmuşdu.

Daşkənddən gələn dəstə isə birbaşa general Kaufmanın rəhbərliyi altında hərəkət etməli idi. Kaufman eyni zamanda bütün ekspedisiyanın komandanı təyin edilmişdi. 1873 - cü ilin fevralında Embin müdafiə istehkamlarından general Veryovkinin ordusu Orenburq tərəfdən Xivə üzərinə yürüşə çıxdı. Yürüşdə Xəzər dənizi tərəfdən gələn Lomakinin ordusu dəvələrin çatışmazlığı üzündən səhrada çıxılmaz vəziyyətə düşmüş, yerli türkmənlərlə vuruşa - vuruşa çətinliklə gəlib Veryovkinin dəstəsinə qoşulmuşdu. Həmin ilin 16 martında İqdı çayı yaxınlığında döyüşdə Lomakin türkmənlərin böyük bir dəstəsini məğlub edib, min dəvəni onların əlindən almışdı. Martın sonunda Rusiya ordusu general Veryovkinin rəhbərliyi altında Kunqrat şəhərini ələ keçirdi. Xəvə ordusu ona elə də müqavimət göstərə bilmədi. May ayında ruslar Manqıt şəhərinə çatdılar. Lakin şəhərdə onlara müqavimət göstərildi. Gərgin küçə döyüşlərindən sonra ruslar

şəhəri tam məhv etdilər. 22 mayda Kyat yaxınlığında Xivə ordusu yenidən ruslara basqın etdi. Lakin aramsız artilleriya atəşi ilə xanın ordusu böyük itki ilə geri oturduldu. 1873 - cü ilin may ayının 26 - da rus ordusu üç tərəfdən Xivə şəhərini mühasirəyə aldı. Xan tezliklə Rusiya ordusu qərargahına təslim olması haqqında elçilik göndərdi. Ancaq Xivədə baş verən üsyan nəticəsində ailəsi ilə birgə qaçmalı oldu. Buna görə də danışıqları yeni seçilmiş Məhəmməd Rahim xan davam etdirdi. Ancaq general Veryovkinə sülh şəraitində Xivəni almaq lazım deyildi. Çünki o, bütün medal və mükafatlardan məhrum ola bilərdi. Buna görə də Veryovkin guya ki, Xivənin hücumla alınması üçün hazırlıqlara başladı. 1873 - cü ilin mayın sonunda Xivənin darvazalarını partladaraq rus ordusu hücum əməliyyatı iləşəhəri ələ keçirdi. 1 iyun 1873 - cü ildə Məhəmməd Rahim xan Rusiya komandanlığının qərargahına gələrək alçalmış vəziyyətdə onların hakimiyyətini qəbul etdiyini bildirdi. Rusiya komandanlığı bir həftə xanı öz qərargahında əsir qismində saxladı. 1 avqustda Xivə xani ilə Ruisya komandanlığı arasında sülh danışıqları başlandı. Müqavilə 1873 - cü il avqust ayının axırında imzalandı. Rusiyanın şərtlərinə görə Xivə 2200 min rubl məbləğində 1893 - cü ilə qədər olmaq şərti ilə təzminat ödəməli, ölkədə quldarlıq ləğv edilməli, heç bir ölkə ilə müstəqil əlaqələr qurmamalı idi. Bundan başqa xanlıq əhalisi hər il Rusiya xəzinəsinə müəyyən miqdarda vergi verməli idi. Ruslar Amudərya çayının sağ sahilində Xivə şəhərini daima atəş altında saxlamalı olan Petro - Aleksandrovsk qalasını tikdilər. 14 iyunda rus or-

dusu türkmənləri tabe etmək üçün yola çıxdı. 14 iyunda Çandır aulu yaxınlığında döyüşdə ruslar müqavimət göstərən türkmən dəstələrini məhv etdilər. 15 iyunda Kökçük aulu yaxınlığında türkmənlərin böyük bir dəstəsi darmadağın edildi. Bəzi türkmən qəbilələrinin isə kökü kəsildi. Məğlubiyyətlərdən sonra sülh istəyən türkmənlərə öz yerlərinə qayıtmaq və təzminat ödəmək əmr edildi.

### *§ 5. Kokand xanlığı XVII - XIX əsrlərdə*

Kokand xanlığının əsası qıpçaqların Minq tayfasının rəhbərləri tərəfindən 1709 - cu ildə, bəzi mənbələrin məlumatına görə isə 1710 - cu ildə qoyulmuşdur. Kokand xanlığının əsasını qoyan biylər sülalə olaraq Altun Bişik adlı bir qıpçaq biyinin nəslindən gəlirdilər. Lakin Kokand xanlığının yaranması və onların Çingiz xanın nəslindən olmasını göstərmək üçün özbək mənbələrində guya Altun Bişiyin Baburun oğlu olması haqqında əfsanə uydurmuşdular. Başqa vəziyyətdə onlar Kokand dövlətinin xanı ola bilməzdilər. Bu isə onların siyasi nüfuzunu kölgə altında qoyurdu. Yerli əhali arasında yayılmış olan rəvayətə görə Babur şah Fərqanə vadisi vasitəsilə Hindistana doğru yola düşəndə onun arvadlarından biri Qəniabad və Xocənd arasında bir uşaq dünyaya gətirmişdi.

Lakin onlar körpəni özləri ilə götürə bilməmiş və onu buradakı yerli özbək-qıpçaq mənşəli Minq tayfasının öhdəsinə buraxmışdılar. Təxminən 1548 - ci ildə anadan olmuş bu körpənin adını Altun Bişik qoymuşdular. Rəvayətə görə körpənin soykökü məlum olduqdan sonra o,

biy elan edilmiş və Axsı şəhərini özünə qərargah edərək Fərqanə vadisini idarə etməyə başlamışdı. Altun Bişiyin hakimiyyəti dövründən başlayaraq tarix səhnəsinə Minq sülaləsi hakimləri çıxmağa başlamışdılar. Zaman keçdikcə biy rütbəsi Minq sülaləsinə mənsub olan hökmdarların irsi rütbəsinə çevrilmişdi. XVI əsrin sonlarına doğru Minq sülaləsinin hökmdarı II Xudayar İlik sultan özünün siyasi hakimiyyətinin mərkəzi kimi Riştan şəhərini seçmişdi. Onun himayəsi nəticəsində Riştan az zaman ərzində çiçəklənərək mühüm iqtisadi əhəmiyyəti olan böyük bir şəhərə çevrilmişdi.

Ancaq bir müddətdən sonra Fərqanədə hakimiyyətə İlik sultanın nəvəsi Rüstəm Hacı Sultan çıxmış və o, XVII əsrin ortalarında dövlətin mərkəzini yenidən Axsı şəhərinə köçürmüşdü. Buna baxmayaraq Riştan şəhəri yenə də Fərqanənin böyük şəhəri olaraq qalmaqda davam etmişdi. Şəhərin idarəsi isə Rüstəm Hacı sultanın oğlu Pazıl Atalığa həvalə edilmişdi.

Rüstəm Hacı sultanın ölümündən sonra ölkənin idarəsi saray məmurlarının və hocaların birgə rəyi əsasında Minq sülaləsinin başqa bir üzvünə Aşur qulu biyə verilmişdi. Pazıl Atalıq Aşur qulu bəyin hakimiyyətini tanımamışdı. Bu ziddiyyətlərin nəticəsində Fərqanə faktiki olaraq 1701 – 1704 - cü illərdə həm Riştan, həm də Axsıdan idarə edilməyə başlamışdı.

1704 - cü ildə Aşur bəy Riştan şəhərini böyük bir ordu ilə mühasirəyə aldı. Lakin şəhəri ələ keçirə bilmədi və əksinə döyüşlərin birində öldürüldü. Buna baxmayaraq ordudakı sərkərdələri onun azyaşlı oğlu Şahruh biyi

özlərinin rəhbəri elan edib, şəhərin mühasirəsini davam etdirdilər. Pazıl Atalıq da mühasirə zamanı baş verən döyüşlərin birində öldürülmüş və bundan sonra Riştan şəhəri Şahruh biyin ordusuna təslim olmuşdu. Ordu Riştan şəhərini dağıtmış, lakin Şahruh biy Pazıl atalığın oğlu Rəcəb biyi və onun 6 oğlunu bağışlamışdı.

Bütün bu hadisələr zamanı Fərqanə vadisi Buxara əmirliyinə tabe idi. Lakin XVIII əsrin əvvəllərində Buxara əmirliyində ara müharibələri gedir, eyni zamanda Buxara əmirliyi Xivə xanlığı ilə arasıkəsilməz müharibələr aparırdı. Bunun nəticəsində Fərqanədə yeni bir dövlətin yaranması üçün şərait yaranırdı. Çünki yerli əyanlar və eyni zamanda Fərqanə ərazisində məskən salan yerli köçərilər dövlətin Buxara əmirinin müharibə ehtiyaclarını qarşılamaq istəmirdilər. Bundan başqa Fərqanə vadisi tez - tez cunqarların da basqınlarına məruz qalırdı. Lakin Buxara əmirliyindən heç də hər zaman kömək almaq mümkün olmurdu. Nəticə yerli əyanlar və əhali arasında Buxara əmirinin hakimiyyətindən narazılıq getdikcə artırdı. Bundan başqa vadidə Şahruh biyin də siyasi nüfuzu güclənməkdə idi. Riştan şəhərinin uğurlu mühasirəsindən sonra Şahruh biyin ətrafında dövlətin öndə gələn rəhbərləri birləşməyə başlamışdılar. Başı müxtəlif istiqamətlərdə müharibələrə qarışan Buxara əmiri Fərqanədə gedən proseslərə çox da diqqət ayırmadı. Buxara əmiri Fərqanəni nisbətən kiçik ölçülü vilayət hesab edir və onun itirilməsinə o qədər də əhəmiyyət vermirdi.

1709 - cu ildə Fərqanədə xalqın və əyanların Buxara əmirinə qarşı üsyanı baş verdi. Üsyana geniş siyasi və

ictimai nüfuza malik olan Çodar hocaqları adlanan din xadimləri rəhbərlik edirdilər. Üsyançılar Baburun nəvəsi hesab olunan Şahruh biyi özlərinin biyi elan etdilər. Buxara əmiri hadisəyə reaksiya vermədi. Şahruh biy hakimiyyətə keçdikdən sonra hocaları və əyanların hakimiyyətini nisbətən məhdudlaşdırdı. Bunda başqa Fərqanə vadisinin cənub və şimal - qərb rayonlarını vahid dövlətdə birləşdirdi. Şahruh biyin ikinci işi isə dövlətin paytaxtının strateji bir yerə köçürülməsi oldu. Belə ki, ölkənin şimalında yerləşən bir neçə müdafiə qalası birləşdirilərək onların yerində (qədim adı İski Kurqan - müəllif) Kokand qalasının əsası qoyuldu. Bundan sonra xanlıq Kokand xanlığı adlanmağa başlandı.

Tarixçilər tərəfindən Kokand xanlığının tarixi üç yerə bölünməkdədir:

1. Kokand xanlığının formalaşması – **1709 – 1800** - bu zaman ərzində ölkədə sabit inzibati siyasi sistem formalaşmış, dövlətin xarici və daxili siyasətinin ümumi parametrləri müəyyənləşmiş, ölkənin iqtisadi - sosial həyatının bazası yaranmış və Fərqanə vadisinin dağınıq vilayətləri vahid mərkəzdə birləşmişdir.
2. Kokand xanlığının inkişafı və çiçəklənməsi – **1800 – 1840** - bu zaman Kokand xanlığı öz yüksəliş dövrünə qədəm qoymuş və iqtisadi cəhətdən çiçəklənmiş, öz ərazilərini xeyli genişləndirmişdir.
3. Kokand xanlığında iqtisadi- siyasi böhran və xanlığın ləğv edilməsi – **1840 – 1876** - bu dövrdə xanlıqda ara müharibələri güclənmiş, daimi xarici

müharibələr və taxt - tac uğrunda mübarizə əhalinin var - yoxdan çıxmasına, ölkədə siyasi böhranın yaranmasına səbəb olmuşdur ki, bundan da Rusiya imperiyası istifadə etmiş və xanlığın varlığına son qoymuşdur.

1740 - cı ildə Şahruh biyi taxt - tacda əvəz edən Əbdürrəhim biy dövlətin sərhədlərini genişləndirmək üçün Buxara ilə müharibələr aparmış və Səmərqənd, Kutta Kurqan şəhərlərini ələ keçirmiş, Şəhrisəbz şəhərinə qədər gələ bilmişdi. Ancaq Şəhrisəbz şəhərinin hakiminin qızına evlənən Əbdürrəhim biy yürüşü yarımçıq qoyub, Xocənd şəhərinə qayıtmışdı. Lakin onun geri çəkilməsi ətrafındakı əyanların xoşuna gəlməmiş və onlar Əbdürrəhim biyi 1740 - cı ildə devirmişdilər. Həmin il Əfşar hökmdarı Nadir şah Buxaranı ələ keçirib Səmərqənddən kokandlıları qovmuşdu.

Əbdürrəhim biyin öldürülməsindən sonra onun varisi Əbdülkərim biy birdəfəlik İski Kurqan (Kokand) şəhərinə köçmüş və bundan sonra tarixi ədəbiyyatlarda xanlıq Kokand xanlığı adlanmağa başlamışdır. Əbdülkərim biyin zamanında Kokand ərazisi dəfələrlə cunqarların və kalmıkların basqınlarına məruz qalmışdı. Lakin Kokand xanının müdafiə tədbirləri nəticəsində basqınlar dövlətə elə bir ziyan vura bilməmişdilər. Ancaq işğalçılara qarşı təkbaşına müharibə apara bilməyən Əbdülkərim biy Fərqanədə yerləşən Oro Tübe vilayətinin hakimi Fazil biylə dostluq əlaqələri yaratmış və onun qızı ilə evlənmişdi. Bundan sonra kokandlılarla bəzi qırğız qəbilələri arasında böyük bir siyasi ittifaq yaranmışdı. Ancaq Əb-

dülkərim biy cunqarlarla mübarizədən başqa qırğızların da öz hakimiyyətinə tabe edilməsinə çalışırdı. Bu da onun Fərqanə qırğızları ilə xeyli müddət müharibə aparmasına səbəb olmuşdu. 1750 - ci ildə Axsı yaxınlığında döyüşdə Əbdülkərim qırğız qəbilələrini məğlub edib, öz hakimiyyətinə itaət etdirə bilmişdi. Ancaq Əbdülkərim biy kalmık və cunqarların da basqınlarına son qoya bilmişdi.

1751 - ci ildə Əbdükərimin ölümündən sonra hakimiyyətə İrdana biy (1751 - 1778) çıxarıldı. Onun hakimiyyəti dövrü Kokandın qəti şəkildə Buxara hakimiyyətindən çıxdığı və ondan uzaqlaşdığı dövrdür. 1754 - cü ildə Kokand, Buxara və qırğızların quşçu qəbiləsinin rəhbəri Qubad biy Oro Tübe üzərinə böyük bir yürüş tərtib etdilər. Lakin müttəfiqlər arasında ziddiyyətlər üzündən yürüş yarımçıq qaldı. Ancaq İrdana biyin hakimiyyəti o qədər də möhkəm deyildi. Onun hakimiyyəti zamanında Fərqanədə ona tabe olmaq istəməyən qırğız tayfalarının tez - tez üsyanları baş verirdi. Bunlardan bayaq adını çəkdiyimiz Qubad biy İrdana biyin hakimiyyətinə qarşı çıxmış, lakin məğlub olaraq Qaşqar uyğurlarının yanına qaçmışdı.

Kokanda tabe olmayan vilayətlər arasında Kokand yaxınlığında yerləşən Oş və Alay regionlarının rəhbəri Ajı bəyin adını xüsusilə qeyd etmək lazımdır. Hər iki biy arasında münasibətlər çox ziddiyyətli idi. Mənbələrdə onların bir yerdə 1759 - cu ildə Çin ordusunun Fərqanə vilayətinə hücumunun qarşısı uğurla alınmışdı. Lakin onlar arasında siyasi rəqabət də dərinləşirdi. Kokand xanlarının bütün Fərqanə vilayətini vahid hakimiyyətdə

birləşdirmə cəhdlərinə baxmayaraq Fərqanə vilayəti Çin mənbələrinin məlumatına əsasən, 1759 – 1760 - cı illərdə Kokand, Əndican, Namanqan və Margelan vilayətlərinə bölünmüşdü.

1757 – 1758 - ci illərdə Kokand xanlığı ilə Çin arasında diplomatik münasibətlər yaradılmışdı.

Dövlətinin sərhədlərini genişləndirməyə çalışan İrdana biy daha çox Fərqanə qırğızlarının müqaviməti ilə qarşılaşırdı. Bunlardan bəzilərini məğlub edən İrdana biy daha çox Oş və Uzgen şəhərlərinin əhalisi və onlara dəstək olan Ajı biylə mübarizə aparırdı. Uzun mübarizədən sonra Aji biy 1762 - ci ildə məğlub edilərək dağlara çəkildi. Lakin İrdana biyin Xocənd üzərinə basqınından istifadə edən Ajı biy bu dəfə birbaşa Kokanda basqın etdi. Ancaq geri qayıdan İrdana biy tərəfindən məğlub edilərək əsir düşdü. Bundan sonra Ajı biy əsirlikdən azad olaraq yenidən Oş vilayətinin hakimi təyin edildi.

Fərqanə qırğızlarını öz tərəfinə çəkmək üçün Kokand hakimləri onların əyanlarına vergi güzəştləri edir, onlara yaxşı otlaqlardan yer ayırır, sarayda əyanlara vəzifələr verirdi. Nəticədə Kokand xanları xeyli qırğız qəbiləsini öz tərəfinə çəkə bilmişdilər. XVIII əsrin 70 - ci illərində Kokand xanı İrdana biy Əndican ərazisini də öz hakimiyyəti altında birləşdirə bilmişdi. Lakin köçəri qırğızlarla mübarizə səngimək bilmirdi. Bunun da səbəbi onların demək olar ki, həmişə otlaqlar axtarışında Kokandın sərhədlərini tərk edərək başqa ölkələrə getmələri, daha sonra xanlığın ərazisinə qayıtmaları idi. Bu da onların tabe edilməsində böyük çətinliklər yaradırdı.

İrdana biyin hakimiyyətdən getməsindən sonra taxta onun qardaşı oğlu Süleyman biy çıxarıldı. Lakin saray əyanlarının kəskin müxalifəti ilə rastlaşan Süleyman biyin hakimiyyəti 3 ay sürdü. Onun öldürülməsindən sonra hakimiyyətə Əbdülkərim biy və Əbdürrəhman bəyin nəvəsi, İsfara şəhərinin hakimi Narbuta biy çıxarıldı. Lakin o, uzun müddət təhlükəsizliyini fikirləşərək ona edilən təklifləri rədd etmişdi. Narbuta biyin (1778 - 1800) hakimiyyəti zamanında Kokand xanlığında ara müharibələrinə demək olar ki, son qoyuldu. Saray çəkişmələri, əyanların rəqabəti dayandırıldı. Narbuta biy tabe olmayan əyan və tayfa rəhbərləri ilə çox amansız rəftar edirdi. Sələfləri kimi Narbuta biy də dövlətinin ərazisini genişləndirməyə çalışırdı. Onun hakimiyyəti illərində XVIII əsrin 80 - ci illərində Kokand xanlığı Çırçık çayının sahillərindəki qırğızları özünə tabe etmişdi. Uzun müddət mübarizədən sonra Narbuta biyin orduları Fərqanə Alay dağlarının qırğız tayfalarını da özünə tabe etmişdi. Lakin həmin illərdə kalmıkların və cunqarların basqınları nəticəsində Oş vilayəti Kokand xanlığından alınmışdı. Bundan sonra buradan qaçan qırğızlara Əndican vilayəti verilmiş, Oş vilayəti geri alındıqdan sonra isə onun sərhəd məntəqəsi kimi əhəmiyyəti nəzərə alınaraq ona müstəqil idarəçilik verilmişdi. Oş hakimləri yalnız Kokanda bac verməklə kifayətlənirdilər.

Ölkədə maliyyə stabilliyini təmin etmək üçün Kokand xanı Narbuta biy öz adından mis pullar buraxdırdı. Bu isə ölkənin maliyyə vəziyyətinin qaydaya düşməsinə səbəb oldu. Bundan başqa o, taxıl və yeyinti məhsulları

üzərində dövlətin inhisarını da ləğv etdi, ölkədə alınan vergiləri də stabilləşdirdi. Narbuta biyin Çinlə də münasibətləri yaxşı idi. Lakin o, Sinzyan uyğurlarının Çin hakimiyyətinə keçməsi ilə barışmalı olmuşdu.

Narbuta biyin ölümündən sonra hakimiyyətə Alim biy (1800 - 1809) çıxdı. O, hakimiyyəti dövründə zalımlığı və əyanlara qarşı həddindən artıq sərtliyi ilə fərqlənirdi. Buna görə də ona "zalım" və "şir qaran" (amansız pələng) adları verildi. O, öz siyasi rəqiblərini amansızlıqla yox edir, eyni amansızlıqla ona etiraz edən əyanlara da qarşı mübarizə aparırdı. Alim xanın hakimiyyəti Kokand xanlığının fasiləsiz müharibələr apardığı bir dövrdür. Müharibələr həm dövlətin ərazisini genişləndirmək və həm də qarətlər aparmaq üçün aparılırdı. Onun dövründə Çimkənd, Qarabulaq, Sayram və Kuramu kimi şəhərlər Kokand xanlığına birləşdirildi. Kokand xanları, hətta Daşkəndi də özlərinə birləşdirə bilmişdilər. Əslində Daşkənd uğrunda aparılan mübarizə uzun sürmüşdü. XVIII əsrin sonlarında Daşkənddə hakimiyyəti hocalar adlanan din xadimləri ələ keçirmişdilər. Onların başçısı əhali arasında Şeyhantahur adlandırılan bir din xadimi idi. Daşkəndin alınması uğrunda mübarizə bəzən Daşkəndin qələbəsi ilə başa çatırdı. 1799 - cu ildə Alim xan Daşkəndə qarşı böyük bir hərbi səfər tərtib etdi. Lakin Çirçik çayı yaxınlığında döyüşdə Kokand ordusu məğlub edildi. Əsir düşənlər isə daşkəndlilər tərəfindən edam edildilər. Bundan istifadə edən Buxara əmiri Xocəndi tutmaq üçün buraya yürüş etdi. Lakin Alim xan nəinki Buxaranı məğlub edib Xocəndi ələ keçirdi, eyni zamanda

Daşkəndi yenidən mühasirəyə aldı. Lakin şəhərin tabe olmadığını görüb, şəhər ətrafında olan suvarma kanallarını ələ keçirdi. Məhz bundan sonra Daşkənd əhalisi tabe oldu, şəhərə daxil olan Alim xan buranı qarət etdi. Bundan sonra Həmid hocanı hakim təyin edərək buradan uzaqlaşdı.

Buxara ilə müharibə və rəqabət obyekti olan Ura Tübe üzərinə Kokand xanı 15 dəfə yürüş etmişdi. Lakin onun apardığı müharibələr onun özünün öldürülməsi ilə nəticələndi. 1809 - cu ildə onun apardığı müharibələrdən bezmiş olan əyanlar xanın qardaşı Ömər bəyi taxta çıxardaraq Alim xanı öldürdülər.

Ömər biyin (1809 - 1821) hakimiyyəti Kokand xanlığının həyatında nisbi sülhün bərqərar olması ilə xarakterikdir. Ömər biy müharibələr aparmağa o qədər də meylli deyildi, ən azından Buxara ilə mübahisə etmək istəmir, onunla olan bütün münaqişələri sülh yolu ilə həll etməyə çalışırdı. İradəsinin sübutu olaraq Ömər biy Buxara əmiri Heydərlə ittifaq müqaviləsi bağlamışdı. Ömər biyin hakimiyyəti xalqın da razılığı ilə qarşılanırdı. Ömər biy ümumiyyətlə, hakimiyyətinin xarici parıltısına, möhtəşəmliyinə fikir verirdi. Ona görə də Ömər biyin vaxtında saray yenidən qurulmuş, Kokand şəhərindəki tikililər və evlər yenidən qurulmuşdu.

Bütün sülhməramlı siyasətinə baxmayaraq Ömər biyin dövründə də Kokand xanları dövlətin sərhədlərini genişləndirməyə çalışırdılar. Lakin Alim xandan fərqli olaraq Ömər biy daha çox diplomatik üsullardan, tayfaların bir - birinin üstünə salışdırılması formalarından istifa-

də edirdilər. İlk olaraq Buxara ilə ittifaq münasibətlərinə baxmayaraq 1815 - ci ildə Ömər biy Türküstan üzərinə yürüş təşkil etdi və buranı alaraq əhalisini amansızlıqla qarət etdi. Türküstanın alınması Sırdərya vadisindəki bütün torpaqların Kokand hakimiyyətinə keçməsinə gətirib çıxardı. Bundan sonra Ömər biy bu ərazilərdə, ticarət yollarının kəsişdiyi strateji nöqtədə Ak Məscid deyilən bir şəhərin əsasını qoydu və şəhərin idarəsini Daşkənd valisinə tapşırdı.

1821 - ci ildə qazaxların Kokanda qarşı üsyanı baş verdi. Üsyan çox böyük qurbanlar bahasına yatırılsa da, kokandlılar Sayram və Çimkəndi ələ keçirə bildilər. Onun sərhədləri genişləndirmək siyasətinə mane olan əsas rəqib Namanqan hakimi Seyidqul bəy idi. 1821 - ci ildə qışın düşməsindən istifadə edən Ömər biy Namanqan üzərinə basqın etdi. Namanqanla Kokand arasında müharibənin başlıca səbəbi Kətmən Tübe deyilən otlaqlar idi. Ömər biy qırğızların bir hissəsini öz tərəfinə çəkərək Namanqanı müdafiə edən tayfaların üzərinə salışdırdı. Bundan başqa Ömər biy köçərilərlə müharibə taktikasını da yaxşı mənimsəmişdi. Hücumun qəfil olması Namanqan üzərində qələbəyə şərait yaratdı. Bunun da nəticəsində Namanqan və Kətməntübe də Kokand xanlığına tabe edildi.

1822 - ci ildə Ömər biy Kokand ruhanilərini onu "Əmir əl - üməra" deyə adlandırmalarını tələb etdi və onlardan bu titulu aldı. Bundan sonra o, öz adında müstəqil hökmdar kimi pul da kəsdirməyə başladı.

1822 - ci ildə Ömər xanın ölümündən sonra hakimiyyətə onun oğlu Məhəmməd Əli çıxarıldı (o, əhali arasında Mədəli deyə çağırılırdı - müəllif). Ancaq atasından fərqli olaraq o, əyanların çoxuna qarşı amansız mövqe tutur, gizli və açıq şəkildə özünün xoşuna gəlməyən adamlara divan tuturdu. Bundan başqa Mədəli müxtəlif müharibələr də aparır, aydındır ki, bu da yerli əhalinin narazılığının artmasına səbəb olurdu. Onun ilk müharibəsi Qaşqar üstündə Çinlə baş verdi. 1758 - ci ilə qədər Qaşqar xüsusi ruhani sinif olan xocalar tərəfindən idarə edilirdi. Tsin ordusunun həmin ildə Qaşqarı işğal etməsi, müsəlman əhalisinin, xüsusilə də, xocaların kütləvi şəkildə Kokanda axışmasına səbəb oldu. Müəyyən müddət ərzində Çin hökuməti Kokanda həmin xocaları nəzarətdə saxlamaq üçün xüsusi pul da ödəyirdi. Buna baxmayaraq xocalardan biri İsgəndər xoca deyilən bir nəfər 1825 - ci ildə Kokanddan qaçaraq bir neçə min müsəlman pamirli ilə birlikdə Qaşqara daxil olub, buranı özünə tabe etdi. Bundan sonra İsgəndər hoca Kokanda yardım üçün müraciət edərək, ona ordu ilə kömək göstərilməsini istədi. Kokand xanı da ona kömək etdi. Ancaq Qaşqara girən Çin ordusu İsgəndər hocanı məğlub edərək onu edam etdirdi. Onun əvəzinə Qaşqarda hərəkata başçılıq edən Məhəmməd Yusuf adlı qardaşı 1829 - cu ildə yenidən Kokanda kömək üçün müraciət etdi. Bu dəfə Mədəli xan biy özü ordusunun rəhbərliyində Qaşqara hərbi səfərə çıxdı. Onların gəlişi ilə yerli müsəlman əhali yenidən Çinə qarşı üsyana qalxdı. Lakin Çin ordusunun gəlməsi xəbərini eşidən Kokand ordusu tələsik Qaşqarı tərk etdi. Kokand-

lılar özü ilə 70 mindən çox qaşqarlını gətirərək xanlığın ərazilərində yerləşdirmişdilər. Bundan sonra dəfələrlə Kokand ordusu Qaşqar ərazisinə basqın edərək yerli əhalini üsyana qaldırmışdı. Kokandın hücumlarına son qoymaq üçün Çin hökuməti Şərqi Türküstandan bəzi vergilərin yığılması hüququnu Kokanda güzəştə getmişdi. Bu məqsədlə hər il Kokanddan xüsusi bir məmur bir neçə nəfər silahlı şəxslə birgə Qaşqara göndərilirdi. Beləliklə, 1825 - ci ilədək Kokandın hakimiyyəti indiki şimali Qırğızıstan və Cənubi Qazaxıstanın düzlərini əhatə edirdi. Buradakı ictimai-siyasi vəziyyəti əldə saxlamaq üçün Pişbəy və Toxmaq şəhərləri tikdirilmişdi. Həmin illərdə taciklərə qarşı müharibəyə başlayan Kokand ordusu Pamir dağları ətəklərindəki Qaratıkin, Gülyab, Şuqnan, Dərvaz və Roşan şəhərlərini ələ keçirdi. Lakin bu əraziləri Kokanddan yarımasılı olan sultanlar idarə edirdilər. Bunlardan xanlığa ən sədaqətli olanı Qaratəkin əhalisi idi.

Lakin Mədəlinin qanunsuz hərəkətləri, vergilərin artırılması, əhalinin aparılan müharibələrdən var - yoxdan çıxması xalqın böyük narazılığına səbəb olmuşdu. Camaatın "səbr kasasını" daşıran hadisə isə onun zorla ögey anasına evlənməsi oldu. Kokandlılar 1840 - cı ildə üsyan qaldıraraq Buxara əmirinə yardım üçün müraciət etdilər. Buxara əmiri onun evlənməsini İslamda böyük günah hesab edən fitvanı səfirlə onun yanına göndərdi. Lakin səfiri qəbul edən Mədəli Buxaraya qarşı hərbi əməliyyatlara başladı və biabircasına məğlub oldu. Buxara ilə bağlanan sülh müqaviləsinin şərtlərinə görə Mədəli Bu-

xaradan öz vassal asılılığını tanımalı oldu. Bundan başqa Xocənd Buxaranın tabeliyinə verildi.

1842 - ci ildə Kokandda açıq üsyan oldu. Buxara əmiri Nəsrulla hadisə barəsində eşidərək Kokand üzərinə ordu ilə basqın etdi. Əhali arasında yaranan çaşqınlıqdan istifadə edərək, Kokandı tutan Nəsrulla buranın Buxaranın əyaləti olduğunu elan etdi. Məhəmməd Əli, anası, oğlanları və qardaşı hər kəsin gözü qarşısında edam edildilər.

Lakin əmirin getməsindən üç ay sonra əhali yenidən Buxara əleyhinə üsyan qaldırdı. Bunun da səbəbi Buxara canişinin vergilərdən əlavə əhalinin məhsulunun dörddə birini xəzinə üçün tələb etməsi idi. Əhali ətraf düzlərə köç edən qıpçaqlarla əlaqəyə girərək Talasda yaşayan Alim xanın qardaşı Şirəlini hakimiyyətə çağırdılar. Kokanda gələn Şirəli əhalinin köməyi ilə şəhəri ələ keçirdi. Buxara canişini qaçıb canını qurtara bilsə də, qarnizon və başqa məmurlar əhali tərəfindən məhv edildilər. Hadisədən xəbər tutan Buxara əmiri Kokand üzərinə basqın etdi. Lakin qırx günlük mühasirə ona heç nə vermədi. Arxadan Xivə xanı Allahqulu xanın basqınını eşidən Buxara əmiri tələsik geri çəkilərək hücumu dəf etməyə getdi.

Bundan az sonra Xocənd könüllü surətdə Kokandın hakimiyyətinə tabe oldu. İki ay sonra isə Kokand xanı ordusu əhalinin yardımı ilə Daşkəndi yenidən ələ keçirdi. Bununla da Kokand xanlığı Ömər biyin zamanındakı sərhədlərini bərpa edə bildi. Kokandda xanın hakimiyyətə çıxmasına kömək edən qıpçaqlar təbii ki, xanlıqda üstün mövqeyə malik oldular. Qıpçaqların tayfa rəh-

bərləri də Kokandda saray vəzifələrini tutmaq üçün Kokanda axışdılar. Ancaq yeni iqtidara gələn Şirəli xan hakimiyyəti onlarla bölüşmək fikrində olmadığı üçün qıpçaqlar onun hakimiyyətinə qarşı üsyan qaldırdılar. Şirəli xanı faktiki hakimiyyətdən kənarlaşdıraraq, qıpçaq şurasını ali orqan elan etdilər. Qıpçaqların ümumi rəhbəri Buxarada əsirlikdə olan Müsəlmanqul adlı sərkərdə ordu başçısı elan edildi. Bunu eşidən Buxara əmiri təcili Kokanda ordu yeritdi. Lakin onun əhalini yola gətirtmək üçün əsirlikdən azad etdiyi Müsəlmanqul Kokanda girərək xalqın tərəfinə keçdi. Buxara ordusu kokandlılar və qıpçaqlar tərəfindən məğlub edildi.

Hakimiyyətə yiyələnən qıpçaqlar tezliklə hətta orduda əsgərləri belə əvəz etdilər. Bundan əlavə qıpçaqların oturaq sart tayfalarına qarşı ayrıseçkilik siyasəti də özünü göstərirdi. Nəticədə hər iki tayfa arasında qanlı toqquşmalar baş verir, hər iki tərəf bir - birilərini məhv etməkdən belə çəkinmirdilər. Bu isə Kokand ərazisində yerli özbək əyanları ilə onların arasında düşmənçiliyin daha da qızışmasına səbəb olurdu. 1845 - ci ildə Müsəlmanqul Oş şəhərində baş verən üsyanı yatırmağa gedən kimi Kokandda qıpçaqlara qarşı üsyan baş verdi. Əyanlar Şirəli xanı öldürərək hakimiyyətə Alim xanın oğlu Murad xanı dəvət etdilər. Lakin əhalinin Murada qarşı narazılığından istifadə edən Müsəlmanqul başqa qıpçaq qəbilələrini də başına toplayaraq Şirəli xanın oğlu Xudayarı xan elan etdilər. Kokanda girən qıpçaqlar Murad xanı öldürdülər. Lakin Müsəlmanqulun hakimiyyətdə möhkəmlənməsi qıpçaqların Kokandda kütləvi surətdə

əhalini sıxışdıraraq şəhərə yiyələnmək cəhdləri ilə müşayiət edilirdi. Məsələn, suvarma kanallarının hamısı qıpçaqların əlinə keçmişdi və ondan istifadə etmək üçün də əhali onlara xüsusi vergi ödəməli idi.

1840 - cı ildə Kokandda ruslara qarşı qazaxların üsyanına rəhbərlik etmiş Kenessar Qasımov gəldi. Onun məqsədi yerli əhalinin köməyi ilə ruslara qarşı mübarizə aparmaq idi. Lakin Daşkənd hakimi ilə silahlı toqquşmada məğlub olaraq Turqay çayının ətraflarına çəkildi. 1845 - ci ildən başlayaraq isə Kokand xanlığı ilə silahlı mübarizəyə başladı. Ona qarşı mübarizə aparmaq üçün Kokand xanı Buxara ilə ittifaq bağlamışdı.

1850 - ci ildə Xudayar xan artıq hakimiyyəti özü əlinə almaq istəyirdi. Lakin Müsəlmanqulun sarayda ağalığı ona mane olurdu. Buna görə də Xudayar xan Müsəlmanqulun Xocənd, Buxara və Ura təpəyə qarşı uğursuz yürüşlərindən istifadə etdi.

1852 - ci ildə Xudayar xan əyanlardan qurban bayramı münasibətilə təbriklər qəbul edir. Uzun çəkməyən mərasimdən sonra xan qəflətən Daşkənddən gələn orduya qıpçaqları qırmaq əmri verdi. Kokandda əhali ilə ordu tərəfindən qıpçaqlara qarşı əsl soyqırım həyata keçirildi. Qaçan qıpçaq əyanları isə başqa tayfaların xana qarşı mübarizəsini təşkil edə bilmədilər. Xan qıpçaqların əmlakının əhali arasında zorla yarı qiymətinə satılması əmrini verdi. Çünki qıpçaqların qayıtmasından qorxan əhali əmlakı almaq istəmirdi. Sonrakı 1853 - cü ildə rus ordusu Kokanda qarşı hərbi əməliyyatlara başlayaraq Ak Məscit, Cülək, Kumuş kurqan, Çin Kurqan və Köş kurqan isteh-

kamlarını almağa başladı. Əslində, Xudayar xan Kokandın sonuncu müstəqil xanı oldu.

XIX əsrin 50 - ci illərindən başlayaraq Rusiyada çar hökuməti Mərkəzi Asiyanın hərbi cəhətdən işğalına hazırlaşmağa başladı. Rusiya hakimiyyət orqanlarının Mərkəzi Asiya barəsində böyük planları vardi. Kokand xanlığı isə bu planlarda mühüm yer tuturdu. Çünki Hindistana, Çinə, Türküstana (Çinə tabe olan ərazilərə - müəllif), Əfqanıstana və İrana gedən bütün ticarət yolları Kokandın ərazisində keçirdi. İkincisi, Kokandın işğal edilməsi Rusiyanın Mərkəzi Asiyanın başqa bölgələrinə də yolunu aça bilərdi. Kokand eyni zamanda Rusiya üçün mühüm xammal bazası əhəmiyyəti də daşıyırdı.

Yuxarıdakı fikirləri əldə rəhbər tutan Rusiya hökuməti Mərkəzi Asiyanın işğalı üçün böyük bir hərbi plan hazırladı. Hərbi planın həyata keçirilməsi üçün iki istiqamət nəzərdə tutulmuşdu. Bunlardan birincisi, Kokand istiqaməti idi. Həmin istiqamətdə ruslar Kokandın müdafiə istehkamlarını ələ keçirərək, əvvəl Daşkəndi zəbt etmək, bunun ardınca isə Kokand şəhərini və Mərkəzi Asiyanın başqa rayonlarını işğal etmək istəyirdilər. İkinci istiqamət isə Xivə istiqaməti idi. Burada da əsas məqsəd Xivə daxil olmaqla Mərkəzi Asiyaya qərb tərəfdən basqın etmək və Kokandı bir növ mühasirə vəziyyətinə salmaq idi. Orenburq qubernatoru Katenin də Kokandın işğal edilməsinə böyük əhəmiyyət verirdi. Birincisi, Mərkəzi Asiyanın möhkəmləndirilmiş olmasını nəzərə çatdıran Katenin Kokanda məxsus Türküstan və Daşkənd şəhərlərini müdafiə cəhətdən zəif, hərbi qənimətin

əldə edilməsi baxımından isə zəngin hesab edirdi. Bundan başqa Daşkəndin alınmasını Katenin Buxara xanlığının dərinliklərinə açılan yolun başlıca istiqaməti hesab edirdi. Katenin ilk növbədə Cülək qalasının alınmasını əsas hədəf hesab edirdi. Qeydlər II Aleksandra göndərilmiş və o, da həmin planın həyata keçirilməsini məqsəduyğun hesab edirdi. Lakin Türküstanın və Daşkəndin alınmasının əleyhinə çıxırdı.

Başqa bir tərəfdən Qərbi Sibir vilayətinin qubernatoru Hasford Pişbəy şəhərinin kokandlıların Çu çayı hövzəsində hücumlarının qarşısının alınması bəhanəsilə ələ keçirilməsini məsləhət görürdü. Qafqaz ordularının komandanı Baryatinski isə Mərkəzi Asiya üzərinə Xəzər dənizi istiqamətindən, qəfildən başlamağı və hücumu ilk növbədə Kokand üzərinə yönəltməyi məsləhət görürdü.

Lakin bütün bu təkliflərə baxmayaraq çar hökuməti Rusiyanın xarici siyasətinin ağır olması, təhkimçiliyin ləğvi haqqında islahatların layihələşdirilməsi və bu islahatların aparılmasının çətin olacağını gözlədikləri üçün Mərkəzi Asiyanın işğalını daha sonraya saxlayırdı.

Lakin XIX əsrin 60 - cı illərindən başlayaraq Rusiyanın siyasi vəziyyəti daha da stabilləşdi. Artıq Mərkəzi Asiyanın işğalı daha aktuallıq kəsb etməyə başladı. 1861-ci ildə Orenburqun general qubernatoru Bezak Sibir buranınmüdafiə istehkamlarını zəbt etmək üçün təkliflər planı hazırladı. 1863 - cü ildə həmin təkliflər layihə şəklinə salınaraq çara təqdim edildi. Həmin ilin yayında general Çernyayev Sırdəryadakı Suzak qalasını tutaraq Rusiya imperiyasının mülkü elan etdi. 1864 - cü ildən başla-

yaraq hökumətin bu dəfə rəsmi razılığı ilə Çernyayev istehkamlar sisteminin birləşdirilməsini həyata keçirməyə başladı. 1864 - cü ildə Çernyayev indiki Almatı şəhərindən çıxaraq iyunun əvvəlində Övliya ata şəhərini tutdu. Həmin ayın ortasında general Veryovkin Perovski fortundan çıxaraq Türküstan şəhərini tutmaq üçün irəliləməyə başladı. 12 iyunda Türküstan şəhəri uğurla zəbt edildi. 22 sentyabr 1864 - cü ildə Çimkənt şəhəri tutuldu. Bununla da Sibir və Orenburq istehkamlarının birləşdirilməsi başa çatdı.

Bu şəhərlərin ələ keçirilməsindən sonra Çernyayev Kokand xanlığının tərkibinə daxil olan Daşkənd şəhərinin ələ keçirilməsi planları ilə məşğul olmağa başladı. Daşkəndin camaatı arasında da ikitirəlik var idi. Buranın əhalisinin bir hissəsi Rusiya tərəfinə keçmək, qalan hissəsi isə Buxara xanlığınınköməyi ilə ruslara müqavimət göstərmək fikrində idi. Buxara tərəfdarlarının başında vaxtında ruslara qarşı müqavimətin başçılarından biri Kenessar Qasımovun oğlu Sadık Qasımov idi. O, buxaralıların köməyi ilə Daşkəndi möhkəmləndirmək və müqavimət göstərmək fikrində idi. Bundan başqa o, həm də əks hücumla rusların ələ keçirdiyi məntəqələri də geri qaytarmaq istəyirdi. Lakin Daşkənddə onun əleyhinə olanlar da çox idi. Bu da hər iki tərəf arasında mübarizəyə və Daşkəndin ruslar tərəfindən işğalına səbəb oldu.

1864 - cü ilin payızında Çernyayev Daşkəndin alınması üçün ilk cəhdlər etdi. Lakin bu cəhdlər uğursuz alındı. 1865 - ci ildə Çernyayev Daşkəndin alınması istiqamətində işlərə yenidən başladı. Bu dəfə işə daha ciddi

yanaşıldı. İlk olaraq şəhərin ətrafında strateji məntəqə olan Niyazbəy ərazisini tutdu. Bundan sonra Daşkəndə girən ən böyük su kanalı olan Anxoru ələ keçirərək şəhərə su verilməsini dayandırdı. Çernyayev Niyazbəy ərazisini almaqla Daşkəndə taxıl gəlməsini dayandırırdı. Bununla da şəhəri könüllü təslim etmək istəyirdi. Lakin daşkəndlilər ilk olaraq Kokand xanı Alimqul xana müraciət etdilər. O, isə bir neçə min əsgərlə şəhərə daxil oldu və şəhər əhalisini müqavimət üçün səfərbər etdi.

9 may 1865 - ci ildə ruslar Daşkənd üzərinə ilk böyük hücuma keçdilər. İki tərəf arasında gedən döyüşdə ruslar məğlub olaraq geri çəkildilər. Lakin ikinci dəfə hücuma keçən ruslar bu dəfə daşkəndliləri şəhərə sıxışdıra bildilər. Alimqul isə döyüşdə öldürüldü. Onun ölümündən sonra Daşkəndin müdafiəsinə Sadıq Qasımov rəhbərlik etməyə başladı. Lakin Alimqulun öldürülməsi Daşkəndin müdafiəçiləri arasında xeyli ruh düşkünlüyü yaratdı. Nəticədə əhali arasında qaçanların, Kokand ordusundan isə fərarilik edənlərin sayı xeyli çoxaldı. Bu dəfə camaat Buxaraya müraciət etdi. Lakin Buxara xanlığı yalnız onun hakimiyyətinin qəbul ediləcəyi təqdirdə yardım edəcəyini bildirdi.

Bu vəziyyətdə şəhərdə baş verən ruh düşkünlüyündən xəbərdar olan Çernyayev vəziyyətin necə dəyişəcəyini gözləməyə başladı. Eyni zamanda Buxaraya gedən yolu kəsdi. Buxaradan kömək almaq istəyənlərin vəziyyətinin gücləndiyini görən Çernyayev bu dəfə qəti hücuma keçdi. May 1865 - ci ildə rus ordusu Daşkəndə hücuma başladı. Böyük müqavimətdən sonra ruslar 17 mayda

şəhəri təslim edə bildilər. Bundan sonra Çernyayev Daşkəndin əyanları ilə görüşdü və Alimqul xanın qəbrini də ziyarət etdi. Bundan başqa Çernyayev ruhanilərin də görüşünə gedib, onlara xeyli hədiyyələr verdi. Çernyayevin Daşkəndi alması hökumətlə razılaşdırılmamışdı. Lakin o, dövlət tərəfindən səxavətlə mükafatlandırıldı.

Avqustda Orenburq qubernatoru Krıjanovski Daşkəndin, Xocəndin və Çirçik çayı ərazilərinin Rusiya hakimiyyətinə keçdiyini elan etdi. 18 oktyabrda Cizak alındı. Ondan bir qədər sonra isə Rusiya ordusu Səmərqəndi ələ keçirdi. 1867 - ci ildə işğal edilmiş ərazilərdə Türküstan general qubernatorluğu yaradıldı.

1868 - ci ildə Kokand xanı Xudayar xanla Rusiya arasında ticarət müqaviləsi imzalandı. Müqavilənin şərtinə görə Rusiya ilə Kokand arasında hərəkət edən həm kokandlı, həm rus tacirlər qarşılıqlı güzəştlər alırdılar. Lakin müqavilə siyasi cəhətdən Kokandı Rusiyadan asılı vəziyyətə salırdı. Xudayar xan bir neçə il rusların göstərişlərini dəqiq yerinə yetirirdi. Onların göstərişi ilə hətta Buxara ilə Qaratəkin üstündə mübarizəni də dayandırmışdı. 1871 - ci ildə Rusiya hakimiyyəti Kokand xanına mükafat da vermişdi. Lakin bu mənzərə göstəriş xarakterli idi. Rusiya müharibə dövründə xəzinəyə dəyən ziyanı ödəmək üçün yerli əhalidən vergiləri dəfələrlə artırmış, bu isə əhalinin ciddi narazılığına səbəb olmuşdu.

1873 - cü ildən başlayaraq həm Xudayar xana, həm də ruslara qarşı Kokandda üsyanlar başladı. Lakin Xudayar xan hələ ki, onların öhdəsindən gələ bilirdi. 1875 - ci ildə Kokandda Xudayar xana qarşı sui - qəsd hazırlanma-

ğa başladı. Onlar hətta xanın oğlu Nəsirəddini də öz tərəflərinə çəkə bilmişdilər. 1875 - ci ilin iyulunda qırğız üsyançılarını yatırmağa gedən Kokand ordusu əyanlar və Nəsirəddin xan başda olmaqla üsyançıların tərəfinə keçdilər. Tezliklə Əndican, Oş, Namanqan və Margelan üsyançıların əlinə keçdi. 22 iyulda üsyançılar Kokanda yaxınlaşdılar. Xanın onların əleyhinə göndərdiyi ordu da üsyançıların tərəfinə keçdi. Xan Xocəndə qaçmalı oldu. Bundan sonra xanlığın bütün əhalisi üsyana qoşuldu. Üsyançılar xanın oğlu Nəsirəddini xan elan elədilər.

8 avqustda üsyançılar Xocəndə basqın etdilər. Lakin bu dəfə əhali rusların tərəfini saxladı. Ruslar tərəfindən geri oturdulan üsyançılar arasında ikitirəlik başladı. Bu isə rusların onları üstələməsinə imkan verdi. 22 avqust 1875 - ci ildə rus ordusu üsyançıları darmadağın etdi. 23 sentyabrda Kokand xanı Rusiya ilə sülh imzaladı. Sülhə görə Kokand Ruisya himayəsini qəbul edirdi. Bəzi ərazilər isə Kokanddan alınıb Türküstan general qubernatorluğunun tərkibinə daxil edilirdi.

Lakin Kokand ərazisində üsyanlar kəsilmədiyinə görə Türküstan qubernatoru Kaufman 1876 - cı ilin yanvarında çardan Kokand xanlığının ləğv edilməsi haqqında əmr ala bildi.Üsyançılardan yeganə sağ qalan olan Əbdürrəhman xan ruhdan duşərək ruslara təslim oldu. Bundan sonra 26 noyabr 1876 - cı ildə rus ordusu demək olar ki, müqavimətsiz Kokand şəhərini ələ keçirdi. Kokand xanlığı ləğv edilərək Fərqanə vilayəti adı ilə Türküstan general qubernatorluğunun tərkibinə daxil edildi.

### *§ 6. Mərkəzi Asiya xalqlarının mədəniyyəti*

Mərkəzi Asiya xalqlarının mədəniyyətinin ən ümdə göstəricisi şəhər salmadır. XVI - XVII əsrlərdə Mərkəzi Asiyada indiki yerli millətlərin formalaşması prosesi başlandığına görə şəhərlərin inkişafında da dəyişikliklər baş verdi. Qabaqlar şəhərlər çoxmillətli struktura malik olurdularsa, artıq XVII əsrdən başlayaraq bəzi şəhərlər eyni milli struktura malik olan ərazilərə çevrilməyə başladı. Bundan başqa iqlim şəraitinin, dövlətlərin siyasi vəziyyətinin dəyişməsi, eyni zamanda xarici amillərin təsiri ilə (Cunqar basqınları, Çinin Türküstanda apardığı işğalçı müharibələr və s. - müəllif) şəhərlərin də vəziyyətində dəyişikliklər baş verirdi. Qabaqlar mühüm sərhəd məntəqələri rolunu oynayan şəhərlər artıq tənəzzülə uğramış, əvəzində isə daxili şəhərlərin rolu daha da artmağa başlamışdı. Bundan başqa yeni yaranan dövlətlərin hökmdarları da iqamətgah təyin etmək məqsədilə müxtəlif şəhərləri ya təmir edir, ya da yenilərini salırdılar. Şəhərlər xüsusiyyətlərinə görə qalalara, yəni sırf müdafiə məqsədilə salınmış ərazilərə və şəhərlərə ,ticarət və sənətkarlıq mərkəzlərinə bölünürdülər.

XVII əsrin böyük şəhərləri içərisində Otrar şəhərinin adını çəkmək lazımdır. Bu şəhər qədim şərq – müsəlman şəhərsalma ənənələri əsasında salınmış, XVII-XVIII əsrlərdə öz ticarət və sənətkarlıq əhəmiyyətini saxlamışdı. Memarlıq formasına görə dədövrünün gözəl şəhərləri sırasına daxil idi. Otrar həm də strateji yerdə yerləşən bir şəhər idi. Tarixçilərin bir çoxu hökmdarın Otrarda möh-

kəmlənəcəyi təqdirdə bütün Türküstanda möhkəmlənə biləcəyini dəfələrlə vurğulamışdılar.

Mərkəzi Asiyanın mühüm şəhərlərindən biri də Sauran şəhəri idi. Şəhər böyük istehkam sistemləri və suvarma kanalları, xüsusilə də kəhrizləri ilə məşhur idi. Kəhrizlərin bəzi yerlərdə uzunluğu bir neçə kilometrə çatırdı. XVII əsrdə Sauranda böyük bir mədrəsə də tiklimişdi. XVII əsrin sonunda və XVIII əsrin əvvəllərində Cunqar basqınları ilə bağlı olaraq şəhərin memarlığı hərbi müdafiə qanunlarına uyğun tikilmiş və bəzi yerlər isə yenidən bərpa edilmişdi. Sauran şəhəri eyni zamanda şəhər ətrafında çaharbağ deyilən yerli varlıların bağ evi malikanələri ilə də məşhur idi. Bu bağları dəqiqliklə, eyni zamanda çox zövqlə tikmişdilər.

Türküstan ərazisində olan mühüm şəhərlərdən biri də Sayram şəhəri idi. Şəhər Türküstan, Yeddisu və Məvəraənnəhr arasında əlaqə yaradan ticarət yollarının üzərində yerləşirdi. Qazaxıstan və Türküstanın şimalında əvvəllər Dəşti Qıpçaq dövlətləri xanlarının, sonradan da Türküstan və Qazax xanlarının siyasi dayaqlarından biri də Suzak şəhəri idi. Şəhər mənbələrin məlumatına görə böyük bir qalanı xatırladırdı və burada hərbi istehkamlar sistemi çox möhtəşəmliklə tikilmişdi. Şimali Türküstan və Qazaxıstan ərazilərində Göktəpə, Koltepe, Taşkurqan, Taştoba kimi başqa şəhərciklər də salınmışdı. Bu şəhərlər həm ticarət mərkəzləri, həm də müdafiə istehkamları rolunu oynayırdılar.

Şəhərlərdə müxtəlif memarlıq abidələri də diqqəti cəlb edirdi. Bunlardan Sauranda XVI əsrin sonlarında in-

şa edilmiş və XIX əsrin I yarısına qədər fəaliyyət göstərən tərpənən minarəli mədrəsə misaldır. Otrarda inşa edilən və XVIII əsrin əvvəllərinə qədər fəaliyyət göstərən baş məscidin 200 kv/m - ə qədər sahəsi var idi. Məsciddə qüsl almaq və eyni zamanda dəstəmaz almaq, dəfn mərasimlərini yerinə gətirmək üçün otaqlar da vardı. Əslində bu məscid Buxaranın baş məscidinin planı əsasında tikilmişdi. Şəhərdə məscidlərdən başqa bir dənə böyük mədrəsə və eyni zamanda ictimai hamamlar var idi. XVI - XVIIIəsrin demək olar ki, bütün evləri və bundan başqa ictimai tikililəri çiy kərpic, çay daşından tikilirdi.

Buxara, Xivə, Kokand xanlıqları, eyni zamanda Fərqanə ərazisindəki şəhərlər Türküstanda və Qazaxıstandakı şəhərlərdən bir çox məsələlərdə fərqlənirdilər. Bunlardan birincisi, şəhərlərin abad və küçələrinin geniş olması idi. Bunun da səbəbi bu şəhərlərin daha çox yaşamaq və ticarət etmək üçün tikilməsi, yəni müdafiə məqsədinin bir növ arxa planda olması idi. İkincisi, inzibati binaların, məscidlərin, mədrəsələrin çoxluğu, məmurların və varlıların malikanələrinin şəhərlərin ərazisində yerləşməsi idi. Başqa bir səbəb də şəhərlərin mərkəzində bazarlar, karvansaralar və digər infrastruktur sistemlərinin fəaliyyəti, eyni zamanda bunları abad şəkildə saxlanması idi. Şəhərlər özlərinin memarlıq üslubu, tikintilərin qayda - qanunla aparılması ilə də diqqəti cəlb edirdilər. Əsas tikinti materialı isə daş, taxta, bişirilmiş kərpic idi.

XVII-XIX əsrlərdə Mərkəzi Asiyada təhsil də müəyyən dərəcədə inkişaf etmişdi. Mərkəzi Asiya şəhərlərində təhsilin əsas növləri məktəblər, yaxud kuttablar

(bunlarda daha çox yazıb oxumaq və ibtidai biliklər öyrədilirdi – müəllif), mədrəsələr (mədrəsələr orta məktəb, yaxud ali məktəb tipində təşkil edilirdi – müəllif), şəxsi evlər, kitabxanalar idi. Mərkəzi Asiya şəhərlərində olan kitabxanalar şəxsi, ictimai və saray kitabxanaları olmaqla üç yerə bölünürdülər. Saray kitabxanaları daha çox qapalı şəkildə yalnız saray adamları, məmurlar və hökmdarın özü üçün fəaliyyət göstərirdilərsə, qalan kitabxanalar əhali üçün açıq idi. Buna görə də təhsil almaq hər bir kəs üçün demək olar ki, mümkün idi. Təhsil yeri kimi məscidlərin nəzdində mollaxanalar da fəaliyyət göstərirdi. Təhsil mərkəzləri kimi Xivə, Buxara, Sığnaq, Səmərqənd şəhərində yerləşən mədrəsələr Mərkəzi Asiyada daha məşhur idi. Sığnaq mədrəsələrində daha çox təsəvvüf alimləri dərs keçirdilər.

Mərkəzi Asiya alimləri dini və dünyəvi elmlərdə biliklərinə, yazdıqları əsərlərə görə Şərqdə məşhur idilər. XVII - XIX əsrin birinci yarısında Mərkəzi Asiyada qeyri - stabil siyasi şərait, feodal çəkişmələrinin artması, iqtisadi – sosial vəziyyətin pisləşməsi mədəniyyətin də inkişafına öz mənfi təsirini göstərirdi. Buna baxmayaraq Mərkəzi Asiyada elm və mədəniyyət inkişaf etməkdə davam edirdi. Bizim dövrümüzə qədər XVII əsrdə Buxarada yaşayan bir alimin yunan peripatetik və stoya fəlsəfəsi haqqında yazdığı traktat dövrümüzə qədər gəlib çatmışdır. XVII əsrin alimləri içərisində əslən Azərbaycandan olan Molla Yusif Qarabağinin də adını xüsusilə çəkmək lazımdır. O, sxolastik fəlsəfənin bilicisi kimi ad çıxarmışdı. Bundan başqa Mərkəzi Asiya dövlətlərində saray adam-

larının, hökmdarlarının sifarişi ilə müxtəlif tarix əsərləri qələmə alınırdı. Əsərlər daha çox dövrün siyasi hadisələrini göstərir, eyni zamanda dövrün mədəni ənənələrini, yazı üslubunu, sarayların, hökmdarların yaşayışını özündə əks etdirirdilər. Bəzi əsərlərdə tarixi hadisələrin rasional cəhətdən izahına da çalışırdılar. Belə əsərlərin bariz nümunəsi "Übeydullaxannamə" əsəridir.

Mərkəzi Asiyada tibb elmi də inkişaf edirdi. Belə ki, Buxara əmiri Sübhanqulu xan XVII əsrin ikinci yarısında Buxarada böyük bir xəstəxana tikdirmiş, onu həkimlərlə və kitabxana ilə təchiz etmişdi. Sübhanqulu xanın özünün kitabxanası da Mərkəzi Asiyada zənginliyinə görə məşhur idi. Onun sarayında Turabi və Nəhli kimi filoloq-şairlər parıldayırdılar. Sübhanqulu xanın özü də Nişani təxəllüsü ilə şeirlər yazırdı. Müasirlərinin yazdıqlarına görə xan qismən tibb elmi ilə maraqlanmış, hətta tibb üzrə bir məlumat kitabı da yazmışdı.

Sübhanqulu xanın dövründə Məhəmməd Bədi əs - Səmərqəndinin 1692 - ci ildə 150 şairin həyatını və əsərlərini özündə cəmləşdirən böyük bir antologiyası nəşr edilmişdi.Bundan başqa Məhəmməd Bəlxinin 5min misradan ibarət "Sübhanqulunamə" əsəri, Mir Məhəmməd Əmin Buxarinin "Sübhanqulu xanın tarixi" əsərləri işıq üzü gördü.

Mədəniyyətin inkişafı təkcə Sübhanqulu xanın dövrü ilə məhdudlaşmırdı. "Buxara şairlərinin şahı" adlandırılan Seyid Nəsəfi, Səmərqəndli Qasım Xoca, Buxara mədrəsəsinin müəllimi Molla Sərəfraz və başqalarının adlarını çəkmək olar. Bunların içərisində Seyid Nəsəfinin

adını xüsusilə çəkmək lazımdır Onun əsərlərində tarixi hadisələr, əhalinin düşüncələri, həmçinin Buxara əmirliyinin əlaqədə olduğu dövlətlərin tarixi haqqında mühüm məlumatlar vardır.

Həmçinin, Özbək şairlərindən Turdının ədəbi - siyasi fəaliyyətini də qeyd etmək yerinə düşərdi. Onun əsərləri sadə dildə qələmə alınmışdı. Bu əsərlər xalqı zülmkarlara qarşı mübarizəyə səsləyirdi. Turdı uzun müddət Sübhanqulu xanın hakimiyyətinə qarşı mübarizə aparmışdı.

Mərkəzi Asiyada təsəvvüf mövzusunda şeir yazan şairlər də çox idi. Bunlardan daha çox Sufi Allahyarın adını çəkmək olar. Onun əsərlərində tövhid, insanın Allah qarşısında missiyası, mömin insanın simaları və başqa təsəvvüf məsələləri yer alırdı. Sufi Allahyar xalq arasından çıxmasına baxmayaraq sarayda bəzi vəzifələr də tutmuşdu.

Mərkəzi Asiyada memarlıq da yüksək inkişaf etmişdi. Buna misal olaraq, XVII əsrdə Səmərqənddə əmir Yalaqantuş bəy tərəfindən tikilən Şirdor mədrəsəsi buna sübutdur. Mədrəsəyə bu adı buranın bəzədilməsində işlənən mozaikaya görə vermişdilər. Bundan başqa Səmərqənddə Tillə qari mədrəsəsi, böyük Namazqah da tikilmişdi. Bunlardan Tillə qari mədrəsəsi həm də məscid rolunu oynamışdı. Mərkəzi Asiyanın memarlıq abidələrindən Buxara əmiri İmamqulu xan tərəfindən məşhur sufi alimi Xoca Əxrarın qəbrinin üzərində tikilən mədrəsə diqqəti cəlb edir.

Bundan başqa XVII - XVIII əsrlərdə Mərkəzi Asiyada kalliqrafiya və miniatür sənəti də inkişaf edirdi. XVII əsrin kalliqrafları içərisində Xoca Yadiqarın adını çəkmək lazımdır. Bundan başqa Teymurun qələbələrinə həsr edilmiş "Zəfərnamə" əsəri üzərində miniatürlər də incəsənətin inkişafının bariz nümunəsidir.

Mərkəzi Asiyada qazax xalqında da XVII – XVIII əsrlərdə mədəniyyət yüksək inkişaf etmişdi. Göstərilən dövrdə qazaxlar arasında aşıq yaradıcılığının bir növü olan jırau janrı da inkişaf etmişdi. Jırau xanların hərbi səfərlərində iştirak edən hərbçilər tərəfindən yazılır və hərbi qələbələrin nəğmələrlə müşayiət olunan dastanı idi. XVII - XVIII əsrlərdə bu ədəbiyyatın ən görkəmli nümayəndələri Marqaska jıraunvə Jiembet Bortoqaşoğlu idilər. Marqaska jıraunun böyük əsəri "Esim" poeması idi. Əsər qəhrəmanlıq dastanı olub epos janrında qələmə alınmışdı.

Jırau yaradıcılığında XVIII əsrin məşhur aşığı Kojaberqen Talıbaylının öz yeri vardır. O, qazaxların cunqarlara qarşı mübarizə himni olan "Elıy Ay" ın müəllifi idi. 1688 - ci ildə 26 yaşında o, cunqarlara qarşı olan qazax qoşununa rəhbərlik edir. Tezliklə birləşmiş Qazax dövlətinin yaranmasında ideoloqa çevrilir. Onun "Baba mii" poeması da məhz bu ideyanın təbliğinə, qazax xalqının tarixinin, dilinin təbliğinə yönəlmişdi.

Jırau yaradıcılığı sahəsində ən tanınmış şəxslərdən biri də Buxar Kalkamışlı idi. O, Tauke xanın dövründə xalq arasında çox populyar idi. O, sonradan Abılay xanın

məsləhətçisiolur. Qazax xanlığının siyasi cəhətdən birləşdirilməsində ideoloqu kimi çıxış edir.

XIX əsrin əvvəlinə doğru jırau yaradıcılığı öz yerinitədricən akın yaradıcılığına verir. Bu janrın ən böyük nümayəndəsi hələ on yaşından xalq arasında Şal Akın (qoca müdrik) adını almış Tşevke Kulekulı idi. XVIII - XIX əsrlərdə indiki Şimali Qazaxıstan ərazisində anadan olan bu şair əsərlərində qazax xalqının müdrik sözlərini, adətlərini, ənənələrini, vətənpərvərlik hisslərini tərənnüm edirdi. Akın janrının başqa bir nümayəndəsi də Kvkeş idi. Bayanaulda anadan olan bu şair öz fəlsəfi şeirləri ilə bütün Qazax boylarında məşhur idi. Akın yaradıcılığının başqa bir nümayəndəsi də Tatikar idi. Onun yaradıcılığı başlıca olaraq cunqarlara qarşı mübarizə aparan qazax gənclərinin mübarizə qüdrətini vəsf etmək idi.

Qazaxlarda yazılı ədəbiyyat da yüksək inkişaf etmişdi. Dini - fəlsəfi əsərlərdən ən çox yayılanları "Sufi Allahyar", "Qisas ül - ənbiya", "Badiam" və b. idi.Yazılı ədəbiyyatın bir növü də tarixi əsərlər idi. Tarixi əsərlər həm nəsrlə, həm də nəzmlə qələmə alınırdı. Məhəmməd Heydar tərəfindən qələmə alınmış "Tarixi Rəşidi" və "Cahannamə" əsərləri tarixi mövzularda yazılmış əsərlərin içərisində ən mükəmməli idi. XVI əsrin sonları və XVII əsrin I yarısında yaşamış və Rusiyada əsirlikdə olmuş Kadirqali Qasımoğlunun "Cami ət - təvarix" əsəri də həm tarixşünaslıq, həm də ədəbi səlnamə nümunəsi kimi qəbul olunur.

XVIII əsrin sonlarında Qazax xanlığı Rusiya tərəfindən işğal edildikdən sonra onun mədəniyyətinin inki-

şafında da mühüm yeniliklər baş verdi. Birinci yenilik rus mədəniyyətinin, təhsilinin tədricən Qazaxıstan ərazilərinə nüfuz etməsi idi. İkincisi, yerli mədəniyyətin təsiri altına düşməsi idi.

XVIII əsrdə qazax juzları ilə sərhəd rayonlarda "qarnizon məktəbləri" fəaliyyət göstərməyə başladı. 1789 - cu ildə Omskda yerli inzibati idarə üçün mirzələr və tərcüməçilər hazırlayan Asiya adlı məktəb yaradıldı. 1813 - cü ildə burada hərbi məktəb açıldı. 1847 - ci ildə bu məktəb Sibir kadet məktəbinə çevrildi. 1825 - ci ildə də Orendurqda hərbi məktəb açıldı ki, sonradan o da kadet məktəbinə çevrildi. Bu məktəblərdə ruslarla birlikdə qazax əyanlarının uşaqları da təhsil alırdılar.

1841 - ci ildə Xanın iqamətgahı yanında xüsusi məktəb yaradıldı ki, onlarda da adətən varlı ailələrin övladları təhsil alırdılar. 1850- ci ildə Orenburq sərhəd komissiyası nəzdində yeddiillik məktəb açıldı ki, həmin məktəbdə rus və tatar dilləri, dini elmlər, hesab, coğrafiya, eyni zamanda tatar və rus dillərində kargüzarlıq işləri aparmaq öyrədilirdi. Qazax xalqı arasından ilk böyük alimlər və mütəfəkkirlər də yetişməyə başladı ki, bunlardan da biri Şokan (1835 - 1865) (Məhəmməd - Hənəfiyyə) Vəlixanov idi. O, rus ekspedisiyalarının tərkibində Cənubi Qazaxıstan və Qırğızıstanda, müstəqil şəkildə Mərkəzi Qazaxıstan, Tarbaqatay rayonu, Yeddisuda mühüm etnoqrafiq, coğrafi və tarixi tədqiqatlar aparmışdı. O, ilk dəfə "Manas" dastanını qırğız dilində nəşr etdirmişdi. 1857 - ci ildə isə Ş. Ş. Vəlixanov Rusiya coğrafiya cəmiyyətinin həqiqi üzvü seçilmişdi. Onun redaktəsi altında

“Alatau dağları və Balxaş gölü arasında olan çöllərin xəritəsi”, “İssık - kul gölünə olan ekspedisiyanın hesabatının xəritəsi”, “Çinin qərb ucqarlarının yol xəritəsi” və başqa vəsaitlər tərtib edilmişdi.

XIX əsrdə Qazax ədəbiyyatı da yenidən dirçəlməyə başlamışdı. Ədəbi əsərlərdə başlıca mövzu Rusiya işğalına, qazax xanlarının istismarına qarşı mübarizə, Qazax dövlətinin yenidən dirçəlməsi, vahid dövlətdə birləşməsi və başqa mövzular idi. Qazax ədəbiyyatının böyük nümayəndələrindən biri ömrü boyu Rusiya ağalığına qarşı mübarizə aparmış, aşıq Mohembet Otemşulu idi. Onun nəğmələrində başlıca yeri qazax xalqının milli - azadlıq mübarizəsi, onun qəhrəmanlarının fəaliyyəti tuturdu.

XVIII - XIX əsrlərdə Mərkəzi Asiyanın başqa dövlətlərində - Buxara əmirliyi, Xivə xanlıqlarında başlıca təhsil forması yenə də məktəblər, mollaxanalar və mədrəsələr olaraq qalırdı. Qadınların təhsili adətən evlərdə icra olunurdu. Daha çox Quran oxumaq, yazmağı öyrənməkdən ibarət olurdu. Adətən ali təhsil funksiyasını yerinə yetirən mədrəsələrdə isə təhsil ilahiyyat, sərf - nəhv (ərəb dilinin qrammatikası), ritorika, riyaziyyat, mineralogiya, qədim müəlliflərin əsərlərinin öyrənilməsi, filologiya və tarix fənlərindən ibarət olurdu. Adətən belə məktəblər və mədrəsələr ya şəhərin baş məscidinin, ya ruhani idarəsinin nəzdində, ya da xanların himayəsi altında fəaliyyət göstərirdilər.

XVIII – XIX əsrlərdə Buxara və Xivə xanlıqlarında ədəbiyyat da tənəzzül dövrünün keçirirdi. Adətən xanla-

rın, əmirlərin himayəsi altında fəaliyyət göstərən şairlər əsərlərində onları mədh edir, yaxud sevgidən, insani hisslərdən söhbət açırdılar. Bütün bunlardan başqa şairlər özlərindən əvvəlki sənsənətkarların əsərlərini toplamaq, yaxud da onlara nəzirələr yazmaqla məşğul olurdular.

Buxarada Əmir Heydərin şəxsi katibi Mirzə Sadiq Münşi 15 mindən çox şeiri özündə cəmləşdirən "Divanın" müəllifi olmaqla bərabər, nəzmlə "Manqıt hökmdarlarının tarixi", "Yusif peyğəmbərin həyatı" nı qələmə almışdı. Xivədə II Məhəmməd Hakim xanın dövründə "Firuzun dövründə yaşamış 30 şairlər şairinin" əsəri adlı böyük bir antologiya tərtib edilmişdi. Toplu II Məhəmməd Hakim xanın sarayında işləyən həkim və şair Əhməd Təbib tərəfindən qələmə alınmışdı. Şair və tarixçi olan Şir Məhəmməd Munis XIX əsrin birinci rübündə Xivə xanlarının tarixi əsərini qələmə almış, onun ölümündən sonra əsərini Allahqulu xanın əmri iləqardaşı oğlu Məhəmməd rza Agahi davam etdirib, sona çatdırmışdı. Allahqulu xanın dövründə bir çox tairxçilərin, o cümlədən, Mirxondun və Xondəmirin əsərləri özbək dilinə tərcümə edilmişdi. II Məhəmməd Rahim xanın dövründə isə Məsudi başda olmaqla bir sıra ərəb tarixçilərinin əsərləri özbək dilinə tərcümə edilmişdi. Tərcümə fəaliyyətinin genişlənməsinin səbəbi, XIX əsrin əvvəllərindən başlayaraq sarayda ədəbiyyat və elmdə özbək dilinin geniş yayılmağa başlaması idi.

Kokand xanlığı ərazisində də ədəbiyyat xeyli inkişaf etmişdi. Belə ki, Ömər xanın dövründə saray şairləri Fəzli və Məşrəf Kokand şairlərinin əsərlərinin antologi-

yası olan "Məcmuəti - şüəra" toplusunu tərtib etmişdilər. Toplu Mərkəzi Asiyada ən çox oxunan əsərlərdən biri idi. Ömər xan və yaxınları öz vaxtlarını saray şairlərinin içərisində keçirməyi sevirdilər. Kokand şairləri əsərlərində mövzu məhdudiyyətlərinə baxmayaraq, söz ustadlığında çox məşhur idilər. Kokand xanları sarayında şairlər arasında yarışlar da keçirilirdi. Ən çox yayılan yarışma verilən rədifə, yaxud qafiyəyə uyğun deyişmələr idi. Şairlərdən biri həmin qafiyəyə bir şeir deyir, başqa bir şair də ona cavab verirdi. Xanların hakimiyyətinə qarşı çıxan istənilən şair o dəqiqə təqiblərə məruz qalırdı. Belə ki, Kokand şairlərindən olan Heratlı şair Həzi Nəsrulla xanın təqibindən Buxaraya qaçmış, lakin onu tənqid etdiyinə görə oradan da Şəhrisəbzə keçmişdi. Şair orada xanın göndərdiyi qatil tərəfindən öldürülmüşdü. Xalqa sevgisi olan şair Mücrim də Kokanddan Buxaraya qaçmağa məcbur olmuş, lakin Buxara əmiri tərəfindən də təqiblərə məruz qalmışdı. Xanlar saray şairləri vasitəsilə də xalqın dərdindən yazan şairləri "ifşa" etməyə çalışırdılar. Məsələn, kəndlilərin ağır vəziyyətini öz şeirlərində açıb göstərən şair Mahmudi saray şairi Fəzlinin hücumlarına məruz qalırdı. Fəzli xalq arasında çox məşhur olan özbək şairi Gülxanini də öz əsərlərində həcv etməyə çalışırdı.

Mərkəzi Asiyada şəhər ədəbiyyatı da inkişaf edirdi. Şəhər ədəbiyyatı başlıca olaraq tərcümələrdən, eyni zamanda bəzi əsərlərin alleqorik bənzədilmələrindən ibarət idi. XIX əsrin ilk yarısında Şəhrisəbz şairi Hirami "Dörd dərviş" və "Tutinamə" əsərlərini özbək dilinə çevirmişdi. Şəhərlərin əhalisi arasında alleqorik romanlar

olan "Yusif və Əhməd", "Tahir və Zöhrə", "Baz oğlan" kimi əsərlər, eyni zamanda "Kor oğlu"dastanının nəsr formasında çeviriləri olan hekayələr yayılmışdı. Bundan başqa şəhər şairləri məşhur alleqorik fars hekayələrini toplayaraq "Bəxtiyarnamə" adı altında bir toplu formasında tərtib etmişdilər.

Mərkəzi Asiya xalqları arasında xalq teatrı da inkişaf etmişdi. Bunların arasında satirik istiqaməti ilə diqqəti çəkən kukla teatrları daha çox yayılmışdı. Bu teatrlarda xırda tamaşalar səhnəyə qoyulurdu. Tamaşalar daha çox tənqidi və satirik xarakter daşıyırdı. Daha çox gündəlik həyatda rast gəlinən obrazlar, hadisələr səhnələşdirilirdi.

XVIII-XIX əsrlərdə Mərkəzi Asiya xanlıqlarında memarlıq da inkişaf etmişdi. Xanlar və əmirlər öz paytaxtlarını bəzəmək və möhtəşəm etmək üçün əllərindən gələni edirdilər. Bu dövrdə Xarəzm ustaları bütün Mərkəzi Asiyada məşhur idilər. Onlar tərəfindən çoxlu məscidlər, mədrəsələr, hamamlar, bazarlar, saraylar, malikanələr tikilmişdi. Bunlardan bəziləri doğrudan da möhtəşəmliyi ilə adamı heyrətləndirirdi. Belə memarlıq əsərlərinə misal olaraq,Xazarasp da Raxmankulu-inakın sarayını, İltuzar xanın malikanəsini (XIX əsrin əvvəli), Allahqulu xanın Daşhavlusunu (1832) göstərmək olar. Bu sarayların divarları, günbəzləri o dövr Mərkəzi Asiya memarlığına xarakterik olan rəngarəng kaşılarla bəzədilmiş, eyni zamanda sütunlar, daxili divarlar isə oyma və şəbəkələrlə işlənmişdi. Xivədə Allahqulu xan və Məhəmməd Əmin xanın dövrlərində iki böyük mədrəsə də inşa edilmişdi. Sonradan isə Məhəmməd Əmin xan mədrəsəsinin

yanında Mərkəzi Asiyada ən böyük minarənin inşasına başlanmış, lakin bu da yarımçıq qalmışdı.

İctimai tikililər içərisində Allahqulu xanın dövründə inşa edilən böyük karvansara və bazar (1835), I Məhəmməd Rahim xan (1806) tərəfindən inşa edilən Pəlvan darvaza möhtəşəmliyi ilə fərqlənirdi.

Kokand xanlığında XVIII –XIX əsrlərdə tikinti sənəti inkişaf etməkdə davam edirdi. Lakin Buxara və Səmərqənddən fərqli olaraq Kokand memarlığında başqa ölkələrdən alınma üslubların təsiri hiss olunurdu. Xüsusilə də, kaşılarda, oymalarda, işləmələrdə olan rəng fərqlilikləri, həmçinin, Kokandda Xudayar xanın sarayı xüsusilə diqqəti cəlb edirdi.

# NƏTİCƏ

Dərs vəsaitində Türk xalqlarının XVII əsrdən başlayaraq XIX əsrin əvvəllərinə qədər tarixi əhatə edilmişdir. Vəsaitdə türk xalqlarının tarixinin dövrləşdirilməsi məsələləri, ayrı - ayrı xalqların tarixinin aktual məsələləri, tarixşünaslıq problemləri, Rusiya və Çin dövlətlərinin türk xalqlarına qarşı apardıqları müstəmləkə siyasəti şərh edilmişdir.

Dərs vəsaitdə başqırdlar, Şimali Qafqazın türk xalqları, Mərkəzi Asiyaın türk xalqları, Çində yaşayan türklərlə birgə Kalmık xanlığı haqqında da materiallar yer almışdır. Bu da türk xalqlarının tarixinin etnogenez proseslərinin öyrənilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Belə ki, müasir dövrdə kalmıklar monqol dilli xalq kimi identifikasiya edilsələr də Rusiya tədqiqatçılarının türk xalqları tarixinə dair olan mənbələrdə, eləcə də müasir tarixşünaslıqda onların etnik mənşəyi yenə də müzakirə mövzusu olaraq qalır. Bunun da səbəbi Kalmık xalqının mənşəyində başlıca rol oynayan Oyrat boylarının tarix səhnəsinə bir türk etnik qrupu olaraq qədim Uyğur xaqanlığının tərkib hissəsi kimi çıxmalarıdır. Bundan sonra yaşadıqları coğrafi məkanın və etnik şəraitin təsiri altında həmin tayfalar sürətlə monqollaşma prosesinə məruz qalmış, bir çox tayfalar monqollaşmış, bəzi tayfalar isə (sart kalmaklar, minqlər və başqaları – müəllif) öz türk kimliklərini qoruyub saxlaya bilmişdilər. Maraqlıdır ki, XVII əsrin ortalarında bu tayfalar Kalmık xanlığının meydana gəlməsində də mühüm rol oynadılar. Kalmıkla-

rın dərs vəsaitinə daxil edilməsinin bir başqa səbəbi də bu tayfanın Azərbaycanda bəzi dövlətlərin meydana gəlməsində mühüm rola malik olmasıdır. Buna misal olaraq Hülakülər dövləti, Şəki feodal əmirliyi (buranı oyrat sülaləsi idarə edirdi – müəllif), Şəki xanlığını misal göstərmək olar. Bu gün də Şəki ərazisində yerli türklərə "muğal" deyilməsi, bundan başqa Azərbaycanda "uyrat" adlı kəndlərin olması, Dərbənd şəhərinin adının etimologiyasının da Dərbən - oyrat tayfalarının adına yaxın olması, kalmıkların tarixinin yeni dövr Türk xalqları tarixi çərçivəsində öyrənilməsini aktuallaşdırır.

Dərs vəsaitində yeniliklərdən biri də başqırdların tarixi ilə qalan Sibirin türk xalqlarının tarixinin fərqləndirilməsidir. Bunun da səbəbi etnoloji, eyni zamanda tarixi coğrafi baxımdan başqırdların Sibirin başqa türk xalqlarından tam fərqli bir inkişaf yolunu keçmələridir.

Ümumilikdə götürdükdə isə dərs vəsaiti XVII - XIX əsrin əvvəllərinə qədər Türk xalqlarının tarixini tam əhatə edir, nəşr edilən digər dərs vəsaitlərindən fərqli olaraq mövcud vəsaitdə yeni mövzular öz əksini tapmışdır.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Абаев М.К. Балкария: Исторический очерк. Нальчик,1992.
2. Абдакимов А. История Казахстана (с древнейших времен до наших дней) Алматы ,1994.
3. Абдразаков Т. А Экономические последствия присоединения Казахстана к России. Караганда, 1992.
4. Абдуллин Х.М. Воинская служба крымских татар в Российской Империи // Военно– исторический журнал, 2007, №1.
5. Авляев Г. О.Происхождение калмыцкого народа. Элиста, 2002.
6. Айда А. Садри Максуди Арсал. Москва, 1996.
7. АкмановИ.Г, ГвоздиковаИ.М., Трепавлов. В.В. История башкирского народа. В 9 томах. Т III, IV.Уфа, 2011.
8. Акманов А.И. Земельные отношения в Башкортостане и башкирское землевладение во второй половине XVI - начале XX в. Уфа, 2007.
9. Акманов И.Г. Башкирские восстания XVII - первой трети XVIII в. Уфа, 1978.
10. Алафаев А.А., Тетуев А.И. Россия на Северном Кавказе в XVIII - начале XXI в. // Преподавание истории в школе, 2007, № 3.
11. Алексеев В.В., Гаврилов Д.В. Металлургия Урала с древнейших времен до наших дней. Москва, 2008.

12. Алишев С.Х. Татары Среднего Поволжья в Пугачевском восстании. Казань, 1973.
13. Амантыев. О. Туркменистан и туркмены в первой половине XVIII века (по данным сочинения Мухаммед Казима «намей-алам арай Надери). Ашхабад, 1980
14. Андрущенко А.И. Крестьянская война 1773-1775 гг. на Яике, в Приуралье, на Урале и в Сибири. Москва, 1969.
15. Аполлова Н.Г. Экономические и политические связи Казахстана с Россией в XVIII - начале XIX в. Москва, 1960.
16. Артамонов В.А. Переговоры о переходе Крымского ханства в русское подданство при Петре Великом // Славяне и их соседи. Вып. 10. Славяне и кочевой мир. К 75-летию академика Г. Г. Литаврина. Москва, 2001
17. Асфандияров А. З. Башкирские источники XVI-XIX в. о добровольном присоединении края к Русскому государству // Историческое значение добровольного присоединения Башкирии к Русскому государству. Уфа, 1982.
18. Асфандияров А. З. Башкирия после вхождения в состав России (вторая половина XVI - первая половина XIX в.). Уфа, 2006.
19. Бакаева Э. П. Калмыки –цаатаны: проблемы происхождения этнической группы и этимологии этнонима. Вестник Калмыцкого института гуманитарных исследований , РАН №2, 2011.

20. Бакаева Э. П., Жуковская Н. А. Калмыки . Москва, 2010.
21. Баразбиев М.И. Этнокультурные связи балкарцев и карачаевцев в XVIII -начале XX века. Нальчик, 2000.
22. Басхаев А. Н., Дякиева Р.Б. История Калмыкии и калмыкского народа с древнейщих времен до начала XIX века. Элиста, 2009.
23. Батмаев М.М. Калмыки в XVII-XVIII в.в ( События, люди, быт). Элиста, 1993.
24. Бахрушин С. В. Исторические судьбы Якутии.Ленинград ,1927.
25. Беликов Т.И. Калмыки в борьбе за независимость нашей Родины. Элиста, 1965.
26. Белых С.К. История народов Волго-Уральского региона. Ижевск, 2006
27. Беннигсен А. Народное движение на Кавказе в XVIII веке. Махачкала,1994.
28. Бикбулатов Н.В. Башкиры. Краткий этноисторический справочник. Уфа, 1995.
29. Буканова Р.Г. Русско-башкирско- калмыцкие отношения в первой половине XVII века // Социально-политические и этнодемографические процессы на Южном Урале. XVII-XX в. Уфа, 1993.
30. Буканова Р.Г. Города-крепости юго- востока России в XVIII веке. История становления городов на территории Башкирии. Уфа, 1997.
31. БутанаевВ. Я.Очерки истории Хакасии (с древнейших времен до современности). Абакан, 2008.

32. Бутков П.Г. Сведения о Кубинском и Дербентском владениях. 1798 //
ИГЭД. Москва, 1958.
33. ВайнштейнС.И.История Тувы. В. 2 т, Т. I, Новосибирск, 2001.
34. Валеев Д.Ж. История башкирской философии и общественно-политической мысли. Уфа, 2002.
35. Возгрин А. Е. История крымских татар.В 4 - х томах, том 3, Симферополь 2013.
36. Гаджиев В.Г. Шамхальство (история образования и управления) // Государства и государственные учреждения в дореволюционном Дагестане. Махачкала, 1989.
37. Гаджиев В.Г. Роль России в истории Дагестана. Москва, 1965.
38. Газиз Г. История татар / Пер. с тат. – Москва, 1994.
39. Гилязов И.А. Политика царизма по отношению к татарам Среднего Поволжья во 2-ой пол.XVI – XVIII вв.// Материалы по истории татарского народа. Казань, 1995.
40. Гоголев А.И. Этническая история народов Якутии (до начала XX в.). Якутск, 2004.
41. Гугов Р.Г. Кабарда и Балкария в XVIII в. и их взаимоотношения с Россией.Нальчик, 1999.
42. Qurbanov R.Türk xalqları tarixi.Bakı, 2011.
43. Димитриев В.Д. История Чувашии XVIII века. Чебоксары, 1959.
44. Дубровская Д В. Судьба Синьцзяна. (Обретение Китаем "Новой границы" в конце XIX в.) Москва, 2003.

45. Дружинина Е.И. Кючук-Кайнарджийский мир 1774 года (его подготовка и заключение). Москва, 1955.
46. Дьяконова В.П. Алтайцы. (материалы по этнографии теленгитов Горного Алтая)Москва, 2001.
47. Ерофеева И.В. Родословные казахских ханов и кожа XVIII– XIX вв. (история, историография, источники). Алматы, 2003.
48. Əhmədov R. Türk xalqları tarixi. Sumqayıt, 2013.
49. Загидуллин И. К. Исламские институты в Российской империи.
Мусульманская община в Санкт–Петербурге XVIII - начала XX века. – Казань, 2003.
50. Зайцев И. В. Крымская историографическая традиция XV–XIX вв. : пути развития : рукописи, тексты и источники. Москва, 2009.
51. Иванов П. П. Очерки по истории Средней Азии Москва (XVI в. - середина XIX в). Москва, 1958.
52. Идрисов Ю. М. Очерки истории северных кумыков. Махачкала, 2014.
53. Идрисов Ю.М., Абдусаламов М.П.Кумыкские феодальные владения в контексте развития и краха теократического проекта имама Мансура в 1785-1786 годах // Вестник Адыгейского государственного университета. Вып. 4 (108). Майкоп, 2012.
54. История казачества Урала. Учебное пособие. Оренбург - Челябинск, 1992.
55. ИскандаровБ. И.Из Истории Бухарского Эмирата (Восточная Бухара изападный Памир в конце XIX века). Москва, 1958.

56. История народов Северного Кавказа с древнейших времен до конца XVIII в. Москва, 1988.
57. История Дагестана.Т. I, Москва, 1967.
58. История народов Узбекистана. Том 2, Ташкент, 1947.
59. История народов Узбекистана. Том 2,.Ташкент, 1993.
60. История Калмыкии с древнейших времён до наших дней. Том 1, Элиста, 2009.
61. История Казахской ССР. В 5 томах, Том 2, 3, Алмата, 1979.
62. История Казахстана с древнейших времен до наших дней.В 5-ти томах, Т. III, Алма-Ата, 2001.
63. История казачества Урала. Учебное пособие. Оренбург - Челябинск, 1992.
64. История Крыма. Москва, 2015.
65. История татар с древнейших времен. Тома IV, V, VI, Казань, 2014-2015
66. История Татарской АССР (с древнейших времен до наших дней). Казань, 1968.
67. История Татарской АССР(С древнейших времен до Великой Октябрьской социалистической революции). Т. 1, Казань, 1955.
68. История татар Западного Приуралья. Том I. Кочевники Великой степи в Приуралье. Татарские средневековые государства. Коллективная монография. Казань, 2016.
69. Исхаков Р.Р. Миссионерская деятельность Русской православной церкви в отношении мусульман Среднего Поволжья в XIX – начале XX вв. (1800–1917 гг.). // дисс… к.и.н. – Казань, 2008.

70. История Урала. 2-е изд. В 2-х томах, Т. I., Пермь, 1963.
71. Кадырбаев А.Ш. Ходжаган - теократические вожди Восточного Туркестана от эпохи Мин до Цин. Москва, 1991.
72. Калмыков И.Х., Керейтов Р.Х., Сикалиев А.И. Ногайцы. Черкесск, 1988.
73. Кан. Г. В. История Казахстана (учебник для вузов). Алматы, 2011.
74. Коптев А.В. История Алтайского края XVIII-XIX веков. Учебник для вузов. Барнаул, 2017.
75. Кримуллин А.Г. Татарская книга пореформенной России. Казань, 1983.
76. Кидирниязов Д.С.Народы Северного Кавказа во взаимоотношениях России с Турцией во второй половине 70-90-х гг.XVIII в. ВЕСТНИК ИНСТИТУТА ИАЭ, 2017, № 3.
77. Кидирниязов Д.С., Мусаурова З.К. Очерки истории ногайцев XV – XVIII вв. Махачкала, 2003.
78. Кипкеева З.Б. Северный Кавказ в Российской империи: народы, миграции, территории. Ставрополь, 2008.
79. Кызласов И. Л. Хакасы. Основатели хакасоведения о важнейших вехах истории. К 100-летию возрождения народного имени.Москва, 2017.
80. Кузеев Р.Г. Народы Среднего Поволжья и Южного Урала. Этногенетический взгляд на историю. Москва, 1992.

81. Кузнецов В.С. Политика империи Цин в отношении уйгурских и киргизских владений. (вт. Пол. XVIII - перв. пол. XIX в.) - в сб.: XIII,. Ч.3, Москва, 1988.
82. Крымское ханство под верховентством Османской порты до начала XVIII века. Санкт –Петербург, 1889.
83. Кузембайлы. История Казахстана. Костанай, 2006.
84. Лапинский Т. Горцы Кавказа и их освободительная борьба против русских. Нальчик, 1995.
85. Магомедов Р.М. Общественно-экономический и политический строй Дагестана в XVIII – начале XIX века. Махачкала, 1957.
86. Миллер Г.Ф. История Сибири. Т. I., Москва - Ленинград, 1937.
87. Миллер Г.Ф. История Сибири. Т. II., Москва – Ленинград, 1941.
88. МиннегуловХ.Ю. Татарская литература позднего средневековья. Золотоордынское обозрение, №1, 2015.
89. Муртазаев А.О. Кайтаг в VIII – первой половине XIX в. (Исследование политической истории и роли в системе политических структур Северо-Восточного Кавказа. Махачкала, 2015.
90. Нигамедзинов Ф.Ф. Заметки о казанском татарском купечестве XIX – XX столетий// Поволжье в системе всероссийского рынка: история и современность. Материалы научной конференции. Чебоксары, 1999.
91. Ногманов А.И. Татары Среднего Поволжья и Приуралья в Российском законодательстве второй половины XVI – XVIII вв. Казань, 2002.

92. Османов О. Д. История Киргизистана с древнейших времен до наших дней. Бишкек, 2010.
93. Очерки по истории государственности Узбекистана. Том 1, Ташкент, 2001.
94. Очиров. У.Б. Тюркоязычные этнические группы в составе Калмыцкого ханства (XVII-XVIII). Вестник Калмыцкого института гуманитарных иссле дований РАН, №3, 2011.
95. Пишулина К. А. Очерки истории Казахского ханства. Алматы, 2016.
96. Попов Г. А. Национальное движение якутов до февральской революции 1917 г.Статьи / [сост.: к.и.н. Е. П. Антонов, к.и.н. Л. Н. Жукова (отв. ред.). Якутск, 2005.
97. Посланник Петра I на Востоке. Посольство Флорио Беневени в Персию и Бухару в 1718–1725 годах. Москва, 1986.
98. Потто В.А. Кавказская война. Москва, 2007.
100 .Ратушняк В.Н. Вхождение Северо-Западного Кавказа в состав России и его капиталистическое развитие. Краснодар, 1978.
101 .Росляков А. Краткий очерк истории Туркменистана (до присоединения России).Ашхабад, 1956.
102 .Русско-дагестанские отношения XVII – первой четверти XVIII в.: Документы и материалы / сост. Р.Г. Маршаев. Махачкала, 1958.
103 . Сабирова. Д.К, Шарапов Я.Ш. История Татарстана с древнейших времен до наших дней. Казань, 2014.

104 . Салихов Р.Р. Татарская буржуазия Казани и национальные реформы концаXIX – начала XX в. Казань, 2000.
105 . Саттарова З.М.Джадидисткая реформа образования И. ГаспринскогоВопросы крымскотатарской филологии, истории и культуры. Выпуск 1, 2015.
106 . Сенютин М. Военные действия донцов против ногайских татар в 1777 – 1783 годах // Черкесы и другие народы Северо-Западного Кавказа в период правления императрицы Екатерины II, 1781 – 1786 гг. Т. 3., Нальчик, 2000.
107 . Сибирь в составе Российской империи. Москва, 2007.
108 . Смирнов Н.А. Политика России на Кавказе в XVI – XIX вв. Москва, 1958.
109 . Смирнов В.И. Крымское ханство в XVIII веке. Москва, 2014.
110 .Соболев В.И. История Сибирских ханств (по археологическим материалам). Новосибирск , 2008.
111 . Соловьев С. М. Социально-экономическое и политическое положение крестьянства в Калмыкии в дореволюционный период. Элиста, 1989.
112 . Султанов Т.И.Поднятые на белом кошме. Ханы казахских степей Астана, 2006.
113 . Тагиров И.Р. История национальной государственности татарского народа и Татарстана. 2-е изд., Казань, 2008.
114 . Трепавлов В.В. История Ногайской орды. Москва, 2002.

115 . Тихонов Д.И. Описание Северного Дагестана. 1796 г. // ИГЭД. Москва, 1958.
116 . Тучков А. Г. История и культура народов Сибири. Учебное пособие . Томск, 2015.
117 .Цюрюмов А. В. Политическая обстановка в Калмыцком ханстве во второй половине XVIII века / А. В. Цюрюмов // Проблемы всеобщей и отечественной историографии. Вып. 2, Элиста, 1997.
118 . Чирг А. Ю. Мухаммед-Амин на Северо-Западном Кавказе. Майкоп, 2013.
119 . Шишов А. В. Схватка за Кавказ (XVI – XXI вв.). Москва, 2007.
120 . Усманов А.Н. Добровольное присоединение Башкирии к Русскому государству. Уфа, 1982.
121 .Устюгов Н. В. Калмыки во второй половине XVII – начале XVIII в. / Н. В. Устюгов, М. Л. Кичиков, Т. И. Беликов // Очерки истории Калмыцкой АССР. Дооктябрьский период. Гл. IV, Москва, 1961.
122 . Фадеев А. В. Россия и Кавказ первой трети XIX в. Москва, 1960.
123 . Хабутдинов А.Ю. От общины к нации: татары на пути от средневековья к новому времени (конец XVIII – начало XX вв.). Казань, 2008.
124 . Хойт С. К. Этническая история ойратских групп. Элиста, 2015. Центральная Азия в составе Российской империи. Санкт Петербург, 2008.
125 .ХоткоС.Х Карачай-страна на вершине Кавказа:Очерки истории и культуры Карачая. Майкоп, 2011.

126 .Ходжаев А. Захват Цинским Китаем Джунгарии и Восточного Туркестана. Борьба против завоевателей // Китай и соседи в новое и новейшее время. Москва, 1982.

127 . Хузин Ф.Х., Гилязов И.А. История Татарстана (учебное пособие). Казань: 2001

128 . Хашаев Х.М. Общественный строй Дагестана в XIX веке. Москва, 1961.

129 . Ялбулганов А.А. Очерки военной истории ногайцев. Москва, 1998.

130 Mehdiyeva N. Türk xalqları tarixi. Bakı ,2003.

**Qazax xanlığı hökmdarlarının şəcərəsi və xronologiyası.**
**(J.M. Sabitovun "Cuçilərin şəcərəsi" monoqrafiyasına əsasən)**

***Hökmdarlarının şəcərəsi və xronologiyası:***

| *Qazax xanlığı* |
|---|
| *Gəray xan (1474-cü il) Tuğtəki oğlu Ənikə-Poladın oğlu, hakimiyyət dövrü (1465-1468-ci illər)* |
| *Canıbəy xan - Bərəkin oğlu (bax Batı ulusu), hakimiyyət dövrü (1468-1480-ci illər)* |
| *Burunduq xan -Gərayın oğlu, hakimiyyət dövrü (1480-1511-ci illər)* |
| *Qasım xan (1445-1518-ci illər) Canıbəy və Cahan-bəyimin oğlu, hakimiyyət dövrü (1511-1521-ci illər)* |
| *Mamaş xan -1522-ci il Qasımın oğlu, hakimiyyət dövrü (1521-1523-ci illər)* |
| *Tair xan -Ədiyin oğlu, hakimiyyət dövrü (1523-1533-ci illər)* |
| *Buidaş xan (1559-cu il) Ədikin oğlu, hakimiyyət dövrü (1533-1537-cu illər)* |
| *Togım xan (1537-ci il) Cadikin oğlu, hakimiyyət dövrü (1533-1538-ci illər)* |
| *Əhməd - Şəcərə məlum deyil, həmçinin Özbək adlandırırdılar.* |
| *Xoca Məhməd - Ədikin oğlu.* |
| *Haknəzər xan (1580-ci il) Qasım və Hahıq sultan-xanımın oğlu, hakimiyyət dövrü (1538-1580-ci illər)* |
| *Şuqay xan (1582-ci il) Cadik və Abəykan-bəyimin oğlu, hakimiyyət dövrü (1580-1582-ci illər)* |
| *Tekel xan (1598-ci il) Şuqay və Caqatdan olan Yaxşı-bəyimin oğlu, hakimiyyət dövrü (1582-1598-ci illər)* |
| *Böyük (Ulu) Juz (Türküstan, Sırdarya şəhərləri)* |
| *Canəli -Şuqay və Burunduq qızı Dadık-xanımın oğlu, 1588-cı il* |

| |
|---|
| *Tınım - Haknəzərin oğlu, 1600-1603-cü illər- Daşkənd.*<br>*Adsızlar-Baba-sultan oğlu Abdal Səttarın oğulları (bax Şeybanilər)* |
| *Gəldi-Məhəmməd - Şəcərə məlum deyil, 1603-1607-ci illər Daşkənd* |
| *Yalançı-Abdal-Qafar (1604) Saxtakar- 1603-1604-cü illər- Daşkənd* |
| *Şah-Səid - Dursun Məhəmmədin oğlu, 1607-1612- Daşkənd* |
| *İsgəndər (1613) İmamqulunun oğlu, 1613-cü il- Daşkənd* |
| *Dursun Məhəmməd (1627-ci il) Avaneş oğlu Din Məhəmmədin oğlu Bayandı Məhəmmədin oğlu Cəlim sultanın oğlu, 1613-1627-ci illər* |
| *İşim (1565-1628) Şuqay və Caqatdan olan Yaxşı-bəyimin oğlu, 1627-1628-ci illər- Daşkənd* |
| *Abdulay - Ondan oğlu. 1628-ci il- Daşkənd* |
| *Abdulla - Əştarxanidlər Canıbəyin oğlu, Baki- Məhəmmədin oğlu, 1628-ci il.* |
| *İmamqulu ( 1589- 1652) Əştarxanidlər Canıbəyin oğlu, Din-Məhəmmədin oğlu. 1628- 1642-ci illər.* |
| *Rüstəm ( 1712-ci il) İmamqulu oğlu. 1642-ci ildən Daşkənd və onun bölgə sahibi.* |
| *İsfəndiyar ( 1712-ci il) Rüstəm oğlu- 1712-ci il* |
| *Dursun I -1717ci il. Kuçuk-Sultan oğlu, Bakey oğlu, Hudayəməndə oğlu, 1712- 1717-ci illər.* |
| *Dursun II – 1720-ci il. Şuqay oğlu, Amən- Bulan oğlu, Batır oğlu, 1717- 1720-ci illər.* |
| *Urus - 1717—ci il.* |
| *Cahangir- Canqir xan oğlu, Vəli xan oğlu, Ablay qan icenin oğlu, 1717—ci il.* |
| *Yolbarıs ( 1690- 1739) , Dursun II-nin oğlu, 1720- 1739-ci illər.* |
| *Yubasar-1735- 1739-cu illər. 1744-cü ildə Daşkənddə Yolbarsla ortaq hökmranlıq etmişdir.* |

| |
|---|
| *Sonra Baş Jüzün Qazax soylarını idarə etdi. Yolbarısın ölumundən sonra , Toli bəy hökmranlığı, sonra Qaldan-Sərəni canişini hakimiyyəti ələ aldı: Küsək bəy, sonra Aybək. 1745 çi ildə Kokandlılar, Aybəyi qovaraq, Daşkəndi işğal etdilər. Qaldan-Sərən eyni ildə ölmüş. Bu vəziyyətdə, Cungarlara qarşı Kokandlara güvənən Toli-bey idarə edirdi. 1756-cı ildə Toli bey öldü və Böyük Yüz üzərində hakimiyyət Ablay Xanın əlinə keçməyə başladı.* |
| *Ablaynin ölümündən sonra Daşkənd 4 hissəyə bölündü: Babaxan töre (Babak Sultan) Oğul Yəsim - Sultan. 1781-1794-cü illərdə hakimiyyəti idarə edirdi. Əştərxanilər sülaləsi- 1781 - 1794 illər arasında hökm sürdü. Ablayın ölümündən sonra Rəcəb bəy Beşağda hökmranlığa başladı.* |
| *Məhəmməd İbrahim bəy sülaləsindən idi. 1781 - 1794 illər arasında hökmranlıq etdi. Ablay'ın ölümündən sonra Məhəmməd İbrahim bəy Kokçedə hakim olmağa başladı.* |
| *Karabaş -Batir oğlu, Aman-Bulan oğlu, Şiqay oğlu- 1780-ci ildə hakimiyyəti idarə edirdi. Ablayın ölümündən sonra Sibzarda hökmranlıq etdi.* |
| *Yunus hoca -1805-ci il. Şeyxantayerin nəslindəndir. 1794-1805-ci illərdə hökmranlıq etmişdir.1810-cu ilə qədər Yunus hocanın övladları idarə edirdilər.* |
| *1810-cu ildə Daşkənd Kokand xalqı tərəfindən fəth edildi.* |
| *Baş Juz (Türküstan, Sırdərya şəhərləri)* |
| *Seid (Semgali) Saməkə oğlu-1734 – 1745-ci illər arasında hakimiyyəti idarə etdi.* |
| *Şiqay Bərək oğlu (1726-1750-ci illər) . Fərqanədə 1748 - 1750 illər arasında hakimiyyətdə olmuşdur.* |
| *Əbulmambət -1743-1771-ci illər hakimiyyət dövrü olmuşdur.* |
| *Bolat XIX- əsrin əvvəlləri- Əbülmambətin oğlu. 1771 – 1798-ci illər arasında hökm sürmüşdür.* |
| *Yesim -Saməkə oğlu. 1750 - 1798 illər arasında hökm sürmüşdür.* |
| *Əbülfəz -Əbülmambətin oğlu. 1784 - 1798 –ci illər arasında hökm* |

| |
|---|
| *sürmüşdür.* |
| *Xan hoca -Əbülfəzin oğlu (qanuni), Bərəkənin bioloji atası. 1783 - 1799 –cu illər arasında hakimiyyətdə olmuşdur.1799-cu ildə Türküstan Daşkəndlilər tərəfindən tutulduqdan sonra hakimiyyətdən getmişdir.* |
| *İbrahim -1806-1809-cu illərdə Türküstanda hökm sürmüşdür .* |
| *Qasım - 1806-1809-cu illərdə Türküstanda hakimiyyətdə olmuşdur.* |
| *Tokay - Qarabas oğlu,-Seyid oğlu – 1826-cı ilədək Türküstanda hakimiyyəti idarə etmişdir.* |
| ***Orta Juz.*** |
| *İşim (1565-1628-ci illər).Cazgatlı- Şiqay və Yaxşım Bikim oğlu. 1598-1628-ci illərdə hökmranlıq etmişdir.* |
| *Canıbəy -İşimin oğlu. 1644-cü ilədək hökmranlıq etmişdir.* |
| *Cangir -İşimin oğlu idi – 1652-ci ilədək hökmranlıq etmişdir.* |
| *Batır -Bolekeikoyan -Üsək oğlu. 1652-1680-ci illərdə hökm sürmüşdür.* |
| *Tauke xan (1635-1715).Cangir ( qızı və ya nəvəsi) oğlu-Hundelen Ubaşı. 1680-1715-ci illərdə hökm sürmüşdür.* |
| *Qeib -Ksrau oğlu,-Sırdak oğlu, Kudaymende oğlu- İşim Xanın oğlu. 1710 - 1718 illər arasında hökm sürmüşdür.* |
| *Bolat -Tauke oğlu. 1715-1723-cü illərdə hökmranlıq etmişdir.* |
| *Sameke - Tauke oğlu. 1723-1737-ci illərdə hökmranlıq etmişdir.* |
| *Kuşik -Tursun oğlu I- 1718-1748-ci illərdə hökmranlıq etmişdir.* |
| *Bərək -Tursun oğlu I- 1749-1750-ci illərdə hakimiyyəti idarə etmişdir.* |
| *Əbulmambet -Bolat oğlu-1730 - 1771 arasında hökmranlıq etmişdir.* |
| *Ablay (1711-1781-ci illər). Korkem oğlu (Yaraşıqlı) Vali, Ablay Kənişərin oğlu (Qan tökən), Vəli oğlu, Cangir oğlu. 1735-1781-ci illərdə hökmranlıq etmişdir.* |

| |
|---|
| *Vəli Ablay və Sayman oğlu - xanım, Qaraqalpak bəy Sağəndək-Cüvəkbəy qızı. 1781-1821-ci illərdə hakimiyyəti idarə etmişdir.* |
| *Dair -Bərək oğlu. 1781 - 1786 illər arasında hökmranlıq etmişdir.* |
| *Cantörə -Cahangir oğlu, Qeib oğlu, Batır oğlu (bax Kiçik Juz). 1817 - 1822 arasında hökmranlıq etmişdir.* |
| *Bukey (1737-1819) Bərək oğlu. 1816-1819-cu illərdə hakimiyyəti idarə etmişdir.* |
| *Çingiz -Bokey oğlu. 1819 - 1822 arasında hökmranlıq etmişdir.* |
| *Qubaydulla (1850-ci ill) Vəlinin oğlu. 1822 - 1824 arasında hökmranlıq etmişdir.* |
| *Kenesari (1802-ci il) Ablay - Qasım oğlu. 1841-1847-ci illərdə hökmranlıq etmişdir.* |
| ***Kiçik Jüz.*** |
| *Əbülxəir (1680-1693 –cü illər) Kajı Sultan -İrişa oğlu, Ayşuak oğlu, Buləkəy-Koyan oğlu, Usek oğlu, Canıbəy oğlu. 1710(1718) – 1748 illər arasında hökmranlıq etmişlər.* |
| *Batır - Qeib oğlu. 1748 - 1771 arasında hökmranlıq etmişdir.* |
| *Nuralı (1710-1790) Əbülxair və Bopay oğlu. 1748-1786-cı illər arasında hökmranlıq etmişdir.* |
| *Pirəli - Nuralı oğlu. 1770-1805-ci illər arasında hakimiyyətdə olmuşdur.* |
| *Qeib - Batır oğlu ( Şirqazının qızıdan olan)1786 – 1791-ci illər arasında hakimiyyətdə olmuşdur.* |
| *Yeralı - Əbülxəir - Bopay oğlu. 1791 - 1794 illər arasında hakimiyyətdə olmuşdur.* |
| *Yesim- Nuralının oğlu -1795 - 1797 arasında akimiyyətdə olmuşdur.* |
| *Ayşuak (1723-1810) Əbülxəir - Bopay oğlu. 1797-1805-ci illərdə hakimiyyətdə olmuşdur.* |
| *Cantörə (1759-1809-cu illər) Ayşuak oğlu. 1805-1809-cu illərdə hakimiyyətdə olmuşdur.* |

| |
|---|
| ***Sergazi (1767 – 1845-ci illər) Ayşuak oğlu. 1812-1824–ci illərdə hakimiyyətdə olmuşdur.*** |
| ***Karatay (1746- 1826-ci illər) .Nurəlı (Kalmık qadınından olan) Rıssın oğlu .1797-1814-ci illər hakimiyyətdə olmuşdur.*** |
| ***Buləkəy - Yeralı Xanın oğlu. 1797-1809ci illər hakimiyyətdə olmuşdur.*** |
| ***Əbülqazi (Abdal-Əziz) - Qeib oğlu. 1797-1815-ci illərdə hakimiyyətdə olmuşdur.*** |
| ***Teymur -Yeralı Xanın oğlu. 1809-1824-cü illərdə hakimiyyətdə olmuşdur.*** |
| ***Qasım - Buləkəy oğlu.1809 – 1827-ci illərdə hökmranlıq etmişdir.*** |
| ***Ərinqazi - Əbülqazinın oğlu. 1816-1821-ci ilədək hakimiyyətdə olmuşdur.*** |
| ***Şirqazi - Qeib oğlu. 1819-cu ilədək hakimiyyətdə olması haqqında məlumat var.*** |
| ***Qeibqali (1789-1857-ci illər) Yesim və Karakuşik-xanımın oğlu. 1830-1850-ci illərdə hakimiyyətdə olmuşdur.*** |
| ***Saukım -Buləkəy oğlu. 1827-1844-ci illədək hakimiyyətdə olmuşdur..*** |
| ***Ərməhəmməd - Qasım oğlu 1845-1852 (Eləkəy Qasımov olaraq da bilinir) hakimiyyətdə olmuşdur..*** |

## Bukey Ordası

| |
|---|
| ***Bukey (1748-1815-ci illər) -Nurəlinin oğlu idi. 1812-1815 –ci ilədək hakimiyyətdə olmuşdur.*** |
| ***Şiqay ( 1751- 1825-ci illər) - Nurəlinin oğlu. 1815- 1824-cü ilədək səltənət naibi idi.*** |
| ***Cangir ( 1804-1845-ci illər)- Töre təbəqəsindən Bukəy və Atən xanımın oğlu. (Çingiz xanın nəslindən) 1824- 1845 –ci ilədək hakimiyyətdə olmuşdur.*** |
| ***Qeyd: Juzların sərhədləri qeyri-sabitidi. Belə ki 1600- ci illərdə Ulu juzün paytaxtı Daşkənd, Orta juzün paytaxtı isə Türküstan, zaman keçdikcə Türküstan və Sırdərya yaxınlığında olan şəhərlər tədricən Ulu juza aid oldular. Hər bir xan müəyyən bir tayfa üçün xan seçilirdi və başqa bir qəbilə də onu tanımırdı, bütün tarixlər şərtidir, həmçinin biz xanlara fəth olan qəbilələrin siyahısını vermirik, çünki o, tez-tez dəyişirdi. Həmin dövrdə “Ulu xanlar” anlayışının olmasına baxmayaraq, biz onların siyahısını, sadalamayacayıq.*** |

## XV-XIX-cu əsrlərdə Qazax xanlarının hakimiyyətinin xronoloji cədvəli.

| *Hakimiyyət İlləri* | *Əsas hadisələr* |
|---|---|
| ***1465-1466*** | *Əbülxeyir xanlığından Böyük Moğolistanın qərb hissəsinə Canıbəy və Gəray sultanlarının qəbilələrinin köçü.* |
| ***1466-1470*** | *Ağ Orda hakimiyyətinin varisi Gəray xanın təxmini hakimiyyət dövrü.* |
| ***1470-1480*** | *Uruz xanın nəslindən olan Canıbəy xanın hakimiyyəti. Sırdərya şəhərləri uğrunda mübarizə aparmışdır.* |
| ***1480-1510*** | *Gəray oğlu Burunduq xanın hakimiyyəti. Karataunun şimalında yerləşən Sırdəryanın Orta və Aşağı axarlarında olan şəhərlər uğrunda mübarizə aparmışdır.* |
| ***1511-1520*** | *Canıbəy oğlu Qasımın hakimiyyət illəri. Adi hüququn kodifikasiyası: "Kasım xanın kaska jolı" (Qasım xanın həqiqi qanunları). Sırdərya bölgəsinin bir hissəsi, Jetisu və Tyanşan yanı ərazilərin Qazax xanlığına birləşməsi. Qazax xanlığının çiçəklənmə dövrü və tabeliyində olan insanların sayının 1 milyona çatması.* |
| ***1521-1523*** | *Qasım xanın oğlu Mamaş xanın hakimiyyət illəri.* |
| ***1523-1533*** | *Qasım xanın əmisi oğlu Tahirxanın hakimiyyət illərində, Daşkəndlə hərbi münaqişə və Türküstan döyüşündə məğlubiyyət. Moğolistanla əlaqələrin kəsilməsi. Kalmık və monqol işğalçılarından Jetisu və İssık göl sahilinin müdafiəsi üçün Qırğızlarla ittifaq birliyinin olması.* |
| ***1533-1537*** | *Buydaş xanın hakimiyyət illəri. Müstəqillik uğrunda mübarizənin davamı.* |
| ***1538-1580*** | *Qasımın oğlu Haknəzərin hakimiyyət illəri. Özbək xanı II Abdullahla qarşılıqlı razılaşmanın imzalanması. Xanlıq ərazisinin genişlənməsi, qüdrətinin artması. Türküstanda rus səfiri Tretyak Çebukovla görüş.* |
| ***1580-1582*** | *Canıbəyin nəvəsi Şuqay xan Cadik oğlunun hakimiyyət illəri. Daşkənd hakimi sultan Baba qarşı Özbək-Buxara dövlətinin xanı Abdullahla bağlanmış ittifaq.* |

| | |
|---|---|
| ***1582-1598*** | *Şuqay xanın oğlu Tekel xanın hakimiyyət illəri. Cənubi Qazaxstan regionunun vahid dövlətin tərkibinə daxil olması, Qazax xanlığı sərhədlərinin möhkəmlənməsi. Moskva ilə diplomatik əlaqələrin yaranmasının başlanğıcı.* |
| ***1598-1628*** | *İşim xanın hakimiyyət illəri. Cunqarların hücum təhlükəsi qarşısında qırğız və moğol xanı Əbd əd-Rəhimlə ittifaqın qurulması. 1620-ci ildə kalmık ordusunun ağır məğlubiyəti. Daşkənd və Türküstanın Qazax xanlığına qaytarılması. Yeni qanun kodekslərinin hazırlanması (Yesim xanın eski yolu)* |
| ***1628-1652*** | *Qəhramanlığı, təmkini və siyasətçi bacarığı ilə seçilən İşim xanın oğlu Cahangir xanın hakimiyyət illəri. Cunqar xanlığı ilə müharibə, 1643-cü ildə Orbulaq döyüşündə qələbənin əldə edilməsi.* |
| ***1652-1680*** | *Qazax xanlığının siyasi tarixində sükut dövrü.* |
| ***1680-1715*** | *Cahangir xanın oğlu Təükə (Təvəkkül) xanın hakmiyyət illəri. Bəylər hakimiyətinin artması, sultan hakimiyətinin isə məhdudlaşdırılması. Cənubi Qazaxstan şəhərlərində təsirin güclənməsi. Rusiya və Buxara ilə diplomatik əlaqələrin qurulması. "Jeti Jarğı" qanun toplusunun yazılması. Oyratlarla münasibətlərin kəskin pisləşməsi, 1689-cu ildən hərbi əməliyatların başlanması.* |
| ***1715-1724*** | *Təükə xanın oğlu Bolat xanın Orta juzda hakimiyyət illəri. "Böyük Fəlakət illəri" – cunqarların hücumu və onlara qarşı qazaxların müharibəsi.* |
| ***1725-1748*** | *Kiçik juzun xanı Əbülxəir xanın hakimiyyət illəri. Cunqarlarla müharibə. Əbülxəir xanın bütün Qazax hissələri üzərində komandan seçilməsi. Anrakay döyüşündə cunqarlar üzərində qələbə. Təəbəlik və himayədarlıq üçün rus imperatriçəsi Anna İvannovaya müraciət.* |
| ***1748-1785*** | *Əbülxəir xanın oğlu Nuralı xanın hakimiyyət illəri. Çarizmin müstəmləkə yönümlü siyasətinin artması. Juzdə daxili siyasi vəziyyətin gərginləşməsi. Orta və Kiçik jüz qazax xanlarının Y.Puqaçovun kəndlilər üsyanında iştirakı.* |
| ***1771-1781*** | *Cahangirin törəməsi Ablay xanın Orta juzdə hakimiyyət illəri. Çin və çar hakimiyyəti ilə bərabər hüquqlu* |

| | |
|---|---|
| | *münasibətlərin qurulması. Çımkənt, Sayram, Süzək və s. şəhərlərin Qazax xanlığının tərkibinə daxil olması, islahatların keçirilməsi, xanların məhdudiyətsiz hakimliyinin bərpası.* |
| ***1781-1819*** | *Rus ordusunun polkovniki Ablay xan oğlu Uali xanın (Vəli) hakimiyyət illəri. Çokan Ualixanovun babasıdır.* |
| ***1812-1815*** | *Bökey xanın hakimiyyət illəri ( I Aleksandr tərəfindən kiçik Ordanın xanı kimi təyin edilib). Xan hakimiyyətinin Ordada güclənməsi.* |
| ***1824-1845*** | *Bökey Ordasında Cahangir xanın hakimiyyəti. Qazaxstanın Rusiya tərəfindən faktiki işğalı.* |
| ***1841-1847*** | *Ablay xanın nəvəsi Kenesar xanın hər 3 juzün xanı kimi elan olunması. 1837-1847-ci illərdə qazax dövlətinin müstəqilliyi uğrunda aparılan mübarizəyə onun rəhbərlik etməsi.* |

## *Kalmık xanlığının hökmdarları*

| Xanlar və canişinlərin hakimiyyət illəri | |
|---|---|
| ***Dayçın ( Hörlükün oğlu)*** | *1660-cü il* |
| ***Buncuq (Muncuq)(Dayçının oğlu)*** | *(1661) 1664-1670-ci illər* |
| ***Ayükə (Buncuğun oğlu)*** | *(1670) 1690-1724-cü illər* |
| ***Zərən-Döndük (Ayükün oğlu)*** | *(1724) 1725-1735-ci illər* |
| ***Döndük-Ümbə (Zərən-Döndüyün qardaşı oğlu)*** | *(1735) 1737-1741-ci illər* |
| ***Döndük-Daşı (əmisi oğlu)*** | *(1741) 1758-1761-ci illər* |
| ***Ubaşı-xanlığın canişini (Döndük-Daşın oğlu)*** | *1761-1771-ci illər* |

# *Oyrat kalmklar .*

| |
|---|
| *1635-1653 – Huntayji Ərdəni- Batır ( 1653-cü il)* |
| *1653- 1671 – Huntayji Sənqə ( 1671-ci il)* |
| *1671- 1697 - xan Qaldan- Başoğlu (1664- 1697-ci illər)* |
| *1697- 1727 – Huntayji Cavan- Rabdan ( 1663- 1727-ci illər)* |
| *1727- 1746 – Huntayji Qaldan- Sərən ( 1693- 1746-cı illər)* |
| *1746- 1749 – Huntayji Sevan- Lorçi ( 1732- 1749-ci illər )* |
| *1749- 1753 – Huntayji Lama- Corçi ( 1726- 1753-ci illər)* |
| *1753- 1755 – Huntayji Davaçi ( 1759-cu il)* |

| |
|---|
| *Gumaçi, Bulqanın oğlu, Onqudjabın oğlu, Aragan'ın oğlu, Üç Temurun oğlu, Həsənin oğlu, Togon-tayşinin oğlu, Batul Çinsan'ın oğlu, Xudxay Taiyunun oğlu, "Şara tuuji" monqol salnaməsinə görə. Xara Xulataidji rütbəsi ilə Devlet Oyrat Ulusun ilk hökmdarı, 1634-cü ildə vəfat etdi.* |
| *Ərdəni Batur 1634-1638,1638-1660-cı illərdə -Ərdəni Baatur Huntayji rütbəsi ilə hökmdar olur* |
| *Xotoqçin oğlu Şenge, 1630-cu ildə anadan olub, 1660-1671-ci illərdə Setsen Xuntayji rütbəsi ilə Devlet Oyrat ulusunun hökmdarı olub.* |
| *Xotoqçin oğlu Galdan, 1645-ci ildə anadan olub, 1671-1679 Boşoktu Huntayji rütbəsi ilə Devlet Oyrat ulusunun hökmdarı olub.* |
| *Senge oğlu Xotoqçina Rabdan, 1663-cü ildə anadan olmuşdur , 1697-1727-ci illərdə Ərdənə Dzoriktu Huntayji rütbəsi ilə Devlet Oyrat ulusunun hökmdarı olub.* |
| *Tsevan Rabdan oğlu Galdan Tseren, 1727-1746-cı illərdə- Ərdənə Baatur Huntayji rütbəsi ilə Devlet Oyrat ulusunun hökmdarı olub .* |
| *Galdan Tseren oğlu Tsevan Dorji, 1732-cü ildə anadan olmuşdu, 1746-1749-cu illərdə, Aja Namjalu Huntayji rütbəsi ilə Devlet Oyrat ulusunun hökmdarı olub.* |

| |
|---|
| ***Galdan Tserenin oğlu Lama Dorrji, 1749-1753-cü illərdə, Ərdənə Batur Huntayji rütbəsi ilə Dorved Oyrat ulusunun hökmdarı olmuşdur.*** |
| ***Namjil Daşinin oğlu Dabaçi, Tseren Dondukun böyük oğlu, Ərdənə Baturun nəvəsi, 1753-1755-ci illərdə Huntayji rütbəsi ilə Dorved Oyrat ulusunun hökmdarı olmuşdur.*** |

## *Xronoloji cədvəl*
## *Həştərxan xanlığının hökmdarları*
## *(1459-1556 illər)*

***Xronoloji cədvəl Vilyam Vasilyeviç Poxlebkinin Tatar və Rusiyanın kitabına əsasən verilir. 1238-1598-ci illərdə 360 illik münasibətlərlə. 3-cü fəsil (M. "Beynəlxalq Münasibətlər" 2000-ci il). V. V. Poklebkinin məlumatına görə, cədvəl M. H. Səfərqaliyevin (1952) tədqiqatının yoxlanılmış və düzəliş edilmiş məlumatlarına əsasən qurulub. İnternetdə daha da aydın təqdim olunması üçün cədvəldə bir sıra dəyişiklik etməli oldum, bütün məzmunu saxlayaraq. Bir sıra qeydləri özüm tamamlamışam [təxminən. Şişkinin S. P.)***

| Hakimiyyət illəri | Xanlar | Qeydlər |
|---|---|---|
| *1459-1476 –ci illər* | *Mahmud (Səid-Mahmud)* | *Əhmədin qardaşı Kiçi-Məhəmmədin oğludur,Qızıl Ordunun son xanı (Böyük orda).Bundan başqa V. V. Poxlebkinin məlumatına görə, Məhəmməd 1459-1465-ci illərdə böyük Orda xanı olmuşdur.* |
| *1476-1495* | *I Qasım* | |
| *1495-1515* | *Əbdül-Kərim* | |
| *1515-1523* | *Canıbəy* | |
| *1524-1532* | *Hüseyn* | |
| *1532-ci ilin əvvəlləri - 1533* | *II Qasım* | |
| *1533(bir neçə ay)* | *Ağ-Köbək* | |
| *1533(noyabr)-1537* | *Əbdül-Rəhman* | *1-ci dəfə 1533-cü ildə Həştərxanda "Rus Partiyası"adlanan partiya yaranmışdı, partiya Moskva hökuməti tərəfindən ələ keçirilir. 1533-cü ildə Həştərxan xanlığı Moskva dövləti ilə ticarət-ittifaqı və qarşılıqlı yardım haqqında siyasi müqavilə bağladı* |
| *1537-1540* | *Dərviş-Əli* | *1-ci Moskvanın nümayəndəsi* |
| *1540-1550* | *Əbdül-Rəhman* | *2-ci dəfə (V. Poklebkinin sözlərinə görə) 1547-də krımlılar tərəfindən Həştərxanın işğalından sonra Moskvaya qarşı müxalifət siyasətini dəstəkləyən Yamqurçunun Krım müttəfiqi taxta qoyuldu. Bu hadisələrdən sonra krımlıların noğaylılarla qarşılıqlı münasibətləri çətinləşir, sonuncular Moskva istiqamətini qəbul edir. 1548 İldə Noğay səfirliyi Moskvaya dostluq* |

| | | |
|---|---|---|
| | | *haqqında danışmalarla və o dövrdə Moskvada yaşayan keçmiş Həştərxan şahzadəsi Dərviş Əlinin Noğay ulularına sərbəst buraxılması xahişi ilə göndərilir. Noqayların istəyi olduqca başa düşüləndir: onlar öz nümayəndələrini Həştərxan xanı kimi görmək istəyirdilər.* |
| **1549- 1552-cu illər** | *Dərviş – Əli.* | *1549-cu ilin əvvəlində Dərviş Əli Həştərxana sərbəst buraxıldı. Lakin hadisələr ildırım sürəti ilə cərəyan etdi və Dərviş Əli ilə birlikdə Noğay Ordusuna gələn Moskva səfiri düşmənçiliklə qarşılaşdılar. Bu münasibət Krım tərəfdarının mövqeini tutan və Dərviş Əlinin Həştərxan taxtına namizədliyini rədd edən Noğay hökmdarının dəyişməsi ilə əlaqələndirildi.( V.Poxlebkinaya görə,1550-ci ildə Dərviş- Əli Həştərxan hökmdarı olur.)* |
| **1552- 1554-cü illər** | *Yamqurçhi.* | *Krım canişini.* |
| **1554- 1556-ci illər** | *Dərviş- Əli.* | |

***1552-ci ildə Kazan ələ keçirildikdən sonra Həştərxan xanlığının taleyi üçün təhlükə yaranırdı. Əvvəlcədən hazırlanmış plana əsasən, Aşağı Volqa və Xəzər dənizinə yol açılırdı. Moskvanın çəhtlərindən eytiyyat edərək, Krım və Osmanlı imperiyası birləşərək Həştərxandakı hərəkətlərini gücləndirdilər. Güclü bir anti-Moskva koalisiyası yaratmağa çalışılır, Həştərxan taxtını Krım müttəhimi Xan Yamqupçey tutur.***

***1552-ci ilin əvvəlində Yamqurçey Moskva çarını dostluğa və ticarət əlaqələrini inkişaf etdirmək istəyinə inandırmağa çalışdı, lakin bu zəmanətlərdən sonra gələn Moskvadan olan səfir Sevastian Avraamov Həştərxanda həbs edildi və Xəzər dənizinin adalarından birinə bir il sürgün edilir. Salnaməyə görə, Yamqurçeyin bu hərəkəti IV İvanın qəzəbini artırdı və o ordusunu Həştərxana göndərməyə qərar verdi. Çox güman ki, Yamqurçeyin bu hərəkəti Krım-Türk birliyinin təsiri nəticəsində baş verdi və Rusiya ilə müharibə qaçılmaz görünürdü. IV İvanın, 1554-cü ilin yanvarında səfir Mikul Brovtsın vasitəsilə Noğay xanı İsmayıl qardaşına "Həştərxan işi" ilə yazda məşğul olmaq fikri barədə məlumat verdi. Daha əvvəl, 1553-cü ilin oktyabrında IV İvan "Həştərxan işi"ilə Moskvadakı Noğay murzaları ilə danışıqlar apardı. Həştərxanın taleyinin ən yüksək dövlət səviyyəsində müzakirəsi Rusiyanın həmin ərazidə öz təsirini göstərmək istəməsindən xəbər verirdi.***


Nuralı-xan (Kokand) Dusalı-xan
3 həyat yoldaşından 30 oğul
Bökey
Şuqay
3 qızı
Əhmədgəray
Toğım
Dövlətgəray
Hacıgəray
Gülbəy
Həbibullah
Batırxan
Nursultan
Qazixan
Teymurxan
Hakimcan
Həcait
Nəriman
Qabit
Xacəddin
Nəsir
Şiap
Zülpekeş
Məkkun
Zəraf-Aba (aba-böyük bacı)
Orazbəy
Uzaqpay
Maya Xacəddin qızı Şığayeva
Rəbiyə
Şindaş
Ablay
Canpolad
Bağırcan
Mirey
Gülnarə
Liliya
Dövlətgəray
Əbülxəir
Nəcməddin
Məryəm
Canşərik
Alma
Maraq


Hacı Gəray
Aydər
Mənqli Gəray
Nur Dövlət
I Məhməd Gəray
I Səadət Gəray
Mübarək Gəray
I Sahib Gəray
I Qazi Gəray
I İslam Gəray
I Dövlət Gəray
II Qazi Gəray
Mübarək Gəray
II Məhməd Gəray
II İslam Gəray
Toxtamış Gəray
I Salamat Gəray
Canıbəy Gəray
II Səadət Gəray
İnayət
III İslam Gəray
IV Məhməd Gəray
I Bahadır Gəray
Adil Gəray
Kırım Gəray
Mübarək Gəray
Səfa Gəray
III Məhməd Gəray
Dövlət Gəray
II Hacı Gəray
III Səadət Gəray
Murad Gəray
Səlim Gəray
Səfa Gəray
Səadət III Gəray
III Qazi Gəray
II Mənqli Gəray
I Kaplan Gəray
I Səlamət Gəray
Həlim Gəray
II Dövlət Gəray
Maqsud Gəray
Arslan Gəray
II Səlim Gəray
II Fatih Gəray
Əhməd Gəray
Kırım Gəray
IV Dövlət Gəray
II Sahib Gəray
II Bahadur Gəray
II Kaplan Gəray
III Səlim Gəray
Şahin Gəray


QARAQULA TAYŞA
Batır Tayşa
Çukur Tayşa
Baybağış
Çin Tayşa
Çuğun
Bağa Mançı
Haidu Tayzi
Onçonoy Oçolbu Batır
Sənqə
Qaldan
Çeçen
Batır
Dorçi Gürcan Cəb
Qumbu
Darçin
Abağay
Taqan
Buncuk Tayşa
2 qızı
Tsatan Araptan
Solon Araptan
Dauşin Ombo
Duxar Araptan
Sərən Döndük
Səptən Bailzar
Dağba
Dabaca
Qaldan Sərən
Daşi Səptən
Luzan Şunu
Şunu Kaşka
Ərkə Bərəng
Xorxoda Bərəng
4 qızı: Çizəng, Çərin, Zambo, Çuçu
Əcan xan
Lama Cərci
Ögey oğlu (adı məlum deyil)
2 qızı (adları məlum deyil)


Uluq-Məhəmməd
(1438-1446)
Məxmütək
(1446-1466)
Qasım xan
Xəlil
(1466-1467)
İbrahim
(1467-1479)
Abdal-Lətif
(1497-1502)
Məhəmməd – Əmin
(1485-1486, 1487-1496, 1502-1518)
Əli
(1479-1485, 1486-1487)
Abdulla
Mustafa – Əli Qasım xan
Mamık (1496-1497)


Şeyx Əliyar
Şah – Əli
(1519-1521, 1546, 1551-1552)
Can – Əli
(1532-1535)
Mənqli-Gəray
Sahib – Gəray
(1521-1524)
Fateh
Səfa-Gəray
(1524-1532, 1535-1546, 1546-1549)
Yadigar-Məhəmməd
(1552)
Utəməş-Gəray
(1549-1551)


Böyük Moğollar (1526-1707)
Babur
1483-1530 (1526-1530)
Humayun
1508-1556 (1530-1556)
Kamran
Əsgəri
Hindal
Əkbər
1542-1605 (1556-1605)
Hakim
Etimad-ud-dövlə ailəsi ilə aralıq nigahları
Cahangir (Səlim)
1569-1627 (1605-1627)
Murad
Dəniəl
Nur Cahan
Asəf-xan
Şir Əfkun
Xosrov
Pərviz
Şah Cahan
(Hürrəm)
1592-1666
(1627-1658)
Şəhriyar - Ladili Bəyim
Mümtaz
Mahal
Dara Şüküh
Şah Şüyə
Övrəngzeb
1618-1707 (1658-1707)
Murad Bəxş
Süleyman Şüküh
Sipihr Şüküh
Məhəmməd
Sultan
Müəzzəm
Bahadur - şah
Əzəm Əkbər
Kəm Bəxş



**Başqırd yurtası**



**Buxara şəhəri**



**Türkmənistan. Buxara. Xartı**



**Uluq bəy Mədrəsəsi. Tamerlanın nəvəsi Əmir Mirzə-Uluq bəy tərəfindən 823 ildə (hicri təqvimi) inşa etdirilib (1420-ci il)**



**Tuman - Aka (Tamerlanın həyat yoldaşı) qəbrinin ustundə 762-ci ildə (hicri təqvimi) tikilən və namelum qebirlərdə yanaşı 1361-ci ildə inşa olunmuş  məqbərə.**



**Osmanlı Roman ailəsi**



**Xasavyurt şəhəri**



**Yenisey qırğızları XIX əsrin ortalarında**



**Qaraçaylı mübariz Səfər bəy Zan**



**Qaraçayın azadlığı uğrunda mübariz Tanburi Cəmil bəy**



**Şamilin üçüncü naibi Məhəmməd Əmin**



**Kumıklı Əli Qulu xan**



**Avar döyüşçüsü**



**Başqırd döyüşçüsü**



**Sinsyan əsgəri**



**Buxara əsgəri (sarbaz)**



**Talış əsgəri**



**Xakas döyüşçüsü**



**Krım xanlığının bayrağı**



**Krım xanlığının quru qoşunlarının gerbi**



**Kazan xanlığının bayrağı**



Qızıl Orda dövlətinin bayrağı



Xonqoray dövlətinin gerbi




**Yaşıl rənglə "Kumuk çarlığı"**
**və ondan vassal olan ərazilər XV-XVI əsr.**



Saidə Cəfər qızı İsmayılzadə 1997-ci ildə Həsən bəy Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun Tarix fakultəsinə daxil oimuş, 2001-ci ildə həmin fakultəni bakalavr səviyyəsini fərqlənmə diplomu ilə bitirmişdir.

2001-ci ildə Gəncə Dövlət Universitetinin Magistratura Şöbəsinin "Avropa Amerka ölkələrinin yeni və ən yeni tarixi" ixtisasına daxil olmuşdur. 2003-cü ildə magistraturanı fərqlənmə diplomu ilə bitirib, həmin Universitetdə Ümumi tarix kafedrasında müəllim sonra isə baş müəllim kimi işləmiş və elmi fəaliyyətini davam etdirmişdir. Gəncə Dövlət Universitetinin "Ümumi tarix ixtisası" üzrə dissertantı olmuşdur.

2015- ci ildə "Qıpçaqlar Qafqazda" adlı dissertasiya mövzusunu müdafiə etmiş, 2017-ci ildə Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır. 2019-cu ildə Gəncə Dövlət Universitetində Elmlər doktoru proqramı üzrə doktoranturaya dissertant qəbul olunmuşdur. Dissertasiya mövzusu "V-X əsrlərdə Cənub- Şərqi Avropada baş verən etnosiyasi proseslərdə türk xalqlarının rolu"adlanır.

35-dən çox elmi məqalə, proqram, metodik vəsait və dərs vəsaitinin müəllifidir.

"Elm və təhsil" nəşriyyatının direktoru:
Professor Nadir MƏMMƏDLİ

Çapa imzalanmış 16.03.2021
Şərti çap vərəqi 26. Sifariş № 35
Kağız formatı 60x84 1/16. Tiraj 500

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4









